# NUR TƏFSİRİ

## BİRİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحيم


نام کتاب:.................................................تفسیر نور (جلد-1)
مولف:...........................................................محسن قرائتی
مترجم:................................................................حاج آرزو
ناشر:........................................................................ فائز.
تاریخ چاپ:.............................................................1385
نوبت چاپ:.................................................................اول
تیراژ:...................................................................2000

Kitabın adı:..................................Nur təfsiri (birinci cild)
Müəllif:..............................................................Möhsün Qəraəti
Tərcümə edən:.................................................................H. Arzu
Nəşr edən:..........................................................................Faiz
Çap tarixi:........................................................................2006
Çap növbəsi:..................................................................Birinci
Tiraj:................................................................................2000

Әзиз вә диггәтли охучу! Гур`ан тәфсири тәрҹүмәсинин нә дәрәҹәдә әһәмиjjәтли вә инҹә иш олдуғуну анласаг да, нөгсанлардан гача билмәдик. “Һәjj” вә “гәjjум” кими jүзләрҹә мирвари тә`бирини бәсит шәкилдә тәрчүмә етмәк зорунда галдыг. Ҝәләҹәкдә бу илаһи ишдә jардымчы олачағынызы дүшүнүрүк. Бизә үнванлаjачағыныз геjдләр нөвбәти нәшрләрдә нәзәрә алынаҹаг.

*Дуа истәjи илә тәрчүмәчи.*

**RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ**

## *Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!*

## *Ön söz*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də “Dərsi-xaric” oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik “Təfsiri-nümunə”nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. “Təfsiri-nümunə”nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında “Quran dərsləri” adı altında proqramda çalışıram.

“Təfsiri-nümunə” başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə “Təfsiri-nümunə”dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün “Ayineye vəhy” adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun “Dər-rahe həqq” müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *Həmkarlar*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İmtiyazlar*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

Möhsün Qəraəti

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

Rəhman və Rəhim Allahın adı ilə

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;

[1] "Maidə" 13.
[2] "Sad" 29.

5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında “Səqəleyn”dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin “bildirişlər” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

09 Rəbius-sani, 1414
Mehdi Hüseyni Ruhani

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə “Nur təfsirini” diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və “Təfsiri-rahnüma”, “Nüxbətut-təfsir” kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

Möhsün Qəraəti

# *“HƏMD” SURƏSİ*

## *(Ayələrin sayı 7)*

## BİRİNCİ CÜZ

### *“Həmd” surəsinin siması*

Digər bir adı “Fatihətul-kitab” olan “Həmd” surəsinin yeddi ayəsi var. (Səma qatlarının, həftənin günlərinin, Kəbə ətrafında təvaf dövrlərinin, Səfa və Mərvə arasındakı səylərin, şeytana atılan daşların da sayı yeddidir.) Hər bir müsəlmana vacibdir ki, gündəlik (yövmiyyə) namazlarında ən azı on dəfə bu surəni oxusun. Əks təqdirdə, namaz batildir. Hədisdə buyurulur: “Fatihətul-kitabsız namaz yoxdur.”[1]

Cabir ibn Abdullah Ənsarinin həzrət Peyğəmbərdən (s) rəvayətinə görə, bu surə Quranın ən dəyərli surələrindəndir. İbn Abbasın nəql etdiyinə görə “Həmd” surəsi Quranın əsasıdır. Bir hədisdə isə belə nəql olunur: “Əgər bu surəni ölüyə yetmiş dəfə oxusanız və o dirilsə, təəccüb etməyin.”[2]

Surənin “Fatihətul-kitab” adlandırılmasından məlum olur ki, Quranın bütün ayələri Allah rəsulunun zamanında toplanılmış və kitab şəklinə gətirilmişdir. Onun əmri ilə “Həmd” surəsi ilahi kitabın başlanğıcında yerləşdirilmişdir.

“Səqəleyn” hədisində oxuyuruq ki, Peyğəmbər (s) buyurdu: “Mən sizin aranızda iki qiymətli şey qoyuram: Allahın kitabı və Əhli-beytim.”[3] İlahi ayələrin peyğəmbər zamanında Allahın kitabı şəklində toplanması və bu adla müsəlmanlar arasında tanınması yuxarıdakı hədisdən də görünür.

Mübarək “Fatihə” surəsinin ayələrində Allah və Onun sifətlərinə, məad məsələsinə, doğru yolun və bu yolda rəhbərin tanınması Allahın hakimiyyətinin və səltənətinin qəbulu mövzularına işarə olunur. Eləcə də, ilahi övliyaların yolunun davamına məhəbbət və azğınların, qəzəbə düçar olmuşların yolundan imtina izhar olunur.

Quran kimi “Həmd” surəsi də şəfa səbəbidir. Bu surə həm cismani, həm də ruhani xəstəliklərin məlhəmidir. (Əllamə Əmini “Fatihətul-kitab” təfsirində bu barədə xeyli rəvayət nəql etmişdir.)

### *Həmd surəsinin tərbiyəvi dərsləri*

Həmd surəsinin təfsirindən qabaq, ona aid dərs mövzularını müəyyənləşdirib, növbəti söhbətlərimizdə həmin mövzuları şərh edəcəyik:

1. İnsan “həmd” surəsinin tilavətində “Bismillah” deməklə Allahdan başqalarından ümidini kəsir.
2. “Rəbbil aləmin” və “Maliki yəvmiddin” deməklə hiss edir ki, o yaranmışdır, maliki var. Beləcə, eqoistlik və qüruru kənara qoyur.
3. İnsan “Aləmin” sözünü deməklə özü ilə varlıq aləmi arasında rabitə yaradır.
4. “Ər-Rəhmanir-Rəhim” deməklə insan özünü Allahın lütf kölgəsində bilir.
5. “Maliki yəvmiddin” deməklə qəflət və diqqətsizliyi öz gələcəyindən silib atmış olur.
6. “İyyakə nəbudu” deməklə riyakarlıq və şöhrətpərəstlik aradan götürülür.
7. “İyyakə nəstəin” deməklə fövqəl-qüdrətlərdən qorxuya son qoyulur.
8. “Ənəmtə” deyən insan anlayır ki, nemətlər Allahın əlindədir.
9. “İhdina” deməklə haqq və doğru yol istənilir.
10. “Siratəlləzinə ənəmtə ələyhim” deməklə insan haqq yolda olanlara bağlılığını elan edir.

---

[1] “Müstədrək”, c. 4, h. 4365.
[2] “Bihar”, c. 92, s. 257.
[3] “Bihar”, c. 2, s. 100.

11. “Ğəyril məğzubi ələyhim vələzzallin” deməklə batil və batil əhlindən uzaqlıq bildirilir.

## 1. ﴿بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ﴾

**“Rəhman və Rəhim Allahın adı ilə”**

### *Nöqtələr*

◘Dünya xalqları arasında belə bir adət var ki, mühüm və dəyərli işlərə möhtərəm və sevimli böyüklərin adı ilə başlanılsın. Belə bir başlanğıc işin gözəllik, bərəkət, müvəffəqiyyətlə başa çatması səbəbi sayılır. Belələri istər doğru, istərsə də çaşqın etiqadlarına əməl edirlər. Kimi yardım üçün bütlərə və zalım hakimlərə, kimi də Allaha və Onun övliyalarına əl uzadırlar. Yada salaq ki, Xəndək döyüşündə yerə ilk külüncü həzrət peyğəmbər vurdu.[1]

İlahi kitabın müqəddiməsi “Bismillahir-rəhmanir-rəhim”dir. “Bismillah” təkcə Quranın yox, bütün ilahi kitabların başlanğıcında olmuşdur. Bütün peyğəmbərlər öz işlərinə “Bismillah”la başlamışlar. Həzrət Nuhun gəmisi tufan zamanı dəli dalğalar arasına düşdüyü vaxt Nuh öz yoldaşlarına dedi: “Süvar olun, bu gəminin hərəkəti və dayanması Allahın adı ilədir.”[2] Həzrət Süleyman Səba mələkəsini (qadın hakim) imana çağırdığı vaxt öz dəvətnaməsini “bismillahir-rəhmanir-rəhim”lə başladı.[3]

◘Həzrət Əli (ə) buyurmuşdur: “Bismillah” işlərin bərəkət mayası, onu tərk etmək isə müvəffəqiyyətsizlikdir.” Həzrət “bismillah” yazan bir kişiyə deyir: “Onu gözəl yaz.”[4]

◘Bütün işlərdən qabaq “bismillah” demək tapşırılmışdır. Yeməkdən və yatmazdan, yazmaqdan və oxumağa başlamazdan, süvar olmazdan və yola çıxmazdan qabaq “bismillah” demək tövsiyə edilir. Hətta “bismillah” deyilmədən kəsilən heyvanın əti haram sayılır. Belə görünür ki, təkallahçı insanların yeməyi də ilahi rəngdə olmalıdır.

Hədisdə oxuyuruq: “Hətta bir beyt şer yazarkən də “bismillah”ı unutma. Uşağa ilk dəfə “bismillah” öyrədən şəxsin mükafatı haqqında rəvayət nəql olunmuşdur.[5]

**Sual:** Nə üçün bütün işlərdən qabaq “bismillah” demək tapşırılmışdır?

**Cavab:** “Bismillah” müsəlmanlığın simvoludur. Müsəlmanın hər bir işində ilahi rəng olmalıdır. Hər hansı bir müəssisənin istehsal etdiyi bir məhsulun öz nişanı olduğu kimi, müsəlmanlığın da əlaməti var. Bu nişan həm cüzi, həm də külli ola bilər. Məsələn, bir müəssisə istehsal etdiyi bütün qablara böyük-kiçikliyindən asılı olmayaraq nişan vura bilər. Dövlət idarələrinin üstünə sancılmış, dövlət məmurlarının stolu üstünə qoyulmuş, dövlətə aid gəmilərin uca bir nöqtəsində dalğalanan bayraqları da misal göstərmək olar.

**Sual:** “Bismillahir-Rəhmanir-Rəhim” müstəqil ayədirmi?

**Cavab:** Başqa fiqh rəhbərlərindən yüz il qabaq fəaliyyətə başlamış, Allah yolunda şəhadətə çatmış, Quranda paklığı yad edilmiş peyğəmbər Əhli-beytinin (ə) etiqadına görə, “bismillahir-rəhmanir-rəhim” ayəsi Qurana daxil olan müstəqil bir ayədir. Fəxr Razi öz təfsirində “bismillah”ın surə tərkibi olmasına on altı dəlil gətirir. Alusi də belə bir etiqaddadır. Əhmədin “Müsnəd”ində də “bismillah” surə tərkibi sayılmışdır.[6] “Bismillah”ı surədən saymayan və ya onu namazda tərk edənlər etirazla qarşılanmışlar. Hakimin “Mustədrək”ində deyilir: “Bir gün Müaviyə namazda “bismillah” demədi. Xalq ona etiraz edərək dedi: “Ayəni oğurladın, yoxsa yaddan çıxardın?”[7]

Məsum imamlar israr etmişlər ki, namazda “bismillah” ucadan deyilsin. İmam Baqir (ə) namazda “bismillah” deməyənlər haqqında buyurmuşdur: “Quranın ən üstün ayəsini

---

1 “Bihar”, c. 20, s. 218.
2 Bax: “Hud”, 41.
3 Bax: “Nəml”, 30.
4 “Kənzül-ümmal”, h. 29558.
5 “Təfsiri-bürhan”, c. 1, s. 43.
6 “Müsnəd”, c. 3, s. 177; c. 4, s. 85.
7 “Müstədrək”, c. 3, s. 233.

oğurladılar."[1] Beyhəqinin "Sünən"ində bir hədisdə belə deyilir: "Nə üçün bəziləri "bismillah"ı surədən saymırlar?[2]

Şəhid Mütəhhəri həmd surəsinin təfsirində İbn Abbası, Asimi, Kəsayini, İbn Öməri, İbn Zübeyri, Ətaini, Tavusu, Fəxr Razini, Süyutini "bismillah"ı surədən sayanlar kimi tanıtdırır.

"Təfsiri-Qurtəbi"də imam Sadiqdən (ə) belə nəql olunur: "Bismillah" surələrin tacıdır." Yalnız "Bəraət" ("Tövbə") surəsinin başlanğıcında "bismillah" gəlməmişdir. Həzrət Əlinin (ə) buyruğuna əsasən, bunun səbəbi kafirlərdən və müşriklərdən üz döndərməyi əmr edən "Bəraət" surəsi ilə mərhəmət dolu "bismillah" kəlməsinin uyğun gəlməməsidir.[3]

**"Bismillah"ın siması:**

1. "Bismillah" ilahi rəng göstəricisi, tövhid cəhətinin nişanıdır. İmam Riza (ə) buyurmuşdur: "Bismillah" insanın özünə Allah bəndəsi nişanı vurmasıdır."[4]

2. "Bismillah" tövhid rəmzidir. Bu ad əvəzində başqa adın çəkilməsi küfr rəmzi sayılır. "Allah" adını başqa adlarla bir tutmaq isə şirk əlamətidir. Nə Allahın adı ilə yanaşı, nə də Onun adının yerinə başqa ad çəkməyək. Allahın təkcə zatı yox, adı da şəriksizdir. İşə Allah və Məhəmməd (s) adı ilə başlamaq da qadağan olunmuşdur[5].

3. "Bismillah" davam rəmzidir. Çünki Allah boyasında olmayan hər bir şey fanidir.[6]

4. "Bismillah" Allaha eşq və Ona təvvəkkül rəmzidir. Rəhman və Rəhim olan kəsə sevgi göstərək, işimizi Ona təvəkküllə başlayaq. Onun adını çəkmək mərhəmətinin cəlb olunması səbəbidir.

5. "Bismillah" təkəbbürdən uzaqlaşma və ilahi dərgaha acizliyin izharı rəmzidir.

6. "Bismillah" bəndəlik yolunda ilk addımdır.

7. "Bismillah" şeytanın qaçması səbəbidir. Allaha yaxın olan insana şeytan təsirsizdir.

8. "Bismillah" işlərin paklıq və sığortalanma səbəbidir.

9. "Bismillah" Allahın zikridir. Yəni "bismillah" deyən kəs Allahı unutmadığını bəyan edir.

10. "Bismillah" insanın məqsədini açıqlayır. İnsan "bismillah" deməklə izhar edir ki, Pərvərdigara, hədəfim xalq, zalım hakimlər, görüntülər, həvəslər yox, yalnız Sənsən!

11. İmam Riza (ə) buyurmuşdur: "Bismillah" ismi-əzəmə gözün qarası ağına yaxın olduğundan da yaxındır."[7]

## *Bildirişlər*

1. Surənin başlanğıcında "bismillahir-rəhmanir-rəhimin" kəlməsi surədəki mətləblərin haqq və mərhəmət sahibi tərəfindən nazil olmasının rəmzidir.

2. Kitabın "bismillahir-rəhmanir-rəhimlə" başlaması bildirir ki, hidayət, doğru yol yalnız Allaha üz tutmaqla gerçəkləşir.

3. Allah öz bəndələri, bəndələr isə öz məbudları ilə sözə "bismillah"la başlayırlar.

4. Allahın mərhəməti də Onun zatı kimi əbədi və həmişəlikdir.

5. Allahın mərhəmətinin müxtəlif formalarda bəyanı onun israrı nişanəsidir.

6. İlahi kitabın "Rəhman və Rəhim" kəlmələri ilə açılması Quranın ilahi mərhəmət cilvəsinə işarə ola bilər. Necə ki, yaranışın özü və peyğəmbərin göndərilməsi (besət) Allahın lütf və mərhəmət cilvəsidir.

2. ﴿اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعالَمينَ﴾

[1] "Bihar", c. 85, s.20.
[2] "Sünəne-Beyhəqi", c. 2, s. 50.
[3] "Təfsiri-Məcməul-bəyan"; "Təfsiri-Fəxr Razi".
[4] "Təfsiri-Nurus-səqəleyn".
[5] "İsbatul-huda", c. 7, s. 482.
[6] Bax: "Qəsəs", 88.
[7] "Təfsiri-Rahnüma".

**“Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur.”**

◘“Bir şeyin həm sahibi, həm də tərbiyəçisi olan varlıq “Rəbb” adlanır. Varlıq aləminin həqiqi sahibi isə Allahdır. O bu aləmi yaratmış və həmin bu aləmlə bağlı tədbirlərini davam etdirməkdədir. Deməк, bütün varlıq aləmi təkamül yolundadır. O, Allahın müəyyənləşdirdiyi yola hidayət olunur, istiqamətləndirilir.

◘“Həmd” surəsindən əlavə daha dörd surə (“Ənam”, “Kəhf”, “Səba”, “Fatir”) “əlhəmdulillah” cümləsi ilə başlayır. Amma yalnız “həmd” surəsində "əlhəmdulillah" kəlməsindən sonra “rəbbil aləmin” ifadəsi işlədilmişdir.

◘“Həmd” dedikdə mədh və şükür nəzərdə tutulur. İnsan kamillik və gözəllik qarşısında sitayiş edir, başqalarının xidmət və ehsanına görə təşəkkürünü bildirir. Allah-təala öz kamal və camalı, ehsan və nemətləri ilə sitayiş və şükrə daha layiqdir.

◘“Əlhəmdulillah” Allaha ən üstün təşəkkür formasıdır. İstənilən bir yerdə, istənilən bir dildə, istənilən şəkildə kamillik və gözəlliyə sitayiş edən insan əslində həmin kamillik və gözəlliyin mənbəsinə sitayiş edir. Əlbəttə, Allahın əmri ilə, Allah yolunda Onun məxluquna təşəkkür Allaha təşəkkürə zidd deyildir.

◘Allah bütün yaranmışların inkişaf və tərbiyə yolunu müəyyənləşdirmişdir: “Rəbbimiz hər şeyə vücud neməti vermiş və sonra kamal yoluna hidayət etmişdir.”[1] O, bal arısına hansı otlardan şirə çəkməyi, qarışqaya qış üçün azuqə toplamağı öyrətmişdir. İnsan orqanizmi ehtiyac duyduğu qanı yaratmaq istedadına malikdir. Belə bir Allah, əlbəttə ki, həmd-sənaya layiqdir.

◘Allah bütün yaranmışların xaliqidir: “O hər şeyin Rəbbidir.”[2] Göylərdə, yerdə, göylə yer arasında olanların xaliqi Odur: Göylərin, yerin və onların arasında olanların xaliqi Odur.” [3] Həzrət Əli (ə) buyurur: “O, cansızların və canlıların Rəbbidir.” Başqa bir yerdə oxuyuruq: “Yaradan da, idarə edən də odur. O hər şeyin Rəbbidir.”

◘“Aləmin” dedikdə yalnız insanlar nəzərdə tutula bilər. Necə ki, Lutun qövmü həzrət Luta dedi[4]: “Məgər biz sənə xalqla (aləmlə) görüşü qadağan etməmişikmi?” Amma “aləmin” dedikdə bütün varlıq aləmi də nəzərdə tutula bilər. “Aləm” yaranmışlar mənasında, “aləmin” bütün yaranmışlar mənasında işlədilmişdir. Ayədən belə anlaşılır ki, bütün varlıq aləminin bir yaradıcısı var. Cahiliyyət dövründə və bəzi millətlərdə hər bir hadisənin öz Allahının olması etiqadı batil inancdır.

## *Bildirişlər*

1. Bütün sitayişlər Onun üçündür. (“Əlhəmdulillah”)
2. Allah varlığın tərbiyə və inkişafında məcburiyyətə əl atmır. Ona görə də həmd məcburi olmayan işlər üçündür.
3. Bütün varlıq və ondakı tədbirlər gözəldir. Ona görə də həmd gözəllik və yaxşılıq üçündür.
4. Bizim sitayiş dəlilimiz Onun Rəbb olmasıdır. (“əlhəmdulillahi rəbbil-aləmin”)
5. Allahın Öz məxluqları ilə rabitəsi daimi və sıx rabitədir. (Rəssam və memar öz işini görüb gedir. Mürəbbi isə daim nəzarət etməlidir.)
6. Bütün varlıq aləmi bir Allahın tərbiyəsi altındadır. (“Rəbbul-aləmin”)
7. Bütün mövcudlarda inkişaf və tərbiyə istedadı vardır.
8. Allah insanları peyğəmbərlərin göstərişləri ilə (təşrii tərbiyə), digər canlı və cansız aləmi isə bilavasitə (təkvini tərbiyə) tərbiyə edir.

---

[1] “Taha”, 50.
[2] “Ən`am”, 164.
[3] “Şuəra”, 24.
[4] Hicr, 70.

9. Möminlər Quranın başlanğıcında Allah dərgahına üz tutaraq deyirlər: “Əlhəmdu lillahi rəbbil-aləmin.” İşin sonunda behiştdə isə bu şüarı verirlər: “Həmd olsun aləmlərin rəbbi olan Allaha.”[1]

3. ﴾الرَّحْمنِ الرَّحيمِ﴿

**“Bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

“Rəhman” sözü rəhmət və onun genişliyinin mübaliğəli, şiddətli ifadəsidir. Quranda “Rəhman” və “Rəhim” kimi iki sifətin işlədilməsindən aydın olur ki, Allah bütün məxluqata qarşı rəhman, insana və vəzifəli mövcudlara qarşı isə rəhimdir.

Allah rəhməti özü üçün vacib saymışdır: "Rəbbiniz Özü Özünə rəhimli olmağı yazmışdır."[2] Allahın rəhməti, hər şeyi əhatə edir: “Mərhəməti hər şeyi əhatə etmişdir.”[3] Allahın peyğəmbəri də, kitabı da Onun rəhmətindəndir." Səni də (Ya Məhəmməd) aləmlərə ancaq bir rəhmət olaraq göndərdik”.[4] Allahın xəlq etməsi və tərbiyəsi Onun rəhmətinə əsaslanır. Onun cəzası da lütf üzündəndir. Günahların bağışlanması, bəndələrin tövbəsinin qəbul edilməsi, onların eyblərinin örtülməsi, günahları aradan qaldırmaq üçün fürsət verilməsi Allahın rəhmət və mehribanlıq təzahürləridir.

## *Bildirişlər*

1.İlahi tədbir və tərbiyə məhəbbət və rəhmətlə müşayiət olunur. (“Rəbb” sözü ilə yanaşı “Rəhman” sözü işlədilir) “Rəbbul” aləmin, ər-rəhmanir-rəhim”

2. Doğrudan da, təlim rəhm və mehribanlığa ehtiyaclıdır: “Rəhman (rəhimli olan) Quranı öyrətdi.”[5] Tərbiyə və təzkiyə (paklama) da rəhm və mehribanlığa əsaslanmalıdır.

3. Allahın rəhmaniyyəti ona sitayiş dəlilidir.

4. ﴾مالِكِ يَوْمِ الدِّينِ﴿

**“Cəza gününün malikidir.”**

## *Nöqtələr*

◘Allahın malikliyi həqiqidir. Bu malikliyin əhatəsi və səltənəti var. Etibari malikiyyətdə isə gerçək səltənət yoxdur və malikin səltənəti məhduddur.

◘Allah hər şeyə hər zaman həqiqi malik olsa da, Onun malikiyyəti qiyamətdə başqa bir cilvə alır.

–Həmin gün bütün vasitələr və səbəblər gücdən düşür.[6]

---

1 “Yunus”, 10.
2 “Ən`am”, 54.
3 “Ə`raf”, 156.
4 “Ənbiya”, 107.
5 “Ər-rəhman”, 1, 2.
6 “Bəqərə”, 166.

–Bütün yaxınlıq və qohumluq əlaqələri qırılır.[1]
–Var-dövlətdən, övladlardan səmərə olmur.[2]
–Ən yaxın adamlar da faydasız olur.[3]
–Dil üzr istəyə bilmir, düşüncə tədbir tökməkdə aciz olur. Yeganə çıxış yolu həmin gün ixtiyar sahibi olan Allahın lütfüdür.

◘"Din" sözü müxtəlif mənalarda işlədilmişdir:
a) Səmavi qanunlar məcmusu[4]
b) Əməl və itaət[5]
v) Hesab və cəza[6]

◘"Yəvmud-din" sözü Quranda mükafat və cəza günü olan qiyamət gününə işarədir. Quranda oxuyuruq: "Soruşarlar ki, qiyamət günü nə vaxtdır?"[7] Quran bu günü belə tanıtdırır: "Ey peyğəmbər (s), bilmirsənmi din günü hansı gündür? Elə bir gün ki, kimsə kimsənin karına gəlməz. Həmin gün hökm yalnız Allaha məxsusdur."[8]

◘"Maliki yəvmid-din" xəbərdarlıq və qorxutma növüdür. Amma bu cümlə ilə yanaşı "ər-rəhmanir-rəhim" cümləsinin işlədilməsindən aydın olur ki, müjdə və qorxutma yanaşı olmalıdır. Necə ki, digər bir şərif ayədə buyurulur: "Ya Məhəmməd, bəndələrimə xəbər ver ki, Mən həqiqətən bağışlayan və rəhm edənəm. Eyni zamanda əzabım da çox şiddətli bir əzabdır."[9] Digər bir ayədə isə belə buyurulur: "Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi isə böyük olan Allah..."[10]

◘Quranın ilk surəsində Allahın malik (hakim, ixtiyar sahibi) olmasından danışılır: "Maliki yəvmud-din". Quran yenə də həmin məsələyə toxunmaqla başa çatır: "Məlikin-nas, "yəni xalqın maliki, ixtiyar sahibidir.[11]

## *Bildirişlər*

1. Allah müxtəlif baxımlardan ibadətə layiqdir. Biz Ona həmd-səna etməliyik. Onun zatındakı və sifətlərindəki kamilliklərə görə, ehsan və tərbiyəsinə görə, rəhm və lütfünə olan ümid və intizara görə, qüdrət və heybətinə görə ibadət etmək zəruridir.
2. Qiyamət Onun Rəbb olmasının bir parıltısıdır.
3. Qiyamət Allah mərhəmətindən bir cilvədir.

## 5. ﴿اِيَّاكَ نَعْبُدُ وَ اِيَّاكَ نَسْتَعِينُ﴾

**"Yalnız Sənə pərəstiş edir və yalnız Səndən kömək istəyirik."**

## *Nöqtələr*

◘İnsan Allaha bəndəliyi əqlin hökmü ilə qəbul etməlidir. Biz insanlar kamillik aşiqiyik. Bizim tərbiyə və inkişafa ehtiyacımız var. Allah isə bütün kamilliklərin məcmusu, varlıq aləminin Rəbbidir. Əgər mehr-məhəbbətə ehtiyacımız varsa, O, rəhman və rəhimdir. Əgər uzaq gələcəkdən nigaranıqsa, O həmin günün ixtiyar sahibi və malikidir. Bir belə ehtiyacla

---

[1] "Mo`minun", 101.
[2] "Şuəra, 88.
[3] "Mumtəhinə", 3.
[4] "Ali-İmran", 19.
[5] "Zümər", 3.
[6] "Həmd".
[7] "Zariat", 12.
[8] "İnfitar", 18, 19.
[9] "Hicr", 49, 50.
[10] "Ğafir", 3.
[11] "Nas", 2.

başqasına üz tutmaq olarmı?! Ağıl hökm edir ki, yalnız Ona pərəstiş etməli və Ondan kömək istəməliyik. İnsan öz nəfsi istəklərinə, qızıl-gümüşə bəndə olmamalıdır.

Namaz qılan şəxs sanki bütün allahpərəstlərin nümayəndəsi olaraq deyir: "Pərvərdigara, təkcə mən yox, hamımız Sənin lütfünə möhtacıq."

Pərvərdigara! Mənim Səndən başqa bir kəsim yoxdur. "("İyyakə") Sənin isə mənim kimilərin çoxdur. Bütün varlıq aləmi Sənin qulundur." Səmalarda və yerdə nə varsa Sənin bəndən, qulundur."[1]

◘"Nəbudu" cümləsi namazın cəm şəkildə qılınmasına və bütün müsəlmanların qardaş və bir xətdə olmasına işarədir.

◘Mənəvi yüksəliş mərhələləri: Səna, rabitə və ardınca dua. Ona görə də həmd surəsinin başlanğıcı sənadır. Sonrakı ayə rabitəni, daha sonrakı ayə isə duanı önə çəkir.

◘Həqiqi məhbubla söhbət şirin olduğundan "iyyakə" kəlməsi təkrarlanmışdır.

## *Bildirişlər*

1.Əvvəlcə Allaha bəndəlik edib, sonra Ondan istəmək olar: "Nəbudu nəstəin"

2. Başqaları yox, yalnız Allah qarşısında bəndəlik etmək lazımdır: "İyyakə"

3. Təbiətə hakim olan qanunlar möhtərəmdir. Amma Allahın iradəsi hakim, təbiət qanunları isə məhkumdur. (Biz səbəb və vasitələrdən istifadə edirik. Amma bilirik ki, əsl səbəb və vasitələr Allahın əlindədir.) Ona görə də yalnız Allahdan kömək istəyirik: "İyyakə nəstəin"

4. İbadəti insan özü yerinə yetirsə də, bu işdə Allahın köməyinə ehtiyaclıdır: "Və ma kunna linəhtədiyə ləv la ən hədanallah".[2]

5. Ən böyük lütfü Allahdan gördüyümüzdən, Onun qarşısında daha çox əyilirik: "Ər-rəhmanir-rəhim, iyyakə nəbudu"

6. "İyyakə nəbudu" və "iyyakə nəstəin" nə cəbrdir, nə də təfviz. Yəni, söhbət məcburiyyət və özbaşınalıqdan kənar bir haldan gedir. "Nəbudu" cümləsindən məlum olur ki, biz ixtiyar sahibiyik. "Nəstəin" cümləsi isə bizim ehtiyaclı olduğumuzu bildirir. Demək, insan məcbur yox, ehtiyaclıdır.

7. İbadət Allahdan yardım diləmənin müqəddiməsi və vasitəsidir. Əvvəlcə ibadət edib, sonra əl açmaq lazımdır: "İyyakə nəbudu və iyyakə nəstəin"

8. Tövhid və allahpərəstliyə doğru atılan ilk addım Allah və Onun sifətlərinin tanınmasıdır: "Rəbbul-aləmin, ər rəhmanir-rəhim, maliki yəvmiddin, iyyakə nəbudu" kəlmələri insanı Allahın sifətləri ilə tanış edir.

9. Dua və pərəstiş qaydalarından biri budur ki, insan özünü böyük bilməsin və Allah hüzurunda kiçilsin.

10. İbadətin stimullarından biri məada, ölümdən sonrakı həyata diqqətdir.

## 6. ﴿اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ﴾

**"Bizi doğru yola hidayət et."**

## *Nöqtələr*

◘Qurani-məciddə iki növ hidayətdən danışılır:

[1] "Məryəm", 93.
[2] "Ə`raf", 43.

a) Təkvini hidayət; Belə bir hidayət növünə misal olaraq bal arısının hidayətini göstərmək olar. Diqqət edin: arı çiçəklərdən şirəni necə çəkir, necə yuva qurub, bal hazırlayır. Qışda isti ölkələrə köç edən quşları da misal göstərmək olar.[1]

b) Təşrii hidayət; Təşrii hidayətə misal olaraq ilahi peyğəmbərlərin və səmavi kitabların göndərilməsini göstərmək olar.

◘"Sirat"[2] sözü Quranda qırx dəfədən çox işlədilmişdir. Doğru yolun, düşüncə tərzinin seçimi insan şəxsiyyətinin göstəricisidir.

◘İnsanın qarşısında müxtəlif yollar uzanmışdır. O bu yollardan birini seçməlidir: nəfs istəkləri yolu, xalqın razılığını qazanmaq yolu, şeytani vəsvəsələr yolu, zalım hakimlərin yolu, qədimdəkilərin, ata-babaların yolu, Allah və Onun övliyalarının yolu.

Mömin insan Allah və Onun övliyalarının yolunu seçir. Bu yolun o biri yollardan aşağıdakı üstünlükləri vardır:

a) İlahi yol zalım hakimlərin yolunun, xalqın və insanın istəkləri yolunun ziddinə olaraq, sabit və dəyişməzdir.

b) Əgər digər yollar çeşidlidirsə, ilahi yol yeganədir.

v) İlahi yolu gedən insan bu yoldan və məqsəddən arxayındır.

q) Bu yolda uğursuzluq və müvəffəqiyyətsizlik yoxdur.

◘–Doğru yol Allahın yoludur[3].

◘–Doğru yol peyğəmbərlərin yoludur[4].

◘–Doğru yol Allaha bəndəlik yoludur[5].

◘–Doğru yol Allaha təvəkkül yoludur[6].

◘–Doğru yol təkallahlıq və yalnız bir Allahdan yardım istəməkdir.

◘–Doğru yol Allahın kitabıdır[7].

◘–Doğru yol sağlam fitrət yoludur[8].

◘İnsan həm doğru yolun seçimində, həm də bu yola davam etməkdə Allahdan yardım almalıdır. Necə ki, elektrik lampası öz işığını davamlı şəkildə enerji mənbəyindən alır.

◘Hər bir müsəlmanın Allahdan yeganə istəyi doğru yolda olmaqdır. Hətta Allahın rəsulu və məsum imamlar da Allahdan doğru yolda sabitlik diləmişlər.

◘İnsan daim bütün işlərdə, o cümlədən, peşə seçimində, dost seçimində, ixtisas seçimində, həyat yoldaşı seçimində, doğru yolu tanımaqda Allahdan yardım istəməlidir. Çünki insan doğru düşünsə də, əməldə büdrəyə bilər. Ya da əksinə, əməldə səlis hərəkət edən insan əqidədə yanıla bilər. Ona görə də Allahdan hər an doğru yol istəmək zəruridir.

◘Doğru yolun dərəcələri və mərhələləri vardır. Hətta ilahi övliyalar kimi doğru yolda olanlar da bu yolda qalmaq, hidayət nurunu gücləndirmək üçün dua etməlidirlər. "Həmd olsun aləmlərin Rəbbinə, rəhman və rəhimə" deyən insan artıq hidayət mərhələlərindən bəzisini arxada qoymuşdur. Onun istəyi daha üstün hidayət mərhələsidir.

◘Doğru yol Həzrət Əlinin (ə) buyurduğu orta yoldur:

"Sola-sağa meyillənmə azğınlıq, orta yol isə hidayət yoludur."[9]

◘Doğru yol istər əqidə, istərsə də əməldə orta həddi gözləməkdən (etidal), ifrat və təfritdən çəkinməkdən ibarətdir. Kimi əqidədə doğru yoldan çıxır, kimi də əməl və əxlaqda. Bəziləri də bütün işləri Allaha aid edir. Sanki insanın öz taleyində heç bir rolu yoxdur. Bəziləri isə bütün

---

[1] "Taha", 50.
[2] Qiyamətdə cəhənnəmin üstündən salınmış körpünün adıdır.
[3] "Hud", 56.
[4] "Yasin", 3, 4.
[5] "Yasin", 61.
[6] "Ali-İmran", 101.
[7] "Məcməül-bəyan", c. 1, s. 58.
[8] "Təfsiri-Safi", c. 1. s. 86.
[9] "Bihar", c. 87, s. 3.

işlərin öz əlində olduğunu düşünür. Sanki Allahın əlləri bağlanmışdır. Kimi ilahi rəhbərləri adi insan və ya sehrbaz, divanə kimi tanıyır, kimi də onları Allah səviyyəsinə qaldıraraq pərəstiş edir. Kimi məsum imamların, şəhidlərin ziyarətini bidət sayır, kimi də hətta ağaca, daşa təvəssül edib, ip bağlayır. Kimi iqtisadiyyatı əsas sayır, kimi də dünya və onun işlərini faydasız bilir.

Əməldə də belədir. Kimi yeri gəldi-gəlmədi qeyrət nümayiş etdirir, kimi də öz namusunu küçə və bazara çılpaq göndərir. Biri xəsislik edir, digəri səxavətdə həddi aşır. Kimi xalqdan ayrılır, kimi də haqqı xalqa qurban verir.

Bu sayaq rəftar və əməllər doğru yoldan azmaqdır. Allah doğru yol olaraq öz möhkəm dinini tanıtdırır.[1] Rəvayətdə məsum imamların belə buyurduğu nəql olunur: “Doğru yol bizim yolumuzdur.”[2] Yəni doğru yolun görünən və əməli nümunəsi, bu yolda qədəm götürmək üçün lazım olan ideal ilahi rəhbərlərdir. Onlar öz göstərişlərində həyatın bütün məsələlərinə, o cümlədən, iş, əyləncə, təhsil, qidalanma, infaq, tənqid, müharibə, sülh, övlad məhəbbəti kimi məsələlərə münasibətlərini bildirmişlər. Onlar öz göstərişləri ilə bizi etidala, orta həddi közləməyə çağırırlar. Maraqlısı odur ki, iblis də həmin doğru yolda pusqu qurmuşdur.[3]

◘Quran və rəvayətlərdə etidala, orta həddə çağıran, ifrat və təfriti qadağan edən nümunələr çoxdur. Onlardan bəzilərinə nəzər salaq:

–"Yeyin-için, amma israf etməyin".[4]

–“İnfaqda (yoxsullara əl tutmaqda) nə əlini boynunda qıfılla, nə də əlini elə aç ki, özün möhtac olasan.”[5]

–“Möminlər infaqda (əl tutmaqda) nə israfçıdırlar, nə də xəsis. Onlar orta həddi gözləyirlər.”[6]

–“Namazı ucadan və astadan yox, orta səslə qıl.”[7]

–“Valideynə ehsan et.”[8] Amma səni Allahın yolundan ayırdıqları vaxt onlara itaət etmək lazım deyil.”[9]

–“Peyğəmbərin də risaləti ümumidir.”[10] “Həm də öz ailəsini dəvət edir”.[11]

–“İslam həm xaliqlə rabitə vasitəsi olan namazı, həm də xalqla rabitə vasitəsi olan zəkatı tövsiyə edir.”[12]

–“Nə məhəbbətlər sizi haqqa şahidlikdən uzaqlaşdırsın.. Nə də düşmənçiliklər sizi ədalətdən kənarlaşdırsın.”[13]

–Möminlərin həm dəf etməsi, həm də cazibəsi vardır.”[14]

–Həm iman lazımdır, həm də saleh əməl.”[15]

–Allahdan həm göz yaşı, dua, qələbə istəyi... Həm də çətinliklərə səbir və dözüm diləmək lazımdır.[16] Aşura günü həzrət Hüseyn (ə) həm münacat edir, həm də qılınc çalırdı.

–Allah evinin ziyarətçisi Ərəfə günü, Qurban bayramı axşamı dua oxuyur, bayram günü isə qurbangahda qanla tanış olur.

---

[1] “Ən`am”, 161.
[2] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 20.
[3] “Ə`raf”, 16.
[4] “Ə`raf”, 31.
[5] “İsra”, 29.
[6] “Furqan”, 27.
[7] “İsra”, 110.
[8] “Bəqərə”, 83.
[9] “Loğman”, 15
[10] “Məryəm”, 51.
[11] “Məryəm”, 15.
[12] “Bəqərə”, 43.
[13] “Nisa”, 135, “Maidə”, 8.
[14] “Fəth”, 9.
[15] “Bəqərə”, 25.
[16] “Bəqərə”, 250, “Ənfal”, 65.

–İslam malikiyyəti qəbul edir.[1] Amma başqasına zərər vurmağa icazə vermir və onu məhdudlaşdırır.[2]

Bəli, İslam birtərəfli din deyil və bir yönümü götürüb, o biri yönümləri yaddan çıxarmır. İslam bütün işlərdə etidal və orta həddi tövsiyə edir.

## *Bildirişlər*

1. Bütün varlıq aləmi Allahın seçdiyi yolla hərəkətdədir. Pərvərdigara! Bizi öz istədiyin yolda qərar ver. (“İhdinəssiratəl müstəqim”) .

2. Doğru yola hidayət istəyi təkallahçıların ən mühüm istəyidir. (“İyyakə nəbudu...”) .

3. Doğru yolu əldə etmək üçün dua etmək lazımdır. (“İhdinəssiratəl müstəqim”) .

4. Əvvəlcə sitayiş etmək, sonra dua üçün əl açmaq lazımdır. (“Əlhəmdulillahi... İhdina”) .

5. İlahi istəklərin ən üstün nümunəsi doğru yol istəyidir. (“İyyakə nəstəin ihdinəs siratəl müstəqim”) .

**7. ﴿صِراطَ الَّذينَ أَنعَمْتَ عَلَيهِمْ غَيرِ الْمَغضُوبِ عَلَيهِمْ وَ لاَ الضّآلِّينَ﴾**

**(“Pərvərdigara! Bizi) nemətini şamil etdiyin kəslərin yoluna yönəlt, qəzəbinə düçar olanların, azanların yoluna yox!”**

## *Nöqtələr*

◘Ayədə ilahi nemətə çatanların yolu doğru yol kimi tanıtdırılır. Bu zümrəni peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlər təşkil edir.[3] Bu ilahi insanların yoluna diqqət, bu yolu getmək arzusu, insanın bu arzunu özünə təlqin etməsi onu əyri yoldan qoruyur. Sonra Allahdan istənilir ki, Allah öz bəndəsini qəzəbinə düçar olub azanların yolundan qorusun.

Quranın nəql etdiyi kimi, Bəni-İsrail nemətə çatan qövmlərdən idi. Amma naşükürlüyünə və inadkarlığına görə qəzəbə düçar olmuşdu.

◘Quranda insanlar üç qismə bölünür: Hidayət nemətinə çatıb sabitqədəm qalanlar, qəzəbə düçar olanlar və azğınlar.

◘Ayədə nemət dedikdə hidayət neməti nəzərdə tutulur. Çünki əvvəlki ayədə hidayətdən söhbət getmişdir. Bundan əlavə, maddi nemətlər kafirlərin və azğınların da ixtiyarında vardır.

◘Hidayət olmuşlar üçün də təhlükə vardır. Ona görə də daim Allaha dua etmək və qəzəbə gəlmişlərin və azmışların yoluna düşməmək üçün kömək istəmək lazımdır.

## *Quranda “qəzəbə düçar olmuşlar” (“Məğzubin”) kimlərdir?*

Quranda Firon, Qarun, Əbu-Ləhəb kimi fərdlər, Ad, Səmud, Bəni-İsrail kimi qövmlər qəzəbə düçar olmuş kimi tanıtdırılmışdır.[4]

Quranda Bəni-İsrailin yaşayış və inkişaf prosesi bəyan olunmuşdur. Onlar bir zaman başqalarından üstün həyat keçirmişlər.[5] Amma bu üstünlükdən sonra öz əməl və rəftarları səbəbindən Allahın qəzəbinə gəlmişlər.[6] Onların taleyindəki dəyişikliyin səbəbi əməl və rəftarlarındakı dəyişiklik olmuşdur. Yəhudi alimləri Tövratın səmavi göstərişlərini təhrif

---

[1] “Bihar”, c. 2, s. 272.

[2] “Kafi”, c. 5, s. 28.

[3] “Nisa”, 69, “Məryəm”, 59.

[4] “Nisa”, 116, “Fəth”, 6, “Bəqərə”, 61, “Ali-İmran” 110, 112, “Ənfal”, 16, “Bəqərə”, 108, “Nəhl”, 106, “Mumtəinə”, 1.

[5] “Bəqərə”, 47.

[6] “Bəqərə”, 61.

etdilər.[1] Onların tacirləri və sərvətliləri də sələm, haram və dünyapərəstliyə üz tutdular.[2] Xalqın da böyük hissəsi cihad və mübarizə qarşısında dünyapərəstlik və qorxu səbəbindən cəbhəyə getməkdən, müqəddəs əraziyə daxil olmaqdan imtina etdilər.[3] Bu azğınlıqlar səbəbindən Allah onları izzət və fəzilət zirvəsindən zillət və alçaqlıq uçurumuna endirdi.

Biz hər namazımızda Allahdan istəyirik ki, qəzəbə düçar olmuşlar kimi olmayaq. Yəni Quranı təhrif etməkdən, sələm əhli olmaqdan, haqq yolda cihaddan qaçmaqdan, eləcə də, yolumuzu azmaqdan amanda qalaq. Haqqı tərk edib batilə üz tutanlar öz din və imanlarında təfrit və ifrata yol verdilər və ya nəfs istəkləri səbəbindən Allahdan qeyrilərinə itaət etdilər.[4]

İnsan bu surədə peyğəmbərlərə, şəhidlərə, salehlərə və onların yoluna öz eşqini, dostluğunu izhar edir və tarixin qəzəbə düçar olanlarına və azğınlarına arxa çevirir. Bu, təvəlla və təbərranın (Allah yolunda dostluq və düşmənçiliyin) bir nümunəsidir.

**Quranda “azğınlar” (“zallin”):**

Zəlalət sözü Quranda iki yüz dəfəyə yaxın zikr olunmuşdur. Bu, söz bəzən çaşqınlıq (“Maidə, 77), bəzən puçaçıxma (“Zuha”, 7), adətən isə “azğınlıq” mənasında işlədilmişdir.

Quranda bir qrup insanlar azğın kimi tanıtdırılmışdır. Bu zümrəyə imanını küfrə dəyişənləri (“Bəqərə”, 108), müşrikləri (“Nisa”, 116), kafirləri (“Nisa”, 136), üsyankarları (“Əhzab”, 36), kafirləri dost tutan müsəlmanları (“Mümtəhinə”, 1), insanları Allahdan uzaqlaşdıranları, Allaha və onun rəsuluna çətinlik yaradanları, haqqı gizlədənləri, Allahın mərhəmətindən ümidini üzənləri nümunə göstərmək olar.

Quranda bəziləri, “azdıran” kimi tanıtdırılmışdır. Bu zümrəyə İblisi, Fironu, Samirini, pis dostu və azğın rəhbərləri göstərmək olar.

Azğınlar özləri azğınlıq şəraiti yaradır, azdıranlar isə bu şəraitdən bəhrələnirlər. Nəfs istəkləri, bütlər, günahlar, batil vilayətin qəbulu, cəhalət və nadanlıq Quranda azğınlıq səbəbi kimi tanıtdırılır.

### *Bildirişlər*

1. İnsan tərbiyədə nümunəyə, ideala ehtiyaclıdır. Peyğəmbərlər, şəhidlər, siddiqlər, salehlər bəşəriyyət üçün ən gözəl nümunələrdir. (“Siratəlləzinə ənəmtə ələyhim”)
2. Allahdan insana nazil olan hər bir şey nemətdir. Qəzəbi isə biz özümüz ərsəyə gətiririk.
3. Qəzəbə düçar olmuşlara və azğınlara qarşı izhar olunan nifrət azğın hakimlər qarşısında İslam cəmiyyətinin mövqeyini möhkəmləndirir.

## *“BƏQƏRƏ” SURƏSİ*

### *(Surə 2, ayələrin sayı 286)*

﴿بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ﴾

**1. ﴿الم﴾**

**“Əlif, lam, mim”**
**(Quranın əsrarəngiz müqəttəə hərfləri)**

[1] “Nisa”, 46.
[2] “Nisa”, 161.
[3] “Maidə”, 24.
[4] “Maidə”, 77.

## *Nöqtələr*

◘Müqəttəə hərflər haqqında müxtəlif fikirlər söylənilmişdir. O cümlədən:

1. Quran əlifba hərflərindən yaradılmış və hamının ixtiyarına verilmiş bir möcüzədir. Əgər bacarırsınızsa, siz də bu hərflərdən möcüzə yaradın.

2. Bu üç hərf uyğun surənin adıdır.

3. Bu hərflər ilahi ismi-əzəmə işarədir.[1]

4. Bu hərflər bir növ ilahi andlardır.[2]

5. Bu hərflər Allah və Onun peyğəmbəri arasındakı sirlərdəndir.[3] Bəzi rəvayətlərə görə bu rəmzlərdən yalnız Allah xəbərdardır.[4]

Amma birinci baxış həqiqətə daha çox uyğun görünür. Çünki Quranın 114 surəsindən 29-u bu hərflərlə başlayır ki, onun 24-ündən sonra Quran və onun möcüzə olmasından danışılır. Bu surədə də müqəttəə hərflərdən sonra Quranın əzəmətinə işarə olunmuşdur.

"Şura" surəsində də "Ha, mim, əyin, sin, qaf" müqəttəə hərflərindən sonra eyni mövzuya işarə olunur: Yenilməz hikmət və qüdrət sahibi olan Allah sənə və səndən əvvəlkilərə belə vəhy edir. Yəni Allahın vəhyi də həmin hərflərdən istifadə etməklə bildirilir. Quran bu hərflər vasitəsi ilə xalqın ixtiyarına verilir. Allah bu hərflərlə əslində möcüzə olan bir kitab nazil etmişdir. Məgər insan da belə bir kitab hazırlaya bilərmi?!

Bəli, Allah əlifba hərflərindən möcüzə yaratmağa qadirdir. Eləcə də, qadir Allah torpağın köksündən saysız-hesabsız meyvələr, güllər, otlar cücərdir, ən əsası isə, insanı yaradır. Xalqın istedadı isə yalnız kərpic kəsməyə çatır!

2. ﴾ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ﴿

**"Bu bir kitabdır ki, onun haqq olmasına heç şəkk-şübhə yoxdur. O, müttəqilərə, pəhrizkarlara yol göstərir."**

## *Nöqtələr*

◘"La rəybə fihi" , yəni Quranın Allah tərəfindən olmasına şəkk-şübhə yoxdur. Çünki Onun mətləbləri şəkk-şübhəyə heç bir yer qoymur. Yaranan şəklərin səbəbi isə sui-zənn və inadkar ruhiyyədir. Necə ki, Quran buyurur: "Onlar öz yaratdıqları şəkdə avaradırlar."[5]

◘Quranın məqsədi bəşəriyyətin doğru yola yönəldilməsi, hidayətidir. Onlar insanların diqqətini səmalara, yerə, təbiət aləminə, heyvanlara yönəltməklə, öz elmini, qüdrətini və hikmətini onların nəzərinə çatdırır.

◘Quran bütün bəşəriyyətin hidayət vasitəsidir. ("Hudəl-lin nas")[6]. Bəli, Quran günəştək hamının üstünə işıq saçır. Amma yalnız pak fitrətə malik olanlar, həqiqətə boyun əyənlər ondan faydalana bilər. ("Hudəllil müttəqqin".) Bəli, günəş şüası da yalnız saf şüşədən keçir. Ona görə də, günahkarlar, zalımlar, kafirlər, qəlbi ölənlər, israfçılar, təkzibçilər Quranın hidayətindən bəhrələnə bilmirlər.

**Sual:** Ayədə Quran və onun mətləbləri haqqında belə buyurulur: "Onda şəkk yoxdur." Əksinə, Quran özü müxaliflərin şəkk-şübhəsinə toxunur: "(Müxaliflər dedilər:) Biz bizi dəvət etdiyinin haqqında şübhədəyik."[7] "Sad" surəsinin səkkizinci ayəsində vəhy və peyğəmbərliyə

---

[1] "Təfsiri-Nurus-səqəleyn".
[2] "Bihar", c. 88, s. 7.
[3] "Bihar", c. 89, s. 384.
[4] "Təfsiri-məcməül-bəyan".
[5] "Tövbə", 45.
[6] "Bəqərə", 185.
[7] "Hud", 62.

şəkk, “Səba” surəsinin iyirmi birinci ayəsində qiyamət məsələsinə şəkk haqqında danışılır. Bəs necə olur ki, ayədə Qurana qarşı şəkk inkar olunur?

**Cavab:** “Onda şəkk yoxdur” dedikdə, hansısa fərdin şəkkindən yox, Qurana şəkk üçün yer olmadığı nəzərdə tutulur. Əgər bir şəxs şəkk edirsə, bu şəkkin səbəbi onun bəsirət gözünün korluğudur. Necə ki, “Nəml”, surəsinin 66-cı ayəsində buyurulur: “Xeyr, onlar axirətə münasibətdə kordurlar.”

## *Bildirişlər*

1. Quran əzəmət baxımından yetərincə uca məqama malikdir.
2. Quran həzrət Peyğəmbərin (s) həyatı zamanı bir yerə toplanıb, kitab şəklinə gətirilmişdir.
3. Yol göstərən öz dəvət üsulunda və proqramında qəti olmalıdır. (“La rəybə fihi”) cümləsi Quranın qətiliyini və möhkəmliyini göstərir.
4. Quranda müttəqilərin hidayət gücü onun möhkəmliyinin və haqq olmasının ən üstün dəlilidir.
5. Quran xalis, heç bir zəlalətsiz hidayətin mayasıdır.
6. Yalnız pak və müttəqi insanlar Quranın hidayətindən bəhrələnə bilirlər. (“Hudəllil müttəqin” ərəcbə) Qəlb aynası pak olan insan Qurandan daha çox faydalanır.

3. ﴿الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ﴾

**“Müttəqilər o kəslərdir ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz ruzidən infaq edirlər.”**

## *Nöqtələr*

◘Quran varlığı iki qismə bölür: qeyb aləmi (qeyb Allaha, mələklərə, məada və həzrət Mehdiyə (ə) aid edilir) və görünən (şühud) aləm. Müttəqilər (pəhrizkarlar) bütün varlığa inanırlar. Başqaları isə yalnız hiss üzvləri ilə duyduqlarını qəbul edirlər. Hətta onlar Allahı gözlə görmək istəyirlər. Onu görə bilmədiklərindən iman gətirmək istəmirlər. Necə ki, bəziləri həzrət Musaya dedilər: “Biz Allahı aşkar görməyincə sənə iman gətirmərik.”[1]

Beləələri qiyamət haqqında deyirlər: “Bizim yaşadığımız bu dünyadan savayı bir dünya yoxdur. Ölürük, dirilirik. Bizi fəna edən bu dövrandır.”[2]

Belə fərdlər heyvanlıq səviyyəsindən qalxmamışlar və yalnız hiss üzvlərini tanıma yolu bilirlər. Onlar hər şeyi hiss üzvləri vasitəsi ilə dərk etmək istəyirlər.

◘Müttəqilər qeyb aləminə inanırlar və qəbul edirlər ki, qeyb aləmi bu aləmdən daha üstün və genişdir. İmanın dərinliyində eşq, bağlılıq, təzim, şükür gizlənmişdir. Elmin isə belə səciyyələri yoxdur.

## *Bildirişlər*

1. İman əməldən ayrı deyil. Qeybə imanla yanaşı, möminlərin əməli vəzifələri sadalanır. (“Yuminun... yuqimun.. yunfiqun”)
2. İlahi dünyagörüşün əsas prinsipi varlığı yalnız hiss üzvlərinə aid etməməkdir. (“Yuminunə bil-ğəyb”)
3. İmandan sonra ən mühüm əməl namaz və infaqdır. Allaha doğru hərəkətdə olan ilahi cəmiyyətdə ruhi və mənəvi problemlər namaz vasitəsi ilə öz həllini tapır. İqtisadi çətinliklər və bu çətinlikdən yaranan müşküllər infaq vasitəsi ilə aradan qaldırılır.
4. Namaz fasiləli yox, ardıcıl yerinə yetirilməlidir. (“Yuqimunəs-səlat”)

---

[1] “Bəqərə”, 55.
[2] “Casiyə”, 24.

5. İnfaqda da orta həddi gözləmək lazımdır. (“Mimma rəzəqnahum”) Söhbət verilmiş ruzinin bir hissəsinin infaq olunmasından gedir.

6. Allahın əta etdiyi hər şeydən – elmdən, hörmətdən, sərvətdən, gücdən başqalarına infaq edək. İmam Sadiq (ə) buyurur: “Onlara öyrətdiyimizi cəmiyyətdə yayarlar.”[1]

7. İnfaq halal maldan olmalıdır. Çünki Allah hər kəsin ruzisini halaldan müəyyənləşdirmişdir.

8. İnfaq etməklə lovğalanmayaq. Əgər bütün nemətlərin Allah tərəfindən olduğuna inansaq, həmin nemətlərin bir hissəsini asanlıqla infaq edərik.

4. ﴿وَالَّذِينَ يُؤْمِنُونَ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ وَبِالآخِرَةِ هُمْ يُوقِنُونَ﴾

**“Onlar sənə və səndən qabaq nazil olanlara imanlıdırlar, həm də axirətə yəqinlikləri var.”**

## *Nöqtələr*

İnsanın tanıma mexanizmi hiss və ağılla məhdudlaşmır. Vəhy də tanıma yollarından biridir və müttəqilər ona iman gətirmişlər. Rəhbərsiz insan yol seçimində tərəddüddə qalır. Peyğəmbərlər onların əlindən tutur və məntiq, möcüzə, öz əməli yolları ilə həqiqi səadətə doğru istiqamətləndirirlər.

Bu və bundan əvvəlki iki ayədən məlum olur ki, Allah qarşısında xüşu (namaz), gələcəyə ümid Allahın böyük mükafatlarındandır və təqva nişanələridir.

## *Bildirişlər*

1. Peyğəmbərlər və bütün səmavi kitablara iman zəruridir. Çünki, onların hədəfi birdir.
2. Gerçək təqva axirətə yəqinsizliklə əldə olunmur. (“Bil-axirətihum yuqinun”)
3. Bütün kitablardan öncə Qurana ehtiram zəruridir.
4. İslam Peyğəmbəri (s) son ilahi peyğəmbərdir. “Səndən qabaqkılara nazil olana” ifadəsi həzrət Peyğəmbərin (s) son peyğəmbər olduğunu göstərir.

5. ﴿أُوْلَئِكَ عَلَى هُدًى مِّن رَّبِّهِمْ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**“Yalnız onlar öz Rəbbi tərəfindən doğru yoldadırlar. Nicat tapanlar da onlardır.”**

## *Nöqtələr*

◘Qeybə iman gətirmiş, namaz, infaq, yəqin əhli olan təqva sahiblərinin mükafatı doğru yol və qurtuluşdur. Doğru yol səadətin ən uca qülləsidir. Çünki Allah varlığı bəşər üçün, bəşəri ibadət üçün, ibadəti təqvaya çatmaq üçün, təqvanı isə doğru yol və qurtuluş üçün yaratmışdır.[2]

◘Quranda nicat tapmışların aşağıdakı xüsusiyyətləri sadalanır:

a) Cəmiyyətdəki fəsadlara münasibətdə islahla məşğul olanlar;

b) Yaxşılığı əmr, pisliyi qadağan (əmr be məruf və nəhy əz münkər) edənlər;

q) Həzrət peyğəmbərə imandan əlavə, onu himayə edənlər;

v) Xəsislikdən uzaq olanlar[3];

d) Qiyamətdə savab yükü ağır olanlar[4];

Qurtuluş zəhmətsiz əldə edilmir. Onun şərtləri vardır. Quranda aşağıdakı qeydlər edilmişdir:

---

[1] “Bihar”, c. 2, s. 17.
[2] “Maidə”, 100.
[3] “Həşr”, 9.
[4] “Ə`raf”, 8.

–Qurtuluş üçün paklanmaq lazımdır.[1]
–Qurtuluş üçün cihad lazımdır.[2]
– Qurtuluş üçün namazda xüşu (mütilik), boş işlərdən çəkinmək, zəkat ödəmək, paklıq, iffət, əmanətdarlıq, əhdə vəfa, namazda davamiyyət zəruridir.

## *Bildirişlər*

1. Həqiqi möminlər üçün Allahın xüsusi hidayəti nəzərdə tutulmuşdur.
2. İman və təqva insanı qurtuluşa çatdırır.

6. ﴿إِنَّ الَّذِينَ كَفَرُواْ سَوَاءٌ عَلَيْهِمْ أَأَنذَرْتَهُمْ أَمْ لَمْ تُنذِرْهُمْ لاَ يُؤْمِنُونَ﴾

**“Küfr edənlər üçün onları qorxutmağının və ya qorxutmamağının fərqi yoxdur. Onlar iman gətirməyəcəklər.”**

## *Nöqtələr*

◘Quran müttəqilərdən sonra kafirləri tanıtdırır. Bu zümrə azğınlıqda, haqqı ört-basdır etməkdə o qədər ciddidir ki, ilahi ayələri qəbul etmək istəmir. “Küfr” sözü örtmək mənasındadır. Əkinçi toxumu, gecə fəzanı örtdüyü üçün onlara da "kafir" deyirlər. Dində isə "kafir" dedikdə ilahi həqiqətləri və ayələri örtənlər nəzərdə tutulur. İnadkar kafirlərdən bir qrupu peyğəmbərlərin dəvəti qarşısında belə dedilər: “Bizə sənin moizə və nəsihətlərinin əsəri yoxdur. Sənin nəsihət verib-verməməyinin bizim üçün fərqi yoxdur.”[3]
◘Əgər münasib şərait olmazsa, peyğəmbərlərin dəvəti təsirsiz qalar. Yağışın təsirindən münbit torpaqda lalə, şoranlıqda tikan bitir.

## *Bildirişlər*

1. İnadkarlıq, cahilanə təəssüb insanı cansız cismə döndərir.
2. Kafirlərin təbliğ yolu qorxutmaqdır. Əgər qorxutmaq və xəbərdarlıq insana təsir etmirsə, müjdə və vədə də təsirsiz olasıdır.
3. Bütün xalqın iman gətirməsi intizarında olmayın.[4]

7. ﴿خَتَمَ اللّهُ عَلَى قُلُوبِهمْ وَعَلَى سَمْعِهِمْ وَعَلَى أَبْصَارِهِمْ غِشَاوَةٌ وَلَهُمْ عَذَابٌ عظِيمٌ﴾

**“Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərinin qarşısında pərdə vardır. Onları böyük bir əzab gözləyir.”**

## *Nöqtələr*

◘Allah kafirlərin inadkarlığı müqabilində onların qəlbinə bədbəxtlik möhürü vurur. Quranda oxuyuruq: “Allah təkəbbürlü və zalım fərdlərin qəlbini möhürləyir.”[5] Başqa bir ayədə oxuyuruq: “Allah bilərəkdən nəfs istəkləri ardınca gedənlərin qəlbini möhürləyər.”[6] Bəli, ilahi möhür insanın öz pis seçiminin nəticəsidir. Qəlbin möhürlənməsini Allah tərəfindən səbəbsiz bir cəza kimi qəbul etmək olmaz.
◘Quran “qəlb” dedikdə ruh və dərketmə mərkəzini nəzərdə tutur. Bu ilahi kitabda üç növ qəlb haqqında danışılır:

---
[1] “Şəms”, 9.
[2] “Maidə”, 35.
[3] “Şüəra”, 136.
[4] “Yusuf”, 103.
[5] “Mu`min”, 35.
[6] “Casiyə” 23.

Sağlam qəlb, “münib” qəlb və xəstə qəlb.

**Sağlam qəlbin xüsusiyyətləri:**

a) Allahdan qeyrisinə yer verilməmiş qəlb[1];

b) Haqq rəhbər ardınca gedən, günahdan tövbə etmiş, haqqa təslim olmuş qəlb[2];

q) Dünya sevgisinə bulaşmamış qəlb[3];

v) Allah zikri ilə aramlıq tapan qəlb[4];

d) Allah uğrunda xaşe, müti qəlb[5];

Möminin qəlbi həm Allahın zikri ilə aramlıq tapır, həm də Onun qəhrindən qorxur[6]. Möminin halı valideynini görüb aramlıq tapan, həm də onunla hesablaşan körpənin halına bənzəyir.

**Xəstə qəlbin xüsusiyyətləri:**

a) Allahdan qəflətdə qalıb hidayətə layiq olmayan qəlb[7];

b) Fitnə-fəsad ardınca gəzən qəlb[8];

q) Daşlaşmış qəlb[9];

v) Rəngini dəyişmiş qəlb[10];

d) Möhürlənmiş qəlb[11];

**“Münib” qəlbin xüsusiyyətləri:**

Öz səhvlərini anladıqdan sonra tövbə edib Allaha doğru qayıdan insanın qəlbi “munib” qəlb adlanır. İnsanın rəftar və danışığındakı dəyişikliklər bu qəlbin bariz xüsusiyyətlərindəndir.

◘Allah Quranda kafirlərin doqquz sifətini bəyan etmişdir: inkar[12], təəssüb[13], çaşqınlıq[14], bərklik, daşlıq[15], ölüm[16], pas[17], xəstəlik[18], darlıq[19], möhür[20].

◘Belə insanın qəlbi dəyişkəndir. Ona görə də möminlər belə dua edirlər: “Pərvərdigara! Qəlblərimizi hidayət etdikdən sonra çaşqınlığa düçar etmə.” İmam Sadiq (ə) buyurmuşdur: “Bu ayəni tez-tez təkrarlayıb, özünüzü azğınlıqlardan amanda saxlayın.”[21]

## *Bildirişlər*

1. Allahın ən böyük cəzası insanın həqiqətləri dərk edə bilməməsidir. (“Xətəməllahu əla qulubihim”)
2. Küfr və mülhidlik qəlb və qulaqların möhürlənməsi səbəbidir.
3. Küfr səbəbindən insanın ən üstün imtiyazı olan haqqın və gerçəkliyin dərki qabiliyyəti ondan alınır.

---

1 Nurus-səqəleyn”, c. 4. s. 57.
2 “Nəhcül-bəlağə”, x. 214.
3 “Təfsiri-safi”.
4 “Fəth”, 4.
5 “Hədid”, 16.
6 “Ənfal”, 2.
7 “Kəhf”, 28.
8 “Ali-İmran”, 7.
9 “Maidə”, 13.
10 “Mutəffifin”, 14.
11 “Nisa”, 155.
12 “Nəhl”, 22.
13 “Fəth”, 26.
14 “Tövbə”, 127.
15 “Zümər”, 22.
16 “Rum”, 52.
17 “Mütəffifin”, 14.
18 “Bəqərə”, 14.
19 “Ən`am”, 125.
20 “Nisa”, 155.
21 “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 319.

4. Allahın cəzası bizim əməllərimizə münasibdir. Haqqı bilərəkdən gizlədən insanın cəzası onun gözünə, qulağına, ruhuna və düşüncəsinə pərdə çəkilməsidir. Əslində insan özü özünü bədbəxt edir. İmam Riza (ə) buyurmuşdur: "Qəlblərin möhürlənməsi onların küfrlərinin nəticəsidir."[1]

8. ﴿وَمِنَ النَّاسِ مَن يَقُولُ آمَنَّا بِاللّهِ وَبِالْيَوْمِ الآخِرِ وَمَا هُم بِمُؤْمِنِينَ﴾

**"Xalqın arasında belə deyən bir dəstə var: "Allaha və qiyamət gününə iman gətirmişik." Halbuki onlar iman gətirməmişlər."**

## *Nöqtələr*

◘Bu surənin başlanğıcında möminlər dörd, kafirlər isə iki ayə ilə tanıtdırılır. Bu və bundan sonrakı on üç ayədə münafiq adlanan üçüncü qrup haqqında da danışılır. Onlarda nə birinci dəstənin imanı, nə də ikinci dəstənin küfr cürəti var. Münafiq, yuvasına iki yol qoyan səhra siçovuluna bənzəyir. Həmin siçovul yollardan birini get-gəl üçün açıq qoyur, digərini təhlükəli məqamlar üçün ehtiyata saxlayır. Bu siçovulun yuvasından açdığı məxfi dəliyə, "nafiqa" deyilir. "Münafiq" sözü də həmin "nafiqa" sözündən alınmışdır[2].

◘Nifaqın olduqca geniş mənası vardır. Sözü ilə əməli uyğun gəlməyən hər bir insanın nifaqdan payı var. Hədisdə oxuyuruq: "Əgər əmanətə xəyanət etsək, yalan danışsaq, vədimizə əməl etməsək, münafiqik. Hətta namaz qılıb oruc tutsaq da!"[3] Nifaq bir növ əməli və etiqadi yalandır. Riyakarlıq da nifaqın bir növüdür.[4]

## *Bildirişlər*

1. İman qəlbə aid bir məfhumdur və onun insanın izharı ilə əlaqəsi yoxdur.
2. İmanın əsasını Allah və axirətə inam təşkil edir.
3. Allah insanın batinindən xəbərdardır.

9. ﴿يُخَادِعُونَ اللّهَ وَالَّذِينَ آمَنُوا وَمَا يَخْدَعُونَ إِلاَّ أَنفُسَهُم وَمَا يَشْعُرُونَ﴾

**"Münafiqlər elə güman edirlər ki, Allahı və möminləri aldadırlar. Halbuki yalnız özlərini aldadırlar və bunu da anlamırlar.**

## *Nöqtələr*

◘"Şüur" "şər" (شعر) kökündəndir və "tük" mənasını daşıyır. Dəqiq, tükü-tükdən seçən insan dərrakə və şüur əhlidir. Bəli, münafiq elə güman edir ki, başqalarını aldadır. Çünki onun düzgün dərrakəsi yoxdur. ("La yəşurun")

◘Münafiqlərin hiylə və məkri dedikdə, onların Allah hökmlərini və ilahi dini oyuncağa çevirməsi və ya Allahın rəsulunu aldatmaq istəkləri nəzərdə tutulur. Belə ki, Allahın rəsuluna itaət və beyət Allaha itaət və beyətdir.[5] Allahın rəsuluna qarşı hiylə Allaha qarşı hiylə sayıldığından, dinlə bu sayaq məsxərəbazlıq insanın özünü aldatmasıdır. Təsəvvür edin ki, xəstə, həkimin yazdığı dərmanları qəbul etmədiyi halda "qəbul etdim" deyir. Belə bir xəstə həkimi aldatdığını düşünür. Əslində isə onun həkimi aldatması özünü aldatmasıdır.

---

1 "Təfsiri-Nurus-səqəleyn", c. 2, s. 27.
2 "Səfinətül-bihar", c. 2. s. 605.
3 "Səfinətül-bihar", c. 2, s. 605.
4 "Təfsiri-nümunə".
5 "Nisa", 80.

◘Münafiq İslamla necə rəftar edirsə, İslam da münafiqlə elə rəftar edir. O, İslamı zahirən qəbul etdiyi kimi, İslam da onu zahirən müsəlman sayır. O qəlbən kafir olduğundan Allah onu qiyamətdə kafirlərlə birlikdə məhşur edir.

◘Həzrət Peyğəmbərdən (s) nəql olunmuş bir rəvayətdə oxuyuruq: "Riyakarlıq Allaha qarşı hiylədir."[1]

◘Quran bildirir ki, insanın yaxşı və pis əməlləri onun özünə qayıdır. Necə ki, uyğun ayədə buyurulur: " Dinə qarşı hiylə, Allaha qarşı yox, insanın özünə qarşı hiylədir." Başqa bir yerdə isə belə buyurulur: "Əgər yaxşılıq etsəniz, özünüzə etmişsiniz, əgər pislik etsəniz, yenə özünüzə etmisiniz."[2] Digər bir yerdə isə belə buyurulur: "Bəd hiylə yalnız onu quraşdıranı bürüyər."[3]

## *Bildirişlər*

1. Hiyləgərlik nifaq nişanəsidir.

2. Münafiq daim kiməsə zərbə vurmaq fikrindədir. Ayədə işlədilmiş "xüdə" خدعه sözü zərbə vurmaq məqsədi ilə bir işi gizlədib, başqa birini izhar etməkdir.[4] 3. Hiylənin zərbəsi hiylə sahibinə qayıdır.

4. Münafiq şüursuzdur. O anlamır. Bütün iç sirlərdən xəbərdar olan Allahla hesablaşasıdır. Həmin Allah qiyamət günü onun işlərinin üstündəki pərdəni qaldırasıdır.[5] 5. Xüdə və hiylə ağıl və şüur əlaməti deyil. Rəvayətdə buyurulur ki, həqiqi ağıl vasitəsi ilə insan Allaha bəndəlik edir.

10. ﴿فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً وَلَهُم عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ﴾

**"Münafiqlərin qəlbində xəstəlik vardır. Allah onların xəstəliyini daha da artırar. Onlar yalan danışdıqları üçün şiddətli əzaba düçar olacaqlar."**

## *Nöqtələr*

◘Bəzən xəstəlik bədənə aid olur. Məsələn, "Bəqərə", surəsinin 185-ci ayəsində xəstələrin orucluq hökmləri bəyan olunur. Bəzən isə xəstəlik ruha aid olur. Haqqında danışdığımız ayədə ruhun nifaq xəstəliyinə işarə edilir.

◘Münafiq gölməçəyə düşmüş üfunətli leşə bənzəyir. Hövzədə su artdıqca bu leşin fəsadı daha da artır, üfunət qoxusu daha da çoxalır. Nifaq insanın ruhunda yer tutduqda o, Allah tərəfindən nazil olmuş ayə və hökmlərin qarşısında təslim olmaq əvəzinə riyakarlığa əl atır və öz nifaqını artırır. Xəstə ruh bütün əməl və rəftarları riyakarlığa, nifaqa yoluxdurur. Bu, xəstəliyin güclənməsi nişanəsidir.

◘"Allah onların xəstəliyini artırır" cülməsi nifrin də ola bilər. Yəni artıq xəstələnmiş qəlbdə xəstəlik daha da gücləndirilir.

---

[1] "Təfsiri-Nurus-səqəleyn".
[2] "İsra", 7.
[3] "Fatir", 43.
[4]"Təfsiri-Rahnüma".
[5] "Tariq", 9.

## *Bildirişlər*

1. Nifaq ruhi xəstəlik, münafiq isə xəstədir. Xəstə sağlam və ya ölü olmadığı kimi, münafiq də nə mömindir, nə də kafir.

2. İnsanın mahiyyəti onun qəlbindən və ruhundan ibarətdir. Qəlb bütünlüklə insan deməkdir. Çünki ruh və qəlb çaşdıqda bu çaşqınlığın əsərləri sözdə və əməldə bilinir.[1]

3. Nifaq xərçəng xəstəliyi kimi arta bilər. Quranda elm, hidayət və iman kimi bəyənilmiş sifətlər də arta bilən xüsusiyyətlər kimi tanıtdırılır.

4. Özünü yüksəldən də, süquta uğradan da insan özüdür.

5. Yalançılıq münafiqlərin məşhur usullarındandır.

11. ﴿وَإِذَا قِيلَ لَهُمْ لاَ تُفْسِدُواْ فِي الأَرْضِ قَالُواْ إِنَّمَا نَحْنُ مُصْلِحُونَ﴾

**“Onlara deyiləndə ki, yer üzündə fəsad törətməyin, deyirlər: “Həqiqətən, biz islah edənlərik.”**

## *Bildirişlər*

1. Münafiqlər nəsihət qəbul etməsələr də, onlarla danışıb, nəhy və münkər etmək daha yaxşıdır.

2. Nifaq fəsad amilidir.

3. Münafiq öz çoxüzlüyünü xalqa diqqət və islahatçılıq kimi qəbul edir.

4. Münafiq yalnız özünü islah edən kimi tanıyır. Çox ağır ruhi xəstəliyə malik olan bir adam özünü sağlam saya bilər.

5. Münafiq özünü çəkməklə xalqı alçaltmaq və pis işlərini ört-basdır etmək istəyir.

12. ﴿أَلا إِنَّهُمْ هُمُ الْمُفْسِدُونَ وَلَكِن لاَّ يَشْعُرُونَ﴾

**“Agah olun! Şübhəsiz ki, onlar fəsad əhlidirlər. Amma anlamırlar.”**

## *Nöqtələr*

◘Quran ayələrini icmali şəkildə nəzərdən keçirdikdə görürük ki, nifaq münafiq şəxsin ruhunda, rəftar və əməllərində çirkinlik yaradır. Nifaq insanı dünya və axirətdə müşkülə salır. Quran münafiqləri belə təfsir edir:

–Onlar həqiqi şüurdan məhrum olurlar[2];

–Onlar düşünüb dərk edə bilmirlər[3];

–Onlar heyrət və məəttəlçiliyə düçar olurlar.[4];

–Onlar toxuduqları yalanlar səbəbindən öz küfrlərində möhkəmlənir və hidayət olmurlar.[5]

–Qəlbən inanmadıqlarından qorxu və iztirab, eləcə də, dərdli əzab içində olurlar. [6]

## *Bildirişlər*

1. Müsəlmanlar münafiqlərin hiylələri və zahirdə gözəl görünən şüarlarından xəbərdar olmalıdırlar.

2. Münafiqin məğrur halda yuxarıdan getməsi və xəyalpərvazlığı sındırılmalıdır.

---

[1] “Təfsiri-Rahnüma”

[2] “Bəqərə”, 12; “Bəqərə”, 13.

[3] “Tövbə”, 87; “Bəqərə”, 13.

[4] “Bəqərə”, 15; “Bəqərə”, 17.

[5] “Ən`am”, 70; “Bəqərə”, 16.

[6] “Bəqərə”, 19.

3. Münafiqlər daim fəsad halındadırlar.
4. Əgər haqq yolda zirəklik yoxdursa, bu, şüursuzluqdur.

13. ﴿وَإِذَا قِيلَ لَهُمْ آمِنُواْ كَمَا آمَنَ النَّاسُ قَالُواْ أَنُؤْمِنُ كَمَا آمَنَ السُّفَهَاء أَلا إِنَّهُمْ هُمُ السُّفَهَاء وَلَكِن لاَّ يَعْلَمُونَ﴾

**“Onlara deyiləndə ki, başqaları iman gətirdikləri kimi siz də iman gətirin, “biz də səfehlər kimi iman gətirəkmi?” deyə cavab verirlər. Bilin ki, onların özləri səfehdir, amma bunu bilmirlər.”**

## *Bildirişlər*

1. Allah övliyalarının təbliğ və dəvəti münafiqlərə təsirsizdir.
2. Münafiqlərdə imtiyaz və üstünlük istəyi var.
3. Möminləri təhqir etmək münafiqlərin üsullarındandır. Onlar elə düşünürlər ki, iman gətirib Allaha təslim olmaq ağılsızlıq nişanəsidir.
4. Müsəlmanlar ayıq olmalı və onların yalanlarına aldanmamalıdırlar.
5. Quran dilində haqqa təslim olmamaq səfehlikdir.
6. Münafiqin təkəbbürlü qüruru sındırılmalı və ona eyni şəkildə cavab verilməlidir.
7. Münafiqin yalan çöhrəsinin ifşası İslam cəmiyyəti üçün zəruridir.
8. Dərdlərin ən pisi həmin dərddən xəbərsizlikdir.

14. ﴿وَإِذَا لَقُواْ الَّذِينَ آمَنُواْ قَالُواْ آمَنَّا وَإِذَا خَلَوْاْ إِلَى شَيَاطِينِهِمْ قَالُواْ إِنَّا مَعَكْمْ إِنَّمَا نَحْنُ مُسْتَهْزِؤُونَ﴾

**“Onlar iman əhli ilə rastlaşdıqda deyirlər: “Biz də iman gətirmişik.” Amma öz şeytan sifətləri ilə xəlvətə çəkildikdə deyərlər: “Biz sizinləyik, biz yalnız iman əhlini məsxərə edirik.”**

## *Nöqtələr*

¤“Şeytan” “şətən” sözündən olub, xeyirdən uzaqlaşmış deməkdir. Azğınlıq kimə təlqin olunursa, bu söz ona da aiddir. Çirkin əməlli, haqdan uzaq olan insanlara da bu ad verilir.[1]

## *Bildirişlər*

1. Münafiq çörəyi günün məzənnəsi ilə yeyir. (Yəni, kiminlə xəlvətə çəkildisə, ona xoş gəlmək istəyir.
2. Hər “iman gətirdim” sözünə etimad göstərmək olmaz.
3. Münafiqlərdə sədaqət cəsarəti yoxdur. Onlar möminlərdən qorxur və çəkinirlər. Münafiqlər möminlərlə aşkar görüşür, küfr başçıları ilə isə xəlvətdə bir araya gəlirlər.
4. Münafiqlərin dostları da şeytansifətlərdir.
5. Kafirlərlə münafiqlər arasında iş birliyi vardır. Münafiqlər kafirlərdən göstəriş alırlar.
6. Münafiqin imanını izhar etməsi müvəqqətidir. Onun küfrü isə davamlı və sabitdir.
7. Münafiqlər kafirlərlə yalnız həmfikir deyillər, onlar bir-birlərinə kömək də edirlər. Ayənin mətnindəki “məə” sözü həmfikirlikdən əlavə, həmkarlığın da olduğunu bildirir.
8. Münafiqlər möminlərə istehza edirlər.

[1] “Müfrədate-rağib”.

15. ﴿اللّهُ يَسْتَهْزِئُ بِهِمْ وَيَمُدُّهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ﴾

**“Allah da onlara istehza edər və o qədər möhlət verər ki, öz zəlalətləri içində avara qalsınlar.”**

## *Nöqtələr*

◘“Yəməhun” sözü “əmə” sözündəndir. “Əma” isə “əmə” sözündən fərqlənir. “Əma” zahiri kora, “əmə” isə batini kora deyilir.[1]

◘İmam Riza (ə) bu ayənin təfsirində buyurur: “Allah məkr, hiylə və istehza əhli deyil. O, sadəcə, məkr və istehzaların cəzasını verir.”[2] Allah münafiqləri öz tüğyanları içində özbaşına buraxır ki, qərq olsunlar. Qəlbin daşlaşmasından, şeytanın qələbəsindən, onun vəsvəsələrindən, günaha meyldən, ibadətə rəğbətsizlikdən, pis adamlarla yoldaşlıqdan, dünyaya baş qatmaqdan, haqdan qəflətdə qalmaqdan ağır cəza nə ola bilər?! Münafiqlər isə bütün bu cəzalara düçar olasıdırlar.

◘Münafiqlər ikili rəftar edirlər. Ona görə onlarla da ikili rəftar ediləcək. Onlar dünyada müsəlman, axirətdə isə kafir hökmündə olacaqlar.

## *Bildirişlər*

1. Allahın cəzaları günahlara uyğun olur.
2. Münafiqlərin hiylələri möminlərə yox, Allaha qarşı yönəlmişdir. Onlar möminlərə məsxərə edir, cavablarını isə Allahdan alırlar.
3. İstehzaya cavab olaraq istehzanın eybi yoxdur. Necə ki, təkəbbür qarşısında təkəbbür göstərmək olar.
4. Allahın möhlət verməsi və çox bağışlaması insanı qürrələndirməməlidir.
5. İtaətsizlik və tüğyan məəttəlçiliyə, çaşqınlığa şərait yaradır.

16. ﴿أُوْلَئِكَ الَّذِينَ اشْتَرُوُاْ الضَّلاَلَةَ بِالْهُدَى فَمَا رَبِحَت تِّجَارَتُهُمْ وَمَا كَانُواْ مُهْتَدِينَ﴾

**“Onlar doğru yol qiymətinə əyri yolu satın almış kəslərdir. Amma bu alış-verişin onlara faydası olmadı və doğru yolu tapmışlar sırasına qatılmadılar.”**

## *Nöqtələr*

◘Münafiqlər hidayət sahibi olmamışlar ki, onu əldən çıxarsınlar. Ayədə nəzərdə tutula bilər ki, münafiqlər hidayət üçün fitri şəraiti və başqa amilləri əldən vermişlər. Digər bir ayədə oxuyuruq: “Bir dəstə imanı verib əvəzində küfrü satın aldılar.”[3]

Başqa bir ayədə isə belə buyurulur: “Axirəti dünya həyatına satdılar.”[4] Digər bir ayədə isə belə oxuyuruq: “Onlar bağışlanma əvəzinə əzabı satın aldılar.”[5] Yəni onlar iman, mükafat və bağışlanma istedadını öz əməlləri ilə puça çıxardılar.

Axırda ilahi nur oda döndü,
Haqpərəst bir fitrət Nəmruda döndü.

## *Bildirişlər*

1. Münafiq öz xeyir-zərərini bilmir. Ona görə də hidayəti zəlalətə satır.
2. İnsan azaddır və seçim ixtiyarına malikdir. Çünki müamilə, iradə və seçimə ehtiyaclıdır.

---

1 “Təfsiri-Kəffaş”.
2 “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 30.
3 “Ali-İmran”, 177.
4 “Bəqərə”, 86.
5 “Bəqərə”, 175.

3. Dünya bazar, xalq isə alıcı və satıcı kimidir. Alınıb satılan isə əməllərimiz və seçimlərimizdir. ("Əştərəu... fəma rəbihət ticarətuhum")

4. Möminin aqibəti hidayət, münafiqin aqibəti isə azğınlıqdır. ("Əla hudən min rəbbihim... ma kanu muhtədin")

5. Münafiqlər öz məqsədlərinə bir yol tapa bilmirlər. ("Ma kanu muhtədin"), (Növbəti ayələrə diqqət yetirməklə).

17. ﴿مَثَلُهُمْ كَمَثَلِ الَّذِي اسْتَوْقَدَ نَاراً فَلَمَّا أَضَاءتْ مَا حَوْلَهُ ذَهَبَ اللّهُ بِنُورِهِمْ وَتَرَكَهُمْ فِي ظُلُمَاتٍ لاَّ يُبْصِرُونَ﴾

**"Onların halı od alışdırmış şəxslərin halına bənzər. Od öz ətrafını işıqlandırdığı zaman Allah onların işığını alar və onları heç nə görmədikləri zülmətdə buraxar."**

## *Nöqtələr*

◘Bir məsələni xalqa anlatmaq üçün misalların mühüm rolu var. Misallar, haqqında danışılan məsələni aydınlaşdırır və bu vasitə ilə yol yaxın və ümumi olur. Misal əminlik dərəcəsini qaldırır və inadkarları yerində oturdur. Quranda xeyli misallar çəkilmişdir. O cümlədən:

Haqq suya, batil isə su üzərindəki qabarcığa bənzədilir[1]. Haqq pak, batil isə çirkin ağaca bənzədilir.[2] Kafirlərin əməlləri bərk külək qarşısında külə oxşadılır.[3] Bəzən də kafirlərin əməlləri ilğıma oxşadılır.[4] Bütlər və zalım hakimlər hörümçək yuvasına (toruna) oxşadılır.[5] Əməlsiz alimlər kitab daşıyan ulağa oxşadılır.[6] Qeybət ölmüş qardaşın ətini yemək kimi təqdim olunur.[7]

◘İmam Riza (ə) buyurmuşdur: ("Tərəkəhum fi zulumat") ayəsinin mənası budur ki, Allah onları özbaşına buraxır".[8]

## *Bildirişlər*

1. Münafiq nura çatmaq üçün oddan istifadə edir. Odun isə külü, tüstüsü və yandırıcı xüsusiyyəti də var. ("Nstəvqədə narən")

2. İslam nuru aləmi əhatə edir. Bu nurun kölgəsində münafiqlərin İslam adı altında göstərmək istədikləri nur isə zəif və davamsızdır. ("Əzaət ma həvləhu")

3. İslam nur, küfr isə qaranlıqdır.("Zəhəbəllahu bi nurihim və tərəkəhum fi zulumat")

4. Bir nurdan bəhrələnməyən insan müxtəlif zülmətlərdə qalasıdır. ("Binurihim... fi zulumat") ("Nur" sözü tək, "zulumat" sözü isə cəm haldadır.)

5. Münafiqlərin planları və qurğuları Allahın iradəsi ilə yarımçıq qalır. ("Zəhəbəllahu binurihim")

6. Münafiqlərin müqabil tərəfi Allahdır. ("Zəhəbəllahu binurihim")

---

1 "Rə`d", 17.
2 "İbrahim", 26.
3 "İbrahim", 18.
4 "Nur", 39.
5 "Ənkəbut", 41.
6 "Cümə", 5.
7 "Hucurat", 12.
8 "Təfsiri-Nurus-səqəleyn".

7. Münafiqlərin aqibəti və gələcəyi qaranlıqdır. (“Fi zulumat”)
8. Münafiqlər qorxu və iztiraba düçar halda uzun müddətli qərarlarında dolaşmışlar. (“Fi zulumatin la yubsirun”)
9. Bəzən başlanğıcda iman həqiqi olur. Amma insan zaman ötdükcə çaşqınlığa meyl edir və münafiqə çevrilir. (“Nurihim” sözündən görünür ki, onların nuru olmuş, amma həmin nura tərəf dönməmişlər.”)

18. ﴿صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لاَ يَرْجِعُونَ﴾

**“Onlar (haqqı eşitməkdə) kar, (haqqı deməkdə) lal və (haqqı görməkdə) kordurlar. Buna görə də (haqqa doğru) geri dönməzlər.”**

## *Nöqtələr*

◘Quran bəzi peyğəmbərlərin sitayişində buyurur: “Onların əli və gözü vardır.”[1] Məqsəd bu ola bilər ki, yalnız bütsındıran əli olanın əli, Allahı görən gözü olanın gözü var. Belə əli və gözü olmayan münafiqlər şikəst kimidirlər və bu şikəstliyə özləri səbəbkar olmuş və tanıma vasitələrini əldən vermişlər. Ona görə də münafiqlər haqqında “dərk etmirlər”, “bilmirlər”, “görmürlər”, “eşitmirlər”, “geri dönmürlər” kimi təbirlər işlədilmişdir.

◘Baxmaq bəsirət demək deyil. Quranda oxuyuruq: “Görürsən ki, sənə baxırlar. Halbuki görmürlər”,[2] çünki onların haqqı görmək üçün bəsirət gözləri yoxdur.

◘Tanıma imkanlarından və vasitələrindən istifadədən məhrumluq süqut və insanlığın itirilməsinə bərabərdir.[3]

◘Dünyada özünü korluğa, karlığa və lallığa qoyanın cəzası axirət korluğu, axirət karlığı və axirət lallığıdır.[4]

## *Bildirişlər*

1. Nifaq səciyyəsi insanı həqiqətləri və ilahi maarifləri dərk etməkdən saxlayır. (“Summun bukmun umyun”)
2. Allahın nemətlərindən haqq yolda istifadə etməyən kəs, bu nemətlərdən məhrum olmuş kəs kimidir.
3. Münafiqlərin haqqı görməməsinin iki səbəbi var: onları əhatə edən fəza qaranlıq ola bilər (“fi zulumat”) və ya bəsirət gözlərini əldən vermiş olarlar (“summun bukmun umyun”)
4. Münafiqlər inadkar və təəssübkeşdirlər. (“Fəhum la yərciun”)

19. ﴿أَوْ كَصَيِّبٍ مِّنَ السَّمَاء فِيهِ ظُلُمَاتٌ وَرَعْدٌ وَبَرْقٌ يَجْعَلُونَ أَصْابِعَهُمْ فِي آذَانِهِم مِّنَ الصَّوَاعِقِ حَذَرَ الْمَوْتِ واللّهُ مُحِيطٌ بِالْكافِرِينَ﴾

**“Ya da qaranlıqlarda göy gurultusu olan və şimşəkli səmadan şiddətli yağan yağışa düşmüş şəxslərə bənzərlər. İldırım və ölüm qorxusundan barmaqlarını qulaqlarına tutarlar. Amma kafirlər Allahın əhatəsindədirlər.”**

## *Nöqtələr*

◘Allah münafiqi yağışa düşmüş, şiddətli yağışın, gecə qaranlığının, ildırımın qulaqbatırıcı səsinin, şimşəyin gözqamaşdırıcı nurunun, ölüm qorxusunun əhatə etdiyi şəxsə bənzədir.

---

[1] “Sad”, 45.
[2] “Ə`raf”, 198.
[3] “Ə`raf”, 179.
[4] “İsra”, 97.

Amma bu şəxsin nə yağışdan qorunmaq üçün sığınacağı, nə qaranlıqda bir işığı, nə şimşəkdən asudə qulağı, nə də ölümdən rahat ruhu var.

## *Bildirişlər*

1. Münafiqlər müşkül və nigarançılıqlara qərq olmuşlar. Elə bu dünyada belə qəm-qüssə, iztirab, rüsvayçılıq və zillət onları rahat buraxmır. (“Zulumatun və rədun və bərqun ()

2. Münafiqlər ölümdən qorxurlar. (“Həzərəl-movt”)

3. Münafiqlər bilsinlər ki, Allah onları əhatə etmişdir. Allah istədiyi vaxt onların sirrini və qurğularını ifşa edir. (“Vəllahu muhitun bil kafirin”)

İslam inqilabı zamanı münafiqlərin əməllərinə və aqibətlərinə baxış bu ayənin aydın göstəricilərindəndir. Pərişanlıq, təfriqə, məğlubiyyət, avaralıq, qürbət, abırsızlıq, kafirlərə sığınma, casusluq onların əməllərinin nəticələrindəndir. Onlar dini şüarlar və şəxsiyyətlərdən istifadə etməklə qələbə qazanacaqlarını düşünürdülər. Amma Allah onların qurğularını puça çıxarmaqla, xalqı onların pis niyyətindən xəbərdar etməklə onların başını özlərinə qatdı...)

4. Nifaq nəhayətdə küfrlə sonuclanır. (“Vallahu muhitun bil kafirin”) “Nisa” surəsinin 140-cı ayəsində bu məsələyə bir daha işarə olunur.

20. ﴿يَكَادُ الْبَرْقُ يَخْطَفُ أَبْصَارَهُمْ كُلَّمَا أَضَاء لَهُم مَّشَوْاْ فِيهِ وَإِذَا أَظْلَمَ عَلَيْهِمْ قَامُواْ وَلَوْ شَاء اللّهُ لَذَهَبَ بِسَمْعِهِمْ وَأَبْصَارِهِمْ إِنَّ اللَّه عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Az qalır şimşək onların gözünün nurunu alsın. Şimşək parladıqda yeriyir, qaranlıq düşən kimi dayanıb dururlar. Əgər Allah istəsəydi, onların eşitmə və görməsini alardı. Həqiqətən, Allah hər şeyə qadirdir.”**

## *Nöqtələr*

◘Münafiqlərdə nurani dəlilləri və ilahi ayənin şöləsini görməyə güc yoxdur. Onlar biyabanda ildırımın işığından gözü qamaşan və yalnız bir neçə addım ata bilən müsafir kimidirlər. Münafiqlər İslam cəmiyyətində bir neçə addım ata bilsələr də, hansısa hadisələr səbəbindən yenidən dayanırlar. Onlar öz daxili fitrət çıraqlarını söndürmüşlər və xarici güclərdən nur intizarındadırlar.

◘“Allah hər şeyə qadirdir” dedikdə mümkün işlər nəzərdə tutulur. Məsələn, bir şəxsin riyazi biliyini tərif ediriksə, bu o demək deyildir ki, o, ikinin üstünə iki gələndə beş ala bilər. Belə bir nəticə qeyri-mümkündür. İkini ikiyə əlavə etdikdə beş ala bilməməsi riyaziyyatçının qüdrətsizliyi deyil. Bəziləri imamdan soruşdular: “Allah yer kürəsini yumurtanın içində yerləşdirə bilərmi?” İmam əvvəlcə onlara qənaətbəxş bir cavab verərək bildirir ki, gözün giləsi ilə əzəmətli səmanı görürük. Sonra həzrət buyurur: “Allah qadirdir. Amma sizin təklifiniz qeyri-mümkündür.[1] Qeyri-mümkün bir məsələni həll etməyən riyaziyyatçının qüdrəti bu istiqamətdə münasib misaldır.

**Quranda münafiqlərin siması:**

Münafiqin əqidə və əməldə, rəftar və danışıqda hərəkət üsulu bu surədə və “Münafiqun”, “Əhzab”, “Tövbə”, “Nisa”, “Məhəmməd” surələrində bəyan olunmuşdur. Burada qeyd etmək yerinə düşər ki, münafiqlərin daxilən imanları yoxdur. Sadəcə, onlar özlərini ağıllı sayırlar. Öz həmfikirləri ilə xəlvətə çəkilib pıçıldaşır, namazlarını süstlüklə qılır, sədəqə verəndə ikrahla verirlər. Onlar möminlərdə eyib axtarır, peyğəmbərə əziyyət verirdilər. Cəbhədən qaçır, Allahı yada salmırdılar. Onlar pis danışan, riyakar, şayiəçi, kafirlərlə dostluğa maraqlı fərdlər. Onları eyş-işrət şad edir, məhrumiyyət qəzəbləndirir. Onlar Allahla əhdlərinə vəfasızdırlar, möminlərə çatan xeyirdən nigaran olurlar. Müsəlmanlara çətinlik üz verdikdə onlar sevinirlər. Pisliyi əmr

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 39.

edir, yaxşılığa qadağa qoyurlar. Onların bütün bu etiqadi və əməli azğınlıqlarına "Nisa" surəsinin 145-ci ayəsində münasibət bildirilir: "Əlbəttə, münafiqlərin yeri cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan."

## *Bildirişlər*

1. Münafiq, öz hərəkət yolunda tərəddüddədir. ("Əzaə ləhum məşəv, əzləmə ələyhim qamu")

2. Münafiq başqalarının nuru işığında hərəkət edir. ("Əzaə ləhum")

3. Münafiq yol verdiyi əməllərə görə hər an Allahın qəzəbinə düçar ola bilər. ("Və lov şaəllahu ləzəhəbə bisəmihim")

4. Hamıya azadlıq vermək Allahın qaydasıdır. Əks-təqdirdə, Allah münafiqləri kar və kor edərdi.

21. ﴿يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**"Ey insanlar, sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, təqva əhlindən olasınız."**

## *Nöqtələr*

◘Qanun kitablarındakı maddələr xitabsız bəyan olunur. Amma Quran xalqın ruhu və mənəviyyatı ilə bağlı qanun kitabıdır. Ona görə də o öz göstərişlərini xitabla bəyan edir. Qurandakı xitablar müxtəlifdir. (Bəzən "Ey xalq", bəzən "Ey iman gətirənlər" kimi müraciətlərlə rastlaşırıq.)

◘Dünyanın və insanın yaradılmasında məqsəd insanın təkamülüdür. Yəni, varlıq aləminin yaradılmasında məqsəd insanın bəhrələnməsidir.[1] İnsanın təkamülü onun ibadətindən asılıdır.[2] İbadətin əsəri təqvaya çatmaq[3], təqvanın nəhayəti qurtuluşdur.[4]

**Sual:** Nə üçün Allaha ibadət edək?

**Cavab:** Quranın bir neçə yerində bu sual belə cavablandırılmışdır:

–Çünki Allah sizin xaliqiniz və tərbiyəçinizdir. ("Ubudu Rəbbəkumulləzi xələqəkum")

–Çünki sizin ruzinizi və əmniyyətinizi təmin edən Odur.[5]

–Çünki Ondan başqa məbud yoxdur.[6]

◘İnsanın ibadəti Yaradanın yox, insanın yaranış hədəfidir. Onun bizim ibadətimizə ehtiyacı yoxdur. Əgər bütün yer əhli kafir olsa da, Ona zərər dəyməz. Necə ki, evin üzünün günəşə və ya arxasının günəşə tikilməsinin günəş üçün fərqi yoxdur.

◘Allah bizim xaliqimiz, ruzi verənimiz və mürəbbimiz olduğundan Ona ibadət etmək vacib olsa da, yenə bu vəzifəni yerinə yetirdiyimiz üçün Allah bizə mükafat verir. Bu Onun çox böyük lütfüdür.

**◘İnsanı ibadətə vadar edən növbəti işlərdir:**

1. Bizim xaliqimiz, ruzi verənimiz və tərbiyəçimiz olan Allahın nemətlərinə diqqət;
2. İnsanın öz fəqirlik və ehtiyacına diqqəti;
3. İbadətin təsir və bərəkətinə diqqət;
4. İbadəti tərk etməyin pis təsirlərinə diqqət;

---

[1] "Casiyə", 13.
[2] "Zariyat", 56.
[3] "Bəqərə", 21.
[4] "Bəqərə", 189.
[5] "Qüreyş", 3, 4.
[6] "Taha", 14.

5. İnsan diqqət etməlidir ki, bütün varlıq aləmi Ona müti olub təsbih etdiyi halda, nə üçün o, varlıq aləmindən fərqlənməlidir?!;

6. İnsan diqqət etməlidir ki, eşq və pərəstiş onun ruhundadır. Sevilməyə ondan layiqlisi varmı?!

**Sual:** Quranda buyurmuşdur: "İbadət et ki, yəqinə çatasan." Məgər yəqin mərhələsinə çatan insan namazı tərk etməlidirmi?!

**Cavab:** Əgər deyilirsə ki, hündür bir budağa çatmaq üçün ayaq altına nərdivan qoyulmalıdır, bu o demək deyil ki, həmin şaxəyə çatdıqdan sonra nərdivan götürülməlidir. Bu halda insan hündürlükdən yerə yuvarlanar. İbadətdən ayrılan insan göydən yerə süqut edən kəsə bənzəyir. Bundan əlavə, həzrət peyğəmbər və məsum imamlar kimi yəqin məqamına çatan insanlar bir an belə olsun ibadətdən ayrılmamışlar. Demək, ayənin məqsədi ibadət üçün məhdudiyyət təyin etmək yox, onun əsərlərini bildirməkdir.

◘Ayə və rəvayətlərdə ibadət şivələri və onun şəraitləri bəyan olunmuşdur. Yeri çatanda bu barədə danışacağıq. Amma bu ayə Allahın insana xitabən ilkin fərmanı olduğundan onun necəliyini aydınlaşdırmaq üçün başlıqlar bəyan edirik:

1. Məmuranə ibadət, yəni xurafata yol vermədən Onun göstərişləri əsasında.
2. Agahanə ibadət, yəni bilək ki, kimə üz tutmuşuq və məbudumuz kimdir?[1]
3. Xalisanə ibadət[2].
4. Xaşeanə (müticəsinə) ibadət[3].
5. Məxfiyanə ibadət. Həzrət peyğəmbər məxfi ibadətin üstünlüyünü qeyd etmişdir.[4]
6. Aşiqanə ibadət. Həzrət peyğəmbər eşqlə yerinə yetirilən ibadətin fəzilətini qeyd etmişdir.[5]

Bir sözlə, ibadətin üç şərti vardır:

a) Təharət və qiblə kimi düzgünlük şərti;

b) Təqva kimi qəbul şərti;

v) Agahlıq, mütilik, məxfilik, eşq kimi kamal şərtləri. (Daha ətraflı məlumat almaq üçün müəllifin "Əsrare-namaz" və "Təfsiri-namaz" kitablarına müraciət edin.)

## *Bildirişlər*

1. Peyğəmbərin (s) dəvəti ümumidir və bütün xalqı əhatə edir. ("Ya əyyuhənnas")
2. İbadətin fəlsəfəsi nemət sahibinə şükür etməkdir. ("Əbudu rəbbəkumulləzi xələqəkum")
3. İlk nemət yaranış, ilk göstəriş xaliq qarşısında əyilməkdir. ("Ubudu Rəbbəkumulləzi xələqəkum")
4. Məbada ata-babalarımızın bütpərəstliyi və azğınlığı bizi Allaha ibadətdən uzaqlaşdıra. ("Vəlləzinə min qəblikum")
5. İbadət təqva amilidir. Təqva yaratmayan ibadət ibadət deyil. ("Ubudu... ləəlləkum təttəqun")
6. Öz ibadətinizlə qürrələnməyin. Hər ibadət təqva yaratmır. ("Ləəlləkum təttəqun")

22. ﴿الَّذِي جَعَلَ لَكُمُ الأَرْضَ فِرَاشاً وَالسَّمَاء بِنَاء وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقاً لَّكُمْ فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ﴾

**"O Allah ki, sizin üçün yer üzünü döşənəcək, göyü isə tavan qərar verdi. Göydən su endirdi və onun vasitəsi ilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. Belə isə Allahın oxşarı olmadığını bildiyiniz halda Ona şərik qoşmayın.**

[1] "Nisa", 43.
[2] "Kəhf", 110.
[3] "Mu`minun", 2.
[4] "Bihar", c. 70, s. 251.
[5] "Bihar", c. 70, s. 253.

## *Nöqtələr*

◘Bu ayədə Allah müxtəlif nemətlərə işarə etmişdir. Bu nemətlərin hər biri müxtəlif nemətlər üçün mənbədir. Məsələn, yerin döşənəcək olması bir çox digər nemətlərə işarədir. Eləcə də, dağların bərkliyi, biyabandakı torpaqların yumşaqlığı, yerlə günəş arasındakı məsafə, havanın istiliyi, çaylar, dərələr, dağlar, otlar və onların müxtəlif hərəkətləri yeri döşənəcək kimi hazırlamışdır. Necə ki, Quranda yer haqqında bir neçə təbir işlədilmişdir. Yer beşik ("məhd"), ram ("zəlul") kimi yad edilmişdir.[1]

◘"Səma" sözü ayədə bir yerdə bütün yuxarı fəzaya işarə oluraq "ərz" sözü qarşısında işlədilmişdir. Bir dəfə isə həmin sözlə yağışın buludlardan endiyi fəzaya işarə olunur.

## *Bildirişlər*

1. İlahi nemətlərin xatırladılması ibadətə dəvətin ən üstün yollarındandır. ("Ubudu Rəbbəkum... əlləzi cəələ ləkum")
2. Allahşünaslığın ən üstün yollarından biri imkan çatan nemətlərdən istifadə etməkdir. ("Cəələ ləkumul-ərzə firaşən vəs-səmaə binaən")
3. Yaranış nizamında kamil bir uyğunluq müşahidə olunur. Necə ki, yer, səma, yağış, bitki örtüyü, meyvələr və insan arasında uyğunluqlar var. ("Nəzm dəlili") ("Cəələ, ənzələ, əxrəcə")
4. Bütün yaranmışlar hansısa məqsədlə xəlq olunmuşlar. ("Rizqən ləkum") Yağış meyvələrin inkişafı və səmərəsi üçün ("fəəxrəcə bihi"), meyvələr insana ruzi üçündür. ("Rizqən ləkum")
5. Torpaq və yağış bir vasitədir. Otların və meyvələrin cücərməsi Allahın əlindədir. ("Fəəxrəcə")
6. Yaranış aləmindəki nəzm və uyğunluq tövhid nişanəsidir. Siz də təkallahçı olun: ("Fəla təcəlu lillahi əndadən")
7. Bütün xalqın fitrət və vicdanında allahpərəstliyin kökü vardır. ("Və əntum tələmun")
8. Yerin, səmanın, yağışın, meyvələrin, insanın ruzisinin yaranışı Allahın xaliqliyindən (Rübubiyyət) bir görünüşdür. ("Ubudu Rəbbəkum. əlləzi cəələ ləkum...)
9. Bütün insanların yer üzündə bəhrələnmək və istifadə haqları var. (Ayədə "ləkum" təkrarlanmışdır)
10. İbadətin vacib olma dəlili yeri, səmanı, yağışı, otları sizin üçün ruzi yaratmış Allahın lütfüdür. ("Ubudu Rəbbəkum.. əlləzi cəələ ləkum...")
11. Allah təbiət vasitələrinə hakimdir. ("Cəələ, ənzələ, əxrəcə")
12. Allahın şəriki olduğunu güman etmək cəhalətdəndir. ("La təcəlu lillahi əndadən və əntum tələmun")

23. ﴿وَإِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَادْعُواْ شُهَدَاءكُم مِّن دُونِ اللّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ﴾

**"Əgər bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və əgər sizin iddianız doğrudursa, Allahdan başqa bütün şahidlərinizi bu işdə köməyə çağırın."**

## *Nöqtələr*

◘Bu ayə Quranın möcüzə olduğunu göstərir. Peyğəmbərlərin dəvəti Allaha doğru hidayətdir. Onlar bu işi dəlillərlə, moizələrlə, yaxşı tərzdə mübahisələrlə yerinə yetirirlər. Onların iddiası yalnız budur ki, Allah tərəfindən xalqın hidayəti üçün gəlmişlər. Bu məqsədlə

[1] "Taha", 53; "Mulk", 15.

möcüzə də gətirirlər. Demək, möcüzə peyğəmbərlərin dəvətinin yox, iddialarının isbatı üçündür. (Bilməliyik ki, möcüzə varlıq aləmindəki qanunlardan kənar bir iş deyil. Onun da səbəbi var. Sadəcə, bu səbəb ya Allahın iradəsidir, ya da xalq üçün məxfi qalmış bir səbəbdir.)

◘Allah Quranda İslam müxaliflərini dəfələrlə mübarizəyə dəvət etmişdir. Onlara xitabən buyurulur ki, əgər bu kitabın Allah tərəfindən gəldiyini qəbul etmirlərsə, bütün bu müharibələr və mübarizələr əvəzinə Quran kimi bir kitab hazırlayıb, İslamın səsini boğsunlar!

Allah öz peyğəmbəri və kitabının haqq olduğunu isbat etmək üçün bir tərəfdən müxalifləri təhrik edir, digər bir tərəfdən sakitləşdirir. Bir yerdə buyurulur: “Quran kimi bir kitab gətirin.”[1] Digər bir yerdə isə belə buyurulur: “Quran surələri kimi on surə gətirin.”[2] Başqa bir yerdə isə belə buyurulur: “Bu işdə (Quranın mislini gətirməkdə) bütün qüdrətlərdən, yaxınlardan, həmfikirlərdən kömək istəyə bilərsiniz.”[3]

◘Quranın bölünməsi və hər bir surənin adlandırılması peyğəmbər dövründə Allah tərəfindən müəyyənləşdirilmişdir. (“Fətu bisurətin”)

◘Quran peyğəmbərlərin haqqında danışarkən onların adından ya qabaq, ya da sonra “əbd”, “qul” sözünü işlədir. (“Əbdina Əyyub”, İbrahim.. kullun min əbdina”) Yalnız İslam peyğəmbəri haqqında danışılarkən onun adını çəkmədən “əbd” sözü işlədilmişdir. Bununla da həzrət Məhəmmədin (s) "mütləq əbd" olduğu nəzərə çatdırılır.

## *Bildirişlər*

1. İnsanların düşüncəsindən və qəlbindən şəkki çıxarmaq lazımdır. Xüsusilə etiqadi məsələlərdə şəkkin qarşısı alınmalıdır. (“İn kuntum fi rəybin”)

2. Vəhyin qəbul şərti Allaha bəndəlikdir. (“Nəzzəlna əla əbdina”)

3. Quran dəlil və sübut kitabıdır. Bu kitab heç bir şəkk-şübhəyə yer qoymur. (“Fətu bisurətin”)

4. Peyğəmbərlərin möcüzəsi olmalıdır. İslam peyğəmbərinin möcüzəsi Qurandır. (“Fətu bisurətin min mislihi”)

5.Əbədi dinin əbədi möcüzəsi olmalıdır ki, bütün insanlar tarixin istənilən bir dönəmində və istənilən bir məkanda şəkkə düşdükdə çıxış yolu tapsınlar. (“Fətu bisurətin min mislihi”)

6. Quranın haqq olmasına o qədər əminik ki, müxaliflər hətta Quranın bir surəsi mislində surə gətirsələr də, onu bütün Quranın yerinə qəbul edərik. (“Bisurətin”)

7. Ən üstün qazi və hakim vicdandır. Allah müxaliflərin vicdanını onlara hakim qərar vermişdir. (“Vədu şuhədaəkum”)

24. ﴿فَإِن لَّمْ تَفْعَلُواْ وَلَن تَفْعَلُواْ فَاتَّقُواْ النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ أُعِدَّتْ لِلْكَافِرِينَ﴾

**“Əgər belə bir işi bacarmazsınızsa və heç vaxt da bacarmazsınız, onda kafirlər üçün hazırlanmış, yanacağı insanlar və daşlar olan oddan çəkinin.”**

## *Nöqtələr*

◘“Ənbiya” surəsində oxuyuruq: “Siz və Allahdan savay pərəstiş etdiklərinizin hamısı cəhənnəm yanacağısınız.”[4] Bəlkə də ayədə “daş” deyilərkən hər hansı daş yox, pərəstiş edilən bütlər nəzərdə tutulmuşdur. (Tarix boyu yalnız Həcərül-əsvədə sitayiş olunmamışdır və bu daş heç vaxt cəhənnəm odu olmayacaq. Bəli! Həcərül-əsvəd Allahın yer üzündə əli, bəşər fitrətinin etirafı üçün şahiddir.) Onlar öz gözləri ilə görməlidirlər ki, bütlərin əlindən bir iş gəlməyib və gəlmir. Eləcə də, bu daşlar qiyamət günü qatilin qanlı bıçağı tək günahın dəlil əşyasıdır.

---

[1] “Qəsəs”, 49.
[2] “Hud”, 13.
[3] “Yunus”, 38.
[4] “Ənbiya”, 98.

**Sual:** Əgər söz bəşərin ixtirasıdırsa, nə üçün Quranın mislini gətirə bilmirlər?

**Cavab:** Əlifbanın hərfləri bəşərdəndir. Amma onların düzümü və uca məfhumlarının bəyanı elm və hünərdən qaynaqlanır. Quran Allahın sonsuz elm və hikmətinə əsaslanır. Amma istənilən bir şəxsin yazdığı istənilən bir kitab bəşəriyyətin məhdud elmi əsasında tərtib olunur. Ona görə də bəşər heç vaxt Quran mislində kitab hazırlaya bilməyəcək.

## *Bildirişlər*

1. Yol və məqsədin haqq olmasına yəqinlik rəhbərlik üsullarından biridir. ("Və lən təfəlu")
2. İndi ki, acizlik və zəiflik hiss etdiniz, haqqa təslim olun. ("Və lən təfəlu fəttəqu")
3. Çaşqın və kafir insan daşla bir sırada dayanır. ("Ənnasu vəl-hicarə")
4. Günahkar insanın iç xəbislikləri qiyamət günü təcəssüm olub, oda bürünər. ("Vəquduhənnasu")
5. Küfr və inadkarlıq Allahın xəlifəsi olmağa layiq insanı cəhənnəm yanacağına döndərər. ("Vəquduhənnasu")
6. Cəhənnəm odundan qurtuluş Qurana iman və İslam peyğəmbərinin təsdiqi girovundadır. ("Fə in lən təfəlu və ləm təfəlu fəttəqunnar... Uiddət lil-kafirin")

25. ﴿وَبَشِّرِ الَّذِين آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ كُلَّمَا رُزِقُواْ مِنْهَا مِن ثَمَرَةٍ رِّزْقاً قَالُواْ هَـذَا الَّذِي رُزِقْنَا مِن قَبْلُ وَأُتُواْ بِهِ مُتَشَابِهاً وَلَهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَهُمْ فِيهَا خَالِدُونَ﴾

**"İman gətirib saleh işlər görənlərə müjdə ver ki, onlar üçün ayaqları altda çaylar axan bağlar var. Onlara onun meyvələrindən veriləndə deyərlər: "Bu həminkidir ki, əvvəl də bizim ruzimiz olub. Və o nemətlərin oxşarları onlara verilər. Onlar üçün behiştdə pak-pakizə zövcələr var və orada əbədi qalarlar."**

## *Nöqtələr*

◘"Mütəşabihən" sözünün işlədilməsində məqsəd bu ola bilər ki, behişt əhli ilk baxımda meyvələri dünyəvi meyvələr kimi görərlər və deyərlər: "Bunlar dünyada yediklərimizin oxşarıdır." Amma yedikdən sonra anlayarlar ki, bu meyvələrin yeni bir tamı və ləzzəti var. Başqa bir ləzzət bu ola bilər ki, onlara verilmiş meyvələrin hamısı yaxşılıq, gözəllik və ətir baxımından eyni cür olarlar. Daha dünyadakı meyvələr kimi biri yaxşı, digəri pis olmaz.

◘Quranda iman və saleh əməl, adətən, yanaşı bəyan olunmuşdur. Amma iman saleh əməldən öndə gəlir. Bəli, əgər otaq daxildən işıqlanarsa, işıq şüaları onun pəncərələrindən bayıra düşər. İman insan batinini nurlandırır və nurani qəlb insanın bütün əməllərinə işıq saçır. İman və saleh əməlin bərəkəti çoxdur. Quran ayələrində bu bərəkətə işarə olunmuşdur.

◘Behişt zövcələri iki növdür:

a) Lölö (qiymətli daş) kimi bakirə hurul-eyn həmin aləmdə yaradılmış bir varlıqdır.

b) Dünyadakı mömin zövcələr də gözəl çöhrə ilə öz yoldaşlarının yanında olarlar.[1]

İmam Sadiqdən (ə) pak zövcələr haqqında soruşulduqda həzrət buyurmuşdur: "Behişt zövcələrində heyz və ifrazat olmur."[2]

---

[1] "Rəd", 13.
[2] "Təfsiri-Rahnüma", "Dürrül-mənsur".

## *Bildirişlər*

1. Xatırlatma və xəbərdarlıqla yanaşı müjdə vermək tərbiyə üsullarından biridir. ("Fəttəqunnar... və bəşşirilləzinə amənu")
2. Qəlb imanı saleh əməllə birgə olmalıdır. ("Amənu və əmilussalihat")
3. Saleh işlərdən bəzisini yox, hamısını yerinə yetirmək faydalı olur. ("Əmilussalihat")
4. Yaxşı və saleh işlər o zaman dəyərli olur ki, imandan qaynaqlanmış olsun. Şəxsi meyillərə, ictimai cazibələrə əsaslanan saleh iş dəyərsizdir. Əvvəlcə, "amənu", sonra isə "əmilussalihat".
5. Dünyada halal-haramı gözlədiyi üçün müəyyən şeylərdən məhrum olan mömin axirətdə onların əvəzini alır. ("ruziqu")
6. Biz dünyada nemətləri əldən verməkdən qorxuruq. Axirətdə isə belə bir nigarançılıq yoxdur. ("Və hum fiha xalidun")
7. Nemətlərin keçmişi ilə tanışlıq kam alma ləzzətini artırır. ("Ruziqna min qəbl")
8. Behişt zövcələri də pakizədirlər. ("Əzvacun mütəhhərə")

26. ﴿إِنَّ اللَّهَ لاَ يَسْتَحْيِي أَن يَضْرِبَ مَثَلاً مَّا بَعُوضَةً فَمَا فَوْقَهَا فَأَمَّا الَّذِينَ آمَنُواْ فَيَعْلَمُونَ أَنَّهُ الْحَقُّ مِن رَّبِّهِمْ وَأَمَّا الَّذِينَ كَفَرُواْ فَيَقُولُونَ مَاذَا أَرَادَ اللَّهُ بِهَذَا مَثَلاً يُضِلُّ بِهِ كَثِيراً وَيَهْدِي بِهِ كَثِيراً وَمَا يُضِلُّ بِهِ إِلاَّ الْفَاسِقِينَ﴾

**"Həqiqətən, Allah ağcaqanadı və ya ondan da böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun Rəbbləri tərəfindən bir həqiqət olduğunu bilirlər. Kafirlər isə deyirlər: "Allah bu məsəllə nə demək istəyir? Allah bu məsəllə bir çoxlarını yoldan azdırır, bir çoxlarını isə doğru yola hidayət edir. Allah günahkar fərdlərdən başqasını azdırmaz."**

## *Nöqtələr*

◘"Bəuz" sözü ağcaqanad mənasındadır. Bu sözün kökü "bəz"dir və ağcaqanad öz cüssəsinin kiçikliyinə görə belə adlandırılmışdır.

Quranın məsəlləri bütün xalq üçündür. Quranda hər növ məsəl çəkilmişdir. [1] Əlbəttə, bu məsəlləri əhəmiyyətsiz saymaq olmaz. Çünki onların əsasını alimlər dərk edirlər. Quranda oxuyuruq: "Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız bilənlər anlayarlar."[2] Məsəllərdə xatırlatma, anlatma, təlim, bəyan, həqiqətlərin açıqlanması gerçəkləşir. Tövrat və İncil kimi əvvəlki səmavi kitablarda da, həzrət Peyğəmbər (s) və onun məsum Əhli-beytinin (ə) buyruqlarında da məsəllərdən geniş şəkildə istifadə olunur. Tövratda "Süleymanın məsəlləri" adı altında hissə vardır.

◘Bəzi İslam müxalifləri Quranın məntiqi və çəkdiyi məsəllər qarşısında aciz qaldılar. Onlar Quranın məsəllərini bəhanə edərək dedilər: "Allahın şəni milçək və ya hörümçək kimi bir canlını məsəl çəkməkdən daha ucadır." Onlar elə düşünürdülər ki, bu məsəllər Allahın uca məqamına uyğun deyil. Ona görə də Quran ayələrinə şübhə edirdilər. Allah bu ayəni göndərməklə onların bəhanələrinə son qoyur.

**Sual:** Nə üçün Allah bir qrupu Quran və ondakı məsəllərlə azdırır?

**Cavab:** Allah kimsəni azdırmır. Sadəcə, Quran həqiqətlərinə qarşı çıxan hər bir insan özü azır. Bu mənada Quran kiminsə azğınlıq səbəbi sayıla bilər. Çünki ayənin sonunda buyurulur: "İnsanların günahı onların azğınlığına səbəb olur." Axı necə ola bilər ki, Allah xalqı imana çağırdığı halda Özü onları azdırsın? Axı bir bu qədər peyğəmbər və səmavi kitab göndərən

---
[1] "Rum", 58ö
[2] "Ənkəbut", 43.

Rəbbimiz xalqı azdırmaq istəyərmi?” Necə ola bilər ki, Allah insanları azdırdığı üçün İblisi məzəmmət etsin, Özü isə Öz bəndələrini azdırsın?!

◘Bu ayədə həm hidayət, həm də azdırmaq ümumi şəkildə Allaha aid edilsə də, digər ayələrdə məsələ açıqlanılır. Məsələn, bir ayədə oxuyuruq: “Allah Ona doğru hərəkət edənləri hidayət edir.”[1] Başqa bir ayədə göstəriş verilir ki, insanlar Allahın razılığı ardınca getsinlər.[2] Başqa bir ayədə oxuyuruq: “O kəslər ki, Allah yolunda cihad edər.”[3] Əksinə öz istəyi ilə əyri yolu tutanları Allah özbaşına buraxır. Allahın azdırması da elə özbaşına buraxmaq mənasındadır. Çünki, kafirlər, zalımlar, günahkarlar və israfçılar haqqında “la yəhdi” sözü işlədilmişdir. Sədinin təbirincə:

*Var yol, quyu, görən göz, işıq, Aydınlıq içində yolunu azan.*
*Burax qoy yıxılsın olsun peşiman. İnsan yola baxıb olmalı ayıq.*

## *Bildirişlər*

1. İş şəri, əqli və ürfi cəhətdən məzəmmətli olduqda həya etmək lazımdır. Amma həqiqətin bəyanında utanmaq bəyənilməmişdir. (“La yəstəhyi”)
2. Uca və mühüm həqiqətləri sadə dildə, misallarla bəyan etmək olar. (“Ən yəzribə məsələn”)
3. Mömin Allah kəlamına inanır və bu göstərişlərə mütidir. (“Yələmunə ənnəhul-həqq”)
4. Quran məsəlləri tərbiyə və inkişaf vasitəsidir. (“Fəyələmu ənnəhul həqqu min rəbbihim”)
5. Quran məsəlləri haqdır və həqiqətləri bəyan edir. (“Ənnəhul həqqu”)
6. Haqqı axtaran kəs hər bir nurla yolu tapır. Bəhanəçi insan isə heç bir işığı bəyənmir. (“Maza əradəllahu bihaza məsələn.”)
7. Küfr və inadkarlıq bəhanə amilidir.
8. Günah azğınlığa səbəb olur və həqiqətləri tanımağa maneçilik törədir. (“Ma yuzillu bihi illəl-fasiqin.”)
9. Quran məsəlləri hidayət və ya zəlalət vasitəsidir. (“Yuzillu bihi, yəhdi bihi”)
10. Allah əhdini pozanı günahkar, günahkarı isə azğın edir. (“Və ma yuzillu bihi illəl fasiqin.”)

27. ﴿الَّذِينَ يَنقُضُونَ عَهْدَ اللَّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُولَئِكَ هُمُ الْخَاسِرُونَ﴾

**“O kəslər ki, Allahla (Ona iman gətirmək və itaət etmək barəsində) əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır (möminlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir) və yer üzündə fitnə-fəsad törədirlər. Məhz elələri (dünyada və axirətdə) ziyana uğrayanlardır!”**

## *Nöqtələr*

◘Bu ayədə bəyan olunmuş ilahi peymanlar, əhdlər çoxdur: Allah peyğəmbərlərdən vəd almışdır ki, ilahi ayələri xalqa çatdırsınlar.[4] Kitab əhlindən vəd alınmışdı ki, haqqı gizlətməsinlər, Tövrat və İncilin İslam peyğəmbəri haqqındakı bəşarətlərinə əməl etsinlər.[5] Bütün xalqdan əhd alınmışdır ki, Allahın göstərişinə əməl edib, şeytan yolundan uzaqlaşsınlar.[6]

---

[1] “Rəd”, 27.
[2] “Maidə”, 16.
[3] “Ənkəbut”, 69.
[4] “Əhzab”, 7.
[5] “Ali-İmran”, 187.
[6] “Ə`raf”, 176.

◘İslamda əhdə vəfa etmək vacibdir. Kafirlərə münasibətdə də belədir. Əhdini pozan kəs münafiq kimi tanıtdırılmışdır. Hətta namaz qılan olsa da belədir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Əhdinə sadiq olmayan insanın dindən faydası yoxdur.”[1]

◘Allah bu ayədə göstəriş vermişdir ki, qruplarla rabitə saxlanılsın. (“Əmərəllahu bihi ən yusələ”) Rəvayətlərdə bu qruplar belə tanıtdırılır: səmavi rəhbərlər, alimlər, qohumlar, möminlər, qonşular, müəllimlər. Hər kəs bu fərdlərlə rabitəni qırsa, özü zərər görər. Çünki o bu rabitələr sayəsində əldə edəcəyi təkamülün qarşısını almışdır.

◘Əhdə vəfa kamillikdir və Allah özünü bu sifətlə mədh edir.[2] Əhdinə Allahdan yaxşı vəfa edən kimdir? Hətta müşriklərlə də əhdə vəfa etmək lazımdır. Quranda oxuyuruq: “Müqavilə müddətinin sonunadək müşriklərlə bağladığınız əhdə vəfalı olun.”[3] Eləcə də Quranda əhdini pozanlar lənətlənmişdir.[4]

◘Əhd iki cürdür: Xalqın bir-biri ilə bağladığı əhd. Bu əhdə vəfa etmək lazımdır. İkinci əhd Allahın cəmiyyətə rəhbərlik üçün peyğəmbər və imamlarla etdiyi əhddir.[5]

◘Həmin ilahi əhdin bu ayədə təkid olunan hissəsi Allahın hər bir fərdin fitrətində qoyduğu əhdlərdir. Necə ki, Həzrət Əli (ə) fitri əhdin çiçəklənməsini peyğəmbərlik fəlsəfəsi kimi tanıtdırmışdır.[6]

**Sual:** Allahın əhdi nədir?

**Cavab:** Səmavi rəhbərlik Allahın əhdidir. Rəvayətlərdən məlum olur ki, namaz da Allahın əhdidir. İnsan və Allah arasında olan hər bir əhd ilahi əhddir. Əqli qanunlar və ilahi hökmlər də ilahi əhdin numunələridir.

◘Əllamə Məclisi (“Yəqtəunə ma əmərəllahu bihi ən yusələ”) ayəsinin ardınca sileyi-rəhmin (yaxınları yoxlamağın) əhəmiyyəti haqqında yüz on hədis nəql etmişdir.[7] İndi həmin rəvayətdəki bəzi cəlbedici nöqtələri nəzərdən keçiririk:

–Hətta su içməklə də olsa, yaxınlarınızla görüşün;
–Sileyi-rəhm ömrü uzadır, yoxsulluğu aradan qaldırır;
– Sileyi-rəhm vasitəsi ilə ruzi artır;
–Ən üstün qədəm o qədəmdir ki, sileyi-rəhm, qohumların görüşü üçün götürülmüş olsun;

28. ﴿كَيْفَ تَكْفُرُونَ بِاللَّهِ وَكُنتُمْ أَمْوَاتاً فَأَحْيَاكُمْ ثُمَّ يُمِيتُكُمْ ثُمَّ يُحْيِيكُمْ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ﴾

**“Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikcə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də dirildəcək və daha sonra siz (əməllərinizin haqq-hesabı çəkilmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız.”**

## *Nöqtələr*

◘Allahı tanımağın (allahşünaslığın) ən yaxşı yolu özümüz və aləmin yaranışı haqqında düşünməyimizdir. Həzrət İbrahim Allahın varlığını sübut edərkən buyurmuşdur: “Mənim Allahım bir kəsdir ki, dirildir və öldürür.”[8] Həyatın yaranması və ölüm haqqında düşüncələr həyatın başqa bir varlıq tərəfindən yaradıldığını onun nəzərinə çatdırır. Əgər həyatı insan özü yaratmış olsaydı, onu əbədi edərdi. İnsan düşünür: “Nə üçün nə vaxtsa olmayıb, sonra olub, daha sonra isə yenidən olmayacaq?” Allah buyurur: “İndi ki, cansız ikən cana gəldiyinizi gördünüz, bilin ki, qiyamət günü də dirilməyiniz eyni cürdür.”

---

[1] “Bihar”, c. 72, s. 198.
[2] “Tövbə”, 111.
[3] “Tövbə”, 4.
[4] “Rəd”, 25.
[5] “Bəqərə”, 124.
[6] “Nəhcül-bəlağə”, c. 1.
[7] “Bihar”, c. 71, s. 8.
[8] “Bəqərə”, 258.

◘Həyat məsələsinin mahiyyəti məchul olsa da, onun əsərləri insanın vücudunda görünməkdədir. Həyatın xaliqinin də mahiyyəti dərk olunası deyil. Amma Onun da əsərləri hər şeydə aşkardır.

## *Bildirişlər*

1. Əql və fitrətdən sorğu təbliğ və hidayət üsullarından biridir. ("Kəyfə təkfurunə...")

2. Həyat və ölüm haqqında düşüncə Allahın varlığının isbatının ən üstün dəlilidir. ("Kuntum əmvatən") Özünütanıma allahşünaslığın müqəddiməsidir.

3. İlahi dünyagörüşündə, həyat və ölümdə məqsəd təkamül və kamal mənbəyinə dönüşdür. ("Summə iləyi turcəun") Mövləvi öz "Məsnəvi"sinin üçüncü dəftərində deyir:

Torpaq ikən ölüb cücərti oldum,
Bir də ölüb heyvan yerində qaldım.
Heyvan ikən ölüb döndüm insana,
Ucalıq verirmiş ölüm bu cana.
Kaş bir daha dadım onun tamını,
Bilinməz məqamda alım kamımı.

29. ﴿هُوَ الَّذِي خَلَقَ لَكُم مَّا فِي الأَرْضِ جَمِيعاً ثُمَّ اسْتَوَى إِلَى السَّمَاء فَسَوَّاهُنَّ سَبْعَ سَمَاوَاتٍ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**"Yerdə olanları bütünlüklə sizin üçün yaradan, sonra səmanı yaratmağa başlayıb, onları yeddi səma şəklində möhkəmlədən Odur. O hər şeydən agahdır."**

## *Nöqtələr*

◘"Səma" sözü ərəb dilində yüksəkliyi bildirir. Bəzən, yerdən bir neçə metr hündürdə olan ağac budaqları haqqında da "səmaya ucalmış" ifadəsini işlədirlər.[1] Bəzən yağış yağdıran buludların da yüksəkliyi haqqında səma kəlməsi işlədilir.[2] "Ənbiya" surəsinin 32-ci ayəsində isə belə buyurulur: "Səmanı hifz edilən tavan qərar verdik".)

## *Bildirişlər*

1. Qadir, bağışlayan, ehtiyacları aradan qaldıran Allaha qarşı küfr təəccüb doğurur. ("Kəyfə təkfurunə")

2. Varlıq aləmi insan üçün xəlq olunmuşdur. ("Xələqə ləkum")

3. Varlıq nizamında bir məqsəd vardır. Dünyanın yaranışı tədbir və hikmətli plan əsasında baş tutmuşdur. ("Xələqə ləkum")

4. Təbiətdə heç bir varlıq əbəs yaradılmamışdır. Sadəcə biz onlardan istifadə yolunu bilmirik. ("Xələqə ləkum")

5. Əsas odur ki, xüsusi bir dəlillə qadağan olunmayan hər bir şey insan üçün mübahdır. ("Xələqə ləkum ma fil-ərzi cəmia")

6. Dünya insan üçündür, insan dünya üçün yox! ("Xələqə ləkum")

7. İnsan elmi baxımdan elə bir məqama çata bilər ki, bütün təbiətin ətalarından istifadə edər, varlıq aləminin sirlərini açıb, onu özünə ram edər. ("Ləkum")

8. Yerin ətaları hamının istifadəsi üçündür. ("Xələqə ləkum ma fil-ərzi")

---

[1] "İbrahim", 24.
[2] "Qaf", 9.

9. Dünyanın yeddi qat səmasında tarazlıq var və heç bir uyğunsuzluğa təsadüf olunmur. (“Fəsəvvahunnə səbə səmavat”)

10. Səmanın və yerin yaradılışı bütünlüklə ilahi elmə əsaslanır. (“Xələqə ləkum... əlim”)

11. Yerin və yeddi qat göyün yaranışı Allahın ölüləri diriltməyə qadir olmasının dəlilidir. Əvvəlki ayədə buyurmuşdur: “Summə yuhyikum... huvəlləzi” .

30. ﴾وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلاَئِكَةِ إِنِّي جَاعِلٌ فِي الأَرْضِ خَلِيفَةً قَالُواْ أَتَجْعَلُ فِيهَا مَن يُفْسِدُ فِيهَا وَيَسْفِكُ الدِّمَاء وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ قَالَ إِنِّي أَعْلَمُ مَا لاَ تَعْلَمُونَ﴿

**“Rəbbin mələklərə deyəndə ki, Mən yer üzündə bir xəlifə yaradacağam, mələklər dedilər: “Yoxsa yer üzündə fəsad törədib qan tökəcək bir kəsmi yaratmaq istəyirsən? Halbuki biz Sənə həmd və sitayişlə tərif deyir, Səni müqəddəs tuturuq.” Allah buyurdu ki, həqiqətən, Mən sizin bilmədiyinizi bilirəm.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə oxuduq ki, Allah yer üzünün bütün nemətlərini insan üçün yaratmışdır. Bu və sonrakı ayələrdə insanın yer üzündəki xəlifəliyindən danışılır və bəşəriyyətin fəsadı ilə bağlı mələklərin nigarançılığı bildirilir. Sonra Allahın izahatı və mələklərin ilk insan qarşısındakı səcdəsindən danışılır.

◘Mələklər ya ilahi xəbərlər vasitəsi ilə, ya Adəmdən əvvəlki insanları gördüklərindən, ya maddi insanın təbii zəhmətlərini öncədən bildiklərindən, onun qan töküb, fəsad törədəcəyindən danışırdılar.

◘Bütün insanlarda xəlifə olmaq istedadı olsa da, hamı xəlifə ola bilmir. Çünki onlardan bəziləri öz rəftarı ilə heyvandan da alçaq bir məqama süqut edir. Necə ki, Quranda buyurulur: “Onlar heyvan kimidirlər, bəlkə daha çox zəlalətdədirlər.”[1]

◘Bu xəlifənin qərargahı yer üzüdür. Onun ləyaqəti isə çox-çox yüksəyə çatır.[2]

◘Başqalarına sual vermək icazəsi verin. Allah Öz mələklərinə belə bir izn verdi. Mələklər Onun icazəsi olmadan danışmırlar. Mələklər bilirdilər ki, hər bir yaranışda ali bir hədəf var.

**Sual:** Nə üçün Allah insanın yaranışında məsələni mələklərə açıqladı?

**Cavab:** İnsan maddi quruluşu çox möhkəm yaradılmış xüsusi bir məxluqdur.[3] Ona ilahi ruh üfürülmüşdür. Allah onu yaratdıqdan sonra Özünə təbrik demişdir.[4]

**Sual:** Daim hazır, görən və qəyyum Allahın canişin və xəlifəyə nə ehtiyacı vardı?

**Cavab:** Əvvəla, insanın canişinliyi kiminsə ehtiyacını ödəmək üçün deyil. İnsanın canişinlik məqamı onun kəramət və fəzilət rütbəsidir. İkincisi, yaranış nizamı vasitələrə, səbəblərə əsaslanır. Allah bütün işləri müstəqil şəkildə yerinə yetirməyə qadir olsa da, işlərin icrası üçün vasitələr qərar vermişdir. Bu vasitələrdən bəzilərini qeyd edək:

–Əsl idarə edən Allah Özü olsa da, varlıq aləminə mələkləri idarə edən qərar vermişdir.[5]

–Şəfa Allahın əlində olsa da, Allah məsələn, balda şəfa qərar vermişdir.[6]

–Qeyb elmi Allaha məxsus olsa da, Allah bu elmdən bir hissəsini saleh bəndələri üçün açıqlamışdır.[7]

---

[1] “Ə`raf”, 179.
[2] “Nəcm”, 9.
[3] “Tin”, 4.
[4] “Mu`minun”, 14.
[5] “Yunus”, 3; “Naziat”, 5.
[6] “Şüəra”, 80; “Nəhl”, 69.
[7] “Yunus”, 20; “Cinn”, 27.

Demək, insan Allahın canişini ola bilər və bu canişinə itaət Allaha itaət sayılar.[1] Bu canişinə beyət Allaha beyət kimi sayılar.[2] Eləcə də, Allahın canişininə məhəbbət Allaha məhəbbət kimi qəbul edilər.[3]

◘Mövcudlar haqqında mühakimə üçün bütün xeyirli və zərərli mövcudları yanaşı qoymaq lazımdır. Bu mühakimədə tələsmək olmaz. Mələklərə elə gəlirdi ki, onların Allaha həmd-sənası insanın həmd-sənasından çoxdur. İblis də özü haqqında belə düşünür və deyirdi: "Mən oddanam, Adəm isə torpaqdan." Bu iddia ilə insana səcdə etmək istəmirdi. Allah isə hər şeyi bildiyindən insanın daha üstün olduğunu buyururdu: ("İnni ələmu mala tələmun")

## *Bildirişlər*

1. Allah ən öncə yaşayış vasitələrini hazırlayıb, sonra insanı xəlq etdi ("Nəhcül-bəlağənin 91-ci xütbəsində həzrət Əli (ə) də bu məsələyə toxunmuşdur.")
2. Mələklər insandan əvvəl xəlq olunmuşlar. Ona görə də Allah insanın yaradılışını onlara xəbər verir.
3. İlahi xəlifənin, canişinin və hakimin seçimi Allahın əlindədir ("İnni cailun fil-ərzi xəlifətən")
4. İnsan Allahın yer üzündə daimi canişinidir. ("Cailun") (İsme-fail olan "Cail" sözü davam rəmzidir.)
5. İnsan məxluqların əşrəfidir və Allah xəlifəliyi məqamına layiq ola bilər. (Əlbəttə ki, zalımlar bu məqamdan məhrumdurlar.[4]
6. Mələklər elə bilirdilər ki, insan daim fəsad törədib qan tökəcək. ("Yufsidu... və yəsfiku")
7. İlahi xəlifə və hakim ədalətli olmalıdır. Allah canişini günahkar ola bilməz. Xəlifə "yer üzündə fəsad törədən" olmamalıdır.
8. İnsanın öz ləyaqətini qorumasının səbəbi həsəd deyilsə, belə qorunmanın eybi yoxdur. ("Və nəhnu nusəbbihu bihəmdikə və nuqəddisu ləkə")
9. Aram bir fəzada ibadət və təsbih ləyaqət üçün lazım olan yeganə meyar deyil.("Nəhnu nusəbbihu")
10. Bir qrup adamın çaşqınlığı və fəsadına görə başqalarının təkamülünün qarşısını almaq olmaz. Allah bilirdi ki, insanlardan bir qrupu fəsad törədəcək. Amma O, yaranma nemətindən başqalarını məhrum etmədi.
11. Şübhəni aradan qaldırmaq üçün sual vermək itaətsizlik deyil. ("Ətəcəlu fiha")
12. Allah insanın fəsad törədib qan tökəcəyini rədd etmədi. Amma mühüm bir məsləhət və insanın ləyaqətini bəyan etdi. ("İnni ələmu ma la tələmun")
13. Sözlərinizin hamı tərəfindən qeyd-şərtsiz qəbul olunacağını gözləməyin. Çünki mələklər də Allahdan sual etdilər. ("Qalu ətəcəlu fiha")
14. Mələklərin elm və məlumatı məhduddur. ("Ma la tələmun")

31. ﴿وَعَلَّمَ آدَمَ الأَسْمَاء كُلَّهَا ثُمَّ عَرَضَهُمْ عَلَى الْمَلاَئِكَةِ فَقَالَ أَنبِئُونِي بِأَسْمَاء هَؤُلاء إِن كُنتُمْ صَادِقِينَ﴾

**"Allah bütün adları Adəmə öyrətdi. Sonra onları mələklərə təqdim edərək buyurdu: "Əgər doğru deyirsinizsə onların adlarını Mənə xəbər verin."**

## *Nöqtələr*

◘Allah-təala varlıq aləminin sirlərini, övliyalardan tutmuş cansız cisimlərədək hər şeyin adını Adəmə öyrətdi. "Məcməül-bəyan" təfsirində nəql olunmuş rəvayətdə İmam Sadiqin (ə)

[1] "Nisa", 18.
[2] "Fəth", 10.
[3] "Camei kəbirə" ziyarəti.
[4] "Bəqərə", 124.

təbirincə, bütün torpaqlar, dağlar, dərələr, çay yataqları, hətta ayağımızın altındakı döşənəcək də Adəmə tanıtdırıldı.

## *Bildirişlər*

1. Həqiqi müəllim Allahdır. Qələm, bəyan, müəllim və kitab təlim vasitələridir. (“Əlləmə”)
2. İnsan öz elmi ilə mələklərdən üstündür. (“Və əlləmə Adəmə...”)
3. İnsan bütün elmləri əxz etmək üçün istedad və ləyaqətə malikdir. (“Kulləha”)
4. Mələklərin ibadəti, Adəmin isə elmi daha çox idi. Xilafət məqamı ibadətdən çox elmlə bağlıdır. (“Əlləmə Adəməl əsma”)
5. Başqalarını məlumatlandırmaq üçün ən yaxşı yol imtahan keçirilməsi və fərdlərin ləyaqətlərinin nümayişə qoyulmasıdır. (“Əlləmə... summə ərəzəhum... fəqalə ənbiuni”)
6. Mələklər Allahın xəlifəliyi məqamına özlərini daha layiq sayırdılar. (“İn kuntum sadiqin”)

32. ﴿قَالُواْ سُبْحَانَكَ لاَ عِلْمَ لَنَا إِلاَّ مَا عَلَّمْتَنَا إِنَّكَ أَنتَ الْعَلِيمُ الْحَكِيمُ﴾

**“Mələklər dedilər: “Pərvərdigara! Sən pak və münəzzəhsən. Biz Sənin bizə öyrətdiklərindən başqa bir şey bilmirik. Həqiqətən, Sən həkim (hikmət sahibi) və bilənsən.”**

## *Nöqtələr*

◘İblis və mələklər hər biri bir cəhətdən özünü Adəmdən üstün bilirdilər. İblis xilqət baxımından, mələklər isə ibadət baxımından özlərini Adəmdən üstün sayırdılar. Amma İblis Allahın insana səcdə əmri qarşısında itaətsizlik göstərdi. Mələklər isə həqiqəti bildiklərindən üzr istəyib, cəhalətlərini etiraf etdilər. (“Sübhanəkə la ilmə ləna”)

## *Bildirişlər*

1. Elmsiz suala görə üzr istəmək bir dəyərdir. (“Sübhanəkə”)
2. Üstünlük istəyi və özünü böyük bilmək tənzimlənməlidir. (“Nusəbbihu və nuqəddisu”) deyənlər “la ilmə ləna” söylədilər.)
3. Öz cəhalətimizi etiraf edək. (“La ilmə məna”) Mələklər ən ali ədəbi nümayişə qoydular. “Sübhanəkə”, “la ilmə ləna”, “əlləmtəna”, “innəkə”, “əntəl-əlimul-həkim” sözləri ədəb nişanəsidir.
4. Mələklərin elmi məhduddur. (“La ilmə ləna”)
5. Allahın elmi zatidir. (Sonradan əldə olunmuş deyil.) (“İnnəkə əntəl-əlim”) Başqalarının elmi isə “iktisabi”, yəni qazanılmış elmdir. (“Əlləmtəna”)
6. Aləmdəki işləri təsadüfi bilməyək. (“Əntəl-əlimul-həkim”)

33. ﴿قَالَ يَا آدَمُ أَنبِئْهُم بِأَسْمَآئِهِمْ فَلَمَّا أَنبَأَهُمْ بِأَسْمَآئِهِمْ قَالَ أَلَمْ أَقُل لَّكُمْ إِنِّي أَعْلَمُ غَيْبَ السَّمَاوَاتِ
وَالأَرْضِ وَأَعْلَمُ مَا تُبْدُونَ وَمَا كُنتُمْ تَكْتُمُونَ﴾

**“Allah buyurdu: “Ey Adəm, mələklərə onların adlarını xəbər ver.” Adəm mələklərə onların adlarını bildirdikdə Allah buyurdu: “Sizə göylərin və yerin sirlərini, sizin aşkarda və gizlində etdiklərinizi bildiyimi söyləmədimmi?”**

## *Bildirişlər*

1. Layiqli istedadlara çiçəklənmə fürsəti verin. (“Ənbihum biəsmaihim”)

2. Allahın keçirdiyi elmi sorğuda Adəm mələklərdən üstün oldu. (“Fələmma ənbəəhum biəsmaihim.”)

3. Mələklər bəzi sözləri desələr də, bəzi məsələləri gizlədilər. (“Kuntum təktumun”)

34. ﴿وَإِذْ قُلْنَا لِلْمَلاَئِكَةِ اسْجُدُواْ لآدَمَ فَسَجَدُواْ إِلاَّ إِبْلِيسَ أَبَى وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ﴾

**“Mələklərə “Adəmə səcdə edin” dediyimiz vaxt İblisdən başqa hamısı səcdə etdi. İblis boyun əyməyib təkəbbürlük göstərdi və kafirlərdən oldu.”**

## *Nöqtələr*

◘Quranın bildirdiyinə görə İblis mələklərlə bir cərgədə ibadət edən cin idi. (“Kanə minəl-cin”)[1]

◘Allahın əmri ilə Adəmə səcdə, əslində Allaha bəndəlik idi. (“Uyunul-əxbarir-Riza”) Çünki gerçək ibadət bizim meylimizə əsaslanan yox, Allahın istədiyi əməldir. İblis Allaha əsrlərcə səcdə etməyə hazır idi. Amma Adəmə səcdə etmədi!

◘İblis iki azğınlığa yol verdi:

a) Etiqadi azğınlıq; "Əba" (boyun əyməmək) onun günahının səbəbi oldu.[2]

b) Əxlaqi azğınlıq; Təkəbbür İblisin cəhənnəmə getməsinin səbəbi oldu.[3]

◘Adəmə səcdə şəxsən ona yox, bütün nəslinə və övladına xatir idi. Çünki başqa bir yerdə buyurulur: “Sizi xəlq etdik, sonra sizə surət verdik və mələklərə “Adəmə səcdə edin” dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.[4] İmam Səccad (ə) buyurmuşdur: “Həzrət Peyğəmbər (s) buyurdu ki, Adəmə səcdə onun züryətinə və nəslinə xatir idi.[5]

◘Mələklərin səcdəsi müvəqqəti idi. Amma onların möminlərə nazil olması və onlar üçün istiğfarları daimidir. “Allah bizim Rəbbimizdir” deyib, bu əqidədə sabit qalanlara mələklər nazil olar”.[6]

◘Adəmə cisminə görə yox, ilahi ruhuna görə səcdə edilməli idi.[7]

◘Bütün mələklər insana səcdə etdiyi halda insanın Allaha səcdə etməməsi insafsızlıqdır.

## *Bildirişlər*

1. İnsan kimi mələklərə də xitab edilir, əmr olunur və qadağa qoyulur. (“Uscudu li Adəmə”)

2. Ləyaqət uzaq keçmişə malik olmaqdan mühümdür. Belə ki, qədim mələklər yeni insana səcdə etməli idilər. (“Uscudu li Adəmə”)

3. Əməldə itaətsizlikdən də təhlükəli olan şey Allah əmrinə etiqadsızlıqdır. (“Əba vəstəkbər”)

4. İblisin təkəbbürü və cəsarəti onun bədbəxtliyinə səbəb oldu. (“Kanə minəl kafirin “)

35. ﴿وَقُلْنَا يَا آدَمُ اسْكُنْ أَنتَ وَزَوْجُكَ الْجَنَّةَ وَكُلاَ مِنْهَا رَغَداً حَيْثُ شِئْتُمَا وَلاَ تَقْرَبَا هَذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الْظَّالِمِينَ﴾

**“Dedik: Ey Adəm! Sən öz zövcənlə bu bağda sakin ol və hər ikiniz istədiyiniz kimi oradakı meyvələrdən bol-bol yeyin. Yalnız bu ağaca yaxın gəlməyin. Yoxsa özünüzə zülm edənlərdən olacaqsınız.”**

---

1 “Kəhf” 50.
2 “Kəhf” 50.
3 “Zümər”, 72.
4 “Ə`raf”, 11.
5 “Təfsiri-safi”.
6 “Fussilət”, 29.
7 “Hicr”, 29.

## *Nöqtələr*

◘Quran dilində “Şəcər” təkcə ağac yox, həm də buta deməkdir. Məsələn, Quranda belə bir ayə var: “Üstündə iki yarpaqlı bir buta bitirdik.”[1] Əgər rəvayətlərdə və təfsirlərdə bu ayədə “şəcər” sözünün buğdaya işarə olduğunu oxusanız, etiraz etməyə yer yoxdur.

◘“Cənnət” dünya bağlarına da deyilir. “Qələm” surəsinin on yeddinci ayəsində oxuyuruq: “Biz cənnət (bağ) sahiblərini imtahana çəkdik. Quranın digər ayələrindən və rəvayətlərindən məlum olur ki, Adəmin sakin olduğu cənnət vəd olunmuş cənnət olmamışdır. Çünki:

1. Vəd olunmuş cənnət mükafatdır. Adəm bir iş görməmişdi ki, ona mükafat veriləydi.[2]
2. Behiştə daxil olan kəs bir daha oradan çıxmır.[3]
3. Həmin behiştdə qadağa, vəzifə yoxdur. Halbuki Adəmə hansısa ağacdan istifadə etmək qadağan edilmişdi. Bundan əlavə, Əhli-Beyt rəvayətlərində də nəql olunur ki, Adəmin olduğu behişt vəd olunmuş behişt olmamışdır.

◘Adəmə edilən qadağa vəzifə qadağası deyildi. Ona görə də bu qadağanın pozulması haram sayılmırdı. Bu qadağada məqsəd tövsiyə və yol göstərilməsi idi.

## *Bildirişlər*

1. Məskəndə qadın kişiyə tabedir. (“Əntə və zəvcukə”)
2. Bir şəxsi pis işdən çəkindirmək istədikdə tərbiyə şivəsində əvvəlcə doğru yola çağırın, sonra qadağa qoyun. Bu ayədə də əvvəlcə cənnətdə qalmaq çağırışı, sonra isə qadağa bəyan olunur.
3. Günaha yaxınlaşmaq günahın qucağına düşmək səbəbidir. (“La təqrəba... fətəkuna”)
4. İlahi yoldan çıxmaq insanın özünə zülmüdür. (“Fətəkuna minəzzalimin”) Adəm və onun zövcəsi tövbə üçün dedilər: “Özümüzə zülm etdik.” Peyğəmbərlərin ismət sahibi, günahsız olması bunugöstərir ki, bu məqamda zikr olunan zülm günah yox, “tərke-övla”, yəni yaxşı bir işin tərki idi.

36. ﴿فَأَزَلَّهُمَا الشَّيْطَانُ عَنْهَا فَأَخْرَجَهُمَا مِمَّا كَانَا فِيهِ وَقُلْنَا اهْبِطُواْ بَعْضُكُمْ لِبَعْضٍ عَدُوٌّ وَلَكُمْ فِي الأَرْضِ مُسْتَقَرٌّ وَمَتَاعٌ إِلَى حِينٍ﴾

**“Beləcə şeytan o iki nəfəri büdrədib, nemətlər içində olduqları yerdən uzaqlaşdırdı. Biz də dedik: “Bir-birinizə düşmən kəsilərək buradan kənar olub, yer üzünə enin. Yerdə sizin üçün müəyyən vaxta qədər sığınacaq və yaşayış vasitələri var”.**

## *Nöqtələr*

◘Əvvəlcə haqqında danışdığımız (“İnni cailun fil-ərzi xəlifətən”) ayəsindən məlum olur ki, Adəmin yaranışında əsas məqsəd onun yer üzündə yaşayışı olmuşdur. Amma yer üzündə yaşayış üçün bəzi hazırlıqlar olmalı idi. Adəm bilməli idi ki:

---

[1] “Saffat”, 146.
[2] “Ali-İmran”, 142.
[3] “Hicr”, 48.

1. Mütləq azad deyil. Onun həyatında əmr və qadağa, vəzifə mövcuddur.
2. İblis onun düşmənidir və öz andları, yalan vədləri ilə onu aldadasıdır.
3. Şeytana itaət süqut amilidir.
4. Tövbə səhvləri aradan qaldırmaq vasitəsidir.

◘İmam Riza (ə) buyurmuşdur: "Adəmin büdrəmə macərası, o, peyğəmbərlik məqamına çatmamış baş vermişdi. Bununla belə, onun büdrəməsi bağışlanılması kiçik bir səhv idi."[1]

◘Şeytan Adəmi büdrətmək üçün bütün psixoloji və təbliğati üsullardan istifadə etdi. O cümlədən:

a) Adəm və Həvva üçün and içdi[2].

b) Xeyirxahlıq libası geyib dedi: "Mən sizin xeyirxahınızam[3]

v) Onlara əbədilik vəd etdi və dedi ki, əgər bundan yesəniz, həyatınız və hakimiyyətiniz əbədi olacaq.[4]

q) Yalan danışdı və haqqın zatına böhtan atdı. Bildirdi ki, Allah sizin mələk olmağınızdan və əbədi yaşayacağınızdan qorxduğu üçün belə qadağan qoyub.[5]

## *Bildirişlər*

1. Böyüklər üçün də şeytan təhlükəlidir. O, Adəm və Həvvanın sorağına gəldi. ("Fəəzəlləhuma")
2. Şeytan bəşər nəslinin qədim düşmənidir. Çünki ilk yaranış günündən ata-anamızın görüşünə getdi. ("Fəəzəlləhuma")
3. İnsan öz-özlüyündə xətaya yol verən və şübhəyə düşəndir. ("Fəəzəlləhuməşşəytan")
4. Hər bir insan öz istedad və ləyaqətlərinə görə behiştlikdir. Amma yol verdiyi azğınlıqlar onu süquta uğradır. ("Fəəxrəcəhuma")
5. Allaha itaətsizliyin, İblisin vəsvəsələrinin acı aqibətindən ibrət götürün. Şeytanın nüfuzu altına düşmək ilahi məqamlardan xaric olmaq və məhrumiyyətdir. ("Fəəzəlləhuməşşəytan... fəəxrəcəhuma")
6. Dünya həyatı müvəqqətidir. ("İla hin")

37. ﴿فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ﴾

**"Adəm öz Rəbbindən bəzi sözlər öyrənərək tövbə etdi. Belə ki, Allah Öz lütfünü ona doğru döndərdi. Həqiqətən, O, tövbələri qəbul edən və mehribandır."**

## *Nöqtələr*

◘Adəm qadağan olunmuş şeydən daddığı üçün bütün nemətlərdən və rifahdan məhrum oldu. O öz səhvini anladı və peşmanlığı səbəbindən Allahdan bəzi sözlər öyrəndi. Bu sözlər vasitəsi ilə tövbə etdi. ("Tövbə" geri dönməkdir.)

◘Şiə və sünni rəvayətlərindən məlum olur ki, Adəmin tövbə üçün istifadə etdiyi kəlmələr Allahın ən üstün yaranmışları olan həzrət Məhəmməd (s) və onun Əhli-beytinə (ə) təvəssüldən ibarət idi. "Təfsiri-dürrül-mənsur" kitabında İbn-Abbasdan nəql olunmuşdur ki, Adəm öz tövbəsinin qəbul olunması üçün Allahı Məhəmməd (s), Əli (ə), Fatimə (s), Həsən (ə) və Hüseyn (ə) adlarına and verdi.[6] Bəziləri də belə düşünürlər ki, Adəmin dediyi sözlər "Əraf" surəsində

---

[1] "Təfsiri-Nurus-səqəleyn", c. 1. s. 50.
[2] Bax: "Ə`raf", 21.
[3] Bax: "Ə`raf", 21.
[4] Bax: "Taha", 120.
[5] "Ə`raf", 20.
[6] "Təfsiri-dürrül-mənsur", c. 1, s. 60.

bəyan olunmuş sözlərdir: “Pərvərdigara! Biz özümüzə zülm etdik. Əgər Sən bizi bağışlamasan və Öz rəhmətində qərar verməsən, hökmən ziyankarlardan olacağıq.[1]

## *Bildirişlər*

1. Tövbə tövfiqi (yardımı) Allahdan olduğu üçün, tövbə yolunu da Allahdan öyrənmək lazımdır. (“Min rəbbihi kəlimatin”)
2. Tövbənin qəbulu, onun gerçəkləşmə yolu Allahın tərbiyə və rübubiyyət sifətlərindəndir. (“Min rəbbih”)
3. Bütün lütflər və tövbənin qəbulu yalnız Allahın işidir. (“Huvə”)
4. Əgər tövbə həqiqi tövbə olsa, Allah onu qəbul edər. (“Huvət təvvab”)
5. Tövbəni pozduğumuz zaman yenidən tövbəni qəbul edən Allahdır (“Huvət təvvab”)
6. Allahın üzrü qəbul etməsi danlaq və məzəmmətlə yox, onun mərhəməti ilə müşayiət olunur. (“Əttəvvabur rəhim”)

38. ﴿قُلْنَا اهْبِطُواْ مِنْهَا جَمِيعاً فَإِمَّا يَأْتِيَنَّكُم مِّنِّي هُدًى فَمَن تَبِعَ هُدَايَ فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Dedik: “Hamınız oradan (bağdan yerə) enin. Mənim tərəfimdən sizin üçün bir hidayət gəldiyi zaman, kim Mənim hidayətimə tabe olsa, onlar üçün nə bir qorxu var, nə də qəmgin olacaqlar.”**

39. ﴿وَالَّذِينَ كَفَرواْ وَكَذَّبُواْ بِآيَاتِنَا أُولَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Amma o kəslər ki, kafir oldular və Mənim ayələrimi təkzib etdilər, onlardır cəhənnəm əhli və daim orada qalacaqlar.”**

## *Nöqtələr*

◘Adəmin öz xətasını etiraf etməsi və tövbə qılması onun Allah tərəfindən bağışlanmasına səbəb olsa da, o, tövbədən sonra behiştə qayıtmadı. Çünki büdrəmənin əsərləri başqadır, ilahi əfv başqa! Bir neçə ayə qabaq eniş əmri həm də qəhrin bir növü idi. Amma bu ayə Adəmin tövbəsindən sonra nazil olduğu üçün adi şəkildə bəyan olunmuşdur. Həmçinin ümidvar edir ki, əgər ilahi hidayətə tabe olsalar, hüzn və qəmləri olmayacaq.

## *Bildirişlər*

1. Bəzən bir hərəkətin müsbət və mənfi təsir dairəsi bütün əsrləri və nəsilləri əhatə edir.
2. Bir büdrəmə və xəta ilə kimsəni rədd etmək olmaz. Çünki insan düzəlmək və hidayət olmaq xüsusiyyətinə malikdir.
3. Bəşərin hidayəti, doğru yola yönəldilməsi üçün peyğəmbərlərin gəlişi qətidir.
4. Gerçək hidayət yalnız Allah tərəfindəndir.
5. Gerçək əmniyyət və aramlıq dinə və ilahi göstərişlərə tabeçilik sayəsində hasil olur.

40. ﴿يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ﴾

**“Ey İsrail övladları! Sizə ruzi etdiyim nemətləri yadınıza salın və əhdimə vəfa edin ki, Mən (də) sizin əhdinizə vəfa edim. Yalnız Məndən qorxun!”**

[1] “Ə`raf”, 23.

## *Nöqtələr*

◘"İsrail" həzrət Yaqubun digər bir adıdır. Bu söz "bəndə" və "Tanrı" sözlərindən yaranmışdır. Belə ki, "İsrail" sözünün lüğət mənası "Allah bəndəsi" olur.

◘Bəni-İsrailin tarixi, onların fironçular tərəfindən əsarəti, bu qövmün həzrət Musa tərəfindən xilası, onların bəhanəçiliyi və dindən dönməsi bir tabe və xüsusi bir tarix vücuda gətirmişdir. Bu tarix müsəlmanlar üçün də ibrətverici və nəsihətamizdir. Əgər müsəlmanlar diqqətli olmasalar, rəvayətlərin bildirdiyinə görə, eyni taleyə düçar olacaqlar.

◘Səmavi kitabların hökmlərinə şamil olan ilahi əhdlər və Allahın hamıdan aldığı fitri əhdlər gerçəkləşəsidir. Quranda imamət məsələsi əhd adlanmışdır: "Mənim əhdim (imamət məqamı) zalım fərdlərə çatmaz."[1] Demək, əhd səmavi imam və rəhbərə vəfa, ona itaətdir. Yeri gəlmişkən, rəvayətlərdə oxuyuruq: "Namaz ilahi əhddir."[2]

## *Bildirişlər*

1. İlahi nemətlərin xatırlanması Allaha məhəbbət və itaət səbəbidir.

Allaha doğru dəvət edərkən Onun lütflərini xatırlayın ki, qəbul üçün zəmin yaransın.

2. Nemətləri yada salıb zikr etmək vacibdir.

3. Ata-babalara verilmiş nemətlər insanın özünə verilmiş nemətlər yerindədir. Nemətlər yəhudilərin babalarına peyğəmbər dövründə verilmiş olsa da, Allah onların nəslindən olanlara bunu unutmamağı tapşırır.

4. İlahi əhdlərə vəfa vacibdir.

5. Allahın lütfündən bəhrələnməyin şərti ilahi vəzifələr yolunda qədəm götürməkdir. Bəli, biz müti olduqda Allah da dualarımızı qəbul edəcək.

6. İlahi vəzifələrimizi yerinə yetirərkən heç bir gücdən qorxmayaq və başqalarının münasibətini əsas götürməyək.

Düşmənin mənfi təbliğatı, danlaqları, hədələri, qurğuları mühüm deyil. Allahın qəhri və qəzəbi hər şeydən mühümdür.

41. ﴿وَآمِنُواْ بِمَا أَنزَلْتُ مُصَدِّقاً لِّمَا مَعَكُمْ وَلاَ تَكُونُواْ أَوَّلَ كَافِرٍ بِهِ وَلاَ تَشْتَرُواْ بِآيَاتِي ثَمَناً قَلِيلاً وَإِيَّايَ فَاتَّقُونِ﴾

**"(Quranda) nazil etdiyimə iman gətirin ki, sizinlə olanı (Tövratı) təsdiq edir. Ona ilkin kafir olmayın. Mənim ayələrimi heç nəyə satmayın və təkcə Məndən qorxun."**

## *Nöqtələr*

◘Ayə yəhudi alimlərinə xitab edərkən buyurur: "Quran sizin Tövratda olan müjdələrlə uyğundur. (Söhbət bütün hökmlərdəki uyğunluqdan yox, ümumi və icmali bir həmahəngliкdən gedir.) Bir zaman İslamın zühurunu təbliğ edib, yolunu gözləyirdiniz. İndi küfrdə qabağa düşməyin ki, sizə baxaraq başqa yəhudilər də İslamdan boyun qaçırsınlar. İlahi ayələri ucuz dünya rəyasətinə satmayın və Allahdan qorxun.

## *Bildirişlər*

1. Xalqın düzgün etiqadlarını qəbul edək ki, onlar da bizim sözlərimizi qəbul etsinlər.

2. Tövrat və İncilin bəzi hissələrindəki təhriflər onların digər hissələrinin qəbuluna mane olmasın.

3. Alimlərin azğınlığı başqalarının da azğınlığına səbəb olur.

---

[1] "Bəqərə", 124.

[2] "Vəsail", c. 1, s. 110.

4. Alimlərin susmasının və haqqı gizlətməsinin rəmzi onların maddiyyata bağlılıqlarıdır.

5. Dünya nemətlərinin azlığını nəzərə alsaq, bütün dünya nemətlərinə çatmaq bir an azğınlığa dəyməz.

6. Var-dövlət və məqamı itirməkdən nigaran olmaq əvəzinə, Allahın qəhr və qəzəbindən qorxmaq lazımdır.

42. ﴾وَلاَ تَلْبِسُواْ الْحَقَّ بِالْبَاطِلِ وَتَكْتُمُواْ الْحَقَّ وَأَنتُمْ تَعْلَمُونَ﴿

**"Haqqı batillə pərdələməyin və həqiqəti bildiyiniz halda onu gizlətməyin."**

## *Nöqtələr*

◘"Lubs" sözü "örtmək" və "ləbs" sözü "şəkk-şübhə" deməkdir.

◘İnsanın başqa varlıqlardan üstünlüyü onun xəbərdarlığı, mərifəti və agahlığıdır. Şəkk-şübhə, vəsvəsə yaratmaqla haqqı xalqdan gizlədənlər, əslində onların yeganə imtiyazını əlindən alırlar. Bu ən böyük zülmdür.

◘Həzrət Əli (ə) buyurur: "Əgər batil xalis şəkildə (olduğu kimi) bəyan olunsa, nigarançılıq yoxdur. (Bu halda xalq həqiqəti bilər və batili tərk edər.) Həqiqət də xalis şəkildə bəyan olunsa, müxalifin dili bağlanar. Amma təhlükə oradadır ki, haqq və batil bir-birinə qarışdırılıb və birindən bir hissəsi elə göstərilir ki, şeytanın öz havadarlarına, hakimiyyətinə zəmin yaransın."[1]

## *Bildirişlər*

1. Nə haqqı batilə qatışdırıb onu dəyişək, nə də batili haqq libasında göstərək!
2. İnsanın haqqı pərdələməsinin ən üstün şahidi vicdan və fitrətdir.

43. ﴾وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ وَارْكَعُواْ مَعَ الرَّاكِعِينَ﴿

**"Namazı bərpa edin, zəkat ödəyin və rüku edənlərlə birlikdə rüku edin."**

## *Bildirişlər*

1. İmana dəvətdən sonra saleh əmələ dəvət gəlir.
2. Yəhudilərin ayinlərində də namaz və zəkat olmuşdur.
3. Namaz, Allahın xalqına yardım və zəkat yolu ilə Allahla rabitə müqəddəs üçbucaqdır.
4. Əsl namaz göstərişi cəmiyyətlə olan namazdır. Dinin əsasını cəmiyyətdə iştirak və guşənişinlikdən uzaqlıq təşkil edir.

44. ﴾أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنسَوْنَ أَنفُسَكُمْ وَأَنتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلاَ تَعْقِلُونَ﴿

**"Xalqı yaxşılığa dəvət edib, özünüzü unudursunuzmu? Halbuki siz (səmavi) kitabı oxuyursunuz. Məgər düşünmürsünüz?"**

---

[1] "Nəhcül-bəlağə", k. 49.

## *Nöqtələr*

◘Yəhudi alimləri İslam peyğəmbərinin besətindən qabaq xalqı son peyğəmbərə iman gətirməyə çağırırdılar. Onlar növbəti peyğəmbərin zühuru ilə xalqa müjdə verirdilər. Amma peyğəmbər zühur etdikdə alimlər özləri iman gətirmədilər. Onlar İslamı qəbul etmiş yaxınlarına müsəlman qalmağı tövsiyə etdikləri halda özləri müsəlman olmurdular.[1]

◘Rəvayətdə buyurulmuşdur: "Başqalarını behiştə dəvət edib, özü cəhənnəm əhli olan alim ən böyük və çətin həsrətləri çəkəcəkdir."[2]

◘Tilavətin (burada: dəvət) haqqı əməldir. İmam Sadiq (ə) buyurmuşdur: "Xalqı təkcə sözlə yox, həm də öz əməllərinizlə dəvət edin."[3] Həzrət Əlinin (ə) belə buyurduğu nəql olunmuşdur: "And olsun ki, öncə özüm bir işi görməmiş sizi ona dəvət etmirəm. Özüm öncə bir işi tərk etməmiş sizi həmin işi tərk etməyə çağırmıram.[4]

"Nəhcül-bəlağədə" buyurmuşdur: "Özünü başqalarına imam qərar verən kəs əvvəlcə özünü tərbiyəyə başlamalıdır."[5] İmam Kazim (ə) buyurmuşdur: "Dediyinə əməl edən alimlərə salam olsun. Vay olsun təkcə danışan alimlərə."[6]

**Əməlsiz alim təmsil dilində:**

a) Quranda əməlsiz alim kitab yükü daşıyan ulağa bənzədilir. Bu ulaq daşıdığı yükdən faydalanmır.[7]

b) Rəvayətlərdə bildirilir:

–Həzrət Peyğəmbər (s): "Əməlsiz alim elə bir çırağa bənzəyir ki, özü yanır, nuru isə xalqa çatır".[8]

–Həzrət Peyğəmbər (s): "Əməlsiz alim kamansız ox atana bənzəyir."

–Həzrət İsa: "Əməlsiz alim evin damına qoyulmuş çırağa bənzəyir. Bu evin otaqları qaranlıqdır."[9]

–Həzrət Əli (ə): "Əməlsiz alim səmərəsiz ağac, infaq olunmayan xəzinə kimidir.[10]

–İmam Sadiq (ə): "Əməlsiz alimin moizəsi baş üzərinə yağan yağış tək qəlblərə nüfuz etməz."[11]

v) Alimlərin dilində:

–Əməlsiz alim xəzinə üstə yatmış aca, bulaq başında oturmuş təşnəyə, dərddən nalə çəkən təbibə, daim dərman nüsxəsini oxuyub onu qəbul etməyən xəstəyə, sözü əməlindən fərqlənən münafiqə və cansız cəsədə bənzədilmişdir.

## *Bildirişlər*

1. Yaxşı işə dəvət edən kəs özü yaxşı işləri ilə tanınmalıdır.
2. Əgər unutqanlığımızın müqəddiməsini özümüz yaratmışıqsa, heç bir üzrümüz yoxdur. Yalnız unutqanlığında günahı olmayan kəsin üzrü qəbuldur.
3. Səmavi kitabı tilavət etmək (oxumaq) kifayət deyil. İlahi kəlamları düşünmək lazımdır.
4. Unutqanlıq özü də düşüncəsizlik nişanəsidir.

---

[1] "Nümunə", c. 1, s. 214.
[2] "Bihar", c. 2, s. 37.
[3] Nurus-səqəleyn", c. 1, s. 57.
[4] "Nəhcül-bəlağə", x. 175.
[5] "Nəhcül-bəlağə", h. 73.
[6] "Bihar", c. 7, s. 99.
[7] "Bihar", c. 7, s. 100.
[8] Kənzül-ümmal, h, 29109.
[9] "Bihar", c. 14, s. 309.
[10] "Ğurərul-hikəm".
[11] "Bihar", c. 2, s. 39.

45. ﴿وَاسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلاَةِ وَإِنَّهَا لَكَبِيرَةٌ إِلاَّ عَلَى الْخَاشِعِينَ﴾

**“Səbir və namazla yardım axtarın. Bu iş xaşelərdən (Allaha müti olanlardan) başqalarına ağırdır.”**

## *Nöqtələr*

◘Bu ayə yəhudilərə xitabın ardınca nazil olsa da, bütün xalqa müraciətdir. Rəvayətlərdə oxuyuruq ki, Həzrət Əli (ə) mühüm bir məsələ ilə üzləşdikdə namaza durar və bu ayəni oxuyardı.

◘Bir rəvayətdə həzrət Peyğəmbərdən (s) nəql olunur ki, səbir üç növdür: müsibətə səbir, günah qarşısında səbir, ibadətdə səbir.[1] Amma xüşusu (mütiliyi) olmayanlar üçün bu iş çox ağırdır. Xüşu qəlb və ruha, xüzu bədən üzvlərinə aid olan səciyyədir.

◘Diqqətlə qılınan namaz Allahın sonsuz qüdrətini insana xatırladır. Bu halda insan Allahdan qeyrilərini çox kiçik görür. Diqqətli namaz insanın qəlbində Allahın sevgisini artırır, təvəkkül ruhiyyəsini gücləndirir. Belə namaz insanı maddi bağlılıqlardan azad edir. Bütün bu əsərlər insanı çətinliklər qarşısında möhkəmləndirir.

◘Bütün ibadətlərin açarı səbir və müqavimətdir. Mələklər behişt əhlinə salam verirlər. Bu salamın səbəbi onların namazı, həcci, zəkatı yox, müqavimət və möhkəmliyidir.[2] Müqavimət yoxdursa, namaz, cihad, həcc və zəkat da olmayacaq. Hətta hidayət və ilahi rəhbərlik məqamına çatmağın şərti də səbirdir.[3]

**Xatirə:**

Bir gün Nəccaşi adlı şair ramazan ayında şərab içmişdi. Həzrət Əlinin (ə) göstərişi ilə ona səksən şallaq vuruldu. İyirmi zərbə isə günah ramazan ayında baş verdiyi üçün əlavə edildi. Bu şəxs həzrətdən inciyib Müaviyəyə qoşuldu və Həzrət Əlinin (ə) ziddinə şerlər deməyə başladı. Nəccaşinin Kufədə mühüm qəbilələrdən olan ətrafı həzrət Əlidən (ə) gileyləndilər ki, nə üçün öz yaxınlarını saxlamır?! Onların rəisi Tariq ibn Abdullah narahatlıqla imama dedi: “Nə üçün siz dostla biganə arasında fərq qoymursunuz? Axı Nəccaşi kimi şəxsə şallaq vurulmamalıdır. Biz bu cür rəftara dözmərik.” İmam onun cavabında haqqında danışdığımız ayəni oxudu. Həzrətin bu cavabından sonra Tariq də Müaviyəyə qoşuldu.

Demək, ayə namaz haqqında olsa da, oxşar hallarda ondan kömək almaq olar.

## *Bildirişlər*

1. Səbir və namaz çətinlikləri aradan qaldırmaq üçün iki güclü vasitədir.
2. Allah qarşısında acizlik və bəndəliyimizi nə qədər çox izhar etsək, Ondan daha çox yardım alıb, çətinliklərə qalib gələcəyik.
3. “Yalnız Səndən kömək istəyirik” ayəsində Allahdan yardım diləmək, Onun göstəriş verdiyi şeydən kömək istəməyə zidd deyil.
4. Namazın ağır gəlməsi Allah qarşısında təkəbbürün nişanəsidir.

46. ﴿الَّذِينَ يَظُنُّونَ أَنَّهُم مُّلاَقُو رَبِّهِمْ وَأَنَّهُمْ إِلَيْهِ رَاجِعُونَ﴾

**“(Xaşelər) o kəslərdir ki, (qiyamətə) Rəbbi ilə görüşə və Ona doğru qayıdışa imanlıdırlar.”**

---

[1] “Bihar”, c. 71, s. 70.
[2] “Rə’d”, 24.
[3] “Səcdə”, 24.

## *Nöqtələr*

◘“Liqa” görmək yox, hüzur mənasındadır. Əgər kor bir şəxs birinin hüzuruna getsə, deyir ki, filankəslə mülaqat (“liqa”) etdim. Hansı ki, kor insan hüzurunda olduğu şəxsi görmür. “Məcməül-bəyan”sahibi deyir: “Pərvərdigarın liqası dedikdə Onun mükafat və cəzası ilə mülaqat (görüş) nəzərdə tutulur.”

Allahla mülaqat xaşelərin namazda əldə etdiyi irfani hal da ola bilər. Çünki namaz Allah qarşısında hüzurdur.

◘Elm qarşısında zənn və güman tənqid olunur.[1] Amma zənn və gümanda məqsəd yəqinlik əldə etməkdirsə, bu faydalıdır. Bu yəqinlik cüzi də olsa xeyirlidir. Çünki Allah şücaətli və xalis mücahidləri “güman sahibləri” kimi yad edir.[2]

## *Bildirişlər*

1. İnsanın öz hərəkətlərini nəzarət altına alması üçün qiyamətin varlığına güman da kifayət edir.
2. Xaşe kəs namazda Allahla görüşdə olduğunu duyur.

47. ﴿يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَنِّي فَضَّلْتُكُمْ عَلَى الْعَالَمِينَ﴾

**“Ey Bəni-İsrail! Sizə ruzi etdiyim nemətləri yada salın və bunu ki, Mən sizə dünyadakılardan üstünlük verdim.”**

## *Nöqtələr*

◘Bu ayədə həzrət Yaqubun övladlarından və nəslindən istənilir ki, Allahı daha yaxşı tanımaq və şükür ruhiyyəsini diriltmək üçün həmin nemətləri yada salsınlar. Əlbəttə ki, Bəni-İsrail öz zamanının xalqlarından üstün və fəzilətli idi. Çünki Quran müsəlmanlar haqqında buyurmuşdur: “Siz ümmətlərin ən üstünüsünüz.”[3] Bəlkə də üstünlük dedikdə, həzrət Musanın və Bəni-İsrail qövmünün fironçulara qalib gəlməsi nəzərdə tutulmuşdur. Bu üstünlük əxlaqi və etiqadi üstünlük olmaya da bilər.[4] Çünki Quran dəfələrlə onların bəhanəçiliyini və etiqadsızlığını tənqid etmişdir.

## *Bildirişlər*

1. Nemət və fəzilət Allahın əlindədir.
2. Zalımın hakimiyyətindən qurtuluş böyük ilahi nemətlərdəndir.

48. ﴿وَاتَّقُواْ يَوْماً لاَّ تَجْزِي نَفْسٌ عَن نَّفْسٍ شَيْئاً وَلاَ يُقْبَلُ مِنْهَا شَفَاعَةٌ وَلاَ يُؤْخَذُ مِنْهَا عَدْلٌ وَلاَ هُمْ يُنصَرُونَ﴾

**“Qorxun o gündən ki, kimsə kimsədən bir şeyi (Allahın əzabını) dəf etməz və kimsədən bir şəfaət qəbul olunmaz. Kimsədən əvəz alınmaz və kimsəyə kömək göstərilməz.”**

## *Nöqtələr*

◘Bu ayədə yəhudilərin bəzi yanlış əqidələrinə və yersiz ümidlərinə işarə olunmuşdur. Onlar güman edirdilər ki, qiyamət günündə əcdadları onlara şəfaət verəcək. Necə ki, bütpərəstlər

---

[1] “Nəcm”, 28.
[2] “Bəqərə”, 249.
[3] “Ali-İmran”, 110.
[4] “Casiyə”, 16.

bütləri özlərinə şafətçi düşünürdülər. Onlardan bəziləri qurbanlıq etməyi günahlarına kəffarə bilirdi. Pulları olmadıqda bir cüt göyərçinin başını kəsirdilər. Onlardan bir qrupu da ölüləri ilə qızıl gümüş basdırırdılar ki, ölü həmin qızıl-gümüşü günahlarına cərimə olaraq ödəsin.

Onlar xəbərsizdilər ki, qiyamət dünyanın xilafınadır. Pulla, dəstəbazlıq ilə, zorluların himayəsi ilə problemi aradan qaldırmaq dünyaya aid olan bir işdir.

◘Qiyamət günü bütün səbəblər qət olur.[1] Yaxınlıq əlaqələri aradan qalxır[2], üzr dili bağlanır[3], var-dövlət və övladlar kara gəlmir[4], qohumluq səmərəsiz olur[5], qüdrətlər puça çıxır,[6] Allahın izni olmadan şəfaət qəbul olunmur,[7] fidyə qəbul olunmur.[8]

**Şəfaət haqqında bir bəhs:**

◘Şəfaət sözü "şəf" sözündən olub "cüt" deməkdir. Yəni iman, təqva və əməl mayası olanlar qiyamət günü çətinliyə düşdükdə onların mayasına bir lütf əlavə olunur. İlahi övliyaların lütfü ilə cütləşmə nəticəsində bəndələr Allahın qəhrindən və qəzəbindən nicat tapırlar. Ona görə də şəfaət yalnız təlaş edən insanlara nəsib olur. Bu çalışqan insanlar yolda qaldıqlarından onları müşayiət edəsi bir qüdrətə ehtiyac duyurlar.

◘Quranda təqribən otuz ayə şəfaət haqqındadır. Bu ayələr bir neçə qismə bölünür:

1. Şəfaəti inkar edən ayələr. Məsələn: "Müamilə, dostluq və şəfaətin olmayacağı bir gün..."[9]

2. Şəfaətin Allaha məxsus olduğunu bildirən ayələr. Məsələn: "Ondan savay heç bir yardımçı və şəfaət edən yoxdur."[10]

3. Yalnız Allahın izni ilə başqalarının şəfaətini mümkün sayan ayələr. Məsələn: "Onun yanında kim şəfaət edə bilər? Yalnız Onun izni ilə![11]

4. Şəfaət olunanlar üçün şərtləri sayan ayələr. Məsələn:

a) Şəfaət Allahın razılığını qazanmış insan üçündür.[12]

b) Zalımlar üçün dost və şəfaətçi yoxdur.[13]

v) Mələklər iman gətirmiş kəslər üçün dua və istiğfar edirlər.[14]

Yuxarıdakı ayələri nəzərdən keçirdikdə aydın olur ki, şəfaət qeyd-şərtsiz deyil. Şəfaət Allahın icazə və iznindən asılıdır. Şəfaət olunan şəxsdə müəyyən şərtlər olmalıdır. Bir şəxsdə şəfaət şərtləri ödənməmişdirsə, hətta peyğəmbərin arvadı da olmuş olsa, şəfaət olunası deyil. Çünki həzrət Nuhun, həzrət Lutun zövcələri öz günahlarına görə şəfaətə müvəffəq olmadılar.[15]

Beləcə, insanı Allahın övliyalarına çatdıran şəfaət faydalıdır. İnsanı ümidsizlikdən qurtara bilən şəfaət səmərə verər. Yox, əgər şəfaətə inam insanda günah cürəti yaradırsa, bu şəfaət heç vaxt qəbul oluna bilməz. Məsələn, məsihilər inanırlar ki, İsa onların günahlarının bağışlanması üçün fəda oldu.

**Sual:** Məgər Allahın övliyalarının şəfaəti onların Allah iradəsi qarşısında dayanmaları deyilmi? Məgər peyğəmbər Allahın əzab vermək istədiyi kəsə şəfaət verməklə Allahın istəyinin qarşısını almırmı?

---

[1] "Bəqərə", 166.
[2] "Mo`minun", 101.
[3] "Mursəlat", 36.
[4] "Şuəra", 88.
[5] "Mumtəhinə", 3.
[6] "Haqqə", 29.
[7] "Ənbiya", 28.
[8] "Hədid", 15.
[9] "Bəqərə", 254.
[10] "Səcdə", 4.
[11] "Bəqərə", 255.
[12] "Ənbiya", 28.
[13] "Qafir", 18.
[14] "Qafir", 7.
[15] "Təhrim", 10.

**Cavab:** Günahkarların cəzalandırılması da, övliyalara şəfaət icazəsi verilməsi də Allahın istək və iradəsidir. Ona görə də ilahi övliyaların şəfaəti Allahın iradəsinə zidd sayılmır.

**Sual:** İlahi övliyaların şəfaəti onların Allahdan daha rəhimli olması demək deyilmi? Axı onlar Allahın əzab vermək istədiyi şəxsə şəfaət verirlər?

**Cavab:** İlahi övliyalardakı rəhm də, bu rəhmdən istifadə də Allah tərəfindəndir. Öz rəhmi və lütfü ilə şəfaət icazəsi verən də Allahdır.

**Sual:** Şəfaət Allahın iradəsini dəyişmirmi?

**Cavab:** Müxtəlif şəraitlərdə Allahın iradəsi bir növ deyil. Allahın iradəsi günahkarı cəzalandırmaqdır. Amma günahkar tövbə etdikdə Allah öz qəhrini götürür. Çünki günahkar insan tövbəkar insandan fərqlənir. İnsan dünyada ilahi övliyalara məhəbbət və itaətlə onların şəfaətinə nail olur. Övliyalara müxalif olanlar isə şəfaətdən məhrum qalır.

◘Dünyada günahların üç bağışlanma vasitəsi var: tövbə[1]; böyük günahların tərki[2]; yaxşı və xeyirli işlər.[3]

Axirətdə isə yeganə bağışlanma yolu şəfaətdir.

## *Bildirişlər*

1. İlahi mühakimədə vəkilsiz və şəfaətsiz hüzur qorxusu ilahi təqvanın güclənməsinə şərait yaradır.
2. Xurafat və batil əqidələrlə sərt rəftar edin.

49. ﴿وَإِذْ نَجَّيْنَاكُم مِّنْ آلِ فِرْعَوْنَ يَسُومُونَكُمْ سُوَءَ الْعَذَابِ يُذَبِّحُونَ أَبْنَاءكُمْ وَيَسْتَحْيُونَ نِسَاءكُمْ وَفِي ذَلِكُم بَلاء مِّن رَّبِّكُمْ عَظِيمٌ﴾

**(“Yadınıza salın) O zaman ki, sizi fironçulardan azad etdik. Onlar daim sizə ən pis şəkildə əziyyət verir, oğlanlarınızın başını kəsir, qadınlarınızı diri saxlayırdılar. Bu işdə sizin üçün Allahınız tərəfindən böyük və çətin imtahan var idi.”**

## *Nöqtələr*

◘Firon Rum, Kəsra, İran padşahları və türk xaqanları kimi bir müstəbid idi. Həzrət Musanın dövründəki fironun adı I Ramzes idi. Deyilənlərə görə onun babası Qahirə muzeyində saxlanılır.[4]

◘“Yəsumunəkum” sözü “sum” kökündən olub, bir şeyin ardınca fasilə vermədən getmək mənasını daşıyır. Ayədəki bu söz Bəni-İsrailin ardıcıl şəkildə əzaba düçar edildiyini bildirir. Onlara verilən işkəncələrdən biri oğlan övladlarının öldürülməsi idi. Fironun belə bir əmr verməsinin səbəbi onun gördüyü yuxu idi. Yuxunu yozanlar Firona demişdilər ki, səni bəni-İsraildən olan bir kişi öldürəcək. Başqa bir səbəb bəni-İsrailin inkişafının qarşısının alınması ola bilərdi.

## *Bildirişlər*

1. Zalımların hakimiyyətindən qurtuluş Allahın ən böyük nemətlərindəndir. Necə ki, Allah bütün nemətlər arasında bu nemətin adını çəkmişdir.
2. Keçmiş çətinliklərin bəyanı bu günkü azadlığın şirinliyini qat-qat artırır.
3. Zalımları qüdrətə çatdıran onun ətrafındakılardır.
4. Həm əsarət, həm də azadlıq imtahan və tərbiyə vasitəsidir.

---

[1] “Bəqərə”, 160.
[2] “Nisa”, 31.
[3] “Hud”, 114.
[4] “Yunus”, 92.

5. Müdafiə qüvvələrinin məhvi və rifah qüvvələrinin gücləndirilməsi firona aid bir işdir.
6. Zalımlar öz quruluşlarını və hakimiyyətlərini hifz etmək üçün bütün işkəncələrə əl atırlar.

50. ﴿وَإِذْ فَرَقْنَا بِكُمُ الْبَحْرَ فَأَنجَيْنَاكُمْ وَأَغْرَقْنَا آلَ فِرْعَوْنَ وَأَنتُمْ تَنظُرُونَ﴾

**“Sizin üçün dəryanı yardığımız, sizə nicat verdiyimiz və gözləriniz qarşısında fironçuları qərq etdiyimiz zamanı (xatırlayın)”.**

## *Nöqtələr*

◘Bəni-İsrailin Nil çayından keçmə macərası Quranın bir neçə ayəsində bəyan olunmuşdur.[1] Allah həzrət Musanın öz əsasını yerə vurması ilə suyu yarıb onları dənizə oxşar Nildən keçirdi.

◘Bu ayədə üç ilahi möcüzə ardıcıl şəkildə bəyan olunmuşdur: dəryanın yarılması, bəni-İsrailin nicat tapması, fironçuların qərq olması.

## *Bildirişlər*

1. Vasitələrin rolu Allahın hikmətamiz iradəsindən asılıdır. Musanın bəzən daşdan su çıxaran əsası var. Bəzən də suya girib onun arasından yol açır.
2. Qaranlıq gecənin sonu bəyazdır. Bəni-İsrail bütün işkəncələrdən və bəlalardan sonra rifah və qurtuluşa çatdı.
3. Məzlumların hüzurunda zalımlardan intiqam alınması onlar üçün bir məlhəmdir.

51. ﴿وَإِذْ وَاعَدْنَا مُوسَى أَرْبَعِينَ لَيْلَةً ثُمَّ اتَّخَذْتُمُ الْعِجْلَ مِن بَعْدِهِ وَأَنتُمْ ظَالِمُونَ﴾

**(“Yada salın.) o zaman ki, Musa ilə qırx gecəlik vədələşdik. Siz ondan sonra buzovu tutdunuz (ona ibadət etdiniz). Bir halda ki, sitəmkar idiniz.”**

## *Nöqtələr*

◘Həzrət Musanın adı Quranın 34 surəsində 136 dəfə yad edilmişdir. Həzrət Musanın vəd yerinin macərası “Əraf” və “Taha” surələrində nəql olunmuşdur.[2] Vəd yeri Tur dağı, vəd müddəti isə əvvəlcə otuz gün müəyyənləşdirilmişdi. Vəd yerində isə həmin müddətə daha on gecə əlavə olundu. Bu müddət Tövratın qəbulu üçün müəyyənləşdirilmişdi. Bəni-İsrail həzrət Musanın qardaşı Harun kimi rəhbərə malik olduğu halda bütün ilahi nemətləri və lütfləri unudub, buzova pərəstiş etməyə başladı. Buzovu mahir sənətkar Samiri Musa olmadığı vaxt qızıldan hazırlamışdı.

◘Quran ayələrindən məlum olur ki, bu vəddə üç məsələ nəzərdə tutulmuşdur: Tövratın alınması, Harun üçün xilafət məqamının isbatı və bəni-İsrailin sınağı.

◘Bəni-İsrail cəmiyyətinin şirkə süqutunda bir neçə amil rol oynadı:
a) Həzrət Musa kimi bir rəhbərin olmaması;
b) Samiri kimi mahir və azğın sənətkarların mövcudluğu;
v) Cazibəyə malik qızıl və bəzək əşyalarından istifadə;
q) Güclü səsə malik təbliğat şeypurları. Çünki Samirinin buzovu səs çıxarırdı;
e) Xalqın sadəlövhlüyü, tez inanması və dərin imandan məhrumluğu;
ə) İnəkpərəstliyin keçmişi və bu əqidə üçün münasib şərait.

---

[1] “Taha”, 77; “Şuəra”, 63; “Duxan”, 24.
[2] “Ə`raf”, 142; “Taha”, 86.

### *Bildirişlər*

1. İlahi rəhbərlərin ibadət məqsədi ilə bir müddət cəmiyyətdən uzaqlaşması layiqli və yaxşı işdir.
2. Xalqdan kənarda qırx gecəlik ibadətin xüsusi əsərləri vardır.
3. Vəhyin və ruhani ilhamın əldə olunmasında qırx rəqəminin rolu var.
4. Şirk bəşəriyyətə qarşı zülmdür. Çünki müşrik insan Allahdan əl götürüb aciz zalımlara əl açır.

52. ﴿ثُمَّ عَفَوْنَا عَنكُم مِّن بَعْدِ ذَلِكَ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“O zaman ondan (azğınlığınızdan) sonra sizi əfv etdik ki, bəlkə şükür edəsiniz.”**

### *Nöqtələr*

◘Şirkdən tövbə iman gətirmək və şəhadət kəlmələrini izhar etməkdir. Peyğəmbərlərin besəti insanları şirk və küfrdən xilas etmək üçündür. “Allah şirki bağışlamır”[1] ayəsi tövhidə qayıtmadan şirk əqidəsində dünyadan gedənlərə aiddir.

### *Bildirişlər*

1. Hətta şirk və buzova pərəstiş əqidəsindən də tövbə və qayıdış yolu var.
2. İlahi əfvin özü də şükür etmək üçün zəmindir.

53. ﴿وَإِذْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَالْفُرْقَانَ لَعَلَّكُمْ تَهْتَدُونَ﴾

**“(Yenə yada salın,) Musaya kitab (Tövrat) və Furqan verdiyimiz zamanı ki, bəlkə hidayət olasınız.”**

### *Nöqtələr*

◘Furqan haqqı batildən ayıran bir vasitədir. Səmavi kitabda haqq batildən seçildiyi üçün ona “furqan” deyilmişdir. Kitab sözü ilə yanaşı işləndiyindən furqan sözü Musaya Tövratdan əlavə əta olunmuş doqquz möcüzə və ya başqa həqiqətlərə də işarə ola bilər.

### *Bildirişlər*

1. Səmavi kitab haqqı bəyan edir və onu batildən ayırır.
2. Allah tərəfindən höccət tamamlanmış, bəhanələr kəsilmişdir. Amma xalq nəfs istəkləri səbəbindən bəzən haqqı qəbul etmir.
3. Səmavi kitabın nazil olmasında məqsəd xalqın hidayətidir.

54. ﴿وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ يَا قَوْمِ إِنَّكُمْ ظَلَمْتُمْ أَنفُسَكُمْ بِاتِّخَاذِكُمُ الْعِجْلَ فَتُوبُواْ إِلَى بَارِئِكُمْ فَاقْتُلُواْ أَنفُسَكُمْ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ عِندَ بَارِئِكُمْ فَتَابَ عَلَيْكُمْ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ﴾

**“(Yadınıza salın) O zamanı ki, Musa öz qövmünə dedi: “Ey mənim qövmüm, siz buzova sitayiş etməklə, həqiqətən, özünüzə zülm etdiniz. Buna görə də Allaha doğru tövbə edib geri dönün və bir-birinizi qətlə yetirin. Bu iş Yaradanınızın yanında sizin üçün daha yaxşıdır. Allah sizin tövbənizi qəbul etdi. Çünki O, tövbələri qəbul edən, mehribandır.”**

---

[1] “Nisa”, 48, 116.

## *Nöqtələr*

◘Ayədə intihardan, yəni öldürməkdən yox, bir-birini öldürməkdən danışılır. Necə ki, başqa bir ayədə “bir-birinizə tənə vurmayın” buyurulur.[1] Başqa bir ayədə də buna oxşar bəyanat var: “Bir-birinizə salam verin.”[2]

◘Bu cür çətin tövbənin qəbulu yəhudilər üçün fəzilətdir. Çünki Allah münafiq müsəlmanların tənqidində buyurur: “Əgər onlara bir-birlərini öldürməyi vacib etsəydik və ya öz məmləkətlərindən xaric olmaları üçün fərman çıxarsaydıq, bütün bunları çox az bir hissə yerinə yetirərdi.[3]

## *Bildirişlər*

1. Xalqı ilahi hədlərin qəbuluna məhəbbətlə hazırlayın.
2. Şirk insanın özünə zülmüdür.
3. Dəlil, möcüzə nə qədər çox olarsa, vəzifə daha da ağır, vəzifədən boyun qaçırmaq isə daha da təhlükəli olacaq.

Buzova pərəstiş edənlər bütün bu möcüzələri gördükdən sonra edamdan başqa çıxış yolları qalmamışdı.

4. Dindən çıxanın (mürtəd) hökmü qətldir.
5. İlahi mərhəmət və ölüm, ilahi lənət və həyatdan üstündür.
6. İlahi hədlərin icrası insanın qətli bahasına başa gəlsə də, onun xeyrinədir.
7. İlahi göstərişlərin əsas məqsədi insana xeyir verməkdir.
8. Xalqın ağır cərimələri ödəməyə hazırlanması üçün bir çox bərəkətlər bəyan olunmalıdır.

55. ﴿وَإِذْ قُلْتُمْ يَا مُوسَى لَن نُّؤْمِنَ لَكَ حَتَّى نَرَى اللَّهَ جَهْرَةً فَأَخَذَتْكُمُ الصَّاعِقَةُ وَأَنتُمْ تَنظُرُونَ﴾

**“(Yada salın,) o zaman ki, dediniz: “Ey Musa, Allahı aşkar görməyincə, sənə iman gətirmərik. Beləcə, tamaşa etdiyiniz halda şimşək sizi bürüdü.”**

## *Nöqtələr*

◘Həzrət Musanın qövmü iki dəstəyə bölündü:

a) Seçilmiş bir qrup Musa ilə birlikdə münacat və Allahın kəlamını eşitmək üçün Tur dağına getdi. Amma Allahla Musanın söhbətlərini eşitdikləri zaman dedilər: “Haradan bilək ki, bu, Allahın səsidir? Allahı qəbul etmək üçün Onu hökmən gözümüzlə görməliyik.”

b) Digər bir dəstə Harunla qaldı. Amma həzrət Musa olmayan bir vaxtda onlar buzovpərəst oldular. Quranda Allahı görmək tələbində olanlar haqqında buyurulur: “Onları zəlzələ bürüdü.”[4] Bəlkə də bu ayədə xatırladılmış şimşək zəlzələ ilə müşayiət olunmuşdur. Onlar bu şimşəklə dünyalarını dəyişdilər. Çünki növbəti ayədə belə buyurulur: “Sizi öldükdən sonra ikinci dəfə dirildərik.”

◘Sual verənlər eyni ruhiyyədə deyildilər. Həm Musa, həm də xalq Allahla görüşmək istəyində idi. Musa xalqın nümayəndəsi olaraq ədəblə dedi: “Məni görün” Amma Musanın qövmü təkəbbürlə dedi: “Biz Allahı aşkar görməyincə Ona iman gətirmərik.” Ona görə də Allah Musanın cavabında belə buyurdu: “Sən məni heç vaxt görməyəcəksən.” Sonra ilahi qəzəb həmin qövmü bürüdü.

◘Bu ayə İslam peyğəmbərinə təsəlli verir ki, xalqın yersiz istəklərinə görə nigaran olmasın. Çünki xalq Musadan daha təhlükəli şeylər istəmişdi.

---

[1] “Hucurat”, 11.
[2] “Nur”, 61.
[3] “Nisa”, 66.
[4] “Ə`raf”, 154.

### *Bildirişlər*

1. Keçmişdəkilərin inadkarlıq, ədəbsizlik, yersiz tələblər aqibətindən ibrət götürün.

2. Bir qrup üçün məntiq, dəlil və moizə kifayətdir. Amma digər bir qrup üçün qəhr və qəzəb lazım gəlir.

3. Əgər Allah gözə görünmürsə, Onun əsərləri gözə görünür. Nə üçün bu əsərləri görməklə iman gətirmirsiniz?

56. ﴿ثُمَّ بَعَثْنَاكُم مِّن بَعْدِ مَوْتِكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**"Sonra sizi yenidən diriltdik. Bəlkə, Ona şükrü yerinə yetirəsiniz."**

### *Nöqtələr*

◘Şimşəkdən öldürülmüşlərin yenidən dirildilməsi həzrət Musanın pərişanlığı, nigarançılığı və duasından sonra baş verdi. İnşallah "Əraf" surəsində bu barədə danışacağıq.

### *Bildirişlər*

1. Rəcət və məad mümkünsüz iş deyil. Bəzi ölülər elə bu dünyada dirilmişlər.

2. Öncə çətinliklər, sonra isə qurtuluş şükür etmə ruhiyyəsinin yaranması üçündür.

57. ﴿وَظَلَّلْنَا عَلَيْكُمُ الْغَمَامَ وَأَنزَلْنَا عَلَيْكُمُ الْمَنَّ وَالسَّلْوَى كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَمَا ظَلَمُونَا وَلَكِن كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**"Buludları sizə kölgələnəcək etdik. Sizə "mənn" və "səlva" nazil edib dedik: "Sizə ruzi etdiyimiz pak nemətlərdən yeyin." Onlar (bəhanə axtarmaqla) bizə yox, özlərinə zülm etdilər."**

### *Nöqtələr*

◘Bəni-İsrail fironun hakimiyyətindən xilas edildikdən sonra onlara göstəriş verildi ki, Fələstin torpaqlarına daxil olsunlar. Onlar isə həmin yerdə zalımların olduğunu bəhanə gətirərək əmrdən boyun qaçırdılar və Musaya dedilər: "Allahınla birgə onlarla döyüşə get, biz isə burada oturmuşuq." Allahın qəhr və qəzəbi onları bürüdü və qırx il Tih səhrasında qaldılar. Amma Allah orada da onları lütfündən məhrum etməyib buludları kölgələnəcək qərar verdi. Onlara "mənn" və "səlva" adlı təbii və dadlı ruzilər nazil edildi.

◘Ayədə yağışsız, yalnız kölgə salan bulud "ğəmam" adlandırılmışdır. Yağışlı buluda isə "səhab" deyilir. "Mənn" ağaclarda yaranan xüsusi bir şirədir. Bəziləri ayədə bal və ya göbələk nəzərdə tutulduğunu da bildirmişlər. "Səlva" isə göyərçinə oxşar bir quşdur.

### *Bildirişlər*

1. Buludlar, külək və yağış Allaha tabedir.

2. Allahın ruzi verən ( raziq) olması xüsusi şərtlərlə məhdudlaşmır. Allah susuz, ələfsiz səhraya da təbii ruzi göndərir.

3. Allah insanın ruzisini halal və pak şeylərdən müəyyənləşdirmişdir.

4. Allahın əmrindən çıxma insanın özünə zülmüdür.

58. ﴿وَإِذْ قُلْنَا ادْخُلُواْ هَذِهِ الْقَرْيَةَ فَكُلُواْ مِنْهَا حَيْثُ شِئْتُمْ رَغَداً وَادْخُلُواْ الْبَابَ سُجَّداً وَقُولُواْ حِطَّةٌ نَّغْفِرْ لَكُمْ خَطَايَاكُمْ وَسَنَزِيدُ الْمُحْسِنِينَ﴾

**“(Yada salın) O zaman ki, dedik: “Bu kəndə (Beytül-Müqəddəsə) daxil olun və onun bol nemətlərindən nə istəyirsinizsə, ləzzətlə yeyin. Qapıdan (Beytül-Müqəddəs məbədi) səcdə edən və xaşe halda daxil olun və deyin: “Hittə” (günahlarımızı tök), Biz də sizin xətalarınızı bağışlayaq. Biz yaxşı əməl sahiblərinə artıq əvəz verəcəyik.”**

## *Nöqtələr*

◘“Maidə” surəsinin 21-ci ayəsində buyurulduğu kimi, bu ayədəki kənd sözü Beytül-Müqəddəsə işarədir. Tih biyabanında qırx il qaldıqdan sonra bəni-İsraillə Beytül-Müqəddəsə daxil olmaq əmri verildi. Onlar məscidə daxil olduqları vaxt mübarək “Hittə” sözünü deməli idilər. “Hittə” günahların yuyulması, bağışlanma istəyi və tövbənin bəyanıdır. “Ətyəbul-bəyan” təfsirində bildirilir ki, ayədəki qapı sözü şəhər darvazasına yox, hazırda da, “babul-Hittə” adlanan məscid qapısına aiddir. Ayədəki səcdə sözü məscidə daxil olduqdan sonra yerinə yetiriləsi şükür səcdəsini bildirir.

## *Bildirişlər*

1. Xalqın ehtiyacının təmini onlara ibadət əmrindən öndə gəlir.
2. Müqəddəs məkanlara daxil olmaq üçün xüsusi ehtiram lazımdır.
3. Bağışlamaq Allahdandır, tövbə və bağışlanma istəyi isə bizdən.
4. Dua və tövbə qaydasını Allahdan öyrənməliyik.

5. Allahın göstərişlərinə əməl etmək bağışlanmağımızın zəminəsidir.
6. İstiğfar günahkarlar üçün bağışlanma, salehlər üçün yüksəliş əsasıdır.

59. ﴿فَبَدَّلَ الَّذِينَ ظَلَمُواْ قَوْلاً غَيْرَ الَّذِي قِيلَ لَهُمْ فَأَنزَلْنَا عَلَى الَّذِينَ ظَلَمُواْ رِجْزاً مِّنَ السَّمَاء بِمَا كَانُواْ يَفْسُقُونَ﴾

**“Amma zalımlar (həmin sözü) onlara deyiləndən başqa bir sözə döndərdilər (onlar hittə əvəzinə məsxərə ilə “hintə”, yəni “buğda” deyirdilər) Biz də o zalımlara batdıqları günahın cəzası olaraq səmadan əzab endirdik.”**

## *Nöqtələr*

◘“Əraf” surəsinin 161-162-ci ayələrində bu və bundan əvvəlki ayənin oxşarı təkrarlanmışdır. Bu ayələrdə “ricz” sözü əza, taun xəstəliyi, iztirab halı mənalarını bildirir.

◘Allahın qaydası mərhəmət nazil etməkdir. Ona görə də Bəni-İsrail üçün ən üstün qəza olan “mənn” və “səlva” nazil oldu. Amma onlar inadkarlıq göstərdiklərindən səmadan əzab nazil edildi.

## *Bildirişlər*

1. Zülm və günah qanunun əvəz olması və təhrifinə zəmin yaradır.
2. Bir işin yolu və üsulu bəyan olunanadək insan öz bildiyinə əməl etməkdə azaddır. Amma yol bəyan olunduqdan sonra onu dəyişənlər üçün üzr yeri qalmır.
3. İlahi qanunları dəyişməyin cəzası qəhr və əzabdır.
4. Bütün cəzalar axirətə aid deyil. Bəzi cəzalar elə bu dünyada gerçəkləşir.
5. Əyri yol insan üçün adətə çevrildikdə Allahın əzabı nazil olur.

60. ﴿وَإِذِ اسْتَسْقَى مُوسَى لِقَوْمِهِ فَقُلْنَا اضْرِب بِّعَصَاكَ الْحَجَرَ فَانفَجَرَتْ مِنْهُ اثْنَتَا عَشْرَةَ عَيْناً قَدْ عَلِمَ
كُلُّ أُنَاسٍ مَّشْرَبَهُمْ كُلُواْ وَاشْرَبُواْ مِن رِّزْقِ اللَّهِ وَلاَ تَعْثَوْاْ فِي الأَرْضِ مُفْسِدِينَ﴾

**“(Yadınıza salın) o zaman ki, Musa öz qövmü üçün su istədi, ona dedik: “Öz əsanı daşa vur.” Qəfildən ondan on iki çeşmə yarıldı və qaynadı. Fərdlərdən hər biri su içəcəyi yeri tanıdı. (Dedik) İlahi ruzidən yeyin-için və yer üzündə təkəbbürlə fəsad göstərməyin.”**

## *Nöqtələr*

◘On iki rəqəmində bir rəmz vardır. Ayların, Bəni-İsrail başçılarının, həzrət İsanın həvarilərinin və məsum imamların sayı on ikidir.

◘Ayədə “mufsidin” sözü ilə yanaşı “la təsəv” kəlməsi də işlənmişdir. İkinci söz qatı fəsadı bildirir. Bu sözlərin yanaşı işlənməsində məqsəd fəsad ruhiyyəsinin qadağan edilməsi ola bilər. Çünki bilməyərəkdən baş vermiş büdrəmə bağışlana bilər.

## *Bildirişlər*

1. Peyğəmbərlər həm də maddi ehtiyaclarını təmin etmək fikrində olmuşlar.
2. Hər şeyi, hətta içməli suyu da Allahdan istəyin.
3. Təbiət qanunları Allahın iradəsinə tabedir.

Allah həm səbəb sala bilir, həm də səbəbi aradan götürə bilir. Bir əsa və bir insan əli ilə bir dəfəyə su çıxarır və onu axıdır.

4. Peyğəmbərlərin duası qəbul olur.
5. Əsanın daşa vurulması ilə su çıxması bir möcüzədir. On iki qəbilə üçün on iki bulağın çıxması başqa bir möcüzədir.
6. Nizamlı və ədalətli bölgü əmniyyət və səfa əsasıdır. Belə bir bölgü ixtilafların qarşısını alır.
7. İlahi nemətlərdən bəhrələnmə fəsad zəminəsi yaratmamalıdır.
8. Fəsadın qarşısını almaq üçün Allahın insana məhəbbət və lütfündən danışın.

61. ﴿وَإِذْ قُلْتُمْ يَا مُوسَى لَن نَّصْبِرَ عَلَىَ طَعَامٍ وَاحِدٍ فَادْعُ لَنَا رَبَّكَ يُخْرِجْ لَنَا مِمَّا تُنبِتُ الأَرْضُ مِن بَقْلِهَا
وَقِثَّآئِهَا وَفُومِهَا وَعَدَسِهَا وَبَصَلِهَا قَالَ أَتَسْتَبْدِلُونَ الَّذِي هُوَ أَدْنَى بِالَّذِي هُوَ خَيْرٌ اهْبِطُواْ مِصْراً فَإِنَّ لَكُم مَّا
سَأَلْتُمْ وَضُرِبَتْ عَلَيْهِمُ الذِّلَّةُ وَالْمَسْكَنَةُ وَبَآؤُوْاْ بِغَضَبٍ مِّنَ اللَّهِ ذَلِكَ بِأَنَّهُمْ كَانُواْ يَكْفُرُونَ بِآيَاتِ اللَّهِ وَيَقْتُلُونَ
النَّبِيِّينَ بِغَيْرِ الْحَقِّ ذَلِكَ بِمَا عَصَواْ وَّكَانُواْ يَعْتَدُونَ﴾

**“(Xatırlayın) O zaman ki, dediniz: “Ya Musa, biz hər gün eyni təam yeməyə dözməyəcəyik. Rəbbindən istə ki, bizim üçün torpağın bitirdiyi şeylərdən - tərəvəzdən, xiyardan, sarımsaqdan, mərcidən və soğandan yetirsin.” Musa dedi: “ Siz yaxşı nemətin əvəzində bu cür alçaq şeylərmi istəyirsiniz? Belədirsə, şəhərə daxil olun, istədiyinizi orada taparsınız. "Onlara zəlalət və möhtaclıq damğası vuruldu. Allahın qəzəbinə düçar oldular. Bunun səbəbi onların Allah ayələrini inkar etmələri, peyğəmbərləri haqsız yerə öldürmələri idi. Bunun səbəbi onların günahkarlığı, asiliyi və həddi aşmaları idi."**

## *Nöqtələr*

◘Bəni-İsrail mənn və səlva nemətlərinə şükür etmək əvəzinə ifrata varıb çeşidlilik arzusuna düşdü və yerin bitirdiklərindən istədilər. Ayədə nümunə olaraq göyərtinin, xiyarın, soğanın, sarımsağın adı çəkilir. Həzrət Musa onların üstün nemətlər əvəzində sadə şeylər istəməsindən təəssüf duyaraq onlara dedi: "Əgər dediyiniz şeylərdən dadmaq istəyirsinizsə, şəhərə gedib düşmənlərinizlə döyüşməlisiniz." Sizdə bir tərəfdən cihad halı yoxdur, digər tərəfdən şəhər həyatının üstünlükləri arzusundasınız. Allah xəbər verir ki, bu qövm malik olduğu xüsusiyyətlərlə zillətə düşüb, ilahi qəhr və qəzəbə düçar olasıdır.

Çeşidlilik tələbi, daha çox əldə etmək arzusu insanın əsir olması üçün bir tələdir. Xalqın bu xüsusiyyətindən istifadə edən istismarçılar çeşidli libaslar, tikililər, miniklər və bər-bəzək əşyaları ilə onları əsarət altına alırlar.

## *Bildirişlər*

1. Qarınquluq insanın alçalması amillərindən biridir.
2. Rifah istəyi zillət zəminəsidir.
3. Danışıqda ədəbsizlik azğın ruhiyyə nişanəsidir. Onlar "dözməyəcəyik" əvəzinə" yeməklərin bir növ olması bizə ağırdır" deyə bilərdilər. Eləcə də, "Rəbbindən istə" əvəzinə "Rəbbimizdən istə" demək mümkün idi.
4. Bəni-İsrail istəklərinə hədd-hüdud qoymayan qövmdür.
5. Xırda şeylər üçün ağız açmaq nəfsin itiliyi, asılılığı və alçaqlığı nişanəsidir.
6. İnsanın həqiqi xeyirinin təminatçısı onun Allahın qismətindən razı olub səbir etməsidir. Şəhər həyatı və hər şeyə malik olmaq təkamül nişanəsi deyil. Bu imkanlar insanın süqutuna da səbəb ola bilər.
7. Şəhərdə yaşayıb hər cür imkana malik olmaq inkişaf və təkamül əlaməti deyil; bəzi vaxtlarda bu iş süqut amili də sayılır.
8. Təhlükəli işlər azğın fikirlərə bağlıdır.
9. Peyğəmbərlərin tarixi Allah yolunda şəhadətlə qol-boyundur.
10. Ardıcıl günah küfrə, küfr isə cinayətə səbəb olur.
11. Zillət və bədbəxtlik millət, irqə yox, insanın xasiyyətlərinə, əqidəsinə və əməllərinə bağlıdır.

62. ﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالنَّصَارَى وَالصَّابِئِينَ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ وَعَمِلَ صَالِحاً
فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**"O kəslər ki, iman gətirdilər və o kəslər ki, yəhudi, məsihi və sabii oldular, Allaha və qiyamət gününə iman gətirib saleh iş görsələr, mükafatları Rəbblərinin yanındadır. Onlar üçün qorxu yoxdur və onlar qəmgin olmazlar."**

## *Nöqtələr*

◘"Təfsiri-nümunə"də "Cameul-bəyan"dan belə nəql olunmuşdur: "Salman Farsi həzrət Peyğəmbərə (s) dedi: "Mənim iman və namaz əhli olmuş, amma sizi görməmiş dostlarımın qiyamətdə halı necə olacaq?" Oradakılardan biri belə cavab verdi: "Cəhənnəm əhlidirlər." Amma belə bir ayə nazil oldu, öz əsrində dinə ardıcıllıq edib, ilahi vəzifə və əmrlərə əməl edənlər üzürlüdürlər. Əlbəttə ki, bu ayə yəhudilikdə və ya məsihilikdə qalmaq üçün bəhanə ola bilməz. Çünki əvvəla, Quran kitab əhlini İslama dəvət etmişdir. İkincisi, bilərəkdən İslamdan başqa din ardınca gedənlər hədələnmiş və onlardan qəbul olunmayacağı bildirilmişdir.[1]

[1] "Ali-İmran", 85.

◘Qurandakı “Əlləzinə hadu” ifadəsi yəhudilərə aiddir. Onların belə adlandırılmasının səbəbi həm tövbə etmələri[1], həm də Yaqubun oğlu Yəhuda aidiyyətləri ola bilər.

◘Ayədə “Nəsara” dedikdə o məsihilər nəzərdə tutulur ki, həzrət İsa “Kimdir köməkçilərim” soruşduqda onlar “ bizik Allahın köməkçiləri” demişlər.[2] Bu adın bir səbəbi də həmin qövmün İsanın doğulduğu Nasiriyyə məntəqəsində sakinliyi ola bilər.

◘“Sabiin” özünü həzrət Yəhyanın ardıcılı bilənlərə deyilir. Onlar ulduzların tədbir qüdrətinə inanırlar. Bu dəstənin adı “Bəqərə”, “Maidə”, “Həcc” surələrində yəhudilər, nəsranilər, məcusilər və müşriklərlə birlikdə çəkilir.[3] Buradan məlum olur ki, sabiilər zikr olunmuş dörd dəstədən deyillər. Bu ayin ardıcılları da digər kitab əhli kimi İslama dəvət olunmuşlar. Bu xüsusi etiqadın ardıcılları da azdır və bu ardıcıllar öz dinlərini təbliğ etmirlər. Onlar daha çox çayların və dənizlərin ətrafında yaşayır və tənha həyat tərzi keçirirlər. Bu fərdlərin müxtəlif qüsülləri vardır. Onlar yayda və qışda çayın axar suyunda qüsl verməlidirlər. Hazırda onların beş minə yaxın nümayəndəsi Xuzistanda (İranda) Karvət çayının kənarında və bu vilayətin digər şəhərlərində yaşayırlar. Səkkiz minə yaxın sabii isə İraqda Dəclə çayının kənarında və digər şəhərlərdə sakindir.

## *Bildirişlər*

1. Bütün səmavi dinlərin müştərək əsasları vardır: tövhid, məad, saleh əməl.
2. Tövhiddən sonra ən mühüm etiqad məaddır.
3. İslamdan xəbərsiz digər din ardıcılları - istər İslamdan qabaq, istər İslamdan sonra - öz dinlərinə iman gətirib saleh əməl ardınca gedərlərsə, nicat taparlar. Bir şərtlə ki, onlar öz məlumatsızlıqlarında müqəssir olmayalar.
4. İnsan yalnız Allaha iman, məada ümid və saleh əməl sayəsində rahatlıq tapır.
5. Səadət və kəramət müsəlmanlıq, yəhudilik, məsihilik və sabiilikdən yox, iman və saleh əməldən asılıdır.

63. ﴿وَإِذْ أَخَذْنَا مِيثَاقَكُمْ وَرَفَعْنَا فَوْقَكُمُ الطُّورَ خُذُواْ مَا آتَيْنَاكُم بِقُوَّةٍ وَاذْكُرُواْ مَا فِيهِ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**“(Yad et) o zaman ki, sizdən əhd aldıq və Tur dağını sizin fövqünüzə qaldırdıq. (Və dedik) sizə verdiyimizi qüdrətli tutun və onda olanları yadda saxlayın. Bəlkə, pəhrizkarlardan olasınız.”**

## *Nöqtələr*

◘Tur dağının yerindən qoparılıb yəhudilərin başı üstünə qaldırılması Quranın bəzi surələrində bəyan olunmuşdur.[4] Bu ayədə haqqında danışılan əhd-peyman “Bəqərə” və “Maidə” surələrindəki peyman da ola bilər.[5]

## *Bildirişlər*

1. Nümunə götürmək əməl amillərindən biridir.
2. Allah həm peyğəmbər göndərmək, həm də xariqüladə işlər nümayiş etdirməklə xalqa höccəti tamamlayır, bəhanə yeri qoymur.
3. Qürur və inad ruhunu qırmaq üçün hədə tərbiyə üsullarından biridir.
4. İnqilabi nailiyyətləri güc və qüdrətlə hifz etmək olar. Fironun hakimiyyətindən qurtulmaq, əsirlikdən azad olmaq nailiyyət idi.

---

[1] “Ə`raf”, 156.
[2] “Səff”, 14.
[3] “Bəqərə”, 62; “Maidə”, 69; “Həcc”, 19.
[4] “Bəqərə”, 93; “Nisa”, 154; “Ə`raf”, 17.
[5] “Bəqərə”, 40, 82; “Maidə”, 12.

5. İlahi ayə və hökmlərə əməl ciddilik, eşq və möhkəmliklə müşayiət olunmalıdır. İlahi vəzifələrin icrasında zarafata, adətkərdəliyə, şəkkə və şan-şöhrətə yol verməк olmaz.
6. Dini maarif tədris və təbliğlə xalqın zehnində diri saxlanılmalıdır.
7. İlahi ayələrin zikri və onlar haqqında düşüncə təqva üçün zəmin yaradır.

64. ﴿ثُمَّ تَوَلَّيْتُم مِّن بَعْدِ ذَلِكَ فَلَوْلاَ فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ لَكُنتُم مِّنَ الْخَاسِرِينَ﴾

**“Bu cərəyandan sonra siz üz döndərdiniz. Əgər sizə Allahın fəzl və rəhməti olmasaydı, hökmən ziyankarlardan idiniz.”**

## *Bildirişlər*

1. Qafil insan ən mühüm hədələri də unudur.
2. Ümidinizi itirməyin. Çünki Allah xilaf çıxanlarla da fəzl və rəhmətlə rəftar edir.
3. Zərər-ziyandan yalnız Allahın fəzl və rəhməti sayəsində nicat tapmaq olar.

65. ﴿وَلَقَدْ عَلِمْتُمُ الَّذِينَ اعْتَدَواْ مِنكُمْ فِي السَّبْتِ فَقُلْنَا لَهُمْ كُونُواْ قِرَدَةً خَاسِئِينَ﴾

**“Şübhəsiz ki, siz özünüzdən olanların şənbə günü itaətsizlik etdiyindən xəbərdarsınız. Biz onlara dedik: “Rədd olunmuş meymunlar şəklinə düşün.”**

## *Nöqtələr*

◘Tövratın hökmlərindən biri şənbə gününün tətil olmasının vacibliyi idi. Tamahkarlıq Bəni-İsraildən bir qrupunu yoldan çıxardı. Sonradan haqqında danışacağımız hiylə ilə şənbə günü işlədilər. Allah isə hiyləgər fərdləri meymun şəklinə saldı ki, başqaları üçün də ibrət olsun. Bu macəra “Əraf” surəsində də qeyd olunmuşdur.[1] Sifətin dəyişməsi ilahi əzabların və Allah qəhrinin gerçəkləşməsinin bir nümunəsidir. Məsihilərin də bir dəstəsi göydən süfrə (“Maidə”) nazil olduqdan sonra küfr etdilər. Onlar da meymun və donuz şəklinə salındılar. [2]

◘“Səbt” sözü işi dayandırmaq mənasındadır. “Nəbə” surəsinin doqquzuncu ayəsində bu söz yuxu ilə bağlı zikr olunmuşdur. Ona görə də yəhudilərin tətil günü sayılan şənbə günü “yəvmus-səbt” adlandırılmışdır.

◘Ayədəki “xasiin” sözü rədd etmək mənasındadır. Bu söz əvvəllər iti qovmaq mənasında işlədilərdi. Amma sonradan ümumi şəkildə istifadə olunmağa başladı. “Xasiin” sözü qrammatik baxımdan aqil kişilərə aiddir. Bu sözün işlədilməsində məqsəd bu ola bilər ki, ilahi əzab səbəbindən meymuna çevrilənlərin insani ağlı və ruhu yerində idi. Çünki, belə bir halda əzab daha da ağır olur. Marağİ kimi bəzi təfsirçilər öz təfsirlərində meymuna çevrilməni təşbeh hesab etmişlər. Onların nəzərincə, burada itaətsizlik göstərənlər sadəcə meymuna bənzədilmişdir. Öz nəzərlərinə dəlil olaraq “Uzunqulaq kimi” “dördayaqlılar kimi” Quran təbirlərini misal göstərirlər. Guya həmin insanlar zahirən yox, mənən məsx olunmuş, meymuna çevrilmişlər. Amma “Ətyəbul-bəyan” təfsirində həzrət Peyğəmbərdən (s) belə bir rəvayət nəql olunmuşdur: “Allah küfr etdiklərinə görə tarixdə yeddi yüz ümmətin çöhrəsini dəyişmiş və onları on üç növ heyvana çevirmişdir.”[3]

◘Rəvayətdə bildirildiyi kimi, məsx məsələsi qiyamətdə insanların ruhuna uyğun olaraq daha da genişləndiriləcəkdir. Qiyamətdə insanlar on dəstədə məhşur olarlar:

---
1 “Ə`raf”, 163, 166.
2 “Maidə”, 60.
3 “Bihar”, c. 14, s. 787.

1. Şayiə düzəldənlər meymun sifətində;
2. Haram yeyənlər donuz sifətində;
3. Sələmçilər başıaşağı vəziyyətdə;
4. Haqsız hakim kor vəziyyətdə;
5. Qürurlu eqoistlər kar və lal vəziyyətdə;
6. Əməlsiz alim dilini çeynəyən halda;
7. Qonşunu incidən kəs əl-ayağı kəsilmiş vəziyyətdə;
8. Xəbərçi oddan şaxələrə asılmış halda;
9. Əyyaşlar leş tək üfunətli halda;
10. Zülmkarlar oddan paltar geymiş vəziyyətdə. ("Məcməül-bəyan", Nurus-səqələyn", "Safi" təfsirləri)

## *Bildirişlər*

1.Tarixdən ibrət götürün.

2. Allahın hökmünü "Nəsx" (dəyişən) edən özünü məsx etmişdir. Dinin çöhrəsinin təhrifi və dəyişdirilməsi insaniyyət çöhrəsinin dəyişməsi ilə müşayiət olunur.

3.İstirahət və ibadət rəsmi proqramın tərkib hissəsi olmalıdır. Tətil, əyləncə, ibadət zamanı işə məşğul olan təcavüzkardır.

4. Allahın yolundan çıxan şəxs başqalarına təqlid edən meymunsifət olacaq.

5. Təbiət aləmində bir mövcud başqasına çevrilə bilir.

6. Heyvanlar Allahın mərhəmətindən məhrum deyillər. Amma insanın heyvan olması ilahi qəhr və qəzəb nişanəsidir.

66. ﴿فَجَعَلْنَاهَا نَكَالاً لِّمَا بَيْنَ يَدَيْهَا وَمَا خَلْفَهَا وَمَوْعِظَةً لِّلْمُتَّقِينَ﴾

**"Biz bu cəzanı onların müasirləri və sonrakı nəsillər üçün ibrət və pəhrizkarlar üçün öyüd qərar verdik."**

## *Nöqtələr*

◘"Nəkal" elə bir əzabdır ki, onun təsiri davamlı və aşkardır. Başqaları bu əzabı görüb ibrət götürməlidir. İmam Sadiq (ə) buyurmuşdur: "Ayədə müasirlər dedikdə, bəla nazil olan dövrün adamları nəzərdə tutulur. Sonra gələnlər dedikdə isə növbəti ümmətlər, eləcə də biz müsəlmanlar nəzərdə tutuluruq."

## *Bildirişlər*

1. Məğlubiyyətlər və qələbələr gələcək insanlar üçün dərs olmalıdır.
2. İbrət götürmək və nəsihət qəbul etmək təqva ruhiyyəsinin ehtiyacıdır.

67. ﴿وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَنْ تَذْبَحُواْ بَقَرَةً قَالُواْ أَتَتَّخِذُنَا هُزُواً قَالَ أَعُوذُ بِاللّهِ أَنْ أَكُونَ مِنَ الْجَاهِلِينَ﴾

**"(Xatırlayın) o zaman ki, Musa öz qövmünə dedi: "Allah sizə bir dişi inək kəsməyinizi əmr edir." Dedilər: "Bizi məsxərəyəmi qoymusan?" Musa dedi: "Cahillərdən olmaqdan Allaha pənah aparıram.**

## *Nöqtələr*

◘Surəni ondakı əhvalata görə "Bəqərə" ("İnək") adlandırmışlar. İnək kəsilməsi əmri Tövratda bir mühakimə qanunu kimi bəyan olunmuşdur. Macəra belə baş vermişdir: Bəni-İsrail

arasında qatili bilinməyən bir məqtul (qətlə yetirilən) tapıldı. Qövm arasında mübahisələr, çəkişmələr başladı. Hər bir qəbilə bu qətli o biri qəbilənin ayağına yazırdı.

Onlar mühakimə və məsələnin həlli üçün həzrət Musanın yanına getdilər. Musa onlara buyurdu: “Allah əmr etmişdir ki, bir inək kəsəsiniz və onun ətindən bir parçanı cəsədə toxundurasınız. Belə etsəniz, o diriləcək və öz qatilini tanıtdıracaq.” İnadkar qövm Musanın bu təklifi qarşısında dedi: “Yoxsa bizi məsxərəyə qoymusan?” Musa dedi: “Məsxərə cahillərin işidir. Mən isə cahillərdən olmaqdan Allaha pənah aparıram.”

◘Quran və rəvayət dilində cəhl nadanlıq yox, düşüncəsizlik mənasındadır. Ona görə də “cəhl” elmin yox, əqlin antonimi kimi işlədilir. Başqalarını məsxərə etmək düşüncəsizlik nişanəsi olduğundan həzrət Musa bu sifətdən Allaha pənah aparır.

## *Bildirişlər*

1. Allahın əmri bizim düşüncəmizə və zövqümüzə uyğun olmadıqda, onun hikmətini anlamadığımız vaxt həmin əmri inkar etməməliyik.
2. Musa inəyin kəsilməsi göstərişinin Allah tərəfindən olduğunu bəyan edir ki, bəlkə ədəbə riayət edib təslim olalar. Amma onlar yenə də bəhanə gətirirdilər.
3. Əgər Allah istəsə, bir ölünü o birinə toxundurmaqla diríldər.
4. İnəyi öldürməklə onun müqəddəs olması fikri aradan qalxır. Necə ki, İbrahim bütləri sındırdı, Samirinin qızıl buzovu yandırıldı.
5. Xalqın peyğəmbərə iman dərəcəsi onların ilahi göstərişlərlə davranışından başa düşülür.
6. İstiazə və Allaha pənah aparılması sığortalanma yollarından biridir. Peyğəmbərlərin isməti və günahsızlığı, istiazə və pənah aparmağın sayəsindədir.
7. Məsxərə etmək cahil və düşüncəsiz insanların işidir.
8. Cəhl elə bir təhlükədir ki, Allah övliyaları bu təhlükədən Allaha pənah aparmışlar.
9. Bir macərada Allah qüdrətinin nümayişi ilə tövhid, Musanın möcüzəsi ilə peyğəmbərlik, ölünün dirilməsilə məad sübuta yetirilir.

68. ﴿قَالُواْ ادْعُ لَنَا رَبَّكَ يُبَيِّن لّنَا مَا هِيَ قَالَ إِنَّهُ يَقُولُ إِنَّهَا بَقَرَةٌ لاَّ فَارِضٌ وَلاَ بِكْرٌ عَوَانٌ بَيْنَ ذَلِكَ
فَافْعَلُواْ مَا تُؤْمَرونَ﴾

**“(Bəni-İsrail Musaya) dedilər: “Bizim üçün Allahdan istə ki, onun necə (inək) olmasını aydınlaşdırsın.” (Musa) dedi: “Allah buyurur ki, o nə çox qoca, nə də çox cavan, bunların arasında olan dişi bir inəkdir. Sizə əmr olunanı yerinə yetirin.”**

## *Nöqtələr*

◘Bəni-İsrail mövzunun ciddi olduğunu anladıqda bəhanə axtarmağa başladı. Bəzi təfsirçilərin nəzərincə, qatil bu bəhanəni rüsvay olmamaq üçün xalqa təlqin etdi.[1] Hər halda bu qövmün sual tərzi onların inadkar ruhiyyəsindən danışır. Ayədə buna işarə olundu və onların batini açıqlandı.

## *Bildirişlər*

1. Sualı ədəblə verin. Ayədə “ləna” (bizim üçün) sözü iki dəfə təkrarlanmış, “Rəbbimiz” əvəzində “Rəbbin” kəlməsi işlədilmişdir. Bütün bunlar təkəbbür ruhunun nişanələridir.
2. Allahın əmrini dərhal yerinə yetirin, vəsvəsə və tərəddüddən çəkinin.

[1] “Təfsiri-Fəxr Razi”.

69. ﴿قَالُواْ ادْعُ لَنَا رَبَّكَ يُبَيِّن لَّنَا مَا لَوْنُهَا قَالَ إِنَّهُ يَقُولُ إِنّهَا بَقَرَةٌ صَفْرَاء فَاقِعٌ لَّوْنُهَا تَسُرُّ النَّاظِرِينَ﴾

**"(Onlar Musaya) dedilər: "Bizim üçün Allahından istə ki, onun rənginin necəliyini bizə aydınlatsın." (Musa) Dedi: "Həqiqətən, Allah buyurur ki, o, görənləri şad edən tam sarı rəngli dişi bir inəkdir."**

## *Nöqtələr*

◘Zibh (kəsmək) əmri iki dəfə verilsə də, onlar sanki qatili tanıyır, sadəcə bunu bildirmək istəmirdilər. Ona görə də inadkarlıq və bəhanəçiliklə çoxlu suallar verirdilər. Nəhayət, inəyin rəngi haqqında soruşdular. Allah onların cavabında buyurdu: "İnəyin rəngi tünd və xalis sarı olsun. Elə bir rəng ki, görənləri sevindirsin." Yəni bu inək xüsusi biçimə, sağlamlığa, rəngə və gözəlliyə malik olsun. Əgər onların ağırlıq ölçmək üçün bir vasitəsi olsaydı, şübhəsiz ki, inəyin çəkisini də soruşardılar!

◘Bizə yersiz suallar qadağan edilmişdir. Quranda oxuyuruq: "Cavabı verildikdə sizin üçün çətinlik yaradan şeylər haqqında soruşmayın."[1]

Bir gün həzrət Peyğəmbər (s) həccin vacibliyi və əhəmiyyəti haqqında xütbə oxuyurdu. Xütbənin gedişində bir şəxs sual verdi: "Həcc hər ilmi vacibdir? " Həzrət Peyğəmbər (s) cavab vermədi. Həmin şəxs ikinci dəfə sualı təkrarladı. Həzrət narahat olub buyurdu: "Nə üçün israr edirsən? Əgər desəm bəli, işiniz çətin olacaq. Mənim susduğumu gördükdə israr etməyin." Sonra həzrət Peyğəmbər (s) buyurdu: "Keçmiş qövmlərin həlak olmasının səbəblərindən biri onların yersiz sualları idi."[2]

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də buyurur: "Allah bəzi işlərin hökmü üzərindən sükutla keçmişdir. Bu sükutun səbəbi unutqanlıq yox, sizin üçün əməl meydanının geniş olmasıdır. Ona görə də yersiz suallarla xırdaçılıq etməyin."[3]

## *Bildirişlər*

1. Sarı rəng, rəvayətlərdə də bildirildiyi kimi, dinin sifarişidir.
2. Rənglərin insan ruhiyyəsinə təsiri vardır.

70. ﴿قَالُواْ ادْعُ لَنَا رَبَّكَ يُبَيِّن لَّنَا مَا هِيَ إِنَّ البَقَرَ تَشَابَهَ عَلَيْنَا وَإِنَّآ إِن شَاء اللَّهُ لَمُهْتَدُونَ﴾

**"(Növbəti dəfə Musaya) dedilər: "Bizim üçün öz Allahından onun necə inək olmasını aydınlaşdırmasını istə. Çünki bu inək bizim üçün dolaşıq bir iş olub. Əgər Allah istəsə, hökmən hidayət olacağıq."**

## *Nöqtələr*

◘Hər bir işdə orta həddi (etidal) gözləmək bir dəyərdir. Bəzən insanlar sadə bir əlaməti görməklə yəqinlik tapırlar. Bəziləri isə açıq-aşkar bəyanatlar qarşısında şəkk-şübhəyə düşürlər. Aşkar və qəti bəyanlar qarşısında şübhəyə düşmək olmaz.

◘Hədisdə həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: "Bəni-İsrailə sadə və adi bir inək kəsmək əmr olunmuşdu. Amma onlar bu məsələni çətinliyə saldıqları və bəhanə gətirdikləri üçün Allah da onlara çətinlik yaratdı."[4]

---

[1] "Maidə", 101.
[2] "Təfsiri-nümunə", c. 5, s. 96.
[3] "Şərhe-İbn Əbdül-Hədid", c. 18, s. 102.
[4] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 89.

## *Bildirişlər*

1. Xırdalığa varmaq insanın diqqətini əsas məsələlərdən kənarlaşdırır.
2. İnadkarlıq ruhiyyəsi səbəbindən insan haqqı tanımaqda çətinlik çəkir.
3. Bəzən insanlar həqiqəti tapmaq və agahlıq əldə etmək məqsədilə yox, inadkarlıq ruhiyyəsi səbəbindən sual verirlər.
4. İlahi rəhbərlərin köksü genişdir. Müsahiblərinin "Rəbbimiz" əvəzinə "Rəbbin" deməsi dəfələrlə təkrarlanmış bir hörmətsizlik, qırmızılıq idi. Amma həzrət Musa bunu açıb-ağartmadı.

71. ﴿قَالَ إِنَّهُ يَقُولُ إِنَّهَا بَقَرَةٌ لاَّ ذَلُولٌ تُثِيرُ الأَرْضَ وَلاَ تَسْقِي الْحَرْثَ مُسَلَّمَةٌ لاَّ شِيَةَ فِيهَا قَالُواْ الآنَ جِئْتَ بِالْحَقِّ فَذَبَحُوهَا وَمَا كَادُواْ يَفْعَلُونَ﴾

**"(Musa) dedi: "(Rəbbiniz) buyurur ki, o, yeri sürəcək və əkin suvaracaq qədər ram olmamış, heç bir eybi və ləkəsi olmayan bir inəkdir." Dedilər: "İndi həqiqəti bildirdin." Sonra onu tapıb başını kəsdilər. Amma az qalmışdı ki, əməl etməsinlər."**

## *Nöqtələr*

◘"Zəlil" ram olmuş, "tusir" şum edən, "musəlləmə" bütün eyb və nöqsandan saf, "la şiyə" xalı və başqa rəngi olmayan deməkdir.

◘Yəhudilər öz peyğəmbərlərinə münasibətdə ədəbsiz idilər. Bəhanə axtardıqları və qaçmaq istədikləri bir vaxtda Allahın fərmanını yerinə yetirməyə məcbur olub Musaya dedilər: "İndi həqiqəti bildirdin." Guya həmin vaxtadək deyilən batil idi.

## *Bildirişlər*

1. Hər hansı planı yerinə yetirərkən fəal, istehsal gücünə malik, iqtisadi mexanizmləri məhv etməyin.
2. Allahın əmri yolunda sərf olan hər bir şey sağlam olmalıdır. Həcc səfərində də Allah evinin ziyarətçisi qurban bayramı günü sağlam heyvan kəsməlidir.
3. Qürur və nəfs istəkləri işi bir yerə çatdırır ki, insan könlündən keçənləri həqiqət sayır.

72. ﴿وَإِذْ قَتَلْتُمْ نَفْساً فَادَّارَأْتُمْ فِيهَا وَاللّهُ مُخْرِجٌ مَّا كُنتُمْ تَكْتُمُونَ﴾

**"(Xatırlayın) o zaman ki, birini qətlə yetirdiniz, sonra onun (qatilinin) haqqında mübahisəyə başladınız. Amma Allah sizin gizlətdiklərinizi aşkara çıxarar."**

## *Nöqtələr*

◘Qətl hadisəsi və inəyin zibhi (kəsilməsi) haqqında fərman əvvəlki ayələrdə ətraflı şəkildə bəyan olundu. Bu ayə isə həmin macəranı xülasə şəkildə zikr etməklə yenidən xatırladır ki, Allah sizin gizlətdiklərinizi inəyin zibhi və onun bir parçasını ölüyə toxundurub diriltməklə ifşa etdi. Beləcə, sizin xilaf işlərinizin üstündən pərdə götürüldü.

◘"Dürrül-Mənsur"da belə bir hədis nəql olunur ki, əgər insan heç bir bacası olmayan möhkəm daş layların arasında bir iş görsə belə, Allah (əgər istəsə) onu xalqa aşkarlayar.[1]

◘Rəvayətdə oxuyuruq: Uyğun xüsusiyyətlərə malik orta yaşlı sarı inək yalnız bir gəncdə tapıldı. Bu müamilə onun üçün çox qazanclı idi. Amma tövlənin açarı atasının yatdığı balışın altında olduğundan oğlan atasını oyatmayıb bu böyük qazancdan keçdi. Allah o gəncin ataya münasibətdəki bu xidmətini qiymətləndirmək üçün Bəni-İsrailin bəhanələrinə cavab olaraq işi

[1] "Təfsiri-Dürrül-Mənsur", c. 1, s. 78.

elə yerə gətirib çıxartdı ki, onlar hər nə qədər baha qiymətə olsa belə o gəncdən inəyi almalı olsunlar. Musa (ə) buyurdu: “Görün yaxşı əməl öz əhlinə nə yetirir!”[1]

## *Bildirişlər*

1. Başqasının günahına razı olan şəxs həmin günaha şərikdir. Musa dövründə qətlə razı olan yəhudilər qətldə ittiham olunmuşdular.

2. Bəzən insan kimlərisə özündən uzaqlaşdırmaq üçün onları günahda ittiham edir. Belələri anlamırlar ki, Allah ölüyə toxundurmaqla məsələni aşkarlayıb günahkarı ifşa edir.

73. ﴿فَقُلْنَا اضْرِبُوهُ بِبَعْضِهَا كَذَلِكَ يُحْيِي اللّهُ الْمَوْتَى وَيُرِيكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“Belə ki, dedik: “Zibh olmuş inəyin bir parçasını qətlə yetirilənə vurun.” Allah ölüləri bu sayaq dirildər və öz ayələrini sizə göstərər ki, bəlkə düşünəsiniz.”**

## *Bildirişlər*

1. Xalqın inam və etiqadını qazanın. Həzrət Musa inəyin ətindən bir parçanı ölüyə toxundurmağı xalqın öhdəsinə buraxıb buyurdu: “Özünüz bu işi görün.”

2. Bu ayə Allahın ölüləri diriltmə qüdrətinin nümunəsidir.

3. İlahi qüdrət nişanələrinin müşahidəsi bir anlıq təəccüb yox, daimi düşüncə üçündür.

4. İnsanın ruhu və düşüncəsi bulaşdıqda ilahi ayələrin müşahidəsi də onun yatmış düşüncəsini oyada bilmir.

74. ﴿ثُمَّ قَسَتْ قُلُوبُكُم مِّن بَعْدِ ذَلِكَ فَهِيَ كَالْحِجَارَةِ أَوْ أَشَدُّ قَسْوَةً وَإِنَّ مِنَ الْحِجَارَةِ لَمَا يَتَفَجَّرُ مِنْهُ الأَنْهَارُ وَإِنَّ مِنْهَا لَمَا يَشَّقَّقُ فَيَخْرُجُ مِنْهُ الْمَاء وَإِنَّ مِنْهَا لَمَا يَهْبِطُ مِنْ خَشْيَةِ اللّهِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“Bu hadisədən sonra sizin qəlbləriniz bərkidi. Daş kimi, ya daha bərk! Necə ki, bəzi daşlar yarılıb nəhrlər çıxır, bəzilərinin çatı götürülür və su ondan sızır və bəzi daşlar da Allah qorxusundan aşağı düşür. (Amma sizin qəlbləriniz təsirlənmir.) Allah sizin əməllərinizdən qəflətdə deyil.”**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə Allahın bəni-İsrailə bir çox lütfləri, o cümlədən, fironun şərindən qurtuluşları, dəryanın parçalanması, onların buzovpərəstlikdən tövbələrinin qəbulu, ən üstün nemətlərin nazil olması, buludların kölgə salması, məsum şəxsin rəhbərliyi xatırlandı. Axırda bir qətl macərası, qatilin ecazkar bir üsulla müəyyən edilməsi haqqında danışıldı. Allah bu ayədə buyurur: “Sizin bütün bu nişanələrə diqqətsizliyiniz səbəbindən qəlblərinizi qəsavət (bərklik) bürüdü və daşqəlbli oldunuz. Hətta qəlbləriniz daşdan da bərk oldu.

◘Daşlar üçün müxtəlif mərhələlər vardır:

a) Onlar xırdalanır və kökslərindən nəhrlər care olub insanları sirab edir. ;

b) Onlar partlamır, amma ən azı özlərini və ətraflarını nəmləndirirlər. ;

v) Allah qorxusundan sükut və səcdə edirlər.

## *Bildirişlər*

1. Qəsavət və daşqəlblilik ardıcıl inadkarlıq nəticəsində yaranmış ən pis ruhi xəstəlikdir.

---

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 88.

2. İlahi ayələrin və lütflərin müşahidəsi nəinki inadkar insanların imanını gücləndirmir, hətta onların qəlbini bir az da daşlaşdırır.

3. Nəslimiz üçün xəcalət olası bir iş görməyək. Əcdadlar daşqəlbli idilər. Amma Allah onların nəslinə belə deyir:

4. Elm öz-özlüyündə, təklikdə nuraniyyət gətirmir. Haqında danışılan qövm bütün möcüzələri görsələr də, yenə qəlbləri yumşalmadı.

5. Qəsavətin, qəlbin bərkliyinin də mərhələləri var.

6. Ən sadə təşbehlə ən dərin maarifi bəyan etmək olar.

7. Tənqid əsaslı olmalıdır. Quran buyurur ki, bəzi qəlblər daşdan da bərkdir. Suyun daş kənarından axması dəlil kimi göstərilir.

8. Cansız aləmin də hansısa səviyyədə şüuru var. Çünki onların qorxusu haqqında danışılır. Çünki qorxu yalnız elmdən doğur. “Fatir” surəsinin iyirmi səkkizinci ayəsində buyurulur: “Allahdan yalnız elmi olanlar qorxar.” Mövləvi öz şerində bu məsələni belə nəzmə çəkmişdir:

Zərrələr söz açır gizli və aşkar,
Gecə-gündüz sənlə danışır onlar.
Deyirlər: eşidib, görüb, duyuruq,
Sizinlə söhbəti yersiz sayırıq.
Var suyun, torpağın, çiçəyin dili,
Bunu eşidəsi bəsirət əhli.

9. Qəsavətin dərmanı ilahi elmə diqqətdir.

10. Qəlbidaşlıq bizim rəftarımıza təsirlidir.

11. Allah bizim bütün işlərimizdən xəbərdardır.

75. ﴿أَفَتَطْمَعُونَ أَن يُؤْمِنُواْ لَكُمْ وَقَدْ كَانَ فَرِيقٌ مِّنْهُمْ يَسْمَعُونَ كَلاَمَ اللّهِ ثُمَّ يُحَرِّفُونَهُ مِن بَعْدِ مَا عَقَلُوهُ وَهُمْ يَعْلَمُونَ﴾

**“(Belə ki, ey möminlər!) (İnadkar yəhudilərin) sizin dininizə iman gətirməsi intizarındasınızmı? Hansı ki, onlardan bir dəstəsi Allahın sözlərini eşitdilər, onu anladıqdan sonra bilə-bilə təhrif etdilər.”**

## *Bildirişlər*

1. Xalqın iman gətirməsi intizarında olmaq yaxşıdır. Amma hamı belə bir tövfiq əldə edə bilmir. Siz də belə bir intizarda olmayın.

2. İnadkar və azğın alimlərin varlığı cəmiyyətin islahına olan ümidi aradan qaldırır.

3. Tənqid edərkən insafı gözləyin. Bütün yəhudilər təhrif əhli olmayıb.

4. Avam günahkarın islah olmasına ümid var. Amma yolunu azmış inadkar alimin islahına ümid yoxdur.

5. Haqqı tanımaq onu qəbul etmək deyil. Haqqı tanıdıqları halda onu qəbul etməyənlər də var.

6. Ustalıq və agahlıqla həyata keçirilmiş təhriflər daha təhlükəlidir.

7. Bixəbər cahil yox, müqəssir (işin mahiyyətindən xəbərdar) cahil hədələnməlidir.

8. Təhrif alimlərin günahıdır.

76. ﴿وَإِذَا لَقُواْ الَّذِينَ آمَنُواْ قَالُواْ آمَنَّا وَإِذَا خَلاَ بَعْضُهُمْ إِلَىَ بَعْضٍ قَالُواْ أَتُحَدِّثُونَهُم بِمَا فَتَحَ اللّهُ عَلَيْكُمْ لِيُحَآجُّوكُم بِهِ عِندَ رَبِّكُمْ أَفَلاَ تَعْقِلُونَ﴾

**“(Həmin yəhudilər) möminlərlə rastlaşdıqları vaxt deyirlər: “İman gətirdik.” Amma onlardan bəziləri o biriləri ilə xəlvətə çəkildikdə belə deyirlər: “Nə üçün Allahın sizə**

**açdığını (müsəlmanlara) xəbər verirsiniz ki, (qiyamət günü) Rəbbinizin hüzurunda sizin ziddinizə bununla dəlil gətirsinlər? Məgər düşünmürsünüz?"**

## *Nöqtələr*

◘Yəhudilərdən bəziləri müsəlmanları gördükdə onlara deyirdilər: "Məhəmmədin xüsusiyyətləri və nişanələri Tövratda olduğu üçün biz də ona iman gətirmişik... Amma bir başqaları onlarla görüşdükdə məzəmmət edirdilər ki, nə üçün Məhəmmədin Tövratdakı nişanələrini müsəlmanlara danışıblar? Onların fikrincə, Tövratda olanları müsəlmanlara deməklə qiyamətdə özlərinə qarşı dəlil vermiş olurlar.

## *Bildirişlər*

1. İnsan həqiqəti anladıqda ona tabe olmalıdır. Başqalarının məzəmməti, hədəsi və nüfuzunun təsiri altında həqiqətə göz yummaq olmaz. Bəlkə də həmin vaxt alimlər haqqı gizlətməsəydilər, hazırda bir bu qədər yəhudi və məsihi olmazdı.
2. Azğınların nəzərində hər hansı mövqeyin itirilməməsi üçün həqiqəti gizləmək ağıl nişanəsi və ağıllı hərəkətdir.

77. ﴿أَوَلاَ يَعْلَمُونَ أَنَّ اللّهَ يَعْلَمُ مَا يُسِرُّونَ وَمَا يُعْلِنُونَ﴾

**"Məgər bilmirlərmi ki, Allah onların gizli və aşkar işlərindən xəbərdardır?"**

## *Bildirişlər*

1. Allahın hüzuru və elminə iman insanı xətadan uzaqlaşdırır.
2. Allah üçün aşkar və xəlvət eynidir.

78. ﴿وَمِنْهُمْ أُمِّيُّونَ لاَ يَعْلَمُونَ الْكِتَابَ إِلاَّ أَمَانِيَّ وَإِنْ هُمْ إِلاَّ يَظُنُّونَ﴾

**"Onlardan (yəhudilərdən) bəziləri Allah kitabını yalnız öz xəyal və arzularından ibarət bilən, dərs oxumamış fərdlərdir. Onlar yalnız öz gümanlarına bağlıdırlar."**

## *Nöqtələr*

◘İslam peyğəmbərinin nişanələrindən xəbərdar olan, amma haqqı gizləyən keçmiş elimli yəhudilərin əksinə olaraq, avam camaat səmavi kitabdan xəbərsiz idi və arzu-xəyal içində yaşayırdı. Onlar düşünürdülər ki, yəhudilər üstün irqdirlər, həm də Allahın övladları və əzizləridirlər. Onlar heç vəchlə cəhənnəmə gedə bilməz, olsa-olsa bir neçə gün cəzalandırıla bilərlər. (Növbəti ayələrdə uyğun arzular haqqında danışılmışdır.[1]

## *Bildirişlər*

1. İnsan öz cəmiyyətini tanımalı, xalqa hakim kəsilən düşüncə və əqidə ilə tanış olmalıdır.
2. Kitab və müəllim olduğu halda savadsız qalmaq nöqsandır. Haqq kitaba çatmaq üçün hamı çalışmalıdır və tənqid hədəfinə çevrilməməlidir.
3. Savadsızlıq və qəflət puç arzu-xəyallara rəvac verir.
4. İnsanın istək və intizarı xəyala yox, elmə əsaslanmalıdır.

---

[1] "Nisa", 80, 120; "Bəqərə", 109; "Maidə", 21.

79. ﴿فَوَيْلٌ لِّلَّذِينَ يَكْتُبُونَ الْكِتَابَ بِأَيْدِيهِمْ ثُمَّ يَقُولُونَ هَذَا مِنْ عِندِ اللّهِ لِيَشْتَرُواْ بِهِ ثَمَناً قَلِيلاً فَوَيْلٌ لَّهُم
مِّمَّا كَتَبَتْ أَيْدِيهِمْ وَوَيْلٌ لَّهُمْ مِّمَّا يَكْسِبُونَ﴾

**“Vay olsun o kəslər ki, öz əlləri ilə bəzi mətləbləri yazıb sonra deyərlər: “Bu, Allah tərəfindəndir!” Bununla azca pul əldə etmək istəyərlər. Vay onların halına öz əlləri ilə yazdıqlarından dolayı! Vay onların halına bu yolla ələ gətirdiklərindən dolayı!”**

## *Nöqtələr*

◘Bu “vəylun” (vay olsun) sözünün üç dəfə işləndiyi yeganə ayədir. Bu ayədə dünyapərəst alimlərin təhlükəsi bəyan olunur.

## *Bildirişlər*

1. Din çıxarmaq bəşər tarixinin təhlükəli cərəyanlarındandır.
2. Bidət, din çıxarmaq, din satmaq, xalqı çaşdırmaq günahkar alimlər tərəfindən cəmiyyəti hədələyən təhlükələrdir.
3. Zəhərli, təhrifçi və bidətçi qələmlərə, kitablara və məqalələrə nəzarət edin. Hər alimə etimad göstərməyin.
4. Xalq fitri olaraq dinə bağlıdır. Ona görə də fırıldaqçılar öz sözlərini din və məzhəb pərdəsi altında xalqa qəbul etdirirlər.
5. Bidət və iftira səbəblərindən biri dünyanı əldə etmək arzusudur.
6. Ən pis qazanc dini satmaqla əldə olunan qazancdır.
7. Əzabların ən ağırı xalqın düşüncə və etiqadına xəyanət edənlərin payına düşür.
8. Bidət nəticəsində tarixdə baş verən istənilən bir azğınlığın günahı bidətçinin boynunadır.

80. ﴿وَقَالُواْ لَن تَمَسَّنَا النَّارُ إِلاَّ أَيَّاماً مَّعْدُودَةً قُلْ أَتَّخَذْتُمْ عِندَ اللّهِ عَهْدًا فَلَن يُخْلِفَ اللّهُ عَهْدَهُ أَمْ
تَقُولُونَ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**“(Yəhudilər) dedilər: “Cəhənnəm odu yalnız bir neçə məhdud gün bizə çata bilər.” De ki, yoxsa Allahdan bir əhd almısınız? Əlbəttə, Allah heç vaxt öz əhdinə xilaf çıxmır. Ya da Allaha bir şeyi aid edirsiniz ki, ondan xəbəriniz yoxdur?”**

## *Nöqtələr*

◘Yəhudilərin əqidə çaşqınlıqlarından biri də bu idi ki, deyirdilər: “Hətta biz günahkar da olsaq, cəzamız başqalarından azdır. Bir neçə gündən artıq əzab çəkməyəcəyik! Çünki biz başqalarından üstünük... Allah bu ayədə uyğun təfəkkür tərziniz üzərindən qara xətt çəkir.”

## *Bildirişlər*

1. İmtiyaz tələbi yəhudilərin xüsusiyyətlərindəndir.
2. Yersiz düşüncə və danışıqları cavabsız buraxmayın.
3. Üstünlük tələbi, irqpərəstlik, əməlsiz arzu qadağandır.
4. Qanun qarşısında hamı bərabərdir. Allah xüsusi bir qövmün nicatı üçün vəd verməmişdir.
5. Din maarifindən xəbərsizlik nəticəsində, insan xurafatları dinə aid edir.

81. ﴿بَلَى مَن كَسَبَ سَيِّئَةً وَأَحَاطَتْ بِهِ خَطِيـئَتُهُ فَأُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Bəli, hər kəs pislik qazansa və günahı onu əhatə etsə, onlar od əhlidirlər və həmişə orada qalacaqlar.”**

**Öz ilahi cəzalarını başqalarının ilahi cəzalarından fərqli bilən bəni-İsrail haqqında ayədə belə buyurulur: “Hamınız qanun qarşısında bərabərsiniz. Əgər günah əsərləri insanı əhatə edib ona tövbə fürsəti verməsə, həmişəlik cəhənnəmdə qalacaq.”**

## *Nöqtələr*

Bəni-İsrailin gümanının əksinə olaraq, onlar da öz əməlləri qarşısında ilahi cəzaya çatacaqlar. Bu ayədə buyurulur ki, hamı qanun qarşısında bərabərdir. Günahın təsiri insanı elə əhatə edə bilər ki, tövbə edib qayıtmağa fürsət olmaya və əbədi olaraq cəhənnəmdə qalmağa layiq görülə.

## *Bildirişlər*

1. Xəyallar və mövhumatlarla qəti və ciddi rəftar edin.
2. Mükafat və cəza arzudan yox, əməldən asılıdır.
3. Agahlıqla, bilərəkdən, azad şəkildə yol verilən günahların cəzası var. Cəhalətdən və ya məcburi olaraq yol verilən günahlar belə deyil.
4. Günahkar qazanc götürmək fikri ilə günah edir.
5. Hər bir günahın insanı qərq edə biləcək təsir və nəticələri var.
6. İnsan fitrətən pakdır. Amma üz tutmuş günah və xətalar onun varlığını əhatə edib cövhərini dəyişdirir.
7. Günahkarlıq xarakteri əbədi cəhənnəm odunun səbəbidir.

82. ﴿وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أُولَئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“İman gətirib saleh işlər görənlər behişt əhlidirlər və orada əbədi qalacaqlar.”**

## *Bildirişlər*

1. Hədələməklə yanaşı müjdə də verilməlidir. Əvvəlki ayə günahkarlıq cəzasını bəyan etdi. Bu ayədə xeyirxahın mükafatından danışıldı.
2. İman əməldən ayrı deyil.
3. Behişt ölçüsü xəyal və arzu yox, iman və əməldir.
4. Bir saleh əməl kifayət etmir. Salehlik xarakterinə malik olmaq və bütün saleh işlərə maraq göstərmək lazımdır.

83. ﴿وَإِذْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ لاَ تَعْبُدُونَ إِلاَّ اللّهَ وَبِالْوَالِدَيْنِ إِحْسَاناً وَذِي الْقُرْبَى وَالْيَتَامَى
وَالْمَسَاكِينِ وَقُولُواْ لِلنَّاسِ حُسْناً وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ ثُمَّ تَوَلَّيْتُمْ إِلاَّ قَلِيلاً مِّنكُمْ وَأَنتُم مِّعْرِضُونَ﴾

**“(Xatırlayın, bir vaxt Bəni-İsraildən əhd aldıq ki, yeganə Allahdan başqasına pərəstiş etməyin, ata-ananıza, qohumlarınıza, yetimlərə və binəvalara ehsan edin, xalqla xoş dillə danışın, namazı bərpa edin və zəkat ödəyin. Amma siz, - bir qisminiz istisna olmaqla - boyun əymədiniz və üz döndərdiniz.”**

## *Nöqtələr*

◘“Ehsan” yaxşılıqla bağlı ən yığcam və ən əhatəli sözdür. Valideyn fəqir olduqda ona maddi, varlı olduqda isə mənəvi ehsan edilir. Eləcə də yetimə ehsan onu ədəbləndirmək, haqqını qorumaq, məhəbbət göstərmək və təlim verməkdən ibarətdir.

Bütün dinlərin əsası eynidir. Çünki bütün bu ölçülər İslamda da var.

## *Bildirişlər*

1. Allah əql, fitrət və vəhy yolu ilə xalqdan əhd almışdır.
2. Tövhid peyğəmbər məktəbinin sərlövhəsidir. Onun ardınca saleh işlər gəlir.
3. Tövhidlə bərabər valideynə ehsan da açıqlanılır.
4. Valideynə kiminsə vasitəsi ilə yox, birbaşa ehsan olunmalıdır. mətnin “bil-validəyni” sözünün önündəki “ba” şəxsən görüşmək mənasındadır.
5. Ata-anadan birinə meyl qadağandır.
6. Əvvəlcə ehtiyaclı qohumlara, sonra başqalarına baxmaq lazımdır. Əlbəttə ki, qohumlar arasında da əvvəlinci-sonuncu məsələsi var. [1]
7. İnsan ədəblə və minnət qoymadan ehsan etməlidir. Ehsan etmək tapşırığı ilə yanaşı, yaxşı rəftar göstərişi də verilmişdir.
8. Əgər hamıya ehsan etməyə gücün çatmasa da, hamı ilə xoş danışmağa gücün çatar.
9. Yalnız müsəlmanlarla yox, bütün insanlarla yaxşı rəftar edib, xoş danışmaq lazımdır.
10. Zəkat ödəməkdən əlavə, imkansızlara və yetimlərə ehsan da zəruridir. Ayədə həm zəkatdan, həm də miskinlərə ehsandan danışılır.
11. Namaz və Allahla rabitə zəkat və fəqirlərlə rabitədən ayrı deyil.
12. Digər dinlərdə də namaz və zəkat olmuşdur.
13. Tövhidə etiqad, valideynə, yetimlərə və miskinlərə ehsan göstərişi ilə yanaşı zəkat, xalqla xoş rəftar, namaz tapşırıqları İslamın hərtərəfli bir din olmasının nişanəsidir.
14. Hüquqların yerinə yetirilməsinin dərəcə və mərhələləri vardır. Əvvəlcə Allahın, sonra valideynin, sonra qohumların, sonra məhəbbətə ehtiyaclı yetimlərin, sonra isə maddi çətinlik çəkən miskinlərin haqqı ödənməlidir.
15. Bütün etiqadi, əxlaqi və fiqhi hökmlər Allahın insanla əhdidir. “Əhd” (“misaq”) sözünün ardınca tövhid əqidəsi, valideynə ehsan, namaz və zəkatdan danışılmışdır.

84. ﴿وَإِذْ أَخَذْنَا مِيثَاقَكُمْ لاَ تَسْفِكُونَ دِمَاءكُمْ وَلاَ تُخْرِجُونَ أَنفُسَكُم مِّن دِيَارِكُمْ ثُمَّ أَقْرَرْتُمْ وَأَنتُمْ تَشْهَدُونَ﴾

**“(Xatırlayın) sizdən bir-birinizin qanını tökməməyiniz və bir-birinizi öz məmləkətinizdən çıxarmamağınız haqqında əhd aldığımız zaman, (bu əhdi) iqrar etdiniz və özünüz buna şahidsiniz.”**

## *Nöqtələr*

▫Bəni-İsraildən xalqın qanını möhtərəm tutmaq barədə alınan əhd dedikdə, “Maidə” surəsinin 32-ci ayəsi də nəzərdə tutula bilər. Ayədə buyurulur: “Bəni-İsrail üçün yazdıq ki, hər bir şəxs dəlilsiz və günah üzündən kimsəni öldürsə, sanki bütün xalqı öldürmüşdür.”

▫Yaşamaq haqqı insanın ilkin haqqıdır. İnsanı öldürmək kəbirə (böyük) günahlardandır. “Nisa” surəsinin 93-cü ayəsində oxuyuruq: “Hər kəs azad şəkildə və bilərəkdən bir müsəlmanı öldürsə, həmişəlik cəhənnəmdədir və Allahın qəzəbinə düçardır.” Eləcə də, “Maidə” surəsinin 32-ci ayəsində bir nəfəri heç bir dəlil olmadan öldürmək bütün xalqı öldürməyə bərabər sayılır. Hədisdə isə belə buyurulur: “Öldürülənin bütün günahları qatilin boynunadır.” Başqa bir hədisdə belə nəql olunmuşdur: “Əgər səmaların və yerin bütün əhli bir nəfərin qətlində şərik olsa, hamısı cəhənnəmə düşəcək.”

▫Zalım hakimlərin yolu budur ki, öz mövqelərini möhkəmləndirmək üçün qalalar və saraylar tikir, xalqı avara qoyub onları incidir, alçaldırlar. Hansı ki, borc sahibi öz borclusuna evini satdıra bilməz, bir şəxs məsciddə yer tutsa, kimsə həmin yerdə namaz qıla bilməz. Hər

[1] “Ənfal”, 75.

kəs başqa birindən qabaq, iş, ibadət və ya əkin üçün bir yer seçsə, kimsənin ixtiyarı yoxdur ki, ondan qabağa keçsin.

◘“Özünüz iqrar etdiniz və özünüz şahidsiniz” cümləsi ilə peyğəmbər dövründəki yəhudilərin tənqid olunması onların əcdadlarının əməllərinə görə idi. Bəli, hər kəs keçmişdəki şəxsin və ya qövmün işi ilə razılaşsa, onun şəriki sayılır.

## *Bildirişlər*

1. Mühüm işlərin icrasından arxayın olmaq üçün sifariş və əmr kifayət deyil. Əminlik üçün əhd almaq lazımdır.

2. Ruhun və cismin əmin-amanlığı bütün ilahi məktəblərin sifarişidir.

3. Vətənə bağlılıq fitri və təbii haqdır. Bu haqqı tapdamaq aşkar zülmdür.

4. Cəmiyyət vahid bir vücud, fərdlər isə onun əzaları kimidir. (“Dimaəkum” və “Ənfusəkum” kəlmələrindən anlaşılır ki, bir nəfəri öldürmək və ya ixrac etmək insanın özünü öldürməsi və ixrac etməsi kimidir.) Sədi deyir:

Bir-birinin əzasıdır hər adəm,
Bütün bəşər yaranmış bir gövhərdən.

85. ﴿ثُمَّ أَنتُمْ هَؤُلاء تَقْتُلُونَ أَنفُسَكُمْ وَتُخْرِجُونَ فَرِيقاً مِّنكُم مِّن دِيَارِهِمْ تَظَاهَرُونَ عَلَيْهِم بِالإِثْمِ وَالْعُدْوَانِ وَإِن يَأتُوكُمْ أُسَارَى تُفَادُوهُمْ وَهُوَ مُحَرَّمٌ عَلَيْكُمْ إِخْرَاجُهُمْ أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاء مَن يَفْعَلُ ذَلِكَ مِنكُمْ إِلاَّ خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“Bir-birinizi qətlə yetirən, özünüzdən bir qrupu diyarlarından xaric edən, onlara qarşı günah və təcavüzdə bir-birinizə arxa duran sizsiniz. Amma əgər həmin adamlar əsir halda yanınıza gəlsələr (azad etmək üçün) onların fidyəsini ödəyirsiniz. Hansı ki, (təkcə öldürmək yox, həm də) onları ixrac etmək sizə haram idi. Yoxsa səmavi kitabın bəzi göstərişlərinə iman gətirir, bəzilərinə isə kafir olursunuz? Sizlərdən bu işi görən hər bir adamın cəzası bu dünyada rüsvayçılıqdan başqa bir şey olmayacaq. Qiyamət günü isə o yenidən ən çətin əzaba düçar olacaq. Allah gördüyünüz işdən qafil deyil.”**

## *Nöqtələr*

◘Allah bu ayədə Bəni-İsraili məzəmmət edir ki, onlar etdikləri əhdə baxmayaraq bir-birlərini öldürdülər, bir-birlərini məmləkətlərindən xaric etdilər. Onlar sağlam ailə əlaqələri və məhrumlara əl tutmaq əsasında vahid cəmiyyət yaratmağa vəzifəli olduqları halda, günah və başqalarının haqqına təcavüzdə əl-ələ verib cəmiyyətdə hərc-mərclik, təfriqə yaratdılar, qan tökülməsinə rəvac verdilər. Onların himayəsi ilə zalım hakimlər qətl və sürgünlərə cürət etdi. Təəccüblü budur ki, bu adamlar uyğun didişmələrdə əsir düşdükdə Tövratın hökmünə əsasən fidyə ödəyib onu azad etdilər. Hansı ki, onlar Tövratın qətl, sürgün haqqındakı hökmlərini qulaq ardına vurdular. Onlar bir-birini öldürməyə hazır ikən, bir-birinin əsiri olmağa razı deyildilər. Əgər əsirlik pis idisə, öldürmək ondan da pis idi. Əgər Tövrat fidyə verməklə əsirlərin azad olunmasını əmr edirdisə, qətli və sürgünü qadağan edirdi. Bəli, onlar əslində Allahın əmrinə təslim olmamışdılar. Hər yerdə öz istəklərinə uyğun gələn ilahi ayələri öz səliqələri ilə qəbul edirdilər. Harada ki ilahi hökmlər onların istəyi ilə uyuşmurdu, həmin hökmü ayaq altına alırdılar.

◘Bu ayədə dinin bir hissəsinin qəbul olunmasının və digər bir hissəsinin kənara qoyulmasının necəliyi haqqında xəbərdarlıq olunur. Fərdi vəzifələrinə əməl edib ictimai vəzifələrinə biganə qalan insan dünyada zəlillik, qiyamətdə əzab intizarında olmalıdır. Bir

çoxları namaz və orucun şərtlərini və hökmlərini yerinə yetirdikləri halda, hakim və hökumətə münasibətdə özlərini vəzifəli bilmirlər.

## *Bildirişlər*

1. Quran insanın başqalarını öldürməsini onun özünü öldürməsi kimi təqdim edir. Məlum olur ki, başqasını öldürmək intihara (insanın özünü öldürməsinə) bərabərdir. Eyni bir cəmiyyət bir bədənin əzaları kimidir.

2. Günah və təcavüzə yardım və həmkarlıq qadağandır. (Hədisdə nəql olunur ki, hər kəs zalıma onun zülm-sitəmində yol göstərib kömək etsə, cəhənnəmdə Fironun vəziri Hamanın yanında olacaq. Hətta zalım üçün kağız-qələm hazırlamaq da düz deyil. İmam Kazim (ə) tanınmış müsəlmanlardan birinə buyurmuşdur: "Həcc səfəri məqsədi ilə də olsa, xəlifə Harun ər-Rəşidə dəvə kirayə vermək olmaz."[1]

3. İmanın əlaməti əməldir. Dini göstərişlərə əməl etməyən insan imansız kimidir. Quran insanın bəzi göstərişlərə əməl edib, bəzi göstərişlərdən boyun qaçırmasını tənqid edərək buyurmuşdur: "Nə üçün bəzi şeyə iman gətirir, bəzisinə qarşı küfr edirsiniz? "

4. Həqiqi imanın nişanəsi insanın öz şəxsi səliqəsi və meylinə zidd ilahi göstərişlərə əməl etməsidir. Könül istəyən ilahi göstərişlərə əməl etmək həqiqi iman ölçüsü sayılmır.

5. Bəzi ayələrə qarşı küfr əslində bütün hökmlərə qarşı küfrdür. Ona görə də ayələrdən bir qisminə əməl etməyənlərin cəzası dünyada zəlillik, qiyamətdə isə əzabdır.

86. ﴿أُولَئِكَ الَّذِينَ اشْتَرَوُاْ الْحَيَاةَ الدُّنْيَا بِالآَخِرَةِ فَلاَ يُخَفَّفُ عَنْهُمُ الْعَذَابُ وَلاَ هُمْ يُنصَرُونَ﴾

**"Onlar dünya həyatını axirət bahasına almışlardır. Onların cəzaları yüngülləşdirilməz və onlara yardım olunmaz."**

## *Nöqtələr*

◘Ayədə əhdi pozmağın, insanları qətlə yetirməyin, bəzi ayələrə əməl edilməməsinin kökləri belə bəyan edilir: Onlar dünya həyatının ardınca gedir və mənafelərinə uyğun qanunlara baş əyirlər. Onlar dünyəvi mənafelərinə ziyan olan qanunlara etinasızdırlar. Deməli, bu rifah ardınca gəzən dünyapərəstlərin iddialarının ziddinə olaraq onların ilahi əzabları yüngülləşdirilməz. Onlar ya əzab görməyəcəklərini, ya da yalnız bir neçə gün əzab görəcəklərini düşünürlər. Hansı ki, onlar da başqa günahkarlar tək öz əməllərinə görə məsuliyyət daşıyırlar.

## *Bildirişlər*

1. İnsan azaddır və onun seçim hüququ var. Ayələrdə "insan dünyanı aldı, axirəti satdı" deyilməsindən aydın olur ki, insan məcbur deyil, o ixtiyar sahibidir, düşüncə, müqayisə yolu ilə ölçüb-biçir, seçim aparır.

2. İlahi qanun qarşısında hamı eyni dərəcədə cavabdehdir. Bəni-İsrailin özünü üstün irq, Allahın əzizi hesab etməsi puç xəyaldan başqa bir şey deyil. İnadkarlıq və küfr yolunu tutmuş heç bir insan və qövm ilahi qəhr və qəzəbdən azad edilməmişdir.

3. Qətlin səbəblərindən biri də dünyapərəstlikdir.

87. ﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَقَفَّيْنَا مِن بَعْدِهِ بِالرُّسُلِ وَآتَيْنَا عِيسَى ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ
الْقُدُسِ أَفَكُلَّمَا جَاءكُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى أَنفُسُكُمُ اسْتَكْبَرْتُمْ فَفَرِيقاً كَذَّبْتُمْ وَفَرِيقاً تَقْتُلُونَ﴾

[1] "Təfsiri Ətyəbul-bəyan".

**“Belə ki, Biz Musaya kitab (Tövrat) verdik və ondan sonra ardıcıl surətdə peyğəmbərlər göndərdik. İsa ibn Məryəmə (möcüzələr) aşkar dəlillər verdik və ona Ruhul-qüdslə yardım göstərdik. Bəs nə üçün peyğəmbər sizin nəfs istəklərinizə qarşı bir şey (hökm və göstəriş) dedikdə onun qarşısında təkəbbür göstərirsiniz? (Ona iman gətirmək əvəzinə) bir dəstəni inkar etdiniz, digər bir dəstəni qətlə yetirdiniz.”**

## *Nöqtələr*

◘Ayədə Allahın xalqın hidayətindəki ardıcıl lütfündən danışılır. Bildirilir ki, Musadan sonra Davud, Süleyman, Yuşə, Zəkəriyya və Yəhya kimi peyğəmbərlər göndərildi. Həmin peyğəmbərlərdən sonra həzrət İsa aşkar dəlillərlə məbus edildi və Ruhul-qüds (“Nəhl” surəsinin 102-ci ayəsindən məlum edildi ki, Ruhul-qüds Cəbraildir) tərəfindən ona yardım göstərildi. Amma Bəni-İsrail təkəbbür və asilik yolunu tutdu, ilahi hidayətin qəbulu əvəzinə peyğəmbərlərin inkarı və qətlinə əl atıldı.

◘Peyğəmbərlər tarixi İslam peyğəmbəri və möminlər üçün bir təsəllidir. Bu tarixlə tanış olduqda çətinliklərə dözmək asan gəlir.

## *Bildirişlər*

1. Xalq arasında səmavi rəhbərin daimi mövcudluğu Allahın sünnəsidir.
2. Təlim və tərbiyə məsələsində tətilə, fasiləyə yer yoxdur. Peyğəmbərlərin ardıcıl şəkildə göndərilməsi tarix boyu hidayət cərəyanının davam nişanəsidir.
3. Mələklər Allahın övliyalarına yardım göstərirlər.
4. Peyğəmbərlər xalqın sorağına getməlidirlər.
5. Hidayət həvəspərəstliklə uyğun deyil.
6. Haqqa təslim olmayan insan təkəbbür əhlidir.
7. Həvəspərəstlik insanı peyğəmbəri qətlə yetirincəyədək süquta uğradır.
8. Peyğəmbərlər öz hədəflərini həyata keçirmək üçün son damla qanlarınadək müqavimət göstərmişlər.

88. ﴿وَقَالُواْ قُلُوبُنَا غُلْفٌ بَل لَّعَنَهُمُ اللَّه بِكُفْرِهِمْ فَقَلِيلاً مَّا يُؤْمِنُونَ﴾

**“Onlar (peyğəmbərlərinə) dedilər: “Qəlblərimiz qılafdadır (və biz sizin dediklərinizdən bir şey anlamırıq).” Belə deyil. Allah küfrlərinə görə onları öz mərhəmətindən uzaqlaşdırmışdır. (Ona görə də bir şey dərk etmirlər.) Çox az bir qismi iman gətirir.”**

## *Nöqtələr*

◘“Qəlblərimiz qılafdadır” kimi istehzalı cavablar zahirən bütün müşriklərin və asilərin peyğəmbərlər qarşısında şüarı olmuşdur. Həzrət Şüeybin cavabında dedilər: “Biz sənin sözlərini anlamırıq.”[1] Quran ayələri qarşısında belə bildirdilər: “Qəlblərimiz pərdədə və örtükdədir.”[2] Bu ayədə isə “Qəlblərimiz qılafdadır” deyirlər.

## *Bildirişlər*

1. Bədbəxtliyin müqəddiməsi, başlanğıcı insanın öz əlindədir. Allahın lənətinə və qəhrinə düçar olanlar öz inadkarlıq və küfrlərindən əziyyət çəkirlər.

[1] “Hud”, 91.
[2] “Fussilət”, 5.

89. ﴿وَلَمَّا جَاءهُمْ كِتَابٌ مِّنْ عِندِ اللّهِ مُصَدِّقٌ لِّمَا مَعَهُمْ وَكَانُواْ مِن قَبْلُ يَسْتَفْتِحُونَ عَلَى الَّذِينَ كَفَرُواْ
فَلَمَّا جَاءهُم مَّا عَرَفُواْ كَفَرُواْ بِهِ فَلَعْنَةُ اللَّه عَلَى الْكَافِرِينَ﴾

**“Allah tərəfindən onlara bildikləri nişanələri təsdiqləyən kitab gəldi. Bundan qabaq özlərinə ümid verirdilər ki, (yeni kitab və peyğəmbərin köməyi ilə) düşmənlərə qalib gələrlər. Amma elə ki, əvvəlcədən tanıdıqları onlara üz tutdu, ona kafir oldular. Allahın lənəti olsun kafirlərə!”**

## *Nöqtələr*

◘Ayədə yəhudilərin inadkarlıq və həvəsbazlığının digər təzahürləri bəyan olunur. Onlar Tövratın müjdəsi əsasında yeni peyğəmbərin intizarında idilər. Hətta bir-birlərinə qələbə müjdəsi verirdilər. İmam Sadiqin (ə) buyruğuna görə, onların Mədinədə qalmasının dəlillərindən biri bu şəhərin peyğəmbərin hicrət yeri olacağını bilmələri idi. Bu səbəbdən də Mədinədə sakin olmuşdular. Amma İslam peyğəmbəri zühur etdikdən sonra Tövratda qeyd olunmuş nişanələri görsələr də, küfrə uğradılar.[1]

## *Bildirişlər*

1. İlahi dinlər bir-birlərinə qarşı çıxmır, əksinə bir-birlərini təsdiq edirlər.

2. Hər xoş münasibətə etimad göstərmək olmaz. Yəhudilər illər uzunu Mədinədə yeni peyğəmbərin zühur ümidi ilə sakin olsalar da, əməl məqamında küfr etdilər. (Öz eşq və intizarınızla qürrlənməyin. Əməl məqamı çatdıqda insanın halı dəyişə də bilir. Allah eləməmiş bu gün “Nüdbə” duası oxuyasan, sabah isə...)

3. Haqqı tanımaq və onu bilmək kafi deyil. Çoxları haqqı tanıdıqları halda inadkarlıqları səbəbindən kafir oldular.

90. ﴿بِئْسَمَا اشْتَرَوْاْ بِهِ أَنفُسَهُمْ أَن يَكْفُرُواْ بِمَا أنَزَلَ اللّهُ بَغْياً أَن يُنَزِّلُ اللّهُ مِن فَضْلِهِ عَلَى مَن يَشَاء مِنْ
عِبَادِهِ فَبَآؤُواْ بِغَضَبٍ عَلَى غَضَبٍ وَلِلْكَافِرِينَ عَذَابٌ مُّهِينٌ﴾

**“Nə pisdir o şey ki, özlərini ona satdılar. Həsəd səbəbindən Allahın göndərdiyi ayələrə kafir oldular. (Dedilər) Nə üçün Allah fəzlini bəndələrindən istədiyinə (ayələr) nazil edir? Beləcə, Allahın ardıcıl qəhrinə düçar oldular. Kafirlər üçün zəliledici əzablar var.”**

## *Nöqtələr*

Ayədə yəhudilərin İslam peyğəmbərinə qarşı küfrünün səbəbi bəyan olunmuşdur. Onlar həsəd aparırdılar ki, nə üçün vəhy Bəni-İsraildən bir kəsə nazil olmayıb. Bu həsəd və küfr onların özlərini satdığı çox pis bir qiymət idi.

## *Bildirişlər*

1. Xalqın dininin dəyər ölçüsü onların maraqlarından asılıdır.

2. Həsəd küfr mayasıdır. Bəni-İsrail arzu edirdi ki, vəd olunmuş peyğəmbər onlardan olsun. Arzularına çatmadıqlarından həsəd göstərib küfr etdilər.

3. Peyğəmbərlik ilahi fəzldir.

4. İnsanın narazılığı Allahın hikmət dolu lütflərinə təsir göstərmir. Allah kimi peyğəmbər seçəcəyini daha yaxşı bilir.

5. Ən pis müamilə odur ki, insan varlığını verib Allahın qəzəbini alsın.

---

[1] “Təfsiri-Nurus-səqəleyn”.

91. ﴿وَإِذَا قِيلَ لَهُمْ آمِنُواْ بِمَا أَنزَلَ اللّهُ قَالُواْ نُؤْمِنُ بِمَآ أُنزِلَ عَلَيْنَا وَيَكْفُرونَ بِمَا وَرَاءهُ وَهُوَ الْحَقُّ
مُصَدِّقاً لِّمَا مَعَهُمْ قُلْ فَلِمَ تَقْتُلُونَ أَنبِيَاءَ اللّهِ مِن قَبْلُ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Onlara "Allahın nazil etdiyinə iman gətirin." deyə əmr olunduqda deyərlər: "Biz yalnız o şeyə iman gətirərik ki, özümüzə nazil olsun..." Bundan qeyrisinə kafir olarlar. Hansı ki, o (Quran) haqdır və onların Tövratdan bildiklərini təsdiq edir. De ki, əgər mömin idinizsə, nə üçün bundan qabaq ilahi peyğəmbərləri qətlə yetirdiniz?!”**

## *Bildirişlər*

1. İslam peyğəmbərinə bütün ümmətləri İslama dəvət etmək əmr olunmuşdu.
2. Kafirlərin küfr dəlillərindən biri irqçilik, millət və qövm təəssübüdür.
3. İman ölçüsü irq və millət yox, ayinlərin haqq olmasıdır.
4. Quran başdan-başa həqiqətdir.
5. Peyğəmbər dövründəki yəhudilər öz babalarının rəftarı ilə razı olduqlarından, peyğəmbərlərin öldürülməsini Allah onlara da aid etmişdir.
6. Yalançı rüsvaydır.

(Əgər Bəni-İsraildən olan peyğəmbərə iman gətirmişdilərsə, nə üçün həmin qövmdən olan Yəhya və Zəkəriyyanı şəhid etdilər?! Bəli, onların rəftarı imansızlıqlarının nişanəsi idi.)

92. ﴿وَلَقَدْ جَاءكُم مُّوسَى بِالْبَيِّنَاتِ ثُمَّ اتَّخَذْتُمُ الْعِجْلَ مِن بَعْدِهِ وَأَنتُمْ ظَالِمُونَ﴾ **“Musa sizin üçün möcüzələr gətirdi. Amma siz ondan sonra (o olmayanda) zülmə uğrayaraq buzova üz tutdunuz.”**

## *Nöqtələr*

◘Ayədə yəhudilərə müraciət olunur: Sizin iman gətirməmək məqsədi ilə Məhəmmədin ərəb olduğunu bəhanə gətirməyinizin digər bir dəlili budur ki, Musa sizin qövmdən olan ən üstün peyğəmbər ikən, aydın dəlillərlə və möcüzələrlə gəldiyi bir vaxt bir neçə gecəlik (Tur dağında münacata gedərkən) aranızda olmayanda buzovpərəstliyə üz tutdunuz. Musanın bütün zəhmətlərini bada verib özünüzə zülm etdiniz!

## *Bildirişlər*

1. Düzgün mühakimə yürüdülməsində keçmişin öyrənilməsi faydalıdır.
2. Şirk və cahilliyyətə qayıdış insanın özünə və nəslinə zülmüdür.

93. ﴿وَإِذْ أَخَذْنَا مِيثَاقَكُمْ وَرَفَعْنَا فَوْقَكُمُ الطُّورَ خُذُواْ مَا آتَيْنَاكُم بِقُوَّةٍ وَاسْمَعُواْ قَالُواْ سَمِعْنَا وَعَصَيْنَا
وَأُشْرِبُواْ فِي قُلُوبِهِمُ الْعِجْلَ بِكُفْرِهِمْ قُلْ بِئْسَمَا يَأْمُرُكُمْ بِهِ إِيمَانُكُمْ إِن كُنتُمْ مُّؤْمِنِينَ﴾

**“(Xatırlayın,) sizdən əhd aldığımız, Tur dağını sizin üzərinizə qaldırdığımız və “sizə verdiyimiz göstərişləri möhkəm tutun və eşidin” dediyimiz vaxt onlar dedilər: “Eşitdik və itaətsizlik etdik... Öz küfrləri səbəbindən buzovpərəstliyə bağlandılar. De ki, əgər iman iddiasındasınızsa, imanınız sizi pis şeylərə sövq edir.”**

## *Nöqtələr*

◘Yəhudilərin son sözü bu idi ki, əgər peyğəmbər Bəni-İsraildən olmasa, ona iman gətirməsinlər və yalnız onların özünə nazil olmuş kitabı qəbul etsinlər.

Quran onların bir neçə yalanını bəyan edir. İlk nümunə əvvəlki ayədə idi və belə buyurulurdu: “Əgər siz bu iddianızda haqlısınızsa, bəs nə üçün Musaya arxa çevirib, buzovpərəstlik dalınca getdiniz?!” İkinci nümunədə isə belə buyurulur: “Sizdən əhd aldıq və Tur dağını üzərinizə qaldırıb dedik: “Var gücünüzlə Tövratın səmavi qanunlarından tutun, qulaq asıb əməl edin.” Amma siz dediniz: “Biz qanunları tanıyırıq, amma əməl etmirik.” Əgər Quran və İslam peyğəmbərinə iman gətirməkdə bəhanəniz budursa ki, Məhəmməd (s) sizdən deyil, bəs nə üçün özünüzdən olan Musa və onun Tövratına iman gətirmədiniz?!

Quranda bu etiqadsızlığın səbəbi belə bəyan olunur. Küfrləri səbəbindən onların qəlbi buzova məhəbbətlə doldu və nə düşüncə, nə də iman üçün yer qalmadı. Əgər Bəni-İsrail doğru deyirsə ki, onlara nazil olan hər şeyə iman gətirirlər, bəs əməl namələrindəki cinayətləri necə izah edirlər? Məgər buzovpərəstlik, peyğəmbərin qətli, əhdi pozmaq imandandırmı?!

## *Bildirişlər*

1. Nümunə götürmək əməl səbəblərindən biridir.
2. İlahi inqilabın nailiyyətlərini qorumaq hədələr bahasına da olsa zəruridir.
3. İlahi hökmlərin və göstərişlərin yerinə yetirilməsi qüdrət, ciddilik, eşq və qərara ehtiyaclıdır. Vəzifələrin icrası zarafat və dəbdəbə ilə uyğun deyil. Dindarlıqla zəiflik, qətiyyətsizlik, sazişçilik bir araya sığmır.
4. İfrat eşq və bağlılıq təhlükəlidir. Bir şeyə ifrat bağlanan insan həqiqətləri qəbul etmək istəmir. (Bəli, bir şeyə könül bağlayan insan kor və kar olur, həmin şeyin eyblərini görə bilmir.)
5. İnsanın düşüncə və əqidəsinin ən aşkar göstəricisi onun rəftarıdır.

94. ﴿قُلْ إِن كَانَتْ لَكُمُ الدَّارُ الآَخِرَةُ عِندَ اللّهِ خَالِصَةً مِّن دُونِ النَّاسِ فَتَمَنَّوُاْ الْمَوْتَ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“De ki, əgər Allahın yanında axirət sarayı başqa xalqlara yox, sizə məxsusdursa, onda ölüm istəyin. Əgər doğru deyirsinizsə!”**

## *Nöqtələr*

◘Bəni-İsrailin yalan iddialarından, saysız xəyalpərvərliklərin-dən bəzilərini nəzərdən keçirək:

–Biz Allahın övladları və əzizləriyik.[1]

–Yəhudi və ya məsihi olmayan kimsə behiştə daxil olmaz.[2]

–Cəhənnəm odu bizə bir neçə gündən artıq təsir etməz.[3] Bu ayə onların bütün qurama xəyallarını və mövhumat düşüncələrini rədd edib buyurur: “Əgər sizin bu iddianız doğrudursa və dediyiniz sözlərə inanırsınızsa, ölümdən qorxmamalı, ondan qaçmamalısınız. Əksinə, behiştə daxil olmaq üçün ölüm arzulamalısınız!

◘Allahın övliyaları nəinki ölümdən qorxmurlar, əksinə, ölüm üçün həsrət çəkirlər. Necə ki, Həzrət Əli (ə) buyurur: “And olsun Allaha, Əbu-Talib övladının ölümə həvəsi, südəmər körpənin ana döşünə olan həvəsindən çoxdur.”[4]

Bəli, insan elə bir tərzdə yaşamalıdır ki, hər an ölümə hazır olsun. (Sürücü yalnız tanımadığı yoldan və uğursuz səfərdən qorxur. Yanacağı olan, qaçaq mal aparmayan, gedəcəyi yerdə yaşamağa yeri olan müsafir nə üçün qorxmalıdır?! Həqiqi mömin üçün bu səfər çox sevindiricidir.)

[1] “Maidə”, 18.
[2] “Bəqərə”, 111.
[3] “Bəqərə”, 80.
[4] “Bihar”, c. 28, s. 233.

### *Bildirişlər*

1. Puç xəyallar və mövhumatlarla sərt rəftar edin.
2. Millətpərəstlik və irqpərəstlik qiyamətədək davam edər.
3. Ən üstün hakim vicdandır.
4. Ölümə hazırlıq həqiqi və sədaqətli iman nişanəsidir.

95. ﴿وَلَن يَتَمَنَّوْهُ أَبَدًا بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ وَاللّهُ عَلِيمٌ بِالظَّالِمينَ﴾

**“Amma onlar əvvəlcədən göndərmiş olduqlarının ucbatından heç vaxt ölüm istəmirlər. Allah zalımların halından agahdır.”**

### *Nöqtələr*

◘Ölümdən qorxmamaq düzlük və yəqinlik nişanəsidir. Ölüm çatdığı zaman zarafatlar, əyləncələr, xəyallar gözdən itir və təkcə insanla onun əməlləri qalır. Ölüm məqamında insan inanır ki, dünya matahı məhduddur, axirət isə üstün və davamlıdır.

Ölüm zamanı insan inanır ki, dünya kimsə üçün açılmamış bir qönçə, dünya dostları isə şirniyə toplanmış arı kimidir. İnsan yəqin mərtəbəsinə çatarsa, ölümə yaxınlaşdıqca Allahla görüş dəmini hiss etməyə başlayır. Ona görə də Həzrət Əli (ə) ölüm zərbəsi aldığı vaxt buyurur: “And olsun Kəbənin Allahına, qurtuldum.” Kərbəlada aşura günortası, şəhadət məqamı yaxınlaşdıqca imam Hüseynin (ə) çöhrəsi açılır. Son gecə imam Hüseyn (ə) öz ətrafındakılardan ölümün nə olması barədə soruşduqda, onların verdiyi cavablar getdikləri yola əmin olmalarından danışır. Onlar ölümü şirin bilirdilər, hətta həmin gecə imamın bəzi yoldaşları bir-birləri ilə zarafatlaşırdılar.

### *Bildirişlər*

1. İnsandakı ölüm qorxusu əslində onun öz əməllərinin cəzasından olan qorxudur.
2. Yalan iddia edənlər və yersiz tələb irəli sürənlər zalımdırlar.
3. Özünüz nə etdiyinizi bilirsiniz. Allah da gördüyünüz işlərdən xəbərdardır. Bəs bu iddialar nə üçündür?!

96. ﴿وَلَتَجِدَنَّهُمْ أَحْرَصَ النَّاسِ عَلَى حَيَاةٍ وَمِنَ الَّذِينَ أَشْرَكُواْ يَوَدُّ أَحَدُهُمْ لَوْ يُعَمَّرُ أَلْفَ سَنَةٍ وَمَا هُوَ بِمُزَحْزِحِهِ مِنَ الْعَذَابِ أَن يُعَمَّرَ وَاللّهُ بَصِيرٌ بِمَا يَعْمَلُونَ﴾

**“(Ey peyğəmbər!) Hər an yəhudiləri yaşayışa (dünya və sərvət yığmağa) hətta müşriklərdən də həris görərsən. (Belə ki,) Onlardan hər biri min il yaşamaq arzusundadır. Hansı ki, onlara belə uzun ömür verilmiş olsa, bu ömür onları Allahın əzabından qurtarmayacaq. Allah onların əməllərini görəndir.**

### *Bildirişlər*

1. Uzun yaşamaq mühüm deyil. Əsas məsələ Allaha yaxınlıq, ömrün bərəkətli olması və oddan qurtuluşdur. (Fəxr Razinin təfsirində həzrət Peyğəmbərin (s) belə dua etdiyi nəql edilmişdir: “Pərvərdigara, əgər mənim üçün yaşamaq yaxşıdırsa, məni diri saxla, əgər ölüm yaxşıdırsa, öldür.”)
2. Yəhudilər dünyanın ən həris və ən dünyagir xalqıdırlar.
3. Həyat nə qədər alçaq və çirkin olsa da yəhudilər diri qalmaq istəyindədirlər.

4. Yalançının yaddaşı olmur. Yəhudilər bir tərəfdən behişti özlərininki bilirdilər , digər bir tərəfdən həmişə dünyada qalmaq istəyirdilər. [1]

97. ﴿قُلْ مَن كَانَ عَدُوًّا لِّجِبْرِيلَ فَإِنَّهُ نَزَّلَهُ عَلَى قَلْبِكَ بِإِذْنِ اللّهِ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَهُدًى وَبُشْرَى لِلْمُؤْمِنِينَ﴾

**“(Yəhudilər deyirlər: “Sənə vəhy gətirən mələk bizim düşmənimiz Cəbrail olduğundan sənə iman gətirmirik.) De ki, hər kəs Cəbrailin düşməni olsa (əslində Allahın düşmənidir), çünki o, Quranı Allahın göstərişi ilə sənin qəlbinə nazil etmişdir. Bu (Quran) ki, əvvəlki səmavi kitabları təsdiq edir və möminlər üçün hidayət və başarət mayasıdır.”**

## *Nöqtələr*

◘Ayənin nazil olma səbəbi belə bəyan olunur: İslam peyğəmbəri Mədinəyə gəldikdən sonra bir gün İbn Surya (yəhudi alimlərindən biri) fədək yəhudilərindən bir qrupu ilə Peyğəmbərin (s) yanına gəlib, suallar verdilər. Həzrət onların bütün suallarını cavablandırdı və istədikləri nişanələri bəyan etdi. Onların son sualı bu idi ki , vəhy mələyinin adı nədir? Həzrət bildirdi ki, bu mələyin adı Cəbraildir. Onlar dedilər: “Əgər Mikail olsaydı, sənə iman gətirərdik. Cəbrail isə cihad kimi çətin əmrlər gətirir. Mikailin gətirdiyi əmrlər isə sadə və rahatdır.”

## *Bildirişlər*

1. İnsanın xəyalbazlığı və inadkarlığı elə bir həddə çatır ki, mələklər aləminə də əl uzadır. (Allah isə mələklərin məsum olduğunu bildirir.)[2]

2. Böhtan atılmış pakların himayə və müdafiəsi vacibdir.

Allah yəhudilərin Cəbrail haqqındakı yanlış təsəvvürlərini məhkum edərək, Cəbraili belə tərif edir ki, o, icazəsiz iş görmür, öz risalətində əmindir və Allahla peyğəmbər arasında rabitəçidir.

3. Bəni-İsrailə deyilir ki, Cəbrail onların Tövratını təsdiq edən bir kitab gətirmişdir. Bəs nə üçün onlar Cəbraillə düşməndirlər?!

98. ﴿مَن كَانَ عَدُوًّا لِّلّهِ وَمَلآئِكَتِهِ وَرُسُلِهِ وَجِبْرِيلَ وَمِيكَالَ فَإِنَّ اللّهَ عَدُوٌّ لِّلْكَافِرِينَ﴾

**“Hər kəs Allahın, Onun mələklərinin və peyğəmbərlərinin, Cəbrail və Mikailin düşməni olsa (kafirdir və bilin ki, Allah kafirlərin düşmənidir.)”**

## *Bildirişlər*

1. Bütün müqəddəsliklərə iman və sevgi zəruridir.

2. Peyğəmbərlər və övliyalarla düşmənçilik Allaha qarşı küfr və düşmənçilikdir.

3. Bütün mələklər eyni dərəcədə deyil. (Burada iki xüsusi mələk, Cəbrail və Mikailin adı çəkilir.)

99. ﴿وَلَقَدْ أَنزَلْنَآ إِلَيْكَ آيَاتٍ بَيِّنَاتٍ وَمَا يَكْفُرُ بِهَا إِلاَّ الْفَاسِقُونَ﴾

**“Sənə doğru, aydın ayələr göndərdik. Yalnız fasiqlər onu inkar edər.”**

---

[1] “Təfsiri-Rahnüma”.

[2] “Təhrim”, 6.

## *Nöqtələr*

◘İnsan həvəslər ardınca getməklə və günaha batmaqla haqq yoldan çıxır və küfrə meyl etməyə başlayır. Quran buyurur: “Günaha batanlar tövbə edib əvəzini çıxmasalar, onların işinin sonu inkar və küfrdür.[1]

◘Əhvalatı əvvəlki iki ayədə qeyd olunmuş İbn Surya; Peyğəmbər (s) onun suallarını cavablandırdıqdan sonra başqa bir bəhanə tapmayıb dedi: “Sənə Mikail yox, Cəbrail vəhy gətirdiyi üçün biz də sənə iman gətirmirik.” Amma onun cavabı əvvəlki ayədə verildiyindən İbn Surya yəhudilərin avamlarına müraciət edir ki, o, aşkar bir dəlil gətirməmişdir. Ayə nazil oldu ki, məbada İbn Surya kimi alimlərin bəhanəçiliyi xalqı çaşdıra. Xalq bilməlidir ki, Bəni-İsrail bəhanə axtarır. Əslində isə aydın və möhkəm dəlillər göndərilmişdir və kimsə həzrətin peyğəmbərliyinə şübhə edə bilməz. Belə dəlillər gətirildiyi halda yalnız günahkarlar həvəsbazlıqları və günahlarının çoxluğu səbəbindən küfr edir, haqq yoldan çıxırlar.

## *Bildirişlər*

1. Haqsız ittihamlar qarşısında mövqelər gücləndirilməlidir. Yəhudi alimləri həzrət Peyğəmbəri (s) haqsız yerə ittiham və onun möhkəm dəlili olmadığını bəhanə etdiklərindən Allah öz peyğəmbərini gücləndirdi.
2. Fəsad və günah küfr zəminəsidir.

100. ﴿أَوَكُلَّمَا عَاهَدُواْ عَهْداً نَّبَذَهُ فَرِيقٌ مِّنْهُم بَلْ أَكْثَرُهُمْ لاَ يُؤْمِنُونَ﴾

**“Məgər belə olmadımı ki, onlar (yəhudilər) hər dəfə əhd bağladıqda bir dəstələri bu əhdi pozdular. Həqiqət budur ki, onların çoxu iman gətirməz.” (Ayə yəhudilərin tarix boyu əhdi pozduqlarını, bəhanə gətirdiklərini, inadkarlıq göstərdiklərini bildirməklə həzrət Peyğəmbərə təsəlli verir.)**

101. ﴿وَلَمَّا جَاءهُمْ رَسُولٌ مِّنْ عِندِ اللّهِ مُصَدِّقٌ لِّمَا مَعَهُمْ نَبَذَ فَرِيقٌ مِّنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ كِتَابَ اللّهِ
وَرَاء ظُهُورِهِمْ كَأَنَّهُمْ لاَ يَعْلَمُونَ﴾

**“Elə ki, Allah tərəfindən onlarda olanı (Tövratı) təsdiq edən peyğəmbər soraqlarına gəldi, kitab əhlindən bir qismi Allahın kitabına arxa çevirdi. Sanki bu işdən tamamilə xəbərsiz idilər.”**

## *Nöqtələr*

◘Yəhudi alimləri Peyğəmbərin (s) besətindən qabaq xalqa onun qarşıdakı zühuru ilə müjdə verirdilər. Onlar öz kitablarından bu peyğəmbər haqqındakı nişanələri bəyan edirdilər. Yəhudi alimlərində elə nişanələr vardı ki, onlar həzrət Məhəmmədi (s) öz övladları tək tanıyırdılar. Amma həzrətin besətindən sonra həmin nişanələri gizlədib, inkar etməyə başladılar.

## *Bildirişlər*

1. Müxaliflərlə qarşılaşdıqda insaflı rəftar etmək lazımdır. Əvvəlki ayədə buyurulurdu ki, onların əksəri iman gətirməsə də, bir qismi başqa cürdür. Bu ayədə də qeyd olunur ki, onlardan bir qismi belədir. Yəni onların hamısına eyni gözlə baxılmamalıdır.
2. Əməl olunmayan bir elm cəhl kimidir. Bildiklərini bir tərəfə qoyub həqiqəti gizlədən alimlər, "sanki bilmirlər" təbiri ilə yad edilirlər.

[1] “Rum”, 10.

102. ﴿وَاتَّبَعُواْ مَا تَتْلُواْ الشَّيَاطِينُ عَلَى مُلْكِ سُلَيْمَانَ وَمَا كَفَرَ سُلَيْمَانُ وَلَكِنَّ الشَّيْاطِينَ كَفَرُواْ يُعَلِّمُونَ
النَّاسَ السِّحْرَ وَمَا أُنزِلَ عَلَى الْمَلَكَيْنِ بِبَابِلَ هَارُوتَ وَمَارُوتَ وَمَا يُعَلِّمَانِ مِنْ أَحَدٍ حَتَّى يَقُولاَ إِنَّمَا نَحْنُ فِتْنَةٌ
فَلاَ تَكْفُرْ فَيَتَعَلَّمُونَ مِنْهُمَا مَا يُفَرِّقُونَ بِهِ بَيْنَ الْمَرْءِ وَزَوْجِهِ وَمَا هُم بِضَآرِّينَ بِهِ مِنْ أَحَدٍ إِلاَّ بِإِذْنِ اللّهِ
وَيَتَعَلَّمُونَ مَا يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ وَلَقَدْ عَلِمُواْ لَمَنِ اشْتَرَاهُ مَا لَهُ فِي الآخِرَةِ مِنْ خَلاَقٍ وَلَبِئْسَ مَا شَرَوْاْ بِهِ
أَنفُسَهُمْ لَوْ كَانُواْ يَعْلَمُونَ﴾

**“(Yəhudilər) Süleymanın əsrində şeytanların oxuduqlarına tabe olurdular. Süleyman heç vaxt kafir olmadı. Amma şeytanlar xalqa sehr-cadu öyrətməklə kafir oldular. Babil şəhərində Harut və Marut adlı iki mələyə nazil olanlara tabe oldular. O iki mələk əvvəlcə “Biz sizin imtahan vasitənizik”, “kafir olmayın” deməmiş kimsəyə bir şey öyrətmədilər. Amma onlar bu iki mələkdən elə bir şey öyrəndilər ki, onun vasitəsi ilə ərlə arvad arasına ayrılıq sala bilsinlər. Amma Allahın iradəsi olmadan heç vaxt kimsəyə zərər toxundura bilməzlər. Onlar o hissələri öyrəndilər ki, özləri üçün xeyiri yox, ziyanı oldu. Şübhəsiz, bilirdilər ki, hər kəs belə şeylərin alıcısı olsa, axirətdə bəhrəsi olmayacaq. Doğrudan da, özlərini çox pis bir şeyə satdılar. Əgər bilsəydilər!”**

## *Nöqtələr*

◘Rəvayətlərdən məlum olur ki, həzrət Süleyman azğınlıqların və ya sui-istifadənin qarşısını almaq üçün sehrbazların (sahirlərin) vərəqlərinin toplanıb saxlanılmasını əmr etdi. Amma onun vəfatından sonra bəziləri bu vərəqləri əldə edib, onun təlimi və xalq arasında yayılması ilə məşğul oldular. Onlar hətta Həzrət Süleymanın möcüzələrini də sehr kimi tanıtdırıb, onun peyğəmbərliyini inkar etdilər. Bəni-İsraildən də bir dəstəsi Tövrata itaət etmək əvəzinə sehr-cadu arxasınca getdi. Bu baxış o qədər genişlənmişdi ki, hətta İslam peyğəmbərinin (s) dövründəki yəhudilər də həzrət Süleymanı peyğəmbər kimi yox, sehrbaz kimi tanıyırdılar.

Ayə Tövratdan üz döndərmə günahı və azğınlığını, sehr təliminə məşğul olan şeytanlara itaəti təsvir edir. Yəhudilər Tövrat əvəzinə Süleyman dövründə şeytanların xalqa öyrətdiklərini oxuyur və ona itaət edirdilər. Onlar öz işlərinə don geyindirmək üçün Süleymanı sehrdə ittiham edirdilər. Hansı ki, Süleyman ilahi bir insan, onun işi isə möcüzə idi. Şeytanlar isə ona qarşı çıxır və sehrə əl atırdılar.

Deyilənlərdən əlavə, yəhudilər digər sehr mənbələrinə də yol tapdılar. Allah Harut və Marut adlı iki mələyi Babil şəhərinə insan surətində göndərib xalqa sehr-cadunu aradan qaldırmaq yolunu öyrətmək istədi. Amma bundan ötrü əvvəlcə onları sehrlə tanış etmək lazım gəlirdi. Çünki insan bir şeyin kimyəvi tərkibini bilmədən onu məhv etməyi bacarmır. Ona görə də mələklər əvvəlcə sehr yolunu, sonra isə sehri aradan qaldırmaq yolunu öyrədirdilər. Onlar şagirdlərinə bunu öyrətməzdən qabaq şərt kəsdilər ki, ondan sui-istifadə etməsinlər. Dedilər: Bu iş fitnə və sınaq mayasıdır. Eləcə də insanlar ondan özlərini məhv etmək üçün istifadə etməməlidirlər. Amma yəhudilər bu bilikdən sui-istifadə edib, ondan pis yolda bəhrələndilər. Hətta ərlə arvad arasında ayrılıq salmaq üçün bu yoldan istifadə etdilər.

◘Quran burada maraqlı və düşündürücü bir nöqtəni xatırladır. Buyurulur ki, sehr elminə malik olan sahir Allahın qüdrət dairəsindən xaric deyil. O, Allahın iradəsi olmadan bir iş görə bilməz, kimsəyə zərər toxundurmağı bacarmaz. Amma Allah hər bir şey üçün təsir müəyyənləşdirdiyindən sehr-cadunun da mənfi təsirləri ola bilər. Onun mənfi təsirlərindən biri də ailə rabitələrinin qırılmasıdır.

## *Bildirişlər*

1. Haqq hökumətdə və ilahi hakimin rəhbərliyi altında da bütün xalq islah olmur. Bəziləri əyri yola meyl edir.

2. Şeytanlar Süleymanın hakimiyyəti zamanı da bekar oturmurdular. Onlar daim mənfi təlqinlər edirdilər.

3. Hökumət peyğəmbərliyə (nübüvvətə) zidd deyil. Bəzi peyğəmbərlərin hökuməti olmuşdur.

4. Sehrkarlar öz işlərini müqəddəs göstərmək, ona don geyindirmək üçün Süleymanı da sehrkar kimi tanıtdırırdılar.

5. Allah başqalarının böhtanları qarşısında peyğəmbərlik məqamını müdafiə edir.

6. Sehrin öyrənilməsi, öyrədilməsi və tətbiqi küfr cərgəsindədir. Rəvayətlərdə bildirilmişdir ki, sehrkar kafirdir və onun cəzası qətldir.

7. Zərərli biliklər və azğın əqidələrlə mübarizə üçün salehlər onlardan xəbərdar olmalıdırlar.

8. Öyrənib öyrədərkən elmlərin mənfi cəhətlərini nəzərə çatdırmaq lazımdır.

9. İnsan iki təlim arasında qərar verilmişdir: Şeytani vəsvəsələr və ilahi ilhamlar.

10. Mələklər də insanlara müəllim ola bilərlər.

11. Bəzən elm və bilik sınaq vasitəsi olur.

12. Ərlə arvad arasına təfriqə salmaq şeytanların işidir və küfr həddindədir.

13. Elm və bilik həmişə faydalı olmur. Bəzən insan öz biliyindən zərər çəkir.

14. Sehr və cadu gerçəklikdir və insanın həyatına təsiri var.

15. Sehrkar, müəyyən işlər görür. Amma onun işinin bütün təsirləri Allahın nəzəri altındadır.

Allaha pənah aparmaq, təvəkkül, dua və sədəqə yolu ilə bu qurğulardan xilas olmaq mümkündür.

16. Sehrkarlar dünyada var-dövlətə, şan-şöhrətə çatsalar da, qiyamətdə əlləri boşdur.

17. Təfriqə, sehr-cadu arxasınca gedən insan öz insanlığını əldən verir.

103. ﴿وَلَوْ أَنَّهُمْ آمَنُواْ واتَّقَوْا لَمَثُوبَةٌ مِّنْ عِندِ اللَّه خَيْرٌ لَّوْ كَانُواْ يَعْلَمُونَ﴾

**“Əgər onlar iman gətirib, təqvalı olsaydılar, Allahın yanındakı mükafat onlar üçün daha yaxşı olardı. Əgər agahlıqları olsaydı!”**

## *Nöqtələr*

◘Təqva təkcə pisliklərdən çəkinmək deyil, həm də yaxşılığa diqqət və riayətdir. Məsələn, “ittəqunnar” özünü oddan gözləmək, “ittəqullah” Allahın əmrlərinə diqqətli olmaqdır. “İttəqullah və ... ərham” ayəsində qohumlara diqqətli olmaq tapşırılır.

İmam Sadiq (ə) təqva haqqındakı sualın cavabında buyurmuşdur: “Təqva tikanlı yerdən keçərkən ehtiyatlı olmaq kimidir.”

## *Bildirişlər*

1. Təkcə iman kifayət deyil. Təqva və ehtiyat da lazımdır.

2. İlahi mükafatların məhdudiyyəti yoxdur.

3. Allahın mükafatları çətindir. “Ləməsubə” sözündəki lam hərfi buna işarədir.

4. İlahi mükafat hər şeydən üstündür. “Xeyir” sözündən sonra heç nə deyilməməsi mütləq üstünlük nişanəsidir.

104. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقُولُواْ رَاعِنَا وَقُولُواْ انظُرْنَا وَاسْمَعُوا وَلِلكَافِرِينَ عَذَابٌ أَلِيمٌ﴾

**“Ey iman gətirmiş kəslər! (Peyğəmbərə) “raina” deməyin “unzurna” deyin ("bizi nəzərdə saxla," bu tövsiyəni) eşidin və kafirlər üçün dərdli əzab var.”**

## *Nöqtələr*

◘Bəzi müsəlmanlar peyğəmbərin dediklərini yaxşı dərk etmək üçün onun aram, öz hallarına uyğun danışmasını istəyirdilər. Bu istəklərini “raina”[1] sözü ilə bildirirdilər. Amma bu söz yəhudilərin dilində ədəbsiz səsləndiyindən ayə nazil oldu ki, “raina” əvəzinə “unzurna” söyləsinlər. Bununla da düşmənin sui-istifadəsinin qarşısı alındı.

◘Bu ayə “ey iman gətirənlər” müraciəti ilə başlayan ilk ayədir. Bundan sonra Quranda səksən dəfədən çox bu şəkildə xitab olmuşdur.

## *Bildirişlər*

1. Sözlərin necə səslənməsinə diqqətli olun. Çünki yaxşı niyyətlə deyilmiş bir söz pis səslənə bilər. Sözün necə qəbul olunacağı barədə də düşünmək lazımdır.
2. Düşmən bizim bütün hərəkətlərimizi və sözlərimizi izləyir. O hər bir mümkün fürsətdən istifadə edib zərbə vurmaq istəyir.
3. İslam münasib sözlər seçməklə ölçülü bəyanata, səlis üsluba, mətləbin çatdırılmasına diqqət göstərir.
4. Böyüklər və müəllimlərlə danışarkən danışıq ədəbinə riayət olunmalıdır.
5. Əgər başqalarını ədəbə riayət etməyə çağırırıqsa, əvvəlcə özümüz xalqla danışıqda ədəbi gözləməliyik. “Ey iman gətirənlər” müraciəti möhtərəm bir xitabdır.
6. Bir şey qadağan olunursa, onun yerinə digər bir münasib şey tanıtdırılmalıdır.

105. ﴿مَّا يَوَدُّ الَّذِينَ كَفَرُواْ مِنْ أَهْلِ الْكِتَابِ وَلاَ الْمُشْرِكِينَ أَن يُنَزَّلَ عَلَيْكُم مِّنْ خَيْرٍ مِّن رَّبِّكُمْ وَاللّهُ يَخْتَصُّ بِرَحْمَتِهِ مَن يَشَاء وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ﴾

**“Kitab əhlindən olan kafirlər və müşriklər sizə Rəbbinizdən heç bir xeyir nazil olmasını istəmirlər. Halbuki Allah Öz rəhmətini istədiyinə aid edər. Allah böyük fəzl sahibidir.”**

## *Nöqtələr*

◘Bu ayə yəhudi və məsihi müşriklərinin və kafirlərin müsəlmanlara münasibətdə kin və ədavətləri üzərindən pərdəni götürür. Onlar müsəlmanların böyük bir peyğəmbərə və səmavi kitaba malik olduğunu görmək istəmirdilər. Bəli, müsəlmanlar tövhid nidasını bütün dünyaya çatdırmaq, irqi və milli ayrıseçkiliklərlə, müşriklərin xürafatları və kitab əhlinin təhrifləri ilə mübarizə əzmindədirlər. Onlar avamların böyüklər tərəfindən aldadılmasına mane olurlar. Allah bu ayədə buyurur ki, Allahın lütf və mərhəməti onun iradəsinə əsasən istədiyi şəxsə nazil olar və bu işin kimsənin istəyib-istəməməsindən asılılığı yoxdur!

## *Bildirişlər*

1. Düşmənin qəlb istəklərini və iç ruhiyyəsini tanıyın. Heç vaxt onlara meyl etməyin. Onlar azcıq da olsa, müsəlmanların xeyir tapmasını istəmirlər.
2. Xeyir vermək rübubiyyət şənindəndir.
3. Allaha təvəkkül edin və düşmənin kinindən, həsədindən qorxmayın.
4. Həsədçinin həsədi Allahın lütf istəyinə heç bir təsir göstərə bilməz.

---

[1] Yəhudilər "raina" sözünü təhqiredici bir mə’na nəzərdə tutaraq işlədirdilər.

5. Allahın fəzl və rəhməti, hidayəti bütün xalqlara və qövmlərə şamildir və təkcə Bəni-İsrailə və digər bir qrupa aid deyil.

106. ﴿مَا نَنسَخْ مِنْ آيَةٍ أَوْ نُنسِهَا نَأْتِ بِخَيْرٍ مِّنْهَا أَوْ مِثْلِهَا أَلَمْ تَعْلَمْ أَنَّ اللّهَ عَلَىَ كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Hər hansı ayəni nəsx (ləğv) etsək və ya onu təxirə salsaq, ondan da yaxşısını və ya onun kimisini göndərərik. Məgər bilmirsənmi ki, Allah hər şeyə qadirdir?!”**

## *Nöqtələr*

◘“Nunsiha” sözü “insa” məsdərindən olub, təxirə salmaq və ya ləğv etmək mənasını verir. Bu mənada ki, ayənin nüzulu təxirə düşər və bir müddət sonra nazil olar.

◘Bu ayə yəhudilərin mənfi təbliğatına cavabdır. Onlar soruşurdular ki, nə üçün İslamda bəzi qanunlar dəyişilir? Nə üçün qiblə Beytül Müqəddəsdən Kəbəyə dəyişdirildi? Əgər əvvəlki düz idisə, bəs sonrakı göstəriş nə üçündür? Əgər ikinci göstəriş düzdürsə, demək sizin əvvəlki əməlləriniz batil imiş!

Quran bu iradlara cavab olaraq bildirir ki, hər hansı bir hökm nəsx olduqda və ya təxirə salındıqda onun yerinə daha üstünü və ya onun kimisi göndərilir. Quran yersiz irad tutanlara cavab olaraq bildirir ki, onlar tərbiyəvi, ictimai-siyasi hökmlərin əsərlərindən qəflətdədirlər. Həkim öz xəstəsinə birinci mərhələdə təyin etdiyi dərmanları növbəti mərhələdə dəyişə bilər. Şagird inkişaf etdikcə müəllim də onun dərs proqramında dəyişiklik aparır. Allah da müxtəlif zaman və şəraitlərdə bəşərə daha kamil proqramlar təqdim edir.

◘Ayədə nəzərdə tutulanlardan biri də cəmiyyətdə imamın mövcudluğu, hər bir imamın canişini olmasıdır. Çünki uyğun ayə ilə bağlı hədisdə oxuyuruq: “Hər imam dünyadan gedəndə başqa bir imam onun canişini olur.[1]

## *Bildirişlər*

1. İnsan öz fitri və sabit ehtiyacları ilə bəzən xususi ictimai, iqtisadi, siyasi və hərbi şəraitlərə düşür. Belə məqamlarda sabit qanunlarla yan-yana dəyişən göstərişlər olmalıdır. Nəsx peyğəmbər və onun canişinlərinin göstərişi yolu ilə həyata keçir.
2. Hökmün dəyişməsi əvvəlki hökmlərin uğursuzluğu deyil. Əslində nəsx yeni məsələlərə hakimanə diqqətin nəticəsidir. Necə ki, sinifdən sinfə kitab və müəllim dəyişir.
3. Zahirdə göstərişlər dəyişkən, peyğəmbərlər isə çoxsaylıdır. Amma Allahın lütfü eynidir.
4. Hökmlərin dəyişməsi, onların təxirə salınması Allahın əlindədir.
5. Daim daha üstün önə çəkilməlidir.
6. İslamda dalan (çıxılmaz vəziyyət) yoxdur. Bəzi qanunlar dəyişə bilər.
7. Qanun dəyişməsi müxtəlif şəraitlərin və yeni tələblərin ortaya çıxmasından əlavə, qüdrətə ehtiyaclıdır.

107. ﴿أَلَمْ تَعْلَمْ أَنَّ اللّهَ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا لَكُم مِّن دُونِ اللّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ﴾

**“Məgər bilmirsənmi ki, göylərin və yerin hökuməti Allaha məxsusdur? (Onun hikmət əsasında dəyişiklik etməyə haqqı var.) Sizin Allahdan başqa heç bir yardımçınız və himayədarınız yoxdur.”**

## *Nöqtələr*

◘Bəzi hökm və göstərişlərin dəyişməsinə etiraz edənlər Allahın mütləq hakimiyyətinə diqqətsizdirlər. Allahın hakimiyyəti daimi, zati və ümumidir. Allahın hakimiyyətindən qeyri

[1] “Nüxbətut-təfasir”.

hakimiyyətlər məhdud, müvəqqəti, razılığa əsaslanan və qeyri-zatidir. Bəni-İsrail ilahi hakimiyyət haqqında belə düşünürdü ki, Allah hansısa işi görməkdə qüdrətsizdir və Onun əli bağlıdır.[1] Hansı ki, yaranışda, eləcə də qanunların tənzimlənməsi və dəyişdirilməsində Allahın əli açıqdır.

## *Bildirişlər*

1. Göylərin və yerin həmişəlik və mütləq hakimiyyət haqqı Allaha məxsusdur.
2. Qanunları dəyişmək göylərin və yerin hakimi olan Allahın işidir. Ona görə də bu dəyişiklikdə qorxu və təlaşa yer yoxdur...

Bəhanəçi və inadkar adamları razı salmağa çalışmayın. Çünki sizə Allahdan başqa yardımçı və himayəçi yoxdur.

108. ﴿أَمْ تُرِيدُونَ أَن تَسْأَلُواْ رَسُولَكُمْ كَمَا سُئِلَ مُوسَى مِن قَبْلُ وَمَن يَتَبَدَّلِ الْكُفْرَ بِالإِيمَانِ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ﴾

**“Bundan qabaq Musa sorğu-suala tutulduğu kimi, siz də öz peyğəmbərinizə yersiz sual və istəklərinizi ünvanlamaqmı istəyirsiniz? Küfrü imanla mübadilə edən, şübhəsiz, doğru yoldan azmışdır.”**

## *Nöqtələr*

◘Ayənin özünə və onun nüzul şəni haqqındakı məlumatlara görə, bəzi zəif imanlı müsəlmanlar və bəzi müşriklər peyğəmbərə yersiz və məntiqsiz suallar verirdilər. Məsələn, ondan istəyirdilər ki, Allah tərəfindən bir namə gətirsin. Ondan çaylar axıtmasını tələb edənlər də vardı. Bəni-İsrail kimi deyirdilər ki, Allahı bizə aşkar göstər, Onu görüb iman gətirək!

◘Peyğəmbərin haqlı olduğunu göstərmək üçün möcüzəyə və höccətin tamamlanmasına ehtiyac var. Amma hər yoldan ötənin istəyini yerinə yetirmək düzgün deyil. Bir mühəndis və ya rəssam öz məharətini göstərmək üçün işlərindən bir neçə nümunə təqdim edir. Amma hər yoldan ötən üçün əsər yaratmağa zərurət yoxdur.

◘Peyğəmbərlərin tarixini və onların rastlaşdıqları çətinlikləri bəyan etməkdə məqsəd İslam peyğəmbərinə təsəlli verməkdir. Peyğəmbərə bildirilir ki, əvvəlki peyğəmbərlərə də belə yersiz istəklərlə müraciət olunmuşdur.

## *Bildirişlər*

1. Yersiz sual və istəklərdən çəkinin. Bəzən bu işlər küfr zəminəsi yaradır.
2. Digər din ardıcılları üçün olan təhlükələr müsəlmanlar üçün də mövcuddur.
3. Başqalarının aqibətindən ibrət götürün.

109. ﴿وَدَّ كَثِيرٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُم مِّن بَعْدِ إِيمَانِكُمْ كُفَّاراً حَسَدًا مِّنْ عِندِ أَنفُسِهِم مِّن بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ فَاعْفُواْ وَاصْفَحُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

[1] “Maidə”, 64.

**“Kitab əhlindən bir çoxu daxillərində olan həsəd səbəbindən sizi iman gətirdikdən sonra küfrə qaytarmaq istəyirlər. Hansı ki, haqq onlara aydındır. Allah Öz fərmanını göndərənədək siz (həsədlərinə görə) onları bağışlayın. Həqiqətən, Allah hər işə qadirdir.”**

## *Nöqtələr*

◘“Əfv” xilaf işin bağışlanmasıdır. “Səfh” nöqsanı görməməzliyə vurmaqdır.

◘Qəlbində sizin kafirliyinizi arzulayan düşmən əməldə heç bir hiylə və qurğudan çəkinməyəcək. Onlar bu istiqamətdə yersiz suallar, vəsvəsələr, şübhələr ortaya qoyacaqlar. Bütün bunlardan xəbərdar olmaq lazımdır.

## *Bildirişlər*

1. Düşmənlərinizin ruhiyyəsinə və proqramlarına diqqətli olun.
2. Düşmənlə də insaflı rəftar etmək lazımdır. (Ayədə buyurulur ki, kitab əhlinin hamısı yox, çoxu belədir.)
3. Həsəd şöləsi o qədər təhlükəlidir ki, elm və agahlıqdan sonra da sönmür.
4. Siz İslama iman gətirməklə elə bir əzəmət və izzət əldə edirsiniz ki, düşmənlər sizə həsəd aparır və sizi cahiliyyət dövrünün şirk və təfriqəsinə qaytarmaq istəyirlər.
5. Müxaliflərlə dərhal sərt rəftara keçmək olmaz. Bəzən onların kin və həsədindən xəbərdar olmağımıza baxmayaraq, müdara ilə keçinməliyik.
6. Əfv fərmanı müvəqqəti şəkildə o vaxtadək davam etməlidir ki, müsəlmanlar həvəsdən düşüb, düşmənlər cəsarətə gəlməsinlər.
7. Bağışlamaq zəiflik əlaməti deyil. Allah bütün işlərə qadirdir və O, bu gün də sizi düşmənə qalib edə bilər.

110. ﴿وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ وَمَا تُقَدِّمُواْ لأَنفُسِكُم مِّنْ خَيْرٍ تَجِدُوهُ عِندَ اللّهِ إِنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Namaz qılın, zəkat ödəyin. Özünüz üçün əvvəlcədən göndərdiyiniz hər bir xeyiri Allahın yanında tapacaqsınız. Həqiqətən də, Allah sizin əməllərinizi görəndir.”**

## *Nöqtələr*

◘104-cü ayədəki “Ya əyyuhəlləzinə amənu” (“ey iman gətirənlər”) xitabından sonra bu ayə müsəlmanlara üçüncü göstərişi bəyan edən ayədir.

Birinci göstərişdə Allah peyğəmbərlə söhbət ədəbini gözləməyi xatırladır. Bildirilir ki, peyğəmbərlə danışarkən diqqətli olmaq və düşmənlərin, müxaliflərin əlinə məsxərə bəhanəsi verməmək lazımdır.

İkinci göstəriş yeni əmr çıxarılanadək kitab əhlinin kin və həsədinə göz yummaqdır.

Üçüncü göstəriş namaz qılmaq və zəkat ödəməkdir. Müsəlmanlar müxaliflərin kin və həsədinə düçar olduqları və bağışlamaq əmri aldıqları vaxt namaz vasitəsi ilə Allahla rabitələrini, zəkat vasitəsi ilə cəmiyyətdəki məhrumlarla bağlılıqlarını gücləndirməlidirlər.

## *Bildirişlər*

1. Quranda namaz göstərişi, adətən, zəkat göstərişi ilə yanaşı bəyan olunmuşdur. Yəni Allahın zikri xalqa diqqətlə müşayiət olunmalıdır.
2. İnsanın əməlləri qiyamət səhnəsinə onun özündən qabaq daxil olur.
3. Xeyir işin miqdarı, kəmiyyəti əsas deyil. Hər kəs öz gücü həddində xeyir iş görməlidir.
4. Xeyir işlər qiyamət üçün hifz olunar.
5. İlahi hüzura və qiyamətdəki mükafata iman saleh əməlin ən möhkəm amillərindəndir.

111. ﴿وَقَالُواْ لَن يَدْخُلَ الْجَنَّةَ إِلاَّ مَن كَانَ هُوداً أَوْ نَصَارَى تِلْكَ أَمَانِيُّهُمْ قُلْ هَاتُواْ بُرْهَانَكُمْ إِن كُنتُمْ صَادِقِينَ﴾

**"Dedilər: Yəhudi və məsihi olmayınca heç kim behiştə daxil olmaz. Bu, onların arzusudur. De ki, əgər doğru deyirlərsə, öz dəlillərini gətirsinlər."**

## *Bildirişlər*

1. Dini qürur səbəbindən özlərini üstün irq və behişti özlərinə aid bildilər.
2. İmtiyaz istəyi və özünü üstün bilmək xam və puç arzulardandır.
3. İstənilən bir dəlilsiz iddia qəbuledilməzdir.
4. Hər bir inanc dəlilə əsaslanmalıdır. Quran bütün mövzuları dəlil əsasında bəyan etmişdir. Müxaliflərdən də eyni üsulla hərəkət etmək tələb olunur.

112. ﴿بَلَى مَنْ أَسْلَمَ وَجْهَهُ لِلّهِ وَهُوَ مُحْسِنٌ فَلَهُ أَجْرُهُ عِندَ رَبِّهِ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**"Bəli, Allaha ixlasla üz tutub, yaxşı iş görənin mükafatı Allahın yanındadır. Onun üçün nə qorxu var, nə də qəmgin olacaq."**

## *Nöqtələr*

◘Ayə behiştə daxil olma səbəbi kimi Allaha təslim olmağı və xeyir əməli önə çəkir. Yəni behişt boş vədlərə və şüarlara verilmir. Behiştə daxil olmaq üçün iman və saleh əməl lazımdır.

## *Bildirişlər*

1. Behiştə daxil olmaq üçün boş arzu-xəyallara qapılmaq əvəzinə Allaha təslim olmaq, daxilən iman gətirmək və saleh əməl sahibi olmaq lazımdır.
2. Xeyir əməl insanın səciyyəvi xüsusiyyətinə çevrilməlidir. Mövsümi şəkildə, arabir xeyir işlər görmək kafi deyil.
3. Mükafat vermək rübubiyyət şənindəndir.
4. Hər kəs Allaha xalisliklə üz tutsa, həm kamil bəhrə götürər , həm də qəm-qüssədən uzaq olar.

113. ﴿وَقَالَتِ الْيَهُودُ لَيْسَتِ النَّصَارَى عَلَىَ شَيْءٍ وَقَالَتِ النَّصَارَى لَيْسَتِ الْيَهُودُ عَلَى شَيْءٍ وَهُمْ يَتْلُونَ الْكِتَابَ كَذَلِكَ قَالَ الَّذِينَ لاَ يَعْلَمُونَ مِثْلَ قَوْلِهِمْ فَاللّهُ يَحْكُمُ بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كَانُواْ فِيهِ يَخْتَلِفُونَ﴾

**"Yəhudilər dedilər: "Məsihilər haqq deyil." Məsihilər isə belə dedilər: "Yəhudilər haqlı deyil." Hansı ki, onlar səmavi kitab oxuyurlar. Eləcə də digər nadanlar onlar kimi danışdılar. Allah qiyamət günü onların arasında ixtilafda olduqları şey haqqında mühakimə yürüdəcək."**

## *Nöqtələr*

◘Hər bir dəstənin o biri dəstəni inkar etməsi kitab əhlinin təəssübkeşliyi ilə bağlı ayənin açıqladığı başqa bir sifətdir. Yəhudilər məsihiləri, məsihilər isə yəhudiləri Allah hüzurunda dəyərsiz və batil kimi tanıtdırırdı. Bu sayaq rəftarlar onların təəssübkeşlik ruhiyyəsindən qaynaqlanırdı. Əgər onlar öz səmavi kitablarına diqqətli olsaydılar, bu sayaq rəftarlardan əl çəkərdilər. Sonra buyurulur ki, müşriklər və bütpərəstlərin səmavi kitabı olmasa da, onlar da eyni cür rəftar edirlər. Yəni batil əqidə sahibləri bir-birlərini heç vəchlə qəbul etmirlər. Amma

bütün bu ixtilaflar qiyamət günü Allahın mühakiməsi ilə sona çatasıdır. Onlar bir gün haqqı müşahidə edərlər.

## *Bildirişlər*

1. Yersiz təəssüb və dəlilsiz inhisarçılıq qadağandır. Başqalarının təhqiri və nəzərə alınmaması istibdad və eqoizm nişanəsidir. (Hər kəs özündə olanlara görə lovğalanır və lovğalıqlar bir çox fitnələrin kökündür. “Möminun” surəsinin 53-cü ayəsində də bu məsələyə işarə olunmuşdur.)

2. İnsanda təəssüb və eqoistlik olduqda elm də hidayət edə bilmir. Kitab əhli öz kitabını oxuya bilirdi. Amma inhisarçılıq ruhiyyəsi onların oxuduqlarını təsirdən salırdı.

3. Təəssübə aludə olan cəmiyyətdə alim və cahil oxşar şəkildə düşünür. Cahil müşriklər Tövrat və İncil oxuyanların dediklərini deyirdilər.

114. ﴿وَمَنْ أَظْلَمُ مِمَّن مَّنَعَ مَسَاجِدَ اللّهِ أَن يُذْكَرَ فِيهَا اسْمُهُ وَسَعَى فِي خَرَابِهَا أُوْلَئِكَ مَا كَانَ لَهُمْ أَن
يَدْخُلُوهَا إِلاَّ خَآئِفِينَ لهُمْ فِي الدُّنْيَا خِزْيٌ وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ﴾

**“Allahın məscidində onun adının çəkilməsinə imkan verməyən və oranı xaraba qoymağa çalışanlardan da zalımı varmı? Onlar məscidlərə yalnız qorxu ilə girmək haqqına malikdirlər. Onların dünyada bəhrəsi rüsvayçılıq, axirətdə isə böyük əzabdır.”**

## *Nöqtələr*

◘Ayənin nazil olma şənindən və bəzi rəvayətlərdən məlum olur ki, söhbət məscidləri xaraba qoymaq istəyənlərdən gedir. Tarixdə məscidlər dəfələrlə zalım hakimlər və azğın insanlar tərəfindən xaraba qoyulmuş və rövnəqdən salınmışdır. Fetlos adlı birinin rəhbərliyi ilə məsihilər tərəfindən Beytül-Müqəddəsin xaraba qoyulması, Tövratın yandırılması hadisəsindən tutmuş Qüreyş tərəfindən müsəlmanların Məscidül-Hərama daxil olmasının qarşısının alınmasınadək, uyğun fəaliyyətin bir çox nümunələri ilə rastlaşırıq.

Bu gün də oxşar hadisələrin şahidi oluruq. İlkin İslam dövründə “Bəqi” imamlarının qəbirləri kənarında tikilmiş məscidlər şirklə mübarizə adı altında viran qoyulur. Hindistanda tarixi Babiri məscidinin xaraba qoyulması da deyilənlərin sübutudur. Bütün bunlar zalım hakimlərin küframiz ruhiyyəsindən danışır. Onlar tövhid mərkəzlərində Allah adının yad edilməsindən qorxu hissi keçirirlər.

◘Bu ayə övladlarının məscidə getməsinə maneçilik törədən valideynlərə bir xəbərdarlıqdır.

◘Məscidin xaraba qoyulması zülm olduğu kimi, onun abad edilməsi də işlərin ən xeyirlisidir.[1]

## *Bildirişlər*

1. Əqidə zülmü ən böyük zülmdür. (Quranda “əzləm” Allaha iftira və Onun evinin bağlanması mənasında işlədilmişdir. Hər iki mənada əqidə yönümü var.)

2. Məscid təkcə bel-külünglə xaraba qoyulmur. Məscidi rövnəqdən salan hər bir iş onun xaraba qoyulması sayılır.

3. Yalnız Allah adının diri saxlandığı məscidlər məqbul sayılır. Məsciddə Allahın hökmləri, onun bəyəndiyi mövzular bəyan olunmalıdır.

4. Düşmən məscidin qapısından, divarından qorxmur. Onun qorxusu Allah adının yad edilməsi və müsəlmanların ayıqlığıdır.

5. Məscidlər mübarizə səngəridir. Ona görə də düşmən məscidləri xaraba qoymaq istəyir.

---

[1] “Təfsiri-Fəxr Razi”.

6. Məscid rövnəqli, mənəviyyatlı və hərbi komandanlıq səngəri olmalıdır.

Casus hərbi yerlərə girməkdən qorxub dəhşətə düşdüyü kimi, müxaliflər də məscidə qorxu içində daxil olmalıdırlar.

7. Dini müqəddəsliklərlə mübarizəyə qalxanlar qiyamətdə Allahın qəhrinə düçar olmazdan qabaq dünyada zəlil və xar olurlar.

115. ﴿وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ عَلِيمٌ﴾

**"Şərq də, qərb də Allahındır. Demək, haraya üz tutsanız, üzü Allaha tərəfsiniz. Həqiqətən, Allah əhatə edən və biləndir."**

## *Nöqtələr*

◘Müsəlmanların qibləsi Beytül-Müqəddəsdən Kəbəyə dəyişdikdən sonra yəhudilər ortaya şəkk-şübhə çıxararaq, bu iş üçün dəlil istəyirdilər. Hərçənd əvvəlki ayələrdə icmali şəkildə Allah bu cür etirazların cavabını bildirmişdi. Bu ayədə isə uyğun həqiqət bir daha ortaya qoyulur və bəyan olunur ki, şərq də, qərb də Allahındır, haraya üz tutsanız Allah oradadır. Kəbənin qiblə kimi müəyyənləşdirilməsində məqsəd müsəlmanların birliyini nümayişə qoymaq və İbrahimin şirklə mübarizə xatirəsini təzələməkdir. Kəbənin müqəddəsliyi və möhtərəmliyi də buna əsaslanır.

◘Mərcələrin (din alimlərinin) əhkam risalələrində bildirildiyi kimi, müstəhəb namazlarda qiblə şərt deyil. Hətta yol gedə-gedə, süvari halda da bu namazları qılmaq olar. Uyğun ayəni açıqlayan bəzi rəvayətlərdə də bu məsələyə işarə olunmuşdur. İmam Baqir (ə) buyurmuşdur: "Bu ayə müstəhəb namaz haqqında nazil olmuşdur."[1]

◘Əgər əvvəlki ayəyə görə, bir müxalif dəstə məscidin xaraba qoyulması yolunda çalışırsa, siz həvəsdən düşməyin ki, Allaha üz tutma yalnız xüsusi bir cəhətə həsr olunmayıb.

◘İstər şərqə, istərsə də qərbə üz tutmaq (qiblə) tərbiyəvi xarakter daşıyır. Əsas məqsəd Allahın xatırlanması və Onunla rabitədir. Quran bir dəstənin haqqında xoş sözlər deyərək buyurur: "Onlar Allahı ayaq üstə, oturmuş vəziyyətdə və yatmış halda yad edirlər."[2] Qiblənin dəyişməsi ilə bağlı yaranmış hay-küyə cavab olaraq buyurulur: "Ey xalq! Yaxşılıq üzünüzü şərqə və ya qərbə doğru tutmaqda deyil. Yaxşılıq sizin Allaha həqiqi imanınızda və Allah bəyənən işlər görməyinizdədir."[3]

◘Əvvəlki ayədə məscidlərin xaraba qoyulması ən böyük zülm kimi təqdim olunsa da, bu ayədə müjdə verilir ki, həmin işə görə məyus olmamalı, ümidsizliyə qapılmamalıyıq. Bütün dünya ibadət məhəlli və bütün varlıq aləmi qiblənin gahdır.

## *Bildirişlər*

1. Allahın əmri ilə yerinə yetirilən və ilahi rəngə malik olan hər bir iş "vəchullah", ibadətdir.
2. Allah hər yerdə hazırdır və hər şeyi görür.

116. ﴿وَقَالُواْ اتَّخَذَ اللّهُ وَلَدًا سُبْحَانَهُ بَل لَّهُ مَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ كُلٌّ لَّهُ قَانِتُونَ﴾

**"(Kitab əhli və müşriklərdən bəziləri) dedilər: "Allah özü üçün övlad götürmüşdür." O, (bu sifətdən) münəzzəh, pakdır. Göylərdə və yerdə olanlar Onundur. Hamı Onun qarşısında itaətdədir."**

[1] "Təfsiri-bürhan" ; "Təfsiri-Rahnüma".
[2] "Ali-İmran", 191.
[3] "Bəqərə", 177.

## *Nöqtələr*

◘Kitab əhli və müşriklərin hər biri bir şəkildə Allahın övlad sahibi olduğunu düşünmüşlər. Yəhudilər deyirdilər ki, Uzəyr (Üzeyir) Allahın övladıdır.[1] Məsihilər isə həzrət İsanı Allahın oğlu bilirdilər.[2] Müşriklər də öz növbəsində mələkləri Allahın övladları kimi tanıyırdılar.[3] Uyğun ayə bütün bu yersiz və yanlış düşüncələri rədd edir, Allahın zatının bu sayaq sifətlərdən pak olduğunu bəyan edir.

◘Allahı özümüzlə müqayisə etməyək. İnsanın övlada ehtiyac duymasının aşağıdakı səbəbləri var:

1. İnsanın ömrü məhduddur, özünün və nəslinin davamını istəyir.
2. İnsanın qüdrəti məhduddur, onun köməkçiyə ehtiyacı var.
3. İnsan məhəbbətə ehtiyaclıdır və munis axtarışındadır.

Amma Allah bütün bu ehtiyaclardan və çatışmazlıqlardan uzaqdır, pakdır. Əksinə, göylərdə və yerdə olanların hamısı Onun qarşısında təvazödədir.

## *Bildirişlər*

1. Göylərin və yerin ixtiyarı əlində olan Allahın övlad götürməyə nə ehtiyacı var?!
2. Yalnız varlıq aləminin sahibi qarşısında xüşu və təvazö yerlidir. Bir milçək yaratmaqda aciz olan və kiçik zərəri dəf edə bilməyən zalımların və bütlərin qarşısında təvazökarlıq olmaz.

117. ﴿بَدِيعُ السَّمَاوَاتِ وَالأَرْضِ وَإِذَا قَضَى أَمْراً فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ﴾

**“Göyləri və yeri var edən Odur. Bir şeyi vücuda gətirmək istədikdə yalnız deyər: “Ol!” O da dərhal vücuda gələr.”**

## *Nöqtələr*

◘O bütün mövcudların maliki olmaqdan əlavə, həm də onların xaliqidir. Bu da dərhal və əvvəlcədən plan cızmadan baş verər. Belə bir varlığın övlada nə ehticayı var? Nə vaxt bir şeyi yaratmaq istəsə “ol” deyər, o da dərhal vücuda gələr. Həzrət Rizanın (ə) təbirincə, “Allah öz işində hətta “ol” deməyə də ehtiyaclı deyil. Onun istəməsi ilə yaratması birdir.[4]

◘Bu bir neçə ayədə ilahi qüdrətlə tanış olduq. “Şərq də, qərb də Onun üçündür.” “Göylər və yer Onun üçündür.” “Hamı onun qarşısında təvazökar və mütidir.” “Göyləri və yeri heçdən yaradan Odur.” “Onun fərmanı ilə hər şey vücuda gəlir.”

◘Allah bir anda yaratdığı kimi, bir anda da hər şeyi aradan götürə bilər. Necə ki, “İbrahim” surəsinin 19-cu ayəsində buyurulur: “Allah istəsə, sizi aradan götürüb yerinizə yeni bir xalq gətirər.” Hər şeyin varlığı və yoxluğu əlində olan bir qüdrətə iman insana fövqəladə güc verir, onu ümidsizlikdən uzaqlaşdırır.

## *Bildirişlər*

1. Allah heçdən və misilsiz yaradır.
2. Allah bir anda bütün varlıq aləmini yarada bilir. Amma Onun hikməti tələb edir ki, işlərdə səbəb silsiləsi olsun və yaranış tədricən baş versin.

---

[1] “Tövbə”, 30.
[2] “Tövbə”, 30.
[3] “Nəhl”, 57.
[4] “Kafi”, c. 1, s. 109.

118. ﴿وَقَالَ الَّذِينَ لاَ يَعْلَمُونَ لَوْلاَ يُكَلِّمُنَا اللّهُ أَوْ تَأْتِينَا آيَةٌ كَذَلِكَ قَالَ الَّذِينَ مِن قَبْلِهِم مِّثْلَ قَوْلِهِمْ تَشَابَهَتْ قُلُوبُهُمْ قَدْ بَيَّنَّا الآيَاتِ لِقَوْمٍ يُوقِنُونَ﴾

**“Bilməyənlər dedilər: “Nə üçün Allah bizim özümüzlə danışmır? Nə üçün bizim özümüzə bir ayə və nişanə gəlmir?” Onlardan qabaq olanlar da onlar kimi danışırdılar. Onların qəlbləri oxşardır. Amma Biz yəqin əhli (həqiqəti axtaranlar) üçün aydın ayə və nişanələr qərar vermişik.”**

## *Nöqtələr*

◘Digər bir kafir dəstəsindən yenə də yersiz bir istək! Cahil insanlar həzrət peyğəmbərin dəvəti qarşısında belə dedilər: “Nə üçün Allah birbaşa bizim özümüzlə danışmır? Nə üçün bizim özümüzə ayə nazil olunmur?!”

Quran bu sayaq sözlərdən yaranacaq pis təsəvvürün qarşısını almaq üçün və peyğəmbərə təsəlli vermək məqsədi ilə kafirlərin istəklərini çox adi təqdim edir. Bildirilir ki, bu suallar təzə bir şey deyil. Qabaqkı kafirlər də öncəki peyğəmbərlərdən belə tələblər etmişlər. Sonra buyurulur: “Hər iki dəstənin təfəkkür tərzi bir-birinə oxşayır. Amma Biz bu sayaq istəkləri etibarlı və dəyərli saymırıq. Çünki Öz ayələrimizi haqqı axtaranlara yetərincə bəyan etmişik.”

◘Yersiz istəkləri doğuran ya təkəbbür ruhiyyəsidir, ya da cəhalət və nadanlıq. Cahil olmayan insan anlayır ki, vəhy mələyi hər qəlbə nazil olmaz. Hikmət sahibi olan insan qiymətli və dadlı şərbəti hər qaba tökmür. Quranda oxuyuruq: “Əgər saf qəlbli və düz əməlli olsaydınız, sizə fürqan və təmiz bir qüvvə verərdik.”[1]

## *Bildirişlər*

1. Əsas, istək və umacaq yox, təlaş və ləyaqətdir. Bəziləri çalışmaq və layəqət göstərmək əvəzinə daim yersiz istəklərlə müraciət edirlər.

2. Allahın qanunu hər bəndənin nəfs istəyinə cavab vermək yox, höccətin tamamlanması və dəlillərin bəyanıdır.

119. ﴿إِنَّا أَرْسَلْنَاكَ بِالْحَقِّ بَشِيرًا وَنَذِيرًا وَلاَ تُسْأَلُ عَنْ أَصْحَابِ الْجَحِيمِ﴾

**“(Ey peyğəmbər,) Biz səni haqq olaraq göndərdik ki, müjdə verən və qorxudan olasan. Sən cəhənnəm əhli üçün məsul deyilsən.”**

## *Nöqtələr*

◘Ayələrdə buyurulur: “Ey peyğəmbər! Kafirlərin yersiz istəklərinə məhəl qoyma. Onlar istəyirlər ki, onlar üçün çoxsaylı vərəqlərdə ayələr nazil olsun. [2] Halbuki Biz səni xalq üçün haqq bir məntiqlə göndərdik ki, müjdə və qorxutma yolu ilə onları öz səadətləri ilə tanış edəsən. Əgər bir dəstə bəhanə axtarıb, haqqı qəbul etməkdən boyun qaçırdısa və onlara vəhy nazil olmasını umdusa, sən onların cəhənnəm əhli olmasına məsul deyilsən. Sənin öhdənə yalnız müjdə vermək və qorxutmaq düşür.

◘Müjdə və qorxutma insanın azad olması nişanəsidir. Quranda dəfələrlə bəyan olunmuşdur ki, Allahın işi müjdə və qorxutma ilə yanaşı, haqq məntiqlə məsum peyğəmbərlər göndərməkdir. Azad şəkildə haqqı qəbul etmək və ya boyun qaçırmaq xalqın öz öhdəsinədir.

---

[1] “Ənfal”, 29.
[2] “Muddəsir”, 52.

## *Bildirişlər*

1. Düşmən tərəfindən yaradılmış hər bir ruhi düşkünlüyün aradan qaldırılması üçün Allah tərəfindən gücləndirməyə, təsəlli və təskinliyə ehtiyac var. (Əvvəlki ayədə kafirlərin bəhanələri nəql olundu. Bu ayədə isə həzrət Peyğəmbər (s) “bil-həqq” kəlməsi ilə gücləndirilir.)

2. Müjdə və hədə tərəzinin iki gözü kimi tarazlaşdırılmalıdır. Əks təqdirdə, qürur və ümidsizliklə üzləşəsiyik.

120. ﴿وَلَن تَرْضَى عَنكَ الْيَهُودُ وَلاَ النَّصَارَى حَتَّى تَتَّبِعَ مِلَّتَهُمْ قُلْ إِنَّ هُدَى اللّهِ هُوَ الْهُدَى وَلَئِنِ اتَّبَعْتَ أَهْوَاءهُم بَعْدَ الَّذِي جَاءكَ مِنَ الْعِلْمِ مَا لَكَ مِنَ اللّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ﴾

**“(Ey peyğəmbər!) Yəhudi və məsihilərin ayinlərinə tabe olanadək onlar səndən razı qalmayacaqlar. De ki, hidayət yalnız Allahın hidayətidir. Sənə elm gəldikdən sonra onların nəfs istəklərinə tabe olsan sənin üçün Allah tərəfindən heç bir yardımçı olmayacaq.”**

## *Nöqtələr*

◘Qiblə dəyişdikdən sonra yəhudilərin müsəlmanlara münasibətdəki narahatlıqları daha da artdı. Bəzi müsəlmanlar da yəhudilərlə mehriban münasibət qurmaq üçün Beytül-Müqəddəsin qiblə qalmasını istəyirdilər. Onlar anlamırdılar ki, əvvəlki qiblədə qalmaqla yəhudiləri razı sala bilməyəcəklər. Yəhudilər müsəlmanların təkcə qiblə məsələsində yox, bütün ayinlərdə onlara tabe olmasını istəyirdilər.

◘Bu ayədə İslam peyğəmbəri ilə yanaşı bütün müsəlmanlara xitab olunur. Yəhudilər onlara təslim olmayıb, ilahi dəyərlərdən üz döndərməyən müsəlmanlardan tarix boyu razı olmamışlar və bundan sonra da olmayacaqlar. Biz müsəlmanlar onlara qəti şəkildə rədd cavabı verib bilməliyik ki, səadət yolu yəhudilərə itaət yox, ilahi vəhy yoludur.

## *Bildirişlər*

1. Düşmən aza qane deyil. Onu yalnız sizin tam süqutunuz, məktəbinizin məhvi, məqsədlərinizin puça çıxması razı sala bilər.

2. Əgər müsəlmanlar görsələr ki, kafirlər onların dinindən razıdır, öz dindarlıqlarına şübhə etməlidirlər. Kafirin bəyəndiyi dindarlıq özü küfrdür.

3. İlahi vəhy və hidayətdən savay bütün yollar yanlışdır.

4. Alimin məsuliyyəti cahilin məsuliyyətindən daha çoxdur.

5. Kitab əhli ilə rabitələr dindən əl çəkmək bahasına başa gəlməməlidir. Başqalarını cəzb etmək yaxşıdır, üsuldan geri çəkilmək isə heç vaxt!

6. Xalqın nəfs istəklərinə təbeçilik insanı ilahi lütfdən məhrum edir. Ya Allahın lütfünü seçməliyik, ya da xalqın nəfs istəklərini.

121. ﴿الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَتْلُونَهُ حَقَّ تِلاَوَتِهِ أُوْلَئِكَ يُؤْمِنُونَ بِهِ وَمن يَكْفُرْ بِهِ فَأُوْلَئِكَ هُمُ الْخَاسِرُونَ﴾

**“Səmavi kitab verdiyimiz və bu kitabı layiq olduğu şəkildə tilavət edənlər ona iman gətirirlər. Onu inkar edənlər isə həmin ziyankarlardır.”**

### *Nöqtələr*

◘Öz inadkarlığı və azğınlığına görə məzəmmət olunan yəhudi və məsihilərin müqabilində, digər bir dəstə Allah tərəfindən təriflənir. Onlar səmavi kitaba müraciət edib, İslam peyğəmbərinin (s) zühur və besət əlamətlərini görən və ona iman gətirənlərdir.

◘"Ətyəbul-bəyan" təfsirində bildirilir: Bu ayədə "kitab" dedikdə Quran nəzərdə tutulur. Müraciət olunan tərəf isə Quranı bəyənilmiş şəkildə oxuyub, Peyğəmbərə (s) iman gətirənlərdir. "Əl-mizan" təfsirində də bu məna ehtimal olunmuşdur.

◘"Əl-mizan" təfsirində Quran tilavətinin qaydaları haqqında rəvayət nəql olunmuşdur. Bu rəvayətdə səkkiz nöqtə diqqəti cəlb edir: ayələrin tərtili (oxunuşu); ayələr haqqında düşünmək; ayələrə əməl etmək; ayələrin vədlərinə ümid etmək; pis vədlərdən qorxu; əhvalatlardan ibrət götürülməsi; ilahi əmrlərin icrası; günahların tərki. Rəvayətin sonunda İmam Sadiq (ə) buyurmuşdur: "Tilavət haqqı dedikdə təkcə ayələrin əzbərlənməsi, hərflərin təlimi, qiraət və təcvid nəzərdə tutulmur." Rəvayətlərə əsasən, Quran tilavətinin haqqını yalnız məsum imamlar əda etmişlər.[1]

### *Bildirişlər*

1. Hətta müxaliflərlə insaflı rəftar etmək lazımdır.
2. Tilavət haqqı təkcə gözəl səslə oxumaq, təcvid qaydalarına əməl etmək deyil. İman və əməl də bu haqlardandır.
3. Əqidə məktəbi seçimində yanlışlığa düçar olan kəs əsil ziyankardır.

122. ﴿يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَنِّي فَضَّلْتُكُمْ عَلَى الْعَالَمِينَ﴾

**"Ey Bəni-İsrail, sizə ruzi etdiyim neməti və sizi başqalarından üstün etdiyimi yada salın."**

123. ﴿وَاتَّقُواْ يَوْماً لاَّ تَجْزِي نَفْسٌ عَن نَّفْسٍ شَيْئاً وَلاَ يُقْبَلُ مِنْهَا عَدْلٌ وَلاَ تَنفَعُهَا شَفَاعَةٌ وَلاَ هُمْ يُنصَرُونَ﴾

**"Qorxun o gündən ki, kimsə kimsədən bir şeyi dəf edə bilməz və ondan heç bir əvəz qəbul olunmaz. Heç bir şəfaət ona fayda verməz və (kimsə tərəfindən) kömək almaz."**

### *Nöqtələr*

Bu iki ayə əvvəlcə haqqında danışdığımız 47 və 48-ci ayələrə oxşardır.

124. ﴿وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِي قَالَ لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ﴾

**"(Yadına sal) o zaman ki, İbrahimin Rəbbi onu müxtəlif hadisələrlə imtahana çəkdi və o, sınaqların öhdəsindən yaxşı gəldi." Allah ona buyurdu: "Mən səni xalqa imam və rəhbər qərar verdim." İbrahim dedi: "Mənim övladlarımdan da (imamlar qərar ver)." Allah buyurdu: "Mənim əhdim zalımlara çatmaz (sənin yalnız pak və məsum övladların bu məqama layiqdir)."**

---

[1] "Kafi", c. 1, s. 215.

## *Nöqtələr*

◘Peyğəmbərlər arasında həzrət İbrahimin xüsusi yeri və məqamı vardır. Bu böyük şəxsin adı Quranın iyirmi beş surəsində 69 dəfə çəkilmişdir. O da İslam peyğəmbəri kimi bəşəriyyət üçün nümunə kimi xatırlanmışdır. Bəzi ayələrdə onun adı seçilmişlər, salehlər, siddiqlər, səbirlilər, vəfalılarla bir cərgədə çəkilir. Allah bu böyük peyğəmbəri yüksək qiymətləndirərək onun haqqında xüsusi təbirlər işlətmişdir. Hətta həccin sirlərindən biri kimi həzrət İbrahimin xatirəsinin yad edilməsi bəyan olunur. Bu ilahi insan müxtəlif məqamlarda azğınlıq, şirklə mübarizə apardı. Ulduzpərəstlər və aypərəstlər qarşısında gətirdiyi dəlillər, bütpərəstliklə apardığı mübarizə, öz məntiqi ilə Nəmrudu susdurması, bir çox sınaqlardan alnıaçıq çıxması bu şəxsi ideala çevirmiş, Allah onu imamət məqamına təyin etmişdir.

◘Quranda 20 dəfəyə yaxın sınaq və imtahan məsələləri bəyan olunmuşdur və bu, ilahi sünnələrdəndir. İlahi sınağın məqsədi nədir? İmtahan Allahın agah olması üçün deyil. Çünki O əvvəlcədən hər şeyi bilir. Uyğun sınaqlarda məqsəd insanın gizli istedadlarının zühuru, onun təlaş və əməlidir. Bir iş görməyən insan dəyərləndirilə də bilməz.

**Bəs sınaq vasitələri nədir?** Dünyanın acılıqları və şirinlikləri imtahan vasitəsidir. İnsanlar bəzən çətinliklərlə, bəzən isə rifahla sınağa çəkilir. Bütün insanların, hətta peyğəmbərlərin imtahana çəkilməsi qətidir. Bu sınaq və imtahanlar bəşəriyyətin inkişafı və tərbiyəsi üçündür.

◘İbrahim hər bir çətinlikdən çıxmaqla yeni bir məqama çatırdı. O ilk mərhələdə “Əbdullah”, yəni Allah bəndəsi oldu. Sonra o “Nəbiyyullah”, Allahın nəbisi məqamına ucaldı. Daha sonra “Rəsulullah” və “Xəlilullah” adları, nəhayətdə isə imamət və rəhbərlik məqamı ona nəsib oldu. [1]

◘Ayədəki “Kəlimat” sözü ağır imtahana işarədir. Həzrət İbrahim bütün bu imtahanlardan qalib çıxdı. Vəzifəsinin icrasında ona nə əmisi, nə həyat yoldaşı, nə də övladları mane ola bildilər. İbrahim əmisi Azərin himayəsində olsa da, onun və cəmiyyətin bütpərəstliyinə qarşı mübarizəyə qalxdı. O böyük fədakarlıqlar göstərərək “tarixin misilsiz bütsındıranı” məqamına ucaldı. Allahından öz zövcəsini və övladını Məkkə səhrasında tənha qoymaq əmri aldıqda, böyük eşqlə bu işi yerinə yetirib, ailəsini Allaha tapşırdı. Övladı İsmaili zibh etmək əmri gəldikdə, Allahın razılığını öz könül istəklərindən yuxarı tutdu və bıçağı doğma övladının boğazına qoydu. Amma həmin vaxt nida gəldi ki, məqsəd İsmailin öldürülməsi yox, İbrahimin imtahana çəkilməsidir.

◘Həzrət İbrahim imamət məqamını öz nəsli üçün də istədi. Cavab gəldi: Bu məqam elə bir əhddir ki, Allah, hər kəsi layiq bilib ona əta etmir. İbrahimə bildirildi ki, onun nəslindən yalnız ləyaqətli olanlar bu məqama çatacaq. İslam peyğəmbəri də İbrahimin nəslindən idi və həmin məqama çatdı. Amma ən kiçik günaha yol verənlər belə bir məqama layiq görülmədilər.

◘İbrahim yeganə peyğəmbərdir ki, həm yəhudilər, həm məsihilər özlərini onun ardıcılı sayırlar. Bu ayədə İbrahimin yüksək məqamı qeyd olunmaqla, bilavasitə hamıya anladılır ki, İbrahimi həqiqətən qəbul edənlər şirkdən əl çəkib ilahi əmrlərə təslim olmalıdırlar.

◘Bu ayə şiə etiqadının istinad etdiyi ayələrdəndir. İmam məsum olmalıdır və zülmə yol verən şəxs bu məqama çatmayacaq.

◘Bu ayədə imamət məqamı əhd adlandırılmışdır. “Bəqərə” surəsinin qırxıncı ayəsində bildirilirdi ki, Allah təyin etdiyi imama itaət edənlərə əvvəlcədən vəd etdiyi yardımı çatdıracaq.

## *Bildirişlər*

1. Peyğəmbərlər də ilahi sınağa çəkilir.
2. İnsanı hər hansı məqama təyin etməzdən qabaq onu sınağa çəkmək lazımdır.
3. İmamət vərəsəliklə çatmır. Bu bir ləyaqətdir. Uyğun ləyaqət ilahi imtahanlardan üzüağ çıxmaqla sübut olunur.

---

[1] “Kafi”, c. 1, s. 175.

4. Məqam və məsuliyyətlər hansısa mərhələlərdə müvəffəqiyyətdən sonra tədrici olaraq həvalə olunmalıdır.

5. İmamət çox geniş ilahi məqamlardandır. İmam hökmən Allah tərəfindən təyin olunmalıdır.

6. İmamət ilahi əhddir. Allahla xalq arasında bu əhd həmişə olmalıdır.

7. Rəhbər üçün ən mühüm şərt ədalət və müsbət keçmişdir. Keçmişdə şirk və zülmə yol vermiş insan imamət məqamına layiq deyil.

125. ﴿وَإِذْ جَعَلْنَا الْبَيْتَ مَثَابَةً لِّلنَّاسِ وَأَمْناً وَاتَّخِذُواْ مِن مَّقَامِ إِبْرَاهِيمَ مُصَلًّى وَعَهِدْنَا إِلَى إِبْرَاهِيمَ
وَإِسْمَاعِيلَ أَن طَهِّرَا بَيْتِيَ لِلطَّائِفِينَ وَالْعَاكِفِينَ وَالرُّكَّعِ السُّجُودِ﴾

**“(Xatırla) o zaman ki, Evi xalq üçün üztutma və yığışma məhəlli, əmin-amanlıq mərkəzi qərar verdik. (Dedik:) "İbrahimin məqamından namaz üçün bir yer seçin." İbrahim və İsmailə təklif etdik ki, Bizim evimizi təvaf edənlər, mötəkiflər (üç gün məsciddə oruc halda ibadət edənlər), rükuda olanlar və səcdə edənlər üçün pak etsinlər.”**

## *Nöqtələr*

◘Ötən ayələrdə İbrahimin uca məqamına işarə olunduqdan sonra onun yadigarı Kəbə yada salınır və buyurulur: “Kəbəni xalq üçün “məsabə” qərar verdik. Bu sözün kökü ilkin hala qayıdış mənasını daşıyır. Kəbə bütün xalqın üz tutduğu məhəldir və bu müqəddəs məhəl əmin-amanlıq içindədir.

◘“Məqame-İbrahim” adlanan yer Kəbənin təqribən on üç metrliyindədir. Hacılar Allah evini təvaf etdikdən sonra bu məqam arxasında iki rəkət namaz qılmalıdırlar. Həmin yerdə bir daş vardır. Həzrət İbrahim həmin daşın üstünə çıxıb Kəbənin divarlarını qaldırmışdır. Hal-hazırda da bu daş qorunur.

◘Bu ayədə əhd sözü ilahi göstəriş mənasını dayışır. “Əhidna” yəni göstəriş verdik.

◘Allah cisim deyil ki, evə ehtiyaclı olsun. “Bəytiyə” sözü kəramət bildirir. Necə ki, “şəhrullah” sözü ramazan ayının kəraməti ilə bağlıdır. Bir yerə və ya zamana kəramət vermək üçün Allah onu Özünə aid edir. Kəbənin əzəməti haqqında təkcə bunu demək kifayət edir ki, “bəytiyə,” yəni Mənim Evimdir.” Bəzən isə belə buyurulur: “Bu evin Allahı.”

## *Bildirişlər*

1. Həzrət İbrahim ümumbəşəri bir şəxsiyyətdir. Əvvəlki ayədə o bütün xalq üçün imam qərar verilmişdir. Bu ayədə isə Kəbə bütün xalqın vədəgahı kimi təqdim olunur.

2. Cəmiyyət imam və əmniyyətə ehtiyaclıdır. Əvvəlki və hazırkı ayə bu həqiqəti təsdiq edir.

3. Allah yolunda özünü, zövcəsini və övladını təslim edən bir şəxsin ayaq qoyduğu yerdə Allaha xatir hamı başını qoymalıdır. [1]

4. Ev Allaha aid olduğundan Onun xadimi də Allahın övliyası olmalıdır.

5. Allah evinin ziyarətçiləri üçün təkcə bu kəramət bəsdir ki, İbrahim və İsmail onlar üçün həmin evi paklamağın məsulu olmuşlar.

6. İbadət paklıqla əlaqəlidir.

7. İbadət və namaz o qədər mühümdür ki, hətta İbrahim və İsmailə həmin mərasimdə paklığın təmini əmr olunur.

8. Müsəlmanların məscidi pak və rəğbət doğuran olmalıdır.

---

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 122.

126. ﴿وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ اجْعَلْ هَذَا بَلَدًا آمِنًا وَارْزُقْ أَهْلَهُ مِنَ الثَّمَرَاتِ مَنْ آمَنَ مِنْهُم بِاللّهِ وَالْيَوْمِ الآخِرِ قَالَ وَمَن كَفَرَ فَأُمَتِّعُهُ قَلِيلاً ثُمَّ أَضْطَرُّهُ إِلَى عَذَابِ النَّارِ وَبِئْسَ الْمَصِيرُ﴾

**"(Xatırla) o zaman ki, İbrahim dedi: "Pərvərdigara! Bunu əmin-amanlıq şəhəri qərar ver. Onun əhlinə, Allaha və axirət gününə iman gətirənlərə onun məsələlərindən ruzi ver. (Amma Allah) buyurdu: "Kafir olanlara (da) azca bəhrə verəcəyəm. Sonra onları qəhrlə odun əzabına doğru çəkəcəyəm. Necə də pis aqibətdir."**

## *Nöqtələr*

◘Əvvəlki ayədə həzrət İbrahim öz nəsli üçün imamət məqamı istəmişdi. Allah isə onun cavabında buyurmuşdu ki, bu məqam zalımlara çatmaz. Bu ayədə isə həzrət İbrahim dünya ruzisini təkcə möminlər üçün istəyir. Amma Allah bu məhdudiyyəti qəbul etmir və kafirləri də maddi nemətlərdən məhrum qoymur. Yəni maddi ruzi mühüm deyil. Ona görə də həm iman əhlinə, həm də qeyrilərinə dünya neməti əta olunur. Amma mənəvi və ictimai məqamlar, rəhbərlik çox mühümdür və hər kəsə tapşırılmır.

## *Bildirişlər*

1. Peyğəmbərlər xalqın doğru yola yönəldilməsi kimi mənəvi məsələlərdən əlavə, onların maddi ehtiyaclarına, əmin-amanlıqlarına da diqqət yetirmiş, bu yolda çalışmış və dua etmişlər.
2. Nemət o zaman ləzzətli, dadlı olur ki, əmin-aman, sakit bir fəzada nəsib olsun.
3. Duada başqalarını unutmayaq. Ayədə ruzi istənilərkən bütün əhali nəzərdə tutulur.
4. Allahın qaydası budur ki, müsəlman və kafir olmasından asılı olmayaraq, bütün xalqa ruzi versin. Bu qaydanı hətta həzrət İbrahimin duası da aradan götürə bilmir.
5. Dünyadakı naz-nemət Allahın insana məhəbbəti demək deyil.
6. Öz növünüzə (bir insana) kömək edərkən onun əqidəsi ilə işiniz olmasın.
7. Maddi ləzzətlər nə qədər çox olsa da, axirət nemətləri ilə müqayisədə cüzidir.

127. ﴿وَإِذْ يَرْفَعُ إِبْرَاهِيمُ الْقَوَاعِدَ مِنَ الْبَيْتِ وَإِسْمَاعِيلُ رَبَّنَا تَقَبَّلْ مِنَّا إِنَّكَ أَنتَ السَّمِيعُ الْعَلِيمُ﴾

**"(Xatırla,) o zaman ki, İbrahim İsmail ilə evin (Kəbənin) sütunlarını yuxarı qaldırırdı. (Və deyirdilər,) Pərvərdigara, bizdən qəbul et. Həqiqətən, Sən eşidən və bilənsən."**

## *Nöqtələr*

◘Çoxsaylı ayə və rəvayətlərdən məlum olur ki, Kəbə evi həzrət Adəmin dövründən mövcud olmuşdur. Həzrət İbrahim isə onu bərpa etmişdir. Həzrət İbrahim zövcəsi və oğlunu Məkkədə yerləşdirərkən deyir: "Pərvərdigara, ailəmdən bəzisini bu quru və əkinsiz yerdə, Sənin evinin kənarında sakin etdim. [1] Buna əsasən deyə bilərik ki, həzrət İsmailin südəmərlik dövründə də Kəbədən əsər olmuşdur. "Ali-İmran" surəsində də Kəbə xalqın ilk evi kimi yad olunur. Haqqında danışılan ayədə də evin sütunlarının İbrahim tərəfindən qaldırılmasından danışılır. Ayənin təbirlərindən aydın olur ki, Kəbənin əsasları əvvəlcədən mövcud olmuş, İbrahim və İsmail onları qaldırmışlar. Həzrət Əli (ə) də "Nəhcül-bəlağə"də bu nöqtəyə işarə etmişdir: "Allah həzrət Adəmin dövründən əbədi olaraq bütün xalqı Kəbə və onun daşları ilə sınağa çəkir. [2]

◘Həzrət İbrahim və İsmail bu işdə bərabər çalışmırdılar. Həzrət İbrahim bənnalıq edir, İsmail isə atasına daş verirdi. Ola bilər bu ayədə məhz bu səbəbdən o iki şəxsiyyətin adları fasilə ilə gətirilmişdir.

---

[1] "İbrahim", 37.
[2] "Nəhcül-bəlağə", x. 192.

## *Bildirişlər*

1. Xeyir iş banilərini unutmayaq.
2. İlahi hədəflər yolunda bənnalıq və fəhləlik də ibadətdir. Ona görə də Allahdan işlərin qəbul olması istənilir.
3. İş yox, onun qəbul olması əhəmiyyətlidir. Allah tərəfindən qəbul olunmayacağı halda, Kəbə tikməyin də faydası yoxdur.
4. Allahın əzəməti qarşısında öz işlərinizi dilə gətiriləsi saymayın. Həzrət İbrahim öz işi və bənnalığının adını da çəkmədi və yalnız bunu dedi: “Pərvərdigara, bizdən qəbul et.”
5. Rəvayətdə nəql olunmuşdur: Duanın qəbul şərti və qaydalarından biri Allaha sitayişdir. İbrahim öz duasında Allaha sitayiş də edir.

128. ﴿رَبَّنَا وَاجْعَلْنَا مُسْلِمَيْنِ لَكَ وَمِن ذُرِّيَّتِنَا أُمَّةً مُّسْلِمَةً لَّكَ وَأَرِنَا مَنَاسِكَنَا وَتُبْ عَلَيْنَآ إِنَّكَ أَنتَ التَّوَّابُ الرَّحِيمُ﴾

**“(İbrahim və İsmail dedilər:) Pərvərdigara! Bizi Özünə təslim et, nəslimizdən (də) Sənə təslim olacaq ümmət qərar ver, pərəstişin yolunu və qaydasını bizə göstər və tövbəmizi qəbul et. Həqiqətən, Sən tövbələri qəbul edən, mehribansan.”**

## *Nöqtələr*

◘Həzrət İbarahim və İsmail hər ikisi Allahın zibh əmrini ən ali təslim dərəcəsində yerinə yetirsələr də, yenə də uyğun ayədə Allahdan diləyirlər ki, onları Öz fərmanına təslim etsin. Onlar Allahdan daha böyük təslimçilik və ya təslim ruhiyyəsinin davamını istəyirlər. yalnız Allaha təslim olan kəs nə büt düzəldən əmisinə təslim olur, nə bütlərin qarşısında diz üstə çökür, nə də zalım hakimlərə (tağuta) itaət edir.

## *Bildirişlər*

1. Bugünkü kamilliyinizlə kifayətlənməyin. Allahdan bu kamalın yetkinləşməsi və davamını istəyin.
2. Gələcək nəsil və övladlara diqqət Allahın bəyəndiyi və aqilanə bir uzaqgörənlikdir. Bu xasiyyət insanın baxışının dərinliyindən və batini bir eşq, yanqıdan danışır. Bu sayaq istəklər həzrət İbrahimin dualarında dəfələrlə təkrarlanmışdır.
3. Bəndəliyin yolunu və qaydasını Allahdan öyrənmək lazımdır. Əks təqdirdə insan müxtəlif xürafat və büdrəmələrə düçar olar.
4. İnsanın ruhu təslim olmayınca bəyan olunmuş hökmlər faydasızdır. Burada İbrahim Allahdan əvvəlcə təslim ruhu istəyir, sonra isə ibadət və bəndəliyin yolunu və qaydasını diləyir.
5. Tövbə və qayıdışa ehtiyac, ilahi lütf hər hal və məqamda dəyərdir. Rəvayətdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) gün ərzində yetmiş dəfə istiğfar edirmiş. Halbuki o məsum idi və heç bir günah etməmişdi.
6. Dua qaydalarından biri də Allaha sitayişdir və bu ayədə həmin nöqtə gözə çarpır.

129. ﴿رَبَّنَا وَابْعَثْ فِيهِمْ رَسُولاً مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِكَ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُزَكِّيهِمْ إِنَّكَ أَنتَ العَزِيزُ الحَكِيمُ﴾

**“Pərvərdigara! Onların arasında özlərindən bir peyğəmbər məbus et ki, Sənin ayələrini onlar üçün oxusun, onlara kitab və hikmət öyrətsin və (etiqadi, əxlaqi və əməli fəsadlardan) pak etsin. Həqiqətən, Sən Özün qadir və həkimsən.”**

## *Nöqtələr*

◘Bu ayədə həzrət İbrahimin digər bir duası yada salınır. Bu dua onun ruhunun fövqəladə əzəmətini, daxili eşq və ixlasını nəzərə çatdırır. Həzrət İbrahim özü böyük ilahi peyğəmbərlərdən olsa da, gələcək nəsli üçün dua edib, onların da arasından peyğəmbərlər çıxmasını istəyir. İslam Peyğəmbərinin (s) belə buyurduğu nəql olunmuşdur: “Mən atam İbrahimin dualarının nəticəsiyəm.

◘İbrahimin duasında təlim təzkiyədən (paklanmadan) qabaq gəlsə də, Allah bu duanın qəbulunda təzkiyəni təlimdən qabaq nəzrədə tutmuşdur. Bununla İbrahimə bildirilir ki, təzkiyə daha dəyərlidir və təlim növbəti mərhələdə dayanır. [1]

## *Bildirişlər*

1. Dahi rəhbərə ehtiyac cəmiyyətin ən əsas ehtiyaclarındandır. Əgər əsrlərcə əvvəl ilahi rəhbər istəyi ilə dua edilmişdisə, bu həmin məsələnin əhəmiyyətini, dəyərini və rolunu göstərir. Bəli, məsum və ilahi rəhbərin iştirakı olmadan Kəbə divarlarının qaldırılması bütxana tikilməsi kimidir.

2. Peyğəmbərlərin göndərilməsində məqsəd səmavi kitab əsasında xalqın təlim və təzkiyəsi olmuşdur.

3. Elm və bilik o zaman fayda verir ki, ayıqlıq, hikmət təzkiyə və təqva ilə yanaşı olmuş olsun.

130. ﴿وَمَن يَرْغَبُ عَن مِّلَّةِ إِبْرَاهِيمَ إِلاَّ مَن سَفِهَ نَفْسَهُ وَلَقَدِ اصْطَفَيْنَاهُ فِي الدُّنْيَا وَإِنَّهُ فِي الآخِرَةِ لَمِنَ الصَّالِحِينَ﴾

**“Özünü (aldadıb) ağılsızlıq edəndən savay kim İbrahimin ayinindən üz döndərər?! Həqiqətən, Biz onu bu dünyada seçdik və o, heç şübhəsiz, o biri aləmdə salehlərdəndir.”**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə həzrət İbrahimin məqsədləri və şəxsiyyəti haqqında bəzi nöqtələr bəyan olundu. Bu ayə İbrahimin parlaq çöhrəsini və ayinlərini nəzərdə tutaraq soruşur ki, axmaqlardan başqa kim İbrahimin dinindən üz döndərər?! Həzrət İbrahimin ayinləri o qədər dəyərli idi ki, İslam Peyğəmbəri (s) İbrahim yolunu getməsi ilə fəxr edirdi. İbrahim məntiqdə kafir müxalifini heyrətdə qoyan bir şəxs idi.[2] O, misilsiz şücaəti ilə bütün bütləri birdəfəyə qırıb tökür.[3] Quran onu həlim tanıtdırır və bildirir ki, İbrahim səbir və təvəkküldə nümunədir. O, oda atıldığı vaxt zərrəcə iztirab keçirmir. Onun səxavəti də misilsizdir. Öz qonaqları üçün kök bir dananı kəsib kabab bişirir. Allaha təslimçilikdə də İbrahim nümunədir. O, Allahın razılığı üçün öz körpəsini susuz-otsuz Məkkə biyabanında qoyur və həmin körpə yetkinlik

[1] “Cumuə”, 2.
[2] “Bəqərə 258.
[3] “Ənbiya”, 58.

yaşına çatdıqda yenə də Allahın əmri ilə bıçağı bu sevimli gəncin boğazına dirəyir. Bəli, insan yalnız öz ağlını aldatmaqla ilahi dindən üz döndərə bilər.

◘İbrahim öz duasında Allahdan salehlik istəyir.[1] Allah onu duasını qəbul edərək buyurur: "İbrahim axirətdə salehlərdəndir."

◘Bəşər nəsli üçün əmin-aman bir mərkəz, məsum rəhbər, firavan ruzi və təslim tövfiqi, tövbənin qəbulu, səadət yolu diləyən İbrahim yolunu buraxıb başqa bir yola üz tutanlar səfeh və nadandırlar!

◘Quran dilində həqiqəti görməməzliyə vurub naşükürlük edənlərə səfeh deyilir. Qiblənin dəyişməsi ilə bağlı yersiz bəhanələr gətirdiyi üçün Bəni-İsrail də səfeh adlandırılmışdır. Bir ayə ilə bağlı imamın belə buyurduğu nəql olunur: "Şərab içən səfehdir." Bəli, şərabxor kəs faydalı və halal içkiləri qoyub, zərərli və haram içkilərdən istifadə edir. Haqq yolu qoyub, əyri yola üz tutanları başqa nə adlandırmaq olar?! Rəhbər və əqidə seçimində düzgün addım atanlar aqildir. Hədisdə oxuyuruq: "Ağıl odur ki, onun vasitəsi ilə Allaha ibadət olunsun. Əks təqdirdə (ağıl adlandırılan) şeytənətdir.

## *Bildirişlər*

1. Səfeh o insandır ki, məntiqi, məktəbi, rəhbəri, doğru yolu görməməzliyə vurub, nəfs istəklərinin ardınca getsin.
2. Dindarlıq düşüncə, dindən uzaqlıq isə ağılsızlıqdır.

131. ﴿إِذْ قَالَ لَهُ رَبُّهُ أَسْلِمْ قَالَ أَسْلَمْتُ لِرَبِّ الْعَالَمِينَ﴾

**"(Xatırlayın,) o zaman ki, Allah İbrahimə buyurdu: "Təslim ol." (İbrahim) dedi: "Aləmlərin Rəbbi qarşısında təslim oldum."**

## *Bildirişlər*

1. İlahi məqamlar və lütflər dəlil olmadan kimsəyə verilmir. Allah İbrahimi Öz qarşısındakı təslimçilik ruhiyyəsinə xatir seçdi.
2. İnsanın Allah qarşısında təslim olmasının fəlsəfəsi budur ki, Allah aləmlərin Rəbbidir.

132. ﴿وَوَصَّى بِهَا إِبْرَاهِيمُ بَنِيهِ وَيَعْقُوبُ يَا بَنِيَّ إِنَّ اللّهَ اصْطَفَى لَكُمُ الدِّينَ فَلاَ تَمُوتُنَّ إَلاَّ وَأَنتُم مُّسْلِمُونَ﴾

**"İbrahim və Yaqub öz övladlarına həmin ayinləri tapşırdılar. (Dedilər,) ey mənim övladlarım! Allah sizin üçün bu dini seçmişdir. Belədirsə, yalnız təslim olmuş halda ölün."**

## *Bildirişlər*

1.Öz nəsliniz və övladlarınızın sağlam əqidə və imanı fikrində olun. Öz vəsiyyətlərinizdə yalnız maddi yönümlə kifayətlənməyin.
2. Haqq yol İslam və Allah qarşısında təslimçilik yoludur. Peyğəmbərlər həmin yolu sifariş etmişlər.
3. Allah bütün yollar içindən bizim üçün din yolunu seçmişdir.
4. Gözəl sonluq, müsəlman ölmək mühümdür. İman gətirdiyi halda dünyadan mürtəd və kafir gedənlər də olmuşdur.[2]

---

[1] "Şuəra", 83.
[2] "Nisa", 137.

5. Ölüm zamanı və məkanı bizə qaranlıq olsa da, düzgün əqidə və əməl, dua və günahdan uzaqlıq yolu ilə xoşbəxt sonluq üçün zəmin hazırlaya bilərik.

133. ﴿أَمْ كُنتُمْ شُهَدَاء إِذْ حَضَرَ يَعْقُوبَ الْمَوْتُ إِذْ قَالَ لِبَنِيهِ مَا تَعْبُدُونَ مِن بَعْدِي قَالُواْ نَعْبُدُ إِلَهَكَ وَإِلَهَ آبَائِكَ إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ إِلَهًا وَاحِدًا وَنَحْنُ لَهُ مُسْلِمُونَ﴾

**“Siz (yəhudilər) Yaqubun ölümü çatdığı vaxt hazır oldunuzmu?! O zaman ki, övladlarına dedi: “Məndən sonra nəyə pərəstiş edərsiniz?” Dedilər: “Sənin və ataların İbrahim, İsmail və İshaqın Allahına, bir Allaha. Biz Onun qarşısında təslimik.”**

## *Nöqtələr*

◘Yəhudilərdən bir qismi inanıb, iddia edirlər ki, Yaqub ölümü zamanı oğlanlarına yəhudilərin bütün təhriflərlə birgə qəbul etdiyi dini tapşırdı. Güya onlar bu səbəbdən öz dinlərinə bağlıdırlar. Allah onların bu iddia və etiqadını inkar edərək ortaya belə bir sual qoyur: Siz Yaqubun ölümü zamanı onun yanında idinizmi? Bəlkə o öz övladlarından İslam və Allah qarşısında təslimçiliyi istəmişdir? Bəli, Yaqubun övladları ona vəd etdilər ki, yeganə Allaha ibadət və pərəstiş edəcək və Onun qarşısında təslim olacaqlar.

◘Quranda baba və əmi “ata” (“əb”) kimi ya dedilir. Çünki İbrahim Yaqub övladlarının babası, İsmail isə onların əmisi idi.

## *Bildirişlər*

1. Söz elm və agahlığa əsaslanmalıdır.
2. Ölüm hamının sorağına gəlir, hətta peyğəmbərlərin də!
3. Həyatın ən həssas məqamı ölüm məqamıdır. Ən həssas məsələ din və əqidə məsələsi, ən həssas müxatəb (xitab olunan) insan nəslidir.
4. Ölüm zamanı moizənin çox dərin təsiri var.
5. Atalar övladlarının dini baxımdan gələcəyinə diqqətli olmalıdırlar. Hətta peyğəmbərlərin də övladları üçün dinsizlik qorxusu var.
6. Bütün peyğəmbərlər Allaha ibadət və Onun qarşısında təslimçiliyi tapşırmışlar.
7. Yalnız Allahın fərmanı qarşısında təslim olaq.

134. ﴿تِلْكَ أُمَّةٌ قَدْ خَلَتْ لَهَا مَا كَسَبَتْ وَلَكُم مَّا كَسَبْتُمْ وَلاَ تُسْأَلُونَ عَمَّا كَانُوا يَعْمَلُونَ﴾

**“Onlar bir ümmət idilər ki, ölüb getdilər. Onların əldə etdikləri özlərinə, sizin əldə etdikləriniz isə özünüzə aiddir. Onların etdiyi işlərə görə siz sorğuya çəkilməyəcəksiniz.”**

## *Nöqtələr*

◘Bəni-İsrailin səhvlərindən biri bu idi ki, öz babaları ilə ifrat dərəcədə fəxr edir və babalarına itaət etdikləri üçün səhvlərinin bağışlanacağını düşünürdülər. Ayə onlara xəbərdarlıq edir ki, keçmişdəkilər öz əməllərinə cavabdeh olduqları kimi, siz də öz əməllərinizə cavabdehsiniz.

◘“Ğurərul-hikəm” kitabında Həzrət Əlinin (ə) dilindən belə nəql olunmuşdur: “Şərafət və böyüklük babaların və keçmişdəkilərin çürümüş sümüklərinə yox, ali və uca himmətlərə və səylərə bağlıdır.” Tarixdən məlum olur ki, insanlar öz əməlləri sayəsində gələcəklərini müəyyənləşdirmişlər. Fironun arvadı behişt əhli olur. Lutun arvadı isə öz pis işlərinə görə cəhənnəmə sürüklənir. Bütün bunlar Allah-təalanın haqq-ədalət və nizam nümunələridir.

◘Bir hədisdə həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: “Ey Bəni-Haşim, məbada başqa xalqlar öz axirətləri üçün çalışsınlar, siz isə öz nəslinizlə fəxr edəsiniz.”

## *Bildirişlər*

1. Qohumluq əlaqələri qiyamətdə faydasızdır.
2. Hər bir fərdin və hər bir cəmiyyətin gələcəyi onun əməllərindən asılıdır.

135. ﴿وَقَالُواْ كُونُواْ هُودًا أَوْ نَصَارَى تَهْتَدُواْ قُلْ بَلْ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ﴾

**"(Kitab əhli) dedi: "Yəhudi və məsihi olun ki, doğru yolu tapasınız. De ki, (belə deyil,) İbrahimin haqq ayini (hidayət mayasıdır, çünki) o müşriklərdən deyildi."**

## *Nöqtələr*

◘"Yəhud" sözü Allaha doğru qayıdış mənasını verən kökdən götürülmüşdür. "Məcməül-bəyan" kitabında imam Sadiqdən (ə) nəql olunmuşdur ki, "yəhud" ləqəbi "Əraf" sürəsinin 156-cı ayəsindən iqtibas olunmuşdur. Həmin ayədə Bəni-İsrailin Allaha "inna hudna iləyk" dediyi bildirilir. "Nəsara" sözü isə həzrət İsanın "mən ənsari iləllah" ifadəsindən iqtibas olunmuşdur.[1] "Hənif" sözü doğru yola gəlmək mənasını verən "hunəf" sözündəndir. "Cunəf" isə əyri yolda qərar tutmaqdır.

◘113-cü ayədə oxuduq ki, yəhudilər məsihiləri (nəsara) qəbul etmədilər. Nəsranilər də öz növbəsində yəhudiləri inkar etdilər. Hər iki qrup yalnız özünün doğru yolda olduğunu güman edirdi. Halbuki hər ikisi şəkkə düçar olmuş və doğru yoldan azmışdılar. Doğru yol isə heç vaxt şəkk-şübhəyə uğramayan İbrahim yoludur.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Hənif və haqlı din həqiqət və İslama meyldir."[2]

## *Bildirişlər*

1. Yersiz inhisarçılıq qadağandır. Yəhudilər və məsihilər heç bir dəlilə malik olmadan təkcə özlərini doğru yolda bilirdilər.
2. Ad və ünvan mühüm deyil. Mühüm iman və əməldir. Yəhudi və ya məsihi yalnız ləqəbdir. Dəyərli olan isə tövhid, təkallahlılıqdır.
3. Başqalarının mənfi təbliğatına cavab verin.
4. İbrahim heç vaxt müşriklərdən olmamışdır. Yəhudilər və məsihilər şirkə düçar olanlardır.

136. ﴿قُولُواْ آمَنَّا بِاللّهِ وَمَآ أُنزِلَ إِلَيْنَا وَمَا أُنزِلَ إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأسْبَاطِ وَمَا أُوتِيَ مُوسَى وَعِيسَى وَمَا أُوتِيَ النَّبِيُّونَ مِن رَّبِّهِمْ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّنْهُمْ وَنَحْنُ لَهُ مُسْلِمُونَ﴾

**"(Ey müsəlmanlar,) deyin ki, biz Allaha, bizə və İbrahimə, İsmailə, İshaqa, Yaquba, Əsbata (Yaqub övladından olan peyğəmbərlərə), eləcə də, Musaya, İsaya və başqa peyğəmbərlərə Allah tərəfindən nazil edilənə iman gətirmişik. Biz onların heç birini bir-birindən ayırmırıq və Allahın qarşısında təslimik."**

---

[1] "Ali-İmran", 52.
[2] "Təfsiri-bürhan".

### *Nöqtələr*

◘Ayədə müsəlmanlara göstəriş verilir ki, öz müxaliflərinə belə desinlər: Biz Allaha, haqq olan bütün peyğəmbərlərə və Allah tərəfindən nazil edilənə iman gətirmişik. Özünəgüvənmə və ya irqi təəssüblər hansısa hökmü qəbul, hansısa hökmü inkar etməyimizə bais olmur. Biz istər həzrət İbrahimdən qabaq gəlmiş Adəm, Şeys, Nuh, Hud, Saleh kimi peyğəmbərlərə, istərsə də İbrahimdən sonra gəlmiş Süleyman, Yəhya, Zəkəriyya kimi peyğəmbərlərə iman gətirmişik. Aşkar dəlil və möcüzə ilə gəlmiş bütün peyğəmbərləri ağlımızın hökmü ilə qəbul edirik.

◘"Əsbat" nəvə mənası verən "sibt" kökündəndir. Bu söz Yaqubun on iki övladından vücuda gəlmiş on iki Bəni-İsrail qəbiləsinə işarədir. Onların arasında peyğəmbərlər olmuşdur.

◘"Və ma utiyə Musa və İsa", yəni sizdə olan hər şeyi yox, həmin iki peyğəmbərdə olan hər şeyi qəbul edirik. Ona görə də "və ma utiytum" təbiri işlədilməmişdir. Əgər çıxış yolunu yalnız məsihilik və ya yəhudilikdə gördüyünüz üçün dəvətinizi qəbul etmiriksə, dəlilimiz budur ki, Allahın dinində xurafatlar yaratmısınız. Əslində isə biz həqiqi Tövrat və İncili qəbul edirik. Bu həmin səmavi kitablardır ki, onlarda İslam peyğəmbərinin zühur və besəti haqqında xəbər verilmişdir.

### *Bildirişlər*

1. Bütün peyğəmbərlərə və səmavi kitablara inanmaq lazımdır.

Bəzi peyğəmbərlərin inkarı bütün peyğəmbərlərin inkarıdır. Həqiqi müsəlman bütün ilahi peyğəmbərlərə imanlıdır.

2. Biz bu gün Tövrat və İncil adı ilə təqdim olunan təhrif olunmuş kitablara yox, Musa və İsaya nazil olanlara imanlıyıq.

3. Qəlbi imanla yanaşı, əməldə təslimçilik lazımdır.

137. ﴿فَإِنْ آمَنُواْ بِمِثْلِ مَا آمَنتُم بِهِ فَقَدِ اهْتَدَواْ وَّإِن تَوَلَّوْاْ فَإِنَّمَا هُمْ فِي شِقَاقٍ فَسَيَكْفِيكَهُمُ اللّهُ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**"Əgər onlar (da) sizin iman gətirdiyiniz kimi iman gətirsələr, şübhəsiz, hidayət olmuşlar. Əgər boyun qaçırsalar, bundan başqa cür deyil ki, onlar (haqla) düşmənçilikdədirlər. Allah onların şərini səndən dəf edər. O eşidən, biləndir."**

### *Nöqtələr*

◘Əgər kitab əhli, yəhudilər və məsihilər inadkarlıq və özünə qürrələnmə əvəzinə irqi və milli məsələləri bir kənara qoyub, siz müsəlmanlar kimi bütün peyğəmbərlərə və səmavi kitablara inansalar, şübhəsiz , hidayət olarlar. Amma əgər keçmişdəki kimi yalnız özlərini haqlı saysalar və başqalarını azğın bilsələr, haqla düşmənçilikdədirlər və haqdan ayrılacaqlar. Siz müsəlmanlar öz yolunuzda möhkəm olun, təhqir və qurğulardan qorxmayın. Çünki Allah onların şərini sizdən dəf edib, sizi himayə edər. Çünki O eşidən və biləndir.

### *Bildirişlər*

1. Müsəlmanlar doğru yolu tapmışların gerçək nümunəsidirlər. Çünki onlar bütün peyğəmbərlərə, səmavi kitablara etiqadlıdırlar.

2. Allah müsəlmanları himayə və qane edəcəyini buyurmuşdur.

3. Yəhudi və məsihilərin iman gətirməmələrinin səbəbi onların inadkarlığı və düşmənçilik axtarmasıdır. Onların heç bir məntiqi və dəlili yoxdur. İmam Sadiq (ə) düşmənçiliyi küfr saymışdır.[1]

138. ﴿صِبْغَةَ اللّهِ وَمَنْ أَحْسَنُ مِنَ اللّهِ صِبْغَةً وَنَحْنُ لَهُ عَابِدونَ﴾

**“(Budur) ilahi rəng? Rəngdə Allahdan üstünü kimdir?! Biz yalnız Ona ibadət edirik.”**

## *Nöqtələr*

◘İnsan öz həyatında hansısa rəngi qəbul etməli olur. Amma bütün rənglərdən üstün ilahi rəngdir. Aydın məsələdir ki, irq, qəbilə, nəfs istəkləri rəngini bir kənara qoymasaq, vəhdət, qardaşlıq, Allah əmrinə təslimçilik rəngini götürə bilməyəcəyik. Bütün rənglər zaman keçdikcə solur. İlahi rəng isə həmişə təravətli və davamlıdır.[2] İbadət və bəndəlik etdiyimiz Allahın rəngindən hansı rəng üstün ola bilər?!

◘Ən gözəl rəng səfalı və davamlı rəngdir. Bu rəng Allah övliyalarının diqqətini özünə cəlb edir. Bu rəng fitrət və məntiqə uyğundur. Onun müştərisi Allah, dəyəri isə behiştdir. Bütün rənglər, irq və qəbilə rəngləri gec ya tez məhv olub gedəsidir. Əbədi və davamlı olan isə ilahi rəng, yəni ixlas və imandır.

◘Hədisdə nəql olunmuşdur: Bir şəxs evinin divarında dəlik açırdı. İmam Sadiq (ə) ondan nə iş gördüyünü soruşur. Həmin şəxs cavab verdi: “İstəyirəm ocağın tüstüsü mənzildən bayıra çıxsın.” İmam buyurdu: “Bu işdə belə bir məqsədin də ola bilər ki, namazın vaxtını bilmək üçün otağa işıq düşməsini istəyirsən.” Yəni əgər divardan baca açılırsa, nə üçün məqsəd təkcə otaqdan tüstünün çıxması olsun?! Nə üçün insanın niyyəti mənzilə işıq düşməsi olmasın?! [3] Bəli, hər bir işə ilahi rəng vermək olar.

◘İlahi yol birdir. Əgər ilahi rəng olmasa, başqa rənglər insanın ağlını əlindən alar. Əksəri azğınlığa düçar olmuş camaatla eyni rəngə boyanmaq özü qiyamətdə rüsvayçılıq və zəlillikdir.

## *Bildirişlər*

1. Allaha iman, peyğəmbərlər və ilahi kitablara etiqad, Allaha təslimçilik ilahi rənglərdəndir. Əvvəlki və hazırkı ayələrdə bu məsələlərə toxunulmuşdur.
2. Ən üstün və ən gözəl rənglər ilahi rənglərdir.
3. Başqalarının yox, yalnız Allahın bəndəsi olmaq lazımdır.

139. ﴿قُلْ أَتُحَآجُّونَنَا فِي اللّهِ وَهُوَ رَبُّنَا وَرَبُّكُمْ وَلَنَا أَعْمَالُنَا وَلَكُمْ أَعْمَالُكُمْ وَنَحْنُ لَهُ مُخْلِصُونَ﴾

**“(Ey peyğəmbər! Kitab əhlinə) de ki, yoxsa Allah haqqında bizimlə mübahisə edirsiniz? Bir halda ki, O bizim və sizin Allahınızdır. Bizim əməllərimiz bizim üçün, sizin əməlləriniz isə sizin üçündür. Biz Onun üçün xalisanə ibadət edirik.”**

## *Nöqtələr*

◘Bu ayə kitab əhlinə bir xəbərdarlıqdır. Onlar əsasız iddialarından əl götürməlidirlər. Onlar deyirdilər: Biz Allaha daha yaxınıq, onun övladlarıyıq və ya əzizləriyik. Bəni-İsrail elə güman edir ki, bütün peyğəmbərlər həmin nəsildən olmalıdır. Onlar dinlərinin və səmavi kitablarının qədimliyinə görə özlərini üstün sayırdılar. Onlara elə gəlirdi ki, Allahın lütfü yalnız onların halına şamildir. Elə bu düşüncələrlə də müsəlmanlarla didişirdilər.

---

[1] “Təfsiri-Məcməül-bəyan”; “Təfsiri-Rahnüma”.
[2] “Qəsəs”, 88.
[3] Ayətullah Cavadi, “Təfsiri-mövzui”, c. 5, s. 132.

## *Bildirişlər*

1. Bütün bəşəriyyətin ixtiyar sahibi Allahdır. Onun hamıya lütfü var. O istənilən bir nəsildən olan insana xüsusi ətalar edə bilər.
2. Hər kəsin xoşbəxtliyi onun əməllərindən asılıdır. İddia və şüar səmərəsizdir.
3. Allaha yaxınlıq ölçüsü xalisanə ibadət və Allahı şəriksiz bilməkdir.

140. ﴿أَمْ تَقُولُونَ إِنَّ إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأسْبَاطَ كَانُواْ هُودًا أَوْ نَصَارَى قُلْ أَأَنتُمْ أَعْلَمُ أَمِ اللّهُ وَمَنْ أَظْلَمُ مِمَّن كَتَمَ شَهَادَةً عِندَهُ مِنَ اللّهِ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“Yoxsa deyirlər ki, İbrahim, İsmail, İshaq, Yaqub, Əsbat yəhudi və məsihi idilər? De ki, siz yaxşı bilirsiniz, yoxsa Allah? (Nə üçün həqiqəti gizlədirsiniz?) (Peyğəmbərlər haqqında) ilahi and və şəhadəti Allahın yanında ola-ola gizlədəndən də zalımı kimdir? Allah sizin əməllərinizdən xəbərsiz deyil.”**

## *Nöqtələr*

◘Bu ayə kitab əhlinə digər bir xitabdır. Siz yəhudiliyiniz və ya məsihiliyinizlə o qədər fəxr edirsiniz ki, hətta Allahın ən böyük övliyalarına ən ağır böhtanlar da atmağa hazırsınız! Yoxsa Tövrat və İncildən əvvəl gəlmələrinə baxmayaraq, İbrahimi, İsmaili, İshaqı, Yaqubu və başqa peyğəmbərləri yəhudi və məsihi sayırsınız? Bildiyiniz həqiqəti gizlətməyiniz sitəmkarlıq deyilmi? Siz aşkar tarixi bir həqiqəti xalqdan gizləyirsiniz və iddia edirsiniz ki, bütün peyğəmbərlər yəhudi və məsihi olmuşdur. Amma unutmayın ki, Allah sizin bütün işlərinizdən xəbərdardır.

## *Bildirişlər*

1. İnsanda təəssüb elə bir həddə çata bilər ki, o hətta tarixi gerçəklikləri də təhrif və inkar etməkdən çəkinməz.
2. Zülmlərin ən böyüyü etiqadi zülm və həqiqətlərin gizlədilməsidir.
3. Allahın pərdələmə və zülmlərdən xəbərdar olduğu yadımızda qalmalıdır.

141. ﴿تِلْكَ أُمَّةٌ قَدْ خَلَتْ لَهَا مَا كَسَبَتْ وَلَكُم مَّا كَسَبْتُمْ وَلاَ تُسْأَلُونَ عَمَّا كَانُواْ يَعْمَلُونَ﴾

**“(Hər halda,) həmin ümmət keçib getdi. Onların ələ gətirdikləri özləri üçün, sizin ələ gətirdikləriniz isə özünüz üçündür. Sizdən onların etdikləri barədə soruşulmayacaq.”**

## *Bildirişlər*

1. Xoşbəxtliyin əldə olunmasında keçmişdəkilərin və babaların tarixinə arxalanmaq səmərəsizdir.

*Qəbuldur atanın fəzilətləri, Amma varmı bunun sənə səməri?!*

2. Hər bir ümmət öz əməllərinə məsuldur.

## İKİNCİ CÜZ

142. ﴿سَيَقُولُ السُّفَهَاء مِنَ النَّاسِ مَا وَلاَّهُمْ عَن قِبْلَتِهِمُ الَّتِي كَانُواْ عَلَيْهَا قُل لِّلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ
يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Tezliklə xalqdan olan ağılsızlar deyəcəklər: Onları (müsəlmanları) üz tutduqları qiblədən (Beytül-Müqəddəs) nə döndərdi? De ki, şərq də, qərb də Allahındır. İstədiyini doğru yola hidayət edir.”**

### *Nöqtələr*

◘Məkkə müşrikləri Kəbəni bütxanaya çevirdiklərindən həzrət Peyğəmbər və müsəlmanlar besətdən sonrakı on üç il ərzində üzü Kəbəyə namaz qılmadılar. Əgər onlar üzü Kəbəyə namaz qılsaydılar, belə görünərdi ki, onlar da bütləri möhtərəm sayırlar. Amma Mədinəyə hicrətdən sonra bir neçə ay keçməmiş yəhudilər etiraz edib müsəlmanları təhqir etdilər və dedilər: Siz bizim qibləmiz Beytül-Müqəddəsə doğru namaz qılırsınız, ona görə də istiqlalınız yoxdur və bizim ardıcılımızsınız. Peyğəmbər (s) bu böhtanlardan narahat oldu və dua zamanı üzünü səmaya tutdu. Həzrət qiblənin dəyişməsi haqqında sanki vəhyin nazil olması intizarında idi. Peyğəmbər (s) üzü Beytül-Müqəddəsə iki rəkət namaz qılmışdı ki, Cəbrail nazil oldu və peyğəmbərin qolundan tutub onun üzünü Kəbəyə doğru çevirdi. Nəticədə Peyğəmbər (s) bir namazı iki qibləyə doğru qılmış oldu. Hazırda Mədinədəki həmin yer “qiblətəyn” məscidi (iki qiblə məscidi) kimi tanınır.[1]

Bu əhvalatdan sonra yəhudilər narahat oldular və öz adətləri üzrə xırdaçılığa başladılar. Dünənədək müsəlmanların istiqlaldan məhrum olduğunu, onların ardınca gəldiyini deyən yəhudilər indi soruşurdular ki, nə üçün qədim peyğəmbərlərin qibləsindən üz döndərilmişdir? Həzrət Peyğəmbərə əmr olundu ki, onlara cavab versin: Şərq də, qərb də Allahındır və Allahın xüsusi məkanı yoxdur!

Bəli, qiblənin dəyişməsi Allahın hikmət nişanəsidir. Bunu zəiflik və cəhalət saymaq olmaz. Yaranış nizamında fəsillərin dəyişməsi də tədbir nişanəsidir. Hər hansı dəyişikliyi zəiflik və peşmanlıq saymaq olmaz.

◘Allahın hər yerdə hüzuru var. Şərq də, qərb də onundur. Üzün Kəbəyə tutulması qəlbin Allaha doğru olmasının rəmzidir. Bir çoxları üzlərini Kəbəyə tutduqları halda qəlbləri başqa bir cəhətə yönəlir. Necə ki, Xacə Abdullah Ənsari deyir:

*Şahların qibləsi şöhrət, taxt-tac, Ərbabın qibləsi nəfsinə əlac.*
*Surətə uyanın qibləsi su, gil, Məna gəzənlərin qibləsi könül.*
*Qarınquluların qibləsi kabab, İnsanın qibləsi bilik, söz, cavab.*
*Aşiqin qibləsi zavalsız vüsal, Arifin qibləsi zülcəlal kamal.*

### *Bildirişlər*

1. Hər gün bəhanə gəzib haqqı qəbul etməkdən boyun qaçıranlar səfehdir. Rəvayətdə axirətini dünyasına fəda edənlər məcnun, günahkar rəhbərə itaət edənlər fəqir, dinini əldən çıxaranlar isə qarət olunmuş adlandırılmışdır.

2. Allahın öz hökmlərini dəyişə bilməyəcəyini düşünən insan səfeh və başıboşdur. Hikmət sahibi və alim Allaha etiraz səfehlik nişanəsidir.

3. Müsəlmanlar düşmənin hiylələrinə, şaiələrinə, bəhanə dolu suallarına cavab verməklə onların nüfuzunun qarşısını almalıdırlar. Düşmənin planlarından öncədən xəbər tutmaq lazımdır.

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 136.

4. Sual vermək qəbahət deyil. Amma etiraz, nöqsan axtarmaq məqsədi ilə sual verilməsi tənqid olunur.

5. Məkan və zamanın müqəddəsliyi və kəraməti Allahın lütfünə bağlıdır.

6. Qiblənin dəyişməsi İslam peyğəmbərinin səmavi kitabdakı nişanələrindən biri idi. Ona görə də bu məsələ bəzilərinin hidayətinə səbəb olmuşdu.

143. ﴿وَكَذَلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا لِّتَكُونُواْ شُهَدَاء عَلَى النَّاسِ وَيَكُونَ الرَّسُولُ عَلَيْكُمْ شَهِيدًا وَمَا جَعَلْنَا
الْقِبْلَةَ الَّتِي كُنتَ عَلَيْهَا إِلاَّ لِنَعْلَمَ مَن يَتَّبِعُ الرَّسُولَ مِمَّن يَنقَلِبُ عَلَى عَقِبَيْهِ وَإِن كَانَتْ لَكَبِيرَةً إِلاَّ عَلَى الَّذِينَ
هَدَى اللّهُ وَمَا كَانَ اللّهُ لِيُضِيعَ إِيمَانَكُمْ إِنَّ اللّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ﴾

**“Beləcə, Biz sizi orta bir ümmət qərar verdik ki, siz xalqa şahid olasınız, Peyğəmbər isə sizə. Əvvəlcə üz tutduğun qiblədən səni ona görə döndərdik ki, peyğəmbərə itaət edənləri cahiliyyətə qayıdanlardan seçək. Şübhəsiz ki, bu (qiblənin dəyişilməsi), Allahın hidayət etdiyi kəslərdən başqalarına çətin oldu. Allah heç vaxt sizin imanınızı zaya çıxarmaz. Çünki Allah xalqa rəhim və mehribandır.**

## *Nöqtələr*

◘Məsihilər ibadət zamanı Beytül-Müqəddəsdə həzrət İsanın doğulduğu məhələ üz tuturdular. Bu yer onların sakin olduğu yerə nəzərən şərqdə yerləşirdi. Yəhudilər isə yaşadıqları yerdən qərbdə yerləşən Beytül-Müqəddəsə üz tuturdular. Amma Kəbə bu iki tərəfin arasında yerləşirdi. Quran bu mövzuya işarə ilə buyurur ki, biz Kəbəni ortada qərar verdiyimiz kimi, siz müsəlmanları da orta ümmət etmişik.

Təfsirçilər bu ayə haqqında müxtəlif fikirlər söyləmişlər. Orta ümmət təbiri haqqında bəziləri deyirlər ki, bu sözün arxasında ifratı və təfriti, cəbri və təfvizi, fərdi və cəmiyyəti əsas götürməyən orta bir ümmət nəzərdə tutulmuşdur.

Amma bəzi müqəddimələrdən aydın olur ki, ayədəki orta ümmət təbiri xüsusi fərdlərə aiddir. Bu müqəddimələrlə tanış olaq:

1. Quran orta ümməti əməllərə şahid kimi tanıtdırır. Onlar qiyamətdə xalqın əməllərinə şahid durmalıdırlar.

2. Şahidlik elmi agahlıq və ədalət tələb edir.

3. Agahlıq və ədalət sifəti hamıda müşahidə olunmur.

Rəvayətlərdə oxuyuruq ki, orta ümmət məsum imamlara işarədir. Əvvəla, onlar bütün işlərdən xəbərdardırlar. Bu məsələyə Quranda işarə olunur.[1] Rəvayətlərə əsasən, xalqın əməllərindən xəbərdar olan möminlər dedikdə məsum imamlar nəzərdə tutulmuşdur. İkincisi, onlar ədalətlidirlər.[2] İsmət (paklıq) və ədalət onları etibarlı etmişdir.

İmam Sadiq (ə) buyurmuşdur: “Necə ola bilər ki, dünya məhkəməsində bir neçə xurma üçün şahidliyə layiq olmayan insanlar qiyamətdə xalqa şahidlik ləyaqəti tapsınlar?” Hər halda, Allah hüzurunda bütün xalqın işlərinə şahidlik yalnız bir qrup insana aid olan xüsusiyyətdir. Rəvayətlərə əsasən, bu zümrə məsum imamlardan ibarətdir.

Sual oluna bilər ki, nə üçün Allah bəzilərinin adını çəkmək əvəzinə ümmət adını çəkir? Sualın cavabında deyə bilərik ki, Quran hətta bir nəfəri də ümmət sayır.[3]

**Qiblənin dəyişmə fəlsəfəsi:**

◘Qiblənin dəyişmə fəlsəfəsi ilə bağlı çoxsaylı təhlillər aparılmışdır. Bəzilərinin fikrincə, Beytül-Müqəddəsin ilk qiblə seçilməsində məqsəd yəhudilərin diqqətinin cəlb olunması və onlarla yaxınlıq olmuşdur. Müsəlmanlar qüdrətə çatdıqdan sonra artıq bu yaxınlığa ehtiyac

[1] “Tövbə”, 105.
[2] “Əhzab”, 33.
[3] “Nəhl”, 120.

duyulmamışdır. Bir başqaları belə zənn edirdilər ki, qiblənin dəyişmə fəlsəfəsi Məkkə və vətənə məhəbbət olmuşdur. Amma hər iki təhlil həqiqətin ziddinədir.

Uyğun məsələ ilə bağlı Quran bildirir ki, qilbənin dəyişməsi ilahi sınaq idi. Bu yolla həzrət peyğəmbərin həqiqi ardıcılları bilinəsi idi. Çünki xalis imanı olmayanlar kiçik bir dəyişikliyi böyüdərək nə üçün-niyəyə başlayırlar. Onlar dalbadal suallar yağdırır, nə üçün belə oldu, əvvəlki əməllərimiz necə olacaq, əvvəlki düz idisə, indiki nədir, indiki düzdürsə, əvvəlki nə idi - deyə soruşurlar. Allah Onun əmrinə təslim olanlara müjdə verir ki, əvvəlki əməlləriniz də əmrə əsaslandığından puça çıxası deyil.

◘Bu ayədə namaz əvəzinə iman sözü işlənmişdir. Bu isə namazın böyük əhəmiyyət və məqamını göstərir, onun bütün imanla bərabər olduğunu önə çəkir.

## *Bildirişlər*

1. İlahi övliyalar bizim əməllərimizə nəzarət edirlər.

Bəli, bəzi insanların elə bir tutumu var ki, bütün əməlləri görüb tarix boyu insanların maraqlarından xəbərdar olurlar.

2. Qiyamətdə silsilə mərtəbələr var. Qiyamət məhkəməsi elə qurulmuşdur ki, əvvəlcə xalqın işinə imamlar şəhadət verir, sonra isə peyğəmbərlər imamlara şahid olurlar.

3. İmtahan dəyişməz ilahi qanundur Allah bəzən Öz əmrlərini dəyişməklə xalqı imtahana çəkər.

4. Dini göstərişlərə itaət inkişaf və kamillik mayası, itaətsizlik isə bir növ irticadır.

5. Allahın əmrindən savay istiqamət, rəng, zaman, məkan və digər xüsusi şivələrə adət etməyin. İnsan bir şeyə adət etdikdə, həmin adətin ziddinə olan ilahi göstərişdən boyun qaçırmağa meyilli olur.

6. Adi insanlar üçün təslim məqamı ağırdır. Yalnız Allahın xüsusi hidayətinə nail olmuş insanlar həmin məqama çata bilir.

7. Hər hansı qanun və göstəriş əvvəlki dövrə aid olmur. Əgər bu gün qibləni dəyişmək əmri gəlmişsə, əvvəlki namazlar doğrudur və bu gündən başlayaraq başqa tərəfə üz tutmalıyıq.

8. İstər təkvini, istər təşrii dəyişikliyin hamısı Allahın rəhmətindəndir.

144. ﴿قَدْ نَرَى تَقَلُّبَ وَجْهِكَ فِي السَّمَاء فَلَنُوَلِّيَنَّكَ قِبْلَةً تَرْضَاهَا فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوِهَكُمْ شَطْرَهُ وَإِنَّ الَّذِينَ أُوْتُواْ الْكِتَابَ لَيَعْلَمُونَ أَنَّهُ الْحَقُّ مِن رَّبِّهِمْ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا يَعْمَلُونَ﴾

**“(Ey peyğəmbər,) görürük ki, (vəhy intizarı ilə) üzünü göyə tutursan. İndi səni könlünü açacaq qibləyə doğru göndəririk. Üzünü Məscidül-Hərama doğru çevir. (Siz ey müsəlmanlar,) harada oldunuz, üzünüzü ona doğru döndərin. (Səmavi) kitab verilmiş şəxslər bilirlər ki, bu əmr Allah tərəfindən gəlmiş bir həqiqətdir. Allah onların əməllərindən qafil deyil.**

## *Nöqtələr*

◘Bu ayə həzrət Peyğəmbərin (s) qiblə ilə bağlı intizarından qaynaqlanır. Həzrət qiblənin dəyişməsini əmr edəcək ayənin intizarında idi. Qiblənin Beytül-Müqəddəsdən Kəbəyə dəyişməsi Allahın Öz peyğəmbərinə vədi idi. Amma həzrət dua zamanı heç bir söz demədən üzünü səmaya tutardı. Nəhayət, ayə nazil oldu və göstəriş verildi ki, həzrət Peyğəmbər (s) və bütün müsəlmanlar ibadət zamanı üzlərini Məscidül- Hərama, Kəbəyə tutsunlar. Bu dəyişmənin həqiqi mahiyyətindən xəbərdar olan kitab əhli bildiklərini gizləməyə çalışdılar. Onlar öz kitablarında oxumuşdular ki, İslam peyğəmbəri iki qibləyə doğru namaz qılar. Onlar

müxtəlif təlqinlərlə şübhələr və suallar yaradıb aranı qarışdırırdılar. Allah da öz növbəsində onları hədələyirdi.[1]

◘Həzrət Peyğəmbərin (s) Kəbənin qiblə seçilməsinə razılığının dəlilləri vardır: Bununla yəhudilərin acı tənələrindən, təhqirlərindən, istehzalarından azad olurdular; müsəlmanların istiqlalı süquta yetir, ilk tövhid mərkəzi Kəbəyə diqqət yönəldilirdi. Qiblənin dəyişmə məsələsi mühüm bir hadisə olduğundan ayədə Kəbəyə üz tutmaq barədə iki dəfə göstəriş verilir: Bir dəfə peyğəmbərə xitabən, ikinci dəfə isə bütün müsəlmanlara müraciətlə.

## *Bildirişlər*

1. Asiman vəhyin nüzul çeşməsi və peyğəmbərlərin göz dikdiyi yerdir.
2. Allah insanların istəklərindən agahdır.
3. Hökmlərin verilməsi və dəyişməsi Allah tərəfindəndir. Peyğəmbərlər özlərindən göstəriş vermirlər.
4. Peyğəmbər Allah qarşısında o qədər ədəblidir ki, qiblənin dəyişməsi istəyini dilə gətirmir. O öz intizarını baxışı ilə bildirir.
5. Allah öz peyğəmbərinin razılığını istəyir. Allahın razılığı peyğəmbərin razılığıdır.
6. Quran həqiqəti bilib inadkarlıq göstərən alimləri hədələyir və məzəmmət edir.
7. Dini göstərişləri xalq üçün çətinləşdirmək olmaz. “Şətr” səmt deməkdir. Yəni Məscidül-Hərama doğru dayanmaq kifayətdir. Üzü dəqiq şəkildə Kəbəyə tutmaq zəruri deyil.

145. ﴿وَلَئِنْ أَتَيْتَ الَّذِينَ أُوْتُواْ الْكِتَابَ بِكُلِّ آيَةٍ مَّا تَبِعُواْ قِبْلَتَكَ وَمَا أَنتَ بِتَابِعٍ قِبْلَتَهُمْ وَمَا بَعْضُهُم
بِتَابِعٍ قِبْلَةَ بَعْضٍ وَلَئِنِ اتَّبَعْتَ أَهْوَاءهُم مِّن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ إِنَّكَ إِذَاً لَّمِنَ الظَّالِمِينَ﴾

**“(Ey peyğəmbər,) Kitab əhli üçün hər cür ayə (nişanə və dəlil) gətirsən, sənin qiblənə itaət etməyəcəklər. Sən də onların qibləsinə tabe deyilsən. (Necə ki onlardan bəziləri digər qibləyə tabe deyildirlər. Sənə elm (vəhy) çatdıqdan sonra onların həvəslərinə itaət etsən, şübhəsiz ki, sitəmkarlardan olacaqsan.”**

## *Nöqtələr*

◘Bu ayə kitab əhlinin inadkarlığı üzərindən pərdəni qaldırır. And içilir ki, onlara nə qədər ayə və dəlil gəlsə, onlar İslama və onun qibləsinə tabe olmayacaqlar. Çünki onlar həqiqəti bilərəkdən qəbul etmirlər.

◘Quranın peyğəmbərə xəbərdarlıqları övliyalar haqqında yersiz düşüncələrin inkişafının qarşısını almaq məqsədi güdür. Necə ki, başqa dinlərdə xalq İsanı Allahın oğlu, mələkləri isə Allahın qızları bilirdi.

## *Bildirişlər*

1. İnadkarlıq və təəssüb düşüncəyə, məntiqə, haqqı görməyə mane olur. Onlar təkcə İslama münasibətdə təəssüb göstərmirlər. Onlar öz aralarında da inadkar və təəssübkeşdirlər.
2. Müxaliflərin hay-küyü qarşısında təslim olmaq olmaz. Düşməni məyus etmək üçün qətiyyət lazımdır.
3. Yəhudilərin və məsihilərin hər birinin öz qibləsi vardır.
4. Alimlərin azğınlığı çox təhlükəlidir.
5. Doğru yolu tapmaq üçün elm kifayət etmir. Belə bir məqamda haqqı qəbul etmək ruhiyyəsi mühümdür. Yəhudilər kitab sahibi idilər. Amma təəssüb çəkdiklərindən malik olduqları elmdən faydalana bilmirdilər.

---

[1] “Təfsiri-Məcməül-bəyan”.

6. Xalqın istəkləri əsasında peyğəmbər ilahi qanunları dəyişə bilməz.
7. İslam ayinləri gerçək elm çeşməsindəndir.
8. Nəfs istəklərinə əsaslanmayan, elmi bünövrəyə malik qanunlar qəbul olunmağa və itaətə layiqdir.
9. Qanun hamı üçün birdir. Məsələn peyğəmbər də nəfs istəkləri ardınca getsə cəzalandırılacaq.
10. İlahi qanun olan yerdə xalqın istəklərinə tabeçilik zülmdür.

146. ﴿الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءهُمْ وَإِنَّ فَرِيقاً مِّنْهُمْ لَيَكْتُمُونَ الْحَقَّ وَهُمْ يَعْلَمُونَ﴾

**“(Yəhudilər və məsihilər) o kəslərdir ki, onlara (səmavi) kitab vermişik, onu (İslam peyğəmbərini) öz oğlanları kimi tanıyırlar. Həqiqətən, onlardan bir dəstəsi haqqı bilməklərinə baxmayaraq onu gizlədirlər.”**

## *Nöqtələr*

◘Quranda bu həqiqət dəfələrlə təkrarlanmışdır ki, kitab əhli Tövrat və İncilin verdiyi müjdəyə görə İslam peyğəmbərinin zühurunu gözləyirdilər. Son peyğəmbərin xüsusiyyətləri onlara elə açıqlanmışdır ki, onu öz övladları tək tanıyırdılar. Amma bütün bunlara baxmayaraq, onlardan bir dəstəsi həqiqəti gizləyirdi. Quranın digər bir yerində buyurulur: “Onlar nəinki peyğəmbərlərdən, hətta onun təşkil etdiyi cəmiyyət və yardımçılarından da xəbərdar idilər. Ayədə oxuyuruq: “Məhəmməd Allahın rəsuludur və onunla olanlar kafirlər qarşısında sərt, öz aralarında mehribandırlar. Onları daim rüku və səcdə halında görərsən. Onlar daim Allahın fəzlini və razılığını istəyirlər. Onların əlaməti üzlərindəki səcdə əsərindən görünür. Bu onların Tövrat və İncildəki vəsfləridir.[1]

◘Quran kitab əhlinin İslam peyğəmbərini tanımasını atanın öz oğlunu tanımasına bənzədir. Atanın öz oğlu ilə tanışlığı isə ən üstün tanışlıqlarıdır. Çünki bu tanışlıq təvəllüd zamanından, hətta ondan da qabaq formalaşır. Bu tanışlıq intizarla müşayiət olunur. Bu tanışlıqda şəkkə yer yoxdur.

◘Elmi gizlətmək ən böyük günahdır. Quran elmi gizlədənlər haqqında buyurur: “Allah və bütün mələklər, ins və cin, hər bir şüurlu varlıq həmişəlik onlara lənət və nifrin oxuyur.[2] Bəli, həqiqəti gizləmək öz övladını gizləmək kimidir. Əlbəttə ki, dünya ləzzətlərinə xatir atanın öz övladını inkar etməsi böyük namərdlikdir!

## *Bildirişlər*

1. İnsanda həqiqətpərəstlik ruhiyyəsi olmasa, elm təklikdə kifayət etmir. Yəhudilər Allahın rəsulunu dərindən tanıdıqları halda yenə də onu qəbul etmədilər.
2. Hətta düşmənlərə münasibətdə də insafı gözləyək. Quran bütün kitab əhlini həqiqəti pərdələyən kimi tanıtdırmır.

147. ﴿الْحَقُّ مِن رَّبِّكَ فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ﴾

**“Haqq (o şeydir ki,) sənin Rəbbinin tərəfindəndir. Belə isə, heç vaxt tərəddüd edənlərdən olma.**

[1] “Fəth”, 29.
[2] “Bəqərə”, 159.

## *Bildirişlər*

1. Haqq, Allahın nəhayətsiz elm mənbəyindən qaynaqlanır.

2. Vəhy və rəvayət yolu ilə sübuta yetən ilahi göstərişlər və fərmanlar mübahisə mövzusu deyil.

3. Rəhbər qətiyyətli və gördüyü işə əmin olmalıdır, xüsusilə qanunu dəyişəndə və ya bir adəti əvəz edəndə!

148. ﴿وَلِكُلٍّ وِجْهَةٌ هُوَ مُوَلِّيهَا فَاسْتَبِقُواْ الْخَيْرَاتِ أَيْنَ مَا تَكُونُواْ يَأْتِ بِكُمُ اللّهُ جَمِيعًا إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Hər bir kəs üçün onun üz tutduğu qiblə var. (Buna görə də qiblə cəhətindən mübahisə etməyin və onun yerinə yaxşılıqda və xeyir əməllərdə bir-birinizi ötün. (Bilin) harada olsanız, Allah hamınızı (məhşərdə) hazır edər. Həqiqətən, Allah hər şeyə qadirdir.**

## *Nöqtələr*

◘“Vichətun” sözünün iki mənası var: Qiblə və yol (üsul). Əgər əksər təfsirçilər kimi bu sözü qiblə kimi mənalandırsaq, ayənin mənası tərcümə etdiyimiz kimi olar. Amma əgər həmin sözü “üsul”, “şivə” kimi mənalandırsaq, ayənin mənası belə olar: Hər bir insan və ya dəstə üçün bir yol var ki, həmin yola çəkilmiş olar və hər kəs bir yolu adlayar. Bu məna “İsra” surəsinin 84-cü ayəsinin mənasına oxşayır.

◘Bəzi təfsirçilər “ayədəki” huvə” əvəzliyinin Allaha aid olduğunu bildirir. Bu halda ayənin mənası belə olur: Hər kəsin Allah tərəfindən təyin olunmuş qibləsi var.

◘Xeyir işdə önə keçmək onun dəyərini artırır. Quranda xeyir iş müxtəlif formalarda təbir olunmuşdur. Peyğəmbərlərin vəsfində buyurulur: “Onlar yaxşılıqda sürət götürürlər.”[1]

◘Bəzi rəvayətlərdə uyğun ayə haqqında deyilir: “Əsrin imamının (ə) zühuru zamanı aşiqləri dünyanın müxtəlif yerlərindən gəlib onun hüzurunda cəm olacaqlar.”[2]

## *Bildirişlər*

1. Hər bir ümmətin qibləsi olmuşdur və qiblə məsələsi yalnız müsəlmanlara məxsus deyil.

2. Mənasız söhbətləri boşlayın və diqqətinizi xeyir işlərin yerinə yetirilməsinə yönəldin.

3. Maddi işlərdə rəqabət və yarışma əvəzinə, xeyir işlərdə önə keçmək lazımdır.

4. Qiyamət günü Allah hamını bir yerə toplayacaq. Bu, ilahi qüdrətin izhar nümunələrindəndir.

149. ﴿وَمِنْ حَيْثُ خَرَجْتَ فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَإِنَّهُ لَلْحَقُّ مِن رَّبِّكَ وَمَا اللّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“(Ey peyğəmbər,) haradan (səfər məqsədi ilə) xaric oldunsa (namaz zamanı) üzünü Məscidül-Hərama doğru çevir. Bu göstəriş sənin Rəbbinin tərəfindən olan haqq göstərişdir. Allah etdiyiniz əməllərdən xəbərsiz deyildir.**

---

[1] “Ənbiya”, 90.

[2] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 139.

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə Məscidül-Hərama diqət müsəlmanların yaşadığı Mədinə şəhərinə aid idi. Bu ayədə isə belə buyurulur: “Səfərdə olarkən də namaz vaxtı üzünüzü Məscidül-Hərama tutun.

150. ﴿وَمِنْ حَيْثُ خَرَجْتَ فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوهَكُمْ شَطْرَهُ
لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَيْكُمْ حُجَّةٌ إِلاَّ الَّذِينَ ظَلَمُواْ مِنْهُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِي وَلأُتِمَّ نِعْمَتِي عَلَيْكُمْ وَلَعَلَّكُمْ
تَهْتَدُونَ﴾

**“(Ey peyğəmbər,) Haradan xaric oldunsa (namaz vaxtı) üzünü Məscidül-Hərama döndər. (Siz müsəlmanlar da) harada olsanız (evdə və ya səfərdə), üzünüzü ona tutun. Belə ki, sitəmkarlar istisna olmaqla, xalq üçün sizə qarşı mübahisə imkanı olmasın. Belə isə, onlardan yox, Məndən qorxun. (Bilin ki, qiblənin dəyişməsi səbəbi) Öz nemətimi sizə tamamlamağımdır. Bəlkə siz hidayət olasınız.**

## *Nöqtələr*

◘Qiblənin dəyişmə məsələsinin müxtəlif ayələrdə təkrarlanması onun əhəmiyyətini göstərir. Bundan əlavə, bu mövzu ilə bağlı hər bir ayədə yeni bir məsələ də bəyan olunmuşdur. Məsələn, bu ayədə Allah Məscidül-Hərama üz tutmaq göstərişindən sonra buyurur: “Bu ona görədir ki, camaat peyğəmbərin və müsəlmanların əleyhinə bəhanə tapmasınlar. Kitab əhli yaxşı bilirdi ki, İslam peyğəmbəri iki qibləyə doğru namaz qılır. Əgər həzrət Peyğəmbər (s) belə etməsəydi, onlar irad tutardılar ki, əvvəlki səmavi kitablarda zikr olunmuş xüsusiyyətlər İslam peyğəmbərində yoxdur. Ya da müsəlmanlara istehza edərdilər ki, onların müstəqil qibləsi yoxdur və yəhudilərin qibləsinə üz tuturlar.

Əlbəttə, bu irad təkcə yəhudilər tərəfindən irəli sürülmürdü. Müşriklər də onların yolunu davam etdirib deyirdilər: Əgər Məhəmməd İbrahim ayinlərinə diqqətlidirsə, nə üçün İbrahimin tikdiyi evə üz tutmur? Münafiqlər də öz növbəsində sakit dayanmayıb qiblənin dəyişmə məsələsində xırdaçılığa varır və deyirdilər: Peyğəmbərdə sabit rəy yoxdur. Hər halda, Allah təkid və təkrarla müsəlmanları hansısa mövzunun qəbuluna və sabitqədəmliyə hazırlayırdı. Xatırladılırdı ki, dəlil axtaranlar sizdə nöqsan tapmayacaq. Amma haqgizlədən zalımlar öz bəhanələrindən əl çəkməyəcəklər. Siz onlara etina etməməli, onlardan qorxmamalı, yalnız Allahdan qorxmalısınız.

◘Qiblə tövhid nişanəsi və tövhidin izharıdır. Qiblə müsəlmanlığın simvoludur. “Nəhcül-bəlağə”də Kəbə bayraq, yəni İslamın aşkar nişanəsi kimi yad edilir. Bütpərəstlər və ulduzpərəstlər dua zamanı üzlərini bütə, ulduza və aya tuturdular. Amma İslam bütün bunların yerində Allah evini qərar verdi. Qibləyə üz tutmaq diqqətin Allaha yönəldilməsi nişanəsidir.

Rəvayətdə oxuyuruq: Peyğəmbər (s) adətən üzüqibləyə otururardı. Tövsiyə etmişlər ki, üzüqibləyə yatın, üzüqibləyə oturun. Hətta üzüqibləyə oturmaq ibadət sayılmışdır. Qiblənin xüsusi yeri və hörməti vardır. Bəzi əməllər zamanı ona diqqət vacibdir. Məsələn, vacib namazlar üzüqibləyə qılınmalıdır. Heyvanın kəsilməsi, meyitin dəfni üzüqibləyə yerinə yetirilməlidir. Ayaqyolunda üzüqibləyə və ya arxası qibləyə oturmaq haramdır.

Deyilənlərdən əlavə, qiblə müsəlmanların vəhdət və birlik amilidir. Əgər yuxarıdan yer kürəsinə, müsəlmanlara nəzər salsaq, görərik ki, onlar gündə beş dəfə xüsusi nəzm-nizamla üzüqibləyə dayanırlar. Kəbə ilahi hərəkatların və inqilabların qərargahı və hazırlıq məkanıdır. Həzrət İbrahim, həzrət Məhəmməddən (s) başlamış iman Hüseyn (ə), gələcəkdə isə həzrət Mehdiyədək (ə) bütün ilahi insanlar öz hərəkatlarına Kəbə ətrafından başlamışlar (və başlayacaqlar). Kəbənin əzəməti haqqında təkcə bunu demək yetər ki, müsəlmanlar “qiblə əhli” adlandırılırlar.

◘Allah-təala qiblənin dəyişmə əhvalatı haqqında buyurur: “Qiblənin dəyişməsi onun üçündür ki, gələcəkdə Öz nemətimi sizin üçün tamamlayam. Yəni sizin istiqlalınız və Kəbəyə diqqətiniz gələcəkdə nemətlərin tamamlanması zəminəsidir.”

Bu əhvalat hicri 2-ci ildə Mədinədə baş verdi. Hicri 8-ci ildə də Allah Məkkənin fəthi münasibəti ilə nemətlərin tamamlanması məsələsinə işarə etdi.[1] Yəni bu qələbənin səbəbi odur ki, Allah gələcəkdə sizə olan nemətlərini tamamlasın. Əgər diqqət yetirsəniz, görərsiniz ki, hər iki ayədə nemətlərin tamamlanması “müzare” (gələcək zaman) formada bəyan olunmuşdur. Bu isə hadisələrin gələcəkdə baş verəcəyini göstərir. Amma hicri 10-cu ildə hiccətül-vidadan qayıdarkən “Maidə” surəsinin Ğədire-Xumda nazil olmuş üçüncü ayəsində belə buyurulur: “Bu gün Öz nemətimi sizin üçün tamamladım.” Bundan qabaq isə məsum rəhbər tanıtdırılmışdı.

Maraqlıdır ki, Allah xalqın qibləyə üz tutmasını nemətlərin tamamlanmasında birinci, Məkkənin fəthini isə növbəti addım kimi tanıtdırır. İlahi rəhbərin təyini və tanıtdırılması isə nemətlərin tamamlanmasında son addımdır. Xatırlatmaq lazımdır ki, qiblənin dəyişməsində, eləcə də rəhbərin təyinində “onlardan qorxmayın, Məndən qorxun” buyurulur. Çünki hər iki halda qarşı tərəfin müqaviməti, bəhanəçiliyi, şayiəbazlığı gözlənilir.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Ey Əli! Xalqa öz cəhətini itirməməsi üçün nişanə və bayraq olaraq qərar verilmiş Kəbə necədirsə, sən də ümmət arasında eləsən!”[2] Digər bir hədisdə isə İmam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur: “Biz ilahi Kəbə və qibləyik.”[3]

## *Bildirişlər*

1. Müsəlmanlar düşmən üçün bəhanə olacaq işlərdən çəkinməlidirlər.
2. Başqalarının hakimiyyətinə etiraz və azadlığın əldə olunması bir dəyərdir.
3. Qiblənin dəyişməsi kitab əhlinin, müşriklərin və münafiqlərin yersiz irad və bəhanələrini aradan qaldırdı.
4. Müsəlmanlar üçün ən böyük təhlükə xarici düşmənlər yox, təqvasızlıqdır.
5. Müsəlmanlar üçün xüsusi qiblənin təyini onlara olan nemətlərin tamamlanması zəminəsidir.
6. Qiblənin təyini və Məscidül-Hərama doğru namaz qılınması möminlərin hidayət zəminəsidir.
7. Hidayətin mərhələləri vardır. Ayədə hidayət olmuş müsəlmanlara müraciət edilsə də, məqsəd növbəti üstün mərhələlərə yol açmaqdır.

151. ﴿كَمَا أَرْسَلْنَا فِيكُمْ رَسُولاً مِّنكُمْ يَتْلُو عَلَيْكُمْ آيَاتِنَا وَيُزَكِّيكُمْ وَيُعَلِّمُكُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُعَلِّمُكُم مَّا لَمْ تَكُونُواْ تَعْلَمُونَ﴾

**“Eləcə (sizin hidayətiniz üçün) öz aranızdan bir peyğəmbər göndərdik ki, ayələrimizi sizə oxusun, sizi pak etsin, kitab və hikmət təlim etsin və bilmədiklərinizi sizə öyrətsin.”**

## *Nöqtələr*

◘“Tilavət” sözü "ardıcıl" mənasını verən kökdəndir. Ardıcıl, nizamlı, düzgün və münasib oxunuş "tilavət" adlanır. Bu növ oxunuşda bir növ müqəddəslik var. “Təzkiyə” inkişaf, paklama mənasındadır. Kitab təlimi ayələri və səmavi hökmləri öyrənməkdir. Hikmət təlimi isə düzgün təfəkkür və baxış öyrədilməsidir.

[1] “Fəth”, 2.
[2] “Bihar”, c. 22, s. 483.
[3] “Bihar”, c. 6, s. 211-303.

◘İslam peyğəmbərinin besəti həzrət İbrahimin duasının qəbul olma nəticəsidir. O, Allahdan istədi: Pərvərdigara! Onların arasında bir peyğəmbər məbus et ki, Sənin ayələrini onlara oxusun!"[1] İslam peyğəmbəri buyurmuşdur: "Mən atam İbrahimin duasının qəbuluyam."

## *Bildirişlər*

1. Xalqın özündən olan, onların arasında fəaliyyət göstərən və onların dilində danışan rəhbər müvəffəqdir.
2. Təzkiyə (paklama) təlimdən irəlidir.
3. Dini təlim əsasdır. Digər təlimlər ondan sonra gəlir.
4. İnsan bir çox həqiqətlərlə tanış olmaq üçün vəhyə ehtiyaclıdır. Ayədəki təbirlərdən məlum olur ki, əgər peyğəmbərlər olmasaydı, insan gələcəklə bağlı bir çox məsələlərdən xəbərsiz qalardı.

152. ﴿فَاذْكُرُونِي أَذْكُرْكُمْ وَاشْكُرُواْ لِي وَلاَ تَكْفُرُونِ﴾

**"Məni yada salın ki, sizi yada salım. Mənim üçün şükür edin və küfrə yol verməyin."**

## *Nöqtələr*

◘Allah bəzi ayələrdə buyurur: "Nemətlərimi yad edin."[2] Bu ayədə isə "Məni zikr edin" buyurulmuşdur. Bunun səbəbi insanların mərifət və tanışlıq dərəcələridir. Allahın zikri şükür üçün zəmindir və ona görə də ilahi zikr şükürdən öndə gəlir. Bu ayə Allahın Öz bəndəsinə olan sonsuz lütfündən danışır. Cəhalət, fəqirlik, fəna kimi xüsusiyyətlərə malik olan insan elə bir lütfə çatmışdır ki, qəni, əbədi, əziz olan Allah ona belə buyurur: "Məni yad et ki, səni yad edim." Məgər bizim Onu yada salmağımızın nə dəyəri var? Məgər Onu yada salmağımız özü bizə olan tövfiq deyilmi?

◘Allah təkcə dillə yada salınmır. Allahı ürəkdən, qəlbdən yad etmək lazımdır. Gerçək yada salma, zikr odur ki, bu halda günaha yol verilməyə və günahdan əl götürülə. Allah zikrinin ən üstün növü isə namazdır.[3]

◘Şükür özü də Allah zikrinin nümunələrindəndir. Amma onun zikrlə yanaşı adının ayrıca çəkilməsi diqqəti cəlb edir və bu, şükrün əhəmiyyətindən danışır.

◘Allah insanla müamilə edir və insanın heç bir işi qiymətləndirilməmiş qalmır. [4]

◘İmam Baqir (ə) bu ayə haqqında danışarkən bildirir ki, Allah zikrinin növlərindən biri həzrət Zəhranın (s) təsbihatıdır. Bu təsbihat otuz dörd dəfə "Allahu əkbər", otuz üç dəfə "Əlhəmdulillah", otuz üç dəfə "Sübhənallah" deyilməsindən ibarətdir.[5]

◘**İlahi zikrin maneələri:**

a) Şeytan; Bu barədə Quranda buyurulur: "Şeytan onları Allah zikrindən ayırdı."[6]

b) Çoxluq tələbi və rəqabətlər ; Quranda oxuyuruq: "Çoxluq tələbi sizin başınızı qatdı."[7]

v) Arzu və xəyallar; Quranda buyurulur: "Arzu onların başını qatdı."[8]

◘**Allah zikrinin təsirləri:** İlahi nemətlərin yada salınması Allaha mərifət və şükür rəmzidir; Onun sonsuz qüdrətinin xatırlanması Ona təvəkkül rəmzidir; Onun elm və agahlığının zikri bizim həya və təqva rəmzimizdir; Onun lütflərinin xatırlanması Ona məhəbbət rəmzidir; Onun

---

[1] "Bəqərə", 129.
[2] "Bəqərə", 40.
[3] "Taha", 14.
[4] "Bəqərə", 40; "Mücadilə", 11.
[5] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 140.
[6] "Mücadələ", 19.
[7] "Təkasur", 1.
[8] "Hicr", 3.

ədalətinin yada salınması Ondan qorxu rəmzidir; Onun yardımlarının xatırlanması Ona ümid rəmzidir.

## *Bildirişlər*

1. Allah insana şəxsiyyət əta edir və onun məqamını uca bir məqama qaldıraraq buyurur: "Sən məni xatırla, Mən də səni xatırlayım.

2. Allahın lütfü daim onu zikr edənlərə şamildir.

3. Allah və Onun nemətlərinin zikri şükür və təşəkkür zəminəsidir. Necə ki, Allah zikrindən uzaqlıq küfr mayasıdır.

153. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلاَةِ إِنَّ اللّهَ مَعَ الصَّابِرِينَ﴾

**"Ey iman gətirənlər! (Həyatın çətin hadisələri qarşısında) səbir və namazdan kömək alın. Həqiqətən, Allah səbirlilərlədir.**

## *Nöqtələr*

◘Bu ilahi kəlamın oxşarını bu surənin qırx beşinci ayəsində oxuduq. Allah Bəni-İsrailə buyurdu: "Çətinliklər qarşısında səbr və namazdan kömək alın." Bu ayədə isə müsəlmanlara göstəriş verilir ki, həyatın çətinlikləri qarşısında səbir və namazdan kömək alın. Bəli, eyni dərdlərin dərmanı da eynidir.

Ümumiyyətlə, məhdud insan saysız problemlərin ağuşunda qeyri-məhdud ilahi qüvvədən yardım almasa, məhv olub gedir. Allaha bağlı insan keşməkeşlər qoynunda özünü itirmir. Çətinliklər ona böyük görünmür. Namazı qəlbin iştirakı və diqqətlə qılan kəs meraca gedir. Mənəvi pərvaz yüksək olduqca dünya çətinlikləri, eləcə də dünya ləzzətləri kiçik görünür.

◘İnsan nemətə qərq olduqda və çətinliyə düşdükdə uyğun ayənin göstərişlərinə əməl etməlidir.

◘Allah buyurmur ki, O, namaz qılanlarladır. Buyurur ki, O, səbirlilərlədir. Ona görə də elə namazın özü səbir və sabitliyə ehtiyaclıdır.[1]

◘Rəvayətdə oxuyuruq ki, Həzrət Əlinin (ə) qarşısına çətinlik çıxdıqda, o, iki rəkət namaz qılardı.[2] Bu üsula Əbu Əli Sina da əməl etmişdir.

◘Səbir bütün kamilliklərin anasıdır. Döyüşdə şücaət mayası səbirdir. Günah qarşısında səbir təqva vasitəsidir. Dünya qarşısında səbir zöhd nişanəsidir. Şəhvət zamanı səbir iffət səbəbidir. İbadətdəki səbir itaət, şübhələr zamanı səbir təqva mayasıdır.[3]

## *Bildirişlər*

1. İman əməl, təvəkkül, səbir və ibadətlə müşayiət olunarsa, faydası daha artıq olar. [4]

2. Namaz lingdir, yük deyildir.

3. Səbir və namaz ilahi himayələrin cazibə vasitəsidir.

4. Allah hər yerdə, hər kəslə olsa da,[5] Onun səbirlilərlə yaxınlığının xüsusi mənası var. Bu yaxınlıq Allahın səbirlilərə məhəbbət və yardım lütfüdür.

154. ﴿وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ﴾

---

[1] "Təfsiri-Ruhul-Məani".
[2] "Təfsiri-safi", c. 1, s. 111.
[3] "Təfsiri-Ətyabul-bəyan", c. 2, s. 258.
[4] "Təfsiri-Rahnüma".
[5] "Hədid", 4.

**“Allah yolunda öldürülənlərə ölü deməyin. Əksinə onlar diridirlər, amma siz anlamırsınız.”**

## *Nöqtələr*

◘Bədr döyüşündə müsəlmanlardan on dörd nəfəri şəhadətə çatdı. Onlardan altısı mühacirlərdən, səkkizi ənsardan idi. Adamların bəzisi “filankəs öldü” deyirdi. Bu ayə nazil oldu və onlara bu cür danışmağı qadağan etdi.[1] Şəhidlərin nəinki adları və əməlləri diridir, onlar hətta bərzəxdə gerçək bir həyat yaşayırlar. Elə bir həyat ki, həmin həyatda ruzi, şadlıq və müjdə var. Allahın mərhəməti civarındakı bu həyatda qəm-qüssə və qorxu yoxdur. Bu həyatın xüsusiyyətləri haqqında “Ali-İmran” surəsində danışılacaqdır, inşallah!

◘Düşmənlə döyüş meydanındakı ölüm, onun terror vasitəsi ilə ölümü, istənilən bir məkan və zamanda can, namus və malın müdafiəsi zamanı möminlərin ölümü Allah yolunda şəhadətdir.

## *Bildirişlər*

1.Məhdud dünya baxışlarını Allaha iman və Onun buyuruqları vasitəsi ilə kamilləşdirib islah etməliyik.

2. Çətin vəzifə etiqadi köməyə və zərərlərin aradan qaldırılmasına ehtiyaclıdır. Bəli, diriliyini bilən insan şəhadətə üz tutur.

3. Şəhadət yalnız Allah yolunda olduqda dəyərlidir.

4. Din yolunda savaş Allah hüzurunda ən üstün dəyərlərdəndir.

5. Ölümdən sonra ruh diridir. Cisim çürüyüb getsə də, ruh yerindədir.

6. Bir çox təhlillərin səbəbi həqiqətdən xəbərsizlikdir.

155. ﴿وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ﴾

**“Sizi qorxu, aclıq, mala və cana zərər, məhsul qıtlığından bir şey ilə imtahan edərik. Səbirlilərə müjdə ver.”**

## *Nöqtələr*

◘Allah təala bütün insanları imtahana çəkir. Amma bütün sınaqlar eyni olmur. Bütün yer üzü sınaq meydanıdır və bütün insanlar - hətta peyğəmbərlər - imtahandadır. Bilməliyik ki, ilahi imtahanlar şübhələri aradan qaldırmaq üçün yox, istedadların çiçəklənməsi və insanların tərbiyəsi üçündür. Bütün acı və şirin hadisələr, o cümlədən, qorxu, aclıq, cana və mala zərər, məhsul qıtlığı ilahi sınaq vasitələrindəndir. Düşməndən qorxu, iqtisadi mühasirə, savaş və cihad, övladların və əzizlərin cəbhəyə göndərilməsi imtahan nümunələrindəndir.

◘Düşməndən qorxu sınağından qalib çıxmaq üçün Allaha təvəkkül və Onun zikrinə ehtiyac var. Çətinliklərlə mübarizə səbrə ehtiyaclıdır. Əvvəlki iki ayədə bu yol göstərilmişdir.

◘Bütün insanların təkbətək sınaqlardan keçirilməsi zəruri deyil. Mümkündür ki:

a) Hərə bir şeylə sınağa çəkilsin;

b) Bir sınaqdan üzüağ çıxan insan o biri sınaqda rüsvay olsun;

v) Bir şəxsin sınağı bir cəmiyyət üçün sınaq ola bilər.

◘Bəzən məhsul qıtlığı, mala zərər dəyməsi, qorxu yaranması və digər çətinliklər ilahi sınaqlar səbəbindən baş verir. Bəzən isə bu işlər insanların əməllərinə cəza olaraq müəyyənləşdirilir. Bəzən insanlara çətinlik yaradan onların günahları olur. Həzrət Əli (ə)

[1] “Təfsiri-bəyan”.

buyurur: “Həqiqətən, Allah Öz bəndələrini onların günahlarına görə məhsul qıtlığı, xeyir qapılarının bağlanması kimi çətinliklərə salır ki, bəlkə insanlar düşünüb tövbə edələr.”[1]

Əlbəttə ki, bu tənbehlər də sınaqdır. Necə ki, imana görə nemət verilməsi də sınaq vasitəsi olur. Quranda oxuyuruq: “Onları sınağa çəkmək üçün şirin (dadlı) su içirdik.”[2]

**◘Allah səbirlilərə bir sıra lütflər etmişdir:**

Məhəbbət[3];

qələbə[4]; behişt[5]; saysız-hesabsız mükafat[6]; müjdə[7].

◘İlahi sınaqdan çıxmağın bir neçə yolu var:

a) Səbir və müqavimət;

b) Hadisələrin və çətinliklərin ötəri olmasına diqqət;

v) Keçmişdəki insanların müşkülləri necə adlamasına diqqət.

İmam Hüseyn (ə), qucağındakı körpə övladı oxa tuş gəlib şəhid olduqda, buyurdu: “Bu çətin hadisəni Allah gördüyü üçün mənə asandır.”[8]

## *Bildirişlər*

1. Sınaq və imtahan qəti ilahi proqram və qaydadır.
2. Çətinliklər müqavimət və inkişaf səbəbidir. Səbir, riza, təslim, qənaət, zöhd, təqva, helm, fədakarlıq kimi sifətlər çətinliklərlə üzləşmə sayəsindədir.
3. Ayədə nəyin müjdə verildiyi bəyan olunmamışdır. Ona görə də bu müjdə bütün ilahi müjdələri əks etdirir.

156. ﴾الَّذِينَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ قَالُواْ إِنَّا لِلّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعونَ﴿

**“(Səbirlilər) o kəslərdir ki, onlara bir müsibət üz verdikdə deyirlər: “Biz hamımız Allahınıq və Ona doğru qayıdarıq.”**

## *Nöqtələr*

◘Səbirlilər özlərini satmaq və başqalarına sığınmaq əvəzində yalnız Allaha pənah aparırlar. Onların nəzərincə, bütün dünya dərs sinifi, sınaq meydanıdır və burada inkişaf etməliyik. Dünya dayanacaq, yuxu, işrət yeri deyil. Çətinlikləri Allahın qəzəbi kimi qəbul etmək olmaz. Çətinliklərin səbəbi odur ki, daha sürətli hərəkət etmək üçün ayağımızın altı yansın. Bu baxımdan acılıqlarda da bir şirinlik var. Çünki bu çətinliklərin ardınca istedadların çiçəklənməsi və ilahi mükafatlardan bəhrələnmə gəlir.

◘Onun tərəfindən olan müsibətlər həqiqi malikin öz mülkü üzərindəki işdir. Allahın həkim və rəhim olduğunu, öz bəndəliyini, əvvəllər bir şey olmadığını, hətta müəyyən mərhələlərdən sonra da zikrə ləyaqətsizliyini anlayan insan[9] qəbul edər ki, Allahın ixtiyarında olsun. Bu həqiqətləri bilən insan xatırlayır ki, Allah onu cansız cisimdən bitkiyə, bitkidən heyvana, heyvaniyyətdən insaniyyətə sövq etdirmiş, uyğun çətinlikləri onun inkişafı üçün qərarlaşdırmışdır. Biz buğda dənəsini əzməklə una çevirdiyimiz, yandırmaqla çörəyə döndərdiyimiz kimi, çətinliklər də insanı kamal mərtəbəsinə ucaldır.

---

[1] “Nəhcül-bəlağə”, xütbə. 143.
[2] “Cinn”, 16.
[3] “Ali-İmran”, 146.
[4] “Bəqərə”, 153.
[5] “Furqan”, 75.
[6] “Zümər”, 10.
[7] “Bəqərə”, 155.
[8] “Bihar”, c. 45, s. 46.
[9] “Məryəm”, 67; “İnsan”, 1.

◘Səbirlilərin şüarı “inna lillahi və inna iləyhi raciun” şüarıdır. Hədislərdə də tövsiyə olunur ki, çətinlik zamanı bu cümləni oxuyaq.[1] Çətinliklər zamanı bu cümləni demək və Allahı xatırlamaq bir sıra təsirlərə malikdir; insanı küframiz və şikayətli sözlərdən uzaqlaşdırır; insan üçün təsəlli və həmdərdlikdir; şeytani vəsvəsələrə mane olur; haqq əqidənin izharıdır; başqaları üçün dərs və nümunədir.

**◘Qarşıya çıxan müsibətə münasibətdə insanlar bir neçə qismə bölünür:**

a) Kimi haray-həşir qoparır[2];

b) Kimi səbirli, dözümlüdür[3];

a) Kimi də səbirli olmaqdan əlavə şükür edəndir.[4]

Bu sayaq rəftarlar insanın müsibətlərdən agahlıq dərəcəsinin nişanələridir. Necə ki, istiotu körpə uşaq yeyə bilmir, gənc adam onun acısına dözür, yaşlılar isə pul verib onu alır.

## *Bildirişlər*

1.Səbrin kökü Allaha və axirətə iman, eləcə də əvəz veriləcəyinə ümiddir.

157. ﴿أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِّن رَّبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ﴾

**“Onlar üçün onların Rəbbi tərəfindən salam və rəhmətlər var və onlardır hidayət yetişənlər.”**

## *Nöqtələr*

◘“Salavat” sözü nemət və mərhəmətə daxil olmaq mənası verən kökdəndir.[5]

◘Allah çətinlikləri səbir və müqavimətlə qarşılayan möminlərə Öü salam göndərir. Amma rifah içində yaşayıb zəkat ödəyən möminlərə peyğəmbərin salam göndərməsini göstəriş verir.[6]

## *Bildirişlər*

1.Allah səbir əhlini Öz xüsusi rəhmətinə qərq edir.

2. Səbirlilərin Allah tərəfindən təşviq olunması bizə öyrədir ki, isar, səbir və mücahidə əhlinin cəmiyyətdə xüsusi kəramət və ehtiramı olmalıdır.

3. Təşviq rübubiyyət şəni və tərbiyə zərurətidir.

4. Səbir əhlinin hidayət edilməsi qəti və aşkardır. Quranda bir çox insanların hidayəti sadəcə arzu olunsa da, səbir əhlinin hidayəti qəti bəyan olunur.

5. Hidayətin mərhələləri vardır. “İnna lillahi və inna iləyhi raciun” deyənlər mömin və hidayət edilmiş olsalar da, səbir və Allahın salamından sonra daha üstün mərhələlərə nail olurlar.

---

[1] “Dürrül-Mənsur”, c. 1, s. 377.

[2] “Məaric”, 20.

[3] “Bəqərə”, 155.

[4] “Ziyarəte-Aşura”.

[5] “Ğaşiyə”, 4.

[6] “Tövbə”, 103.

158. ﴿إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِن شَعَآئِرِ اللّهِ فَمَنْ حَجَّ الْبَيْتَ أَوِ اعْتَمَرَ فَلاَ جُنَاحَ عَلَيْهِ أَن يَطَّوَّفَ بِهِمَا وَمَن تَطَوَّعَ خَيْرًا فَإِنَّ اللّهَ شَاكِرٌ عَلِيمٌ﴾

**"Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir. Ona görə də Allah evinin həcc və ya ümrəsini yerinə yetirən kəs Səfa və Mərvə arasında təvaf edə bilər və bunun eybi yoxdur. (Vacib işlərdən əlavə) hər kəs könüllü olaraq xeyir bir iş görsə, həqiqətən, Allah təşəkkür edən və biləndir."**

## *Nöqtələr*

◘"Şəair" xüsusi əməllərin nişanələri mənasını daşıyan "şəirə" sözünün cəm formasıdır. Allahın ibadət üçün müəyyənləşdirdiyi əlamətlər "şəairəllah" adlandırılmışdır.[1]

◘Səfa və Mərvə Məscidül-Həramın kənarındakı iki dağın adıdır. Bu dağlar arasında təqribən 428 metr məsafə vardır. Onlar üzbəüz yerləşmişdir və hazırda örtülü xiyaban şəklindədir. Allah evinin ziyarətçiləri üçün bu iki dağ arasında yeddi dəfə hərəkət etmək vacibdir. Bu iş həzrət İbrahimin fədakar zövcəsi Hacərin xatirəsinin yad edilməsidir. Hacər öz körpəsi İsmail üçün su əldə etmək məqsədi ilə bu iki dağın arasında yeddi dəfə iztirab və nigarançılıqla hərəkət etmişdir. İmam Sadiq (ə) buyurmuşdur: "Yer üzündə bu iki dağ arasındakı məkandan üstün yer yoxdur. Çünki istənilən bir təkəbbürlü şəxs həmin məkanda başı-ayağı açıq, kəfənə bürünmüş şəkildə, heç bir imtiyaza və əlamətə malik olmadan hərəkət edir. Bəzən qaçır, bəzən isə yeriyir. Bu xatirələrdən əlavə Səfa dağı İslam peyğəmbərinin dəvətini, Məkkə kafirlərinin tövhidə necə dəvət olunduğunu və onların bundan necə imtina etdiyini yada salır.[2]

◘Cahiliyyət dövründə müşriklər Səfa dağının başına Usaf, Mərvə dağının başına isə Nailə adlı bütlər bərkitmişdilər. Dağlar arasında səy (qaçış) zamanı bu iki bütə təbərrük olaraq toxunardılar. Bütpərəstlərin bu hərəkəti səbəbindən müsəlmanlar Səfa və Mərvə arasında səydən ikrah duyur və düşünürdülər ki, vaxtı ilə bu dağların üzərində bütlərin qoyulması bu günkü səy üçün bir maneədir. Yuxarıdakı ayə nazil oldu və bəyan edildi ki, Səfa və Mərvə ilahi nişanələrdir. Nadan insanların bu iki dağa hörmətsizliyi onlardan kənarlaşmaq üçün əsas ola bilməz.[3]

◘Bəzən həcc və ümrə azan və iqamə kimi yanaşı xatırlanır. Bəzən ümrə əməlləri ayrıca yerinə yetirilir. Ümrədə beş əməl vacibdir: Ehram, təvaf, təvaf namazı, Səfa və Mərvə arasında səy, saçı və ya dırnağı qısaltmaq. Həccin bundan başqa da əməlləri vardır ki, məqamı çatanda həmin əməllərə nəzər salacağıq. Hər halda Səfa və Mərvə arasında səy həm ümrəyə, həm də həccə aiddir.

◘Səfa və Mərvənin müşahidəsi tarix səhnəsində iştirakdır. Bu müşahidə vasitəsi ilə təsəvvürün yerini təsdiq, zehniyyətin yerini eyniyyət tutur. Səfa və Mərvədə ilahi məktəb fəaliyyətdədir. Bu məktəbdə Allahın iradəsi çeşidli fərqlərə malik insanları eyni bir libasda, eyni bir cəhətdə toplayır. Bu bir peyğəmbərşünaslıq məktəbidir. Bu məktəb öyrədir ki, həzrət İbrahim - bu ilahi peyğəmbər ilahi göstərişi yerinə yetirmək üçün öz zövcəsi və övladını susuz səhrada necə tənha qoydu. Burada həm də insanşünaslıq dərsi öyrədilir. Öyrədilir ki, insan bir neçə anda əbədi əsərləri qalacaq əməllər yerinə yetirə bilər. Səfa və Mərvə arasındakı səy öyrədir ki, hamı birlikdə hərəkət etsə, cəmiyyətdə ilahi ruh təcəlla edər. Səfa və Mərvə arasında səy öyrədir ki, təkəbbürü bir kənara qoyub başqaları ilə çiyin-çiyinə hərəkət etmək lazımdır. Bu dərslərdən aydın olur ki, Allah adını canlandırmaq yolunda qadın və uşağın da payı vardır.

◘Əvvəlki ayələrdə bəla və sınaqdan danışıldı. Bu ayədə isə Hacər, onun övladı, bu uşağın atası və digər müsəlmanların sınağından söhbət açılır. İlahi və ixlaslı işin əsəri o qədər yüksəlir ki, bütün peyğəmbər və övliyalar İbrahimin zövcəsi Hacərə təqlid etməli olurlar. İstisnasız

---

[1] "Təfsiri-Məcməül-bəyan".
[2] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 145.
[3] "Təfsiri-Tibyan", c. 1, s. 44.

olaraq bütün müsəlmanlar kəfənə bürünərək Hacər tək tövşüyə-tövşüyə həmin məsafəni yeddi dəfə qət edirlər. Allahın bu göstərişi onun Hacərə təşəkkürüdür.

◘Səfa və Mərvə arasında səy vacib olsa da, “eybi yoxdur” ifadəsi ilə bu yerin bir zaman müşriklərin əlində olmasından yaranan nigarançılıqlar aradan qaldırılır.

◘Təvaf dairəvi hərəkət deyil. Eyni bir nöqtədən başlayaraq yenidən həmin yerə qayıdışa təvaf deyilir. Bu hərəkət həm dairəvi, həm də düzxətli ola bilər. Ona görə Kəbə ətrafındakı dairəvi hərəkət də təvaf adlanır,[1] Səfa və Mərvə arasındakı düzxətli hərəkət də.

## *Bildirişlər*

1. Allahın bəzi məkan və zamanlara xüsusi diqqəti onların ilahi nişanə sayılmasına səbəb olur.
2. İnsanın niyyəti işlərə dəyər verir. Müşriklər bütlərə toxunmaq üçün səy etdikləri halda, müsəlmanlar Allah razılığı üçün bu işi görürlər. İslamda buyurulur: “Allahın razılığı üçün səy edin.”
3. Əgər haqq mərkəzləri hansısa qruplar tərəfindən xürafatla bulaşdırılarsa, həmin mərkəzdən əl götürmək yox, orada iştirakla uyğun çirkabı aradan qaldırmaq lazımdır. Müəyyən yollarla azğın qrupların əli həmin mərkəzlərdən qoparılmalıdır.
4. İbadət aşiqanə və könüllü olmalıdır.
5. Allah Öz bəndələrinin ibadəti müqabilində təşəkkür edir. Bu təbir Allahın Öz bəndələrinə ən böyük lütfüdür.

159. ﴿إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ
يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ﴾

**“O kəslər ki, Kitabda xalqa bəyanla nazil etdiyimiz aşkar dəlil və hidayət vasitələrini gizləyirlər, Allah onlara lənət edər və bütün lənət edənlər onlara lənət oxuyar”.**

## *Nöqtələr*

◘Hazırkı ayə yəhudi və məsihi alimlərini nəzərdə tutsa da, “gizlədirlər” təbirinin işləndiyi zaman bu işin bütün ört-basdır edənlərə aid olduğunu göstərir. Necə ki, Allahın neməti də əbədi davam edəcək.

◘Haqqı gizlətməyin də müxtəlif formaları ola bilər. Haqq bəzən susmaqla, həqiqətin bəyan edilməməsi ilə, bəzən də yanlış yozum və xalqın başını başqa işlərə qatmaqla pərdələnir. Başı qatılmış xalq isə əsil məsələlərdən xəbərsiz qalır. Bəzən isə möminlər və din qardaşlarının eyblərini gizləmək vacib və ya müstəhəb olur.

◘Gizlətmə günahı çox vaxt alimlərə aid olur. “Ali-İmran” surəsinin 187-ci ayəsində buyurulur ki, Allah həqiqətin xalqa bəyan olunması haqqında kitab əhlindən əhd almışdır. Rəvayətdə isə belə bildirilir ki, qiyamət günü haqqı gizlədənlərin ağzına cilov taxılacaq.

## *Bildirişlər*

1. Etiqadi zülm ən pis zülmdür. Belə bir zülm Allahın və Onun yaratdıqlarının lənətinə gəlir.
2. İstər möcüzə və dəlil olsun, istərsə də tövsiyə və nəsihət, haqqı gizlətmək qadağandır. [2]
3. Haqqı gizlətmək ən böyük günahdır. Çünki belə bir günah xalqın doğru yolu tapmasına, gələcək nəsillərin azğınlıqdan qorunmasına mane olur.

---

[1] “Həcc”, 29.
[2] “Təfsiri-Əl-mizan”.

4. Haqqın gizlədilməsi Allahın dininə və xalqın hidayət haqqına zülmdür. Ona görə də haqqı gizlədənlərə Allah və insanlar lənət oxuyur.

5. Xalqın nifrin və lənəti çox təsirlidir. Xalqın bu nifrətindən pis işlərin qarşısının alınması üçün istifadə edilməlidir.

160. ﴿إِلاَّ الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ وَبَيَّنُواْ فَأُوْلَئِكَ أَتُوبُ عَلَيْهِمْ وَأَنَا التَّوَّابُ الرَّحِيمُ﴾

**“İstisnadır o kəslər ki, tövbə etdilər, saleh iş gördülər, (gizlədiklərini) aşkara çıxardılar. Mən (Öz lütfümü) onlara qaytararam. Çünki Mən tövbələri qəbul edən, mehribanam.”**

## *Nöqtələr*

◘Digər günahlar üçün tövbə qapısı açıq olduğu kimi, gizlətmə günahı üçün də tövbə yolu var. Amma həqiqi tövbə qəlbdə peşmanlıq, əməllərin islahı, gizlədilənlərin bəyanı ilə gerçəkləşir. Namaz qılmayanın tövbəsi ötürülmüş namazların qəzasının qılınmasıdır. Xalqın malını qarət edənin tövbəsi qarət olunmuş malın sahibinə qaytarılmasıdır. Burada da həqiqəti gizlətməklə elm dünyasına, düşüncə və nəsillərə xəyanət etmiş kəs yalnız həmin həqiqətləri açmaqla günahını yuya bilər.

◘Allah şeytana buyurdu: “Mənim lənətimə gələsən.”[1] Növbəti ayədə isə haqqı gizlədənlərə lənət oxunur. Deməli, haqqı gizlədənlər də şeytanla bir cərgədə dayanır.

## *Bildirişlər*

1.Allah xatakarlar üçün bütün şəraitlərdə tövbə və geri qayıdış yolu qoymuşdur.

2. Dini həqiqətlərin gizlədilməsi fəsaddır. Ona görə də tövbə edənə islah və nöqsanların aradan qaldırılması əmri verilmişdir.

3. Hər bir günahın tövbəsi onun özünə uyğundur. Haqqı gizlətməyin tövbəsi həqiqətin bəyanıdır.

4. Hədə və məzəmmət məqamında haqqı gizlədənlər lənətlənirsə, mehribanlıq məqamında “ənə”, “təvvab”, “rəhim” kimi sözlərlə əks münasibət bildirilir. Allah bildirir ki, O Öz xüsusi mehribanlığı ilə bağışlanma yolu qoymuşdur.

5. Fərd və cəmiyyətin tərbiyəsində günahkarın hədələnməsi və saleh əməl sahibinin müjdələnməsi iki mühüm əsasdır.

6. İlahi lütfün tövbə edənlərə şamil olunması daimi, qəti, və məhəbbətamizdir.

161. ﴿إِنَّ الَّذِينَ كَفَرُوا وَمَاتُوا وَهُمْ كُفَّارٌ أُولَئِكَ عَلَيْهِمْ لَعْنَةُ اللّهِ وَالْمَلآئِكَةِ وَالنَّاسِ أَجْمَعِينَ﴾

**“Şübhəsiz, kafir olub küfr halında dünyadan gedənlər Allahın, mələklərin, xalqın hamısının lənətinə gələcəkdir.”**

162. ﴿خَالِدِينَ فِيهَا لاَ يُخَفَّفُ عَنْهُمُ الْعَذَابُ وَلاَ هُمْ يُنظَرُونَ﴾

**“(Onlar) həmişəlik onda (lənətdə) qalarlar. Nə onların əzabından azalar, nə də onlara möhlət verilər.”**

[1] “Sad”, 78.

## *Nöqtələr*

◘Əvvəlki ayədə bəyan olundu ki, haqqı gizlədənlər tövbə edib həqiqəti bəyan etsələr, Allahın lütfünə nail olarlar. Ayədə buyurulur ki, kafirlər tövbə etməyib küfr halında ölsələr, Allahın, mələklərin və bütün xalqın lənəti onların yaxasından yapışasıdır.

**Sual:** Ayədə bütün xalqın kafirlərə lənəti bəyan olunur. Aydın məsələdir ki, xalq arasında bəziləri ya kafirdir, ya da kafirlə dost. Bəs bütün xalqın lənəti dedikdə nə nəzərdə tutulur?

**Cavab:** Söhbət dünya və axirətdə lənətdən gedir. Dünyada kafir olub kafirlərlə dostluq edənlər axirətdə lənətə düçar olasıdır.[1]

◘İlahi övliyaların istəklərindən və dualarından biri dünyadan müsəlman getməkdir. Belə bir istəklə Yusif öz Allahına müraciət edir.[2] Həzrət İbrahim və Yaqub öz övladlarına tapşırırlar ki, yalnız müsəlman, Allaha təslim olmuş halda ölsünlər.[3]

## *Bildirişlər*

1. Küfrdə dayanmaq və ya küfr halında ölmək Allahın rəhmətindən əbədi məhrumluqla müşayiət olunur.
2. Ən əsası insan ömrünün sonudur. Mühüm odur ki, insan dünyadan imanlamı gedəcək, yoxsa imansız?
3. Cəzanın yüngülləşdirilməsi və ya təxirə salınması dünyaya aiddir. Qiyamətdə nə yüngülləşdirmə var, nə də təxir.

163. ﴿وَإِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ لاَّ إِلَهَ إِلاَّ هُوَ الرَّحْمَنُ الرَّحِيمُ﴾

**“Sizin məbudunuz yeganə Allahdır. Ondan başqa məbud yoxdur. O, rəhman və rəhimdir.”**

164. ﴿إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ وَالْفُلْكِ الَّتِي تَجْرِي فِي الْبَحْرِ بِمَا يَنفَعُ النَّاسَ وَمَا أَنزَلَ اللّهُ مِنَ السَّمَاء مِن مَّاء فَأَحْيَا بِهِ الأرْضَ بَعْدَ مَوْتِهَا وَبَثَّ فِيهَا مِن كُلِّ دَآبَّةٍ وَتَصْرِيفِ الرِّيَاحِ وَالسَّحَابِ الْمُسَخِّرِ بَيْنَ السَّمَاء وَالأَرْضِ لآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**“Həqiqətən, göylərin və yerin yaranışında, gecə və gündüzün ardbaard gəlməsində, xalqa xeyir yetirmək üçün dəryada hərəkət edən gəmilərdə, Allahın göydən nazil edib onun vasitəsi ilə ölü torpağı diriltməsində, müxtəlif canlıları onda yaymasında, küləklərin yolunun dəyişməsində, göy və yer arasında bağlı buludlarda düşünən insanlar üçün nişanələr var.”**

## *Nöqtələr*

◘Təbiət ünsürləri arasındakı bağlılıq, bu aləmə hakim olan qanunlar yeganə Allahın hakimiyyət, qüdrət və iradəsindən danışır. Yalnız bir hissəsinə bəşəriyyətin əli çatmış səmaların yaranışı və onun daimi genişlənməsi,[4]

---

[1] “Ə`raf”, 38.
[2] “Yusuf”, 101.
[3] “Bəqərə”, 132.
[4] “Zariat”, 47.

istehkam,[1] səmanın yeddi təbəqəsi,[2] hakim nizam,[3] mütənasiblik, onlar arasındakı əlaqə və sütunsuzluq[4], onların hifzi[5], ulduzların öz orbitində hərəkəti və hər birinin fasiləsi yeganə və həkim olan Allahın qüdrət nişanələridir.

◘Sədi Şirazi deyir:

*Yaranış, hər nə var haqqın tədbiri, ,Hara baxırsansa onun əsəri.*
*Bağlar da, çaylar da zikr edir Onu, Çətin ki, dərk edə bu sirri hamı.*
*Ağıl heyran qalır salxım şanıya, Yaqut nar giləsi sirdi hamıya.*
*Ayla günəş, həm də gecəylə gündüz Onun tədbiriylə dövrdə, sözsüz.*

◘“Riyah” sözü külək mənasını verən “rih” sözündəndir. Amma Quranda “rih” sözü qəhr və əzab sözü ilə yanaşı işlənmişdir.[6] “Riyah” sözü isə daim yağış və ilahi lütf sözləri ilə yanaşıdır. Hədisdə oxuyuruq: Nə vaxt külək əsirdisə, həzrət Peyğəmbər (s) buyururdu: “Pərvərdigara! Bu küləyi əzab “rihi” yox, rəhmət “riyahı” qərar ver.[7]

## *Bildirişlər*

1.Təbiəti tanımaq Allahı, Onun qüdrətini, hikmətini, birliyini tanımaq üçün allahşünaslıq yollarındandır.

2 Allahın oxşarı yoxdur və O, mürəkkəb tərkibə malik deyildir.

3. Həm təbiət, həm də insanın yaratdıqları ondandır.

4. Varlıq aləmindəki hər bir mövcud Allahın təbiətdəki ayələrindəndir.

*Aqilin gözündə yaşıl bir yarpaq, Böyük Yaradandan gətirmiş soraq.*

5. Yalnız aqillər varlıq aləminə baxmaqla allahşünaslıq dərsi öyrənirlər.

165. ﴿وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ وَلَوْ يَرَى الَّذِينَ ظَلَمُواْ إِذْ يَرَوْنَ الْعَذَابَ أَنَّ الْقُوَّةَ لِلّهِ جَمِيعاً وَأَنَّ اللّهَ شَدِيدُ الْعَذَابِ﴾

**“Xalq arasında bəziləri Allahdan qeyri məbudlar seçir və onları Allahı sevməli olduqları qədər sevirlər. Amma iman sahiblərinin Allaha olan eşqləri daha şiddətlidir. (Bütlərə pərəstiş etməklə) zülm edənlər Allahın əzabını müşahidə etdikləri vaxt biləcəklər ki, bütün güclər Allahın əlindədir və Onun əzabı şiddətlidir.”**

## *Nöqtələr*

◘İmam Baqir (ə) buyurmuşdur: “Bu ayədəki “dunillah” və “əndad” sözləri bütləri bildirmir. Bu iki söz xalqın Allah kimi sevdiyi sitəmkar və azğınlara işarədir.”[8] Ədəbi baxımdan “yuhibbunəhum” sözündəki “hum” hissəsi əşya yox, insanı bildirir.

[1] “Nəbə”, 12.
[2] “Mulk”.
[3] “Fussilət”, 12.
[4] “Rəd”, 2.
[5] “Ənbiya”, 32.
[6] “Haqqə”, 6.
[7] “Təfsiri-Sifvətut-Təfasir”, c. 1, s. 113.
[8] “Kafi”, c. 1, s. 374.

▫Kamal və camal sevgisi məhəbbətin kökündür. Möminlər bütün kamillik və gözəllikləri Allahdan görürlər. Ona görə də ən böyük eşqləri Ona ünvanlanmışdır. Möminlərin eşq və məhəbbəti məşuqun ləyaqətinə əsaslanır. Bu eşq heç vaxt soyumur, sönükmür. Müşriklərin eşqi isə xəyala, cəhalətə, təqlidə və boş istəklərə əsaslanır.

### Bildirişlər

1.Allahdan qeyrisinə pərəstiş və məhəbbət qadağandır.

2. Hisslər etiqadlarla bağlı olmalıdır.

3. Bəziləri nə qədər ki, pərdələr qaldırılmayıb və qiyaməti müşahidə etmirlər, öz yol və düşüncələrinin puçluğunu anlamırlar.

4. Ətrafı cəzb etməkdə qüdrət və güc təsirli amildir. Belədirsə, Allahdan qeyrisinə meyl etməyin.

166. ﴿إِذْ تَبَرَّأَ الَّذِينَ اتُّبِعُواْ مِنَ الَّذِينَ اتَّبَعُواْ وَرَأَوُاْ الْعَذَابَ وَتَقَطَّعَتْ بِهِمُ الأَسْبَابُ﴾

**“Əzab müşahidə edildiyi və aradakı bağlar qırıldığı vaxt (küfr) başçıları öz ardıcıllarından zara gələrlər.”**

### Nöqtələr

▫Diqqətli olaq ki, rəhbərimiz kimdir, qəlbimizdə kimin eşqinə yer vermişik? Bilək ki, zalım hakimlər və Allahdan qeyriləri bizi öz mənafeləri üçün istəyirlər. Onlar bizim imkanlarımız hesabına öz dünya istəklərinə çatmaq arzusundadırlar. Qiyamətdə isə hamını boşlayıb, ardıcıllarından zara gəlirlər.

### Bildirişlər

1. Əql və fitrətdən qaynaqlanmayan eşq və bağlılıq gec-tez soyuyası və ya düşmənliyə çevriləsidir.

2. Məhəbbət itaət zəminəsidir.

3. Gələcəyi düşünmək ağılın tələbidir. Qüdrət sahibi olan və təhlükəli bir gündə bizi himayə edə bilən kəsə məhəbbətli olaq.

4. Bağlılıq və məhəbbətlərin əsassızlıq ölçüsü təhlükəli günlərdə əzab görməkdir.

167. ﴿وَقَالَ الَّذِينَ اتَّبَعُواْ لَوْ أَنَّ لَنَا كَرَّةً فَنَتَبَرَّأَ مِنْهُمْ كَمَا تَبَرَّؤُواْ مِنَّا كَذَلِكَ يُرِيهِمُ اللّهُ أَعْمَالَهُمْ حَسَرَاتٍ
عَلَيْهِمْ وَمَا هُم بِخَارِجِينَ مِنَ النَّارِ﴾

**“(Həmin vaxt) ardıcıllar deyərlər: “Kaş ki, növbəti dəfə də olaydı (dünyaya qayıdaydıq) ki, bu başçılardan kənarlaşaydıq. Necə ki, onlar (bu gün) bizdən uzaqlaşırlar.” Beləcə, Allah onların həsrət mayası olan əməllərini özlərinə göstərir. Heç vaxt cəhənnəm atəşindən çıxası deyillər.”**

### Nöqtələr

▫Rəvayətlərin buyurduğuna görə, qiyamətdə çoxsaylı səhnələr və dayanacaqlar var. Onlardan bəzilərində dodaqlara sükut möhürü vurular. Onlar yalnız həsrətli baxışlarla bir-birini süzər və ağlayarlar. Bəzi hallarda bir-birlərindən yardım diləyər, bəzi səhnələrdə fəryad çəkib bir-birlərinə nifrin yağdırarlar. Ayədə oxuyuruq ki, küfr ardıcılları da öz rəhbərlərinə bağlılıq və eşqə görə çox peşman olarlar. Amma artıq iş işdən keçmiş olar və qəlbdə həsrətdən başqa bir şey olmaz. Onlar dillərində deyərlər: Əgər növbəti dəfə qayıtsaq, heç vaxt onlara üz

tutmarıq. Bu qədər vəfasız olan və bu gün bizdən uzaqlaşan kəslərdən - dünyaya qayıtsaq - uzaq gəzərik. Onlar həsrət çəkirlər. Amma həsrətlə iş aşmır.

◘Bir çox ayələrdə "xülud" sözü əzab haqqında işlədilmişdir. Bəziləri isə bu sözün "uzun müddət" mənasını daşıdığını bildirirlər. Amma bu ayədəki "və mahum bixaricinə minənnar" cümləsindən aydın olur ki, "xülud" uzun müddət yox, əbədiyyət mənasındadır.

◘Rəvayətlərdə günahkarların qiyamət həsrəti haqqında nümunələr nəzərə çarpır. Məsələn, bəziləri öz varisləri üçün xeyli var-dövlət qoyub, həyatları gedişində xeyir iş görmürlər. Qiyamət günü məlum olur ki, həmin var-dövlətdən yaxşı işə xərcləyən varis savabı da özü əldə etmişdir. Varis pis iş gördükdə isə irs qoyan bu günaha şərik olur.[1] Həsrətin digər bir nümunəsi Əli ibn Əbu-Talibin (ə) rəhbərlik və vilayətini qəbul etməmiş ibadət edənlərin həsrətidir.[2]

◘İnsanın azadlığı var. Əgər belə olmasaydı peşmanlığa, həsrətə, yeni qərar qəbul edilməsinə imkan olmazdı. Peşmanlıq və həsrət onu göstərir ki, başqa cür də hərəkət edə bilərdik. Yeni bir qərar onu göstərir ki, insan öz iradə və ixtiyarı ilə düzgün saydığı yolu seçə bilər.

## *Bildirişlər*

1. Zalım hakimləri (tağutları) boşlayaq. Nə qədər ki, onlar bizi qiyamətdə atmayıblar, gəlin biz onları dünyada ataq.
2. Qiyamətdə insanın haqqı görən gözü açılır və o öz işlərinin həsrətini çəkir.
3. Geri qayıtmaq arzu edilsə də, geriyə yol yoxdur.

168. ﴿يَا أَيُّهَا النَّاسُ كُلُواْ مِمَّا فِي الأَرْضِ حَلاَلاً طَيِّباً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ﴾

**"Ey xalq, yer üzündəki halal və pak şeylərdən yeyin və şeytanın addımlarına tabe olmayın. Həqiqətən, o, sizin aşkar düşməninizdir."**

## *Nöqtələr*

◘İslam insanları daim pak və halal nemətlərdən istifadəyə çağırır. Eləcə də, müqəddəs dinimiz hər növ rahiblik və yersiz zahidliklə mübarizə aparır. Ona görə də qeyri-sağlam qidalar şeytandan sayılır.[3] İslam yersiz aclığı da şeytan addımı bilir. Ona görə də tarixi mənbələrdə qeyd olunmuşdur ki, bəzi ərəb tayfaları öz məhsullarının və heyvanlarının bir hissəsini heç bir dəlil olmadan haram etmişdilər. Onlar bu işi bəzən Allaha aid edirdilər. Uyğun ayə nazil oldu və şübhələr aradan qaldırıldı.

◘İslamda insanların maddi həyatına kamil şəkildə diqqət yetirilmişdir. Bu ehtiyaclardan qidalanma ehtiyacı öndə gəlir. Uyğun mövzuda onlarla ayə, yüzlərlə hədis mövcuddur. Peyğəmbərlərin vəzifələrindən biri də halal və haram qidaların və içkilərin xalqa tanıtdırılmasıdır.

◘Quranda, adətən, məsrəf icazəsi ilə yanaşı bir şərt bəyan edilmişdir. Məsələn, bu ayədə buyurulur: "Halal və pak nemətlərdən yeyin..." Başqa bir ayədə isə "Yeyin və için" əmrinin ardınca "fəsad törətməyin" şərti qoyulur.[4] Digər bir ayədə isə "Yeyin və için, amma israf etməyin" əmr olunur.[5] Başqa bir ayədə isə "Yeyin və yedirin" buyurulur.[6]

◘"Təfsiri-bürhan" kitabında İmam Sadiqin (ə) Tariq adlı bir şəxsə buyruğu nəql olunmuşdur. Rahiblik, tərki-dünyalıq qərarına gəlmiş Tariq arvadından ayrılmaq istəyərkən İmam (ə) buyurmuşdur: "Bu, şeytan addımlarındandır."

---

[1] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 151.
[2] "Bihar", c. 27, s. 184.
[3] "Maidə", 90.
[4] "Bəqərə", 60.
[5] "Ə`raf", 31.
[6] "Həcc", 28.

## *Bildirişlər*

1. Məsrəf, istifadə zamanı iki əsas şərt var: Həmin şeyin halal və pak (xoşagəlimli) olması
2. İslam bəzi riyazətlər (pəhrizlər) ilə müxalifdir.
3. Haram buyurulmuş, eləcə də, çirkin şeylərdən istifadə şeytana tabeçilikdir.
4. Bəşərin təbii ehtiyacları şeytanın azğınlıq və qələbəsi üçün zəmindir. Təbii ehtiyacları təmin edərkən büdrəmələrə diqqətli olmaq lazımdır.
5. Şeytan insanı addım-addım azdırır. İlk addımdan ehtiyatlı olmaq lazımdır.
6. Şeytan xalqı çaşdırmaq üçün müxtəlif yollarla meydana girir.
7. Xalqı haramdan istifadəyə məcbur edib, halal nemətləri onların əlindən almaq şeytanın aşkar düşmənçiliklərindəndir.

169. ﴿إِنَّمَا يَأْمُرُكُمْ بِالسُّوءِ وَالْفَحْشَاء وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**(“Həqiqətən, şeytan) sizə yalnız çirkinliyi və pisliyi, Allah haqqında bilmədiyiniz şeyləri deməyi əmr edir.”**

## *Nöqtələr*

◘“Ruhul-bəyan” təfsirində bəyan olunmuşdur ki, şeytan öz vəsvəsələrində mərhələlər ötüb keçir: Əvvəlcə küfrə dəvət edir. Elə ki, müvəffəq olmadı, bidətə çağırır. Yenə də bir şey əldə edə bilməsə, böyük günahlara çağırır. Növbəti dəfə əliboş qaldıqda kiçik günahları önə çəkir. Bəndəni kiçik günahlara da batıra bilməyən şeytan ibadət əvəzində mübah işləri əhəmiyyətli göstərir. Bu dəfə də əli boşda qaldıqda ən aşağı mərhələdəki ibadətlərə çağırır ki, insan uca məqamlardan məhrum olsun.

◘Şeytanın əmri onun vəsvəsələrindən ibarətdir. O insanın azadlığını əlindən alıb, onu günaha məcbur edə bilməz.

◘Şeytanın əmrinə təslimçilik bizim zəifliyimizi göstərir. Zəif insan şeytanın vəsvəsələrini özünə ağa kimi qəbul edir.[1] İlahi övliyalar isə elə bir məqama çatmışlar ki, şeytan onlara nüfuz edə bilmir.[2]

## *Bildirişlər*

1. Şeytanın düşmənçilik əlamətləri Allaha qarşı günah və iftiraya sövq edən vəsvəsələrdir.
2. Şeytan həm günaha batmaq əmri verir, həm də onu ört-basdır etmək yolunu göstərir. Pislik və günaha əmr Allaha qarşı həmin iftira və günah göstərişi və bu göstərişə don geydirilməsidir.

3 Elmə malik olmadan dini hökmlər haqqında fikir yürütmək və fitva haramdır.

4. Hətta şəkk-şübhə məqamında da bir şeyi Allaha aid etmək olmaz. İndi özünüz qiymətləndirin ki, hansısa sözü bilərəkdən Allaha aid etmək nə deməkdir! Ona görə də Quranın təfsiri və hökmlərin bəyanında diqqətli olmaq lazımdır.

170. ﴿وَإِذَا قِيلَ لَهُمُ اتَّبِعُوا مَا أَنزَلَ اللّهُ قَالُواْ بَلْ نَتَّبِعُ مَا أَلْفَيْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْقِلُونَ شَيْئاً وَلاَ يَهْتَدُونَ﴾

**“O zaman ki, onlara (müşriklərə) deyilər: "Allahın nazil etdiyinə tabe olun!" Onlar deyərlər: "Biz atalarımızın getdiyi yolla gedərik." Əgər ataları bir şey anlamayıb, hidayət olmayıblarsa necə?”**

---

[1] “Nəhl”, 100.

[2] “Hicr”, 42.

## *Nöqtələr*

◘Əvvəlki ayə bizim nəzərimizə çatdırdı ki, şeytanın addımlarına və göstərişlərinə tabeçilikdən uzaq olaq. Bu ayə şeytan yollarından biri olan kor-koranə təqlidçiliyə işarədir.

◘Düşüncəli şəkildə tabeçilik və itaətin eybi yoxdur. Quran o insanların təqlidini məzəmmət edir ki, nə özləri düşüncə sahibi olublar, nə də peyğəmbərləri qəbul ediblər.

◘İlahi hidayət bütün əsr və zamanlarda mövcud olmuşdur. Quranda buyurulur ki, onların babaları hidayəti, doğru yolu qəbul etmirdilər. Bu ayədən məlum olur ki, ilahi hidayət hər bir zaman olmuşdur, lakin insanlar haqqın səsini qəbul etməmişlər. Həzrət Əli (ə) "Nəhcül-bəlağə" də buyurmuşdur: "Yer üzü heç vaxt səmavi rəhbərsiz qalmır. (Bu rəhbər) istər aşkar, istər məxfi şəkildə xalqı Allahın yoluna dəvət edir."[1]

## *Bildirişlər*

1. İrtica və geri çəkilmək qadağandır. Babaların sünnət və yolu düşüncə və dəlilə əsaslanmırsa, qəbul edilə bilməz.
2. İrqi və milli təəssüblər haqqın qəbul olunmasında maneədir.
3. Ata-babaların dəvətləri və əqidələri gələcək nəsillərə təsir edir.
4. Haqq yol ağıl və vəhy vasitəsi ilə əldə olunur.
5. Təcrübə və biliyin növbəti nəslə ötürülməsi yaxşıdır. Amma xürafatın növbəti nəslə çatdırılması zərərdir.
6. Ağıl bizi vəhyə itaətə sövq edir.

171. ﴿وَمَثَلُ الَّذِينَ كَفَرُواْ كَمَثَلِ الَّذِي يَنْعِقُ بِمَا لاَ يَسْمَعُ إِلاَّ دُعَاء وَنِدَاء صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لاَ يَعْقِلُونَ﴾

**"Kafirlər səs və nidadan başqa bir şey eşitməyib çağırılan kəs kimidirlər. Onlar karlar, lallar və korlardır. Bu səbəbdən də düşünmürlər."**

## *Nöqtələr*

◘Dua" yaxından çağırma, "nida" uzaqdan çağırma mənasını bildirir.

◘Bu ayədə iki təşbeh var: Haqqa çağıran kəs çobana, kafirlər isə çobanın dediklərindən yalnız onun fəryadını anlayan heyvanlara bənzədilir. Yəni Peyğəmbərə bildirilir ki, o, imansız qövmü haqqa çağırmaqda və yüzlərlə kor-koranə təqlidi aradan qaldırmaqda qoyunları təhlükədən qurtarmaq üçün səsləyən şəxsə bənzəyir. Amma bu fəryadı dərk etmirlər. Çünki onların gözləri və qəlbləri bağlanmışdır və əslində lal, kar, kordurlar.

## *Bildirişlər*

1. Göz, qulaq və dil o zaman faydalı olur ki, düşüncəyə müqəddimə olsun. Yoxsa elə heyvanların da gözü və qulağı var.
2. Yalnız düşüncə ilə yanaşı sorğu, dinləmə və görmə tanıma yoludur.
3. Haqqın dəvəti qarşısında biganəlik göstərənlərdə beş çirkin sifət var. Heyvanlıq, korluq, karlıq, lallıq, ağılsızlıq.

172. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَاشْكُرُواْ لِلّهِ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ﴾

**"Ey iman gətirənlər! Sizə ruzi edilmiş pak nemətlərdən yeyin, Allaha şükür edin. Əgər yalnız Ona pərəstiş edirsinizsə!"**

[1] "Nəhcül-bəlağə", hikmət. 147.

## *Nöqtələr*

◘Həzrət peyğəmbərdən nəql olunmuşdur ki, Allah belə buyurmuşdur: “İnsanları Mən yaradıram, amma onlar başqasına pərəstiş edir. Mən onlara ruzi verirəm, amma onlar başqasına təşəkkür edirlər.”[1]

◘Quran insana bir işi qadağan etmək istədikdə, əvvəlcə bu işin mübah (halal) yolunu göstərir, sonra qadağan edir. Növbəti ayədə hansısa qida qadağan olunmazdan qabaq hazırkı ayədə halal yollar açıqlanılır.

◘Şükrün mərhələləri var. Şükür bəzən dil, bəzən isə əməllə gerçəkləşir. Həqiqi şükür odur ki, nemətlər Allahın müəyyənləşdirdiyi yolda sərf olunsun.

◘Təbii nemətlərin yaradılmasında əsas məqsəd möminlərdir. Əvvəlki üç ayədə buyuruldu: “Ey xalq! Yer üzündə olanlardan yeyin.” Bu ayədə isə belə buyurulur: “Ey möminlər! Sizə ruzi etdiyimiz könüləyatan nemətlərdən yeyin.” Bu ayələr arasındakı fərq rəmzi ola bilər. Əsas məqsəd ruzinin möminlərə çatdırılmasının önə çəkilməsidir. Amma başqaları da möminlərlə yanaşı bu nemətlərdən faydalanırlar. Necə ki, bağban bağı suvararkən onun məqsədi qanqal və tikanların yox, gül və ağacların faydalanmasıdır.

◘Hər bir insandan xüsusi tələblər var. Adi insanlardan intizar budur ki, yedikdən sonra günah, şeytani vəsvəsələr və fəsad ardınca getməsinlər.[2] Amma iman əhlindən tələb olunur ki, yedikdən sonra saleh əməl ardınca gedib şükür etsinlər.[3]

## *Bildirişlər*

1.Özünütərbiyə, zöhd, təqva nemətlərdən bəhrələnmə ilə zidd deyil.

2. İslam məktəbində maddiyyat mənəviyyatın müqəddiməsidir.

3. İslam qidalanmada sağlamlıq məsələlərinə diqqətlidir.

4. Xalqın dolanışığını təmin etməmiş və onlara məhəbbət göstərməmiş onlardan umacağınız olmasın.

5. Şükür allahpərəstlik və xalis tövhid nişanəsidir. Əgər insan ruzini öz çalışmaqlarının, sərmayəsinin, bacarığının nəticəsi bilsə, bu işdə Allahın rolunu nəzərdən qaçırar və Ona şükürdən məhrum qalar.

6. Şükür ibadətin aşkar nümunəsidir.

7. Allaha şükür vacibdir.

8. Allahpərəst insan Allahın halal etdiyini özbaşına haram saymır.

173. ﴿إِنَّمَا حَرَّمَ عَلَيْكُمُ الْمَيْتَةَ وَالدَّمَ وَلَحْمَ الْخِنزِيرِ وَمَا أُهِلَّ بِهِ لِغَيْرِ اللّهِ فَمَنِ اضْطُرَّ غَيْرَ بَاغٍ وَلاَ عَادٍ
فَلا إِثْمَ عَلَيْهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Həqiqətən, Allah (qeyri-şəri yolla) ölmüş heyvanı, qanı, donuz ətini, Allahdan qeyrisinin adı ilə kəsilənləri haram etmişdir. Amma çarəsiz qalan şəxs həddi aşmadan, ehtiyacı qədərində yesə, onun üçün günah yoxdur. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Əvvəlki ayənin ardınca buyuruldu ki, Allahın halal buyurduqlarını özbaşına haram saymayın. Allah yalnız ölmüş hevanı, qanı, donuz ətini və - cahiliyyət dövründəki kimi - Allahdan qeyrilərinin adı ilə kəsilənləri haram etmişdir.

---
[1] “Təfsiri-Safi”.
[2] “Bəqərə”, 168.
[3] “Mu`minun”, 51.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Ölmüş heyvan əti bədəni zəiflədir, nəsil artımını qət edir, qəfil ölümə səbəb olur. Qanı içmək qəlbin daşlaşması və qəsavət səbəbidir.[1]

◘Tibbi araşdırmalara əsasən, donuz əti iki təhlükəli parazitin törədicisidir. Bəzi ölkələrdə hətta sağlamlıq baxımından donuz əti qadağan olunmuşdur. Həzrət İsanın İncilində də günahkarlar donuza oxşadılmışdır.

◘Əlbəttə ki, yaşamaq üçün heç bir qida tapmayan insan çarəsiz qaldıqda haram qidalardan istifadə edə bilər. Amma bu işdə ifrata varmaq, həddi aşmaq olmaz. Yəni yalnız ölümdən yaxa qurtarmaq üçün zəruri həddə qədər istifadə etmək mümkündür. Haram qidalardan ləzzət məqsədi ilə istifadə olunması qadağandır. İstisna şəkildə verilmiş bu icazə Allahın lütf və mehribançılığına əsaslanır. İmam Sadiq (ə) buyurmuşdur: "Əgər bir insan zəruri bir vəziyyətdə bilərəkdən haram qidalardan istifadə etməyib ölsə, kafir kimi ölmüşdür."[2]

◘Haram qidaların dörddən çox olduğunu nəzərə alsaq, hazırkı ayədə "innəma" kəlməsini cahiliyyət dövrünün qadağalarına aid olduğu qənaətinə gələrik.

◘İstisna hallara aid qaydalar təkcə qidalarla bağlı deyil. Qarşıya çıxan istənilən bir məsələdə belə yüngülləşdirmələr var. İmam Sadiqdən (ə) soruşurlar ki, əgər həkim xəstəyə istirahət və yatmaq göstərişi vermişdirsə, namaz necə olsun? İmam bu ayəni oxuyur və buyurur: "Namazı yatdığı yerdə qılsın."[3]

◘İslam hökmləri məsləhətə əsaslanır. Əgər əvvəlki ayədə qidalanma paklığa əsaslanaraq mübah sayılırdısa, bu ayədə pak olmayanların haramlığı bildirilir.

◘İlahi qadağalar yalnız tibbi məsələlərə əsaslanmır. Məsələn, ölmüş heyvan ətinin və qanın haram buyrulmasında məqsəd bəzən etiqadi məsələlərə hörmətdir. Allahdan qeyrisinin adı ilə kəsilmiş heyvan ətinin qadağası kimi qadağalar şirki aradan qaldırmaq üçündür. Bəzən bir şəxsin süfrəsindən çəkinməyimizin səbəbi onun gigiyenik qaydalara riayət etməməsi olur. Bəzən isə bir şəxsdən uzaqlaşmaq məqsədi ilə onun süfrəsində əyləşmirik.

## *Bildirişlər*

1. İslam qidalanma məsələlərinə kamil diqqət yetirir. Zərərli və haram qidalar haqqında təkrar-təkrar xəbərdarlıq olunur.
2. Nəyisə haram buyurmaq yalnız Allahın ixtiyarındadır.
3. Heyvanları zibh edərkən (kəsərkən) Allaha diqqət və Onun adının çəkilməsi zəruridir. Bunun səbəbi heç bir işdə tövhid xəttindən çıxmamaq və şirklə, bütpərəstliklə mübarizə aparmaqdır.
4. Yalnız insanın məcbur olduğu istisna hallarda hökm dəyişir. İnsanın özünü qəsdən belə bir vəziyyətə salması caiz deyil. "Uzturr" qeyri-məlum formada işlənmişdir.
5. İslam heç bir mərhələdə maneə ilə qarşılaşmayan ictimai bir dindir. Fövqəladə vəziyyətlərdə istənilən vəzifə dəyişə bilir.
6. Qanun tənzimləyənlər tənzimləmə zamanı xüsusi şərtləri nəzərə almalıdırlar.
7. Məcburi şəraitlərdən sui-istifadə etməyin.

174. ﴿إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلَ اللّهُ مِنَ الْكِتَابِ وَيَشْتَرُونَ بِهِ ثَمَنًا قَلِيلاً أُولَئِكَ مَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ
إِلاَّ النَّارَ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**"Allahın kitabdan nazil etdiyini gizləyənlər və bunun müqabilində kiçik əvəz alanlar öz qarınlarına yalnız od tökürlər. Allah qiyamət günü onlarla danışmaz, onları təmizləməz. Onlar üçün dərdli əzab vardır."**

[1] "Vəsail", c. 16, s. 310.
[2] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 130.
[3] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 145.

## *Nöqtələr*

◘Nə qədər ki, İslam peyğəmbəri məbus olmamışdı, yəhudi və məsihi alimləri xalqa onun gəlişi haqqında vədlər verir, Tövrat və İncildəki nişanələri sadalayırdılar. İslam peyğəmbərinin zühurundan sonra isə onlar bu son risaləti təsdiq etməyi öz var-dövlət və məqamlarının əldən çıxması ilə bir tutdular. Onların həqiqəti gizlətməkdə məqsədləri bu idi ki, bir neçə gün öz kürsülərində çox otursunlar və daha çox hədiyyə əldə etsinlər. Amma onlar qazandıqları böyük günahın müqabilində çox az qazanc əldə edirdilər. Bu qazanc qarınlarına doldurduqları oddan başqa bir şey deyildi. Necə ki, digər bir ayədə yetimlərin malını yemək od yeməyə oxşadılır.[1]

Allah qiyamət günü möminlərlə ünsiyyətdə olduğu halda haqqı gizlədən bu insanlarla xoş danışmaz. Bu danışıq fəzada dalğalar yaranması, ilham və qəlb dili vasitəsi ilə gerçəkləşər. Bütün yaxşı insanlar həmin gün "Kəlimullah" olarlar.

◘Əvvəlki ayədə donuz əti və ölmüş heyvan ətinin qadağan olunmasının ardınca bağışlanmadan danışılır. Bu ayədə isə haqqı gizlətməyin qadağan olması və əqidə ilə bağlı günahlar haqqında söhbət açıldıqdan sonra danışıq əhvalı daha da sərtləşir və bağışlanma məsələsinə toxunulmur. Bəlkə də növbəti ayədə bu hədələr daha da şiddətlənsin.

◘Haqqın gizlədilməsi təkcə İslam peyğəmbərinin risaləti ilə bağlı deyil. Həzrət Peyğəmbərin (s) həqiqi canişinləri barəsində də həqiqəti gizlədənlər belə bir əzaba düçar olasıdır. Öz təfsir və tarix kitablarında Qədire-Xum əhvalatı həqiqətlərini ört-basdır edib ayələri təhrifə məruz qoyanlar, xalqı məsum imamlardan yayındırıb başqalarına üz tutmağa sövq edənlər haqqı gizlədənlər cərgəsindədirlər.

## *Bildirişlər*

1.Alimlər üçün ən böyük təhlükə dünyapərəstlikdir.

2. Dini istənilən bir qiymətə satmaq zərərdir. Çünki səmavi kitabların həqiqəti və maarifi bütün mənafelərdən üstündür.

3. Haram qidalar od şəklində təcəssüm edər.

4. Hər bir əşyanın batini bir surəti var və qiyamət günü həmin batini surət aşkar olar.

5. Cəza günaha mütənasib olmalıdır. Dünyada haqqı xalqdan gizlədənlər qiyamətdə Allah kəlamını eşitmək ləzzətindən məhrum qalarlar.

6. Qiyamət əzabları həm cismə, həm də ruha aiddir.

175. ﴿أُولَئِكَ الَّذِينَ اشْتَرَوُاْ الضَّلاَلَةَ بِالْهُدَى وَالْعَذَابَ بِالْمَغْفِرَةِ فَمَآ أَصْبَرَهُمْ عَلَى النَّارِ﴾

**"Onlar (haqqı gizlədənlər) o kəslərdir ki, hidayəti vermək bahasına azğınlığı, bağışlanma əvəzinə əzabı aldılar. Doğrusu, Allahın əzabına nə qədər də dözümlüdürlər?"**

## *Nöqtələr*

◘Haqqı gizlətmə günahına görə ardbaard səkkiz hədə sadalanmışdır. Bu hədələrdən beşi əvvəlki, ikisi hazırkı, biri isə növbəti ayədədir. Bəlkə də heç bir günaha görə ardıcıl şəkildə səkkiz hədə bəyan edilməmişdir.

◘Haqqı gizlətmə səbəbləri çoxdur. Bu günahın qürur, yersiz dini təəssüb, mövqeyi hifz etmək, iradə zəifliyi, şücaətsizlik, darbaxışlılıq, biganələrin sifarişi, var-dövlətin hifzi kimi səbəbləri ola bilər.

◘Haqqı gizlətməyin tövbəsi təkcə tövbə demək və ağlamaqdan ibarət deyil. Bu günahdan tövbə edərkən gizlədilmiş həqiqətləri açıqlamaq zəruridir. Əlbəttə ki, bir şəxsin həyatı təhlükə qarşısında olduqda və ya hər hansı fəsad ehtimal edildikdə haqqı gizlətməyin eybi yoxdur.

[1] "Nisa", 10.

Məsələn, pisliklərin yayılması üçün insanın öz günahını və ya xalqın günahını gizlətməsi caizdir.

## *Bildirişlər*

1. Alimlər üçün xüsusi günahlardan biri haqqın gizlədilməsidir.
2. Səmavi kitabın bəyanında ilahi hidayət və bağışlanma, bu həqiqətlərin gizlədilməsində isə zəlalət var.
3. Dini satmağın və haqqı gizlətməyin ardınca ən ağır əzablar gəlir. Quranda yalnız bu dəstə haqqında "İlahi əzaba necə də dözümlüdürlər" cümləsi işlədilmişdir.

176. ﴿ذَلِكَ بِأَنَّ اللّهَ نَزَّلَ الْكِتَابَ بِالْحَقِّ وَإِنَّ الَّذِينَ اخْتَلَفُواْ فِي الْكِتَابِ لَفِي شِقَاقٍ بَعِيدٍ﴾

**"Bu (əzabın) səbəbi budur ki, Allah (səmavi) kitabı haqq olaraq nazil etmişdir. Əlbəttə, o kəslər ki, kitabda ixtilaf etdilər, daim dərin çəkişmə içindədirlər."**

## *Nöqtələr*

◘Dini həqiqətləri gizlədənlərə münasibətdə bir bu qədər hədə və əzab vədinin bəyan olunmasının səbəbi odur ki, Allah-təala səmavi kitabı çox aydın və səlis şəkildə, dəlillərə istinad edərək nazil etmiş, beləliklə də şəkk-şübhəyə yer qalmamışdır. Bununla belə, insanların bir qismi öz şəxsi mənafelərini qorumaq üçün müxtəlif yozumlara və təhriflərə əl atmış, səmavi kitabın anlaşılmasında ixtilaf yaratmışlar. Onların məqsədi suyu bulandırıb balıq tutmaqdır. Allah bu zümrə haqqında buyurur: "Onlar didişmə və nifaq içindədirlər."

◘Həqiqəti gizlətmə yollarından biri də ixtilaf yaratmaqdır. Əvvəlki üç ayədə bəyan olunan hədələr haqqı gizlədənlərə ünvanlanmışdı. Bu ayədə, "gizlədənlər çəkişmədədir" əvəzinə "kitabda ixtilaf edənlər çəkişmədədir" buyurulmuşdur. Bu təbirlərdən aydın olur ki, haqqı gizlədənlər elə özləri ixtilaf edənlərdir. Çünki ixtilafa aludə mühitdə xalqın başını qatıb həqiqətləri gizlətmək olur.

## *Bildirişlər*

1. Dini və məzhəbi ixtilafların mənşəyi səmavi kitab yox, alimlərdir.
2. Həqiqətlərin gizlədilməsi nifaqa, parçalanmaya və didişməyə səbəb olur.

177. ﴿لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَالْمَلآئِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ وَأَقَامَ الصَّلاةَ وَآتَى الزَّكَاةَ وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُواْ وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ أُولَئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَئِكَ هُمُ الْمُتَّقُونَ﴾

**"Yaxşı iş o deyil ki, (namaz zamanı) üzünüzü şərqə və ya qərbə tutasınız. Yaxşı əməl sahibi o kəsdir ki, Allaha, qiyamət gününə, mələklərə, səmavi kitaba və peyğəmbərlərə iman gətirib, malına əlaqəsi olduğu halda onu qohumlara, yetimlərə, biçarələrə, yolda qalmışlara, dilənçilərə versin və qulların azad olunmasında xərcləsin, namaz qılıb zəkat versin. Onlar o kəslərdir ki, peyman bağladıqda əhdlərinə vəfa edər, o kəslərdir ki, çətinliklər, məhrumiyyətlər, xəstəliklər qarşısında, döyüş meydanında sabitqədəm olar və o kəslərdir ki, doğru danışarlar. Və onlar həmin təqvalılardırlar."**

## *Nöqtələr*

◘"Birr" sözü yaxşılıq mənasındadır. Yüksək həddə xeyir əməl sahibi olanlara "birr" deyilir. "Birr" o insanlardır ki, bütün vücudları yaxşılıqdır.

◘"Bəsa"nın kökü "bus" olub fəqirlik, çətinlik mənasını verir. Bu çətinlik insana xaricdən gələn çətinlikdir. "Zərra" xəstəlik mənasındadır. Bu isə insana daxildən sıxıntı gətirir. "Hiynəl-bəs" savaş və cihad zamanı deməkdir.

◘144-cü ayədə oxuduğumuz qiblənin dəyişmə macərasından sonra söz qiblə və onun dəyişməsi haqındadır. Ayədə buyurulur: "Nə üçün Allaha və qiyamətə iman, xeyir işlərin görülməsindən ibarət olan dini dəyərləri qoyub mübahisəli mövzular ardınca gəzirsiniz?

◘Bu ayə Quranın ən ümumi ayəsidir. Çünki bu ayədə mühüm etiqadi, əməli və əxlaqi üsul bəyan olunmuşdur. "Təfsiri-əl-mizan"da həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: "Bu ayəyə əməl edən kəsin imanı kamildir."

Bu ayə üç hissədə – iman, əməl və əxlaqda on beş bəyənilmiş sifət bəyan etmişdir. İman hissəsində Allaha, mələklərə, peyğəmbərlərə, qiyamətə və səmavi kitaba iman məsələsinə işarə olunmuşdur. Əməl hissəsində namaz kimi ibadi, zəkat kimi iqtisadi, qul azad olunması kimi ictimai, savaş meydanında səbir kimi hərbi, çətinliklərə səbir kimi ruhi məsələlər qeyd olunmuşdur. Əxlaqi hissədə əhdə vəfa, qəlbi maddiyyata təslim etməmək, fəqirlərə rəhm kimi məsələlərə toxunulmuşdur.

◘Allaha iman haqq qarşısında xüzu və tağut qarşısında təslim olmamaq səbəbidir. Qiyamətə iman insanın baxışını dərinləşdirir, səyini artırır. Mələklərin vücuduna iman mücərrəd nizama inamın nişanəsidir. Peyğəmbərlərə iman vəhyə, tarix boyu hidayət cərəyanına imandır. Bu həm də insanın dünyada proqramsız olmamasına dəlildir. İnfaq qarşılıqlı yardım, bir növ dostluq, namaz Allahla birbaşa bağlılıq, zəkat məhrumların çətinliklərinin həlli proqramı, əhdə vəfa əlaqələrin möhkəmləndirilməsi, səbir insanların sınaqdan keçməsi amilidir.[1]

◘"Atəl-malə əla hubbihi" cümləsi üç cür mənalandırılmışdır:

a) Sevdiyi halda həmin malı başqalarına verməк;

b) Allah sevgisi əsasında mal vermək;

v) Fəqirə sevgi əsasında mal vermək.

◘Səbir bütün kamilliklərin anasıdır. Quran behiştə çatmaq yolu kimi səbiri tanıtdırır. Onlara göstərdikləri səbir müqabilində uca məqam verilər."[2] Mələklər behişt əhlinə deyərlər: Salam olsun sizə ki, səbir göstərdiniz."[3] İlahi rəhbərlər haqqında isə belə buyurulur: Onları səbirlərinə xatir rəhbər qərar verdik. Onlar bizim əmrimizlə hidayət edərlər."[4]

Dini maarifi tanıtdırmaq məqsədi ilə bu ayədəki təbirlərə oxşar təbirlər rəvayətlərdə də nəql olunmuşdur:

–Ağıllı o kəs deyil ki, xeyiri şərdən ayırsın. Ağıllı o kəsdir ki, iki şər arasında xeyiri seçsin."[5]

–Elm çox oxumaqla əldə olunmur. Həqiqi elm qəlblərə şöləlenmiş ilahi nurdur.[6]

–Böyüklük zahiri bərbəzəkdə yox, aramlıq və vüqardadır."[7]

–Səxavətli o kəs deyil ki, yeri gəldi-gəlmədi infaq etsin. Səxavətli o kəsdir ki, harada Allahın razılığı varsa, orada infaq etsin."[8]

–İbadət çox namaz qılmaq və çox oruc tutmaqla ölçülmür. İbadət Allah və onun əsərləri haqqında düşünməkdir."[9]

---

[1] "Təfsiri-Məraği".
[2] "Furqan", 75.
[3] "Rə`d", 24.
[4] "Səcdə", 24.
[5] "Bihar",c . 78, s. 6.
[6] "Bihar",c . 1, s. 225.
[7] "Bihar",c . 1, s. 106.
[8] "Bihar",c . 71, s. 352.
[9] "Bihar",c . 71, s. 325.

–Haqq rəhbərdən məhrum olan kəs ata-anasını itirmiş yetim kimidir.”[1]

◘Təqva kamilliyinə çatmaq üçün həm vacib, həm də vacib olmayan infaq lazımdır. Bəziləri imkansızlara kömək etdikləri halda vacib haqları ödəmirlər. Bəziləri isə xüms və zəkat ödəyir, amma fəqirlərə biganə yanaşırlar. Bu ayədə o şəxs həqiqi mömin sayılır ki, həm vacib, həm də müstəhəb haqları yerinə yetirsin.

Rəvayətdə oxuyuruq: “Varlıların mülkündə zəkatdan əlavə də məhrumların haqqı var.”[2] Başqa bir rəvayətdə oxuyuruq: “Qonşusu ac olduğu halda özü tox yatan kəs Allaha və qiyamətə inanmır.”[3]

## *Bildirişlər*

1. Dinin mahiyyəti əvəzində zahir ardınca getməyin. Əsl hədəflərdən uzaq düşməyin.
2. Peyğəmbərlərin və səmavi kitabların vəzifələrindən biri xalqların (pis) mədəniyyətini dəyişməkdir.
3. Məfhumları anlamaq yox, onlara əməl etmək mühümdür. “Birr” kəlməsi yaxşılığı bildirir. Amma bu kəlməni bilmək yox, onu həyata keçirmək dəyərlidir.
4. İman əməldən öndə gəlir.
5. İman bütün peyğəmbərlər və mələklərə lazımdır.
6. Xalqla əlaqə ilə yanaşı, Allahla bağlılıq, çətinliklər zamanı ictimai həmrəylik mühümdür.
7. Bütün yaxşı işlər Allaha iman sayəsində formalaşır.
8. İnfaqda İslamın məqsədi yalnız acları doyurmaq yox, həm də mal sahiblərinin qəlbindən dünya sevgisini çıxarmaqdır.
9. Xeyir əməl sahibləri öz var-dövlətlərini Allah yolunda həvəslə infaq edirlər.
10. Fəqirlərə, yetimlərə və yaxınlarınıza öz əlinizlə infaq edin.
11. İnfaqda insana yaxın ehtiyaclılar başqalarından irəlidir.
12. Fəqir, miskin, yolda qalmış və qohum olmasa da, əl açanı rədd etməyin. Ayədə “sailin” sözü müstəqil formada bəyan olunmuşdur.
13. Cihadda iştirak etmədən iman, namaz və zəkat kamilləşmir.
14. İmanlı olduğunu iddia edənlər çoxdur, amma həqiqi möminlər dinin bütün göstərişlərinə əməl edirlər və onlar çox azdırlar.
15. Dini vəzifələrə əməl, ictimai məsuliyyətlərin yerinə yetirilməsi sədaqət nişanəsidir.
16. Əməli əqidəsini təsdiq edən kəs təqvalıdır.

178. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ وَالأُنثَى بِالأُنثَى
فَمَنْ عُفِيَ لَهُ مِنْ أَخِيهِ شَيْءٌ فَاتِّبَاعٌ بِالْمَعْرُوفِ وَأَدَاء إِلَيْهِ بِإِحْسَانٍ ذَلِكَ تَخْفِيفٌ مِّن رَّبِّكُمْ وَرَحْمَةٌ فَمَنِ
اعْتَدَى بَعْدَ ذَلِكَ فَلَهُ عَذَابٌ أَلِيمٌ﴾

**“Ey iman gətirənlər! Qətlə yetirilənlər haqqında sizin üçün qisas (qanunu) müəyyənləşdirildi: Azad müqabilində azad, qul müqabilində qul, qadın müqabilində qadın. Əgər bir şəxsi (din) qardaşı əfv etsə (və ya qisas qanbahası ilə ödəsə) bəyənilmiş bir yol seçməlisiniz. (Qətlə yetirilənin sahibinə diyə) yaxşılıqla ödənməlidir. Bu hökm Allahınız tərəfindən yüngülləşdirmə və mərhəmətdir. Belə ki, bundan sonra təcavüz edən kəs üçün dərdli əzab vardır.”**

[1] "Bihar",c . 108, s. 171.
[2] “Təfsiri-Qurtubi”.
[3] “Kafi”, c. 2, s. 665.

## *Nöqtələr*

◘“Qisas” davam mənası verən “qəss” sözündəndir. Ona görə də davamlı və ardıcıl əhvalata qissə deyilir. Qatil cəzalanadək qətlin ardınca getmək qisas adlanır.

◘Bütün cəmiyyətlərdə bilərəkdən və ya bilməyərəkdən qətllər baş verir. İslam kimi kamil bir din belə hadisələr müqabilində ədalətli və məntiqi proqrama malik olmalıdır. Yalnız dəqiq münasibətlə bu hadisələrin təkrarlanmasının, eləcə də, yersiz intiqamların, sui-istifadələrin qarşısını almaq olar. Düzgün münasibət göstərildikdə qatillər cürətlənməz, məzlumun qanı hədərə getməz. İslamdan qabaq cahiliyyət dövründə bir nəfərin qətli səbəbindən bütöv bir qəbilə qana bələşər, uzun-uzadı savaşlar gedərdi. İslam bu ayədə bəyan olunmuş göstərişlə həm xalqın qanının qorunmasını, həm tərəflərin razılığını, həm də hədlərə riayəti nəzərdə tutur. Əlbəttə ki, qisas qanunu bağışlanmaya yer qoymadan ilahi hökm deyil. Bu qanun mal sahiblərinin haqqını təmin edir və onlar diyə almaqla və ya diyəsiz haqlarından keçə bilərlər.

**Sual:** Nə üçün qisas qanununda cinslər nəzərə alınır? Nə üçün qatil kişi, qətlə yetirilən qadın olduqda kişidən qisas alınmır?

**Cavab:** Qadın və kişinin qətlə yetirilməsi ilahi, insani və axirət cəzası baxımından eynidir. Fərq isə dünyəvi cəzalardadır. Bu fərqi doğuran səbəb kişilərin, adətən, ailə başçısı olmasıdır. Onların qətli bütün ailəyə iqtisadi zərbədir. Qanun qadının ailə təminatçısı olması kimi nadir hallara yox, ümumi vəziyyətə əsaslanır.

## *Bildirişlər*

1.Dini hökmlərin gerçəkləşməsi üçün dini hökumət lazımdır. Qüdrət və hakimiyyət olmadan qisas qanununun icrası mümkünsüzdür.
2. Qisas qanununda bərabərlik və ədalət üsulu diqqət mərkəzindədir.
3. Qətiyyət və ülfət (mərhəmət) birlikdə zəruridir.
4. İslami hüquqlar islami əxlaqdan təcrid olunmamışdır.
5. İslam yəhudilər kimi qisası yeganə çıxış yolu bilmir, məsihilər kimi ən yaxşı yol bağışlamaqı saymır. İslam bu məsələni daha dərindən və əhatəli nəzərdən keçirir, qisas, qan bahası və bağışlama kimi tədbirləri bəyan edir.
6. Qatilin bağışlanmasının, qisasın qan bahası ilə əvəz olunmasının caizliyi sizin tərbiyəniz üçündür.
7. İlahi hədlərə təcavüz və onlardan sui-istifadə qadağandır.
8. Qanunu yüngülləşdirdikdə sui-istifadənin qarşısını alın.

179. ﴿وَلَكُمْ فِي الْقِصَاصِ حَيَاةٌ يَاْ أُولِيْ الأَلْبَابِ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**“Ey ağıl sahibləri! Qisasda sizin üçün həyat var. Bəlkə siz təqva yolunu tutasınız.”**

## *Nöqtələr*

◘Ayədə sanki qisas hökmü ilə bağlı ziyalınümalar tərəfindən irəli sürülmüş iradlara cavab verilir. Quranda buyurulur: “Qisas hökmü bəşər cəmiyyəti üçün həyat təminatçısıdır. Qisas şəxsi münasibət və intiqam deyil. Qisas ictimai təhlükəsizliyin təminatçısıdır. Cəmiyyətdə təcavüzkardan qisas alınmasa, ədalət və əmniyyət aradan gedər. Belə bir cəmiyyətin sanki həyatı yoxdur, o ölüdür. Necə ki, tibdə, əkinçilikdə və heyvandarlıqda insanın, bitkinin və heyvanın həyat şərti mikrobların və bəlaların aradan götürülməsidir.

Əgər qatilin psixoloji baxımdan gərgin vəziyyətdə olduğunu əsas gətirib onu azad etsək, onu növbəti cinayətlərə cəsarətləndirmiş olarıq. Çünki heç bir cinayətkar psixoloji baxımdan aram vəziyyətdə cinayətə əl atmır. Əgər psixoloji sarsıntı əsas götürülərsə, onda bütün cinayətkarlar azad edilməlidir. Belə olsa bütün cəmiyyət savaş meydanına çevrilər və həyəcanlanmış insanlar bir-birlərini qətlə yetirərlər. Elə düşünməyin ki, bugünkü dünyamız

məhəbbət dünyası, qisas qanunu isə sərtlikdir. Qisas qanununu bəşər haqlarına zidd saymaq olmaz. İslam qisas hökmü ilə yanaşı bağışlamaq və qan bahası almaq haqqı da vermişdir. Belə bir münasibət də düzgün deyil ki, günahkarlardan qisas almaq əvəzinə, onlardan zindanlarda iqtisadi inkişaf üçün istifadə edilməlidir. Belə bir proqram ictimai asayişi təmin etmir. Əsas məsələ insanlıq məqamı və ədalətli cəmiyyətdir. Bu gün təhlükə dolu və istehsal gücü hər gün artan dünyanı alqışlamaq olmaz, xüsusi ilə belə bir inkişaf məhbus edilmiş cinayətkar ünsürlərin əli ilə həyata keçərsə!

◘Qisas qanunu ədalətin, əmniyyətin və cəmiyyətin diriliyinin zəmanətçisi olduğundan ayənin sonunda buyurulur: Bu qanunun icrası başqa qətllərin qarşısını alır.

**◘Həyat bir neçə növdür:**

1.Təbii həyat; məsələn, baharda yağışdan sonra torpağın oyanması.[1]

2. Mənəvi həyat; məsələn, xalqın həyat amili olan peyğəmbər dəvəti.[2]

3. Şəhidlər üçün olan bərzəx həyatı[3];

4. Hamı üçün olan axirət həyatı[4];

5. Təhlükəsizlik və ədalət sayəsində qorunan ictimai həyat.

## *Bildirişlər*

1. Ədalətin icrası cəmiyyətin həyatının təminatçısıdır.

2. Həlimlik və sərtlikdə tarazlıq gözlənilməlidir. Rəhman və rəhim olan Allah qisası həyat rəmzi sayır.

3. Təhlükəli ünsürün aradan götürülməsi ağıla uyğun bir əsasdır.

4. Mühakimə yürütməyə tələsməyin. Səthi bir baxışla qisas yaxşı görünməyə də bilər. Amma dərin düşüncə ilə araşdırsanız, görərsiniz ki, qisas həyat rəmzidir.

5. Təqva və günahdan uzaqlıq istər ibadi, istərsə də hüquqi-dini hökmlərin fəlsəfəsidir.

6. Qisas insanları qətlin təkrarından uzaqlaşdırır.

180. ﴿كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ لِلْوَالِدَيْنِ وَالأقْرَبِينَ بِالْمَعْرُوفِ حَقًّا عَلَى الْمُتَّقِينَ﴾

**“Sizin üçün müəyyənləşdirilib ki, birinizin ölümü çatdıqda ondan bir mal qalmış olarsa, bəyənilmiş şəkildə ata-anası və yaxınlarına vəsiyyət etsin. Bu, təqvalıların üzərində olan bir haqdır.”**

## *Nöqtələr*

◘Bəziləri elə düşünürlər ki, insan vəsiyyət etdikdə tez ölür. Hansı ki, vəsiyyət bir növ uzaqgörənlikdir. “Ölüm zamanı vəsiyyət edin” buyuruğunda məqsəd budur ki, ölüm axır fürsətdir. Əslində isə insan ölümündən neçə illər qabaq vəsiyyət edə bilər.

◘Bəziləri vəsiyyət edilməsini vacib saymışlar. Amma “müttəqilər üzərində olan bir haqdır” cümləsindən məlum olur ki, bu əməl müstəhəbdir. Əks təqdirdə “müttəqilər” əvəzində "möminlər" kəlməsi işlənərdi.

◘Bu şərif ayədə “mal” kəlməsi əvəzinə “xeyir” kəlməsindən istifadə olunmuşdur. Bununla nəzərə çatdırılır ki, var-dövlət xeyir və yaxşılıq mayasıdır. İslamda tənqid olunan isə haram mal və ya var-dövlətə ifrat bağlılıqdır. Pislənilən isə var-dövlətin fərdi və ictimai kamilliklərdən üstün tutulması, ya da mal əldə olunması üçün xalqın istismarıdır.

[1] “Rum”, 50.
[2] “Ənfal”, 24.
[3] “Bəqərə”, 154.
[4] “Bəqərə”, 28.

◘Vəsiyyət layiqli, ağılyana olmalıdır. Vəsiyyətdə kinə, intiqama, yersiz mehr-məhəbbətə yol vermək olmaz. İrsdən yalnız bəzi yaxınlar və müəyyən miqdarda bəhrələndiyindən İslam göstəriş verir ki, qohumlar arasında irsdən məhrum olanlar varsa və ya kiməsə irs payı düşürsə, vəsiyyətlə həmin adamların payını artırmaq yaxşıdır. Amma vəsiyyətdə ədaləti gözləməyən, zülmə yol verən insan böyük günah etmişdir.[1]

Rəvayətlərdə nəql olunur ki, bir şəxs körpə uşaqları olduğu halda bütün mülkünü Allah yolunda bağışladı. Həzrət Peyğəmbər (s) bu hadisədən xəbər tutub soruşdu ki, "həmin şəxs öləndə nə etdiniz?" Dedilər ki, "onu dəfn etdik." Həzrət buyurdu: "Əgər mənə əvvəlcədən desəydiniz, onun müsəlman qəbristanlığında dəfninə icazə verməzdim. Çünki bu şəxs bir bu qədər övladı olduğu halda onlar üçün heç bir şey qoymamış, varını-yoxunu Allah yolunda vermişdir."[2]

◘Vəsiyyət dəqiq bir işdir. Bu işdə (Allah eləməmiş) diqqətsizliyə yol verilsə, sonradan fitnə və narahatlıq yaranar. Qeyri-dəqiq vəsiyyət səbəbindən bir sıra xeyir işlər məhv olar. Həzrət peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: "Bəzən altmış il ibadət etmiş şəxs vəsiyyətini ədalətlə tənzimləmədiyindən cəhənnəmə gedər."[3]

◘Vəsiyyət onu göstərir ki, insanın malikliyi hətta onun ölümündən sonra da var-yoxunun bir hissəsi üzərində davam edir.

İnsan öz var-yoxunun üçdə birini vəsiyyət edə bilər. Əgər bir şəxs bu həddi aşmaq istəyirsə, öz vərəsələrindən icazə almalıdır. Necə vəsiyyət etməyi öyrənmək üçün ilahi övliyalar, şəhidlər və alimlərin vəsiyyətlərini oxumaq yaxşı olar.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əgər bir şəxs başqa birinin vəsiyyətini yerinə yetirəcəyini öhdəsinə götürsə, amma sonradan heç bir üzrü olmadan bu işi boynundan atsa, onun heç bir əməli qəbul olunmaz. Göylə yer arasındakı bütün mələklər ona lənət edər. Bu şəxs daim Allahın qəzəbindədir. Onun dediyi "Ya Rəbb" sözünə bir lənət göndərilər. Onun əvvəlki bütün yaxşı işlərinin savabı vəsiyyət edənin naməsinə yazılar."[4]

**Vəsiyyətin təsir və bərəkətləri:**

1.Vəsiyyət diqqət və hesab-kitablı olmaq nişanəsidir.

2. Vəsiyyət başqalarının hüquqlarına hörmət əlamətidir.

3. Vəsiyyət yaddan çıxarılmış xeyir işlərin görülməsi və ölümdən sonra saleh əməlin davamıdır.

4. Vəsiyyət iqtisadi boşluqların doldurulması və mülkün tarazlaşdırılmasıdır.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs dünyadan vəsiyyət edib gedərsə, sanki şəhid olaraq ölmüşdür."[5]

◘Valideyn və yaxınlar üçün vəsiyyət məhəbbətin təravətlənməsi, bir növ qədirdanlıq amilidir. Ona görə də vəsiyyət ayəsinin əvvəlində valideyn yada salınır. Vəsiyyət elə tənzimlənməlidir ki, onlara irs payından əlavə də nə isə çatsın. Bu da ehsanın nümunələrindəndir.

**Vəsiyyətin növləri:**

**1. Vacib:** Məsələn, Allah haqqının, xalqın haqqının, qəza namazının və digər ibadətlərin, xüms və zəkat kimi vacib haqların, borcların yerinə yetirilməsi haqqında vəsiyyət;

**2. Müstəhəb:** Məsələn, xeyriyyə işləri üçün vəsiyyət;

**3. Mübah:** Məsələn, övladlara peşə, geyim, qida haqqında vəsiyyət;

**4. Məkruh:** Məsələn, qəbir üzərində məqbərə tikilməsi haqqında vəsiyyət;

**5. Haram:** Məsələn, fəsad mərkəzlərinin yaradılması, azdırıcı kitabların nəşri haqqında vəsiyyət.

---

[1] "Səfinətül-bihar".
[2] "Səfinətül-bihar".
[3] Nəhcül-fəsahə, c. 626.
[4] "Təfsiri-Ətyəbul-bəyan".
[5] "Vəsail", c. 13, s. 252.

## *Bildirişlər*

1. Ölüm insanın dünya həyatına son qoysa da, vəsiyyət kimi işlər onun əməl naməsini açıq saxlayır.
2. Mal və sərvət düzgün yolda sərf edilərsə, xeyirdir.
3. Vəsiyyətdə irsdən əlavə, valideyn və yaxınlar üçün pay ayrılmalıdır.
4. Vəsiyyət cəmiyyətdə bəyənilmiş adət əsasında olmalıdır.
5. Vəsiyyətin tərk olunması başqalarının haqlarına münasibətdə təqvasızlıq növüdür.

181. ﴿فَمَن بَدَّلَهُ بَعْدَمَا سَمِعَهُ فَإِنَّمَا إِثْمُهُ عَلَى الَّذِينَ يُبَدِّلُونَهُ إِنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ﴾

**“Hər kəs onu (vəsiyyəti) eşitdikdən sonra dəyişsə, bunun günahı yalnız onu dəyişənlərin öhdəsinədir. Həqiqətən, Allah eşidən və biləndir.”**

## *Nöqtələr*

◘Bu ayə vəsiyyəti dəyişmək istəyənlərə bir xəbərdarlıqdır. Əgər bir şəxs vəsiyyətin mətnindən xəbərdar olduqdan sonra onun icrasında dəyişikliklərə yol verərsə, bu dəyişiklik həmin ləyaqətsiz işi görənin boynunadır. Vəsiyyət edən isə etdiyi vəsiyyət əsasında əvəz alır. Məsələn, bir şəxs vəsiyyət edir ki, yüz fəqirə yardım edilsin. Vəsiyyəti icra edənlər buna əməl etməsələr, bu halda vəsiyyət edən şəxs yüz fəqirə yardımın savabını alır. Vəsiyyətdən xəbər tutmadan fəqirlər üçün vəsiyyət olunmuş payı alanlar üçün də günah yoxdur. Bu işdə yeganə günahkar vəsiyyəti dəyişib, fəqirin payını başqalarına verənlərdir. Elələri bilməlidirlər ki, Allah eşidən və biləndir, xəyanətlərinin cavabını dünya və axirətdə alacaqlar.

◘Hədisdə oxuyuruq: “Vəsiyyət yəhudi və məsihilərin xeyrinə də olsa, onu dəyişməyin.”1

## *Bildirişlər*

1. Başqalarının hər hansı vəsiyyəti dəyişməsi haramdır.
2. Mülkiyyət haqqı hətta insanın ölümündən sonra da möhtərəmdir. Vəsiyyəti dəyişməyə kimsənin haqqı yoxdur.
3. Bilərəkdən, qərəzlə edilən günah təhlükəlidir.
4. Vəsiyyət edərkən şahid tutmaq lazımdır.
5. Başqaları vəsiyyəti yerinə yetirməsələr də, vəsiyyət edənlər əvəz alırlar.
6. İnsanın Allah hüzurunda olduğuna inanması təqvanın və vəsiyyəti dəyişməməyin ən üstün amilidir.

182. ﴿فَمَنْ خَافَ مِن مُّوصٍ جَنَفًا أَوْ إِثْمًا فَأَصْلَحَ بَيْنَهُمْ فَلاَ إِثْمَ عَلَيْهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Hər kəs vəsiyyət edənin səhvindən və günahından qorxsa və onların arasında islah aparsa, günahkar olmaz. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘“Məcməül-bəyan” təfsirinin müəllifi “cənəf” sözünü büdrəməyə xəbərsiz meyl mənasında, “ism” sözünü isə bilərəkdən günah mənasında açıqlamışdır.

◘Bu barədə qadağan olan məsələ düzgün vəsiyyətlərin dəyişdirilməsidir. Amma bir vəsiyyət fitnə səbəbidirsə və ya dini ölçülərə ziddirsə, onu dəyişməyin eybi yoxdur. Əgər bir şəxs öz var-dövlətinin üçdə birindən çoxunu vəsiyyət edərsə, bu miqdarı azaltmaq olar. Əgər vəsiyyət edilən işlər günahdırsa, vəsiyyəti dəyişməyin eybi yoxdur. Vəsiyyət fitnə-fəsad yaradırsa, İslam hakiminin razılığı ilə bu vəsiyyəti dəyişmək mümkündür. Bütün hallarda İslam

---

[1] “Təfsire-Nurus-səqəleyn”, c. 1, s. 159.

üçün çıxılmaz vəziyyət yoxdur. Bütün əməllərin nəticəsi təqva olduğundan, təqvaya zidd bütün işləri islah etmək olar.

## *Bildirişlər*

1. "Əhəmm" və "mühümm" (əhəmiyyətli və ən əhəmiyyətli) məsələlərinə diqqətli olmaq lazımdır. Vəsiyyətə hörmət mühümdür. Amma fitnəni aradan qaldırmaq və müsəlmanların işlərini islah etmək daha mühümdür.

2. Vəsiyyətin dəyişməsi fitnəni aradan qaldırmağa və islaha əsaslanmalıdır.

183. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**"Ey iman gətirənlər! Oruc sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizin üçün də vacib edildi. Bəlkə təqvalı olasınız."**

## *Nöqtələr*

◘Təqva günahdan çəkinmək mənasını bildirir. Əksər günahlar qəzəb və şəhvət kimi iki kökdən qaynaqlanır. Oruc bu iki meylin (qərizə) qarşısını alır. Ona görə də oruc vasitəsi ilə fəsad azalır, təqva isə yüksəlir.[1]

◘Quran təfsirçilərinin və alimlərinin nəzərincə, "ey iman gətirənlər" xitabı ilə başlayan ayələr Mədinədə nazil olmuşdur və Mədinə ayələrindən sayılır. Oruc hökmü də cihad, zəkat hökmləri kimi (hicri) ikinci ildə verilmişdir.

**◘Orucun təsir və bərəkətləri:**

Təqva və allahpərəstlik orucun zahirdə və batindəki mühüm əsərləridir. Oruc yeganə gizli ibadətdir. Namazı, həcci, cihadı, zəkatı, xümsü xalq görür. Orucu izləmək isə mümkünsüzdür. Oruc insan iradəsini möhkəmləndirir. Bir ay müddətində yemək-içməkdən, bir çox nəfs istəklərindən kənarlaşan insan xalqın malına və namusuna münasibətdə özünə nəzarət edə bilir. Oruc mərhəmət hisslərinin güclənməsinə səbəb olur. Bir ay müddətində aclığı dadan insan yoxsulluq içində yaşayanların dərdinə şərik olur. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Oruc səbrin yarısıdır."[1] Adi insanların orucu yemək-içməkdən və cinsi yaxınlıqdan çəkinməkdir. Orucu bəyənilmiş şəkildə tutanlar isə orucu batil edən şeylərdən çəkinməklə yanaşı, böyüklü-kiçikli digər günahlardan da uzaqlaşırlar. Allahın xas bəndələri isə nəinki orucu pozan işləri görmür və günahdan çəkinir, hətta qəlblərini Allah zikrindən xali etmirlər.[2] Oruc insanı mələklərə oxşadır. O, eynən mələklər tək yeyib-içmir, şəhvətdən uzaq olur.[3]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs Ramazan ayında Allaha görə oruc tutsa, bütün günahları bağışlanar."[4] Qüdsi bir hədisdə nəql olunur ki, Allah-təala buyurmuşdur: "Oruc Mənim üçündür və Mən onun əvəzini verərəm."[5]

Oruc o qədər əhəmiyyətlidir ki, rəvayətlərdə bir çox ibadətlərin savabı orucun savabı ilə müqayisə olunur.[6] Oruc əvvəlki ümmətlər üçün də vacib olmuşdur. Amma ramazan ayının orucu peyğəmbərlərə məxsusdur. Belə bir oruc bütün İslam ümməti üçün də vacib edilmişdir.[7] Nəql olunur ki, həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Hər bir şeyin zəkatı var və bədənlərin də zəkatı orucdur."[8]

---

[1] "Təfsiri-Əl-Minar".
[2] "Təfsiri-Ruhul-bəyan".
[3] Sahibe-Cəvahir", Ayətullah Cavadinin dilindən.
[4] "Təfsiri-Məraği", c. 2, s. 69.
[5] "Təfsiri-Məraği", c. 2, s. 69.
[6] "Kafi", c. 2, s. 100.
[7] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 136.
[8] "Bihar", c. 69, s. 380.

## *Bildirişlər*

1. Gözəl müraciət sözün qəbulunda təsirli bir addımdır.

“Məcməul-bəyanda” belə bir hədis nəql olunur: “Ey iman gətirənlər” xitabının ləzzəti orucun çətinliyini asanlaşdırır. Valideynlər istəsələr ki, övladları onların sözünə qulaq assın, onlara gözəl şəkildə müraciət etməlidirlər.

2. Çətin göstərişləri asan göstərmək təbliğ şivələrindəndir. Bu ayədə buyurulur: "Oruc göstərişi təkcə siz müsəlmanlara aid deyil." Bütün əvvəlki ümmətlər üçün olan bir göstəriş təkcə bir ümmət üçün olan göstərişdən asandır.

3. Quranda bir çox hökmlərin fəlsəfəsi, eləcə də orucun fəlsəfəsi bəyan olunmuşdur. Xalq gördüyü işin nəticəsini bildikdə daha həvəslə çalışır.

184. ﴿أَيَّامًا مَّعْدُودَاتٍ فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ
فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ فَمَن تَطَوَّعَ خَيْرًا فَهُوَ خَيْرٌ لَّهُ وَأَن تَصُومُوا خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**“Bir neçə sayı müəyyən gün, (sizin üçün oruc qərar verildi.) Amma hansınız xəstə və ya səfərdə olsa, digər günlər həmin sayda (oruc tutsun). Oruc tutmağa taqəti olmayanlar (xəstələr, qoca kişi və qadınlar) kəffarə verməli, miskini doyurmalıdırlar. Hər kəs öz meyli ilə çox yaxşılıq etsə, onun üçün daha yaxşıdır. Amma əgər (orucun əsərlərini) bilsəniz, (anlayarsınız ki,) oruc tutmaq sizin üçün yaxşıdır. (Heç vaxt orucunu üzürlü səbəbdən yeyənlərə qibtə etməzsiniz.)**

## *Nöqtələr*

◘Ərəb dili qrammatikasında “ifal” babının mənalarından biri "aradan götürülmə"dir. Məsələn, lallıq mənasını verən “ucmə” sözü “ifal” babında “icam” olur. Bu söz lallığın aradan getməsini bildirir. Bu ayədəki “yutiqunə” sözü də güc-qüvvənin götrülməsini bildirir.

◘Allah əmrinə təslimçilik bir dəyərdir. Əgər oruc tutmaq əmr olunursa oruc tutmalıyıq, əgər iftar etmək hökm olunursa orucumuzu açmalıyıq.

“Məcməul-bəyanda” nəql olunur: Peyğəmbərin səhabələrindən bir dəstəsi hətta səfərdə də oruc tutur və öz oruclarını açmaq istəmirdilər. Həzrət Peyğəmbər (s) onları günahda suçladı. İmam Sadiq (ə) buyurmuşdur: “Əgər bir şəxs səfərdə oruc tutsa, mən onun cənazəsinə namaz qılmaram.” “Təfsiri-Qurtubi”də də nəql olunmuşdur ki, həzrət Peyğəmbər (s) Ramazan ayı Mədinədən Məkkəyə səfər edərkən yolda su istədi. O, su qabını əlinə götürdü ki, xalq bunu görsün. Hamı bunu müşahidə etdikdən sonra həzrət su içdi.

İstənilən halda müsafir və ya xəstə insan oruc tutarsa, bu oruc batildir və onun qəzasını yerinə yetirmək lazımdır.[1] İmam Sadiq (ə) buyurmuşdur: “Hətta körpəsinin süd əmməsindən və ya bətnindəki körpədən nigaran olarsa, orucunu iftar etməlidir. Bu, Allahın lütf nişanəsidir.”[2]

## *Bildirişlər*

1. İslamın istənilən bir şəraitdə, istənilən bir fərd üçün münasib qanunları var. Bu ayədə müsafirlərin, xəstələrin və qocaların hökmü bəyan olunmuşdur.

2. Şərait hökmün, təsirlərin və mənafelərin fəlsəfəsini biryolluq aradan aparmamalıdır. Əgər xəstə və ya müsafir şəxs bir şəraitdə oruc tuta bilmirsə, başqa bir vaxt həmin orucun qəzasını yerinə yetirməlidir. Orucun faydasından biryolluq məhrum qalmaq olmaz.

---

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 164.
[2] “Təfsiri-Bürhan”, c. 1, s. 182.

3. Səfər məqsədi öz-özlüyündə oruca mane olmur. Orucu pozmaq üçün səfərə çıxmaq zəruridir.

4. Orucun qəzalarının xüsusi vaxtı yoxdur.

5. Qüvvə vəzifə şərtidir.

6. Fəqirlərin yedirdilməsi əhkam mətnində yerləşdirilmişdir.

7. Yalnız həvəslə yerinə yetirilən ibadətlər inkişaf və Allaha yaxınlıq səbəbidir.

8. İlahi göstərişlər ən aşağı hədləri hamıya vacib etmişdir. Yuxarı dərəcələr isə insanın öz ixtiyarındadır. Ayədə bir acı doyurmaq vacib, birdən artığını yedirtmək isə müstəhəb əməl ünvanı ilə insanın ixtiyarında qoyulmuşdur.

9. İlahi göstərişlərin yerinə yetirilməsinin Allaha yox, insana aid müsbət təsirləri var.

185. ﴿شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ فَمَن شَهِدَ مِنكُمُ
الشَّهْرَ فَلْيَصُمْهُ وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللّهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ
وَلِتُكْمِلُواْ الْعِدَّةَ وَلِتُكَبِّرُواْ اللّهَ عَلَى مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Ramazan ayı bir aydır ki, Quran onda nazil olmuşdur. (Quran) aşkar dəlillərlə xalqı hidayət edən və haqqı batildən ayıran vasitədir. Sizlərdən hər kəs bu aya yetişsə oruc tutmalıdır. Xəstə və ya səfərdə olan şəxs başqa günləri həmin sayda oruc tutsun. Allah sizin üçün çətinlik yox, asanlıq istəyir. (Orucun qəzası) onun üçündür ki, müəyyən olmuş günlərin sayını tamlaşdırasınız və sizi hidayət etdiyi üçün Allahı yada salasınız. Bəlkə şükür edən olasınız.”**

## *Nöqtələr*

◘“Ramazan” sözü yandırmaq mənasını verən “rəmz” kökündəndir. Bu elə bir yanmadır ki, tüstüsü və külü olmur. Uyğun sözün bu ay haqqında işlədilməsinin səbəbi həmin ayda insanın günahlarının yanmasıdır.

◘Ramazan ayı Quranın nazil olduğu aydır. Bu ay Quranda adı çəkilən yeganə aydır. Qədr gecəsi də bu aydadır. “Təfsiri-Bürhanda” həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunmuşdur: Bütün səmavi kitablar ramazan ayında nazil olmuşdur. Ramazan ayı Allahın ən üstün ayıdır.” Həzrət Peyğəmbər (s) şəban ayının axırıncı cümə günü Ramazan ayının əzəməti haqqında müfəssəl bir xütbə oxumuşdur. Bu xütbə bəzi təfsir və rəvayət kitablarında nəql edilmişdir.[1] “Səhifeye-Səccadiyyədə” də imam Səccadın (ə) Ramazan ayının sona yetməsi ilə bağlı qəlb alovlandıran bir münacatı vardır.

◘İslam asan bir dindir və onun bünövrəsi çətinliklər üzərində qurulmamışdır. Kim xəstə və ya müsafirdirsə, oruc tutmamalıdır. Belələri buraxdıqları günlərin sayı qədər növbəti günlərdə qəza orucunu yerinə yetirməlidirlər. Əgər dəstəmaz almaq çətindirsə, təyəmmüm etmək olar. Əgər namazda ayaq üstə durmaq çətinlik yaradırsa, oturaq halda namaz qılmağa icazə var. Bu qanun fiqhdə “qaideyi-la hərəc” adı ilə məşhurdur.

**Ramazan ilahi qonaqlıq ayıdır.**

◘Ramazanda möminlər “ya əyyuhəlləzinə amənu kutibə ələykumus-siyam” dəvətnaməsi ilə ilahi qonaqlığa çağırılmışlar. Bu qonaqlığın xüsusiyyətləri vardır:

1. Süfrə sahibi Allahdır. O, qonaqları Özü şəxsən dəvət etmişdir.

2. Qəbul vasitəsi Qədr gecəsi Quranın nazil olması, mələklərin enməsi, duaların qəbulu, ruhların lətafəti və cəhənnəmdən uzaqlıqdır.

3. Qəbul zamanı Ramazan ayıdır. Rəvayətlərin bildirdiyinə görə, onun əvvəli rəhmət, ortası bağışlanma, sonu isə mükafatdır.

---

[1]“Bihar”, c. 96, s. 356.

4. Qədr gecəsi qəbul belədir ki, həmin gecə qonaqların bir illik ehtiyacı təmin olunur. Mələklərin nazil olması ilə Qədr gecəsində yer üzü zinətlənir.

5. Bu ayın qidası ruhi qidadır və mənəvi təkamül üçün bu qida zəruridir. Bu qonaqlığın qida lütfü Quran ayələridir. Ramazan ayında tilavət olmuş bir ayə digər aylarda bütün Quranı oxumağa bərabərdir.

Bu qonaqlığın dünyəvi qonaqlıqlara heç bir oxşarı yoxdur. Bu qonaqlıqda alim, qəni, xaliq, əbədi, əziz, cəlil Allah cahil, fəqir, fani, yaranmış və zəlil insanları süfrə ətrafına toplayır. O buyurur: "Mən sizin dualarınızı qəbul edər və Ramazan ayında çəkdiyiniz hər nəfəs üçün bir təsbih mükafat əta edərəm." (Peyğəmbərin Şəban xütbəsindəki axırıncı cümləsindən.)

**Qonaqlığın ədəbləri:**

◘"Vəsailuş-şiədə" oruc tutan şəxsin əxlaqı haqqında geniş bir rəvayətdə oxuyuruq: "Oruc şəxs yalandan, günahdan, yersiz mübahisədən, həsəddən, qeybətdən, haqqa qarşı çıxmaqdan, söyüşdən, danlaqdan, qəzəbdən, tənədən, zülm və xalqa əziyyətdən, qəflətdən, günahkarlarla ünsiyyətdən, söz gəzdirməkdən, haram yeməkdən uzaq olsun. Namaz, səbir və sədaqətə, qiyamətin xatırlanmasına xüsusi diqqət yetirsin."[1]

Bu qonaqlıqda iştirakın şərti təkcə aclığa dözüm deyil. Hədisdə nəql olunmuşdur: Səmavi rəhbərlərin itaətindən çıxan, ailə və şəxsi məsələlərdə zövcəsi ilə pis rəftar edən, onun şəri istəklərini yerinə yetirməyən, valideynini narazı salan kəsin orucu qəbul deyil. Belə şəxs ilahi ziyafətin şərtlərini yerinə yetirməmişdir.

◘Oruc bədəndən çöküntü maddələri çıxarmaq kimi tibbi faydaya malik olsa da, səhər oyanmaq, ruhun lətafəti, bu ayda duaların qəbulu başqa bir aləmdir. Əsil məhrum o şəxsdir ki, bütün bu xeyir və bərəkətlərdən məhrum qalsın.

## *Bildirişlər*

1. Ramazanı dəyərli edən həmin ayda Quranın nazil olmasıdır. İnsan da elə dəyərli ola bilər ki, Quran onlara nüfuz etmiş olsun.
2. Hidayətin mərhələləri vardır: biri ümumi mərhələ, digəri xüsusi mərhələ.
3. Ramazan ayının çatmasına əminlik yarandıqda oruc vacib olur.
4. Xəstə və müsafir üçün orucun qəzasını tutmaq vacibdir.
5. Qəza orucu üçün xüsusi bir vaxt təyin olunmayıb.
6. İlahi hökmlərdə onların yüngüllüyü və insanın taqəti nəzərə alınıb.
7. Çətinlik və sıxıntı vacib vəzifələri insanın çiynindən götürür.
8. Qəza orucu üzürlü günlərin sayı qədər olmalıdır.
9. İbadətin yerinə yetirilməsində hidayət və tovfiq Allah tərəfindəndir. Təkbir Allahın uca tutulmasını və Ondan qeyrilərinə diqqətsizliyin göstəricisidir.
10. Oruc, insanın hidayəti və şükür etməsi üçün zəmin yaradır.

186. ﴿وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُواْ لِي وَلْيُؤْمِنُواْ بِي
لَعَلَّهُمْ يَرْشُدُونَ﴾

**"Əgər bəndələrim səndən Mənim haqqımda soruşsalar, (de ki,) həqiqətən, Mən yaxınam. Mənə üz tutanın duasını Məni çağırdığı vaxt cavablandırıram. Belə isi, Mənim dəvətimi qəbul etməli və Mənə iman gətirməlidirlər. Bəlkə yetkinləşələr."**

[1] "Vəsail", c. 7, s. 119.

## *Nöqtələr*

◘Bəziləri Allahın rəsulundan soruşurdular: "Allahı necə çağıraq? Allah bizə yaxındır, yoxsa uzaq? Onu yavaş çağıraq, yoxsa ucadan?" Onların cavabında bu ayə nazil oldu.

◘Dua edən kəs Allahın məhəbbətini elə cəlb edir ki, bu ayədə Allah Öz lütfünün izharı üçün altı dəfə "Özüm" təbirini işlədir: Əgər bəndələrim Özüm haqqımda soruşsalar, onlara de ki, Mən Özüm onlara yaxınam. Əgər Məni çağırsalar, Özüm onların duasını qəbul edərəm. Belə ki, Özümə iman gətirsinlər və Öz dəvətimi qəbul etsinlər...

Bu məhəbbətli əlaqə o zaman yaranır ki, insan Allahla münacat etmək istəsin.

Dua etmək külli varlıqla yoldaş və həmrəngdir. Quran ayələrinə əsasən, bütün varlıq aləmi təsbih və qünutdadır.[1] bütün mövcudlar öz ehtiyacını Onun dərgahına izhar edir.[2] Biz də Ondan istəyək ki, varlıq aləmində ixtilaf vasitəsi olmayaq.

◘Quranda dua haqqında sifarişlər vardır. O cümlədən:

1. Dua və istək xalisanə olmalıdır.[3]
2. Dua qorxu və ümidlə müşayiət olunmalıdır.[4]
3. Dua eşq, rəğbət və qorxu ilə yanaşı gerçəkləşməlidir.[5]
4. İnsan zəlilliklə və gizli şəkildə dua etməlidir.[6]
5. Dua gizlincə oxunmalıdır.[7]

◘"Üsuli-Kafi"də duanın əhəmiyyəti, rolu, qaydaları barədə, dua zamanı diqqət, israr və istəklərin zikri haqqında, cəm halda dua və duanın qəbul olmasına iman barədə yüzlərlə hədis nəql olunmuşdur.[8]

**Sual:** Nə üçün bəzən dualarımız qəbul olmur?

**Cavab:** Dualarımızın qəbul olmamasının səbəbi ya şirk, ya da cəhalətimizdir. "Təfsiri-Əl-Mizanda" oxuyuruq ki, Allah bu ayədə buyurmuşdur: "Özüm qəbul edərəm o dua edənin duasını ki, yalnız Məni çağırsın və tam ixlasla Məndən istəsin."

Deməк, dua qəbul olmadısa, bunun səbəbi ya xeyirsiz şey istəməyimiz, ya xalisliklə istəməməyimizdir. Başqalarından kömək gözləməklə edilən dua da qəbul olmur. Bəzən insan öz məsləhətinə olmayan şeylər istəyir. Rəvayətlərin buyurduğuna əsasən, bu halda həmin duanın əvəzinə bəlalar bizdən uzaqlaşdırılır. Bəzən də duanın nəticəsi gələcəyimizə və ya nəslimizə saxlanılır. Bəzən də duanın əvəzi axirətdə verilir.

"Üsuli-Kafi"də oxuyuruq: Haram yeyənin, əmr be məruf və nəhy əz munkəri tərk edənin, etinasız şəkildə dua edənin duası qəbul olmaz.

◘Dua o demək deyil ki, iş-güc, fəaliyyət tərk olunsun, Allaha təvəkkül təlaşla yanaşı olmalıdır. Hədisdə oxuyuruq: İşsizin duası qəbul olmaz.

◘Dua ayəsinin oruc ayələri arasında yerləşməsinin səbəbi bu ola bilər ki, Allah ayı ilə dua arasında yaxınlıq çoxdur.

**Sual:** Əgər Allahın işləri qanuna, sabit amil və sünnətlərə əsaslanırsa, duanın nə faydası var?

**Cavab:** Müsafirin namaz və orucu vətənində olan insanın namaz və orucundan fərqləndiyi kimi, dua edənin də halı Allahdan xəbərsiz insanın halından fərqlənir. Allahın lütfü birinciyə yox, ikinciyə aiddir. Bəli, dua və Allahla söhbət insanın tutumunu artırır. Necə ki, Allah övliyalarına təvəssül və onların ziyarəti insanın şəraitini dəyişir. Uşaq atası ilə olduqda təklikdə

---

[1] Bax: "Bəqərə", 116.
[2] Bax: "Ər-rəhman", 29.
[3] Bax: "Ğafir", 14.
[4] Bax: "Ə'raf", 56.
[5] Bax: "Ənbiya", 90.
[6] Bax: "Ə'raf", 55.
[7] Bax: "Məryəm", 3.
[8] "Kafi", c. 2, "Kitabud-dua".

olduğu vaxtdan daha çox məhəbbət görür. Beləcə, dua, ziyarət və təvəssül şəraiti dəyişir. Amma bu o demək deyil ki, dua Allahın qəti qanunlarını gücdən salır.

◘Allahın öz bəndəsi ilə yaxınlığı haqqında Feyz Kaşani deyir:

*Sordum: niyə pünhan qalmış o nur üz? Dedi: üz açıqdır, əgər baxsa göz.*
*Dedim: çoxmu çəkər hicran, ayrılıq? Dedi: nə qədər ki, gözdə var sarıq.*

## *Bildirişlər*

1. Dua hər yerdə və hər zaman faydalıdır. Çünki Allah buyurmuşdur: "Mən yaxınam". (Müqəddəs yerlərdə dua ilə bağlı qeydlər duanın yalnız həmin yerdə qəbul olması yox, fəziləti bəyan edir.)
2. Allah bizə yaxındır. Bəs biz necə? Əgər bəzən Allahın qəzəbinə düçar oluruqsa, bunun səbəbi günahlara görə ondan uzaq düşməyimizdir.
3. Allah duaları xüsusi vaxtlarda yox, hər zaman qəbul edir. "Ucibu" davam nişanəsidir.
4. Allah hər şeyi bilsə də, bizim vəzifəmiz dua etməkdir.
5. Dua imanla yanaşı olduqda qəbul edilir.
6. Dua inkişaf və hidayət vasitəsidir.

187. ﴿أُحِلَّ لَكُمْ لَيْلَةَ الصِّيَامِ الرَّفَثُ إِلَى نِسَآئِكُمْ هُنَّ لِبَاسٌ لَّكُمْ وَأَنتُمْ لِبَاسٌ لَّهُنَّ عَلِمَ اللّهُ أَنَّكُمْ كُنتُمْ
تَخْتانُونَ أَنفُسَكُمْ فَتَابَ عَلَيْكُمْ وَعَفَا عَنكُمْ فَالآنَ بَاشِرُوهُنَّ وَابْتَغُواْ مَا كَتَبَ اللّهُ لَكُمْ وَكُلُواْ وَاشْرَبُواْ حَتَّى
يَتَبَيَّنَ لَكُمُ الْخَيْطُ الأَبْيَضُ مِنَ الْخَيْطِ الأَسْوَدِ مِنَ الْفَجْرِ ثُمَّ أَتِمُّواْ الصِّيَامَ إِلَى الَّليْلِ وَلاَ تُبَاشِرُوهُنَّ وَأَنتُمْ
عَاكِفُونَ فِي الْمَسَاجِدِ تِلْكَ حُدُودُ اللّهِ فَلاَ تَقْرَبُوهَا كَذَلِكَ يُبَيِّنُ اللّهُ آيَاتِهِ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَّقُونَ﴾

**"Oruc gecələri zövcələrinizlə yaxınlıq sizə halal oldu. Onlar sizin, siz isə onların libasısınız. Allah sizin özünüzə xəyanət etdiyinizi bilirdi. (Bəzən qadağan olunmuş yaxınlığa yol verirdiniz). Tövbənizi qəbul etdi, (indi) onlarla yaxınlıq edin. Allahın sizin üçün müəyyənləşdirdiyini tələb edin. Ağ sap qara sapdan seçilənədək yeyin, için. Sonra orucu gecəyədək tamamlayın. Məsciddə mötəkif (oruc ağıza ibadət) olduğunuz vaxt zövcələrinizlə yaxınlıq etməyin. Bu, Allahın hədd və hökmüdür. (Təcavüz və günah məqsədi ilə ona yaxınlaşmayın. Allah öz ayələrini xalqa belə aydınlaşdırır. Bəlkə təqvalı olasınız."**

## *Nöqtələr*

◘İslamın əvvəllərində Ramazan ayının həm gecə, həm gündüzü zövcə ilə yaxınlıq qadağan idi. Eləcə də, gecənin yalnız müəyyən saatı iftara icazə verilirdi. Əgər bir şəxsi həmin vaxt yuxu apарardısa, sonra iftar etmək icazəsi yox idi. Bəzi müsəlmanlar yaxınlıq qadağan olsa da, bu işi görürdülər. Amma bəziləri nə qədər ağır olsa da, oyandıqdan sonra gecə yeməkdən çəkinirdilər.

Peyğəmbərin yaxınlarından olan Mütəm ibn Cübeyr xörək gec hazır olduğundan iftar vaxtı yatmış, ayıldığı vaxt demişdi: "Artıq yemək haqqım yoxdur." O, səhəri gün ac halda oruc tutdu. Belə bir vəziyyətdə Mədinə ətrafında xəndək qazmağa gedən bu şəxs iş əsnasında zəifləyib huşunu itirdi. Peyğəmbər çox narahat oldu. Bu ayə nazil oldu ki, dan yeri sökülənədək yemək azaddır və Ramazan gecələri zövcələrlə yaxınlığın eybi yoxdur. Allah bilir ki, bəndələri

özlərinə xəyanət etdilər və onların səbri yoxdur. Bu səbəbdən də vəzifəni yüngülləşdirdi və bəndələrin keçmişini əfv etdi.

◘"Etikaf" dünyadan uzaqlaşmaq və Allaha sığınmaqdır. Həzrət Peyğəmbər (s) mövcud çətinliklərə baxmayaraq arabir məsciddə bir neçə gün mötəkif olar, ibadət edərdi. O, bu yolla öz ruhuna səfa verər, onu sakitləşdirərdi. Mötəkif olmayan halda da məsciddə yaxınlıq qadağandır. Nəzərə gəlir ki, "akifun" sözündə məqsəd məsciddə qalmaqdır. Burada etikaf kimi xüsusi ibadət nəzərdə tutulmamışdır.

Zövcənin libasa oxşadılmasında bir çox incə nöqtələr var:

- Libas forma, rəng və parça baxımından insana münasib olmalıdır. Zövcə də insanın oxşarı olmalı, onun fikri, əqidəsi, şəxsiyyəti ilə uyğun gəlməlidir.
- Libas zinət və aramlıq səbəbidir. Zövcə və övlad da ailədə aramlığın əsasıdır.
- Libas insanın eybini örtür. Ər də - arvad da bir-birlərinin eyblərini, nöqsanlarını örtməlidirlər.
- Libas insanı istidən, soyuqdan qoruyur. Həyat yoldaşı da ailə ocağında istiliyi saxlayır.
- Libassızlıq rüsvayçılıqdır. Subaylıq da azğınlıq və rüsvaylıq səbəbi olur.
- Soyuq havada qalın, isti havada yüngül libasdan istifadə olunur. Ər də, arvad da bir-birlərinin ruhi ehtiyaclarına münasib əxlaq və rəftarla cavab verməlidirlər. Əgər kişi əsəbidirsə, qadın onunla yumşaq rəftar etsin. Əgər qadın xəstədirsə, kişi onunla keçinsin.
- İnsan öz libasını çirkabdan qorumalıdır. Həyat yoldaşları da bir-birlərini günaha batmaqdan hifz etməlidirlər.

## *Bildirişlər*

1. Hökmlərin yüngülləşdirilməsi və asanlaşdırılması İslam dininin xüsusiyyətlərindəndir.
2. Danışıqda ədəbi gözləmək Quranın xüsusiyyətlərindəndir. "Rəfəs" yaxınlıq məsələləri haqqındakı söhbət mənasındadır. Bu ayədə həmin söz yaxınlıq mənasında işlədilmişdir.
3. Nə vaxt bir yolu bağlamaq istədinizsə, şəri bir yolu açıq saxlayın. Çünki Allah Ramazan günü yaxınlığı qadağan etsə də, gecələr bunu caiz saymışdır. (Cinsi yaxınlıq hər ayın əvvəlində məkruh olsa da, Ramazan ayının əvvəlində müstəhəbdir. Bəlkə də bunun səbəbi əvvəlcə insanların təmini, sonra onlardan vəzifə tələbi olmuş olsun.)
4. Gündüz ibadət və gecə şəri ləzzət İslam dininin əhatəli olduğunu göstərir.
5. İslam təbii ehtiyaclara diqqətlə yanaşır.
6. Qadın və kişinin bir-birlərinə ehtiyacı ikitərəflidir. Onların hər biri təbii ehtiyacların ödənməsində o birinə möhtacdır.
7. Allah insanların ən cüzi işlərindən də xəbərdardır.
8. İnsan xətaya yol verəndir və ondakı cinsi meyl güclüdür.
9. Allahın əmrindən çıxmaq özünüzə qarşı xəyanət və zülmdür.
10. Övladlarınızın oğlan və qız olmasını Allah üçün vəzifə müəyyənləşdirməyin.
11. Cinsi yaxınlıq da məqsədli olmalıdır.
12. İslami hökmlərin meyarı ümumi, təbii və sadə meyarlardır. Sübh ağartısını və ya gecənin qaralmasını hər bir şəxs istənilən bir yerdə təyin edə bilər.
13. İbadətlərdə müəyyənləşdirilmiş vaxtların roluna diqqətsiz olmayın.
14. Etikaf məsciddə ibadət üçün qalmaqdır. Mötəkif şəxs həm də oruc tutmalıdır.
15. Günahın qarşısı alınmalıdır. Quran buyurmuşdur: Günaha yaxınlaşmayın. Çünki günaha yaxınlaşmaq günaha batmaqla yanaşıdır.
16. Təqva ilahi hökmlərin fəlsəfəsidir. Oruc təqva üçündür. Şəri cinsi yaxınlıq da təqvaya xatirdir.
17. İlahi göstərişlərə əməl inkişaf və təqva üçün zəminədir.

188. ﴿وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقًا مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ﴾

**“Bir-birinizin malını öz aranızda haqsız yerə yeməyin. Xalqın malını günah yolla yemək üçün varınızı hakimlərə, qazılara boşlamayın. Bir halda ki, özünüz bilirsiniz (ki, xilaf edirsiniz).”**

## *Nöqtələr*

◘“Tudlu” qabı quyuya buraxmaq, boşlamaq mənasını verir. Bu ayədə qazıya rüşvət verilməsi də ona oxşadılmışdır. “Əmvalun-nas” dedikdə isə həm ümumi, həm də xüsusi mal nəzərdə tutulur. Rüşvət xalqın qeyri-mali haqqının alınması üçün veriləndə də qadağandır.

## *Rüşvət*

Rüşvət bir çox ictimai fəsadlara malik böyük günahlardandır. Ədalətsizlik, zəif təbəqənin ümidsizliyi, zorlularının cürətlənməsi, hakim və qazilərin fəsadı, qarşılıqlı etimadın puça çıxması rüşvətdən doğan fəsadlardandır.

Bu mənfi əsərlər nəzərə alınmaqla rəvayətlərdə rüşvət ciddi şəkildə tənqid olunmuşdur. Həzrət Peyğəmbər (s) həzrət Əliyə xitabən buyurmuşdur: “Ey Əli, ölmüş heyvanı satmaqdan əldə olunan qazanc, it, şərab, zina, rüşvət eynidir və haramdır.”[1] Eləcə də, həzrət Əli (ə) “Maidə” surəsinin qırx ikinci ayəsi ilə bağlı buyurmuşdur: “Rüşvətxor o kəslərdir ki, xalqın çətinliyini həll edib, bunun müqabilində hədiyyə alırlar.”[2] İmam Sadiq (ə) rüşvəti Allaha qarşı küfr həddində tanıtdırır. Həzrət Peyğəmbər (s) rüşvəti verənə, onu alana və vasitəçilik edənə lənət edərək buyurdu: “Rüşvət sahibinə behişt qoxusu çatmaz.”

Digər bir hədisdə oxuyuruq: Xalqın çətinliklərinə münasibətdə biganə olan hakimdən Allah Öz lütfünü pərdələyər. Xalqın işini görmək üçün hədiyyə qəbul etsə zəncirlənər, əgər rüşvət alsa müşrik olar.”[3]

Həzrət Əli (ə) rüşvət alan şəxsi vilayət haqqından məhrum sayır.[4] Həzrət digər bir yerdə buyurmuşdur: Bütün rüşvət alanlar qorxuya, iztiraba və nigarançılığa düçar oldular.”[5]

◘Bəziləri öz işlərinə don geyindirmək üçün rüşvətə min bir ad qoyurlar. Kimi onu hədiyyə, kimi də zəhmət haqqı kimi qəbul edir. Əşəs ibn Qeys adlı bir şəxs hədiyyə adı ilə həzrət Əliyə (ə) halva gətirmişdi. O ümid edirdi ki, bu yolla məhkəmədə İmam (ə) onun xeyrinə qərar çıxara. İmam buyurdu: “And olsun Allaha! Əgər yeddi iqlimi mənə bağışlasan ki, arpa qabığını haqsız yerə qarışqanın ağzından alım, bu iş olmayacaq.”[6]

◘Bir şəxs İslam peyğəmbərinə dedi: “Mən müəyyən işlərin məsuliyyətini daşıyıram. Xalq isə mənim üçün hədiyyələr gətirir. Bu məsələyə münasibətiniz necədir?!” Həzrət onun cavabında buyurdu: “Necə olur ki, bizim işçilərə hədiyyə gətirilir?! Əgər onlar evdə otursaydılar, onlara hədiyyə verilərdimi?!”[7]

## *Bildirişlər*

1. Mülkiyyət doğru yolla əldə olunmalıdır. Məsələn, qazanc, ticarət, əkinçilik, sənət, irs, hədiyyə kimi. Amma batil yolla, rüşvət vasitəsi ilə mülkiyyət yaranmır.

---

[1] “Bihar”, c. 77, s. 54.
[2] “Bihar”, c. 104, s. 273.
[3] “Vəsail”, c. 12, s. 63.
[4] “Nəhcül-bəlağə” xütbə 131.
[5] “Nəhcül-fəsahə”, hikmət 2693.
[6] “Nəhcül-bəlağə” xütbə 224.
[7] “Nəhcül-fəsahə” hikmət 539.

2. Cəmiyyət vahid bir bədən kimidir.
3. Rüşvət haramdır və insan başqalarının malına sahib durmaq üçün rüşvət verə bilməz.
4. İslam xalqı öz mallarının sahibi bilir.
5. Bilərəkdən azğınlıq təhlükəlidir.

189. ﴿يَسْأَلُونَكَ عَنِ الأهِلَّةِ قُلْ هِيَ مَوَاقِيتُ لِلنَّاسِ وَالْحَجِّ وَلَيْسَ الْبِرُّ بِأَنْ تَأْتُوْاْ الْبُيُوتَ مِن ظُهُورِهَا وَلَكِنَّ الْبِرَّ مَنِ اتَّقَى وَأْتُواْ الْبُيُوتَ مِنْ أَبْوَابِهَا وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**“Səndən ayın hilalları (onların hikməti) haqqında soruşurlar. De ki, bunun səbəbi xalqın vaxtları və həcc zamanını tanımasıdır. (Ey peyğəmbər, onlara de,) yaxşılıq o deyil ki, (həcc ehramı halında) evlərə arxadan daxil olasınız. Yaxşılıq odur ki, təqva yolunu tutasınız və qapılardan daxil olasınız. Allahdan qorxun. Bəlkə nicat tapasınız.”**

## *Nöqtələr*

◘“Miqat” sözünün cəm forması olan “məvaqit” sözü konkret bir iş üçün müəyyən olunmuş zaman və ya məkana deyilir.

◘Bu ayədə peyğəmbərə ayla bağlı ünvanlanan suala cavab verilərkən bəzi nöqtələrə işarə olunur. Həmin nöqtələri birlikdə araşdıraq: Ey peyğəmbər! Ayın müxtəlif cilvələrinin faydaları haqqında soruşanlara de ki, ayda baş verən dəyişikliklər xalq üçün vaxtı tanımaq, ümumi və təbii təqvim vasitəsidir. İslamın imtiyazlarından biri budur ki, öz proqramını təbii, ümumi və xərcsiz miqyaslar üzərində qurmuşdur. Məsələn, kürr suyun miqdarının təyini üçün qarış götürülmüşdür. Namaz vaxtının təyinində günəşin tülusu, qürubu və batması vasitədir. Ramazan ayının və həcc dövrünün başlayıb sona çatma vaxtı ay vasitəsi ilə müəyyənləşdirilir. Ayın müxtəlif şəkilləri ümumi təqvim rolunu oynayır və hamının ixtiyarındadır. Təqvim və tarixə ehtiyac ictimai həyatın zərurətlərindəndir. Bu təqvimin ən üstün cəhəti odur ki, istər savadlı, istər savadsız şəxs harada olur olsun, bir baxışla zəruri vaxtı təyin edə bilir. Sonra buyurulur: Yaxşılıq onda deyil ki, ehram halında qapını qoyub evin arxasından mənzilə daxil oluna. Ehram halında evə arxadan daxil olmaq xürafatdır.

◘Hər bir işin düzgün yolu var. Və iş öz təbii yolu ilə həyata keçməlidir. Hər bir iş üçün münasib vaxt, münasib üsul və münasib rəhbər lazımdır. Vaxt ay vasitəsi ilə Allah tərəfindən təyin olunduğu kimi, rəhbər də onun tərəfindən müəyyənləşdirilməlidir. Bu əsasla ayə belə mənalandırılır: Aydan vaxtı tanıma üçün istifadə edin. İşlərin icra yolunu öyrənmək üçün. Yolunuzu azmayın. Səadət və xoşbəxtliyin öz yolu var və bu yolla hərəkət edilməlidir. Zaman, yol və rəhbəri seçərkən Allahdan qorxun. Bəlkə nicat tapasınız... İmam Sadiq (ə) buyurmuşdur: “Bu ayədə məqsəd odur ki, hər bir iş öz yolu ilə görülsün.”[1] Məsum imamlar buyurmuşlar: “Biz Ali-Məhəmməd (peyğəmbər ailəsi) Allahın qurtuluş qapılarıyıq.” Həzrət peyğəmbər buyurmuşdur: “Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır.”[2]

◘Bu ayədəki “vətul-buyutə min əbvabiha” cümləsi iki “təqva” sözü arasında yerləşmişdir. Bu ardıcıllıq işlərin icrasında fövqəladə əhəmiyyət rəmzi ola bilər. Təqvası nöqsanlı olanlar getdikləri yolda büdrəyirlər.

◘Ayə belə mənalandırıla bilər: De ki, bu ay zamanı tanımaq və dini işləri tənzimləmək üçündür. Amma ayın necə dəyişdiyini bilmək istəyirsinizsə, bunun da öz yolu var. Mütaliə edin, təhsil alın. Quran bu təbirlərlə bəyan edir ki, yaxşılıq əyri yolla getmək yox, hər bir işi öz yolu ilə görməkdir. Atmosfer dəyişiklikləri ilə tanışlıq bu sahədəki ehtiyacları təmin edir.

---

[1] “Təfsiri-Bürhan”, c. 1, s. 190.
[2] “Təfsiri-Məcməul-bəyan”, c. 2, s. 509.

## *Bildirişlər*

1. Dəqiq proqram və vaxt bölümü üzrə səma cisimlərinin və ayın hərəkəti xalqın ibadət və işlərinin tənzimində təsirli ola bilər.

2. Əgər təbiət, səma cisimləri dəqiq nizamlıdırsa və insanların öz işlərini nizama salmasında yardımçıdırsa, insafdan deyil ki, biz nizamsız, hesab-kitabsız, özbaşına mövcudlar olaq.

3. Suallara elə bir formada cavab verin ki, sual edən şəxs anlasın və ehtiyacı ödənsin.

4. İslam cahil və xürafi adət-ənənələrlə mübarizə aparır.

5. Ata-babaların xürafi adətlərindən yaxşılıq əldə etmək olmaz. Yaxşılığı vəhy və məsum rəhbərlərin göstərişləri çərçivəsində, eləcə də məntiqi üsullarla əldə etmək olar.

6. Əgər bir yolu bağladınızsa, doğru yolu göstərin.

7. Dini məfhumların dəyəri onların insanlarda təcəllasındadır. Yaxşılıq "təqvadır" yox, yaxşılıq "təqvalı olandır" buyurulur.

8. Əyri yol getmək təqva deyil. Əgər ilahi övliyaların yolundan çıxsaq və getdiyimiz yolu təqva yolu adlandırsaq, şübhəsiz ki, azmışıq.

9. Yanlış və məntiqsiz üsullar təqvaya ziddir.

10. Vaxtın hifzi və işlərdə nizamın gözlənilməsi təqva və qurtuluş nümunəsidir.

11. Təkamülün sonu qurtuluşdur. Bir çox göstərişlər təqvaya çatmaq üçündür. Bu ayədə isə təqva qurtuluşun müqəddiməsi kimi tanıtdırılır.

190. ﴿وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ﴾

**“Allah yolunda sizinlə döyüşənlərlə döyüşün. Amma həddi aşmayın. Allah həddi aşanları (təcavüzkarları) sevmir.”**

## *Nöqtələr*

◘Bu ayədə təcavüzkarlarla mübarizənin zəruriliyi bildirilməklə yanaşı, xatırladılır ki, döyüş meydanında ilahi hədləri aşmaq, xəstələrə, qadınlara, uşaqlara, yaşlılara əziyyət vermək olmaz. Bəyan olunur ki, onları İslama dəvət etməmişdən qabaq silaha əl aparmayın, savaşa başlamayın. Bəşəri dəyərləri hətta savaş meydanında da gözləmək lazımdır.

◘Bəzi sifətlər müəyyən şəraitdə öz dəyərini itirir. Məsələn, mərhəmət bir dəyərdir. Amma yırtıcı canavara mərhəmət qoyunlara qarşı zalımlıqdır. Elm də bir dəyərdir. Amma bəzən bilməmək özü dəyər olur. Məsələn, həzrət Peyğəmbər (s) hicrət etdiyi vaxt onun yerində yatan Əli (ə) öləcəyini və ya qalacağını bilmirdisə, bu bir dəyər idi. Əgər həmin yataqda yatanın ölməyəcəyi məlum olsaydı, adi adamlar da bu işi görərdi. Bir sözlə, əksər sifətlər şəraitdən asılı olaraq dəyər baxımından dəyişir. Ədalət yeganə sifətdir ki, hər zaman, hər yerdə, hamıya qarşı eyni dəyərə malikdir.

İslamda düşmənlə qarşılaşmaq üçün mərhələlər təyin olmuşdur: Etinasızlıq (bax: “Əhzab”, 48), üz çevirmək (bax: “Nisa”, 63), sərtlik (bax: “Tövbə”, 73), savaş (bax: “Bəqərə”, 190)

Müsəlmanlar özlərini və Allahın dinini müdafiə etmək üçün savaşırlar. Düşməninsə məqsədi Allah nurunu söndürməkdir. (bax: “Səff”, 8) Onların bir məqsədi də müsəlmanları təslim etməkdir. (bax: “Bəqərə”, 120)

## *Bildirişlər*

1. Qarşı tərəfə eynən onun kimi cavab vermək ("müqabilə və misal") insanlıq haqqıdır. Əgər bir şəxs bizimlə savaşırsa, biz də onunla savaşırıq.
2. İslamda savaş məqsədi su, torpaq, almaz, istismar və intiqam deyil. Məqsəd fəsadcıl ünsürləri aradan götürməklə, düşüncələri xürafatdan azad etməklə haqqın müdafiəsidir.
3. Savaşda da ədaləti və haqqı gözləmək lazımdır. Quran "la tətədu" cümləsi ilə göstərişləri yerinə yetirərkən hədlərin pozulmamasını dəfələrlə sifariş etmişdir.
4. Zülm-sitəm ilahi məhəbbət bağlarını qırır.
5. Allaha yaxınlıq təkcə cəbhədə iştirakla yox, ədalətli savaşıb, haqlara riayət etməklə əldə olunur.
6. Savaşda hədəf yalnız Allah olmalıdır. Nəfs istəklərinə, təəssüblərə, qənimətlərə, riyakarlığa uymamalıyıq.
7. Hətta təbii haqların müdafiəsində də Allah unudulmamalıdır. Onlar sizə hücum etsələr də, siz müdafiə olunmalı, Allahın razılığı üçün çalışmalısınız.

191. ﴿وَاقْتُلُوهُمْ حَيْثُ ثَقِفْتُمُوهُمْ وَأَخْرِجُوهُم مِّنْ حَيْثُ أَخْرَجُوكُمْ وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ﴾

**"Onları (heç bir cinayətdən çəkinməyən bütpərəstləri) harada tapsanız öldürün. Və sizi çıxardıqları yerdən (Məkkədən) onları çıxarın. Fitnə (şirk və işkəncə) qətldən pisdir. Məscidül-həramın yanında onlarla vuruşmayın. Bir şərtlə ki, onlar həmin yerdə sizinlə savaşmayalar. Əgər sizinlə savaşsalar, onları (həmin yerdə) qətlə yetirin. Kafirlərin cəzası belədir."**

## *Nöqtələr*

◘Bu ayədə Məkkə müşriklərinin qətl və ixrac əmri verilir, eləcə də, bu işə dəlil olaraq bildirilir ki, onlar illər boyu müsəlmanlara işkəncə vermiş, yurd-yuvalarından didərgin salmışlar. Bu isə qətldən də ağır işkəncədir. Belə ki, müsəlmanlar müşriklərlə mübarizə və savaşda süstlük göstərməməlidirlər.

**Sual:** Nə üçün işkəncə qətldən ağır sayılır?

**Cavab:** Qətlə yetirilmiş insan dünya həyatından ayrılıb axirətə qovuşur. İşkəncəyə məruz qalan insan nə axirətə yetişir, nə də dünyadan kam ala bilir.

## *Bildirişlər*

1. Müəyyən məqamlarda düşmənə onun özü kimi cavab vermək və sərtlik göstərmək lazımdır.
2. Ədalətli müdafiə təkcə cəbhə və savaş deyil.
3. Dinlər insanın vətən haqqına malik olmasını qəbul edir.
4. Fitnəkar insan müharibə aparan insan kimidir. Onunla sərt şəkildə rəftar edilməlidir.
5. Hərəm və Məscidül-Həram müqəddəsdir. Müsəlmanların qanı isə daha müqəddəsdir. Burada "əhəmm" və "mühümm" məsələləri bəyan olunmuşdur.
6. Savaşda qabağa düşməli olmadığımız kimi, müqəddəslikləri sındırmaqda da qabağa düşməməlisiniz.

192. ﴿فَإِنِ انتَهَوْاْ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**"Əgər əl çəksələr, həqiqətən, Allah bağışlayan və mehribandır."**

### *Nöqtələr*

◘Müşriklər bağışlanmaq üçün nələri tərk etməlidirlər? İki ehtimal var: Savaş və fitnədən əl çəksinlər (əvvəlki ayəyə əsasən) və küfrdən əl götürsünlər. (Möminlərə məxsus ilahi bağışlanmanın əldə olunması dəlilinə əsasən.)

### *Bildirişlər*

1. Müsəlmanlar öz düşmənlərinin həqiqi atəşkəs təklifini qəbul etməlidirlər.
2. İslam qayıdış yolunu hətta kafirlər üçün də açıq qoymuşdur.
3. Əgər kafirlər fitnədən, savaşdan əl çəkib iman gətirsələr, onları keçmiş işlərinə görə məzəmmət etməyin.
4. İnsan özü ilahi mərhəmət üçün zəmin yaratmalıdır.

193. ﴿وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ﴾

**“Fitnə (bütpərəstlik, əsarət) aradan qalxanadək onlarla savaşın və din yalnız Allahın olsun. Əgər (öz əyri işlərindən) əl çəksələr, (onlara əziyyət verməyin, çünki) əziyyət yalnız sitəmkarlara rəvadır.”**

### *Nöqtələr*

◘Müharibə aparmaqda İslamın məqsədi ölkələri əsarətə almaq, qənimət ələ keçirmək və ya əvəz çıxmaq deyil. İslamda savaş və cihadın məqsədi şirk və küfr büsatının dağıdılmasıdır. Fitnə sözü şirk, küfür, sınaq, işkəncə mənalarında işlədilmişdir. Bu ayədə oxuyuruq: “Əgər müşriklər fitnədən, qətldən əl çəksələr, onlarla düşmənçilik və savaş olmayacaq... Çünki yalnız sitəmkarlar və təcavüzkarlarla hərbi dildə danışılmalıdır.

◘“Udvan” təbiri düşmənlərə xatir işlədilmişdir. Yoxsa İslam əhli əziyyət əhli deyil. Məsələn, deyilir ki, pisliyin cavabı pislikdir. Pisliyə pisliklə cavab verilməsi ədalət olsa da, düşmənin əməlinə xatir bu əməl də pis adlandırılmışdır.

### *Bildirişlər*

1. İslamın savaşda məqsədi şirkin, fitnənin aradan qaldırılması, din və ilahi qanunların möhkəmlənməsidir.
2. Yenidənqurmadan qabaq paklama gəlir. Əvvəlcə fitnə aradan qaldırılmalı, sonra ilahi din ortaya qoyulmalıdır. Əvvəl tağutun inkarı, sonra isə Allaha iman!
3. Geri qayıdış və tövbə yolu kimsə üçün və heç bir şəraitdə bağlı deyil. Hətta ən qatı düşmən də yolunu dəyişsə, Allah onu bağışlayar.
4. Əvvəlki ayədə kafirlərin günahlarının bağışlanması haqqında danışıldı. Bu ayədə isə xalqa tapşırılır ki, düşmən savaşdan əl çəkdiyi vaxt siz də savaşdan əl çəkin.

194. ﴿الشَّهْرُ الْحَرَامُ بِالشَّهْرِ الْحَرَامِ وَالْحُرُمَاتُ قِصَاصٌ فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا
اعْتَدَى عَلَيْكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ﴾

**“Haram ay qarşısında haram ay! (Əgər düşmənlər ayın hörmətini sındırsalar və sizinlə döyüşsələr, siz də onlar kimi hərəkət etmək haqqına maliksiniz. Çünki) hörmətlər**

**üçün də qisas var. Kim sizə təcavüz etdi, həmin təcavüz şəklində ona əziyyət verin. Allahdan çəkinin. (Həddi aşmayın) və bilin ki, Allah pəhrizkarlarladır.”**

## *Nöqtələr*

◘İslamdan qabaq ərəblər arasında dörd ayın xüsusi hörməti vardı. Bu aylarda savaş haram və qadağan idi. Bu aylardan üçü ardıcıl gələn zil-qədə, zil-hiccə və məhərrəm ayları idi. Digər bir ay isə rəcəb ayı idi. Hətta zil-qədə ayının belə adlandırılmasının bir səbəbi kimi bu ayda savaşmayıb, oturmağın zəruri olduğu bildirilir.

İslam bu ənənəni qəbul etdi və ildə dörd aylıq atəşkəs elan etdi. Amma düşmən daim fürsətlərdən sui-istifadə etmək üçün pusqudadır. Onlar belə düşünə bilərdilər ki, müsəlmanlar bu ayları atəşkəs ayı saydıqlarından onlara hücum etmək münasib olsun. Ayədə buyuruldu: “Əgər müxaliflər bu dörd ayda hücum etsələr, siz də onlarla baş-başa gəlin, həmin aylarda onlarla savaşın. Haram ay qarşısında haram ay qərar verin. Çünki müsəlmanların qanının və İslam nizamının qorunmasının hörməti bu ayların hörmətindən çoxdur. Bu hörməti sındıranların hər birindən qisas alınmalıdır. Sonra külli bir qanun olaraq buyurulur: Hər kəs sizə təcavüz etdi, həmin miqdarda ona cavab verin. Təqvalı olmaq, qisasda həddi aşmamaq tapşırılır. Bilin ki, Allah təqvalılarladır.

◘“Məcməul-bəyan”ın müəllifi bu ayə ilə bağlı deyir: “Bu ayəyə əsaslanaraq qəsb haqqında da nəticə çıxarmaq olar. Yəni qəsbkarın malından haqqı götürmək olar.”

## *Bildirişlər*

1. Bütün zaman kəsikləri eyni hörmətə malik deyil. Bəzi ayların hörməti xüsusi saxlanılmalıdır.
2. İslamda çıxılmaz vəziyyət yoxdur. İslamın və müsəlmanların qorunması məkan və zamanların hörmətindən öndə gəlir.
3. İslam təcavüz və əziyyət dini deyil. Amma başqalarının əziyyət və təcavüzünü qəbul etmir.
4. Hətta düşmənlərlə də ədalətli rəftar edək.
5. Qanunçuluq sistemi elə tənzimlənməlidir ki, müsəlmanlarda ümidsizlik, kafirlərdə cürət yaratmasın. “Müqabilə be misl”, yəni qarşı tərəfə eyni tərzdə cavab vermək belə bir əsasa malikdir.
6. Hətta savaş zamanı da təqvaya riayət İslamın tərbiyə üsullarındandır.
7. Əgər savaşda ədalət dairəsindən çıxmasaq, ilahi yardımlardan da faydalanacağıq. Elə düşünməyin ki, ədalət və təqva sizin qələbənizi təxirə salar.

195. ﴿وَأَنفِقُواْ فِي سَبِيلِ اللّهِ وَلاَ تُلْقُواْ بِأَيْدِيكُمْ إِلَى التَّهْلُكَةِ وَأَحْسِنُوَاْ إِنَّ اللّهَ يُحِبُّ الْمُحْسِنِينَ﴾

**“Allah yolunda infaq edin. (İnfaqı tərk etməklə) özünüzü öz əlinizlə həlak etməyin. Yaxşılıq edin ki, Allah yaxşılıq edənləri sevir.”**

## *Nöqtələr*

◘Beş ayədə ardıcıl olaraq müsəlmanlar dinin müdafiəsi və kafirlərlə mübarizəyə çağırılır. Bu ayə həmin ardıcıllığı infaq və ehsan göstərişləri ilə tamamlayır.

İntihar və insanın özünə zərər vurması qəti şəkildə haramdır. Deyilənləri bu ayə təsdiqləyir. Amma İslam təhlükəyə düşdükdə şəhadət ardınca getmək özünü təhlükəyə atmaq deyil.

◘Bu ayə infaq tövsiyəsi verməklə yanaşı, müsəlmanları istənilən ifratçılıq və təfritçilikdən çəkinməyə çağırır. Əgər sərvətlilər xəsislik göstərib məhrumlar haqqında düşünməsələr, təbəqələrarası ixtilaf günbəgün genişlənəcək. Bu isə cəmiyyətdə partlayışa və nizamın

pozulmasına səbəb olacaq. Əgər infaqda orta hədd gözlənilməsə və insan nəyi varsa başqalarına bağışlasa, öz əli ilə özünü və ailəsini fəlakətə aparacaq.

Quran digər ayələrdə də müsəlmanları infaqda orta həddi gözləməyə çağırmış və peyğəmbərə buyrulmuşdur: “Ey Peyğəmbər (s)! Nə əli bağlı qalma ki, bir şey bağışlamayasan, nə də elə olma ki, nəyin var bir yerdən əta edəsən.”[1] İmam Sadiq (ə) bu ayə ilə bağlı buyurmuşdur: “Sizin infaqınız elə bir həddə olmamalıdır ki, əliniz boş qalsın və bədbəxtliyə düçar olasınız.”[2]

◘İnsan sevilmək istəyindədir. Quran insanın bu fitrətinə əsaslanaraq buyurur: "Yaxşılıq et, yaxşılıq edənlər Allahın sevimlisidirlər."

## *Bildirişlər*

1. Bütün hərəkətlərin arxasında iqtisadiyyat dayanır. İqtisadi dəstək olmadan cihad da mümkün olmur. Əgər düşmənin hücumu və haqqın müdafiəsi zamanı xalq iqtisadi imkanlarını işə salmasa, məğlubiyyətə düçar olar.
2. Öz infaqınızla özünüzü və mülkünüzü sığortalayın.
3. İslamda cəbhə, savaş və maddi yardımların ilahi rəngi olmalıdır. Bu işlər Allahın razılığı xatirinə həyata keçməlidir.
4. Allahın sevimlisi olmaq ehsan üçün ən üstün təşviqdir.

196. ﴿وَأَتِمُّواْ الْحَجَّ وَالْعُمْرَةَ لِلّهِ فَإِنْ أُحْصِرْتُمْ فَمَا اسْتَيْسَرَ مِنَ الْهَدْيِ وَلاَ تَحْلِقُواْ رُؤُوسَكُمْ حَتَّى يَبْلُغَ الْهَدْيُ مَحِلَّهُ فَمَن كَانَ مِنكُم مَّرِيضاً أَوْ بِهِ أَذًى مِّن رَّأْسِهِ فَفِدْيَةٌ مِّن صِيَامٍ أَوْ صَدَقَةٍ أَوْ نُسُكٍ فَإِذَا أَمِنتُمْ فَمَن تَمَتَّعَ بِالْعُمْرَةِ إِلَى الْحَجِّ فَمَا اسْتَيْسَرَ مِنَ الْهَدْيِ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاثَةِ أَيَّامٍ فِي الْحَجِّ وَسَبْعَةٍ إِذَا رَجَعْتُمْ تِلْكَ عَشَرَةٌ كَامِلَةٌ ذَلِكَ لِمَن لَّمْ يَكُنْ أَهْلُهُ حَاضِرِي الْمَسْجِدِ الْحَرَامِ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ﴾

**“Həcc və ümrəni Allah üçün sona yetirin. Əgər sizin üçün (düşməndən qorxu, xəstəlik) kimi maneələr olsa, qurbanlıq üçün əliniz çatan şeydən (zibh edin və ehramdan xaric olun.) Qurbanlıq qurbangaha çatanadək başlarınızı qırxmayın və əgər bir şəxs xəstələndi və ya başında bir narahatlıq oldusa, oruc, sədəqə və ya qurbanlıq kimi bir kəffarə yerinə yetirsin. (Xəstəlik və düşməndən) amanda olduğunuz vaxt təməttö ümrə əvəzinə həcci başlayıb, əliniz çatan qurbanlıqdan (kəsin). Qurbanlıq tapmayan isə həcc zamanı üç gün, qayıtdıqdan sonra isə yeddi gün oruc tutsun. Bu on gün kamildir. (Əlbəttə,) bu (təməttö həcci), o kəs üçündür ki, Məscidül-Həramda (Məkkədə) sakin deyil. Allahdan çəkinin və bilin ki, Onun cəzası ağırdır.”**

## *Nöqtələr*

◘Bu ayədə külli və cüzi şəkildə həcc və ümrə hökmləri bəyan olunmuşdur. Bu əməllərin geniş şəkildə hökmləri ilə rəvayətlərdə və alimlərin fitvalarında tanış olmaq mümkündür.

Həcc həzrət İbrahim tərəfindən bünövrəsi qoyulmuş mərasimdir. Bu mərasim həzrət İbrahimin dövründən ərəblər arasında davam etmişdi. Allahın əmri ilə uyğun proqram İslam tərəfindən də qəbul edildi və qiyamət gününədək davam edəsidir.

“Ümrə” ziyarət mənasındadır. Məkkəyə daxil olan kəs ehram libasında Kəbənin ziyarətinə gedib təvaf etməlidir. Həcc və ümrə azan və iqamə kimi iki oxşar əməldir. Onların arasında azca fərq vardır. “Hədy” həcc qurbanlığının adıdır.

[1] “İsra”, 29.
[2] “Bihar”, c. 93, s. 168.

◘Bu ayədə təməttö ümrəsi təməttö həcci ilə yanaşı zikr olunmuşdur. Amma xəlifələrdən biri özbaşına şəkildə bunu qadağan etmişdir. Xəlifənin göstərişi aşkar Allah əmrinə qarşıdır.

◘Fövqəladə məsələlərin hökmü zəruri vaxt çərçivəsindədir. Ona görə də oruca icazə verilməyən adi səfərlərdən fərqli olaraq bu səfərdə qurban kəsmək mümkün olmadıqda, oruc tutmaq əmr edilir. Həmin üç günlük oruc həcc ayının yeddinci, səkkizinci və doqquzuncu günlərinə düşür. Onuncu gün qurban bayramı günüdür və həmin gün oruc tutmaq haramdır.

◘Məsum imamlar "ətimmul-həcc" cümləsinin təfsirində buyurmuşlar: Tam həcc o həccdir ki, onda çirkin söz, günah və didişmə olmasın. Onun gedişində haramlara yol verilməsin."[1]

## *Bildirişlər*

1. Dini vəzifələri tam şəkildə yerinə yetirmək lazımdır. Həcc əməllərinə başladıqdan sonra onu yarımçıq qoymaq olmaz.
2. Həcc əməllərində Allaha yaxınlıq və ibadət məqsədi olmalıdır. Gəzinti və səyahət məqsədi ilə həcc yerinə yetirmək olmaz.
3. İslam hökmləri xalq üçün çətinlik yaratmır. Xəstə və xaricdən qorxusu olan insana həcc və ümrəni tamamlamaq vacib deyil.
4. İbadətlərdə məkanın da öz payı var.
5. Xəstəlik bir sıra hökmlərdə güzəştlərə səbəb olur. Amma hökmlər heç bir vəchlə öhdədən götürülmür. Ona görə də həcdə üzrü olanlar oruc, sədəqə və ya qurbanlıqla vəzifələrini yerinə yetirməlidirlər.
6. Həcdə qurbanlığın vacib olma meyarı onun asan və yüngül olmasıdır.
7. Ümrə və təməttö həcci hökmləri yalnız Məkkədə sakin olmayan hacılara aiddir. Məkkə sakinlərinin həcci isə başqa növdür.
8. İlahi cəzalara diqqət təqva zəminəsi yaradır. İlahi təkliflərin yerinə yetirilməsi üçün təqva şərtdir.
9. Bütün ilahi hökmlərin yerinə yetirilməsində təqvaya diqqət önə çəkilir.
10. Həcc əməlləri İslamdan qabaq başqa formada olmuşdur. Ona görə də Quranda bu dəyişikliklərə işarə olunur.
11. Həcc hökmlərində dəyişiklik edənlər üçün ağır cəza nəzərdə tutulur.

197. ﴿الْحَجُّ أَشْهُرٌ مَّعْلُومَاتٌ فَمَن فَرَضَ فِيهِنَّ الْحَجَّ فَلاَ رَفَثَ وَلاَ فُسُوقَ وَلاَ جِدَالَ فِي الْحَجِّ وَمَا
تَفْعَلُواْ مِنْ خَيْرٍ يَعْلَمْهُ اللّهُ وَتَزَوَّدُواْ فَإِنَّ خَيْرَ الزَّادِ التَّقْوَى وَاتَّقُونِ يَا أُوْلِي الأَلْبَابِ﴾

**"(Ümrə və) Həcc (mövsümü) müəyyən aylardır. (Şəvval, zilqədə, zilhiccə.) Hər kəs bu aylarda həcc əməlini yerinə yetirsə, (bilsin ki,) cinsi yaxınlıq, günah, pis danışıq həcdə rəva deyil. Gördüyünüz yaxşı işlərdən Allah xəbərdardır. Özünüz üçün azuqə hazırlayın. Əlbəttə, ən yaxşı azuqə təqvalı olmaqdır. Ey düşüncə sahibləri! Yalnız Məndən çəkinin."**

## *Nöqtələr*

◘"Rəfəs" cinsi yaxınlıq, "fusuq" yalan, söyüş, pis danışıq, "la vəllah" və "bəla vəllah" mənalarındadır.

◘Ayədə qeyd olunmuş dövr həcc və ümrəyə aiddir. Təməttö ümrəsi şəvval, zilqədə və zilhiccə, həcc isə yalnız zilhiccə aylarında yerinə yetirilir.

## *Bildirişlər*

1. İslami ibadətlərdə zamanın mühüm rolu var.

---

[1] "Təfsiri-Nurus-Səqəleyn", c. 3, s. 183.

2. Həcc və Məkkənin səfalı mühiti və fəzasını günaha batmaqla, kin-küdurətlə bulaşdırmaq olmaz.

3. Allahın xəbərdarlığına iman və yəqinlik vəzifələrin icrasında insana sevinc və ümid bağışlayır.

4. Bütün səfərlərdə azuqəyə ehtiyac var. Həcc səfərində ən yaxşı azuqə təqvadır.

5. Təqva düşüncə nişanəsidir.

198. ﴿لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَبْتَغُواْ فَضْلاً مِّن رَّبِّكُمْ فَإِذَا أَفَضْتُم مِّنْ عَرَفَاتٍ فَاذْكُرُواْ اللّهَ عِندَ الْمَشْعَرِ الْحَرَامِ وَاذْكُرُوهُ كَمَا هَدَاكُمْ وَإِن كُنتُم مِّن قَبْلِهِ لَمِنَ الضَّآلِّينَ﴾

**“(Həcc zamanı) Allahın fəzli (kəsb və ticarət) ardınca getməkdə sizin üçün günah yoxdur. Elə ki, Ərafatdan köç etdiniz, Məşərül-Həramda Allahı yad edin. Bundan qabaq azdığınız halda sizi hidayət etdiyindən Onu zikr edin.”**

## *Nöqtələr*

◘Ərəfat Məkkənin iyirmi kilometrliyində yerləşən yerin adıdır. Zilhiccə ayının doqquzunda günortadan günbatanadək həmin yerdə qalmaq Allah evinin ziyarətçiləri üçün vacibdir. Əgər gün batmamış oradan çıxsalar, bir dəvə cərimə verməlidirlər. “Ərəfat” sözü mərifət sözündəndir və “tanıma yeri” mənasını verir. Həmin yerdə Adəm və Həvva bir-birlərini tanımış və günahlarını etiraf etmişlər. İmam Sadiq (ə) və imam Baqirin (ə) buyurduğuna görə, Cəbrail bu yerdə həzrət İbrahimə demişdir: “Vəzifələrini tanı və dərk et.[1]

Hədisdə oxuyuruq: Həzrət Mehdi (ə) hər il Ərəfatda olur. Ərəfat torpağı övliyaların ah və göz yaşlarına şahiddir. Rəvayətdə nəql olunur: Ərəfədə qürub vaxtı Allah ziyarətçilərin bütün günahlarını bağışlayar. İmam Hüseyn (ə) və imam Səccad (ə) tərəfindən Ərəfə gününün duaları nəql olunmuşdur. (Ətraflı məlumat almaq üçün müəllifin “Həcc” kitabına müraciət edin.)

◘İslamın kompleks din olması nişanələrindən biri də həcc ibadəti əməlləri ilə yanaşı, maddi ehtiyaclara da diqqət yetirilməsidir. Necə ki, “Cümə” surəsində cümə namazında iştirak göstərişi ilə yanaşı belə buyurulur: “Namaz başa çatdıqdan sonra maaş ardınca gedin.”[2]

Bəli, həcc ibadətlə yanaşı həm də iqtisadiyyatdır.

İmam Sadiq (ə) buyurmuşdur: “Həccin əsərlərindən biri dünyanın müxtəlif nöqtələrindən gəlmiş müsəlmanlardan cəmiyyət təşkil olunması və müxtəlif təcrübələrin mübadiləsidir. Həcc ticari və iqtisadi müamilələr yeridir.”[3]

## *Bildirişlər*

1. Birtərəfliklə mübarizə Quran proqramlarındandır. Bir qrup insan elə düşünürdü ki, din birtərəfli, həcc də quru bir ibadətdir. İslam belə bir münasibəti rədd edir.

2. Halal qazanc ilahi fəzldir. Quran kəsb əvəzində fəzl sözünü işlədir: Halal qazanc ilahi fəzldir.

3. Təlaş və tələb sizdən olsa da, ruzi Allahın fəzlidir.

4. Ruzi vermək Allahın rübubiyyət şənindəndir.

5. Ruzi verməkdə Allahın əli açıqdır. “Fəzl” sözü “nəkərə” formasında işlədilmişdir.

6. Bütün ibadətlər göstərişlər əsasında yerinə yetirilməlidir.

7. Bir tərəfdən ilahi yardımlara, digər tərəfdən keçmişdə baş vermiş günahlara diqqət insanın ilahi lütfə eşq və əlaqəsini artırır.

8. Öz keçmişinizi unutmayın. Sizi hidayət edən Odur.

---

[1] “Kafi”, c. 4, s. 207.
[2] “Cümə”, 10.
[3] “Vəsail”, c. 8, s. 9.

199. ﴿ثُمَّ أَفِيضُواْ مِنْ حَيْثُ أَفَاضَ النَّاسُ وَاسْتَغْفِرُواْ اللّهَ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Sonra xalqın köçdüyü yerdən köçün. Allahdan bağışlanmaq istəyin ki, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Bu ayədə xalqın birlikdə hərəkətinə göstəriş verildikdən sonra Məkkə əhalisinə xatırladılır ki, Hərəm əhli və ya qüreyşli olmaları onları fərqli hərəkətə sövq etdirməməlidir. Onlara özlərini böyük tutmamaq və ümumi xalq kimi olmaq göstərişi verilir.

Əslində həccin təsir və fəlsəfələrindən biri də puç imtiyazların kənara qoyulmasıdır. Orada insan geyimindən, ev-eşiyindən, ailəsindən keçib damla olur və dəryaya qatılır.

◘Bu ayədə iki dəfə, ötən ayədə bir dəfə “ifazə” sözü işlədilmişdir. Bu söz birlikdə hərəkət mənasını verir. Ayələrdəki təkrarlardan görünür ki, birlikdə hərəkət ibadətlərin icrasından dəyərlidir.

◘İstiğfar və zikr Ərəfat və Məşərin ən üstün əməlidir. Bu məkanlarda yalnız dayanmaq vacib olsa da, uyğun ayələrdə Allah-təala bizi Öz zikrinə, keçmiş günahların yada salınmasına və ötən günahlara görə bağışlanmaq üçün duaya çağırır. Axı Allah övliyalarının göz yaşı axıtdığı bir yerdə necə biganə olasan?

## *Bildirişlər*

1. İstənilən bir adla imtiyaz tələb etmək qadağandır.

2. Toplum halda hərəkət dəyərlidir.

3. Heç vaxt ümidsiz olmayaq. Keçmişimiz hər nədirsə, tövbə ilə ona çarə qılmaq mümkündür. Çünki Allah bağışlayan və mehribandır.

200. ﴿فَإِذَا قَضَيْتُم مَّنَاسِكَكُمْ فَاذْكُرُواْ اللّهَ كَذِكْرِكُمْ آبَاءكُمْ أَوْ أَشَدَّ ذِكْرًا فَمِنَ النَّاسِ مَن يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا وَمَا لَهُ فِي الآخِرَةِ مِنْ خَلاَقٍ﴾

**“Elə ki, öz həcc mərasimlərinizi yerinə yetirdiniz, Allahı yad edin. Necə ki, öz atalarınızı yad edirsiniz. Bəlkə daha artıq və daha yaxşı! İnsanlardan bəziləri belə deyirlər: “Pərvərdigara! Bizə dünyada əta et!” Onların axirətdə bəhrələri yoxdur.”**

## *Nöqtələr*

◘Məkkə əhlindən bir dəstəsi həcc mərasimi başa çatdıqdan sonra bir məhəldə toplaşıb öz ata-babalarını xatırlayır və qürrələnirdilər. Quran göstəriş verir ki, ata-babalarınızla fəxr etmək əvəzinə Allahı yad edin.[1] Əmr olunur ki, Allahın nemətlərini və yardımlarını dilə gətirin və bu işdə ciddi olun.

◘Bir şeyin xatırlanması onun insan düşüncəsinə hakim olması nişanəsidir. Ata-babalarını xatırlayıb onlarla iftixar edən kəs onların düşüncə və əqidəsini qəbul etmişdir. Bu cür xatırlamalar cəmiyyətdə cahil bir mədəniyyəti, əqidəni hakim edə bilər. Ona görə də həzrət Musa (ə) buyurmuşdur: “Mən Samirinin qızıl və dəyərli buzovunu yandırar, külünü dəryaya tökərəm. Çünki onlara tamaşa etmək şirk düşüncəsini insanlarda canlandırır.”

## *Bildirişlər*

1. Boş vaxtı proqramlaşdırmaq tərbiyəçinin vəzifələrindəndir.

[1] “Təfsiri-“Məcməul-bəyan”, c. 2, s. 529; “Nurus-səqəleyn”, c. 1, s. 198.

2. Allahın zikri kəmiyyət baxımından çox, keyfiyyət baxımından aşiqanə və xalisanə olmalıdır.

3. Məsələlərə səthi yanaşmayaq. Bəziləri ən üstün zaman və məkanda yalnız maddi nemətlərə çatmaq üçün dua edirlər.

201. ﴿وِمِنْهُم مَّن يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ﴾

**"(Amma) insanların bəziləri deyirlər: "Pərvərdigara! Bizə dünyada da, axirətdə də yaxşılıq mərhəmət buyur və bizi odun əzabından qoru."**

## *Nöqtələr*

◘Xalqı tanımaq yollarından biri onların arzuları və duaları ilə tanışlıqdır. Əvvəlki ayədə bir qrup şəxsin istəyi dünyaya aid idi; onlar bunun xeyrini-şərini düşünmürdülər. Bu ayədə isə ikinci qrupun istəyi "həsənədir". Allahdan həm dünya, həm də axirətdə "həsənə" istənilir. Birinci dəstənin nəzərində əsas dünyadır. İkinci dəstə isə "həsənə" olan və axirətlə sonuclanan dünyanı dəyərli sayır.

Rəvayətlərdə dünya və axirət xeyirlərinin müxtəlif nümunələri sadalanmışdır.[1] Həsənə isə bir neçə nümunə ilə məhdudlaşır.

◘Qurani-məciddə 115 dəfə "dünya", 115 dəfə "axirət" sözləri işlədilmişdir. Bu bir təsadüf deyil. Əlbəttə, belə bir nəticə də çıxarmaq olmaz ki, dünya və axirətin əhəmiyyəti eynidir.

◘Dualarda ümumi məsələlər bəyan olunur. Nə əta etmək isə Allahın öhdəsinə qalır. Biz Allahdan həsənə və səxavət istəyirik. Çünki tərəqqimizin və xeyrimizin nədə olduğunu bilmirik. Bunu Allahın ixtiyarında qoyuruq. İnsan elmi məhdudiyyətlərə, agahlığının olmamasına görə xoşbəxt həyat üçün nəyə ehtiyaclı olduğunu bilmir. Ona görə də tövsiyə olunur ki, Allahdan vasitə yox, işin özünü istəyək. Çünki Allah həmin istəyimizi ağlımıza gəlməyən vasitələrlə gerçəkləşdirə bilər. Məsələn, Allahdan həcc ziyarətinə getmək tövfiqi istəyin. Amma deməyin ki, Pərvərdigara, mənə mal-pul ver ki, Məkkəyə gedim. Allah ağlımıza gəlməyən yollarla bizi məqsədimizə çatdıra bilər.

## *Bildirişlər*

1. Dünya və axirət bir-birinə zidd deyil. Bir şərtlə ki, insan həsənə, yaxşılıq ardınca getsin.

2. Hər cürə rifah pislənilmir. Əksinə, gözəl bir həyat bəyənilmişdir.

3. Cəhənnəmin xüsusi hesabı var. Allahdan axirət xeyri istənilsə də, atəşdən nicat tapmaq üçün ayrıca dua edilir. (Məsələn, "Mücir" duasında yetmiş dəfəyə yaxın deyilir: "Pərvərdigara! Bizə cəhənnəm atəşindən nicat ver."

202. ﴿أُولَئِكَ لَهُمْ نَصِيبٌ مِّمَّا كَسَبُواْ وَاللّهُ سَرِيعُ الْحِسَابِ﴾

**"Onların öz kəsbindən (duasından) bəhrəsi və qisməti var. Allah sürətlə hər kəsin hesabına yetişər."**

[1] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 199.

### *Nöqtələr*

◘Bəhrəyə ayədə "nəsib" deyilmişdir. Sanki insan üçün pay ayrılmışdır. Möminlər təkcə "Rəbbəna atina" duasından faydalanmırlar. Onlar öz təlaş və kəsblərindən də bəhrələnirlər. Bu bizə xəbərdarlıq edir ki, Allahın lütfü dua ilə yanaşı, çalışıb səy göstərənlərə aiddir.

### *Bildirişlər*

1. İnsan qiyamətdə yalnız bəzi işlərindən faydalanır. İnsan bir çox işləri Allaha yaxınlıq məqsədi ilə, xalis niyyətlə görmədiyindən qiyamətdə həmin işlərdən bəhrələnmir.
2. Səy və təlaşsız heç bir bəhrə yoxdur.
3. Dərhal verilən mükafat bir imtiyazdır. (Həzrət Əli (ə) buyurmuşdur: "Allah bütün xalqın hesabına birdəfəyə yetişər. Necə ki, bütün xalqa birdəfəyə ruzi verir.")

203. ﴿وَاذْكُرُواْ اللّهَ فِي أَيَّامٍ مَّعْدُودَاتٍ فَمَن تَعَجَّلَ فِي يَوْمَيْنِ فَلاَ إِثْمَ عَلَيْهِ وَمَن تَأَخَّرَ فَلا إِثْمَ عَلَيْهِ لِمَنِ اتَّقَى وَاتَّقُواْ اللّهَ وَاعْلَمُوا أَنَّكُمْ إِلَيْهِ تُحْشَرُونَ﴾

**"Allahı müəyyənləşdirilmiş günlərdə (zilhiccə ayının on birinci, on ikinci və on üçüncü günlərində) yad edin. Hər kəs tələsib (Mina əməllərini) iki gündə yerinə yetirsə, onun üçün günah yoxdur və hər bir təqvalı şəxs təxirə salsa (əməlləri üç günə yerinə yetirsə) onun üçün günah yazılmır. Allahdan qorxun və bilin ki, siz Ona doğru məhşur olacaqsınız."**

### *Nöqtələr*

◘"Nurus-səqəleyn" təfsirində nəql olunmuş hədisdə tövsiyə olunmuşdur: Əvvəli bayram gününün günorta namazı, sonu on üçüncü günün sübh namazı olan on beş namazın ardınca bu dua oxunur: "Allah böyükdür, Allah böyükdür, Ondan başqa məbud yoxdur. Allah böyükdür, həmd-səna Ona məxsusdur. Allah böyükdür. O səbəbdən ki, bizi hidayət etdi. Allah böyükdür, o səbəbdən ki, dördayaqlıların ətindən bizə ruzi verdi."

◘Ayədə buyurulur: "Hər kəs Mina torpağından çıxmağa tələssə və on ikinci gün günortadan sonra çıxıb Məkkəyə getsə, onun üçün günah yoxdur. Eləcə də, on üçüncü gün Minada qalan üçün günah yazılmaz.

### *Bildirişlər*

1. Duaya zamanın təsiri var.
2. Allah öz lütfü sayəsində xalq üçün yolu daraltmaz.
3. İşin əsası təqvadır. Rəvayətlərin bildirdiyinə görə burada "təqva" deyilərkən ehram halında haramlardan uzaqlaşmaq nəzərdə tutulur.
4. İstər zilhiccənin on ikinci günü tələsib Minadan çıxmaq, istərsə də təxirə salıb on üçüncü günədək orada qalmaq təqva ilə müşayiət olunmalıdır.

Tələsmək zirəkliyi göstərmək və ya başqa puç məqsədlə olsa, eləcə də, həmin yerdə artıq qalmaq özünü göstərmək və şöhrət məqsədi ilə bağlı baş versə, əməl puça çıxar.

5. Müqəddəs iş və müqəddəs məkan təklikdə kafi deyil. İnsan özü də müqəddəs və təqvalı olmalıdır. Allah evinin ziyarətçilərinə münasibətdə iki dəfə təqva sözü yanaşı işlədilmişdir. Bu, şeytanın bütün yerlərdəki nüfuzunun nişanəsidir.
6. Məada iman təqvanın ən mühüm amilidir.

204. ﴿وَمِنَ النَّاسِ مَن يُعْجِبُكَ قَوْلُهُ فِي الْحَيَاةِ الدُّنْيَا وَيُشْهِدُ اللّهَ عَلَى مَا فِي قَلْبِهِ وَهُوَ أَلَدُّ الْخِصَامِ﴾

**“Xalq arasında eləsi var ki, onun dünya həyatı haqqındakı danışığı səni təəccübləndirir. O, Allahı qəlbinə olan hər şey üçün şahid tutur, (halbuki) o ən qatı düşmənlərdəndir.”**

## *Nöqtələr*

◘“Ludd” sözü düşmənçilik mənasını verir. “Ələdd” isə qatı düşmənçilik edənə deyilir. “Xisam” sözü də düşmənçilik mənasındadır.

◘Münafiqlər öz hiyləgər müqayisələri, rəqəmləri, ixtisasları, təcrübələri, zahirən elmi söhbətləri, şayiələri, hədələri, təbliğatları ilə yalnız bu maddi həyatda manevr qüdrətinə malikdirlər. Mənəviyyat meydanında, qeybi yardımlara, Allahın iradəsinə diqqətdə isə axsayırlar. Axirətdə də onların dilləri bağlı olacaq. Hətta onlara üzr istəmək icazəsi də verilməyəcək.

## *Bildirişlər*

1. Münafiqlərin iti və ovsunlu sözləri sizi aldatmasın.
2. Hər anda inanmayın.
3. Yalan and münafiqlərin nüfuz yollarındandır. Düşmənlər həmişə müqəddəsliyə qarşı müqəddəslikdən, dinə qarşı dindən istifadə edirlər. Onlar Allaha and içməklə Allahın peyğəmbərinə xəyanət edirlər.
4. Münafiqlər öz söhbətlərini dünyəvi məsələlər üzərində qururlar ki, başqalarını öz təsirləri altına sala bilsinlər.
5. Allah öz peyğəmbərini qeybdən və başqalarının qəlbindən xəbərdar edir.
6. Öz yalançılıqlarını bilənlər andlar və gözəl sözlərlə özlərini xalis və canıyanan göstərirlər.

205. ﴿وَإِذَا تَوَلَّى سَعَى فِي الأَرْضِ لِيُفْسِدَ فِيِهَا وَيُهْلِكَ الْحَرْثَ وَالنَّسْلَ وَاللّهُ لاَ يُحِبُّ الفَسَادَ﴾

**“Əgər qüdrət və hökumətə çatsa, yer üzündə fəsad, əkin sahələrinin və nəslin məhvi üçün çalışar. Allah fəsadı dost tutmur.”**

## *Nöqtələr*

◘“Təvəlla” sözünü iki cür mənalandırmaq olar: Birinci məna ayədə tərcümə olunduğu kimi qüdrət və hökumətə çatmaqdır. İkinci məna üz döndərməkdir. Bu halda ayə belə tərcümə olunmalıdır: Əgər ilahi haqq və hidayətdən üz döndərdi və səndən uzaqlaşdısa, fitnə-fəsad sorağınca gedər...”

◘Əvvəlki ayədə münafiqlərin zahirən gözəl danışdığı bəyan olundu. Bu ayədə isə onların fəsad dolu rəftarı qeyd edilir.

◘Quran buyurur: “Əgər salehlər hökuməti ələ alsalar, namazı bərpa edər, zəkat ödəyər, əmr be məruf və nəhy əz munkər edərlər.”[1] Onlar bu vasitə ilə Allahla və cəmiyyətdəki məhrumlarla rabitələrini qoruyarlar. Amma əgər ləyaqətsiz bir şəxs qüdrətə çatsa, xalq üzərində hakimiyyəti əlinə alsa, öz nəfsinin tüğyanı, xəbərsizliyi, xarici təzyiqlər səbəbindən bütün cəmiyyəti özünə qurban edər. “Əl-Mizan”da qeyd olunduğu kimi, tarix şahiddir ki, bir

---

[1] “Həcc”, 41.

çox müsəlmannümalar İslam və iman pərdəsi altda xalqa hakim olub əkinəcəkləri və nəsilləri məhv etdilər.

◘Qanunları saxtalaşdırmaq, ideoloji müharibə və təbliğat, narkotik maddələr vasitəsi ilə iqtisadiyyatı və gənc nəsli məhv edənlər bu ayənin bariz nümunələridir.

◘Sahələrin, əkinlərin məhvi, nəsillərin həlakı gələcək nəsillərin azğınlığa sövq edilməsi mənasındadır. Mərağİ və Fəxr Razi öz təfsirlərində ehtimal vermişlər ki, "hərs" qadınlara işarə ola bilər. Onlar buna "Bəqərə" surəsinin 223-cü ayəsini dəlil göstərmişlər. Onların fikrincə, "nəsil" sözü övladlara işarədir. Yəni zalım hakimlər (tağut) ailə nizamını və övladların tərbiyəsini məhv edirlər.

## *Bildirişlər*

1. Ləyaqətsiz bir şəxs əgər qüdrətə çatsa, hər şeyi fəsada sürükləyər.
2. Ən böyük təhlükə iqtisadiyyatın və millətin əqidəsinin məhv edilməsidir.

206. ﴿وَإِذَا قِيلَ لَهُ اتَّقِ اللّهَ أَخَذَتْهُ الْعِزَّةُ بِالإِثْمِ فَحَسْبُهُ جَهَنَّمُ وَلَبِئْسَ الْمِهَادُ﴾

**"Ona "Allahdan qorx" deyilən vaxt günah sayəsində əldə etdiyi qürur onu götürər. Cəhənnəm odu onun üçün kafidir. Və bu yer necə də pisdir!"**

## *Bildirişlər*

1. Təkəbbür əhli heç vaxt başqalarının moizəsinə qulaq asmır. Tarixdə nəql olunub ki, Bəni-Üməyyə xəlifəsi Əbdül-Məlik Mərvan minbərdən Mədinə şəhərinə belə müraciət etdi: "And olsun Allaha, kim mənə təqvalı olmağı əmr etsə, boynunu vuracağam."[1]
2. Hakim öyüd-nəsihət qəbul edən şəxs olmalıdır.
3. Günah lovğalıq, qürur və təkəbbür səbəbidir.
4. Cəhənnəmə diqqət qüruru sındıran agahlıqdır.

207. ﴿وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ﴾

**"Xalq arasında elələri var ki, Allahın razılığını əldə etmək üçün canını verir. Allah Öz bəndələrinə qarşı mehribandır."**

## *Nöqtələr*

◘Yeddinci əsr sünni alimlərindən olan İbn Əbül-Hədid Nəhcül-bəlağənin şərhində deyir: "Bütün təfsirçilər bildirirlər ki, "bu ayə hicrət zamanı həzrət Peyğəmbərin (s) yerində yatmış Əli ibn Əbu-Talib haqqında nazil olmuşdur. Bu mövzu o qədər məşhurdur ki, yalnız kafir və divanə olan şəxs onu inkar edər."[2]

◘Məkkə müşrikləri qərara gəldilər ki, İslam peyğəmbərini öldürmək üçün hər qəbilədən bir nəfər seçilsin. Onlar Bəni-Haşimin qan davasından qurtarmaq üçün bu işi cəm şəkildə görmək istəyirdilər. Həzrət Peyğəmbər (s) onların planından xəbər tutdu. Əli (ə) həzrət Peyğəmbərin (s) Məkkədən sağ-salamat çıxması üçün onun yerində yatdı. Ayə də onun şəninə nazil olmuşdu. (Bu həqiqəti etiraf etmiş böyük sünni alimlərinin adı Əllamə Əmininin "Əl-Ğədir" kitabında sadalanmışdır.)

◘Həmin təhlükəli gecədə həzrət Əli (ə) Peyğəmbərin (c) yerində yatdığı vaxt Allah-təala Cəbrail və Mikailə buyurdu: "Sizin hansınız o birinizə fəda olmağa hazırsınız?" Mələklərdən

---

[1] "Təfsiri-Əhsənul-hədis", c. 1, s. 376.
[2] "Şərhe-nəhcül-bəlağə", c. 13, s. 262.

heç biri hazırlığını bildirmədi. Allah-təala buyurdu: “İndi baxın ki, Əli (ə) öz canını Allah rəsulunun yolunda fəda etməyə necə hazırdır!”

◘Bəzən bir yaxşı işi canlandırmaq və ya bir pis işi aradan qaldırmaq üçün canı fəda etmək lazım gəlir. Həzrət Əli (ə) buyurmuşdur: “Hər kəs əmr be məruf və nəhy əz münkər yolunda öldürülsə, bu ayənin nəzərdə tutduğu şəxslərdəndir.”[1]

## *Bildirişlər*

1. Münafiqin sözü gözəldir. O, insanı təəccübə gətirir. Mömininin isə əməli dünyanı təəccübləndirir.
2. İsar əhlinin xatirəsini diri saxlayın.
3. Övliyalar yolunda ölüm bir dəyərdir.
4. Ən böyük fayda odur ki, insan ən böyük matah olan canını öz xaliqinə fəda etsin. Özü də bu iş behişt, cəhənnəmdən qurtuluş yolunda yox, yalnız Allah razılığı üçün olsun.
5. Allah yolunda təhlükəyə və canı fəda etməyə hazırlıq bu işin görülməsi kimidir. Ayənin nazil olma şəninə görə, burada o şəxs nəzərdə tutulur ki, hadisə baş verməmiş olsa da, o öz canını təhlükəyə atır.
6. Ən böyük mükafat Allahın mərhəmətidir. Allah hər bir iş müqabilində əvəz müəyyənləşdirmişdir. Bu ayədə isə belə buyurulur: “Allah “rəufdur”.

208. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ﴾

**“Ey iman gətirənlər! Hamınız sülhə və barışa gəlin. (Allaha mütləq təslim olun,) Şeytanın addımlarına tabe olmayın ki o, sizin aşkar düşməninizdir.”**

## *Nöqtələr*

**◘Quran aşağıdakı qruplarla sülhlə keçinməyi sifariş edir:**

1. Əziyyət verməyən müşriklərlə; “Sizinlə savaş fikrində olmayan və vətəninizə təcavüz etməyən kəslərlə xoşrəftarlı olun.”[2]
2. Kitab əhli ilə; “Kitab əhlinə de ki, o şeylərdə ki, əqidəmiz eynidir, gəlin bir olaq.”[3]
3. Digər müsəlmanlarla;[4]

◘Əvvəlki bir neçə ayədə həcdə böyük ictimai-siyasi toplantı haqqında danışılarkən, buyurulmuşdu: “Orada günaha yol verməyin, pis danışmayın.” Deməl, cəmiyyəti günahdan və pis danışıqdan pak saxlamaq olar. Həmişə belə olsa və təfriqə səbəbi olan şeytan addımlarından çəkinsək, necə də yaxşı olar!

◘Çoxsaylı rəvayətlərdə dostluq məsum rəhbərə itaət kimi qeyd olunmuşdur.[5] Təbii ki, qalaya daxil olmaq salamatlıq və rahatlıq əldə etməkdir. Bundan da şirin hiss olarmı ki, insan ilahi, məsum, agah, qayğıkeş, bütün dəyər və kamilliklərdə üstün bir rəhbəri olduğunu hiss etsin?!

## *Bildirişlər*

1. Dostluq, salamatçılıq, təslim fəzasına yalnız iman sayəsində daxil olmaq mümkündür.
2. Şəxsi səliqələri bir kənara qoyub, yalnız Allah qanunlarına təslim olaq.
3. Sülh yaradılması bütün müsəlmanların vəzifəsidir.

---

[1] “Təfsiri-Safi”, c. 1, s. 241.
[2] “Mumtəhinə”, 8.
[3] “Ali-İmran”, 64.
[4] Bax: “Bəqərə”, 208.
[5] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 205.

4. Şeytani vəsvəsələr insanı günaha məcbur etmir. İnsanın şeytanla mübarizə gücü var. Ona görə də insana tağuta itaət etməmək tapşırılır.
5. Şeytan insanı addım-addım çaşdırır.
6. Şeytanın çaşdırma yolları çoxdur.
7. Şeytan sülh və vəhdətin düşmənidir. Təfriqə yaradan bütün kürsülər şeytanın kürsüsüdür.

209. ﴿فَإِن زَلَلْتُمْ مِّن بَعْدِ مَا جَاءتْكُمُ الْبَيِّنَاتُ فَاعْلَمُواْ أَنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ﴾

**“Əgər sizə aşkar dəlillər gəldikdən sonra büdrəməyə düçar olsanız, bilin ki, Allah əziz və həkimdir. (O Öz hikməti əsasında əməl edir və heç bir qüdrət Onun iradəsinin qarşısını ala bilmir.)”**

## *Bildirişlər*

1. Allah höccəti tamamlayır, bəhanəyə yer qoymur.
2. Bilərəkdən xilaf iş görənlər əzab intizarında olsunlar.
3. Sizin təslim olmamağınızın Allahın izzətinə heç bir təsiri yoxdur.

*Küfrə düçar olsa kainat tamam, Bir zərrə toz düşməz zatına, inan.*

4. Allahın cəzası hikmət əsasındadır.

210. ﴿هَلْ يَنظُرُونَ إِلاَّ أَن يَأْتِيَهُمُ اللّهُ فِي ظُلَلٍ مِّنَ الْغَمَامِ وَالْمَلآئِكَةُ وَقُضِيَ الأَمْرُ وَإِلَى اللّهِ تُرْجَعُ الأمُورُ﴾

**“Yoxsa bunu gözləyirlər ki, Allah və mələklər buludların kölgəsində onlara doğru gəlsin və iş bitsin? Halbuki aşkar ayələrdən sonra heç nəyə ehtiyac yoxdur.) Bütün işlər Allaha doğru dönəsidir.”**

## *Nöqtələr*

◘Peyğəmbərlərin dəvəti dəlil və möcüzə yolu ilə gerçəkləşir. Amma bəzən bəhanəcil xalq başqa şeylər gözləyir. Allah hər işə qadirdir. Bununla belə buyurur: Gözlədiyiniz baş verdikdən sonra da inadkarlıq etsəniz, Allahın qəhri sizi bürüyəcək, üzr və tövbə üçün möhlət olmayacaq... Deyilənlərin nümunəsi olaraq həzrət İsadan istənilmiş səmavi süfrəni (maidəni), həzrət Salehdən tələb olunan dəvəni göstərə bilərik. Əslində istədiyi möcüzə baş verən xalq dərhal itaət etməlidir. Əks təqdirdə onu Allahın qəzəbi bürüyəsidir. Əlbəttə, insanların möcüzə istəyi o vaxt gerçəkləşir ki, onların istəyi qeyri-mümkün olmasın. Məsələn, bir şəxs Allahı görmək istəsə, bu iş mahal olduğundan gerçəkləşəsi deyil. Belələrinə dərhal rədd cavabı verilir.

◘Allahın yaranış və tərbiyə nizamı sizin istəyinizə əsaslanmır. Bəlkə də siz Allahın və mələklərin buludlar üzərində sizə gəlməsini istəyəsiniz. Kimi də arzu edə bilər ki, mələklər onunla danışsın. Amma bütün bu işlər mümkün deyildir.

## *Bildirişlər*

1. Peyğəmbərin risalətinin aşkar dəlilləri olduğu halda yersiz tələblər etmək qadağandır.
2. Allahı və mələkləri görmək tələbi haqdan qaçmaq üçün bir bəhanədir.
3. Hər şeyin qayıdışı Allaha doğrudur. Onun əsərlərini gördüyünüz halda nə üçün Onun Özünü görmək istəyirsiniz?

211. ﴿سَلْ بَنِي إِسْرَائِيلَ كَمْ آتَيْنَاهُم مِّنْ آيَةٍ بَيِّنَةٍ وَمَن يُبَدِّلْ نِعْمَةَ اللّهِ مِن بَعْدِ مَا جَاءتْهُ فَإِنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ﴾

**“Bəni-İsraildən soruş: Aşkar dəlillərdən onlara necə də çox verdik. Hər kəs onun sorağına gəldikdən sonra Allahın (hidayət) nemətini dəyişsə, (bilsin ki,) həqiqətən, Allahın əzabı şiddətlidir.”**

## *Nöqtələr*

◘Rəvayətlərin bildirdiyinə görə, müxtəlif hadisələrlə müşayiət olunan ən yaxın tarixi hadisələrdən biri Bəni-İsrailin tarixçəsidir. Allah onlara Musa kimi rəhbər, möcüzələr və Öz lütflərini mərhəmət buyurdu. Allah onları Fironun əsarətindən qurtardı. Onların həyatının idarəsi üçün səmavi qanunlar göndərdi. Maddi baxımdan da rifahlı həyatla təmin olundular. Amma onların küfrü, nemətlərin dəyişməsi elə bir həddə çatdı ki, Harunu qoyub Samiriyə tabe oldular. Onlar Allaha pərəstiş etmək əvəzinə Samirinin buzovuna pərəstiş etməyə başladılar. Nəhayət, Allah onların haqqında qəti hökmünü verdi.[1] Belə rəftarları səbəbindən Allahın qəzəbinə düçar oldular.[2]

◘Allahın sabit qanunlarından biri budur ki, istər müsəlman, istər qeyri müsəlman bir millət Allahın nemətlərini dəyişsələr, Onun qəzəbinə düçar olmalıdırlar. Necə ki, bu günkü dünyamızda elmi tərəqqidən mənfi yönümdə istifadə olunduğu üçün dünya oda çəkilmişdir.

## *Bildirişlər*

1. Tarixi araşdırma və ibrət götürmək zəruridir.
2. Nemətlər məsuliyyət gətirir, tənbəllik isə cəza!

212. ﴿زُيِّنَ لِلَّذِينَ كَفَرُواْ الْحَيَاةُ الدُّنْيَا وَيَسْخَرُونَ مِنَ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ اتَّقَواْ فَوْقَهُمْ يَوْمَ الْقِيَامَةِ وَاللّهُ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ﴾

**“Dünya həyatı kafirlərin gözündə cilvələnmişdir. Ona görə imanlıları məsxərəyə qoyurlar. Halbuki möminlər və təqvalılar qiyamət günü onlardan üstündürlər. Allah istədiyi kəsə saysız ruzi mərhəmət edir.”**

## *Nöqtələr*

◘Bu ayə həm kafirlərə xəbərdarlıq edir ki, dünya bərbəzəyinə uymasınlar və möminləri məsxərəyə qoymasınlar. (Çünki səhnələrin dəyişəcəyi qiyamət var), həm də möminlərə təsəlli verir ki, kafirlərin məsxərəsindən peşman olmasınlar və gələcəyə ümid bağlasınlar.

## *Bildirişlər*

1. Küfr insanın gözündə dünyanı cilvələndirir. Bəli, dünya o kəslər üçün cilvələnir ki, qiyamətin sonsuz lütf və nemətlərinə etiqadsızdırlar. Möminin nəzərində isə behişt dünya ilə müqayisəyə gəlməz!
2. Dünyapərəstlik başqalarının təhqirinə və onlara istehza edilməsinə səbəb olur.
3. Yoxsulların məsxərəyə qoyulması dünya əhlinin daimi səciyyəsidir. (Felin gələcək zaman forması davam nişanəsidir.)

---

[1] Bax: “Bəqərə”, 47.
[2] Bax: “Bəqərə”, 61.

4. Qiyamətdə üstünlük o möminlərə məxsusdur ki, kafirlərin zəhərli sözləri onların təqvasını sındıra bilməmişdir.

5. Hesabsız ruzi ilahi ruhun nişanəsidir. Bu o demək deyil ki, Allah hesab çəkmir və ya bölgünü hikmətlə aparmır.

213. ﴿كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ
بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ وَمَا اخْتَلَفَ فِيهِ إِلاَّ الَّذِينَ أُوتُوهُ مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ بَغْيًا بَيْنَهُمْ فَهَدَى
اللّهُ الَّذِينَ آمَنُواْ لِمَا اخْتَلَفُواْ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِهِ وَاللّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“İnsanlar (başlanğıcda) vahid ümmət və əlbir idilər. (Onların arasında çəkişmə yox idi. İxtilaflar sonradan meydana çıxdı.) Allah peyğəmbərləri müjdə gətirən və qorxudan qərar verdi. Onlara haqq olaraq səmavi kitab nazil etdi ki, xalq arasında ixtilaflı məsələlərdə hökm versinlər. Bu kitaba münasibətdə yalnız həmin kitab göndərilənlər müxaliflik etdilər. Bu da onlara aşkar dəlil gəldikdən sonra baş verdi. (Səbəb) aralarındakı həsəd idi. Allah iman gətirənləri Öz istəyi ilə ixtilaflı məsələlərin həqiqətinə hidayət etdi. (Amma imansızlar hələ də azğınlıq və ixtilafda qalmışlar.) Allah istədiyi kəsi doğru yola hidayət edər.”**

## *Nöqtələr*

◘Bu ayədən məlum olur ki, insanlar ilk öncə sadə və bəsit bir həyat yaşamışlar. Amma zaman keçdikcə say çoxalmış, baxışlarda fərq və ixtilaflar meydana çıxmışdır. Bəzi rəvayətlərdə haqqında danışılan zaman, Nuhdan əvvəlki dövrə aid edilmişdir. Həmin vaxt xalq sadə və bəsit bir həyat tərzi yaşamışdır. Onlar qəflət içərisində ömür sürmüşlər.[1] Sonra insanlar təbii mənbələrdən faydalanmağa başlamış, biri o birini işə götürərək həmin şəxsin imkanlarından bəhrələnmişdir. Beləcə, ixtilaflar və təbəqələr meydana gəlmişdir. Mövcud ixtilafları həll edəsi möhkəm və ədalətli qanunlar ictimai həyatın zərurətlərindəndir. Allah-təala peyğəmbərləri ixtilafların həlli, çəkişmələrin aradan götürülməsi üçün məbus etdi. Bu məqsədlə səmavi kitablar nazil edildi. Amma bəziləri bilərəkdən, inadkarlıq səbəbindən peyğəmbərlərin müjdə və qorxutmasına qarşı müqavimət göstərib öz-özünə digər ixtilaflar yaratdılar. Amma Allah öz lütfü ilə hidayəti qəbul edənləri doğru yola yönəltdi. Həsəd və ya zülm səbəbindən haqqa qarşı çıxanlar isə öz cəzalarını almaq üçün özbaşına buraxıldılar.

◘Quran insanları peyğəmbərlərin hakimliyi və ilahi qanunları qəbul etməməyə yönəldən inadkar ixtilafları tənqid edir. Bununla belə, nəhayətdə ədalətə təslimçiliklə sonuclanan ixtilafın eybi yoxdur. Belə bir ixtilaf ədaləti təmin edən tərəzinin bir-birinə zidd hərəkət edəndir və gözləri kimidir.

## *Bildirişlər*

1. Bəşəri qanunlar və mədəniyyətlər yer üzündəki problemləri həll etməyə qadir deyil. Çünki cəmiyyətdəki hər bir fərd öz istəyinə çatmaq arzusundadır. İxtilaflar ilahi qanunlar və peyğəmbərlərin hakimliyi ilə həll olunmalıdır. İlahi qanunlar təhrifdən, xətadan və nəfsə əsaslanan mühakimədən uzaqdır.

2. İxtilafların ən yaxşı həll yolu məadı gücləndirməkdir. Peyğəmbərlər ixtilafların qarşısını almaq üçün müjdələrdən və qorxutmalardan istifadə etmişlər.

3. Peyğəmbərlərin ümumi məqsədi eyni xətt üzrədir.

4. Peyğəmbər mühakiməsi səmavi qanunlar çərçivəsindədir.

[1] “Təfsiri-Nurus-səqələyn”, c. 1, s. 209.

5. Peyğəmbərlərin vəzifələrindən biri vəhdət yaradılması və təfriqələrin aradan qaldırılmasıdır.

6. Bütün peyğəmbərlərin mühakiməsi eyni tərzdədir.

7. Ən pis ixtilaf bilərəkdən yol verilən ixtilafdır. Həsəd və zülm səbəbindən ortaya çıxan ixtilaf necə də pisdir?!

8. Möminlər arasında da ixtilaf olur. Amma ilahi hakimiyyət sayəsində bu ixtilaflar öz həllini tapır.

9. İman xüsusi ilahi hidayətdən bəhrələnmə üçün zəmindir.

10. Bütün fərdlərin hidayəti Allahın istəyindən asılı olsa da, Allahın istəyi hikmətə əsaslanır.

11. Doğru yol (sirate-müstəqim) ixtilaflara son qoyur.

214. ﴿أَمْ حَسِبْتُمْ أَن تَدْخُلُواْ الْجَنَّةَ وَلَمَّا يَأْتِكُم مَّثَلُ الَّذِينَ خَلَوْاْ مِن قَبْلِكُم مَّسَّتْهُمُ الْبَأْسَاء وَالضَّرَّاء وَزُلْزِلُواْ حَتَّى يَقُولَ الرَّسُولُ وَالَّذِينَ آمَنُواْ مَعَهُ مَتَى نَصْرُ اللّهِ أَلا إِنَّ نَصْرَ اللّهِ قَرِيبٌ﴾

**“Keçmişdəkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onlar çətinliyə, sıxıntıya düçar olub elə alt-üst oldular ki, peyğəmbər və ona iman gətirib yanında olanlar dedilər: “Allahın yardımı nə vaxt olacaq?” Agah olun ki, Allahın yardımı yaxındadır.”**

## *Nöqtələr*

◘“Bəsa” insana xaricdən hücum çəkən çətinliklərdir. Məsələn, savaş, oğruluq. “Zərra” isə xəstəlik, yara kimi daxili çətinliklərdir.

◘Ayədə keçmişdəki möminlərin çətinliklər qarşısındakı dözümü yada salınır və müsəlmanlara təsəlli verilir. Çətin hadisələr ilahi sınaqdır. Mala və cana aid olan bəlalar hamısı insanın tərbiyəsi üçündür.

Hər bəlada əta var, görə bilsən, Bir səfa başlayır qurtaranda qəm.
Hər əziyyət altda yatmış xəzinə, Baxsan gül görünər tikanlar sənə.

◘Həzrət peyğəmbərdən (s) nəql olunmuş rəvayətdə deyilir: Behişt çətinliklərlə hörülmüşdür.[1] Digər bir rəvayətdə belə nəql olunur: “Möminlər üçün dünya çətinlikləri elə bir mükafatdır ki, başqaları deyərlər: “Ey kaş, bu çətinliklər daha ağır halda bizim üçün olaydı.”[2] Bəli, çətinlik inkişaf, Allaha yaxınlıq amili və behiştə giriş yoludur.

Xəzinə tapmadı tər axıtmayan, Çatdı öz haqqına, kim ki, verdi can.

◘Duanın gec qəbul olunması sizi tərəddüdə salmasın. Allah dəfələrlə belə bir vəd vermişdir: Peyğəmbərlərə və Bizim bəndələrimizə hökmən yardım olunar.”[3] Başqa bir ayədə oxuyuruq: Allah yazmışdır ki, Mən və rəsullarım qalibik.”[4] Hər halda Allah qələbə vədi vermişdir. Müəyyən səbəblərdən vədlər təxirə düşə bilər. Amma bu təxir kimsəni tərəddüdə salmamalıdır.

## *Bildirişlər*

1. Heç bir çətinlik görmədən, yalnız iman səbəbindən behiştə getmək intizarı düzgün intizar deyil.

---

[1] “Təfsiri-Kaşif”, c. 1, s. 3109.
[2] “Təfsiri-minhacüs-sadiqin”, c.1, s. 552.
[3] “Saffat”, 172.
[4] “Mucadələ”, 21.

2. Allahın sünnətində, qanunlarında heç bir dəyişiklik yoxdur. Bütün millətlər, ümmətlər və fərdlər sınaqdan keçməlidir.
3. Başqalarının çətinliklərinə diqqət insan üçün təskinlik amilidir. Tarixdən ibrət götürün.
4. Hazır olaq; ilahi sınaqlar bəzən o qədər çətin olur ki, hətta peyğəmbərlər də iztirab keçirir.
5. Çətinliklər zamanı peyğəmbərlər xalqdan uzaqlaşmamışlar.
6. Duanın qəbul olma şərtlərindən biri çarəsizlik və Allahdan qeyrisindən ümidi kəsməkdir.
7. Çətinliklərdən rahatlıq tapmaq üçün Allahın yardımını yada salmalıyıq.
8. Müqavimət ilahi yardımlardan faydalanmanın zəminəsidir.

215. ﴿يَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلْ مَا أَنفَقْتُم مِّنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَالأَقْرَبِينَ وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ﴾

**“Səndən soruşurlar ki, nəyi infaq etsinlər? De ki, hər nəyi (istəyirsinizsə) infaq edin, ata-ananız, yaxınlarınız, yetimlər, miskinlər, yolda qalanlar üçün olsun. (Bilin ki,) gördüyünüz hər bir xeyir işdən, həqiqətən, Allah xəbərdardır.”**

## *Nöqtələr*

◘Bu ayədə “xeyir” sözü iki dəfə işlədilmişdir: Biri xeyir infaq, digəri xeyir iş. Məlum olur ki, hətta pulu olmayanlar xeyir əməllə məqsədlərinə çata bilərlər.

◘Hədisdə oxuyuruq: “Qohumlar ehtiyaclı olduğu halda başqalarına sədəqə növbəsi çatmaz.”[1]

İnfaqda əhəm və mühüm qaydalarına riayət olunur, kamil məlumat və mərhəmət ölçüləri nəzərə alınır.

**◘İnfaq beş növdür:**

1. Vacib infaq; məsələn: zəkat, xüms, kəffarə, fidyə, kişinin öhdəsində olan dolanışıq nəfəqəsi.
2. Müstəhəb infaq; məsələn, miskinlərə, yetimlərə kömək, dostlara hədiyyə.
3. Haram infaq; məsələn, qəsbi maldan infaq və ya günah yolda infaq.
4. Məkruh infaq; məsələn qohumlar arasında ehtiyaclı olduğu halda başqalarına infaq.
5. Mübah infaq. Başqalarının həyat şəraitini yaxşılaşdırmaq üçün edilən infaq. (Çünki fəqirliyi aradan qaldırmaq üçün edilən infaq vacib və müstəhəbdir.)

## *Bildirişlər*

1. İnfaqın növünü, şəraitini və yolunu vəhy məktəbindən öyrənmək lazımdır.

İmam Səccad (ə) “Məkarimul-əxlaq” duasında Allahdan istəyir ki, onu infaq etməkdə hidayət buyursun.

2. Xalqın sualı Allah tərəfindən cavab nazil olması üçün zəmindir.
3. İnfaq böyük və kiçik işlərə şamil olunur.
4. Var dövlət, dünya malı imanlı insanların əlində xeyir mayasıdır.
5. Yaxşı və rəğbət doğuran şeylər infaq olunmalıdır.
6. İnfaq təkcə maddi şeylərə aid deyil və hər bir xeyir ona daxildir.
7. İnfaq ediləsi ən yaxşı ünvan valideyn və yaxınlardır.
8. Qohumlara infaq ailə əlaqələrinin möhkəmləndirilməsi səbəbidir. Başqalarına infaq isə ehtiyaclıların maddi və mənəvi çətinliklərini aradan qaldırır, təbəqələrarası ziddiyyəti yumşaldır.
9. Həkim (hikmət sahibi) o kəsdir ki, verdiyi cavabda işarə etdiyi məsələlərdən sual verən şəxs xəbərsiz olsun. Ayədə infaqın nədən olması soruşulur. Allah nümunələr müəyyənləşdirir.

---

[1] “Bihar”, c. 77, s. 58.

10. İslam kasıb təbəqəyə xüsusi diqqət göstərir.
11. Saleh əməl istər aşkar olsun, istər məxfi, istər az olsun, istər çox, heç vaxt zay olmur.
12. Allahın bizim işlərimizdən xəbərdar olmasına iman ən yaxşı təşviqdir.

216. ﴿كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ وَهُوَ كُرْهٌ لَّكُمْ وَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ وَعَسَى أَن تُحِبُّواْ شَيْئًا وَهُوَ شَرٌّ لَّكُمْ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ﴾

**“Sizə xoş gəlməsə də, sizin üçün cihad müəyyənləşdirildi. Çox olsun ki, xoşlamadığınız bir şey sizin xeyrinizə olsun. Çox olsun ki, bir şeydən xoşunuz gəlsin, halbuki onda sizə zərər və şər var. Allah (sizin xeyrinizi) bilir və siz bilmirsiniz.”**

## *Nöqtələr*

◘“Kurh” sözü insanın öz daxilindən hiss etdiyi məşəqqət mənasını bildirir. Məsələn, savaşdan qorxu. Məsələn, “Fussilət” surəsinin on birinci ayəsindəki kimi məcburi bir hökm: “Göylərə və yerə dedik: Ya rəğbətlə, ya da ikrahla gəlin. Dedilər: biz rəğbətlə gəlirik.”

◘Əvvəlki ayə mal verilməsinə aid idi. Bu ayədə isə canın verilməsindən danışılır.

◘Savaşa qarşı ikrah doğuran şey ya rahattələblik ruhiyyəsidir, ya insana sevgi və başqalarına rəhmdir, ya da düşmənin daha güclü olmasıdır. Quran buyurur: Siz cihadın əsərlərini və nəticələrini bilmirsiniz. Diqqətiniz yalnız onun zahiri və maddi zərərlərinə yönəlmişdir. Halbuki Allah müxtəlif yönümlərdən işlərin bugünkü və sabahkı təsirindən və sirlərindən xəbərdardır.

◘Savaş bütün çətinlikləri ilə yanaşı, müsbət təsirlərə və faydalara malikdir. O cümlədən, döyüş qabiliyyəti yüksəlir, düşmənin cəsarəti azalır, cəmiyyətdəki fərdlərdə məsuliyyət və fədakarlıq hissi yaranır, İslam və müsəlmanların qüdrət və izzəti dünyaya bəyan edilir, qeybi yardımlar nazil olur, Allahdan yardım ruhiyyəsi vücuda gəlir, ilahi əcr və savab əldə olunur, yaradıcılıq, ixtira, kəşf ruhiyyəsi dirçəlir.

**Digər dinlərdə cihad məsələsi:**

◘Bu gün dünyadakı sülh təbliğatının əksinə olaraq, din yolunda cihad məsələsi bütün səmavi dinlərdə təsbit olunmuşdur və qəti zərurətdir.

**◘Tövratda oxuyuruq:**

- Şəhər sakinlərini qılıncla öldür və yüklərini götür.[1]
- Onların hamısını öldür və rəhm etmə.[2]
- Döyüş üçün meydana çıxdıqda düşməni çox görüb qorxma.[3]
- Qardaşını, dostunu və qonşusunu öldürsün ki, buzovpərəstliyin kəffarəsi olsun.[4]
- Musa cəmiyyəti döyüşə apardı və mühüm bir savaş baş verdi.[5]

**◘Məttanın İncilində oxuyuruq:**

- Güman etməyin ki, yer üzündə salamatlıq qoymağa gəldik. Gəlmədik ki, bir salamat qoyaq, yalnız qılıncı.[6]
- Hər kəs canını qorusa həlak olar, hər kəs canını Mənə görə həlak etsə, onu əldə edər.[7]

Luqanın İncilində oxuyuruq: - Mənə tabe olmaq istəməyən düşmənləri burada hazır edib qarşımda qətlə yetirin (İncil, l. b. 19, c. 28)

---

[1] Tövrat, s. t. b. 13, c. 15.
[2] Tövrat, s. t. b. 7, c. 3.
[3] Tövrat, s. t. b. 20, c. 1.
[4] Tövrat, s. t. x. c. 36.
[5] Tövrat, s. ə. b. 31, c. 3.
[6] İncil, m. b. 10, c.7.
[7] İncil, m. b. 10, c.39.

- Kimin qılıncı yoxdursa, libasını satıb qılınc alsın.[1]

◘Quranın “Ali-İmran” (a. 147), “Maidə” (a. 24), “Bəqərə” (a. 246) surələrində ötən dinlərdə savaş və cihadın olmasından danışılır.

## *Bildirişlər*

1. Xeyir və şərin ölçüsü asanlıq və çətinlik, şəxsi meyllər deyil. Ölçü gerçək xeyirdir. Öz ehtimallarımıza istinad etməməliyik.
2. Nəfsdən doğan ikrah və sevgi xeyir və şər nişanəsi deyil.
3. Din yolunda savaş və cihad xeyir mayasıdır.
4. Öz sonsuz elmi ilə bizə göstəriş verən Allahın fərmanına təslim olaq. Hətta həmin göstərişlərin dəlilini bilməsək də!

217. ﴿يَسْأَلُونَكَ عَنِ الشَّهْرِ الْحَرَامِ قِتَالٍ فِيهِ قُلْ قِتَالٌ فِيهِ كَبِيرٌ وَصَدٌّ عَن سَبِيلِ اللّهِ وَكُفْرٌ بِهِ وَالْمَسْجِدِ الْحَرَامِ وَإِخْرَاجُ أَهْلِهِ مِنْهُ أَكْبَرُ عِندَ اللّهِ وَالْفِتْنَةُ أَكْبَرُ مِنَ الْقَتْلِ وَلاَ يَزَالُونَ يُقَاتِلُونَكُمْ حَتَّىَ يَرُدُّوكُمْ عَن دِينِكُمْ إِنِ اسْتَطَاعُواْ وَمَن يَرْتَدِدْ مِنكُمْ عَن دِينِهِ فَيَمُتْ وَهُوَ كَافِرٌ فَأُوْلَئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ فِي الدُّنْيَا وَالآخِرَةِ وَأُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“(Ya Rəsulum!) Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) qapamaq, onu inkar etmək, Məscidül-Hərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha betərdir"! (Ey möminlər!) Onlar (Məkkə müşrikləri) əgər bacarsalar, dininizdən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər. Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!”**

## *Nöqtələr*

◘“Fitnə” dedikdə şirk, işkəncə, imtahan, çətinlik başa düşülür.

◘Şiə və sünni təfsirçilərindən nəql olunmuşdur: Həzrət Peyğəmbər (s) Abdullah ibn Cəhş adlı şəxsi səkkiz nəfərlə birlikdə bir məktubla kafir və müşriklərdən məlumat gətirmək üçün göndərmişdi. Amma görüşdə çaxnaşma baş vermiş və nəticədə qarşı tərəfin rəisi qətlə yetirilmişdi. Onlardan iki nəfəri əsir düşmüş və malları müsadirə edilmişdi.

Bu hadisə haram aylardan olan rəcəb ayında baş vermişdi. Amma həmin dəstə rəcəb ayının başlandığını bilməmiş və cəmadiüs-saninin axırı olduğunu güman etmişdilər. Hər halda bu savaş səhvən rəcəb ayının əvvəlində baş vermişdi. Kafirlər bu məsələni şişirdərək müsəlmanları haram aylara ehtiramsızlıqda suçlayırdılar.

Düşmənin bu təbliğatı qarşısında Quran cavab verir ki, bu savaş haram ayda baş versə də, bunun səbəbi müsəlmanların ayı səhv salması olmuşdur. Müşriklərin nəzərinə çatdırılırdı ki, onlar bu aylarda bilərəkdən günaha yol verirlər. Bunun isə günahı haram ayda bilmədən savaşa girməyin günahından çox idi. Əslində bir bu qədər rüsvayçılıq və günaha yol verən kafirlər müsəlmanlar üçün bu əməli səhv saymamalıdırlar.

◘Mürtədlik əməlinin dünya cəzası islami faydalardan məhrumluqdur. Mürtədin cəzası həyat yoldaşından ayrılmaq, irsdən məhrum edilmə, müsəlmanlarla rabitələrin qırılması, İslam himayəsindən məhrum edilmə, nəhayət, qətldir.

Mürtədin axirət cəzası isə onun dünyadakı bütün yaxşı işlərinin puça çıxmasıdır.

---

[1] İncil, l. b. 22, c. 36.

## *Bildirişlər*

1. Şübhələrə münasib cavab verin.
2. Məscidül-Həramın və onun əhlinin xüsusi hörməti var.
3. Günahların əhəmiyyət dərəcəsinin təyini Allahın əlindədir.
4. Əmin-amanlığı pozmaq qətldən də pisdir.
5. Düşmənin arzuları, məqsədləri, səyləri ilə tanışlıq lazımdır.
6. Düşmənin hücumu küfrə don geyindirib sizi rədd edə bilməz.
7. Düşmən daim pusqudadır. O sizin öz dininizi rədd etməyinizi, küfrünüzü, ona arxa çevirməyinizi istəyir. Bundan başqa heç nə ilə razılaşası deyil. Onlar müvəqqəti qələbə sorağında deyildirlər. Onlar sizin əqidə və məktəbinizi büsbütün aradan götürmək istəyirlər.
8. Dəyər ölçüsü xoş aqibətdir. Ola bilər ki, əvvəlcə İslamda olmuş şəxs dünyadan kafir getsin.
9. Mürtədliyin dünya və axirət təsirləri var.
10. Mürtədlik xeyir işləri puça çıxarır.
11. İman və əqidənin dəyəri haqqında onu demək olar ki, iman getdikdə saleh əməl də puç olub gedir.

218. ﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ أُوْلَئِكَ يَرْجُونَ رَحْمَتَ اللّهِ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**"Həqiqətən iman gətirənlər, mühacirət edənlər və Allah yolunda cihada qalxanlar Allahın mərhəmətinə ümidvardırlar. Allah bağışlayan və mehribandır.**

## *Nöqtələr*

◘Əvvəlki ayənin davamı olan bu ayənin nazil olma şəni haqqında oxuyuruq: Hicrət və cihad etmiş, amma rəcəb ayını cəmadiül-axir ayı ilə səhv salmış və savaşa girmiş möminlər narahat olmasınlar. Çünki onların səhvləri bağışlanasıdır. Onların günah etmək məqsədləri olmamışdır.

◘Əməlsiz ümid arzudan başqa bir şey deyil. Çünki "Kəhf" surəsinin son ayəsində belə buyurulur: "Hər kimin Allahla görüşə və yaxınlıq məqamına çatmağa ümidi varsa, xalis əməl yerinə yetirməlidir." Bəli, "rəca" - gerçəkləşməsi üçün müqəddimə işləri görülən ümiddir.

◘İlahi lütflərə ümidvarlıq üçün İslam zəminələr hazırlamışdır:

1. Allahdan ümidsizlik kəbirə (böyük) günahlardandır.[1]
2. Allah-təala buyurur: "Mən mömin bəndəmin gümanına baxıram. Əgər Mənə qarşı xoş gümandırsa, ona yaxşılıq yetirirəm.[2]
3. Peyğəmbərlər və mələklər möminlər üçün dua edir və onların bağışlanmasını diləyirlər.[3]
4. İlahi mükafat qat-qat artıq olur.[4]
5. Tövbə yolu açıqdır.[5]
6. Möminin çətinlikləri onun günahlarının kəffarəsi sayılır.[6]

---

[1] Bax: "Zumər", 53.
[2] "Kafi", c. 2, s. 72.
[3] Bax: "Ğafir", 7, "İbrahim, 41.
[4] Bax: "Bəqərə", 261.
[5] Bax: "Nisa", 18.
[6] Bax: "Bihar", c. 81, s. 176.

7. Allah tövbəni qəbul edir və günahları savaba çevirir.[1]

## *Bildirişlər*

1. İman əməldən üstün rütbəyə malikdir.
2. Allahın lütfünə ümid iman, hicrət və cihaddan asılıdır.
3. Düşüncə və əməllərin əsası düzgün olsa, kiçik yanlışlıqlar bağışlanasıdır.
4. Yaxşı işlərə yox, Allahın lütfünə ümid bağlayaq. Çünki pis aqibət, əməllərin puça çıxması, ibadətlərin qəbul edilməməsi təhlükəsi ömrümüzün sonunadək pusqudadır.
5. Bəndə Allahın rəhmətinə ümidvar olduğundan Allah belə elan edir: "O, bağışlayan və mehribandır."
6. Hicrət və cihadı dəyərli edən, onların Allah yolunda baş verməsidir.
7. Xalis möminlər və mühacirlər də Allahın rəhmət və bağışlanmasına ehtiyaclıdırlar.
8. Allah yolunda mühacir və mücahidlərin xətalarını bağışlamaq lazımdır.

219. ﴿يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا
وَيَسْأَلُونَكَ مَاذَا يُنفِقُونَ قُلِ الْعَفْوَ كَذَلِكَ يُبيِّنُ اللّهُ لَكُمُ الآيَاتِ لَعَلَّكُمْ تَتَفَكَّرُونَ﴾

**"Səndən şərab və qumar haqqında soruşurlar. De ki, bunlar iki böyük günahdır, (maddi) mənafeləri də var. (Amma) onların günahı faydalarından daha böyükdür. (Eləcə də) səndən soruşurlar ki, nəyi infaq etsinlər? De ki, əfvi (ehtiyacınızdan artığını). Allah Öz ayələrini sizin üçün bu sayaq aydınlaşdırır ki, bəlkə düşünəsiniz."**

## *Nöqtələr*

◘"İsm" sözü insanı xeyir iş görməkdə süstləşdirən işə deyilir.

◘Xalqın ilk sualı şərab və qumarın hökmü haqqındadır. "Xəmr" örtük mənasını verir. Ona görə də qadınların başlarına bağladıqları örtük "Ximar" adlanır. Şərab insanın tanıma qüvvəsini aldığı üçün onu "Xəmr" adlandırmışlar. Yəni şərab bir növ insanın ağlını örtür.

"Məysir" sözü asan mənasını verən "yəsr" sözündəndir. Çünki qumarda tərəflər bir-birlərinin pulunu asan yolla ələ keçirmək istəyirlər.

Ayədə bu adamlara belə cavab verilir: Şərab və qumar böyük günahlardandır. Onlarda hansısa fayda ola bilər. Necə ki, bəziləri üzüm əkmək, bəziləri şərab düzəltmək və satmaq, bəziləri qumarxana açmaq yolu ilə pul əldə edirlər. Amma bu iki işin zərəri onun faydası ilə müqayisəyə gəlməyəcək dərəcədə böyükdür. Elmi və əxlaqi kitablarda şərab və qumarın mənfi təsirləri haqqında ətraflı şəkildə danışılmışdır. "Təfsiri-nümunə"də şərab və qumarın mənfi təsirləri sadalanmışdır. Həmin qeydləri nəzərinizə çatdırırıq:

1. Şərab və qumar ömrü qısaldır.
2. Körpələrə mənfi təsir edir. Cinsi yaxınlıq sərxoş halda baş verdikdə bu mənfi təsir daha böyük olur.
3. Əxlaqi fəsadlar genişlənir, cinayətlərin sayı artır. Oğurluq, qətl, ağır xəsarət, zorlamalar, yol qəza hadisələri bu günahların səbəbi kimi göstərilə bilər. Alimlərdən biri bildirir ki, əgər dövlətlər şərab istehsalı və satışını ikidə bir qədər azaltsalar, biz də xəstəxanaların yarısını bağlayarıq.

Qumar insanda ciddi həyəcanlar yaradır, əsəb xəstəliklərinə səbəb olur, qumar səbəbindən beyin və ürək zərbəyə məruz qalır, qəlb döyüntüləri artır, iştahasızlıq yaranır. Aparılan sorğulardan belə bir nəticə əldə olunur ki, dünyada baş vermiş cinayətlərin otuz faizi qumarın payına düşür. Qumar insanlarda halal zəhmətə olan marağı öldürür, işdən duyulan sevinci onların əlindən alır. Bir çox qeyri-İslami ölkələrdə qumar qadağan olunmuşdur. Məsələn,

[1] Bax: "Furqan", 70.

İngiltərədə 1953-cü, keçmiş Sovetlər İttifaqında 1954-cü, Almaniyada 1973-cü ildə qadağan edilmişdir.

◘Ayədə verilən növbəti sual infaq haqqında idi. Soruşulurdu ki, nədən infaq etmək lazımdır? Ayədə suala belə cavab verilir: "Əfvi!" "Əfv" lüğətdə bağışlanma mənasından əlavə, orta həddə bağışlama, artıq miqdar, malın ən yaxşı hissəsi mənalarını da bildirir. Bu mənaların istənilən biri hazırkı ayəyə tətbiq oluna bilər. Ayədə "əfv" təbirinin bütün bu mənaları daşıması mümkündür. Yəni infaq etmək istədiyiniz vaxt həm orta həddi gözləyin, həm olanınızı bütünlüklə infaq etməyin, həm də malınızın yaxşısını infaq edin. Necə ki, Quranda buyurulur: "Sevdiyiniz şeylərdən infaq etməyincə yaxşılığa çatmayacaqsınız."[1]

◘Təfsirdə bildirilir ki, şərab tədricən qadağan edilmişdir. Çünki ərəblər sərxoşluğa çox meylli idilər. Ona görə də Quran şərabı pilləli mərhələdə haram buyurmuşdur. Əvvəlcə bu ayə nazil olmuşdur: Üzümdən həm məstedici içki, həm də yaxşı ruzi əldə olunur."[2] Yəni şərab yaxşı ruzi deyil. Sonra isə bu ayə nazil olmuşdur: "Şərab və qumarın zərəri onların faydasından çoxdur." Daha sonra şərab haqqında belə buyurulur: "Namaz vaxtı məst olmamalısınız."[3] Nəhayətdə isə şərab qəti və daimi şəkildə haram buyurulur: "Şərab və qumar... murdardır və şeytan əməllərindəndir."[4]

## *Bildirişlər*

1. Həm şərab, həm də qumar fiziki və ruhi sağlamlığa ziddir və qəflət doğurur. Ona görə də bu iki şeyin adı Quranda yanaşı çəkilir.
2. Düşüncənizi və əmin-amanlığınızı qoruyun. Şərabı qadağan etməklə ağıl və düşüncənizi, qumarı qadağan etməklə ruhi sağlamlığınızı və iqtisadi dayaqlarınızı hifz edin.
3. Rəftarlarınızda insaflı olun. Başqalarının pisliyini gördüyünüz kimi yaxşılığını da görün. Ayədə şərab və qumarın faydalarına göz yumulmur. Mövzu elə bir şəkildə bəyan olunur ki, insan bu məsələlərə sağlam düşüncə ilə yanaşa bilsin.
4. Haram şeylərdə hansısa faydalar da ola bilər.
5. Dini qanunlara münasibətdə "əhəmm" və mühüm" məsələlərinə diqqətli olun.
6. İlahi hökmlər verilərkən həm xeyir, həm də şər nəzərə alınmışdır.
7. Dini hökmlərin fəlsəfəsi ilə tanışlıq onların qəbuluna doğru bir addımdır.
8. Günahlar kəbirə və səğirə (böyük və kiçik) olur.

220. ﴿فِي الدُّنْيَا وَالآخِرَةِ وَيَسْأَلُونَكَ عَنِ الْيَتَامَى قُلْ إِصْلاَحٌ لَّهُمْ خَيْرٌ وَإِنْ تُخَالِطُوهُمْ فَإِخْوَانُكُمْ وَاللّهُ يَعْلَمُ الْمُفْسِدَ مِنَ الْمُصْلِحِ وَلَوْ شَاء اللّهُ لأعْنَتَكُمْ إِنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ﴾

**"(Düşünün) dünya və axirət haqqında. Səndən yetimlər haqqında soruşarlar. De ki, onların işlərini yoluna qoymaq yaxşıdır. Əgər öz həyatınızı onların həyatından ayırmasanız (eybi yoxdur), onlar sizin (din) qardaşlarınızdır. Allah islah əhlini fəsad əhlindən ayırd edir. Allah istəsəydi sizi zəhmətə salardı. (Göstəriş verərdi ki, yetimlərə himayədarlıq edərkən onların malını öz malınıza qatmayasınız. Amma Allah belə etmir.) Həqiqətən, O, əziz və həkimdir."**

## *Nöqtələr*

◘"Fiddünya vəl axirət" cümləsi iki şeydən birinə işarədir. Bu cümlə infaq məsələsinə aid ola bilər. Bu barədə əvvəlki ayədə danışılmışdır. Yəni sizin infaqınız dünya və axirət asayişiniz

[1] "Ali-İmran", 92.
[2] "Nəhl", 67.
[3] "Nisa", 43.
[4] "Maidə", 90.

üçün olsun. Bütün malınızı xərcləməyin ki, dünyada əziyyətə düşəsiniz. Xəsislik də etməyin ki, axirət savabından məhrum olasınız.[1] Bu cümlə əvvəlki ayənin sonunda işarə olunmuş təfəkkürə də aid ola bilər. Yəni insan dünya və axirət məsələləri haqqında düşünsün və axirəti üçün bu dünyadan bir şey qazansın. İnsan yaranış, varlıq aləminin sirləri, hakim qanunlar haqqında düşünməli, məsələləri bacardığı qədər əql və düşüncə əsasında qəbul etməlidir. Hərçənd bir əqidənin qəbulu üçün bütün sirlərdən xəbərdar olmaq şərt deyil.[2]

◘Təfsirlərdə bildirilir: "Nisa" surəsinin onuncu ayəsi nazil olanda və yetimin malının yeyilməsi od yeyilməsi ilə bir tutulanda, evində yetim olanlar narahat oldular. Bəziləri yetimləri evlərindən çıxardılar, bəziləri isə onların qab-qacağını ayırdılar. Belə ki, yetimlər və onlara himayədarlıq edənlər üçün çətinlik yarandı. Beləlari həzrət Peyğəmbərin (s) hüzuruna gəlib yetimlərlə rəftar haqqında soruşurdular. Həzrət Peyğəmbər (s) onların suallarını belə cavablandırırdı: "Yetimlərin işlərini yoluna qoymaq onları uzaqlaşdırmaqdan üstündür. Malınızın onların malına qatılmaması üçün onları özünüzdən uzaqlaşdırıb, bu məsuliyyəti çiyninizdən atmamalısınız. Onlar sizin din qardaşlarınızdır. Onların malına tamah olmayan yerdə öz malınızı həmin mala qatmağın eybi yoxdur. Bilin ki, Allah fəsad əhlini islah əhlindən seçir."

## *Bildirişlər*

1. Dünya və axirətə diqqətsiz olmayın, onlar haqqında düşünün.
2. Yetimlərdən uzaqlaşmaq məsləhət deyil. Əksinə, xeyir və tamahsız bir niyyətlə onlarla yaxınlıq məsləhətdir.
3. Yetimlərə istənilən cür kömək dəyərlidir. Ayədə islah sözü ümumi şəkildə işlədilmişdir. Burada həm maddi, həm elmi, həm əməli, həm tərbiyəvi, həm də dini islah nəzərdə tutulur.
4. Yetimlər bizim nə qulumuzdur, nə övladımız. Onlar bizim kiçik qardaşlarımızdır və bizim özümüzdəndir.
5. Bu işdə nə ifrat, nə də təfritə yol verin. İslah adı ilə yetimlərin malını yeməyin, fəsad qorxusundan onlardan uzaqlaşmayın. Allah islah əhlini fəsad əhlindən seçir.
6. Allahın bizim düşüncə və niyyətlərimizdən xəbərdar olduğunu bilsək, fəsad və xilafa yol verməzik.
7. İslamda gücdən yuxarı vəzifə yoxdur.
8. Göstərişlərdəki asanlıq hikmətə əsaslanır.

221. ﴿وَلاَ تَنكِحُواْ الْمُشْرِكَاتِ حَتَّى يُؤْمِنَّ وَلأَمَةٌ مُّؤْمِنَةٌ خَيْرٌ مِّن مُّشْرِكَةٍ وَلَوْ أَعْجَبَتْكُمْ وَلاَ تُنكِحُواْ الْمُشِرِكِينَ حَتَّى يُؤْمِنُواْ وَلَعَبْدٌ مُّؤْمِنٌ خَيْرٌ مِّن مُّشْرِكٍ وَلَوْ أَعْجَبَكُمْ أُوْلَئِكَ يَدْعُونَ إِلَى النَّارِ وَاللّهُ يَدْعُوَ إِلَى الْجَنَّةِ وَالْمَغْفِرَةِ بِإِذْنِهِ وَيُبَيِّنُ آيَاتِهِ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ﴾

**"Nə qədər ki, iman gətirməyiblər, müşrik qadınlarla evlənməyin. İmanlı bir kəniz sizi heyran qoymuş müşrik qadından üstündür. Müşrik kişilərə - onlar iman gətirənədək - qız verməyin. İmanlı qul sizi heyran qoyan müşrik kişidən üstündür. Bu müşriklər (sizi) oda doğru dəvət edirlər. Halbuki Allah öz əmr və fərmanları ilə sizi behişt və bağışlanmaya doğru çağırır. O Öz ayələrini xalq üçün aydınlaşdırır ki, bəlkə dərk edələr."**

[1] Mərhum Qumşeyinin tərcüməsi.
[2] "Təfsiri-Əl-Mizan".

## *Nöqtələr*

◘Mömin olmayan insanlarla ailə qurmaq övladların və gələcək nəslin tərbiyəsində mənfi təsir qoya bilər. Hətta belə övladlar biganələrə casusluq da edə bilərlər. Ayə müsəlman olmayanlarla izdivac haqqında olsa da, insanın imanı üçün təhlükəli olan bütün ünsiyyətlər qadağan edilir.

## *Bildirişlər*

1. Müsəlmanlar kafirlərlə ailə bağlılığı yaratmaq haqqına malik deyillər.
2. Təhlükəni aradan qaldırmaq mənfəət əldə etməkdən daha mühümdür. Müşriklərlə izdivac zamanı iki ehtimal önə gəlir: İzdivac nəticəsində müşrik iman gətirə bilər. Amma əksinə, mömin də müşrik ola bilər. Mömininin müşrik olma təhlükəsi daha mühüm olduğundan İslam qarşı tərəf iman gətirənədək bu izdivacı qadağan edir.
3. Ailə qurumunda tərəflərin imanı əsasdır. Kafirlərlə izdivac qadağandır.
4. İzdivac zamanı qarşı tərəfin gözəlliyinə, var-dövlətinə, ictimai mövqeyinə aldanmayın.
5. İctimai mövqe, var-dövlət, gözəllik imanın yerini doldura bilmir.
6. İmanlı zəiflərə və məhrumlara üstünlük verib, onlarla evlənin.
7. İzdivac dinə dəvət üçün vasitə ola bilər.
8. Nəfsani meyllər din çərçivəsini aşmamalıdır və onlara nəzarət edilməlidir.
9. Qul və kənizdə də olmuş olsa, iman dəyərlidir. Müşrik azad da olsa süqut rəmzidir.
10. Qızın izdivac məsələsində ataya xitab olunur ki, qızını müşrikə verməsin.
11. Əvvəlcə iman, sonra izdivac! Düşünməyin ki, izdivacdan sonra imana gəlsinlər.
12. Müşriklərin müsəlman cəmiyyətinin qəlbinə nüfuzunun qarşısını alın. Belə izdivaclardan ortaya çıxası təhlükələri nəzərdən qaçırmayın.
13. Pis həyat yoldaşı insanı cəhənnəmə apara bilər.
14. İlahi göstərişlərə əməl behiştə çatmaq yoludur.
15. Bağışlanma Allahın tovfiqi və izni ilə mümkündür. Məsihilər bağışlanmanı öz böyüklərindən asılı bilirlərsə, müsəlmanlarda belə bir inanc yoxdur.
16. İnsan həqiqəti fitri şəkildə dərk edir. Hökmlərin bəyanı isə yalnız xatırlatma üçündür.

222. ﴿وَيَسْأَلُونَكَ عَنِ الْمَحِيضِ قُلْ هُوَ أَذًى فَاعْتَزِلُواْ النِّسَاء فِي الْمَحِيضِ وَلاَ تَقْرَبُوهُنَّ حَتَّىَ يَطْهُرْنَ
فَإِذَا تَطَهَّرْنَ فَأْتُوهُنَّ مِنْ حَيْثُ أَمَرَكُمُ اللّهُ إِنَّ اللّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ﴾

**“Səndən heyz (qadınlarda aybaşı adəti) haqqında soruşarlar. De ki, o, əzab-əziyyətlidir. Heyz zamanı qadınlardan kənar olun və pak olanadək onlarla yaxınlıq etməyin. Elə ki, pak oldular (ya qüsl verməklə paka çıxdılar), Allah sizə icazə verdiyi şəkildə onlarla yaxınlıq edin. Həqiqətən, Allah tövbə edənləri və paklananları da sevir.”**

## *Nöqtələr*

◘Aybaşı (heyz) zamanı qadınlara münasibətdə yəhudilər ifratçı, məsihilər biganədirlər. Tövratda oxuyuruq: Heyz halda olan qadına toxunan kəs şam vaxtınadək murdardır. Qadının yatağı, oturduğu yer də murdardır. Həmin yatağa toxunan istənilən bir kəs libasını yumalıdır. O qadının oturduğu yerə toxunan yuyunmalıdır. Əks təqdirdə şamadək murdardır. Onunla yaxınlıq edən kişi yeddi gün murdar olur. Heyzdən artıq günlər qan görsə murdardır.”[1] Yəhudilərin əksinə olaraq, məsihilər heyz dövründə də yaxınlığı caiz sayırlar.

◘Amma İslam orta bir yol tutmuşdur. Heyz dövründə yalnız cinsi yaxınlıq qadağan olunmuşdur. İstənilən cür ünsiyyət, söhbət caizdir.

---

[1] “Tövrat”, səfəre-laviyan, 19-21-ci cümlələr.

İslam əhatəli bir dindir. Bəşər həyatında ortaya çıxan bütün suallara İslamda cavab var. Əvvəlki ayələrdə "Yəsəlunəkə" cümləsi ilə xalqın peyğəmbərə sualları bəyan olunmuş və onlar cavablandırılmışdır. Bəzən sual savaş, bəzən qumar, bəzən şərab, bəzən də infaq haqqında olmuşdur. Bu ayədə isə qadınlar haqqında soruşulmuşdur. Bütün bu suallar İslam məktəbinin əhatəli olduğunu göstərir. Buyurulur ki, Allah cüzi-külli, maddi-mənəvi və ümumiyyətlə bütün məsələlər barədə hökm vermişdir.

◘Heyz dövründə qadının fizioloji baxımdan yaxınlıq hazırlığı olmur. Həmin dövrdə qadında süstlük və narahatlıq halları xarakterdir. Heyz dövründə yaranmış çətinliklər qadının yaxınlıq istəyini pozur. Eləcə də bu dövrdə onun orqanizmində qan kütlələri toplanır. Belə bir vəziyyətdə yaxınlıq baş verərsə, tibb alimlərinin nəzərincə, kişi sonsuzluğu ortaya çıxa bilər.

Rəvayətdə isə belə nəql olunur: Heyz dövründə bətnə düşmüş övlad cismi və ruhi cəhətdən problemlərə malik olacaq.[1]

## *Bildirişlər*

1. Peyğəmbərlər xalqın suallarını cavablandırır, onlara yol göstərirlər.
2. Sual verərkən utanmaq yersizdir.
3. Dini hökmlərin dəlilləri bəyan olunur, sonra isə bu iş qadağan edilir.
4. İlahi hökmlər islahın qorunmasına və fəsadların aradan qaldırılmasına əsaslanır.
5. Heyz dövrü qadın üçün çətin bir dövrdür.
6. Qadından ləzzət almağın da həddi-hüdudu var.
7. Ər-arvad bir-birini nəzərə almalıdırlar. Həyat yoldaşı narahat olduğu vaxt ondan ləzzət almaq istəyi yersizdir.
8. Yaxınlıq zamanı sağlamlıq məsələlərinə diqqət olunmalıdır.
9. Yaxınlıqda ilahi hökmlər nəzərə alınmalıdır.
10. Əgər yaxınlıq baş versə, sonra tövbə etsəniz, Allah tövbənizi qəbul edər.
11. Tövbə və günahdan dönüş Allah yanında məhbubluq yoludur.
12. Tövbə edənlərə öz sevgi və məhəbbətimizi bildirək.

223. ﴿نِسَآؤُكُمْ حَرْثٌ لَّكُمْ فَأْتُواْ حَرْثَكُمْ أَنَّى شِئْتُمْ وَقَدِّمُواْ لأَنفُسِكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّكُم مُّلاَقُوهُ
وَبَشِّرِ الْمُؤْمِنِينَ﴾

**"Qadınlar sizin əkin yerlərinizdir. İstədiyiniz vaxt, istədiyiniz yerdə öz əkin yerinizə gəlin. Özünüz üçün (yaxşı əməllər) nəzərdə tutun. Allahdan çəkinin və bilin ki, Onunla görüşəcəksiniz. Möminlərə müjdə ver."**

## *Nöqtələr*

◘Bu ayədə qadınlar əkinəcəyə bənzədilmişlər. Doğurdan da bu bağça doqquz ay müddətində bəşəriyyətə övlad çiçəyini təqdim edir. Bəşəriyyətin əkin sahəsi olmadan yaşaya bilmədiyi kimi, qadın olmadan da bəşər nəsli davam edə bilməz.

Qadın kam almaq vasitəsi deyil. O, bəşər nəslinin davam rəmzidir. Demək, qadınla yaxınlıqda pak bir nəsil intizarında olmaq lazımdır; insan bütün məqamlarda müqəddəs hədəflərə malik olmalıdır. "İttəqqullah" cümləsi xəbərdarlıq edir ki, icazə verilməmiş yollarla cinsi ehtirası söndürmək olmaz. Bu yolu seçənlər qiyamət günü üzüqara olar. Saleh əməl və qiyamət günü xeyir mücəssəməsi olan övladlar və nəsil yetişdirin.

[1] "Vəsail", c. 2, s. 567; Təfsiri-Nurus-səqəleyn, c.1, s. 178.

## *Bildirişlər*

1. Münasib həyat yoldaşı münasib əkinəcək kimidir. Yaxşı məhsul götürmək üçün münasib toxuma ehtiyac var.

2. İstər toxum, istərsə də torpaq təvəllüddə mühüm rola malikdir. Gələcək nəslin necəliyində və davamında qadın və kişinin rolu var.

3. Qısa müddətli qadağaların ardınca, uzun müddətli bəhrələnmə dövrü gəlir.

4. Yaxınlıq üçün kişi qadına yaxınlaşmalıdır.

5. Meyllərdə ilahi yön olmalıdır. Əgər yaxınlıq zamanı pak övlad və qiyamət ehtiyatı nəzərdə tutularsa, bu yaxınlıq da ilahi rəngdə olar.

"Səhihe-Buxari"də deyilir: İlahi övliyalar yaxınlıq zamanı mücahid övlad qəsdində olurlar.

6. Əgər pak nəsil yetirsəniz, özünüz ondan bəhrələnəcəksiniz.

7. Qadın əşya deyil. O, azadlığın bünövrəsini qoyan, tarixə sərmayə yatıran, axirət hədiyyələrini gətirəndir.

8. Doğub-törəmə izdivacın əsas məqsədlərindəndir.

9. Yaxınlıq zamanı təqvanı gözləyin.

10. Nəfs istəkləri təqva vasitəsi ilə nəzərə alınmalıdır.

11. Təqvaya çatmaq üçün ən yaxşı vasitə axirətə imandır.

224. ﴿وَلاَ تَجْعَلُواْ اللّهَ عُرْضَةً لِّأَيْمَانِكُمْ أَن تَبَرُّواْ وَتَتَّقُواْ وَتُصْلِحُواْ بَيْنَ النَّاسِ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**"Yaxşılıq etmək, çəkinmək, xalq arasındakı islahla bağlı andlarınızda Allahı tutacaq qərar verməyin. Həqiqətən, Allah eşidən və biləndir."**

## *Nöqtələr*

◘Çoxsaylı təfsirlərdə, o cümlədən "Məcməül-bəyan", "Ruhul-bəyan" kimi kitablarda bu ayənin nazil olma şəni haqqında deyilir ki, həzrət Peyğəmbərin yaxınlarından olan Abdullah ibn Rəvahənin kürəkəni və qızı arasında ixtilaf düşərkən Abdullah onların işinə qarışmamaq barədə and içdi. Ayə nazil oldu və bu sayaq andlar qadağan edildi.

◘"Əymən" and mənası bildirən "yəmin" sözünün cəm formasıdır. "Urzət" sözü isə təhlükə astanasında olmaq mənasını verir.

◘Əməlinizə don geyindirmək və məsuliyyətdən qaçmaq məqsədi ilə andı vasitə seçməyin. Harada gəldi, Allahın müqəddəs adına əl atmayın. Bu iş özü də bir növ ədəbsizlikdir. İmam Sadiq (ə) buyurmuşdur: "Nə doğrudan, nə də yalandan Allaha and içməyin."[1]

## *Bildirişlər*

1. Allahın adı və müqəddəsliklərin hörməti saxlanılmalıdır.

2. Yaxşı işlərin, xalqın islahının qarşısını andla almaq olmaz.

3. Üstün dəyərlər və xeyir işlər yersiz bəhanələrlə tərk olunmamalıdır.

4. Unutmayın ki, Allah danışıqlarınızı eşidir və danışmadıqlarınızı da bilir. Hər bir söz və düşüncənin hesabını aparın.

225. ﴿لاَّ يُؤَاخِذُكُمُ اللّهُ بِاللَّغْوِ فِيَ أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا كَسَبَتْ قُلُوبُكُمْ وَاللّهُ غَفُورٌ حَلِيمٌ﴾

**"Allah sizi məqsədsiz andlara görə cəzalandırmaz. Amma qəlblərinizin dərk etdiyi andlara görə cəzalandırılarsınız. Allah bağışlayan və həlimdir."**

---

[1] "Bihar", c. 76, s. 47.

### *Nöqtələr*

◘Diqqətsiz, əsəbi, düşüncəsiz halda və ya çoxdanışmaq və tələskənliklə içilən andların hüquqi qüvvəsi yoxdur. Yalnız adi halda, diqqətlə, xeyir işlər üçün Allahın müqəddəs adına içilən müqəddəs andların məsuliyyəti var. Belə andlar şərən icra olunmalıdır. Bu andları pozmaq haramdır. Pozulmuş andın kəffarəsi ya on fəqiri doyurmaq, ya onlara libas vermək, ya bir qul azad etmək, bütün bunlara imkan olmadıqda isə üç gün oruc tutmaqdır.[1]

### *Bildirişlər*

1. İnsanın məsuliyyəti onun iradə və seçiminə bağlıdır. Allah qeyri-adi vəziyyətdəki büdrəmələri insana bağışlayır.
2. Savab və cəzanın meyarı işin səbəbi və niyyətidir.
3. Allahın həlimlik və bağışlama cilvələrindən biri də bilməyərəkdən baş vermiş xətaların bağışlanmasıdır.

226. ﴿لِّلَّذِينَ يُؤْلُونَ مِن نِّسَآئِهِمْ تَرَبُّصُ أَرْبَعَةِ أَشْهُرٍ فَإِنْ فَآؤُوا فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Öz qadınlarına yaxınlaşmamaq barədə and içənlər üçün dörd ay möhlət var. Əgər (andlarından) dönsələr (onlara bir şey zəruri deyil), Allah bağışlayan və mehribandır.”**

### *Nöqtələr*

◘“İyla” sözü cinsi yaxınlığın tərk edilməsi barədə içilən and mənasını daşıyır. Cahiliyyət dövründə bəzi kişilər öz zövcələrini sıxıntıya salmaq, onları incitmək məqsədi ilə belə edərdilər. Onlar yaxşı ər deyildilər və qadınlarını boşamaqla azad etmirdilər. Bu ayə kişilərə dörd ay möhlət verir ki, öz zövcələri ilə münasibətlərini müəyyənləşdirsinlər. Ya andlarından geri dönsünlər, ya da talaq verib arvadlarını azad etsinlər. Əlbəttə ki, bu dörd ay müddət yersiz anda hörmət mənasını daşımır. Səbəb budur ki, adi şəraitdə heç bir kişi yaxınlığı dörd aydan çox tərk edə bilməz.

### *Bildirişlər*

1. İslam məzlumların himayədarıdır. Qadınlar tarix boyu zülm və təzyiqlərə məruz qalmışlar. Quran dəfələrlə bu mövzunun üzərində dayanaraq qadınları himayə edir.
2. Xurafat və cahil ənənələrlə mübarizə peyğəmbərlərin məqsəd və vəzifələrindəndir.
3. İnsan bəzən ən pis işlər üçün də ən müqəddəs adları özünə sipər edir.
4. Qadının psixoloji və fizioloji haqlarına və ehtiyaclarına diqqət əsas məsələdir.
5. İnsanların öz xətalarını aradan qaldırması və düşüncəli qərar qəbul etməsi üçün möhlət lazımdır.
6. İnsanları boşanmaya yox, ailə həyatını davam etdirməyə çağırmaq lazımdır. Ər və arvad bilməlidirlər ki, ailə həyatına qayıdış ilahi mərhəmətin əldə olunması rəmzidir.

227. ﴿وَإِنْ عَزَمُواْ الطَّلاَقَ فَإِنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ﴾

**“Əgər boşanma qərarına gəlsələr (düzgün yolla eybi yoxdur), həqiqətən, Allah eşidən və biləndir.”**

---

[1] Bax: “Maidə”, 89.

## *Nöqtələr*

◘Bu ayədə boşanma qanuni sayılsa da, onun məfhumunda xəbərdarlıq və hədə var. Boşanma qərarına gələn bilməlidir ki, artıq bağışlanma və mərhəmət vədi yoxdur. Allah onların işlərini eşidən və biləndir. O bilir ki, boşanmanı zəruri edən ailədəki gerçək durumdur, yoxsa kişinin boşanma qanunundan sui-istifadə etmək məqsədi?

## *Bildirişlər*

1. İslam boşanmanı - bütün pisliklərinə baxmayaraq - təsdiqləyir. Amma qadının vəzifəsinin qeyri-müəyyən şəkildə qalmasına yol vermir.
2. Boşanma qərarı kişinindir.
3. Boşanmada ciddi məqsəd olmalıdır.
4. Azğın nəfs istəklərindən və qadını sıxıntıya salacaq qərarlardan çəkinin.

228. ﴿وَالْمُطَلَّقَاتُ يَتَرَبَّصْنَ بِأَنفُسِهِنَّ ثَلاَثَةَ قُرُوَءٍ وَلاَ يَحِلُّ لَهُنَّ أَن يَكْتُمْنَ مَا خَلَقَ اللّهُ فِي أَرْحَامِهِنَّ إِن كُنَّ يُؤْمِنَّ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَبُعُولَتُهُنَّ أَحَقُّ بِرَدِّهِنَّ فِي ذَلِكَ إِنْ أَرَادُواْ إِصْلاَحًا وَلَهُنَّ مِثْلُ الَّذِي عَلَيْهِنَّ بِالْمَعْرُوفِ وَلِلرِّجَالِ عَلَيْهِنَّ دَرَجَةٌ وَاللّهُ عَزِيزٌ حَكُيمٌ﴾

**“Boşanmış qadınlar üç dəfə paklanıncaya qədər gözləməlidirlər. (Bu paklıqdan biri talaq baş verdiyi haldır, digər ikisi üçüncü heyzi görüncəyədəkdir.) Əgər Allaha və qiyamət gününə inanırlarsa, Allahın onlar üçün bətnlərində qərar verdiyini gizlətmələri rəva deyil. Əgər ərləri onlarla barışmaq istəsə, bu müddətdə onları geri döndərsə, bu daha yaxşıdır. Qadınların da onların öhdəsində haqları var. Kişilərin isə qadınlardan bir mərtəbə üstünlüyü mövcuddur. Allah qadir və həkimdir.”**

## *Nöqtələr*

◘“Qur” sözü həm pak olmaq, həm də heyz mənasındadır. Bu söz “quru” formasında işləndikdə paklanma mənasını, “Əqra” formasında işləndikdə isə heyz mənasını bildirir.

◘Boşanmadan qabaq təyin olunmuş iddə möhləti ailə hüquqlarını qorumaq məqsədi daşıyır. Çünki bu müddətdə həm ailə həyatını qorumaq istəyi yarana bilər, həm də bilinər ki, qadın hamilədir, yoxsa yox. Qadının hamilə olub-olmamasının təyini onun üçündür ki, qadın növbəti dəfə ərə getdikdə onun əvvəlki ərinin nəsli ilə sonrakı ərinin nəsli qarışıq düşməsin.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Heyz, pak olma, hamiləlik məsələlərində qadının öz şahidliyi kifayətdir. Digər bir şəhadətə, anda və dəlilə ehtiyac yoxdur. Qadınlar üçün isə bu məsələlərdə yalan danışmaq haramdır. Qadın öz vəziyyətini olduğu kimi çatdırmalı, heç nəyi gizlətməməlidir. Bu məsələlərdə nəyisə gizlədən qadının Allaha və qiyamətə imanı yoxdur.

◘İddə dövründə (üç dəfə pak olma) ərin öz fikrindən daşınıb, bir daha arvadı ilə evlənməsi üçün heç bir yeni mərasimə ehtiyac yoxdur. Talaq isə bunun əksinə olaraq, müəyyən qanun çərçivəsində həyata keçirilir. Verilən iddə müddəti o qrup qadınlara aiddir ki, hamilə və ya “yaisə” və yaxud əsla yaxınlıq edilməmiş qadınlardan olmasın. Çünki onların talaq hökmü fərqlidir.

## *Bildirişlər*

1. Qadın boşanıb deyə başqasına ərə gedə bilməz (iddə gözlənilməlidir).
2. Boşanma səbəbinə görə övladlar öz hüquqlarından məhrum edilməməlidir.
3. Qanunların icrası üçün ən üstün zamin Allaha imandır.
4. Ailə həyatını əvvəlki ərlə davam etdirmə öndə gəlir.

5. Xoşniyyətlilik geri qayıtmaq üçün bir əsasdır. Məbada ər yalnız cinsi məsələlərə xatir geri qayıda və təkrarən biganələşə.

6. Məsuliyyət insan üçün hüquqlar yaradır. Çiyninə vəzifə götürmüş insan hansısa hüquqlar da əldə edir. Məsələn, valideyn övlad qarşısında vəzifəli olduğundan, övladın öhdəsində də haqları var.

7. Qadınla rəftarda ədalətə riayət olunmalıdır.

8. İslam cahiliyyət dövründə qadınların zərərinə tənzimlənmiş qanunları aradan qaldırdı.

9. Eyni bir şəraitdə fərqləndirmə qadağandır. Amma vəzifə, istedad və ehtiyac baxımından haqq qoymağın eybi yoxdur.

10. Kişilər öz güclərindən sui-istifadə etməməlidirlər. Əsl qüdrət sahibi Allahdır.

11. İddə müddəti gözləmək Allahın hikmətli proqramlarındandır.

229. ﴿الطَّلاَقُ مَرَّتَانِ فَإِمْسَاكٌ بِمَعْرُوفٍ أَوْ تَسْرِيحٌ بِإِحْسَانٍ وَلاَ يَحِلُّ لَكُمْ أَن تَأْخُذُواْ مِمَّا آتَيْتُمُوهُنَّ
شَيْئًا إِلاَّ أَن يَخَافَا أَلاَّ يُقِيمَا حُدُودَ اللّهِ فَإِنْ خِفْتُمْ أَلاَّ يُقِيمَا حُدُودَ اللّهِ فَلاَ جُنَاحَ عَلَيْهِمَا فِيمَا افْتَدَتْ بِهِ
تِلْكَ حُدُودُ اللّهِ فَلاَ تَعْتَدُوهَا وَمَن يَتَعَدَّ حُدُودَ اللّهِ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ﴾

**“Talaq iki dəfədir. Sonra da bəyənilmiş şəkildə zövcəni saxlamaq, ya da xoşluqla ayrılmaq gəlir. Siz kişilər üçün rəva deyil ki, arvadlarınıza verdiyinizi geri alasınız. Yalnız ərlə arvad ilahi hədləri pozmağa qorxduqları zaman belə olar. Onların ilahi hədlərə riayət edə bilməyəcəyindən qorxduğunuz vaxt, qadının fidyə və əvəz verməsinin eybi yoxdur. Onlar Allahın hədləridir. Bu həddə təcavüz etməyin. Hər kəs Allahın hədlərinə təcavüz etsə, zalımlardandır.”**

## *Nöqtələr*

◘Cahiliyyət dövründə qadını boşamaq və geri qaytarmaq adi bir iş idi. Amma İslam bir qadını boşayıb yenidən evlənməni iki dəfə caiz saydı. Üçüncü boşanmadan sonra yenidən evlənmək icazəsi yoxdur. Bu qanun qadının və ailənin ehtiramını hifz edir.[1]

◘İslamda talaq halalların ən mənfuru və ən pisi sayılır. Amma bəzən ixtilaf elə bir həddə çatır ki, ailə həyatının davamı mümkünsüz olur.

Bu ayədə kişi tərəfindən gerçəkləşən talaqla yanaşı, qadın tərəfindən təklif olunan talağa da işarə olunmuşdur. Boşanmanı qadın təklif etdikdə, o öz mehriyyəsini azadlığa qurban verir. Yəni kişinin təklifi ilə talaq baş tutduqda qadın mehriyyəsini alır, qadın özü boşanmanı təklif etdikdə mehriyyədən əl çəkməli olur.

◘Talaq sayı boşanma və evlənmənin sayı ilə təyin olunur. Bir dəfəyə “mən üç talaq verdim” deyən şəxs əslində bir dəfə talaq vermiş olur. Çünki o öz talağı ilə yalnız bir nikahı aradan götürür. Beləcə, Əhi-beyt (ə) fiqhinə görə, bir neçə talaq bir neçə mərhələdə gerçəkləşməlidir.

Bir dəfəyə üç talaq vermək mümkünsüzdür. Ona görə də məsləhət görülmür ki, ailə həyatı birdəfəyə bir qərarla məhv edilsin. (Əl-Əzhər universitetinin rəisi Şeyx Mahmud Şeltut deyir: “Mən talaq məsələsində üstünlüyü şiə fiqhinə verirəm.”)

## *Bildirişlər*

1. Başqaları ilə əlaqəni kəsərkən birdəfəyə qərar çıxarmaq yox, götür-qoy üçün meydan vermək lazımdır.

2. Qadına əzab-əziyyət vermək qadağandır. Kişi kam almaq və ya psixoloji zərbə vurmaq üçün evlənib boşana bilməz.

3. Ailə həyatında şəxsi zövqdən çəkinmək və adi həyat tərzinə üstünlük vermək lazımdır.

---

[1] “Təfsiri-Məcməul-bəyan”.

4. Ayrılıq acılığını hədiyyə və ehsan şirinliyi ilə aradan qaldırın.

5. Talaq kin, sərtlik və intiqam amili olmamalıdır. Hətta talaq zamanı da yaxşılıq və ehsan əsas şərtdir.

6. Həyat yoldaşının qorunması həyatda əsas məsələdir.

7. İslamda hüquq və əhkam əxlaq və mərhəmətdən kənar deyil. “Ehsan” və “məruf” sözləri bu nöqtələrə işarədir.

8. Hüquqlara riayət etmək lazımdır. Kişi qadının haqqı olan mehriyyəni kəsə bilməz.

9. Qadın və kişinin istəkləri ilahi hədlər çərçivəsində olmalıdır.

10. Boşanma üçün qadın və kişinin mövqeyi kafi deyil. Onların ailə həyatının davamına başqalarının da ümidsiz olması şərtdir. Bəzən ər və arvad deyir: “Bizim əxlaqımız fərqlidir.” Amma bu sözləri doğuran həyəcandır. Çünki Quran qadın və kişinin münasibətləri məsələsində xalqın da mövqeyini meyar sayır.

11. Qərar çıxararkən ilahi hədlərin gözlənilməsi və vəzifənin icrası əsas götürülməlidir. Əgər ilahi hədlərə riayət olunsa, izdivac qorunar, hədlər pozularsa, boşanma gerçəkləşər.

12. Qadının boşanma hüququ ona dözülməz vəziyyətdən çıxış yolu qoyur.

13. İslam məcburi, kin-küdurətli həyat tərzi ilə müvafiq deyil. Qadın azad olmaq üçün mehriyyəsini verməyə hazırdırsa, İslam onun üçün yol qoyur. Əlbəttə, qadın tərəfindən irəli sürülmüş boşanma təklifini kişinin qəbul etməsi vacib deyil.

14. İlahi qanunun pozulması zülmdür.

230. ﴿فَإِن طَلَّقَهَا فَلاَ تَحِلُّ لَهُ مِن بَعْدُ حَتَّىَ تَنكِحَ زَوْجًا غَيْرَهُ فَإِن طَلَّقَهَا فَلاَ جُنَاحَ عَلَيْهِمَا أَن يَتَرَاجَعَا
إِن ظَنَّا أَن يُقِيمَا حُدُودَ اللّهِ وَتِلْكَ حُدُودُ اللّهِ يُبَيِّنُهَا لِقَوْمٍ يَعْلَمُونَ﴾

**“Belə ki, əgər (iki dəfə boşanıb təkrar evləndikdən sonra kişi zövcəsini üçüncü dəfə) boşayarsa, artıq qadın ona halal olmayacaq. Yalnız başqa bir kişiyə ərə gedib talaq aldıqdan sonra bir-birlərinin yanına qayıda bilərlər. Əlbəttə ki, ilahi hədləri bərpa edəcəklərinə ümidli olsalar. Bunlar Allahın agah insanlar üçün bəyan etdiyi hədlərdir.”**

## *Nöqtələr*

◘İslamda bəzi hədlərin tələsik qərarların qarşısını almaq məqsədi ilə müəyyənləşdirildiyi nəzərə çarpır. Məsələn:

a) Qadınını boşamaq istəyən şəxs bu işi o zaman görə bilər ki, qadın pak halda (heyz halında yox) olsun və boşanma iki ədalətli şahidin iştirakı ilə həyata keçsin. Kişi boşamaq istədiyi qadının xərcini ödəməlidir ki, bu qadın həmin müddətdə özünü bəzəməklə kişiyə göstərə bilsin. Bu şərtlərin hər biri tələsik boşanmanın qarşısını alır.

b) Camaat xüsusi söhbətlər üçün Peyğəmbərə (s) üz tuturdu. Allah göstəriş verdi ki, peyğəmbərlə xüsusi söhbət etmək istəyən şəxs əvvəlcə sədəqə verməlidir. Bu qanun qeyri-zəruri müraciət və sualların qarşısını alırdı.[1]

Hər halda zövcəsini iki dəfə boşamış kişinin üçüncü dəfə onunla evlənməsi üçün həmin qadının başqa bir kişidə ərdə olub boşanmasının şərt qoyulması tələskənliyin qarşısını alan İslam qanunlarının digər bir nümunəsidir.

## *Bildirişlər*

1. Kişilər onlara verilmiş ixtiyardan sui-istifadə etməməli, talaq (boşanma) haqlarının məhdud olduğunu yadda saxlamalıdırlar. Rəvayət olunur ki, imam Riza (ə) belə buyurdu: “Talağı yüngül saymayın və qadınlara zərər yetirməyin.”

2. İlahi hökmlər əsasında yaşayışa ümid evlənmənin şərtidir.

---

[1] Bax: “Mücadələ”, 12.

3.Müsəlmanlar bilsinlər ki, ilahi hədlər təkcə namaza, zəkata, həccə və cihada aid deyil. Ailə məsələlərində də ilahi hədlərə riayət olunmalıdır.

4. İlahi hədlərin sirrini və hikmətini hər adam bilməz. Adi adamlar göstərişlərin zahirini, agah adamlar isə onların ruhunu və dərinliyini görür.

231. ﴿وَإِذَا طَلَّقْتُمُ النَّسَاء فَبَلَغْنَ أَجَلَهُنَّ فَأَمْسِكُوهُنَّ بِمَعْرُوفٍ أَوْ سَرِّحُوهُنَّ بِمَعْرُوفٍ وَلاَ تُمْسِكُوهُنَّ
ضِرَارًا لَّتَعْتَدُواْ وَمَن يَفْعَلْ ذَلِكَ فَقَدْ ظَلَمَ نَفْسَهُ وَلاَ تَتَّخِذُوَاْ آيَاتِ اللّهِ هُزُوًا وَاذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ وَمَا
أَنزَلَ عَلَيْكُمْ مِّنَ الْكِتَابِ وَالْحِكْمَةِ يَعِظُكُم بِهِ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Qadınlarınıza talaq verdikdə və möhlət (“iddə”) başa çatdıqda, ya onları layiq olduqları tərzdə saxlayın, ya da bəyənilmiş şəkildə azad edin. Onları əziyyət vermək üçün saxlamayın ki, təcavüz edəsiniz. Belə edən şəxs özünə zülm edib. Allahın ayələrini məsxərəyə qoymayın. Allahın sizə verdiyi neməti, öyüd üçün nazil etdiyi səmavi kitabı və hikməti xatırlayın. Allahdan qorxun və bilin ki, Allah hər şeydən xəbərdardır.”**

## *Nöqtələr*

◘Çaşqınlıq, zülm, təhlükə böyük olan yerdə xəbərdarlıq və tövsiyələr də çox olmalıdır. Əvvəlki iki ayədə xoşluqla ayrılmaq tapşırılsa da, bu ayədə növbəti dəfə buyurulur: “Onları layiq olduqları tərzdə saxlayın, ya da bəyənilmiş şəkildə azad edin.” Çünki ayrılıq məqamında qadın və kişinin ruhi durumu adi olmur. Həmin vaxt intiqam hissi, bir-birinə zərbə vurmaq, əzab vermək istəyi öz fövqünə çatır.

◘Qadının hüquqlarının pozulmasında kişi özü də əzab çəkir. Qadın və kişi varlıq nizamında vahid bir cismin əzalarıdır. Bir əzanı incitmək bütün vücudu incitməkdir. Qadına zülm edən insan ilahi cəzanın görüşünə gedir. Ona görə də uyğun rəftarla özünə zülm etmiş olur.

## *Bildirişlər*

1. İslam səfalı və sevgili birgə yaşayış istəyindədir. Qadını incitmək məqsədi ilə saxlamaq haramdır.

2. Həyat yoldaşı ilə pis rəftar edənlər təcavüzkardırlar.

3. Qadına zülm insanın özünə zülmdür.

4. İzdivac böyük ilahi ayələrdəndir.[1] Yersiz talaqlar və əzab məqsədi ilə saxlamaqla bu müqəddəs qanuna istehza olunmamalıdır.

5. Kin-küdurət, acılıq əvəzinə nemətləri yad edin. Kiçik ailə problemlərini milyonlarla ilahi nemət kənarında böyük saymayın.

6. Ailə münasibətlərinin sağlamlaşdırılması üçün səmavi kitabın hökm və moizələrinə diqqət, həm də təqva lazımdır.

7. Özünü Allah hüzurunda bilən kəs günahdan çəkinər.

8. Boşanmada məqsədiniz yoldaşınıza zülm və sui-istifadə olsa, bilin ki, Allah bundan xəbərdardır.

---

[1] “Rum”, 21.

232. ﴿وَإِذَا طَلَّقْتُمُ النِّسَاء فَبَلَغْنَ أَجَلَهُنَّ فَلاَ تَعْضُلُوهُنَّ أَن يَنكِحْنَ أَزْوَاجَهُنَّ إِذَا تَرَاضَوْاْ بَيْنَهُم
بِالْمَعْرُوفِ ذَلِكَ يُوعَظُ بِهِ مَن كَانَ مِنكُمْ يُؤْمِنُ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكُمْ أَزْكَى لَكُمْ وَأَطْهَرُ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ
لاَ تَعْلَمُونَ﴾

**“Qadınlarınıza talaq verdiyiniz və onların möhləti (iddəsi) başa çatdığı zaman onların əvvəlki həyat yoldaşları ilə izdivaclarına mane olmayın. Əlbəttə ki, aralarında bəyənilmiş şəkildə razılıq bərqərar olsa. Sizlərdən Allaha və qiyamət gününə inanan hər kəsə bu göstərişlərlə ibrət verilər. Bu əmr (ona əməl) sizin üçün daha çox xeyir və paklığınızın mayasıdır. Allah bilir, siz isə yox!”**

## *Nöqtələr*

Əgər boşanmış qadınlar öz keçmiş ərləri ilə razılığa gəlib yenidən ailə qursalar, ayrı-ayrı fərdlərin və cəmiyyətin islahında çox təsirli olar. Çünki belə hallarda onların şəxsi məlumatları və sirləri gizli qalır, övladlar öz valideynlərinin və həqiqi tərbiyəçilərinin qoynuna qayıdır. Digər tərəfdən, ər-arvad ayrılığın acısını çəkdiklərindən bir daha ayrılacaqlarından narahatdırlar.

## *Bildirişlər*

1. Ər seçimində boşanmış qadının rəyi möhtərəmdir. Növbəti izdivacda başqasının icazəsinə ehtiyac yoxdur.
2. Bir dəfə boşanmaqla həmişəlik bədbin olmayın. Bəlkə də boşanmadan sonra hər iki tərəf peşman olub, bəyənilmiş tərzdə yeni həyata başlamaq istəsin.
3. Evlənmənin əsas şərti iki tərəfin razılığıdır.
4. İzdivac razılığı ağıl və ədalətə əsaslanmalıdır.
5. Başqalarının şəri izdivacı yolunda çətinlik yaradıb, pozucu fəaliyyət göstərənlər Allaha və qiyamət gününə olan imanlarına şəkk etməlidirlər.
6. Təbii və şəri cazibələrin qarşısını almayın. Boşanmış ər-arvad arasında şirin xatirələr də ola bilər. Bu xatirələr yada düşdükdə ər və arvad təbii və şəri yolla bir-birinə qovuşmasalar, büdrəmə və azğınlıq təhlükəsi yaranar.
7. Cəmiyyətin sağlamlığının hifzi üçün boşanmış qadınlar ərsiz qalmamalıdır.
8. Yenidən izdivacın bərəkəti, əvvəlki yoldaşın yanına qayıdış, eləcə də, boşanma və təkliyin fəsadları bəşər düşüncəsinin fövqündədir.

233. ﴿وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلاَدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ لِمَنْ أَرَادَ أَن يُتِمَّ الرَّضَاعَةَ وَعلَى الْمَوْلُودِ لَهُ رِزْقُهُنَّ
وَكِسْوَتُهُنَّ بِالْمَعْرُوفِ لاَ تُكَلَّفُ نَفْسٌ إِلاَّ وُسْعَهَا لاَ تُضَآرَّ وَالِدَةٌ بِوَلَدِهَا وَلاَ مَوْلُودٌ لَّهُ بِوَلَدِهِ وَعَلَى الْوَارِثِ مِثْلُ
ذَلِكَ فَإِنْ أَرَادَا فِصَالاً عَن تَرَاضٍ مِّنْهُمَا وَتَشَاوُرٍ فَلاَ جُنَاحَ عَلَيْهِمَا وَإِنْ أَرَدتُّمْ أَن تَسْتَرْضِعُواْ أَوْلاَدَكُمْ فَلاَ
جُنَاحَ عَلَيْكُمْ إِذَا سَلَّمْتُم مَّآ آتَيْتُم بِالْمَعْرُوفِ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Südvermə dövrünü kamala çatdırmaq istəyən analar övladlarına tam iki il süd versinlər. Bu anaların yeməyi və geyimi yaxşı bir vəchlə övlad sahibinin öhdəsinədir. Heç kimə gücündən artıq vəzifə tapşırılmaz. Heç bir ana və heç bir ata öz övladına xatir zərərə düçar olmamalıdır. (Ata olmadıqda ananın yeməyi və geyimi) onun varisinin boynunadır. Əgər ata və ana bir-birləri ilə razılıq və məsləhət əsasında körpəni (iki il tamam olmamış) süddən ayırmaq istəsələr, onlar üçün günah yoxdur. Əgər övladınıza dayə tutmaq istəsəniz, sizin üçün günah deyil. Bir şərtlə ki, bəyənilmiş halda müəyyənləşdirdiyinizi ödəyəsiniz. Allahdan çəkinin və bilin ki, Allah əməllərinizi görəndir.”**

## *Nöqtələr*

◘Ayədə ata, ana və övlad haqqında “əb” və “ümm” sözləri yox, “valid” və “validə” sözləri işlədilmişdir. Çünki “əb” və “ümm” sözləri əmiyə, müəllimə, zövcənin atasına (qaynataya) şamil olunur. Necə ki, peyğəmbərin arvadları möminlər üçün “validat” yox, “ümmihat” sayılmışdır.

◘Əvvəlki ayələrdə talaq, ərlə arvadın boşanmasından danışıldığı üçün ailədəki övladların da məsələsi aydınlaşdırılmalıdır. Övladlar ata-ana ixtilaflarına qurban verilə bilməz. Bu ayədə analıq hisslərinə diqqətdən, ana südünün əhəmiyyətindən, körpənin südə təbii ehtiyac ölçüsündən və südvermə müddətindən danışılmışdır.

## *Bildirişlər*

1. İslam əhatəli bir dindir. Hətta körpənin ana südü ilə münasib qidalanma rejimi vardır.
2. Hətta boşanmış ana övladını əmizdirməkdə başqalarından imtiyazlıdır.
3. Süd vermənin kamil müddəti iki ildir.
4. Övlada süd verdiyi üçün ananın və dayənin maddi haqları ödənməlidir.
5. Xərcin miqdarı ürfə (adət-ənənəyə) əsasən təyin olunmalıdır və imkan həddində olmalıdır.
6. Vəzifə insanın güc və imkanına əsaslanır.
7. Övlad valideyninə zərər səbəbi olmamalıdır.
8. Körpənin atası dünyadan getmiş də olsa, südvermə dövründə ananın dolanışığı təmin olunmalıdır.
9. Körpə valideynlə məsləhət və razılıq əsasında süddən ayrıla bilər.
10. Ər və arvad körpənin işləri haqqında məsləhətləşməlidirlər.
11. Süd verməkdə ana dayədən irəli gəlir.
12. Körpəyə süd verilərkən təqvaya riayət olunması valideynin öhdəsinədir.

234. ﴾وَالَّذِينَ يُتَوَفَّوْنَ مِنكُمْ وَيَذَرُونَ أَزْوَاجًا يَتَرَبَّصْنَ بِأَنفُسِهِنَّ أَرْبَعَةَ أَشْهُرٍ وَعَشْرًا فَإِذَا بَلَغْنَ أَجَلَهُنَّ
فَلاَ جُنَاحَ عَلَيْكُمْ فِيمَا فَعَلْنَ فِي أَنفُسِهِنَّ بِالْمَعْرُوفِ وَاللّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴿

**“Sizlərin ölüb-gedənlərinizdən qalan qadınlar dörd ay on gün özlərini gözləməlidirlər. Möhlətləri (iddələri) başa çatdıqda onların özləri haqqında bəyənilmiş şəkildə gördükləri işdə sizə günah yoxdur. (Könülləri istəyən kişi ilə izdivac edə bilərlər). Allah gördüyünüz işlərdən xəbərdardır.”**

## *Nöqtələr*

◘“Əl-Mizan” təfsirində müxtəlif qövm və millətlərin əqidələri, ərini əldən vermiş qadınlar haqqında məlumat verilmişdir. Təfsirdə oxuyuruq: Bəzi qövmlər belə bir əqidədə olmuşlar ki, ər öldükdən sonra qadını diri-diri yandırsınlar. Bəzilərinin əqidəsinə görə isə qadın əri ilə birlikdə torpaqda diri dəfn olunmalı idi. Bəzi qövmlər yenidən izdivacı həmişəlik qadağan sayırdılar. Bəziləri isə növbəti izdivaca qədər bir il və ya doqquz ay gözləməyi zəruri bilirdilər.

Bəziləri belə bir əqidədə idilər ki, qadın ərin vəsiyyətnaməsində göstərilmiş müddətə qədər ərə gedə bilməz. Bir başqaları ər ölən kimi yenidən izdivacı caiz sayırdılar. Bu əqidələrdəki ifrat və təfrit açıq-aşkar diqqəti cəlb edir. İslam isə öz baxışını belə bəyan etdi: Qadın iddə müddətini gözlədikdən sonra ləyaqət və yaxşılıq çərçivəsində istədiyi kişiyə ərə gedə bilər.

◘Ərin ölümündən sonrakı dörd ay on günlük iddə müddətində qadının hamilə olub-olmadığı bilinir. Bundan əlavə, əri ölən kimi izdivac edən qadın qohum-əqrəbanın narahatlığına səbəb olur.

Əlbəttə ki, yuxarıda deyilənlər hamilə olmayan qadınlar üçündür. Hamilə qadınlar isə bətnindəki körpəni doğanadək iddə gözləməlidirlər.

◘Quran izdivacla bağlı bir çox məqamlarda “məruf” sözünü işlədir. Bu sözdən görünür ki, bütün qərarlar ağıl və şəriət əsasında çıxarılmalıdır.

## *Bildirişlər*

1. Ölüm yox olmaq deyil. Ölüm ruhun kamil şəkildə cisimdən ayrılmasıdır. “Təvəffi” sözü tam almaq mənasını bildirir.
2. Qadın əri öldükdən dərhal sonra yeni ailə qura bilməz.
3. Ərin adamları dul qadının qərarlarına müdaxilə edə bilməz.
4. Bütün işlərimizin və qərarlarımızın Allahın nəzərində olmasına iman təqvanın ən möhkəm dayağıdır.

235. ﴿وَلاَ جُنَاحَ عَلَيْكُمْ فِيمَا عَرَّضْتُم بِهِ مِنْ خِطْبَةِ النِّسَاء أَوْ أَكْنَنتُمْ فِي أَنفُسِكُمْ عَلِمَ اللّهُ أَنَّكُمْ
سَتَذْكُرُونَهُنَّ وَلَكِن لاَّ تُوَاعِدُوهُنَّ سِرًّا إِلاَّ أَن تَقُولُواْ قَوْلاً مَّعْرُوفًا وَلاَ تَعْزِمُواْ عُقْدَةَ النِّكَاحِ حَتَّىَ يَبْلُغَ الْكِتَابُ
أَجَلَهُ وَاعْلَمُواْ أَنَّ اللّهَ يَعْلَمُ مَا فِي أَنفُسِكُمْ فَاحْذَرُوهُ وَاعْلَمُواْ أَنَّ اللّهَ غَفُورٌ حَلِيمٌ﴾

**“(Əri ölmüş qadınlara) kinayə və bir işarə ilə elçiliyi bildirmək və ya onu ürəkdə saxlamağın günahı yoxdur. Allah bilir ki, siz onları xatırlayacaqsınız. Onlarla bəyənilmiş şəkildə danışın, amma gizlində vədələşməyin. Müəyyən olmuş müddət başa çatmayınca, onlarla izdivac etməyin. Bilin ki, Allah qəlbinizdə olanları bilir. Ondan çəkinin və bilin ki, Allah bağışlayan və həlimdir.”**

## *Nöqtələr*

◘“Ərrəztum” üstüörtülü danışıq, “xitbət” isə elçilik mənasındadır. Bu ayədə iddə zamanı izdivac etmək istəyinin izharı üçün maneə olmadığı bildirilir. Bir şərtlə ki, aşkar yox, kinayə ilə olsun. Burada “qovli-məruf” (şüurlu məsləhət) odur ki, elçilik istəyinin izhar üsulu itki vermiş qadına və ictimai ədəbə uyğun olsun. Məsələn, belə demək olar: Allah ərinizə rəhmət etsin və sizə səbir versin. Siz əriniz kimi layiqli adamlarla yenə ailə qura bilərsiniz.

## *Bildirişlər*

1. İslam fitri bir dindir və insanın izdivac meyli də fitridir. Ona görə də İslam hətta iddə müddətində kinayə yolu ilə, hisslərə toxunmamaqla bu istəyin bəyanına icazə verir.
2. Nəfs istəklərinə və həyəcanlarına diqqətli olun. İstəkləri boğmaq əvəzinə gənclərə yol göstərib xəbərdarlıq edin.
3. Təkliflərin proqramlaşdırılmasında zaman və halı nəzərə almaq əsas məsələdir. İddə dövründə hüznlü qadına elçilik ədəbsizlik, kobudluqdur.
4. Qəlbində olanlardan Allahın xəbərdarlığını bilən kəs təqva yolunu seçər.
5. Bütün hallarda, xüsusi ilə ailə məsələlərində təqva sifariş olunmuşdur.

6. Allah Öz helmi ilə sizin səbirsizliyinizi aradan qaldırır. Siz o qədər tələsirsiniz ki, ərini itirmiş hüznlü qadının elçiliyinə tələsirsiniz. Allah isə Öz helmi ilə bu işi sizin üçün qadağan etməmişdir.

7. Xəbərdarlıq etdikdən sonra geri qayıdış üçün şərait yaradın.

236. ﴿لاَّ جُنَاحَ عَلَيْكُمْ إِن طَلَّقْتُمُ النِّسَاء مَا لَمْ تَمَسُّوهُنُّ أَوْ تَفْرِضُواْ لَهُنَّ فَرِيضَةً وَمَتِّعُوهُنَّ عَلَى الْمُوسِعِ قَدَرُهُ وَعَلَى الْمُقْتِرِ قَدْرُهُ مَتَاعًا بِالْمَعْرُوفِ حَقًّا عَلَى الْمُحْسِنِينَ﴾

**“Əgər qadınlara yaxınlıq və ya talaq mehrini təyin etməzdən əvvəl boşansanız, sizin üçün günah yoxdur. Amma onları (münasib hədiyyələrlə) bəhrələndirin. Kimin gücü varsa, gücü həddində, yoxsul olan isə imkanı qədərində (verənin və alanın halına münasib). Bu iş yaxşı əməl sahibləri üçün layiqlidir.”**

## *Nöqtələr*

◘Bəziləri elə güman edirdilər ki, yaxınlıq və mehriyyə təyinindən qabaq talaq vermək düzgün deyil. Bu ayə düşüncələrin islahı ilə yanaşı hədiyyə məsələsini də yada salır.

## *Bildirişlər*

1. Boşanma da xeyirxahlıq və yaxşılıq fəzasında olmalıdır.
2. Sözdə iffət də bir dəyərdir. Allah yaxınlıq məsələsini xüsusi bir tərzdə ifadə edir:
3. Mehriyyənin təyini və ödənməsi kişiyə vacibdir.
4. Talağın acılığını hədiyyə vasitəsi ilə aradan qaldırın. Yaxınlıq baş verməmiş olsa da, talaq qadın üçün psixoloji bir sıxıntıdır. Bu sıxıntını ehsan və layiqli hədiyyə vasitəsi ilə aradan qaldırmaq lazımdır.
5. İzdivac əqdinin müqəddəsliyi və hörməti var. Yaxınlıq baş verməsə də, əqd siğəsinin icrası ayrılıq zamanı qadına münasib hədiyyə almaq haqqı verir.
6. Qadın və kişi tərəfindən insaf və ədalətin qorunması nəzərə alınır. Qadının sarsıntısı hədiyyə vasitəsi ilə aradan qaldırıldığı kimi, kişi də hədiyyə səbəbindən sıxıntıya düşməməlidir. Hər kəs öz gücü həddində bu işi görməlidir.
7. Ailə qarşısında kişinin vəzifəsi onun gücü qədərdir.
8. Həyat yoldaşının ictimai şəninə hörmət lazımdır. Ayədəki “məruf” sözü hədiyyə verilməsində elin adəti və ictimai məsələlərə riayət olunmasını tələb edir.
9. Ailə həyatında ifrat və təfritdən çəkinin.
10. Həyat yoldaşına hədiyyə xeyir əməl sahiblərinin nişanəsidir.
11. Mal hədiyyəsi pul hədiyyəsindən üstündür. Ayədəki “məta” sözü hədiyyənin pul yox, maldan olmasını önə çəkir.
12. Ər öz arvadına verdiyi hədiyyəni ağır yük, bac, sədəqə saymamalıdır. Bu bir növ qadının kişi boynundakı haqqıdır.
13. Əxlaq ilahi hökmlərin dayağıdır.

237. ﴿وَإِن طَلَّقْتُمُوهُنَّ مِن قَبْلِ أَن تَمَسُّوهُنَّ وَقَدْ فَرَضْتُمْ لَهُنَّ فَرِيضَةً فَنِصْفُ مَا فَرَضْتُمْ إَلاَّ أَن يَعْفُونَ أَوْ يَعْفُوَ الَّذِي بِيَدِهِ عُقْدَةُ النِّكَاحِ وَأَن تَعْفُواْ أَقْرَبُ لِلتَّقْوَى وَلاَ تَنسَوُاْ الْفَضْلَ بَيْنَكُمْ إِنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Mehriyyə təyin etdiyiniz qadınları onlarla yaxınlıq etməmiş boşasanız, təyin etdiyinizin yarısını onlara verin. Onlar (öz haqlarını) bağışlasalar bu ayrı. Ya da izdivac əqdi əlində olan kəs onu bağışlasın. Əgər bağışlasanız, (onların bütün mehrini ödəsəniz),**

**bu iş təqvaya daha yaxındır. Öz aranızda yaxşılığı unutmayın ki, həqiqətən, Allah etdiyiniz işləri görəndir.”**

## *Bildirişlər*

1. Ailə məsələləri haqqında söhbət zamanı sözün iffətini qoruyun.
2. Mehriyyənin təyini və ödənməsi kişiyə vacibdir.
3. Bağışlama və güzəşt həm qadın, həm də kişi tərəfindən bəyənilmişdir. Ya qadın mehriyyənin yarısını bağışlasın, ya da kişi bütün mehriyyəni.
4. Qadının izdivac icazəsi onun böyüklərinin ixtiyarındadır.
5. Bağışlayanlar təqvaya daha yaxındırlar.
6. Talaq əfv və fəzlsiz olmamalıdır.
7. Talaqda əxlaqi məsələlər və insani kəramətlər unudulmamalıdır.

238. ﴿حَافِظُواْ عَلَى الصَّلَوَاتِ والصَّلاَةِ الْوُسْطَى وَقُومُواْ لِلّهِ قَانِتِينَ﴾

**“Bütün namazların, xüsusi ilə orta namazın yerinə yetirilməsinə diqqətli olun və Allah üçün müti halda ayağa qalxın.”**

## *Nöqtələr*

◘“Orta namaz” ifadəsi bir neçə cür izah olunmuşdur. Amma ayənin nazil olma şəninə diqqət yetirsək görərik ki, bir dəstə müsəlman günortalar hava çox isti olduğundan namazda iştirak etmirdilər. Rəvayət və təfsirlərə əsasən bu ifadə günorta namazını bildirir.

◘Ailə məsələləri ilə bağlı ayələrin arasında namaz məsələsinə diqqət bir işarədir ki, nəfsani istəklər, zövcənin iqtisadi və hüquqi məsələləri insanı namaza diqqətsiz etməsin.

◘Hər bir şeyin qorunması onun özünə münasib olmalıdır. Mal oğrudan, bədən mikrobdan, ruh hərislik, həsəd, təkəbbür kimi əxlaqi bəlalardan, övlad pis dostdan qorunmalıdır. Bəs namaz necə qorunur? Namazı hifz etmək üçün onun sirləri ilə tanışlıq, onu vaxtında və düzgün yerinə yetirmək, namazın hökm və qaydalarını öyrənmək, ibadət mərkəzlərini qorumaq və diqqətli olmaq lazımdır.

Hədisdə oxuyuruq: Namaz bəzilərinə deyər: “Məni zay etdin, Allah səni zay etsin.” Digər bir qrupa deyər: “Məni hifz etdin, Allah səni hifz etsin.”[1]

## *Bildirişlər*

1. Namaz davamlı şəkildə qılınmalıdır.
2. Namazın hifzinə bütün xalq məsuldur.
3. Namazı camaatla qılın.
4. Harada səhlənkarlıq və qəflət daha çox hiss olunursa, orada daha çox diqqətli olmalıyıq.
5. Namaz çox diqqətlə, sevinclə, mərifətlə və ixlasla qılınmalıdır.
6. İnsan varlıq nizamı ilə həmahəng olmalıdır. Quran varlıq haqqında buyurur: “Göylərdə və yerdə olanlar bütünlüklə Onundur. Hamı Ona boyun əyir.”[2] Əgər insan boyun əyməzsə, varlıq aləmində başqa rəngdə görünər.
7. Namazın dəyəri ondakı xüzu ilə ölçülür.

---

[1] “Kafi”, c.3, s. 268.
[2] “Rum”, 26.

239. ﴿فَإنْ خِفْتُمْ فَرِجَالاً أَوْ رُكْبَانًا فَإِذَا أَمِنتُمْ فَاذْكُرُواْ اللّهَ كَمَا عَلَّمَكُم مَّا لَمْ تَكُونُواْ تَعْلَمُونَ﴾

**“Əgər (düşməndən və ya başqa bir xətərdən) qorxsanız, piyada və ya süvari halda (mümkün şəkildə namaz qılın). Əmin-amanlığa çıxdıqda Allahı yad edin. Necə ki, bilmədiyinizi sizə öyrətdi.”**

## *Nöqtələr*

◘Quranda bəzən “səlat” yerinə “zikr” sözü işlədilmişdir. Məsələn, cümə namazı haqqında buyurulur: “Allahın zikrinə tələsin.” Başqa bir yerdə Allah-təala Musaya buyurur: “Namaz qıl ki, məni zikr edəsən.” Bu ayədə də məqsəd namazdır.

Bəli, namazın fəlsəfəsi və ruhu Allahın xatırlanmasıdır.

◘Bu ayədə döyüş şəraitində və fiqhdə adı çəkilən başqa şəraitlərdə qılınan qorxu namazına işarə olunmuşdur.

Hədislərdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) Əhzab döyüşündə işarə ilə namaz qıldı. Həzrət Əli (ə) bəzi savaşlarda işarə ilə namaz qılınması göstərişi vermişdi. Bir şəxs imam Kazimdən (ə) soruşdu: “Əgər yırtıcı bir heyvan bizə hücum etsə və namazın vaxtı dar olsa nə edək?” Həzrət buyurdu: “Hansı vəziyyətdəsinizsə, həmin vəziyyətdə də namaz qılın.” Hətta arxanız qibləyə olsa da!”[1]

## *Bildirişlər*

1. Namaz heç bir halda insanın boynundan götürülmür.
2. İslamda çətinlik və sıxıntı yoxdur. Bədəni aram saxlamağa, üzü qibləyə dayanmağa şərait olmadıqda və digər şərtlər ödənmədikdə, qayda əsasında namaz qılmaq vacib olmur.
3. Namaz nemətlərə şükürdür.
4. İnsan bir çox bilmədiyi məsələləri təcrübədə əldə edə bilər. Bəzi məlumatlar isə yalnız və yalnız vəhy yolu ilə əldə oluna bilər.

240. ﴿وَالَّذِينَ يُتَوَفَّوْنَ مِنكُمْ وَيَذَرُونَ أَزْوَاجًا وَصِيَّةً لِّأَزْوَاجِهِم مَّتَاعًا إِلَى الْحَوْلِ غَيْرَ إِخْرَاجٍ فَإِنْ خَرَجْنَ
فَلاَ جُنَاحَ عَلَيْكُمْ فِي مَا فَعَلْنَ فِيَ أَنفُسِهِنَّ مِن مَّعْرُوفٍ وَاللّهُ عَزِيزٌ حَكِيمٌ﴾

**“Sizlərdən ölüm astanasında olan və özündən sonra evdə arvadı qalan kəslər (dolanışıq xərcini ödəməklə) onların bir il müddətində bəhrələnib evdən çıxarılmamasını tapşırsınlar. Amma onlar özü çıxıb, özləri haqqında layiqli bir qərara gəlsələr, sizin üçün günah yoxdur. Allah əziz və həkimdir.”**

[1] “Təfsiri-nümunə”, c. 2, s. 148; “Nurus-səqəleyn”, c. 2, s. 239.

## *Nöqtələr*

◘Bəzi təfsirçilərin fikrincə, bu ayə iddə və irs ayələrindən qabaq nazil olmuşdur. Sonrakı ayələr nazil olduqdan sonra bu ayə nəsx edilmişdir. Başqa sözlə, onlara əməl tarixi başa çatmışdır. Bəziləri isə belə düşünürlər ki, iddə və irs ayələri zəruri və vacib ölçüləri bəyan etmişdir. Yəni qadın filan miqdar irs haqqına malikdir və filan müddət iddə saxlamalıdır.

Amma bu ayəni vacib vəzifələrin kənarında bir müstəhəb əməl şəklində də göstərmək olar. Yəni iddə müddətindən sonra qadın ərinə hörmət olaraq bir il müddətində onun evində qalmaq istəsə, ər də onun irsdən payına əlavə olaraq öz üçdə bir vəsiyyət payından bir illik xərcini ödəyə bilər. Başqa sözlə, kişinin öz irsinin üçdə birindən qadını üçün pay ayırmaq haqqı var.[1]

## *Bildirişlər*

1. Kişilər öz mallarından bir hissəsini arvadlarına vəsiyyət etsinlər.
2. Vəsiyyətdə dul qalmış arvad başqalarından öndə gəlir.
3. Dul qadının gələcəyi təmin olunmalıdır.
4. Qadın yeni ər seçimində ağıllı, şəri və məsləhətli qərar çıxarmalıdır.
5. Bütün ilahi hökmlər hikmətə əsaslanır.

241. ﴿وَلِلْمُطَلَّقَاتِ مَتَاعٌ بِالْمَعْرُوفِ حَقًّا عَلَى الْمُتَّقِينَ﴾

**“Təqvalı kişilər üçün boşanmış qadınlarını bəhrəyə çatdırmaq yaxşıdır.”**

242. ﴿كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“Allah Öz ayələrini sizin üçün belə aşkar edir. Bəlkə düşünəsiniz.”**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə boşanmış qadınlara mehriyyənin ödənməsi üsulu istər yaxınlıqdan qabaq, istərsə də yaxınlıqdan sonrakı hallar üçün bəyan olundu. Ayə o şəxslər haqqındadır ki, əqd zamanı onların mehriyyəsi müəyyənləşdirilməyib və yaxınlıqdan qabaq talaq verilib. Ya da ayə boşanmanın bütün halları üçün əxlaqi bir tövsiyədir. Yəni tam və ya yarı mehriyyənin ödənməsindən əlavə, qadının iztirablarının aradan qaldırılması üçün kişi tərəfindən hədiyyə verilməsi nəzərdə tutulur.

Əlbəttə ki, bu, əxlaqi və müstəhəb bir göstərişdir. Təqva sahibləri, pəhrizkarlar buna riayət etsələr yaxşıdır.

Beləcə, 236-237-ci və hazırkı ayələrdə boşanmış qadınların hüquqları və hisslərinə İslamın xüsusi diqqətini müşahidə etmək olur.

◘İmam Hüseyn (ə) boşadığı bir qadına kəniz hədiyyə etdi.[2]

## *Bildirişlər*

1. Boşanmış qadınlarla rəftarda təqvalı olmaq lazımdır.
2. Kini aradan qaldırmaq kimi təsəlli roluna malik hədiyyə verilməsi təqvalıların nişanəsidir.
3. İlahi hökmlərin və göstərişlərin faydasını anlamaq üçün onlar haqqında düşünmək lazımdır.

---

[1] “Təfsiri-Ətyəbul-bəyan”.

[2] “Kafi”, c. 6, s. 105.

243. ﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ خَرَجُواْ مِن دِيَارِهِمْ وَهُمْ أُلُوفٌ حَذَرَ الْمَوْتِ فَقَالَ لَهُمُ اللّهُ مُوتُواْ ثُمَّ أَحْيَاهُمْ إِنَّ اللّهَ لَذُو فَضْلٍ عَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَشْكُرُونَ﴾

**“Minlərcə sayda olduqları halda ölüm qorxusundan öz evlərini qoyub qaçan kəsləri görmədinmi? Allah onlara buyurdu: “Ölün!” (Onlar öldülər.) Sonra onları diriltdi (gələcəkdəkilərə ibrət olsun deyə.) Həqiqətən, Allah xalqa ehsan edir. Amma xalqın çoxu şükür etməz.”**

## *Nöqtələr*

◘Bu ayənin nazil olma şəni haqqında deyilir ki, Şam vilayətinin şəhərlərindən birində yetmiş minlik bir cəmiyyət yaşayırdı. Qəfil taun xəstəliyi böyük bir sürətlə bu cəmiyyəti məhv etdi. Bu cəmiyyətin imkanlıları xəstəlikdən yaxa qurtarmaq fikri ilə şəhərdən çıxsalar da, Allah onları çıxdıqları biyabandaca həmin xəstəliklə məhv etdi.

Bəzi rəvayətlərdən məlum olur ki, şəhəri bürümüş xəstəlik cəza olaraq göndərilmişdir. Çünki həmin cəmiyyətdəki rəhbər xalqdan şəhərdən xaric olub cihada hazırlaşmasını istədikdə onlar müharibə ərazisində taun xəstəliyi olduğunu bəhanə gətirib savaşdan imtina etmişdilər. Allah da onları döyüşdən qaçmaq üçün bəhanə gətirdikləri bəlaya mübtəla etdi.

Bəzi təfsir və rəvayətlərdə bildirilir: Bəni-İsrail peyğəmbərlərindən olan Hezqil Nəbi həmin ərazidən ötərkən Allahdan bu insanların dirilməsini istədi. Allah onun duasını qəbul etdi və həmin insanlar yenidən həyata qayıtdılar. Əlbəttə ki, Allahın bu lütfü gələcək nəsillər üçün bir ibrət idi. İnsanlar bu barədə düşünməli və şükür etməlidirlər.

◘“Əl-Mənar” təfsirinin müəllifi ayədəki ölüm və həyat ifadələrinin simvolik məna daşıdığını bildirmişdir. O, ölümü istiqlalın əldən verilməsi, həyatı isə yenidən istiqlal əldə olunması kimi təfsir etmişdir.

“Əl-Mizan” təfsirinin müəllifi isə bu baxışı tənqid edərək buyurur: Ayələrin zahirinə etiqad lazımdır. Əks təqdirdə Qurandakı bütün möcüzələr və xariqüladə işlər başqa mənalara yozulasıdır.

◘Şükür təkcə dillə həyata keçmədiyindən və hər bir nemətin öz yerində istifadə edilməsi əsl şükür olduğundan insanların əksəriyyəti həqiqi şükür edən sayılmır.

◘Əgər Quranda buyurulsaydı ki, “onların əksəri şükür edən deyil” biz ayəni həmin qövmə aid edə bilərdik. Amma Quranda “xalqın əksəri şükür edən deyil” - buyurulmuşdur. Bu isə bütün əsrlərdə bütün insanların həqiqi şükür edən olmamasını göstərir.

◘Şiə etiqadına əsasən, qiyamətdən qabaq bir dəstə insanın yenidən dirilməsi, yəni rəcət həqiqətdir. Yüzlərlə hədislərdən əlavə, bu ayə kimi bir sıra ayələr də rəcət məsələsinin mümkünlüyünü göstərir.

## *Bildirişlər*

1. Tarixə nəzər salaq və ondan öyrənək.
2. Tarixdən öyrənilən ən mühüm dərs tarixi şəxsiyyətlərin, qəbilələrin və məntəqələrin adı yox, yüksəliş və süqut amilləridir.
3. Allahın iradəsi olan yerdən qaçmaq faydasızdır.
4. Allah elə bu dünyada dəfələrlə ölüləri diriltmişdir.
5. Eniş və yoxuş, ölüm və həyat - hər biri ilahi lütf və fəzlin nümunələridir.

244. ﴿وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ وَاعْلَمُواْ أَنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ﴾

**“Allah yolunda savaşın. Bilin ki, Allah eşidən və biləndir.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə oxuduq ki, savaşdan qaçmaqla ölümdən yaxa qurtarmaq olmaz. Allahın qəhr və qəzəbi minlərcə fərarini əhatə edə bilər. Ayədə buyurulur: Bir halda ki ölüm və həyat Onun əlindədir, Onun yolunda vuruşun və bilin ki, mükafatınız Onun yanında hifz olunmuşdur. Çünki O, sizin başınıza gələnlərdən agahdır.

## *Bildirişlər*

1. Cihad və mübarizə Allah üçün və Allah yolunda olduqda dəyərlidir. İntiqam, güc nümayişi, istismar, fatehlik məqsədi ilə savaş müqəddəs deyil. Belə savaşlar ilahi və insani dəyərlərə ziddir.
2. Allah yolunda savaş həyat nemətinə şükürdür. Əvvəlki ayədə buyurulur: Allah onları diriltdi, amma şükür etmədilər. Bu ayədə isə belə buyurulur: Allah yolunda savaşın... Bəli, cihad şükrün bir növüdür.
3. Savaş meydanında duruş üçün ən mühüm amil insanın Allah hüzurunda olmasına diqqətdir.
4. Cihaddan qaçmaq üçün bəhanə axtarmayın. Çünki Allah sizin niyyətlərinizi bilir və bəhanələrinizdən xəbərdardır.

245. ﴿مَّن ذَا الَّذِي يُقْرِضُ اللّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً وَاللّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**“Kimdir Allaha yaxşı bir borc verən ki, Allah da onun əvəzini neçə qat artırsın? Allah (bəndələrinin ruzisini) məhdudlaşdırar, genişləndirər. Siz Ona doğru qaytarılarsınız.”**

## *Nöqtələr*

◘Müxtəlif təfsirlərdə bildirilmişdir ki, insanları cihada təşviq edən ötən ayənin ardınca gələn bu ayə möminləri infaq və borc verməyə rəğbətləndirir. Cəmiyyətin əmin-amanlığı və hifzi üçün cihad və xalisanə təlaşa ehtiyac olduğu kimi, məhrumların təmini və cihad vasitələrinin tədarükü üçün də maddi yardımlara ehtiyac var.

◘Allaha borc vermək mövzusu Quranda yeddi dəfə zikr olunmuşdur. “Məcməul-bəyan” təfsirində qərzül-həsənə, yəni bəyənilmiş borca aid şərtlər bəyan olunmuşdur: Halal maldan olsun, sağlam maldan olsun, zəruri məsrəf üçün olsun, minnətsiz olsun, riyasız olsun, məxfi şəkildə olsun, eşq və isarla ödənsin, dərhal çatdırılsın, borc verən bu tövfiqə görə Allaha şükür etsin, borc alanın şəxsiyyəti qorunsun.

◘“Qərz” sözü ərəb dilində kəsmək mənasını verir. Borc ona görə qərz adlandırılır ki, mal-mülkün bir hissəsi yenidən qaytarılmaq şərti ilə kəsilib başqasına verilir. “Bəst” sözü açılış və büsat mənasındadır. “Büsat” yer üzündə sərilmişə deyilər.

◘Cihad bəzən əvvəlki ayələrdə buyurulduğu kimi canla olur, bəzən isə bu ayədə qeyd olunduğu kimi mal-mülklə.

◘“Kəsir” sözünün “əzaf” sözü ilə yanaşı işlədilməsi böyük mükafata işarədir. “Yuzaifə” forması isə mübaliğə, artım rəmzidir.[1]

◘“Allaha borc” təbiri qərzül-həsənə mükafatının Allahın öhdəsində olduğunu göstərir.

◘Allaha borc verilməsi əmrinin müqabilində soruşulur ki, kimdir Allaha elə bir borc verən? Məqsəd, xalqın ikrah və məcburiyyət hiss etməməsidir. Əksinə, başqalarına rəğbət və istəklə borc verilsin. İnsanda mənfəət umacağı olduğundan Allah bu yolla insanı borc verməyə həvəsləndirir:

[1] “Təfsiri-Ruhul-Məani”.

▫Ayədə xalqa borc əvəzinə Allaha borc ifadəsi işlədilir. Bu sayaq təbir fəqirlərdə belə bir hiss yaradır ki, Allah Özünü onların yerinə qoymuşdur və bu onların qəlbindəki zəifliyi aradan qaldırır.

▫Bütün vücudumuz və bütün olanlarımız Allaha məxsus olsa da, Allah bəzən Özünü müştəri, bəzən isə borc alan kimi tanıtdırır. Allah bununla bizi təşviq edir. Həzrət Əli (ə) buyurmuşdur: “Göylərin və yerin qüvvələri Allahındır. Borc ayəsi sizin imtahanınız üçündür.”[1]

▫İmam Kazim (ə) buyurur: “Allaha borcun nümunələrindən biri məsum imama iqtisadiköməkdir.”[2]

▫Ayədə sıxıntı və genişlənmə Allaha aid edilsə də, rəvayətlərdə belə oxuyuruq:

Hər kəs xalqa qarşı əliaçıq olsa, Allah da onun üçün genişləndirər. Hər kəs xalqa qarşı xəsislik etsə, Allah onu sıxıntıya salar.”

▫Rəvayətlərdə qərzül-həsənənin mükafatı on səkkiz qat, sədəqənin mükafatı isə on qat göstərilir.[3]

▫“Hər kəs xeyir iş gətirsə, ondan da yaxşısını əvəz alar,” ayəsi nazil olan zaman həzrət Peyğəmbər (s) Allahdan bu mükafatı artırmasını istədi. Belə bir ayə nazil oldu: On qat verilmiş olar.”[4] Həzrət Peyğəmbər (s) bir dəfə də Allaha ağız açdı və hiss etdi ki, Allahın müəyyənləşdirdiyi artım saya gəlmir.”[5]

▫Borc verənlərin mükafatı həm bu dünyada, həm də axirətə aiddir. Ayədən belə görünür ki, qiyamət hesabı dünya mükafatlarından ayrıdır.

▫Pislik təliminin və yanlış dərk etmənin qarşısı alınmalıdır. Əgər əvvəlki ayədə Allah xoş bir dillə borc istəyirsə, onun ardınca buyurur: “Nəbadə, yəhudilər kimi Allahın fəqirliyini düşünən olsun.[6] Eləcə də, bilməliyik ki, Allahın borc tələbi insanın inkişafı üçündür. Allah Özü hər nədən ehtiyacsızdır. Münafiqlər dedilər: Müsəlmanlara infaq etməyin, qoy peyğəmbərin ətrafından dağılsınlar... Quran onların cavabında buyurdu: Bu nə etiqaddır? Məgər bilmirlərmi ki, göylərin və yerin xəzinələri Allahın əlindədir?![7]

## *Bildirişlər*

1. Allahın bəndələrinə yardım Allaha yardımdır.
2. İnsanları xeyir işə həvəsləndirmək üçün təşviq lazımdır.
3. Əgər rifah və sıxıntının Allahın əlində olduğuna inansaq, rahatca infaq edərik.
4. Əgər bilsək ki, Allaha doğru qayıdacağıq və bütün verdiklərimizi geri alacağıq, rahatca infaq edərik.

246. ﴿أَلَمْ تَرَ إِلَى الْمَلإِ مِن بَنِي إِسْرَائِيلَ مِن بَعْدِ مُوسَى إِذْ قَالُواْ لِنَبِيٍّ لَّهُمُ ابْعَثْ لَنَا مَلِكًا نُّقَاتِلْ فِي سَبِيلِ اللّهِ قَالَ هَلْ عَسَيْتُمْ إِن كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ أَلاَّ تُقَاتِلُواْ قَالُواْ وَمَا لَنَا أَلاَّ نُقَاتِلَ فِي سَبِيلِ اللّهِ وَقَدْ أُخْرِجْنَا مِن دِيَارِنَا وَأَبْنَآئِنَا فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ تَوَلَّوْاْ إِلاَّ قَلِيلاً مِّنْهُمْ وَاللّهُ عَلِيمٌ بِالظَّالِمِينَ﴾

**“Bəni-İsrail böyüklərindən olan o dəstəni görmədinmi ki, Musadan sonra öz peyğəmbərlərinə dedilər: “Bizim üçün bir başçı seç, Allah yolunda savaşaq.” O dedi: “Ehtimal edirsinizmi ki, əgər sizə savaş əmri verilsə, (itaətdən çıxıb) cihad etməyəcəksiniz? Dedilər: “Necə olar ki, Allah yolunda savaşmayaq? Bir halda ki,**

[1] “Nəhcül-bəlağə” x. 183.
[2] “Təfsiri-Ruhul-bəyan c. 1, s. 381.
[3] “Bihar”, c. 100, s. 138.
[4] Bax: “Nəml”,89; “Ən’am”, 160.
[5] “Təfsiri-əl-Mizan”, c. 2, s. 310.
[6] “Ali-İmran”, 181.
[7] “Münafiqun”, 7.

**evlərimizdən və övladlarımızdan ayrılmışıq?” Elə ki, onlara savaş əmri verildi, kiçik bir hissəsi istisna olmaqla, boyun qaçırdılar. Allah zalımlardan xəbərdardır.”**

## *Nöqtələr*

◘“Mələ” sözü heybəti gözləri və sinələri tutmuş böyüklər, ağalar mənasını bildirir.

◘Bəni-İsrail həzrət Musadan sonra qanunu pozmaq, rifah axtarmaq xatirinə yenidən zalım hakimlərin hökmü altına düşdü. Onlar öz azadlıqlarını və torpaqlarını əldən verdilər. Onlar avaralıqdan qurtarmaq və zalım hakimlərin boyunduruğundan xilas olmaq üçün mübarizə qərarına gəldilər. Öz peyğəmbərləri Eşmuyeldən Tağutla mübarizə üçün başçı istədilər. Bütün bu iddialarına baxmayaraq göstəriş verilən zaman əksəri döyüş meydanına arxa çevirib, əmrdən boyun qaçırdı.

## *Bildirişlər*

1. Müsəlmanlar Bəni-İsrailin tarixinə diqqətlə nəzər salmalı və ibrət götürməlidirlər.
2. İlahi rəhbərin mövcudluğu pərakəndəliyin, avaralığın və zülmə təslimçiliyin qarşısını alır.
3. Bəzi peyğəmbərlərin risaləti xalqın yalnız bir hissəsinə aid olmuşdur.
4. Hərbi komandan səmavi rəhbər tərəfindən seçilməli və təyin olunmalıdır. Demək, din siyasətdən ayrı deyil.
5. Müvəffəqiyyətli savaş üçün layiqli komandan lazımdır.
6. Zalım hakimlərdən xilas olmaq üçün ilahi peyğəmbərlərə sığınmaq lazımdır.
7. İslah təklifi verənlərdən öhdəçilik alınmalıdır.
8. Rəhbər uzaqgörən olmalıdır. O, xalqın öz əhdini sındırması və məsuliyyətdən qaçmasını ehtimal etməlidir.
9. Zülmdən yaxa qurtarmaq və vətənin müdafiəsi üçün aparılan cihad Allah yolunda cihaddır.
10. Çətinliklərin meydana çıxması azadlıq hərəkatı səbəbidir.
11. Mübarizə meydanı iddialı insanların qiymətləndirilmə vasitəsidir.

Xoş olar, işdi məhək aləti gəlsə araya,
Qatqılı üzləri döndərməlidir ol qaraya.

12. Əhdi pozanlar və əməlsiz şüarçılar zalımdırlar.
13. Allah agahdırsa, bir bu qədər pərdələnmə nə üçündür?!

247. ﴿وَقَالَ لَهُمْ نَبِيُّهُمْ إِنَّ اللّهَ قَدْ بَعَثَ لَكُمْ طَالُوتَ مَلِكًا قَالُوَاْ أَنَّى يَكُونُ لَهُ الْمُلْكُ عَلَيْنَا وَنَحْنُ أَحَقُّ بِالْمُلْكِ مِنْهُ وَلَمْ يُؤْتَ سَعَةً مِّنَ الْمَالِ قَالَ إِنَّ اللّهَ اصْطَفَاهُ عَلَيْكُمْ وَزَادَهُ بَسْطَةً فِي الْعِلْمِ وَالْجِسْمِ وَاللّهُ يُؤْتِي مُلْكَهُ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**“Peyğəmbərləri onlara dedi: “Həqiqətən, Allah Talutu sizə hakimlik üçün məbus etmişdir.” Dedilər: “O bizə necə hakim ola bilər ki, biz ondan daha layiqli rəhbərik və ona çoxlu sərvət verilməyib?” Peyğəmbərləri dedi: “Allah onu sizin üçün seçmiş, elm və cisim gücünü artırmışdır. Allah öz mülkünü istədiyinə verər. Allahın (ehsanı) genişdir və O (bəndələrinin ləyaqətindən) xəbərdardır.”**

## *Nöqtələr*

◘“Vase” sözü Allahın ehtiyacsız olduğunu və istənilən bir bəxşişə qadir olduğunu bildirir.

◘Bəni-İsrailin öz peyğəmbərlərinə savaşa rəhbərlik üçün hərbi komandan istəməsinə baxmayaraq, onların bu istəyinə cavab verildikdə bəhanə gətirib dedilər: Talut hara, hakimiyyət hara?” Məlum olur ki, Talut onlara hərbi komandan olmaqdan əlavə, hakim də təyin edilmişdir.

Bəni-İsrail öz peyğəmbərlərindən savaş üçün başçı istəsə də, gənc, fəqir, adsız-sansız Talut başçı təyin olunduqda dedi: “Şöhrəti və sərvəti olmadığı halda, o bizə necə komandanlıq edər? Biz öz sərvətimiz və imkanlarımız baxımından ondan daha layiqik!”

Peyğəmbər onların bəhanələrini eşidib buyurdu: “Şübhəsiz ki, Allah onu sizin üçün seçmişdir. Və onun savaşa başçılıq üçün elmi, fiziki və digər imkanları vardır. Allah istədiyi kəsə ləyaqəti, gizli istedadları xatirinə başçılıq verər.

Bəli, Allahın bir nəzəri daşı cəvahirə döndərər. Onun baxışı bərəkətindən tikan gül olar, fəqir isə hakim! Məgər qoyunlarını itirmiş bir çoban hakimlik ləyaqətinə malikdirmi? Rəvayətdə deyilir: Talut itmiş qoyunları axtararaq şəhərə üz tutmuş bir çoban idi. O, peyğəmbərin xidmətinə gəldi. Allah Öz peyğəmbərinə vəhy etdi ki, bu çobanın başçılıq ləyaqəti var və onu xalqa təqdim etsin.

◘Bəlkə də ayədəki “bəstətən fil-ilmi” cümləsi Talutun əhatəli elminə işarədir. Yəni o bir çox elmlərdə geniş məlumata malik olmuşdur.

## *Bildirişlər*

1. Peyğəmbərlər vəhy əsasında öz canişinlərini seçirlər.
2. Allahın təyin etdiyi rəhbərlik xalqın xeyrinədir.
3. Azadlıq və qurtuluş arzusundasınızsa, ilahi rəhbəri qəbul etməlisiniz.
4. Din siyasətdən ayrı deyil. Peyğəmbərlər hərbi məsələlərə bilavasitə müdaxilə etmiş və hərbi komandanların təyinatı ilə məşğul olmuşlar.
5. Ad-sansız və fəqir insanların gizli istedadlarından qəflətdə qalmayın.
6. Həqiqi iman nişanəsi Allaha və Onun rəsuluna təslimçilikdir. Bəni-İsrail öz yanlış düşüncəsi səbəbindən təslim olmadı.
7. Bizim ilahi rəhbərlə rəftar qaydamız ilahi imtahanlardan biridir.
8. İnsanın özünü üstün tutması məhkum edilir. (Necə ki, şeytan “Əraf” surəsinin on ikinci ayəsində “ənə xəyrun minhu” deməklə özünü üstün tutdu.)
9. Ad-san, vəzifə, şəhərdə yaşamaq üstünlük nişanəsi deyil. Bu ayədə var-dövləti, vəzifəni üstünlük meyarı sayanlar tənqid olunmuşdur.
10. İlahi seçim boş-boş şeylərə yox, ləyaqətə əsaslanır.
11. Elmi və fiziki qüdrət qoşun başçılığının iki zəruri şərtidir.
12. Elmi qüdrət fiziki qüdrətdən də mühümdür. Əvvəlcə elm, sonra cisim sözü gəlmişdir.
13. Seçim zamanı daha elmli olmaq əsas məsələdir.
14. Rəhbər, müdir öz işçilərinə diqqətlə yanaşmalı, işinin və seçiminin dəlillərini bəyan etməli, şübhələri aradan qaldırmalıdır. Onlar deməlidirlər ki, hansı işi görüb-görməmək öz haqlarıdır. Peyğəmbər Talutun seçim dəlili kimi onun elmi və cismi gücünü bəyan etdi.
15. İlahi lütf nə fəqirlik və ad-sansızlıqdan, nə də sərvət və şöhrətdən asılıdır.
16. Xalqın əksər etirazlarının səbəbi onların dar baxışlı və dar düşüncəli olmasıdır. Allahın elmi isə nəhayətsiz və qeyri-məhduddur.

248. ﴾وَقَالَ لَهُمْ نِبِيُّهُمْ إِنَّ آيَةَ مُلْكِهِ أَن يَأْتِيَكُمُ التَّابُوتُ فِيهِ سَكِينَةٌ مِّن رَّبِّكُمْ وَبَقِيَّةٌ مِّمَّا تَرَكَ آلُ مُوسَى
وَآلُ هَارُونَ تَحْمِلُهُ الْمَلآئِكَةُ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ﴿

**“Peyğəmbərləri onlara dedi: “Onun hakimiyyət nişanəsi budur ki, sizə doğru tabut (sandıq) gələcək. Onda Allahınız tərəfindən bir aramlıq, Musa və Harun ailəsindən miras, yadigar var. Bir halda ki, onu mələklər daşıyır. Həqiqətən, bu mövzuda sizin üçün aşkar dəlil var. Əgər imanınız olsa!**

## *Nöqtələr*

◘Yəhudilərin Talutun başçılığına əmin olması üçün peyğəmbərləri onlara dedi: “Talutun seçimində Allah tərəfindən bir nişanə olması üçün Bəni-İsrailin müqəddəs sandığı onlara qaytarılar.” Ayədə həmin sandıq tabut kimi yad edilmişdir. Bu sandıq Musanın anasının öz körpəsini qoyduğu ağac qutu idi. O, Allahın əmri ilə bu sandığı suya atdı. Fironun məmurları sandığı götürüb, körpə ilə birlikdə onun yanına apardılar. Həmin sandıq hələ də Fironun sarayında qalırdı.

Musa peyğəmbərliyə çatdıqda Tövrat səhifələrini həmin sandıqda yerləşdirdi. Dünyasını dəyişərkən öz zirehini və digər əşyalarını da həmin sandığa qoyub, öz canişini Yuşə ibn Nuna tapşırdı. Bu müqəddəs sandıq əhd sandığı adı ilə məşhur oldu. O, Bəni-İsrailin ixtiyarında idi. Savaş zamanı onu qoşunun önündə aparırdılar. Amma zaman keçdikcə sandığın müqəddəsliyi azaldı. Sandıq oğurlandı və yalnız Talutun hakimliyi zamanında Allah mələklər vasitəsi ilə sandığı onlara qaytardı ki, aramlıq və əminlik səbəbi olsun.[1]

## *Bildirişlər*

1. Vasitələrlə də olmuş olsa, aramlığın qaynağı Allahdır.
2. İnsan daim aramlığa ehtiyaclıdır. Xüsusi ilə də cihad meydanına gedən zaman. (Bu ayədə “səkinə” sözü düşüncə aramlığının əhəmiyyət və zəruriliyini göstərir.)
3. İlahi rəhbərdə ilahi nişanə olmalıdır. Talutun Allah tərəfindən seçilməsinin təsdiqi üçün ilahi nişanə olmalı idi.
4. Əgər Musanın bədəni və Tövrat lövhələri ilə təmasda olmuş sandıq və müqəddəs sakitləşdirici idisə, ilahi övliyaların qəbri üzərindəki sandıqları da müqəddəs saymaq Qurana zidd deyil.
5. Peyğəmbərlərin əsərlərinin hifzi dəyərlidir və aramlıq səbəbi, təbərrükdür.

249. ﴿فَلَمَّا فَصَلَ طَالُوتُ بِالْجُنُودِ قَالَ إِنَّ اللّهَ مُبْتَلِيكُم بِنَهَرٍ فَمَن شَرِبَ مِنْهُ فَلَيْسَ مِنِّي وَمَن لَّمْ يَطْعَمْهُ
فَإِنَّهُ مِنِّي إِلاَّ مَنِ اغْتَرَفَ غُرْفَةً بِيَدِهِ فَشَرِبُواْ مِنْهُ إِلاَّ قَلِيلاً مِّنْهُمْ فَلَمَّا جَاوَزَهُ هُوَ وَالَّذِينَ آمَنُواْ مَعَهُ قَالُواْ لاَ
طَاقَةَ لَنَا الْيَوْمَ بِجَالُوتَ وَجُنودِهِ قَالَ الَّذِينَ يَظُنُّونَ أَنَّهُم مُّلاَقُو اللّهِ كَم مِّن فِئَةٍ قَلِيلَةٍ غَلَبَتْ فِئَةً كَثِيرَةً بِإِذْنِ
اللّهِ وَاللّهُ مَعَ الصَّابِرِينَ﴾

**“Talut qoşunu özü ilə bayıra çıxaranda onlara dedi: “Allah sizi bir su axarı ilə imtahana çəkir. Hər kəs ondan içsə, məndən deyil. Hər kəs ondan – yalnız bir ovuc əliylə içməsi istisna olmaqla - içməsə, məndəndir. (Elə ki, su arxına çatdılar), az bir qismindən başqa hamı içdi. O və onun imanlı köməkçiləri arxı keçdikdən sonra (düşməni görüb) dedilər: “Bu gün bizim Calut və onun qoşunu ilə savaşa gücümüz yoxdur.” Amma Allahla görüşəcəklərinə inananlar (qiyamət gününə iman gətirənlər) dedilər: “Çox olar ki, kiçik bir dəstə Allahın izni ilə böyük dəstəyə qalib gəlsin. Allah səbirlilərlədir.”**

## *Nöqtələr*

◘“Cunud” sözü qoşun mənasını daşıyan “cund” sözündəndir.

◘Ayə susuzluq sınağı meydanından başı uca çıxa bilməmiş Bəni-İsraildən olan bir dəstənin rədd olunmasını xəbər verir. Amma bu sınaqdan çıxan kiçik bir qrup üçün digər bir ruhi və mənəvi imtahan vardı. Onlar Calutun böyük qoşunu ilə qarşılaşdıqda dedilər: “Biz bu silahlı qoşunla üz-üzə gəlmək gücündə deyilik.” Amma qiyamət gününə iman gətirənlər belə dedilər:

[1] Tövrat, “Səfəre-xuruc”, f. 37.

"Qələbə Allahın əlindədir. Çox olmuşdur ki, Allahın izni ilə kiçik bir dəstə böyük bir qoşuna qalib gəlmişdir."

◘Sınağın bir mərhələsindən üzü ağ çıxmaq kifayət deyil. Bir çoxları müəyyən mərhələdə müvəffəq olsalar da, növbəti mərhələdə məğlub olurlar. Bu əhvalatda bir dəstə, təyin olunmuş rəhbəri onun fəqir olduğu üçün qəbul etmədi. Digər bir dəstə isə susuzluq sınağından çıxmadı. Başqa bir qrup isə düşmənlə rastlaşdıqda uğursuzluğa düçar oldu.

◘Talut ilk öncə qoşunu özünə aid edib "mənim qoşunum" sözünü işlətmir. Qoşun böyük olub, onun komandanlığını qəbul etsə də, Talut onları sınaqdan keçirmədiyi üçün sadəcə "qoşun" kəlməsini işlədir. Sınaqdan keçirdikdən sonra bu qoşunu özünə aid bilir.

◘İmam Baqir (ə) buyurmuşdur: "İşin sonunadək Taluta vəfalı olanların sayı 313 nəfər idi.[1]

◘İki dəstənin mövqeyi aydındır: Kim sudan içmədisə özününküdür, hər kəs içdisə biganədir. Amma ovucla içənlər nə özününküdür, nə də biganə. Onları nə məyus, nə də lütfdən məhrum etmək lazımdır. Çünki burada nə "minni", nə də "ləysə minni" sözləri işlədilmişdir.

◘Əli dövlətin və xalqın malına çatdığı halda kəramət və zöhd göstərərək onun yanından keçən və tamahkarlığa yol verməyənlər "hizbullah", yəni Allahın firqəsidirlər. Arxalarını mal toplamaqla möhkəmləndirənlər isə həqiqi möminlər deyildirlər.

## *Bildirişlər*

1. Hərbi komandanın vəzifələrindən biri öz döyüş dəstələrini tamaşaçıların gözü qabağında qoymamaqdır.
2. Sınaq vasitələrindən biri də mövsümi, müvəqqəti qadağanlardır. Rahattələblik, çətinliklərə dözümsüzlük, müvəqqəti sıxıntılar qarşısında geriləmə cəngavərliklə bir araya sığan sifətlər deyil.
3. Düşmənlə savaşdan qabaq təlimlər keçirilməlidir.
4. Başçı faydasız qüvvələri kənarlaşdırmalıdır.
5. Komandana təslimçilik müvəffəqiyyət rəmzidir.
6. Zəruri ehtiyacların hesabı rifahlı yaşayış hesabından fərqlidir.
7. İmtahan meydanından üzüağ çıxanlar azdır.
8. İnqilabçı olmaq mühüm deyil, ən əsası inqilabçı qalmaqdır. Bu əhvalatda şüarçı çox idi. Amma imtahandan müvəffəq çıxanlar az oldu.
9. Məad və ilahi vədlərə iman çətinliklər qarşısında dözüm qüvvəsini gücləndirir.
10. İmanın dərəcələri vardır. Talutla olanların bir dəstəsi ona iman gətirsələr və su içməsələr də, iman dərəcəsinə görə fərqlənirdilər. Hər mömin mücahid deyil. Yalnız Allahla görüşə imanlı olanlar mücahiddirlər.
11. Düşmənin çoxluğu Allahın iradəsi qarşısında əhəmiyyətsiz bir şeydir.
12. Keyfiyyətli qüvvə kəmiyyətli qüvvədən üstündür.
13. Xalis mömin qələbəni Allahdan gözləyir.
14. Səbirli və dözümlü müsəlmanlar düşmənin çoxsaylı olmasından qorxmamalıdırlar. Çünki Allah səbirlilərlədir.

250. ﴿وَلَمَّا بَرَزُواْ لِجَالُوتَ وَجُنُودِهِ قَالُواْ رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَثَبِّتْ أَقْدَامَنَا وَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ﴾

**"Calut və onun qoşunu ilə qarşılaşdıqda dedilər: "Pərvərdigara, bizə səbir və dözüm endir, qədəmlərimizi sabit və möhkəm et, bizi kafir qövmə qalib buyur."**

[1] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 251.

### *Bildirişlər*

1. Hər zaman, xüsusi ilə cəbhələrdə hərəkətlə müşayiət olunan dua zəruridir. Hərəkət yerinə dua etmək düzgün deyil.
2. Səbir və qələbə bir-birinin şərtidir. Səbir nəticəsində qələbə əldə olunar.
3. Öz dualarınızı "Rəbbəna", yəni "ey Rəbbimiz" müraciəti ilə başlayın.
4. Çətinliklər zamanı insanın böyük səbrə ehtiyacı var. "Əfriğ" firavan nüzul mənasındadır. "Səbrən" sözü "nəkərə" formasında işləndiyindən böyük səbir nişanəsidir.
5. İmtahanlardan keçmək və onlardakı müvəffəqiyyət sizi qürrələndirməsin. Daim Allahdan yardım diləyin.
6. Çalışmaq insanın vəzifəsidir. Qələbə isə Allahın əlindədir.
7. Savaşda qələbə o zaman dəyərli olur ki, döyüşçülərin məqsədi haqqın batildən üstünlüyü olsun. Şəxsi üstünlük istəyi qələbəni dəyərsiz edir.

251. ﴿فَهَزَمُوهُم بِإِذْنِ اللّهِ وَقَتَلَ دَاوُدُ جَالُوتَ وَآتَاهُ اللّهُ الْمُلْكَ وَالْحِكْمَةَ وَعَلَّمَهُ مِمَّا يَشَاء وَلَوْلاَ دَفْعُ
اللّهِ النَّاسَ بَعْضَهُمْ بِبَعْضٍ لَّفَسَدَتِ الأَرْضُ وَلَكِنَّ اللّهَ ذُو فَضْلٍ عَلَى الْعَالَمِينَ﴾

**"Sonra onlar (Talut və köməkçiləri) Allahın izni ilə düşmən qoşununu məğlub etdilər. (Talutun köməkçilərindən olan şücaətli, mömin gənc) Davud Calutu öldürdü. Allah ona hökumət və hikmət əta etdi, istədiyindən ona öyrətdi. Əgər Allah xalqın bir hissəsini başqaları ilə dəf etməsə, hökmən yer üzünü fəsad bürüyər. Amma Allahın aləmlərə lütf və ehsanı var."**

### *Nöqtələr*

◘Rəvayətlərə görə Davud həmin bu döyüşdəki şücaətinə görə peyğəmbərlik məqamına çatdı. Onun övladı Süleyman da ilahi peyğəmbərlərdən oldu.

◘Rəvayətdə oxuyuruq ki, həzrət Peyğəmbər (s) buyurdu: "Allah bir saleh müsəlmana görə onun yüz min qonşusunun üzərindən bəlanı uzaqlaşdırar." Sonra həzrət həmin ayəni oxumuşdur.[1]

◘Ötən ayələrdən məlum olur ki, bir neçə şey qələbə amilidir: güclü və layiqli rəhbər, mömin ardıcıllar, təvəkkül, səbir və ardıcıllıq, ilahi məqsəd.

### *Bildirişlər*

1. Səy və cihad sizdən olsa da, düşmənin məğlubiyyəti Allahın əlindədir.
2. Mücahidlərin xalisanə duaları qəbul olur.
3. Parlaq istedad, ləyaqət, fədakarlıq və müsbət keçmiş olmasa, kimsə Allahın xüsusi lütfünə çatmaz.
4. Cəbhə və cihadda qılıncın ağzı düşmən komandanlığına doğru olsun.
5. Döyüşdə mərdanəlik göstərənlərin adını yaşadın.
6. Düşmən rəhbərin məhvi onun qoşununun məhvinə bərabərdir.
7. Təcavüzkar və zalımın qarşısında müqavimət göstərilməsə, fəsad yer üzünü bürüyəcək.

[1] "Təfsiri-Dürrül-mənsur", c. 1, s. 764.

8. Fəsad əhli ilə müharibə zəruridir. Zərərli ünsür aradan götürülməsə, başqa ünsürlər də həmin yola sövq ediləcək.

9. İlahi iradə və fəzl təbii yollarla gerçəkləşir.

10. Təcavüzkara qarşı cihad və müdafiə hökmü ilahi fəzldir.

252. ﴿تِلْكَ آيَاتُ اللّهِ نَتْلُوهَا عَلَيْكَ بِالْحَقِّ وَإِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ﴾

**“Haqq olaraq sənə oxuduqlarımız ilahi ayələrdir. Doğurdan da, sən (İlahi tərəfindən) göndərilmişlərdənsən.”**

## *Nöqtələr*

◘Bu ayə ilə Quranın ikinci cüzü başa çatır. Sonda buyurulur ki, ötən ayələrdə xatırlanan hadisələr ibrət üçündür.

Minlərlə insanın bir anda ölümü və peyğəmbərin duası ilə onların yenidən dirilməsi, adsansız, amma ləyaqətli və bilikli gənc çobana rəhbərlik məqamının əta olunması, azsaylı dəstənin çoxsaylı düşmən dəstəsinə qalib gəlməsi, bir gəncin şücaəti və ona peyğəmbərlik məqamının verilməsi və bütün başqa nöqtələr ilahi ayələrin cilvəsi, İslam peyğəmbərinin (s) buyuruqlarının və risalətinin haqq olması nişanəsidir.

## ÜÇÜNCÜ CÜZ

253. ﴿تِلْكَ الرُّسُلُ فَضَّلْنَا بَعْضَهُمْ عَلَى بَعْضٍ مِّنْهُم مَّن كَلَّمَ اللّهُ وَرَفَعَ بَعْضَهُمْ دَرَجَاتٍ وَآتَيْنَا عِيسَى
ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ الْقُدُسِ وَلَوْ شَاء اللّهُ مَا اقْتَتَلَ الَّذِينَ مِن بَعْدِهِم مِّن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ
وَلَكِنِ اخْتَلَفُواْ فَمِنْهُم مَّنْ آمَنَ وَمِنْهُم مَّن كَفَرَ وَلَوْ شَاء اللّهُ مَا اقْتَتَلُواْ وَلَكِنَّ اللّهَ يَفْعَلُ مَا يُرِيدُ﴾

**“O peyğəmbərlərin bəzisini bəzilərindən üstün etdik. Onlardan eləsi oldu ki, Allah onunla danışdı və bəzilərinin dərəcəsini yuxarı qaldırdı. Məryəm oğlu İsaya aşkar nişanələr verdik, onu Ruhul-qüdslə (Cəbraillə) gücləndirdik. Allah istəsəydi, onlardan (peyğəmbərlərdən) sonrakılar aşkar dəlil gəldikdən sonra bir-birləri ilə savaşa qalxmazdılar. (Amma Allah xalqı yol seçimində azad buraxmışdır.) Amma onlar bir-birləri ilə ixtilaf etdilər. Bəziləri iman gətirdi, bəziləri kafir oldu. Allah istəsəydi, (möminlər və kafirlər) savaşa qalxmazdılar. Amma Allah istədiyini yerinə yetirir.**

### *Nöqtələr*

◘Hədislərə görə peyğəmbərlərin sayı yüz iyirmi dörd min nəfər olsa da, Quranda onlardan yalnız iyirmi beşinin adı çəkilmişdir.[1] Peyğəmbərlərin məqamları və dərəcələri eyni deyil. Onların hər birinin öz yeri və imtiyazları var. Məsələn, İslam peyğəmbərinin fərqli xüsusiyyətləri onun xatəmiyyəti (son peyğəmbər olması), “ümmiliyi” (heç vaxt dərs oxumaması), kitabının təhrif edilməməsi, İbrahim peyğəmbərin imtiyazı vahid ümmət olması, nəslinin mübarəkliyi, Nuh peyğəmbərin imtiyazı uzun ömürlüyü, Allah tərəfindən xüsusi salam almasıdır. Bu ayədə isə həzrət Musa və həzrət İsanın imtiyazı bəyan olunmuşdur. Musa Allah kəlamının dinləyicisi, İsa Ruhul-qüds tərəfindən qüvvətləndirilmiş şəxs kimi tanıtdırılır. “Dərəcat” sözü çoxsaylı üstünlüklər nişanəsidir.

◘Fəxr-Razi “Təfsiri-Kəbirdə” bu ayə ilə bağlı söz açarkən İslam peyğəmbərinin iyirmiyə yaxın imtiyazını bəyan etmişdir. Məsələn, İslam peyğəmbərinin möcüzəsi olan Qurani-Kərim bütün möcüzələrdən üstündür. Onun digər bir imtiyazı bütün digər peyğəmbərlərə şahid olmasıdır.[2]

### *Bildirişlər*

1. Peyğəmbərlərin yetərincə üstün məqamları vardır. “Tilkə” sözü (“o” işarə əvəzliyi) uzağa və uca məqama işarədir.
2. Bütün peyğəmbərlər eyni rütbədə deyillər. Vahid məqsəd onların xüsusi kamilliklərə malik olmasına mane olmur.
3. Ötən peyğəmbərlərin uca tutulması lazımdır. Uyğun ayədə Musa və İsa haqqında xoş sözlər söylənilir.
4. Allahın sünnə və qanunu insanın azad buraxılmasıdır. Allah Öz bəndələrini məcburi şəkildə də haqq yola döndərə bilər. Amma həqiqi inkişaf azadlıq sayəsində mümkün olur. Bu ayədə iki dəfə rastlaşırıq ki, əgər Allah istəsəydi, xalq arasında ixtilaf və savaş baş verməzdi.
5. Əksər ixtilafların kökü cəhalət və qəflət yox, nəfs istəkləri, həsəd və eqoistlikdir.
6. Peyğəmbərlərin yolu aşkar dəlillərlə təqdim olunur.
7. Müharibə alovunu qızışdıran səbəblərdən biri də etiqadi ixtilaflardır. Əlbəttə ki, din ixtilaf mənşəyi deyil. İxtilafı törədən insanlardır.
8. Xalq arasındakı əqidə ixtilafları onların azadlığını göstərir.

---

[1] Bax: “Ğafir”, 78.
[2] Bax: “Nisa”, 41.

254. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَنفِقُواْ مِمَّا رَزَقْنَاكُم مِّن قَبْلِ أَن يَأْتِيَ يَوْمٌ لاَّ بَيْعٌ فِيهِ وَلاَ خُلَّةٌ وَلاَ شَفَاعَةٌ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ﴾

**"Ey iman gətirənlər! Alış-verişin, dostluq və şəfaətin olmayacağı gün çatmamış sizə verdiklərimizdən infaq edin. (Bilin ki,) kafirlər həmin zalımlardır. (Həm özlərinə, həm də başqalarına zülm edirlər.)"**

## *Nöqtələr*

◘Bu ayədə Allah xalqı infaqa təşviq etmək üçün vasitələrə əl atır: Sənin olanlar sənin deyil, onları Biz sənə vermişik. ; Onların bir hissəsini infaq et, hamısını yox ; Bu infaq qiyamət günü sənin üçün istənilən dostluqdan üstündür.

## *Bildirişlər*

1. Göstəriş verməzdən qabaq xalqa ehtiramla müraciət edin.
2. Xeyir işlərdə fürsətdən istifadə dəyərdir.
3. Bu gündən məhrum olmaq, sabahdan məhrum olmaqdır. Əgər bu gün infaq və bəxşiş həyata keçməsə, həmin gün də arada məhəbbət və dostluq olmayacaq.
4. Məadın zikri infaqa təşviq amilidir.
5. Səxavət ruhiyyəsi yaratmaq yollarından biri qiyamətdə insanların əliboş olacağını xatırlamaqdır.
6. Xəsislik naşükürlük və ilahi vədə qarşı küfr nişanəsidir.
7. Küfr zülmün bariz nümunəsidir.

255. ﴿اللّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ﴾

**"Allahdan başqa məbud yoxdur. O, diri və qəyyumdur. Onu nə yüngül yuxu tutar, nə də dərin yuxu. Göylərdə və yerdə olanlar Onundur. Onun izni olmadan hüzurunda şəfaət edə bilən kimdir?! Onların keçmişini və gələcəyini bilir. Onun elmindən yalnız Onun istədiyi qədər dərk edə bilərlər. Onun kürsüsü (elm və qüdrəti) göyləri və yeri bürümüşdür. Bu iki şeyi saxlamaq Onun üçün ağır deyil. O uca və böyükdür."**

## *Nöqtələr*

◘Ayədə "kürsü" sözü işləndiyindən həzrət Peyğəmbər (s) bu ayəni "Ayətəl-kürsi" adlandırmışdır. Şiə və sünni rəvayətlərində bildirilir ki, bu ayə Quranın qülləsi yerindədir və ayələr arasında ən böyük məqama malikdir.[1] Bu ayənin oxunması da çox sifariş olunmuşdur. Həzrət Əlinin (ə) belə buyurduğu nəql olunur: "Bu ayənin fəziləti haqqında eşitdikdən sonra bir gecəni də "Ayətəl-kürsi" oxumadan keçirmədim."[2]

Bu ayədə Allahın adı və sifətləri on altı dəfə zikr olunmuşdur. Ona görə də Ayətəl-kürsünü tövhid şüarı və bildirişi saymışlar. Quranda tövhid şüarı müxtəlif şəkillərdə bəyan olunmuşdur. Məsələn, "la ilahə illəllah" ("Saffat", 35), "la ilahə illa huvə" ("Bəqərə", 163), "la ilahə illa əntə" ("Ənbiya",87) "La ilahə illa ənə" ("Nəhl", 2). Amma bu ayələrdən heç birində Ayətəl-kürsidə olduğu kimi tövhid şüarları ilə yanaşı Allahın sifətləri bəyan olunmamışdır.

---

[1] "Təfsiri-Ruhul-məani", c. 3, s. 10; "Təfsiri-Əl-Mizan", c. 2, s. 354.
[2] "Təfsiri-Nümunə", c. 2, s. 191; "Təfsiri-Əl-Mizan", c. 2, s. 355.

◘Allahın sifətləri iki cürdür: Bəzi sifətlər onun zatının eynidir. Bu sifətlər ilahi zatdan ayrılmazdır. Məsələn, elm, qüdrət, həyat. Bəzi sifətlər isə “feli” sifət adlandırılmışdır. Bu sifətlər Allahın felinə, işinə aiddir. Məsələn, yaratmaq, bağışlamaq və s. Bu sifətlərin mənşəyi ilahi iradədir. Əgər istəsə xəlq edər, istəməsə yox. Zata aid olan sifətlər haqqında isə bu sözləri demək olmaz. Demək olmaz ki, əgər Allah istəsə bilər, istəməsə yox. Əgər zati sifətləri nəyəsə oxşatmaq istəsək deyə bilərik ki, Allahın elm və qüdrəti insanın məxluq olması kimidir. İnsandan onun məxluqluq, yaradılma sifətini ayırmaq olmaz. Allahın elm sifəti də beləcə onun zatından ayrılmır.

◘“İlah” sözü istər haqq olsun, istər batil, bütün məbudlar haqqında işlədilir.[1] “Allah” sözü isə ilahinin müqəddəs zatının adıdır. Allahdan qeyri məbudlar bir milçək yaratmaqda da acizdirlər.[2] Allahdan qeyrisinə pərəstiş edənlər tövhid ucalığından təhlükəli uçurumlara süqut edirlər.[3]

◘“La ilahə illəllah” hər bir müsəlmanın şəxsiyyət vəsiqəsinin ilk səhifəsidir. İslam peyğəmbərinin (s) ilkin şüarı və dəvəti də həmin cümlə ilə olmuşdur.[4] Eləcə də, həzrət (s) buyurmuşdur: “Hər kəs xalisanə tövhid şüarı versə, behiştə daxil olar. İxlas nişanəsi odur ki, “La ilahə illəllah” demək insanı haramlardan uzaqlaşdırsın.”[5]

İmam Sadiq (ə) buyurmuşdur: “La ilahə illəllah” demək behiştin qiymətidir.[6] İmam Riza (ə) qüdsi hədisdə belə nəql edir: “Tövhid kəlməsi (“La ilahə illəllah”) ilahinin möhkəm qalasıdır.”[7]

Bəli, tövhid insanın qurtuluş səbəbidir. Necə ki, hər kəs universitet və ya elmi hövzəyə qədəm qoydu, “alim oldu” deyirlər. Bir şərtlə ki, həmin şəxs bütün zəruri dərsləri oxusun. “La ilahə illəllah” demək insana nicat verir. Amma qarşıda işarə edəcəyimiz şərtlər daxilində!

◘Tövhidə etiqad insanın gözündə bütün qüdrətləri və cazibələri alçaq göstərir. Tövhidin tərbiyəvi təsirlərinin bir nümunəsi müsəlmanların sultanlar qarşısında səcdə etməməsidir. Müsəlmanlar Həbəşə padşahı Nəccaşinin sarayında belə dedilər: “Biz Allahdan qeyrisinə səcdə etmərik.”[8] Digər bir müsəlman - Dəhiyyə Kəlbi Rum qeysərinin sarayında səcdə etmədi və saray xadimlərinin cavabında belə dedi: “Mən Allahdan qeyrisi üçün səcdə etmirəm.”[9] Bəli, tövhid insanı elə bir məqama qaldırır ki, hətta behişt və cəhənnəm də onun üçün fərqsiz olur. Məsum imamlar da belə insanlar tərbiyə etməyə çalışırdılar. Həzrət Əli (ə) buyurmuşdur: “Allah səni azad yaratmışdır. Bir başqasına qul olma.”[10]

Müsəlmanlar hər gün, hər bir yerdə uca səslə azan deməlidirlər. Yalançı tanrılar və zalım hakimlərə bəndəlikdən azadlıq fəryadı azanla göyə ucalmalıdır. Müsəlmanlar öz körpələrinin qulağını hər şeydən qabaq “La ilahə illəllah” tövhid nidası ilə tanış etməlidirlər.

◘“Cövşən kəbir” duasının yetmişinci cümləsində Allahın diri olması (“həyy”) belə bəyan olunur: “Ey bütün dirilərdən qabaq diri olan...” Bəli, Allah diridir. Bu dirilik bütün canlılardan əvvəl və sonranı əhatə edir. Onun diriliyinin oxşarı və şəriki yoxdur. O Öz diriliyində başqasına möhtac deyil. O, diriləri öldürür və bütün dirilərə ruzi verir. O, həyatı digər bir canlıdan irs almır. Hətta ölülərə də həyat bağışlayır. O, diri və qəyyumdur.

◘Allahın zatına münasibətdə “həyat” sözü başqalarının həyatından fərqli mənaya malikdir. Necə ki, Allahın digər sifətləri onun zatından ayrılmazdır. Bu sifətlərdə fənaya yol yoxdur.[11]

---

[1] Bax: “Furqan”, 43.
[2] Bax: “Həcc”, 73.
[3] Bax: “Həcc”, 31.
[4] “Kənzul-Ümmal”, h.35 541.
[5] “Səvabul-ə’mal”, s. 20.
[6] “Bihar”, c. 93, s. 196.
[7] “Bihar”, c. 3, s. 7.
[8] “Sireye-Hələbi”, c.1, s. 387.
[9] “Sireye-Hələbi”, c.3, s. 272.
[10] “Nəhcül-bəlağə” hikmət 31.
[11] Bax: “Furqan”, 58.

Allah Öz həyatında insanlar, heyvanlar və otlar kimi qidalanmaya, doğub-törəməyə, cazibə və ya dəf etməyə ehtiyaclı deyil.

◘“Qəyyum” “qiyam” kökündən olub öz ayağı üstə durmuş və kimsəyə möhtac olmayan kəsə deyilir.[1] “Qəyyum” sözü Quranda üç dəfə və hər dəfə də “həyy” sözü ilə yanaşı işlədilmişdir.

Onun qiyamı Özündən, digər mövcudların qiyamı isə Onun vücudundandır. Allahın qəyyumluğu dedikdə Onun Öz məxluqları üzərindəki hakimiyyəti, nəzarəti və kamil tədbiri nəzərdə tutulur. Onun qiyamı daimi və hərtərəflidir. O yaradır, ruzi verir, hidayət edir, öldürür və bir an da qəflətdə qalmır.

◘Hər bir mövcud öz həyatını davam etdirmək üçün feyz mənbəsinə ehtiyaclıdır. Necə ki, elektrik lampası mənbədən əlaqəsi kəsilən kimi sönür. Bütün mövcudlar diri qalmaq üçün “həyy” mənbəsindən qidalanmalıdır. Həyatın davamında qəyyumdan qidalanma zəruridir.

◘Həzrət Əli (ə) buyurmuşdur: “Hər şey Ona təslimdir və hər şey Ona bağlıdır.”[2] Bədr savaşında həzrət Peyğəmbər (s) ardıcıl olaraq səcdədə deyirdi: “Ya həyyu, ya qəyyum.”[3]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Yatmayan heç bir canlı yoxdur. Yalnız Allah yuxudan uzaqdır.”[4] Allah diridir (həyy) və yuxuya – mürgüyə ehtiyacsızdır. Yuxu diri varlığı nəinki başqalarından, hətta özündən xəbərsiz edir. Allah isə yuxudan uzaqdır və daim hər şeyə qəyyumluğu var.

◘Hər şeyin həqiqi maliki Odur. İnsanın malikiyyəti isə əslində həvalə olunmuş malikiyyətdir. Bu maliklik bir neçə günlükdür və həqiqi malik, yəni Allah tərəfindən təyin olunmuş şərtlər daxilindədir. Əgər hamının həqiqi maliki Allahdırsa, nə üçün başqasına pərəstiş edilməlidir? Başqaları da bizim kimi Onun bəndələridirlər.[5] Təbiət Allahın mülküdür. Təbiətə hakim olan qanunlar Allaha tabedir. Kaş ki, insanlar həm Onun malikliyindən, həm də mülkündən qədərincə faydalanaydılar! Əgər hər şey Allahındırsa və Allah üçündürsə, xəsisliyə yer qalırmı? Məgər bizi xəlq etmiş Allah bizi özbaşına buraxmışmı?[6] İmam Kazim (ə) Buşr adlı bir şəxsin qapısı ağzından ötürdü. Bu vaxt onun evindən çal-çağır, səs-küy ucaldı. Həzrət həmin vaxt qapıdan çıxan kənizdən soruşdu: “Ev sahibi kimdir? Bəndədirmi?” Kəniz cavab verdi: “Xeyr, bəndə deyil, ağadır, azaddır.” İmam buyurdu: “Əlbəttə, əgər bəndə olsaydı, bir bu qədər itaətsizlik etməzdi.” Kəniz evə qayıtdıqda imamın sözlərini ev sahibinə çatdırdı. Həmin şəxs imamın sözlərinin təsiri altına düşdü və tövbə etdi.[7]

İmam Sadiqin (ə) belə buyurduğu nəql olunmuşdur: “Təqva və Allaha bəndəliyin ilkin dərəcəsi insanın özünü malik bilməməsidir.”[8]

◘Müşriklər Allahı qəbul edirdilər.[9] Amma bütləri özlərinə şəfaətçi götürmüşdülər.[10] Ayətəl-kürsü bu xürafi, puç sığınacağı darmadağın edir və deyir: Kimdir Onun icazəsi olmadan şəfaət edən? Yalnız varlıq yox, varlıq işləri də Onun iznilədir. Sizin təsəvvürünüzcə, bir məxluq digərinin şəfaətçisi olmur. Şəfaət qiyamətdə var. Amma bu iş Allahın izni, hesab-kitabladır. İnsan yalnız Onun inzi və iradəsi ilə iş görə bilir. Allahın qəyyum olması o demək deyil ki, insan Allahın istəyindən kənar bir iş görə bilər.

◘Şəfaət güclü bir mövcudun zəif bir mövcuda göstərdiyi yardımdır. Məsələn, yaranış nizamında bitki toxumuna işıq, hava və torpaq yardım göstərir ki, cücərib ərsəyə çatsın. Cəza və mükafat nizamında da Allahın övliyaları qurtuluş üçün günahkarlara yardım göstərirlər.

[1] “Mufrədate-Rağib”.
[2] “Nəhcül-bəlağə” xütbə 108.
[3] “Ruhul-bəyan”, c. 1, s. 400.
[4] “Bihar”, c. 1, s. 225.
[5] Bax: “Ə’raf”, 194.
[6] Bax: “Qiyamət”, 36.
[7] “Tətimmətul-muntəha”, s. 329.
[8] “Bihar”, c. 1, s. 225.
[9] Bax: “Loğman”, 25.
[10] Bax: “Yunis”, 18.

İmam Sadiq (ə) buyurmuşdur: "Şəfaət izninə malik olanlar bizik."[1] Amma bu yardımlar Allahın zəifliyini və ya təsir altına düşməsini göstərmir. Çünki şəfaət məqamını müəyyənləşdirən və övliyalara belə bir icazə verən O Özüdür. O Özü yaranışı elə nizamlamışdır ki, bitki toxumu inkişaf mərhələsində işıqdan, havadan, torpaqdan, sudan kömək alır.

Bütün hallarda insanın məxluqlardan aldığı köməklər və maddi amillər Allahın izninə bağlıdır. Şəfaət Allahın hakim etdiyi qanunlar çərçivəsində gerçəkləşir. Bu səbəbdən də bəziləri şəfaətdən məhrum olurlar.[2] Məsələn, işıq, hava, su və torpaq yalnız inkişaf qabiliyyətinə malik olan toxuma kömək göstərir. Şəfaət dəstəbazlığa, dünyəvi tapşırıqlara əsaslanmır. Şəfaət ümidsizliyin qarşısını almaq, xalqla övliyalar arasında bağlılıq yaratmaq üçündür. Şəfaət Allahın Öz övliyalarına verdiyi mükafatdır. Qiyamətdə şəfaət nemətindən bəhrələnmə insanın peyğəmbər və övliyaların elm və hidayət nurundan bəhrələnmə təcəssümüdür.

Şəfaət edən kəs Allahın qüdrəti qarşısında müstəqil bir qüvvə deyil. O sadəcə ilahi qüdrətdən bir işartıdır. Şəfaət məqamı yalnız Allahın istədiklərinə məxsus olur. Ona görə də bütpərəstlər şəfaətdən bəhrələndiklərini düşünməməlidirlər.[3]

Xatırlatmalıyıq ki, Allahdan qeyrisinə ibadət şirkdir. Amma Allahı çağırmaq hər vaxt şirk olmur. Quranda bəyan olunmuş "yədukə", "yədukum" "yədunə", kimi çağırış bildirən sözlərin şirklə heç bir əlaqəsi yoxdur.[4] Amma heç də hər dəvət dəyərli olmur. Xəstə həkimi çağırırsa, bu, yaxşıdır. Amma onun falçını səsləməsi batildir.

◘Allah bütün hadisələrdən xəbərdardır. Allah üçün şəfaət səyi kiminsə günahsızlığının sübutu üçün deyil. Şəfaət qurtuluş və əfv üçün təlaşdır. Allahın hər şeydən xəbərdarlığı insanı utandırmalıdır. Allah qəlbimizdən keçənlərdən xəbərdardır. Gizli və aşkar sirlərimiz Ona məlumdur. Allah anaların bətnində olandan agahdır. Qiyamət günü hər şeyin ölçüsü Ona məlumdur.[5] Biz insanlarınsa elmi məhduddur. Biz səsləri müəyyən həddə eşidir, görüntüləri hansısa çərçivədə müşahidə edə bilirik. Allahın razı olmadığı heç bir sirdən xəbərdar deyilik.

◘Bir rəvayətdə imam Sadiqin (ə) belə buyurduğu nəql edilir: "Ərş" dedikdə Allahın peyğəmbərləri və rəsulları xəbərdar etdiyi elmlər nəzərdə tutulur. "Kürsi" isə kimsənin bilmədiyi elmlərdir.[6] Bəziləri kürsü sözünün göyləri və yeri bürümüş ilahi qüdrət və hökumətə işarə olduğunu bildirir. Hansı ki, aləm çox genişdir və yer kainatla müqayisədə səhrada itmiş üzük qədərincə də deyil. Bütün bunlara baxmayaraq, onların hifzi Allah üçün çətin deyil. Ayətəl-kürsi xalqa öyrədir ki, Allah nəinki aləmin maliki, həm də bütün mülkündən xəbərdardır. Bütün varlıq aləmi öz məxluqu ilə birlikdə Allahın hakimiyyəti və qüdrəti altındadır.[7] İnsan Allahın qeyri-məhdud qüdrətini yaranmışların qüdrəti ilə müqayisə etməməlidir. Çünki maddənin xüsusiyyətlərindən biri də yorğunluqdur. Allahın qüdrəti isə eynən Onu zatıdır.[8] Həzrət Əli (ə) buyurmuşdur: "Allahı nə zamanın ötməsi köhnəldir, nə də Özü dəyişir."[9]

Bəli, Allahın qeyri-məhdud qüdrətinə diqqət mömінin ruhuna rahatlıq verir. Bu hislərlə yaşayan mömin özünü əmin-amanlıqda görür.

◘Allahın "qəyyum", "həyy", "əlim", "əzim" kimi bütün sifətləri insanın tərbiyəsində mühüm rol oynayır. Çünki ən yaxşı məktəb öz ardıcıllarına ümid və eşq verən məktəbdir.

---

[1] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 258.
[2] Bax: "Müddəssir", 48.
[3] Bax: "Yunus", 18.
[4] Bax: "Qəsəs", 25; "Ali-İmran", 153; "Ali-İmran", 104.
[5] "Səba", 2.
[6] "Təfsiri-Nurus-səqəleyn", c. 1, s. 259; "Təfsiri-bürhan", c.1, s. 240.
[7] "Bəqərə", 116; "İbrahim", 19.
[8] "Hud", 66.
[9] "Nəhcül-bəlağə" x. 228.

Həqiqi məktəb öz ardıcıllarının taleyini və gələcəyini işıqlandırır və bu ardıcıllar bilirlər ki, daim nəzər altındadırlar, büdrəmələri bağışlanasıdır, onların hakimi mehribandır.

◘Bir sözlə, diri, yenilməz, zəiflik və yuxudan uzaq Allah pərəstişə layiqdir. Onun icazəsi olmadan kimsə bir işə əl qata bilməz. O hər şeydən xəbərdardır, hər şeyi əhatə edir, hər şeyə hakimdir. Yalnız belə bir yaradan həqiqi məbud və məhbub ola bilər. Belə bir Allaha təvəkkül etmək, könül bağlamaq, ümidvar olmaq olar. Quranın bu şəkildə tanıtdırdığı Allah təhrif olunmuş İncil və Tövratın tanıtdırdığı məbudla müqayisəyə gəlməz. Dünyanın maddi nizamının dalanlarında çıxılmaz vəziyyətə düşən insanlar necə düşünürlər?

## *Bildirişlər*

1. Ondan savay heç bir mövcudda məbudluq yoxdur.
2. Gerçək, əbədi həyat və bütün digər həyatlar Onundur.
3. Hər şey ardıcıl şəkildə Ona bağlıdır və bir an olsun belə Onun tədbirindən xaric deyil.
s. 387)
4. Hər şey Ondandır.
5. Nəinki varlıq aləmi, bu aləmdə baş verən bütün işlər də Ondandır.
6. Sizin xəyalınız əsasında bir şey şəfaətçi və vasitə olmaz.
7. Bir kimsə Ondan mehriban deyil. Hər bir şəfaətçinin eşq və mehribanlığı Ondandır.
8. Allah hər şeydə və bütün hallarda agahdır. Günah etdikdə Ondan utanaq.
9. O hər şeyi əhatə edir. Amma başqaları Onun istəyi olmadan elmin bir guşəsini də əhatə edə bilməz. [1]
10. Onun hakimiyyəti və qüdrəti məhdud deyil.
11. Varlıq aləminin hifzi Onun üçün ağır deyil.
12. Varlıq aləmini hifz edən kəs bizi bütün təhlükələrdən də qoruya bilər. Ona görə də hifz olmaq üçün ayətəl-kürsü oxumaq sifariş olunmuşdur.

256. ﴿لاَ إِكْرَاهَ فِي الدِّينِ قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ فَمَنْ يَكْفُرْ بِالطَّاغُوتِ وَيُؤْمِن بِاللّهِ فَقَدِ اسْتَمْسَكَ
بِالْعُرْوَةِ الْوُثْقَىَ لاَ انفِصَامَ لَهَا وَاللّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**“Dində (dinin qəbulunda) məcburiyyət (ikrah) yoxdur. Həqiqətən, təkamül yolu azğınlıq yolundan aşkar fərqlənmişdir. Hər kəs tağutu inkar edib Allaha iman gətirsə, qəti olaraq qırılmayan möhkəm tutacaqdan (təstəkdən) yapışmışdır. Allah bilən, eşidəndir.”**

## *Nöqtələr*

◘Məcburi şəkildə qəlbdə iman yaranmır. Dəlil, əxlaq, moizə yolu ilə qəlblərə nüfuz etmək olar. Amma bu o demək deyil ki, insan əməldə istədiyini edə və deyə ki, mən azadam, tutduğum yoldan məni döndərməyə kimsənin haqqı yoxdur. İslamdakı cəza qanunları, eləcə də qamçı, hədd, diyə, qisas, nəhy əz münkər və cihad kimi vaciblər göstərir ki, hətta İslama qəlbən etiqadı olmayanlar da cəmiyyətə əziyyət verə bilməzlər.

◘Kafirlərə “iddialarınızda sadiqsinizsə, dəlil gətirin” deyən İslam bu əqidəni xalqa məcburi şəkildə qəbul etdirərmi?

◘İslamda cihadın məqsədi ya zalım hakimlərlə mübarizə və insanlara düşünmək icazəsi verməyən diktator rejimləri sındırmaq üçündür, ya da əslində bir xəstəlik olan şirk və xürafatpərəstliyi məhv etmək üçün. Zalım hakim və şirk qarşısında sükut bəşəriyyətə zülmdür.

---

[1] “Ələq”, 14.

◘Rəvayətlərə görə qırılmaz dəstəkdən yapışmağın bir nümunəsi Allahın övliyaları və Əhli-beytə üz tutmaqdır. Həzrət Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurmuşdur: “Sənsən ürvətül-vüsqa”[1]

## *Bildirişlər*

1. Dəlil və məntiqə malik bir dinin ikrah və məcburiyyətə ehtiyacı yoxdur.
2. Zorun təsiri əməl və hərəkətdir, düşüncə və əqidəyə yox!
3. Höccətin (dəlillərin) xalqa tamamlanması üçün haqq yol batil yoldan ayrılmışdır. Haqq yol ağıl, vəhy və möcüzələr vasitəsi ilə işıqlanır. İslam təkamül dinidir.
4. Din bəşəriyyətin təkamül mayasıdır.
5. İslam zalım hakimlərlə sazişdə deyil.
6. Zalım hakimlər məhv olmayınca tövhid cilvələnməz. Əvvəl tağutun inkarı, sonra Allaha iman!
7. Tağutun inkarı və Allaha iman daimi olmalıdır. “Felin gələcək zaman forması davam əlamətidir.
8. İlahi tutacağın möhkəmliyi kifayət etmir. Möhkəm yapışmaq da şərtdir.
9. Zalım hakimlərə və Allahdan qeyrilərinə arxalanma etibarsızdır. Yeganə qırılmaz ip Allaha imandır.
10. Allaha iman və Allah övliyaları ilə rabitə əbədidir. Zalım hakimlər qiyamət günü öz ardıcıllarına arxa çevirəcəklər.
11. Allaha iman və tağutun inkarı saxta yox, saf olmalıdır. Çünki Allah bilir və eşidir.

257. ﴿اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Allah möminlərin dostu və himayəçisidir. Onları zülmətlərdən çıxarıb nura doğru aparar. Kafirlərin dostu isə tağutlardır. Onları nurdan qaranlıqlara sövq edərlər. Onlar atəş əhlidirlər və daim onda olacaqlar.**

## *Nöqtələr*

◘Əvvəlki ayədə oxuduq ki, Allah hər şeyin malikidir. Bu ayədə isə belə buyuruldu: Onun möminlərə münasibəti xüsusi və üstün bir münasibətdir.

**Allahın vilayətini qəbul edənlərin bəzi səciyyələri:**

- Allahın vilayətini qəbul edən kəsin işləri ilahi rəng alır.[2]
- Özü üçün ilahi rəhbər seçir.[3]
- Yolu aydın, gələcəyi məlum və işləri xoşdur.[4]
- Savaşlar və çətinliklər zamanı Allahın yardımına göz dikib, qeyri-ilahi güclərə meyl göstərmir.[5]
- Ölümdən qorxmur və Allahın vilayəti kölgəsində ölümü səadət sayır. Bu həqiqəti imam Hüseyn (ə) də öz buyruğu ilə təsdiqləyir.[6]
- Həyatdakı tənhalıq onun üçün ağır deyil. Çünki Allahın nəzərləri altında olduğunu bilir. (bax: “Tövbə”, 40)

---

[1] “Təfsiri-Burhan”, c. 1, s. 141.
[2] Bax: “Bəqərə”, 138.
[3] Bax: “Bəqərə”, 247.
[4] Bax: “Yunus”,9; “Bəqərə”, 156; “Yusif”, 56.
[5] “Bəqərə”, 173.
[6] Bax: “Bihar”, c. 44, s. 192.

- İnfaq və malını xərcləməkdə ehtiyatlanmır. Çünki malını öz hamisinə tapşırdığına inanır.[1]
- Mənfi təbliğatlar ona təsir göstərmir. Çünki Allahın qəti vədlərinə ümidlidir.[2]

- Allahdan başqa hər şey onun nəzərində kiçikdir.[3]
- Çoxsaylı qanunlar və göstərişlər onu narahat etmir. Çünki o yalnız Allahın qanunlarını qəbul etmiş və bu barədə düşünür. Qarşısına yüzlərlə qazanc yolu çıxsa da, o yalnız Allahın razılığını əsas götürərək yol seçir.[4]

## *Bildirişlər*

1. Möminlərin bir himayədarı var və o da Allahdır. Kafirlərin isə tağutlardan olan dostları çoxdur. Bir dostu qəbul etmək daha asandır. Kafirlərin dəvəti qarşısında Yusif də həmin nöqtəyə işarə etdi: “Çox saylı və pərakəndə sahiblər yaxşıdır, yoxsa yeganə və qadir Allah?!”[5] Möminlərin dostu kimi vahid Allahın, kafirlərin dostu kimi tağutların adı çəkilir.
2. Əvvəlki ayədə təkamül və süqut yolunun aydınlaşdırıldığı bildirilirdi. Bu ayədə isə həmin təkamül və həmin süqutun bir nümunəsi bəyan olunur. O, Allahın vilayəti (təkamül) və tağutların vilayətidir (azğınlıq).
3. Haqq yol birdir. Azğınlıq yolları isə çox. Quran haqq yoldan danışarkən nur sözünü işlədir. Azğınlıq yolları isə zülmətlər kimi təbir olunur.
4. Haqq yol nurdur və nurda hərəkət, təkamül, ümid və aramlıq imkanı var.
5. Mömin üçün çıxılmaz vəziyyət yoxdur.
6. Zalım hakimlər küfr və şirk fəzasında manevr (görüntü yaratmaq) imkanına malikdirlər.
7. Allahın vilayətinə daxil olmayan insan istər-istəməz tağutların vilayətinə düşəsidir.
8. İlahi vilayətdən savay bütün vilayətlər tağuta aiddir.
9. Tağutu qəbul edənlərin aqibətinə diqqət insanı haqqın qəbuluna sövq edir.

258. ﴿أَلَمْ تَرَ إِلَى الَّذِي حَآجَّ إِبْرَاهِيمَ فِي رِبِّهِ أَنْ آتَاهُ اللّهُ الْمُلْكَ إِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّيَ الَّذِي يُحْيِي وَيُمِيتُ قَالَ أَنَا أُحْيِي وَأُمِيتُ قَالَ إِبْرَاهِيمُ فَإِنَّ اللّهَ يَأْتِي بِالشَّمْسِ مِنَ الْمَشْرِقِ فَأْتِ بِهَا مِنَ الْمَغْرِبِ فَبُهِتَ الَّذِي كَفَرَ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**“Məgər Allahın padşahlıq verdiyi kəsi (Nəmrudu) görmədinmi ki, İbrahim və onun Allahı haqqında höcətləşirdi? İbrahim deyəndə ki, "mənim Allahım diriltdən, öldürən kəsdir," o dedi: “Mən də dirildirəm və öldürürəm.” İbrahim dedi: “Allah günəşi şərqdən çıxarır. Sən günəşi qərbə gətir." (Bu vaxt) o kafir çarəsiz qaldı. Allah zalım qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Əvvəlki ayədə oxuduq ki, Allah möminlərin dostudur və onları zülmətdən çıxarıb nura aparar. Bu və bundan sonrakı ayələr ilahi vilayətin nümunələrini açıqlayır. Zülmətlərdən çıxarıb nura doğru aparmaq bu qəbildəndir.

◘Tarixi rəvayətlərdə nəql olunur ki, Nəmrud Babil padşahlarından olmuşdur. O, həzrət İbrahimlə Allah haqqında mübahisələrə girişmişdir. Həzrət İbrahim öz Allahının diriltdən və öldürən Allah olduğunu dedikdə, Nəmrud iddia etmişdir ki, o da dirildib öldürməyi bacarır. Sonra iki məhbusu gətirmiş və birini azad edib digərini öldürmüşdür. Bu axmaq işi müşahidə

[1] Bax: “Bəqərə”, 245.
[2] Bax: “Ə’raf”, 128.
[3] bax: “Nəhcül-bəlağə”, x. 193.
[4] Bax: “Maidə”, 44, 45.
[5] “Yusif”, 39.

edən İbrahim Nəmrudun diriltmək və öldürmək haqqındakı sarsaq təfəkkürünü tanımışdır. İbrahim Nəmruda təklif etmişdir ki, Allahın şərqdən çıxardığı günəşi qərbdən çıxarsın. İbrahim demişdir: “Əgər sən varlıq aləmində hakimiyyətə malik olduğunu iddia edirsənsə, günəşi qərbdən çıxart.” Həmin vaxt Nəmrud yerində donub qalmış və səsini udmuşdur.

### *Bildirişlər*

1. Kimin nəyi varsa Ondandır. Kafirlər də, bu dünyada Onun nemətlərindən bəhrələnirlər. Amma bu nemətlərdən sui-istifadə edirlər.

2. Qüdrət və hakimiyyət zalımlıq və təkəbbür amili ola bilər.

3. İctimai fikrə və xalqın mühakiməsinə diqqətli olmaq lazımdır. Həyatın yaranışı allahşünaslıq yollarından biri olsa və Nəmrudun cavabı düzgün sayılmasa da, həmin söhbətlər ictimai fikri təmin etmir.

4. Höcətləşmə, “müğalitə” batil əhlinin üsuludur.

5. Əgər həqiqət məntiq və dəlil yolu ilə bəyan olunarsa, batilə qalib gələr.

6. Mübahisələrdə fitri, əqli və ümumi dəlillərdən istifadə edin. Belə etsəniz, höcətcil müxalif də söz tapmaz.

7. Kafir zalımdır. Çünki özünə və insanlıq məqamına zülm etmişdir.

259. ﴿أَوْ كَالَّذِي مَرَّ عَلَى قَرْيَةٍ وَهِيَ خَاوِيَةٌ عَلَى عُرُوشِهَا قَالَ أَنَّىَ يُحْيِي هَـَذِهِ اللّهُ بَعْدَ مَوْتِهَا فَأَمَاتَهُ اللّهُ
مِئَةَ عَامٍ ثُمَّ بَعَثَهُ قَالَ كَمْ لَبِثْتَ قَالَ لَبِثْتُ يَوْمًا أَوْ بَعْضَ يَوْمٍ قَالَ بَل لَّبِثْتَ مِئَةَ عَامٍ فَانظُرْ إِلَى طَعَامِكَ
وَشَرَابِكَ لَمْ يَتَسَنَّهْ وَانظُرْ إِلَى حِمَارِكَ وَلِنَجْعَلَكَ آيَةً لِّلنَّاسِ وَانظُرْ إِلَى العِظَامِ كَيْفَ نُنشِزُهَا ثُمَّ نَكْسُوهَا لَحْمًا
فَلَمَّا تَبَيَّنَ لَهُ قَالَ أَعْلَمُ أَنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Ya o kəs ki, (Üzeyr) divarları çökmüş və damlarının üzərinə uçulmuş kəndin yanından keçərkən oranın əhlini ölmüş, sümüklərini ətrafa səpələnmiş görüb, (öz-özünə) dedi: “Allah ölümdən sonra bunları necə dirildir?” Allah da onu yüz il öldürüb, sonra diriltdi (və ona) buyurdu: “Nə qədər yubandın?” Dedi: “Bir gün, ya günün bir hissəsini yubanmışam! Buyurdu: “Xeyir, sən yüz il yubanmısan, öz yemək-içməyinə bax, (illərin ötməsi ilə) dəyişməmişdir. Ulağına bax (gör necə çürüyüb! Bu onun üçündür ki, həm sənə cavab verək, həm də) səni xalq üçün (qiyamətə) əlamət və dəlil qərar verək. Sümüklərə bax ki, onları necə birləşdirir, ətə bürüyürük.” Elə ki, (bu həqiqətlər) aşkar oldu, o dedi: (İndi bütün vücudumla) bilirəm ki, Allah bütün işlərə qadirdir.”**

### *Nöqtələr*

◘Əvvəlki ayə həzrət İbrahimin Nəmrudla söhbətini bəyan etdi. Onlar tövhid haqqında danışırdılar. Dəvət dəlillərlə həyata keçirdi və İbrahim dəlillər vasitəsi ilə qalib gəldi. Zülmətlərdən nura çıxmanın ikinci nümunəsi bu ayədədir. Burada məad haqqında danışılır. Məad etiqadına hidayət nümayiş, hiss üzvlərinin duyması, əməli formada həyata keçir. Təfsirlərdə və bəzi rəvayətlərdə nəql olunmuşdur ki, bu şəxsin adı Üzeyr olmuşdur. "Təfsiri-əl-mizan"da oxuyuruq ki, bu şəxs peyğəmbər olmalıdır. Çünki Allah onunla danışmışdır.

## *Bildirişlər*

1. Keçmişin viran qalmış mədəniyyətlərinə ibrət gözü ilə baxmaq və yeni dərslər öyrənmək lazımdır.
2. Müəyyən həqiqətləri bilsək də, yenə də öz elmimizi təcrübə və soruşmaqla gücləndiririk.
3. Bir nöqtəni anlamaq üçün yüz il ölmək yerinə düşür.
4. Uzun zaman ötməsi Allahın qüdrətinə xələl gətirmir.
5. Rəcət və ölülərin dirilməsi qiyamətdən qabaq elə bu dünyada qəbul edilə bilər.
6. Dini maarifin ən üstün bəyan yollarından biri nümayişdir.
7. Allahın iradəsi ilə möhkəm sümüklər çürüyür. Amma tez xarab olası qidalar yüz il təravətli qalır.
8. İlahi qüdrətin nümayişi xalqın doğru yola sövqü və hidayəti üçündür. Bu nümayişdə əyləncə, Allahın qüdrətini büruzə vermək məqsədi yoxdur.
9. Allah qiyamətdən bir səhnəni dünyada nümayiş etdirmişdir.
10. Məad cismanidir. Əgər məad ruhani olsaydı, sümükdən danışılmazdı.
11. Ovuc tutum nümunəsidir. Allah qiyamətdəki qüdrətinin bir parçasını dünyada nümayiş etdirir.

260. ﴿وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَى قَالَ أَوَلَمْ تُؤْمِن قَالَ بَلَى وَلَكِن لِّيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِّنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَى كُلِّ جَبَلٍ مِّنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا وَاعْلَمْ أَنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ﴾

**“(Xatırla) o zaman ki, İbrahim dedi: “Pərvərdigara, mənə ölüləri necə diriltdiyini göstər.” (Allah-təala) buyurdu: “Məgər iman gətirməmisən?! (İbrahim) ərz etdi: “(İman gətirmişəm,) amma qəlbimin aram olması üçün.” (Allah-təala) Buyurdu: “Dörd quş (rəvayətə görə tovuz, xoruz, göyərçin və qarğa) tut və onları öz yanında yığıb tikə-tikə et, (bir-birinə qarışdır.) Sonra hər dağın başına ondan bir parça qoy. Sonra quşları çağır, sürətlə sənə doğru gəlsinlər. Bil ki, Allah hikmət sahibi, bacarandır.”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbərdən (s) sonra tarixin yeganə böyük şəxsiyyəti həzrət Əli (ə) buyurmuşdur: “Əgər pərdələr çəkilsə, mənim yəqinimə əlavə olunmaz.”[1] Amma başqa insanlar öz eşitdiklərini, hətta inandıqlarını da gözlə müşahidə etmək istəyirlər. Hamı şəkərin çuğundurdan hazırlandığını bilsə də, bu prosesin necə getdiyini bilmək istəyir.

◘Təfsirlərdə nəql olunmuşdur: Həzrət İbrahim bir dənizin kənarından keçirdi. Sahildə bir leş gördü. Onun yarısı suda, yarısı quruda idi. Quruda qalan hissəni quşlar, suda qalan hissəni dəniz heyvanları didişdirirdi. Həzrət öz-özünə dedi: “Əgər bu iş insanın başına gəlsə və insanın bədən zərrələri heyvanlar arasında bölüşdürülsə, qiyamət günü bu zərrələr bir yerə necə toplana bilər? Ona görə də Allahdan istədi ki, ölüləri necə diriltdiyini ona göstərsin. Allah da İbrahimin bu istəyini yerinə yetirib onu yəqin və əminlik nuruna qərq etdi.

## *Bildirişlər*

1. Ölüləri diriltmək Allahın rübubiyyət şənindəndir.
2. Bir şeyi dərindən öyrənmək üçün hiss üzvlərindən istifadə zəruridir.
3. Həqiqətlərin kəşfi və onlara şahidlik elm, iman, dəlil mərtəbələrini adlamış kəslər üçündür. Hər kəsin yox, İbrahimin “göstər” (“ərini”) istəyinə cavab verilir.

---

[1] “Ğurərul-hikəm”, “Təfsiri-ruhul-bəyan”, c. 1, s. 410.

4. İman və yəqinliyimizi dərinləşdirib əminlik həddinə çatmaq fikrində olaq. Araşdırma və maraq özü bir dəyərdir.
5. İmanın mərhələləri və dərəcələri var.
6. Qəlb aramlıq mərkəzidir.
7. İlahi övliyaların “təkvini vilayət” adlanan varlığa təsir gücü var.
8. Məad cismanidir. Qiyamətdə ruh bədənin həmin zərrələrinə qayıdasıdır.

261. ﴿مَّثَلُ الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللّهِ كَمَثَلِ حَبَّةٍ أَنبَتَتْ سَبْعَ سَنَابِلَ فِي كُلِّ سُنبُلَةٍ مِّئَةُ حَبَّةٍ وَاللّهُ يُضَاعِفُ لِمَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**“Öz malını Allah yolunda infaq edənlər yeddi sünbül cücərdən toxuma bənzər. Hər sünbüldə yüz dən olar. Allah onu istədiyi kəs üçün ikiqat və ya neçə qat edər. Allah (qüdrət və rəhmət baxımından) genişdir və biləndir.”**

## *Nöqtələr*

◘Təbəqələr arası ixtilafların aradan qaldırılması üçün ən yaxşı yol infaqın tapşırılması və israfın qadağan olunmasıdır. Sələmin ortaya çıxması və genişlənməsi də təbəqələr arası fərqlərin ortaya çıxması zəminəsidir. Ona görə də Quranda infaqın zəruriliyi və sələmin qadağası bəyan olunmuş ayələrlə yanaşı gəlmişdir.[1]

◘Hər toxum hər torpaqda hər biri yüz dənə malik yeddi sünbül vermir. Bundan ötrü toxum sağlam, torpaq münbit, zaman münasib və kamil xidmət olmalıdır. Eləcə də, halal malın infaqı Allaha yaxınlıq məqsədi daşıdıqda və minnətsiz, yaxşı şəkildə verildikdə bütün əsərlərə malik olasıdır.

## *Bildirişlər*

1. İnfaqın mükafatı təkcə axirətə aid deyil. İnfaq insanın öz vücudunun təkamül səbəbidir.
2. Quran o insanlar haqqında xoş sözlər deyir ki, infaq etmək onların daimi xisləti olsun. “Felin gələcək zamanı forması davamı bildirir.
3. İnfaq o zaman dəyərli olur ki, Allah yolunda olsun. İslamda iqtisadiyyat əxlaqdan ayrı deyil.
4. Təbii misallardan istifadə hər zaman aktualdır. Bütün xalq, istənilən yaşda və şəraitdə təbii misalları dərk edir. Malın toxuma, infaqın səmərəsinin buğda sünbülünün səmərəsinə bənzədilməsi bu qəbildəndir.
5. Təşviq və mükafat vədi hərəkət üçün güclü amildir. Söhbət yeddiyüzqat artıq mükafatdan gedir.
6. Allahın lütfünün məhdudiyyəti yoxdur.
7. Əgər malın infaqının yeddiyüzqat artıq səmərəsi varsa, Allah yolunda canını infaq edənlərin mükafatını özünüz təsəvvür edin.

262. ﴿الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللّهِ ثُمَّ لاَ يُتْبِعُونَ مَا أَنفَقُواُ مَنًّا وَلاَ أَذًى لَّهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Öz malını Allah yolunda infaq edən, sonra infaq etdiyi şeyə görə minnət qoymayan və əziyyət verməyənlərin mükafatı onlar üçün Allahın yanında saxlanılır. Nə qorxuları var, nə də qəmgin olarlar.”**

---
[1] “Təfsiri-Əl-Mizan” c. 2, s. 406.

## *Nöqtələr*

◘İnfaq əmrində İslamın məqsədi yalnız fəqirlərin qarnını doyurmaq deyil. Bu gözəl iş ləyaqətli insanların əli ilə və bəyənilmiş şəkildə, müsbət hədəflərlə yerinə yetirilməlidir.

◘Bəzən insan Allaha doğru addım atıb işə yaxşılıqla başlayır. Amma qürur, minnət, gözləmə və bu kimi xislətlər səbəbindən infaqın dəyəri puça çıxır. Minnət qoymaq infaqı təsirdən salır. Çünki infaqda məqsəd ruhu xəsislikdən paka çıxarmaqdır. Amma ruh minnət səbəbindən bulaşmış olur. Minnət qoyan kəs ya özünü böyütmək, ya da infaq etdiyi şəxsi alçaltmaq fikrindədir. Bu işdə məqsəd xalqın diqqətinin cəlb edilməsi də ola bilər. Bütün hallarda minnət qoyulması ixlasdan uzaqdır. Allah bir bu qədər nemətə görə bizə nə minnət qoyub ki, biz də Onun verdiyindən bir qismini bağışladığımız üçün minnət qoyaq?! "Məcməül-bəyanda" nəql olunmuş rəvayətdə həzrət Peyğəmbər (s) buyurmuşdur: "Allah minnət qoyanlara qiyamətdə lətif nəzər salmaz."

## *Bildirişlər*

1. Yaxşılığa başlamaq kafi deyil. Yaxşı işi başa çatdırmaq şərtdir.
2. İslam məhrumların və fəqirlərin şəxsiyyətini hifz edir. Onların şəxsiyyətinin minnət qoymaqla alçaldılması yaxşı əməli batil edir.
3. İnsanın əməlləri bir-birinə təsir edir. Yəni bir əməl o biri əməli puça çıxara bilər. İnfaq fəqirliyə əlac üçündür. Amma minnət qoyulması infaqı fəqirlər üçün dərdə çevirir.
4. Allah infaq edənlərin gələcəyinə zamindir.
5. Bir şəxs minnət və əziyyətsiz - yalnız Allah razılığı üçün - infaq edərsə, ilahi aramlıqdan bəhrələnər.

263. ﴿قَوْلٌ مَّعْرُوفٌ وَمَغْفِرَةٌ خَيْرٌ مِّن صَدَقَةٍ يَتْبَعُهَآ أَذًى وَاللَّهُ غَنِيٌّ حَلِيمٌ﴾

**"(Ehtiyaclılarla) xoş danışıq və onları bağışlamaq əziyyətlə müşayiət olunan bəxşişdən üstündür. Allah ehtiyacsız, həlimdir."**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əgər yanınıza bir sail (dilənçi) gəlsə, iki yoldan birinə əməl edin: Ya gücünüz çatan şeyi ətа edin, ya onu bəyənilmiş şəkildə yola salın."[1]

Başqa bir yerdə həzrət (s) buyurur: "Əgər xalqa malla əl tuta bilmirsinizsə, əxlaqınıza xidmət edin."[2]

## *Bildirişlər*

1. Fəqirin abır və şəxsiyyəti onun qarnını doyurmaqdan üstündür.
2. Fəqiri məhəbbət və canıyananlıqla, onun dolanışığını təmin edəcək işə yönəldin.[3]
3. İnfaq əxlaqla yanaşı olmalıdır.
4. Fəqirlə xoş danışıq onun üçün təskinlik və inkişaf amilidir. Halbuki minnətlə verilən sədəqədə bu xüsusiyyətlərin heç biri yoxdur.
5. Əgər fəqir çətinliyə düşdüyü üçün pis danışsa onu bağışlayın.
6. Cəmiyyətdəki ürfə (ənnəyə) riayət həm söz, həm də əməldə zəruridir.
7. Allah fəqirə dəyən zərərə cavab verir. Amma dərhal yox!

---

[1] "Təfsiri-Qurtubi", "Təfsiri-nümunə".
[2] "Təfsiri-kaşif", c. 1, s. 272.
[3] "Təfsiri-Qurtubi".

264. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُبْطِلُواْ صَدَقَاتِكُم بِالْمَنِّ وَالأذَى كَالَّذِي يُنفِقُ مَالَهُ رِئَاء النَّاسِ وَلاَ يُؤْمِنُ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ فَمَثَلُهُ كَمَثَلِ صَفْوَانٍ عَلَيْهِ تُرَابٌ فَأَصَابَهُ وَابِلٌ فَتَرَكَهُ صَلْدًا لاَّ يَقْدِرُونَ عَلَى شَيْءٍ مِّمَّا كَسَبُواْ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ﴾

**“Ey iman gətirənlər! Öz hədiyyələrinizi minnət və əziyyətlə batil etməyin. O şəxs kimi ki, özünü xalqa göstərmək üçün malını infaq edir, Allah və qiyamət gününə inanmır. Bu şəxs saf daş parçası kimidir. Onun üzərində torpaq olsa, şiddətli yağış yağdıqda bu daşı çılpaq qoyar. (Riyakarlar da) əldə etdiklərindən heç bir bəhrə görməzlər. Allah kafir qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Bu ayədə də təşbehlər işlədilmişdir. Ayədə riya və özünü göstərmək məqsədi ilə infaq edənlərin batini açıqlanır. Onların əməlinin zahiri torpaq kimi yumşaq, batini isə daş kimi bərkdir və nüfuz qabiliyyəti yoxdur. Bu zümrə qəlb daşlığı səbəbindən öz infaqından bəhrələnməz.

## *Bildirişlər*

1. Fəqirlərə minnət qoymaq və onları incitmək infaq və sədəqənin mükafatını puça çıxarır.
2. Riya Allah və qiyamət gününə gerçək imanın olmadığını göstərir.
3. İnfaq yox, onun səbəbi və infaq edənin ruhiyyəsi mühümdür.
4. Minnət qoyan, riyakar və kafir insanın əməlləri puçdur. “Fəməsəluhu” (Onun misalı) sözü hər üç zümrəyə tətbiq edilə bilər.
5. Riyakar nəhayətdə rüsvay olur. Hadisələr həqiqətləri üzə çıxarır.
6. Riyakar nəinki axirət mükafatından məhrumdur, hətta ruhi inkişafını da əldən vermişdir.
7. Minnət qoyan və riyakar şəxs küfr dairəsindədir və hədələrə məruz qalır.

265. ﴿وَمَثَلُ الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَتَثْبِيتًا مِّنْ أَنفُسِهِمْ كَمَثَلِ جَنَّةٍ بِرَبْوَةٍ أَصَابَهَا وَابِلٌ فَآتَتْ أُكُلَهَا ضِعْفَيْنِ فَإِن لَّمْ يُصِبْهَا وَابِلٌ فَطَلٌّ وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Mallarını Allahın razılığı və öz ruhlarının möhkəmliyi yolunda infaq edənlər uca bir nöqtədə olan (saf havadan qədərincə bəhrələnən), gur yağışların suvardığı, iki qat artıq meyvə verən bağa bənzərlər. Əgər yağış gur yağmasa, sısqa yağar, şəbnəm olar (bağ daim təravətli qalar.) Allah etdiyiniz işləri görəndir.”**

## *Bildirişlər*

1. Əgər məqsəd Allahın razılığını qazanmaq ruhən və inkişaf etmək olsa, işlər bəhrəli olar.
2. İxlas (xalislik) asan yolla əldə olunmur. Onun sorağınca getmək lazımdır.
3. Xalisanə işlər uca bir nöqtədə yerləşən, sel təhlükəsindən amanda qalan bağ kimidir.
4. Məqsəd Allah olsa belə, cilvə və camallardan da məhrum qalmırıq. Cəmiyyətdə xalis insanlar riyakar insanlardan daha çox sevilir. Xalisanə infaq münbit torpaqda salınmış əkin kimidir. Bütün xalq onu görür və ləzzət alır.
5. Əsas məsələ imkan deyil, imkanlardan düzgün bəhrələnməkdir. Yağışın sısqa və ya gur yağması mühüm deyil. Mühüm odur ki, torpaq onu uda bilsin.

266. ﴿أَيَوَدُّ أَحَدُكُمْ أَن تَكُونَ لَهُ جَنَّةٌ مِّن نَّخِيلٍ وَأَعْنَابٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ لَهُ فِيهَا مِن كُلِّ الثَّمَرَاتِ وَأَصَابَهُ الْكِبَرُ وَلَهُ ذُرِّيَّةٌ ضُعَفَاء فَأَصَابَهَا إِعْصَارٌ فِيهِ نَارٌ فَاحْتَرَقَتْ كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمُ الآيَاتِ لَعَلَّكُمْ تَتَفَكَّرُونَ﴾

**“Sizlərdən xurma və üzüm ağacları olan, ağacları altından çaylar axan, sahibi üçün hər növ meyvəsi olan bir bağ istəyən varmı? Bir halda ki, pir yaşına çatmış, övladları zəifdir. Həmin vaxt oraya od-alovlu bir tufan üz tutsun və bağı büsbütün yandırsın. Allah Öz ayələrini sizin üçün bu sayaq aydınlaşdırır ki, bəlkə düşünəsiniz.**

## *Nöqtələr*

◘İnsan yaşa dolduğu vaxt onun nəsil vermə qabiliyyəti itir. Amma ehtiyacı və xərcləri artır. Bu vaxt onun qazanc yeri məhv olsa, əziyyətə düşər. Qiyamət günü insanın bir tərəfdən saleh əməl gücü yoxdur. Digər tərəfdən ehtiyacları böyükdür. Həmin vaxt onun saleh əməlləri minnət qoymaq və riyakarlıq vasitəsi ilə məhv olsa, hansı zillətə düçar olar?!

◘Xurma və üzüm ən faydalı meyvələrdəndir. Quranda bu meyvələrin adı bir neçə dəfə çəkilmişdir.

◘Hər kəs “la ilahə illəllah” desə, bu əməlinə görə behiştdə onun üçün bir ağac əkilər. “Allahu əkbər” deyənlər üçün də belə olar. Bir şəxs peyğəmbərdən (s) soruşdu ki, demək, bizim behiştdə ağaclarımız çoxdur?” Həzrət buyurdu: “Bəli, bir şərtlə ki, onların ardınca atəş göndərib oda çəkməyəsiniz.”[1]

## *Bildirişlər*

1. Məsələni yaxşı dərk etmək üçün özünü başqalarının yerində təsəvvür et.
2. Zaman və məkanın, əsl və nəslin təsirinə məruz qalmayan təbii misallardan istifadə edək.
3. İnfaq etdikdən sonra minnət qoyub əziyyət vermək yaşıl bir bağı oda çəkmək kimidir.
4. Təkamül tədricidir. Bir şeyi oda çəkib məhv etmək isə bir anda baş verir.
5. Qurandakı misallar düşünmək üçündür.

267. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَنفِقُواْ مِن طَيِّبَاتِ مَا كَسَبْتُمْ وَمِمَّا أَخْرَجْنَا لَكُم مِّنَ الأَرْضِ وَلاَ تَيَمَّمُواْ الْخَبِيثَ مِنْهُ تُنفِقُونَ وَلَسْتُم بِآخِذِيهِ إِلاَّ أَن تُغْمِضُواْ فِيهِ وَاعْلَمُواْ أَنَّ اللّهَ غَنِيٌّ حَمِيدٌ﴾

**“Ey iman gətirənlər! Əldə etdiyiniz pak şeylərdən və Bizim sizin üçün torpaqdan cücərtdiklərimizdən infaq edin. İnfaq üçün pak olmayan şeylərin sorağınca getməyin. Axı siz özünüz də həmin şeyləri qəbul etməyə hazır deyilsiniz - yalnız çarəsizlikdən və ikrahla qəbul edərsiniz. Bilin ki, Allah ehtiyacsız və həmd olunmuşdur.”**

## *Nöqtələr*

◘Əvvəlki ayələr infaq edən üçün şərtləri sadaladı. Bu ayədə isə məhrumlara infaq edilən şeylərin şərtləri bəhs olunur.

◘İmam Baqir (ə) bu ayə ilə bağlı buyurmuşdur: “Bəzi müsəlmanlar sələm kimi haram qazanclarını fəqirlərə sərf edirdilər. Bu ayə uyğun işi qadağan etdi.”[2]

---

[1] “Bihar”, c. 8, s. 186.
[2] “Təfsiri-Bürhan”, c. 1, s. 255; “Təfsiri-rahnüma”.

## *Bildirişlər*

1. İnfaq etməkdə məqsəd insanın xoşu gəlməyən və dəyərsiz şeyləri özündən uzaqlaşdırması yox, xəsislikdən qurtuluşdur.
2. İnfaqda nağd pulla əşya arasında fərq yoxdur.
3. Çox şey şey bağışlamaq mühüm deyil. Mühüm odur ki, alın təri ilə qazanılmışlardan bağışlana.
4. İnfaq edərkən məhrumların kəraməti, şəxsiyyəti qorunmalıdır.
5. Nəinki alçaq və çirkin şeylərdən bağışlamaq olmaz, hətta bu barədə düşünmək də pisdir.
6. Yaxşı-pisi tanımaq üçün ən üstün meyar insanın vicdanıdır. Sənə bağışlanılmasını istədiyin şeylərdən bağışla. Sevmədiyin şeyi bağışlamaq da yaxşı deyil.
7. Hər bir varlı insan fəqirliyə düşəcəyini ehtimal etsin. Bu gün sizə verən əl sabah alan əl ola bilər.
8. Xoşa gəlməyən bir şeyin qəbul edilməsi fəqirlərin razılıq yox, çarəsizlik nişanəsidir. Siz də çarəsiz qalıb nəyisə qəbul edə bilərsiniz. Amma bu, sizin razılığınızın göstəricisi deyil.
9. İnfaqın faydası özünüzə qayıdır. Allah isə varlı və ehtiyacsızdır.
10. Allahın varlılığı kamillik və məhbubiyyətlə müşayiət olunur.

268. ﴿الشَّيْطَانُ يَعِدُكُمُ الْفَقْرَ وَيَأْمُرُكُم بِالْفَحْشَاء وَاللّهُ يَعِدُكُم مَّغْفِرَةً مِّنْهُ وَفَضْلاً وَاللّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**“Şeytan (infaq zamanı) sizi fəqirlik və yoxsulluqla qorxudaraq çirkin işlərə çağırır. Allah isə Öz tərəfindən sizə bağışlanma və rifah vədi verir. Allah vüsətbəxş və biləndir.”**

## *Nöqtələr*

◘İnfaq zamanı şeytan insanın sorağına gəlir və təlqin edir ki, bu gün infaq etsən, sabah özün fəqir olacaqsan. İnsana təlqin olunur ki, bu gün infaq etməyib toplasın, qocalıq və xəstəlik zamanı özünə xərcləsin - bütün bunlar şeytani təlqinlər və vədlərdir.

◘Qiyamət günü ilahi mərhəmətə olan ehtiyacımız bu mərhəmətə dünyadakı ehtiyacımızdan qat-qat artıqdır. Nəbadə dünya həyatındakı rifah fikri ilə Allahın mərhəmətini əldən verək. Çünki:

Əvvəla, insan qocalıb ehtiyaclı olmaya da bilər, amma qiyamətdəki ehtiyac qətidir.

İkincisi, bu gün sabah üçün topladığınız mal əldən çıxa da bilər. Amma bu günkü infaq qiyamət günü üçün qorunasıdır.

Üçüncü, bu gün topladığımız maldan qocalıq vaxtı faydalanmaya da bilərik. Amma bu günkü infaqdan qiyamət günü hökmən səmərə götürəsiyik.

Dördüncüsü, insanın topladığı maldan qocalıq zamanı istifadəsi müvəqqətidir. Amma qiyamətdə infaqdan bəhrələnmə insan üçün əbədidir.[1]

## *Bildirişlər*

1. Şeytan insanı sevdiyi şeyləri infaq etməkdən çəkindirir.
2. Sizin xəsisliyiniz fəqirləri günaha və çirkin işlərə sövq edir.
3. İnsan Allah və ya şeytan yolunu seçməkdə azaddır.
4. İnsanı infaqdan çəkindirən və gələcəkdəki ehtiyaclarla qorxudan, eləcə də günaha həvəsləndirən ətrafdakılar şeytandırlar.
5. Fəqirlik və günah arasında əlaqə var. Bir çox günahların səbəbi fəqirlik qorxusudur.
6. İnfaq edilməməsi və ya xoşagəlməz şeylərin infaq edilməsi çirkinlik və günah nümunələrindəndir.
7. İnfaq malı artırar və günahların bağışlanmasına səbəb olar.

---
[1] “Təfsiri-Fəxr-Razi”.

8. İnfaqın maneələri və şeytani düşüncələrlə mübarizə aparın. Fəqirlik qorxusu zamanı Allahın fəzl və lütfünü yada salın.

9. Sizi dar baxışlılıq, qorxu və mənfi təsirlərə məruz qoyan düşüncələr və xəyallar şeytanidir. Sizi hərəkətə gətirən, yaxşı işlərə həvəsləndirən düşüncələr isə ilahidir.

269. ﴿يُؤتِي الْحِكْمَةَ مَن يَشَاء وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْرًا كَثِيرًا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الأَلْبَابِ﴾

**“(Allah hikmət və bəsirəti istədiyi kəsə verər. Kimə hikmət verilmişdirsə, həqiqətən, ona çoxlu xeyir verilmişdir. Düşüncə sahiblərindən savay kimsə (bu nöqtəni) dərk etməz.”**

## *Nöqtələr*

◘“Əlbab” sözü beyin mənasını verən “lubb” sözünün cəm formasıdır. Heç də bütün insanlar “ulul-əlbab” - düşüncə sahibi sayılmır. Yalnız ağlını işə salanlar, həqiqi səadət yolunu tapanlar düşüncə sahibi adlanır.

◘Hikmət dedikdə mərifət, sirlərin tanınması, həqiqətlərdən xəbərdarlıq, həqiqətə çatmaq nəzərdə tutulmuşdur. Allah bəzi insanlara onların paklığı, təqvası və təlaşına görə hikmət əta edər. Onlar bu hikmət vasitəsi ilə şeytani vəsvəsələri ilahi ilhamlardan seçər, quyunu yoldan, şüarı şüurdan fərqləndirərlər. Bu, böyük bir xeyirdir.

◘Rəvayətdə oxuyuruq: Hikmət mərifət və dində “təfəqqöh”, dərrakədir. Hikmət Allaha itaət, imamları tanımaq və kəbirə günahlardan çəkinməkdir.[1]

## *Bildirişlər*

1. Var-dövlət xeyir olsa da, daha böyük və çox xeyir bəsirət və fərqləndirmə gücüdür. Bu xeyirdən infaq edənlər böyük xeyirə çatar.

2. Şeytan fəqirlik, Allah isə bağışlanma və fəzl vəd edir. Amma bu iki yoldan hər birini tanımaq və seçmək üçün hikmət lazımdır.

3. Dünya bütün var-dövləti ilə cüzidir.[2] Hikmət isə böyük xeyirdir. Əgər hikmətə və bəsirətə çatmaq üçün bütün maddi imkanlar fəda olunsa, buna dəyər.

4. Hikmət ən böyük hədiyyə və bütün xeyirlərin anasıdır. Hikmətə çatan bir çox şeylərə çatacaq.

5. Dünyapərəstlər var-dövlətə, maddi hesablara arxalanırlar. Onlar xeyir-zərəri maddi baxımdan ölçürlər. Amma aqil uzaq görənlər və düşüncəli yol tanıyanların hesabı başqa baxımdandır.

270. ﴿وَمَا أَنفَقْتُم مِّن نَّفَقَةٍ أَوْ نَذَرْتُم مِّن نَّذْرٍ فَإِنَّ اللّهَ يَعْلَمُهُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ﴾

**“İnfaq etdiyiniz hər bir malı və ya nəzir etdiyiniz hər bir şeyi Allah hökmən bilir. Zalımlar üçün heç bir yardımçı yoxdur.”**

## *Bildirişlər*

1. Bir halda ki, Allah bizim infaqımızdan xəbərdardır, onda ən yaxşı mallarımızı ən uca məqsədlər yolunda xərcləyək.

2. İnfaq varlılara və çox mala aid deyil. Az malı da infaq etmək olar. Bəzən saralmış bir yarpaq neçə-neçə qarışqa üçün su üstündə gəmi olur.

3. İnfaq, əl tutma, nəzir üçün ən üstün təşviq Allahın xəbərdar olduğuna inanmaqdır.

[1] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 287.

[2] Bax: Nisa”, 77.

4. Təşviq və xəbərdarlıq hər ikisi inkişaf amilidir.
5. Nəzirə vəfa etmək vacib, onun tərki isə zülmdür.
6. Özünə zülm etməyin tövbə yolu və kəffarəsi var. İnfaqı tərk etmək səbəbindən məhrumlara edilən zülmdə isə kimsəyə yardımçı yoxdur.
7. Xəsis adamlar şəfaətə çatmaz. [1]
8. Əgər xəsisliyin səbəbi mal və xalq olarsa, bilin ki, Allahın qəzəbi gəldikdə nə malın, nə də xalqın faydası olmur.
9. Cərimə günaha uyğun olmalıdır. Dünyada infaqla kimsəyə əl tutmayana axirətdə kimsə əl tutası deyil.

271. ﴿إِن تُبْدُواْ الصَّدَقَاتِ فَنِعِمَّا هِيَ وَإِن تُخْفُوهَا وَتُؤْتُوهَا الْفُقَرَاء فَهُوَ خَيْرٌ لُّكُمْ وَيُكَفِّرُ عَنكُم مِّن سَيِّئَاتِكُمْ وَاللّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾

**“Əgər sədəqəni aşkar versəniz, bu yaxşı işdir. Amma əgər onu məxfi şəkildə ehtiyaclılara çatdırsanız, bu sizin üçün daha yaxşıdır və günahlarınızın bir hissəsi bağışlanar. Allah etdiyiniz işlərdən agahdır.”**

## *Nöqtələr*

◘İmam Baqir (ə) bu ayə ilə bağlı buyurmuşdur: “Vacib zəkatı aşkar, amma müstəhəb zəkatı isə məxfi şəkildə verin.”[2] Vacib zəkatın aşkar verilməsi səbəbi onun ümumi vəzifə olması və riyadan uzaqlığı ola bilər. Ayə maddi yardımlar haqqında olsa da, İslam terminologiyasında bütün xeyir işlərə “sədəqə” deyilmişdir. Müsəlmanların yolu üstündən daşı götürmək də sədəqədir. Bu səbəbdən də məhrumlara elm, hörmət və vasitəçilik yolu ilə göstərilən yardımlar da sədəqə adlandırılmışdır.

## *Bildirişlər*

1. Aşkar edilən infaq başqalarını bu işə həvəsləndirir, xəsisliklə bağlı böhtanları aradan qaldırır, bir növ infaqı əməli şəkildə təbliğ edir.
2. Fəqirə yardım göstərmək üçün onun müsəlman olması şərt deyil.
3. Sədəqə və zəkata xeyli pul xərclənsə də, ayədə fəqirlərin adının çəkilməsi onların bu işdə öndə gəlməsi nişanəsidir.
4. Fəqirlər sizin sorağınıza yox, siz fəqirlərin sorağına getməlisiniz.
5. Gizli edilən infaq riya və özünü göstərmədən uzaqdır, ixlasa daha yaxındır. Gizli infaq onu alanın abrını qoruyur.
6. İnsanda faydalanma və xeyirxahlıq meyli var. Əməldə isə bəzən şər ardınca gedilməsi ilə rastlaşırıq. Ona görə də ilahi peyğəmbərlər xeyirin nümunələrini bəşəriyyətə açıqlamışlar.
7. Fəqirlərə yardım kiçik günahların bir hissəsinin bağışlanması səbəbidir. ”Səyyiat” sözü kəbirə günahlar müqabilində işlədilmişdir və kiçik günahları bildirir.[3]
8. Mühüm olan Allahın elmidir. Xalqın məlumat və biliyi mühüm deyil.

272. ﴿لَّيْسَ عَلَيْكَ هُدَاهُمْ وَلَكِنَّ اللّهَ يَهْدِي مَن يَشَاء وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ فَلأنفُسِكُمْ وَمَا تُنفِقُونَ إِلاَّ ابْتِغَاء وَجْهِ اللّهِ وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ يُوَفَّ إِلَيْكُمْ وَأَنتُمْ لاَ تُظْلَمُونَ﴾

---

[1] Bax: “Muddəssir”, 48.
[2] “Təfsiri-Nurus-səqəleyn”, c. 1, s. 289.
[3] Bax: “Nisa”, 31.

**“İnsanların hidayəti sənin öhdənə deyil. Allah istədiyini hidayət edir. Yaxşılıqlardan infaq etdiyiniz öz xeyirinizədir. Allahın razılığından başqa şey üçün infaq etməyin. Yaxşı infaqlarınızın əvəzi tam şəkildə sizə veriləcəkdir. Sizə zülm edilməyəcək.”**

## *Nöqtələr*

◘“Məcməul-bəyan” təfsirində və Fəxr Razinin təfsirində bu ayələrin nüzul şəni haqqında qeyd olunur ki, müsəlmanlar müşrik və qeyri-müsəlman fəqirə infaq barədə şəkkə düşdükləri vaxt bu ayə nazil oldu.

Həzrət Peyğəmbər (s) və Əhli-beytin (ə) həyat yolunda qeyri-müsəlmanlara infaq nümunələri ilə rastlaşırıq. Hətta bu ilahi şəxsləri təhqir edənlər və ya onların haqqını qəsb edənlər də onlar tərəfindən xeyirxahlıq görmüşlər.

## *Bildirişlər*

1. Kafirlərin iman gətirməsi üçün iqtisadi təzyiqlərdən və infaqın tərk olunmasından istifadə etməyin.
2. Hidayət yalnız hazırlıqlı qəlblərə şamil olan ilahi tövfiqdir.
3. Məhrumların halına yanmaq insanlıq vəzifəsidir. Bu səbəbdən də qeyri-müsəlmanlar infaqdan məhrum edilməməlidir.
4. İslam insansevər bir məktəbdir. Bu din hətta qeyri-müsəlmanlara münasibətdə də fəqirliyi və məhrumluğu bəyənmir.
5. Etdiyiniz infaqın faydası özünüzə qayıdar. Bu iş sizdəki səxavət ruhunu dirçəldər. İnfaq vasitəsi ilə təbəqələrarası ixtilaf və ictimai partlayışların qarşısını alın. Bu yolla cəmiyyətdə məhəbbət yaranar. İnfaq sizin malınızı azaltmır, əksinə sizin paklığınıza səbəb olur.
6. Yalnız Allahın razılığı üçün infaq edin. Çünki bu dünyaya aid olan bütün faydalar bir gün aradan gedəcək, Allah razılığı üçün görülən işlər isə daim bəhrəli qalacaqdır.
7. Var-dövlətdə xeyir var.
8. İnfaq edərkən əliniz və qəlbiniz açıq olsun. Çünki infaq etdiklərinizi son zərrəsinədək geri alacaqsınız.
9. Qiyamətdə o insanlar faydalanır ki, məqsədləri yalnız Allahın razılığı olmuşdur.

273. ﴿لِلْفُقَرَاء الَّذِينَ أُحصِرُواْ فِي سَبِيلِ اللّهِ لاَ يَسْتَطِيعُونَ ضَرْبًا فِي الأَرْضِ يَحْسَبُهُمُ الْجَاهِلُ أَغْنِيَاء مِنَ
التَّعَفُّفِ تَعْرِفُهُم بِسِيمَاهُمْ لاَ يَسْأَلُونَ النَّاسَ إِلْحَافًا وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ﴾

**“(İnfaq, sədəqə) Allah yolunda məhrumiyyətə düşmüş ehtiyaclılar üçündür. Onların yer üzündə hərəkət və səfər gücü yoxdur. İffətli və abırlı olduqlarından məlumatsız şəxs onları varlı sayır. Sən isə onları simalarından tanıyarsan - onlar heç vaxt xalqdan israrla bir şey istəmirlər. Bütün xeyir şeylərdən bu fərdlərə infaq edin. Şübhəsiz, Allah ondan agahdır.”**

## *Nöqtələr*

◘Bir çox təfsirlərdə, eləcə də, Fəxr Razinin təfsirində, “Məcməul-bəyan”da, Qurtubinin təfsirində nəql olunur ki, bu ayə Siffə əshabı haqqında nazil olmuşdur. Siffə əshabı təqribən dörd yüz nəfər idi və Məkkədən Mədinəyə hicrət etmişdi. Onların Mədinədə evi, daldalanacağı olmadığından peyğəmbər məscidinin kənarında “siffə” (böyük səki) üstündə yaşayırdılar. Onlar daim cihada hazırlıqlarını bildirirdilər.

## *Bildirişlər*

1. Varlıların var-dövlətində fəqirlərin haqqı var.

2. Mücahidlərə, tağutla mübarizədə siyasi fəaliyyətlərinə xatir həbsə düşənlərə, sığınacaqsız mühacirlərə, Allah yolunda məhrumiyyətə düçar olan bütün insanlara və öz maddi ehtiyacını təmin etmək üçün çalışmaq fürsətindən məhrum edilənlərə diqqət yetirilməlidir.

3. Mühacirət və müsafirət etməklə başqa bir məntəqədə yaşayıb maddi ehtiyacını təmin edə bilənlər infaq intizarında olmamalıdır.

4. İffətli, pak, abırlı fəqirlər Allah tərəfindən xoş sözlərlə yad edilir.

5. Tanınmayan və möhtərəm fəqirlər öndə gəlir.

6. Sizin üçün zərurət yaransa da, yenə kimdənsə israrla tələb etməyin. Təkid bəyənilməmiş sifətdir.

7. İnsafdan deyil ki, bir dəstə insan bütün varlığını fəda edib mühasirədə qalsın, digər bir qrup onlara da infaq etməsin.[1]

274. ﴿الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Öz mallarını gecə və gündüz, gizlində və aşkarda infaq edənlərin mükafatı Allahın yanındadır. Onlar üçün nə bir qorxu var, nə də qəmgin olarlar.”**

## *Nöqtələr*

◘“Təfsiri-Safi”, “Təfsiri-Məcməul-bəyan”, “Təfsiri-Qurtubi”, “Təfsiri-Fəxr-Razi”də nəql olunur ki, bu ayə Əli (ə) haqqında nazil olmuşdur. Həzrət əlində olan dörd dirhəmin birini gündüz, birini gecə, üçüncüsünü məxfi, dördüncüsünü aşkar surətdə Allah yolunda infaq etmişdir.

Əlbəttə ki, ayədəki vəd belə hərəkət edən bütün insanlara şamildir. Belələri fəqirlik və yoxsulluqdan qorxmurlar. Çünki onlar Allahın vədinə iman gətirmiş, Ona təvəkkül etmişlər. Onlar Allahın razılığına və infaqın axirət təsirlərinə diqqətli olduqlarından infaq edərkən qəmlənməzlər.

◘Ayədə gecə infaqın gündüz infaqdan, gizli infaqın aşkar infaqdan öndə gəlməsinin səbəbi bu ola bilər ki, gecə yarı gizli edilən infaqın dəyəri daha böyükdür.[2]

◘Bu ayə əvvəlki on dörd ayənin yekunu kimi infaqdan danışır. Bu mövzuya Quranın heç bir yerində bu qədər əhatəli yanaşılmamışdır. İnfaqın müsbət təsirləri kimsəyə gizli deyil. Sərvətlərin tarazlaşması, təbəqə ixtilaflarının azalması, cəmiyyətdə məhəbbət yaranması, səxavət ruhunun çiçəklənməsi, ən üstünü isə Allahla yaxınlıq infaqın misilsiz səmərələrindəndir.

◘İnfaq təkcə var-dövlətə yox, həm də elm və hörmətə aiddir. İnfaq sözünün lüğətdə mənası “çökəyin doldurulması”, terminoloji mənası isə “iqtisadi boşluqların aradan qaldırılması”dır.

◘Bu nöqtəni xatırlamaq lazımdır ki, İslamın infaq məsələsinə diqqətində məqsədi dilənçiliyi genişləndirmək deyil. Bir çox rəvayətlərdə ehtiyacı olmadan əl açıb kömək istəmək məzəmmət olunmuşdur. Digər bir tərəfdən, infaqın ən üstün növü pul vermək əvəzinə insanı işlə təmin etməkdir.

## *Bildirişlər*

1. İnfaq və səxavət ruhiyyəsinə malik olmaq mühümdür. Söhbət təsadüfi infaqlardan getmir.

---

[1] Əllamə Təbatəbainin əxlaq ustadı Ayətullah Mirzə Əli Ağa Qazi ilə bağlı bir əhvalat nəql olunur. Nəcəfdə onun bir tərəvəz satandan təravətini itirmiş göyərti aldığını görüb soruşurlar ki, nə üçün belə şeylər alır? O belə cavab verir: “Bu dükançı fəqir bir şəxsdir. Ona kömək etmək istəyirəm. Amma istəmirəm ki, abrını itirsin və kimdənsə nəsə almağa vərdiş etsin...

[2] “Təfsiri-Məraği”.

2. İlahi mükafatın konkret bəyan olunması onun genişliyini göstərir.
3. İlahi vədlər yaxşı işlərdə insan üçün ən üstün təşviqedicidir.
4. Aramlıq və əmin-amanlıq infaqın bərəkətlərindəndir.

275. ﴿الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لاَ يَقُومُونَ إِلاَّ كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ مِنَ الْمَسِّ ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ إِنَّمَا الْبَيْعُ مِثْلُ الرِّبَا وَأَحَلَّ اللّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا فَمَن جَاءهُ مَوْعِظَةٌ مِّن رَّبِّهِ فَانتَهَى فَلَهُ مَا سَلَفَ وَأَمْرُهُ إِلَى اللّهِ وَمَنْ عَادَ فَأُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Sələm yeyənlər (qiyamətdə qəbirlərdən) şeytanla təmas təsirindən pərişan və divanə olmuş kəs kimi qalxarlar. (Tarazlıqlarını saxlaya bilməyib, gah yıxılar, gah da durarlar.) Bunun səbəbi odur ki, dedilər: “Alış-veriş də sələm kimidir.” “Hansı ki, Allah alış-verişi halal, sələmi isə haram etmişdir. Hər kəs Allahından ona çatan moizəni eşidib (sələm yeməkdən) çəkinsə, keçmişdəki (sələm yolu ilə əldə etdiyi) mal onundur. Onun işi Allahın ixtiyarındadır. Amma yenidən (sələm yeməyə) qayıdanlar od əhli olacaqlar. Və onda əbədi qalarlar.”**

## *Nöqtələr*

◘“Riba” sözünün lüğətdə mənası çoxluq, artım deməkdir. İslam şəriətində “riba” (sələm) borcda artıq almaqdır. Riba həm pul, həm də mal ola bilər. Bəzən pulu borc verir, veriləndən artıq alırlar. Bu, borcda olan ribadır. Bəzən bir mal verir, alanda isə həmin malı artıq alırlar. Bu da ribanın növlərindəndir.

◘Sələm yeyən (ribaxor) şeytan tərəfindən tarazlığı pozulmuş, yıxılıb-duran adama oxşadılır. Bu məna ayədə “xəbt” sözü ilə ifadə olunmuşdur. “Xəbt” hərəkət zamanı tarazlığın pozulması, yıxılıb-durmaqdır.

Sələmçi qiyamətdə divanələr kimi məşhur olar. Çünki o dünyada cəmiyyətdəki tarazlığın pozulmasına səbəb olmuşdur. Sərvətpərəstlik onun bəsirət gözünü kor etmiş və o öz əməli ilə təbəqələr arasında elə bir ixtilaf və kin yaratmışdır ki, bu fəqirlik və kin partlayışlara səbəb olmuş və mülkiyyət əsaslarını titrətmişdir. Bu zümrə üçün sələm kök, alış-veriş isə budaqdır. Ona görə də deyirlər: Alış-veriş də sələm kimidir və onlar arasında fərq yoxdur.

◘Sələmçilik, sələm almaq və sələm vermək ilkin İslam dövründən tənqid olunmuşdur. Məkkədə nazil olmuş “Rum” surəsində buyurulur: “O şeyi ki, sələm məqsədi ilə, xalqın malında sizin üçün artmağa görə verirsiniz, bilin ki, Allah yanında artmaz.”[1] “Ali-İmran” surəsində Allah sələmi qadağan etmiş və bu ayələrdə sələmçilik ən ciddi şəkildə tənqid olunmuşdur.[2] “Nisa” surəsində xatırladılır ki, yəhudi dinində də sələm haram olmuşdur.[3] Sələmin haramlığı Tövratda da zikr edilmişdir.[4]

◘Sələmlə bağlı ayələr infaq ayələrinin ardınca gəlmişdir. Bununla var-dövlət vasitəsi ilə ortaya çıxan xeyir və şər bəyan olunmuşdur. İnfaq əvəzsiz vermək, sələm isə əvəzsiz almaqdır. İnfaqın hər bir yaxşı səciyyəsi qarşısında sələmin cəmiyyətdə yaratdığı mənfi səciyyə dayanır.

---

[1] “Rum”, 39.
[2] “Ali-İmran”, 130.
[3] Bax: “Nisa”, 161.
[4] “Tövrat”, “Sifre-xüruc”, f. 23, c. 25; “Sifre-Laviyan”, f. 25.

Ona görə də Quran buyurur: “Allah sələmdən ələ gəlmiş sərvəti puç edir, amma sədəqəni artırır.”

◘Quranda sələm və zalım hakimiyyətin qəbulu müqabilində bəyan olunmuş hədələr qətl, zülm, spirtli içki, qumar və zina müqabilində vəd olunmamışdır.[1] Sələm bütün İslam firqələrində qəti şəkildə qadağan olunmuş və kəbirə günahlardan sayılmışdır. İmam Sadiqə (ə) bir şəxsin sələmçiliyi barədə xəbər verildikdə həzrət buyurdu: “Əgər imkanım olsaydı, boynunu vurardım.”[2] Həzrət Əli (ə) sələmçi ilə qarşılaşdıqda ondan tövbə qılmasını tələb etdi. Həmin şəxs tövbə etdikdən sonra həzrət onu rahat buraxdı və buyurdu: “Sələmçiyə öz işindən tövbə etdirilməlidir. Necə ki, şirkdən tövbə etdirilir.” İmam Baqirin (ə) belə buyurduğu nəql olunmuşdur: “Ən xəbis qazanc sələmçiliyin qazancıdır.”[3] Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allah bir məntəqəni həlak etmək istəsə, orada sələmçilik zahir olar.”[4] Allah sələmçiyə, bu işdə vəkilə, şahidə və katibə lənət buyurmuşdur.[5] Hədisdə oxuyuruq: Sələmçilər qiyamətdə divanələr tək məşhur olar.”[6]

◘İmam Sadiq (ə) sələm ayələrinin təkrarlanması kimi varlıların xeyir iş və sədəqəyə hazırlanmasını göstərir və buyurur: “Bir tərəfdən sələm haram olduğu üçün, digər tərəfdən istifadəsiz sərvət toplanması təkidlə haram edildiyinə görə sərvətlilərin infaq və ya faydalı istehsal işlərindən başqa çarələri qalmır.[7] Sələmin haram buyurulması haqqında deyilmişdir: “Sələmçilik pul kütləsinin istehsal sahəsində və ümumi faydalı işlərdə dövriyyəsinə mane olur. Əmək, düşüncə və zəhmət əvəzinə puldan bəhrə götürülür. Ona görə də sələm haram buyurulmuşdur.” İmam Sadiq (ə) buyurmuşdur: “Əgər sələm halal olsaydı, xalq iş-gücünü buraxardı.”[8] İmam Riza (ə) buyurmuşdur: “Əgər sələm azad olsa, borc vermək yolu bağlanar.”[9] İqtisadi işlərdə sələm toruna düşmək ehtimalı çox olduğundan hədisdə oxuyuruq: “Hər kəs alış-veriş hökmlərindən xəbərsiz halda ticarətə başlasa, sələmə düşər.”[10]

**Sələmin təsirləri:**

◘Xeyirli bir iş görməmiş, istehsalda iştirak etməmiş artıq pul almaq düşmənçilik və daş ürəklilik yaranmasına səbəb olan zülm növüdür. Sələm ödəyən kəs artan borcların hesabından bəzən iflasa uğrayır və növbənöv alçaqlıqları qəbul etməyə məcbur olur.[11]

Bütün bu viranedici əsərlər nəzərə alınmaqla təkcə İslam şəriətində yox, əksər səmavi dinlərdə sələm haram buyurulmuşdur. Amma bəziləri müxtəlif bəhanələrlə sələmə don geydirmək istəyirlər. İşlərə şəri don geydirmək oyundan başqa bir şey deyil və Quran bu sayaq oyunları tənqid edir. Əvvəlki ayələrdə yəhudilərin şənbə günü balıq tutmaq üçün qurduğu hiylə haqqında danışıldı.

Müxtəlif cəmiyyətlərdə sələm iqtisadi sistemlərdə qəbul olunsa da, o öz dağıdıcı təsirlərini göstərir. Qərb iqtisadiyyatı sələm vasitəsi ilə yox, elm və sənət vasitəsi ilə tərəqqi etmişdir.

## *Bildirişlər*

1. Sələmçilər ruhi tarazlıqdan məhrumdurlar. Onlar cəmiyyətdə də bu tarazlığı pozurlar.

2. Onların halal alış-verişi haram sələmə oxşatması düşüncələrdəki qeyri-tarazlığın nişanəsidir.

---

[1] “Təfsiri-Əl-Mizan”.
[2] “Vəsail”, c.12, s. 429.
[3] “Kafi”, c. 5, s. 147.
[4] “Kənzul-Ümmal”, c. 4, s. 104.
[5] “Vəsail”, c. 12, s. 430.
[6] “Təfsiri-Dürrül-Mənsur”,c.2, s. 102.
[7] “Vəsail”, c. 12, s. 423.
[8] “Vəsail”, c. 12, s. 424; “Bihar”, c. 103, s.119.
[9] “Əl-həyat”, c. 4, s. 334.
[10] “Nəhcül-bəlağə”, c. 447.
[11] “Təfsir-Məraği”.

3. Şeytan insanın batininə hakim kəsilə bilir.
4. Günaha don geydirmək ona yol açır.
5. Vəzifə bəyan edilməyincə məsuliyyət yoxdur.
6. İlahi hökmlər xalqın öyüd-nəsihəti və tərbiyəsi üçündür.
7. Bugünkü qanun keçmişdəki insanlara tətbiq olunmur.
8. Bilməyərəkdən səhvə yol verənlərin günahı bağışlanır. Agah şəkildə, məqsədli günah edənlər isə heç vaxt!

276. ﴿يَمْحَقُ اللّهُ الْرِّبَا وَيُرْبِي الصَّدَقَاتِ وَاللّهُ لاَ يُحِبُّ كُلَّ كَفَّارٍ أَثِيمٍ﴾

**“Allah sələmi puç edir, amma sədəqəni artırır. Allah heç bir naşükürü və günahkar kafiri xoşlamır.”**

## *Nöqtələr*

◘“Məhq” sözü tədrici nöqsan mənasını bildirir. “Məhaq” isə ayın son gecələrində nurunu itirdiyindən görünməyən aya deyilir. “Riba” isə tədrici inkişaf mənasındadır.

Bu ayədə xatırladılır ki, sələmçi sərvət toplamaq məqsədi ilə başqalarından sələm alsa da, Allah həmin malın bərəkətini və yaxşılıqlarını aradan götürür. Sələm mal məhv olmasa da, sərvətin artması ilə həyata keçməsi nəzərdə tutulan məqsədlər puça çıxır. Sələm dünyasında səadət, məhəbbət və əmin-amanlıq yoxdur. Bir çox varlılar öz sərvətindən rahatlıq, aramlıq və məhbubiyyət əldə edə bilmir. Amma infaq, sədəqə, qərzül-həsənə işlək olan cəmiyyətdə bir çox bərəkətlər olur. Bu cəmiyyətdə fəqirlər məyus olmur, varlılar öz var-dövləti ilə öyünmür. Məhrumlar intiqam və oğurluq fikrinə düşmür, varlılar öz malını qorumaqda çətinlik çəkmir. Cəmiyyətdə ülfət, mərhəmət, anlaşma, əmin-amanlıqla müşayiət olunan tarazlıq hökm sürür. Fəxr Razinin “Təfsiri-Kəbiri”ndə nəql olunmuşdur: Sələmçi özündə insani hissləri və ədaləti öldürdüyü vaxt fəqirlərin nifrininə tuş gəlir. Kin, intiqam, oğurluq daim onu hədələyir. Ayədə həmin fəlakətlərdən bir nümunə bəyan olunmuşdur.

## *Bildirişlər*

1. Sərvətin zahiri şirinliyi sizi heyran qoymasın. Riba əsasında qurulmuş iqtisadi nizam məhvə gedir.
2. Sələmlə əldə olunan malın puça çıxması Allahın qanunlarındandır.
3. Sədəqə və zəkatın genişlənməsi iqtisadiyyatın inkişaf və möhkəmlənməsi səbəbidir.
4. Sələmçi ilahi mərhəmət və məhəbbətdən məhrumdur.
5. Sələmçi çox nankor və günahkardır. O, sələm almaqla özünü xalqa zamin edir, həyatını harama bulaşdırır, ibadətini batil edir, hərislik və tamah ürəyidaşlığı ona hakim kəsir.

277. ﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Həqiqətən, iman gətirib yaxşı iş görənlər, namaz qılıb zəkat ödəyənlərin mükafatı Allahın yanındadır. Onlar üçün nə qorxu var, nə də qəmgin olarlar.”**

## *Nöqtələr*

◘Bu ayədə sələmçilərlə yanaşı, möminlərin də simasını təsvir edir. Möminlər saleh işlər görür, namaz qılır, zəkat ödəyirlər. Ayədə işarə olunur ki, cəmiyyətdən sələm köklərini qırmaq üçün imana, saleh əmələ diqqət, namaz və zəkatın bərpası bir zəminədir.

**◘İnsanlar dörd dəstədir:**

1. İman gətirib saleh iş görməyən fasiqlər;
2. İman gətirməmiş və saleh işdən uzaq olan kafirlər;
3. İman gətirdiyi halda saleh iş görməyən fasiqlər;
4. İman gətirmədikləri halda imanlı olduqlarını bildirən və zahirdə yaxşı işlər görən münafiqlər.

◘Sələmçilər Allahdan və xalqdan kənar düşdükləri halda, onlarla qarşı-qarşıya, iman gətirib saleh iş görən, namaz vasitəsi ilə Allahla əlaqə saxlayan, zəkat ödəməklə xalqa bağlanan möminlər dayanır.

## *Bildirişlər*

1. İslam ibadi və fərdi məsələlərlə yanaşı iqtisadi və ictimai məsələlərə də diqqət yetirir. Namaz və zəkat yanaşı bəyan olunmuşdur.
2. Saleh əməldən sonra namaz və zəkatın zikr olunması göstərir ki, bəyənilmiş işlər arasında bu iki işin hesabı ayrıdır.
3. Bəd əməl sahiblərinin hədələnməsinin ardınca saleh əməl sahiblərinin təşviq olunması bir tərbiyə üsuludur.
4. Agah o insandır ki, öz hesab-kitabında bu gün əlində olanı saymaqla kifayətlənməyib, Allahın yanında toplanan ehtiyatına da diqqət yetirsin.
5. Allahın saleh əməl sahibi olan, namaz qılıb zəkat ödəyən möminlərə xüsusi diqqəti var. “Rəbbihim” sözü Allahın xüsusi lütfünə işarədir.
6. İlahi vədlər saleh əməl üçün bir stimuldur.
7. Həqiqi əmniyyət və aramlıq iman, saleh əməl, Allah və xalqla bağlılıq sayəsində əldə olunur.
8. Aramlıq amili iman, saleh əməl, namaz və zəkatdır.

278. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَذَرُواْ مَا بَقِيَ مِنَ الرِّبَا إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Ey iman gətirənlər! İlahi təqva yolunu tutun. Sələmdən qalanı (borcları) boşlayın. Əgər iman gətirmisinizsə!”**

## *Nöqtələr*

◘Əvvəlki ayələrdə sələmin fəsadlarına işarə olundu. Sələm hər bir fərdi və cəmiyyəti tarazlıqdan çıxarıb, pərişan edir. Aydın oldu ki, əslində sələm artım yox, əskilmədir. Bu məqamda sələm aşkar şəkildə qadağan edilir.

◘“Məcməul-bəyan”, “Əl-Mizan”, “Məraği” təfsirlərində nəql olunmuşdur ki, sələmin qadağan ayəsi nazil olduqda Xalid ibn Vəlid, Abbas, Osman kimi səhabələr və sələmdən alacağı olan xalq Peyğəmbərdən (s) vəzifələrini soruşdular. Yuxarıda zikr olunan ayə nazil edildi. Ayə nazil olduqdan sonra Həzrət buyurdu: “Əmim Abbasın da sələm borcu tələb etmək haqqı yoxdur. Hamıdan qabaq mənim yaxınlarım sələmdən əl çəkməlidir.” Bir xütbədə isə Həzrət belə buyurur: “Cahiliyyət dövründə müəyyən olunmuş bütün sələmləri ayaq altına atıram. Abbas üçün olan sələmləri isə hamınınkından çox!”[1]

## *Bildirişlər*

1. Sələmçilik cahiliyyət dövrünün adətlərindəndir. İlkin İslam dövründəki müsəlmanlar da bu işə qatılmışdılar.
2. Təqva imandan üstün bir mərhələdir.

[1] “Təfsiri-fi-Zilalil-Qur’an”.

3. Sələmçi əldə etdiyinin sahibi olmur. İslam sələmdən gələn faydanı rəsmi şəkildə tanımamışdır.

4. Haram maldan əl çəkmək iman və təqvanın şərtidir.

279. ﴾فَإِن لَّمْ تَفْعَلُواْ فَأْذَنُواْ بِحَرْبٍ مِّنَ اللّهِ وَرَسُولِهِ وَإِن تُبْتُمْ فَلَكُمْ رُؤُوسُ أَمْوَالِكُمْ لاَ تَظْلِمُونَ وَلاَ تُظْلَمُونَ﴿

**“Əgər belə etməsəniz, (bilin ki,) Allah və Onun rəsuluna savaş elan etmisiniz. Əgər tövbə qılsanız, sərmayəniz özünüzündür. (Bu halda) nə zülm edirsiniz, nə də sizə zülm olunur.”**

## *Nöqtələr*

◘İslamda nə sələmə, nə istismara icazə verilir, nə də xalqın malı birtərəfli müsadirə olunur. Bəzi quruluşlarda mülkiyyət hüququ ləğv olunur və bütün var-dövlət sahibindən alınır. Bəzi quruluşlarda isə istismar, sələm istənilən bir şəkildə azaddır.

## *Bildirişlər*

1. Sələmçi Allahla savaşdadır. Sələmçi bilməlidir ki, bu savaşda “Cəbbar” Allahla üzbəüz dayanmışdır.
2. Sələmçilik kəbirə günahdır. Çünki bu əməl Allahla savaşın elanıdır.
3. Sələmçi elə düşünməsin ki, məhrum xalqın tərəfdarıdır. Əslində məhrumların himayəsinə qalxan Allahdır. Allah onların haqqını müdafiə edir.
4. Sələmçi Allahla savaşa qalxdığından İslam hökumətinin vəzifəsi sələmçiliklə mübarizə aparmaqdır.
5. Allahla savaşa qalxanlar üçün də tövbə yolu açıqdır.
6. Sələmçi öz sərmayəsinin sahibidir, əldə etdiyi qazancın yox!
7. Məhrumların qurtuluşu üçün xalqın mülkiyyət haqqını ayaq altına almayın. İslam iqtisadiyyatında xüsusi mülkiyyət qəbul olunmuşdur.
8. Həm zor hakimiyyət, həm də həmin hakimiyyətin qəbulu məhkum edilmişdir. Nə zülmə təslim olun, nə də başqalarına zülmü rəva görün.
9. İntiqam qadağandır. Tövbə etmiş sələmçiyə zülm etmək olmaz.
10. Tövbə edənlərə əvvəlki xilaf işlərinə görə zülm etmək olmaz. Nə vaxtsa xilaf iş görənləri məzəmmət etmək qadağandır.
11. İqtisadi ədalətin bərpası İslam hökumətinin vəzifələrindəndir.

280. ﴾وَإِن كَانَ ذُو عُسْرَةٍ فَنَظِرَةٌ إِلَى مَيْسَرَةٍ وَأَن تَصَدَّقُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴿

**“Əgər (borclu) əliboş olsa, ona imkanı olanadək möhlət verin. (Həqiqətən ödəməyə imkanı çatmadıqda) bağışlasanız, sizin üçün daha yaxşıdır. Əgər (bunun nəticəsini) bilsəydiniz!”**

## *Nöqtələr*

◘Bu ayədə borcluya möhlət vermək tapşırılsa da, borclu şəxs bu tapşırıqdan sui-istifadə etməməlidir. Çünki üzürsüz səbəbdən borcunu ödəməyən kəs günahkardır. Hədisdə nəql olunmuşdur: “Üzrü olmadan borcunu ödəməyənlər üçün oğurluq günahı yazılar. Möhlət

verənlər üçün isə şəhidlərin mükafatı qeyd olunar. Borcluya verilən möhlətin hər günü üçün həmin məbləğdə sədəqənin mükafatı qeyd olunar.”[1]

◘İmkanı çatmayan borclunu bağışlamaq sizin üçün daha yaxşıdır. Çünki:

a) Bəlkə də sabah sizin özünüz üçün də belə bir vəziyyət yaransın.

b) Mal nə vaxtsa unudulur, amma imkanı olmayana bağışlamaq heç vaxt unudulmur.

v) İmkansızın və Allahın razılığını qazanmaq adi qazancdan qat-qat üstündür.

◘Fiqhi hökmlərdə deyilir: Üzürlü borclunu həbs etmək qadağandır. Borclu şəxsin həqiqətən borcu ödəmək imkanı yoxdursa, onun borcunun ödənməsi İslam hökumətinin vəzifəsidir.

## *Bildirişlər*

1. İslam zəifliyə düçar olmuşların himayədarıdır.
2. Təkcə sələm almamaqla kifayətlənməyin. Sərmayəni də geri alarkən müdara edin.
3. Borcun ödənməsi üçün vaxt təyini borclunun gücünə uyğun olmalıdır.
4. İmkanı çatan borclunu borcunu ödəməyə məcbur etmək olar.
5. Fəqirə onun borcunu bağışlamaq sədəqədir.
6. İslamın hüquqi və iqtisadi nizamı onun əxlaqi nizamı ilə bağlıdır. Borcu geri almaq haqq olsa da, möhlət vermək və bağışlamaq tövsiyə olunur.
7. İnsanın darlığı və dünya malına məhəbbəti ona imkan vermir ki, dəyərlərin və kamilliklərin mahiyyətini dərk etsin.

281. ﴿وَاتَّقُواْ يَوْمًا تُرْجَعُونَ فِيهِ إِلَى اللّهِ ثُمَّ تُوَفَّى كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ وَهُمْ لاَ يُظْلَمُونَ﴾

**“Allahın hüzuruna qaytarılacağınız, sonra hər kəsin qazandığının əvəzi artırılıb-əskildilmədən veriləcək və onlara zülm olunmayacaq gündən qorxun.”**

## *Nöqtələr*

◘Bu ayə sələm ayələrinin yekunu və ümumi xəbərdarlıq kimi nazil olmuşdur. “Kəşşaf”, “Əl-Mizan”, “Məcməul-bəyan”, “Kəbire-Fəxr-Razi”, “Bürhan” təfsirlərində qeyd olunmuşdur ki, bu ayə həzrət Peyğəmbərə (s) nazil olmuş son ayədir. Ayə o həzrətin öz göstərişi ilə bu surədə yerləşdirilmişdir.

## *Bildirişlər*

1. Qiyamət mühüm bir gündür. “Yovmən” sözündəki qeyri-müəyyənlik bildirən“tənvin” həmin günün əzəmətini bildirir.
2. Sələm almaq və dünya həyatı qurmaq sadə və ötəridir. Əbədi və davamlı olan isə qiyamətdir.
3. Təqva və qiyamətin zikri sələmdən və digər haramlardan uzaq qalmaq üçün ən güclü amildir.
4. İslamın iqtisadi nizamının zəmanətçisi xalqın iman və təqvasıdır.
5. Bu dünyanın müamilələrində artırıb-əskiltmə imkanı var. Allahla müamilədə isə heç bir kəm-kəsir yoxdur.

---

[1] “Təfsiri-Bürhan”.

6. Cəza və mükafat meyarı arzu yox, əməldir.

7. İnfaqınızdan və sələmlərinizin qazancını tərk etməkdən nigaran olmayın. Sizin yaxşı əməllərinizdən zərrəcə azalmaz.

282. ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا تَدَايَنتُم بِدَيْنٍ إِلَى أَجَلٍ مُّسَمًّى فَاكْتُبُوهُ وَلْيَكْتُب بَّيْنَكُمْ كَاتِبٌ بِالْعَدْلِ وَلاَ
يَأْبَ كَاتِبٌ أَنْ يَكْتُبَ كَمَا عَلَّمَهُ اللّهُ فَلْيَكْتُبْ وَلْيُمْلِلِ الَّذِي عَلَيْهِ الْحَقُّ وَلْيَتَّقِ اللّهَ رَبَّهُ وَلاَ يَبْخَسْ مِنْهُ شَيْئًا
فَإن كَانَ الَّذِي عَلَيْهِ الْحَقُّ سَفِيهًا أَوْ ضَعِيفًا أَوْ لاَ يَسْتَطِيعُ أَن يُمِلَّ هُوَ فَلْيُمْلِلْ وَلِيُّهُ بِالْعَدْلِ وَاسْتَشْهِدُواْ
شَهِيدَيْنِ من رِّجَالِكُمْ فَإِن لَّمْ يَكُونَا رَجُلَيْنِ فَرَجُلٌ وَامْرَأَتَانِ مِمَّن تَرْضَوْنَ مِنَ الشُّهَدَاء أَن تَضِلَّ إْحْدَاهُمَا
فَتُذَكِّرَ إِحْدَاهُمَا الأُخْرَى وَلاَ يَأْبَ الشُّهَدَاء إِذَا مَا دُعُواْ وَلاَ تَسْأَمُوْاْ أَن تَكْتُبُوْهُ صَغِيرًا أَو كَبِيرًا إِلَى أَجَلِهِ
ذَلِكُمْ أَقْسَطُ عِندَ اللّهِ وَأَقْومُ لِلشَّهَادَةِ وَأَدْنَى أَلاَّ تَرْتَابُواْ إِلاَّ أَن تَكُونَ تِجَارَةً حَاضِرَةً تُدِيرُونَهَا بَيْنَكُمْ فَلَيْسَ
عَلَيْكُمْ جُنَاحٌ أَلاَّ تَكْتُبُوهَا وَأَشْهِدُوْاْ إِذَا تَبَايَعْتُمْ وَلاَ يُضَآرَّ كَاتِبٌ وَلاَ شَهِيدٌ وَإِن تَفْعَلُواْ فَإِنَّهُ فُسُوقٌ بِكُمْ وَاتَّقُواْ
اللّهَ وَيُعَلِّمُكُمُ اللّهُ وَاللّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Ey iman gətirənlər! Bir-birinizə müddətli borclar verdiyiniz vaxt onu yazın. Aranızdakı katib bunu ədalətlə yazmalıdır. Yazmağı bacaran şəxs yazmaqdan imtina etməməlidir. Necə ki, Allah ona təlim etmişdir. O yazmalıdır, borclu da haqqı olan kəs imla etsin. Rəbbi olan Allahdan çəkinsin və bir şeyi əskiltməsin. Boynunda haqq olan səfeh və ya zəifdirsə, və ya imla etmək qabiliyyəti yoxdursa, onun böyüyü ədalətə riayət etməklə imla etsin. Kişilərdən iki nəfərini şahid tutsun. Əgər iki kişi olmasa, razı və arxayın olduğunuz bir kişi və bir qadın şahidliyə bəsdir. Onlardan biri unutsa, digəri ona xatırlatsın. Şahidlər dəvət olunduqları zaman imtina etməməlidirlər. Kiçik və ya böyük müddətə veriləni yazmaqda süstlük etməyin. Bu iş Allahın yanında ədalətə daha yaxındır, şahidliyin ədası üçün daha möhkəmdir, şəkk-şübhənin qarşısını almaqda daha üstündür. Yalnız aranızda əldən-ələ etdiyiniz nağd alış-veriş üçün eybi yoxdur. Alış-veriş zamanı şahid tutun. Katib və şahidə ziyan dəyməməlidir. Əgər belə etsəniz, Allahın hökmündən xaric olmusunuz. Allahdan çəkinin, Allah sizə təlim edər və Allah hər şeyi biləndir.”**

## *Nöqtələr*

◘Bu ayə Quranın həcmcə ən böyük ayəsidir. Ayənin mövzusunu hüquqi məsələlər və ticari sənədlərin tənzim qaydaları təşkil edir. Ayə İslamın diqqət və əhatəliliyini göstərir. Bu ayədə cahiliyyət dövründə, geri qalmış xalq arasında ən incə hüquqi məsələlər bəyan olunur.

◘“Tədayəntum” sözü “dəyn” sözündən olub “borc” mənasını daşıyır. Bu söz qeyri-nağd bütün müamilələrə, borc və “sələf” alış-verişə şamil olunur.

◘Hədisdə bildirilir: Əgər bir şəxs müamilə zamanı sənəd tərtib edib şahid tutmasa və malını tələf olmaq təhlükəsində qoysa, nə qədər dua etsə, Allah onun duasını qəbul etməz və buyurar: “Nə üçün Mənim göstərişlərimə əməl etmədin?!”[1]

◘Əgər fərdi haqların qorunması zəruridirsə, beytül-malın (dini büdcənin) hifzi daha zəruridir.

◘Hətta nağd alver zamanı da sənəd tənzim etmək faydalıdır. Amma nağd alverdə sənəd tərtibi nisyə alverdə olduğu kimi zəruri deyil. Çünki nisyə alverdə tərəflərdən biri və ya şahid dünyasını dəyişə bilər, ya da müamilə razılığını unudar. Bu səbəbdən də nisyə müamilə sənədləşməlidir.

[1] “Kənzul-dəqaiq”, c. 2, s. 465.

◘Yazmaq əmrindən məlum olur ki, adil şahidin iştirakı ilə tənzimlənmiş sənəd şahid gətirə bilər.

◘Ayədən məlum olur ki, İslam cəmiyyəti bir-birinin haqlarının müdafiəsində himayə göstərməlidir. Çünki hər bir müamilədə katibə və bir neçə şahidə ehtiyac var.

◘Bütün ərəbistan yarımadasında cəmi on yeddi savadlı şəxsin olduğu bir dövrdə yazmaq məsələsinə bu qədər diqqət İslamın elm və hüquqların qorunmasına verdiyi əhəmiyyəti göstərir.

## *Bildirişlər*

1. İman hökmlərə əməl zəminəsi və müqəddiməsi, "ya əyyuhəlləzinə amənu" xitabı hökmlərə əməl üçün təşviqdir.
2. Borc müddəti aydın olmalıdır.
3. Etimadın hifzi, qarşılıqlı etimad, ruhi rahatlıq, unutqanlığın mənfi nəticələrindən qaçmaq, sui-zənni və inkarı aradan qaldırmaq üçün borclar yazılmalıdır.
4. Tərəflərin müqaviləyə müdaxiləsinin qarşısını almaq üçün hər iki tərəfin iştirakı ilə və üçüncü şəxs tərəfindən müqavilə yazılmalıdır.
5. Müqaviləni yazan katib haqqı əsas götürməli və həqiqəti yazmalıdır. Katib seçilərkən yazıda ədalət əsas götürülməlidir.
6. Allahın bizə verdiyi elmə şükür olaraq biliyimizi işə salaq.
7. Hər peşə sahibinin xüsusi məsuliyyəti var. Qələmi olan kəs xalq üçün yazmalıdır.
8. Boynunda haqq olan borclu mətni deməli, katib isə yazmalıdır. Borc sahibinin dediyi katib üçün əsas deyil.
9. İnsanın öz əleyhinə etirafı məqbuldur.
10. Borclu şəxs sənədi yazdırarkən Allahı nəzərdə tutmalıdır. O, borcu əskiltməməli və borcun bütün xüsusiyyətlərini sadalamalıdır.
11. Qanun elə bir şəkildə tənzimlənməlidir ki, zəiflərin haqqı tapdalanmasın. Əgər borclu səfeh, zəif, lal və ya kardırsa, onun böyüyü, himayətçisi sənədin mətnini deməli və katib yazmalıdır.
12. Səfehlər və zəiflərin ictimai münasibətlərin tənzimində böyüyə, himayətçiyə ehtiyacı var.
13. Məhrum təbəqənin və zəif zümrənin haqlarına diqqət məsulların və himayətçilərin vəzifəsidir. Borc müqaviləsi bu işin zəruriliyini göstərir.
14. Kişilər şahid olmaqda və şəhadət verməkdə qadınlardan öndə gəlir.
15. Şahid ədalətli, etibarlı və tərəflərin razı olduğu şəxs olmalıdır.
16. Kişilərdən hər biri təklikdə şahid ola bilər. Əgər şahid bir kişi və iki qadındırsa, həmin iki qadın birlikdə şəhadət versin. Onlardan biri çaşıb səhvə yol versə, ikincisi onu xatırlatsın.

Şahidlikdə bir kişinin əvəzinə iki qadının müəyyənləşdirilməsi qadınların zərif və mərhəmətli ruhiyyəsi səbəbindəndir. Digər bir səbəb isə, qadınların alış-veriş məsələlərində az iştirak etmələridir. Qadınlar kişilərlə müqayisədə müamilə məsələlərindən bir o qədər də xəbərdar deyillər.

17. Əgər sizi şahid göstərmək istəyirlərsə, imtina etməyin. Dəvət edilməmiş şahid durmaq vacib deyil.
18. Müqavilədə hansı məbləğdən söhbət getməsi mühüm deyil. Əsas məsələ əminliyin və xalqın haqqının hifzidir.
19. Dəqiq və ədalətli şəkildə sənəd tərtibinin üç faydası var: Bu sənəd ədalətin icrasında zamindir; sənəd şahidləri şəhadət verməyə cürətləndirir; bu sənəd cəmiyyətdəki bədbinliyi aradan qaldırmağa kömək edir.
20. Əgər dini hökmlərin faydası və sirri xalqa açıqlansa, onların qəbulu asanlaşar.
21. Bu gün müqavilə yazmaq üçün bir qədər yubanmaq gələcəkdə fitnə və ixtilafla üzləşməkdən yaxşıdır.

22. Nağd müamilələrdə yazmaq vacib deyil.

23. Nağd müamilələrdə yazmaq zəruri olmasa da, şahid tutulması yaxşıdır.

24. Katib və şahid amandadır. Onlar yazdığı və şahidlik etdiyi üçün tərəflərin əziyyətinə məruz qalmamalıdır.

25. Haqqa şəhadət verilməsi və haqqın yazılması xeyli vaxt apararsa və zəhmət bahasına başa gələrsə, şahid və katibə maddi təminat verilməlidir. Əks təqdirdə onlar hər ikisi zərər görəcək.

26. Katib və şahid bir tərəfin xeyirini nəzərə alıb sənəd tənzim edə bilməz.

27. Sənəddə istənilən bir nöqsan ona yol verən üçün günahdır.

28. Katib və şahid xalqın hüquqlarının keşikçisidirlər. Qoyulmuş hədləri pozmaq günah xəttini keçməkdir.

29. Pak və təqvalı qəlb ayna kimi elm və həqiqətləri əks etdirir.

30. Allah sizin bütün maddi və mənəvi ehtiyaclarınızı bilir. Bu ehtiyaclar əsasında hökmlər və qanunlar bəyan olunur. Qanun verən kəs dərin məlumata malik olmalıdır.

283. ﴿وَإِن كُنتُمْ عَلَى سَفَرٍ وَلَمْ تَجِدُواْ كَاتِبًا فَرِهَانٌ مَّقْبُوضَةٌ فَإِنْ أَمِنَ بَعْضُكُم بَعْضًا فَلْيُؤَدِّ الَّذِي اؤْتُمِنَ
أَمَانَتَهُ وَلْيَتَّقِ اللّهَ رَبَّهُ وَلاَ تَكْتُمُواْ الشَّهَادَةَ وَمَن يَكْتُمْهَا فَإِنَّهُ آثِمٌ قَلْبُهُ وَاللّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ﴾

**“Əgər səfərdə olsanız və katib tapmasanız, vəsiqə girov alın. Əgər bir-birinizə əminsinizsə (vəsiqə lazım deyil.) Əmin sayılan kəs əmanəti qaytarsın və Rəbbi olan Allahdan çəkinsin. Şəhadəti gizlətməyin. Hər kəs şəhadəti gizlətsə, şübhəsiz ki, qəlbi günahkardır. Allah etdiyiniz işləri biləndir.”**

## *Nöqtələr*

◘Əgər borc sənədi hazırlamaq üçün katib tapılmazsa, borcludan girov və ya vəsiqə almaq olar. Bunun üçün səfərdə olub-olmamağın fərqi yoxdur. Ayədəki ifadə tərzi göstərir ki, adətən, insan səfərdə olarkən çətinliklərlə rastlaşır. “Ölüm sorağınıza gəldiyi vaxt vəsiyyət edin” ifadəsini xatırlayın. Təbii ki, vəsiyyət ölüm məqamına xas deyil. Amma ölüm qabağı vaxt vəsiyyət üçün son fürsətdir.

## *Bildirişlər*

1. Ələ götürmək və ixtiyarda olmaq vəsiqənin şərtidir. İmam Baqir (ə) buyurmuşdur: “Qəbzsiz girov qoyulmur.”[1]

2. Tələb müqabilində vəsiqə alın.

3. Hökmlərdə fərdlərin yeri müxtəlifdir. Etibarlı şəxsə girovsuz, etibarsız şəxsə isə girovla verilir.

4. Müamilələr zamanı etibarların itməsinə yol verməyin. Girov götürməyin fəlsəfəsi arxayınlıqdır. Əgər girov qoyulmadan arxayınlıq yaranırsa, girov qoymaq zəruri olmur.

5. Xalqın haqlarından xəbərdar insanlar məzlumlar qarşısında məsuliyyət daşıyır.

6. Haqqı demək zəruri olan yerdə susmaq haramdır.

7. Daxili çaşqınlıq zahiri çaşqınlığa səbəb olur. Günahkar qəlb şahidliyin gizlədilməsi səbəbidir.

8. Allahın hər işdən xəbərdar olması iman, təqva və həqiqətlərin bəyan səbəbidir.

---

[1] “Təfsir”, c. 7, s.176.

284. ﴿لِّلَّهِ ما فِي السَّمَاواتِ وَمَا فِي الأَرْضِ وَإِن تُبْدُواْ مَا فِي أَنفُسِكُمْ أَوْ تُخْفُوهُ يُحَاسِبْكُم بِهِ اللّهُ فَيَغْفِرُ لِمَن يَشَاء وَيُعَذِّبُ مَن يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**"Göylərdə və yerdə olan hər şey yalnız Allahındır. Qəlbinizdə olanı aşkarlasanız da, gizlətsəniz də Allah onlara əsasən sizinlə hesab çəkər. İstədiyini bağışlayar və istədiyini cəzalandırar. Allah hər şeyə qadirdir."**

## *Nöqtələr*

◘Əllamə Təbatəbai "Əl-mizan" təfsirində buyurur: "İnsanın iki növ qəlb haləti var: Bəzən ixtiyarsız olaraq qəlbdən bir şey ötüşür. İnsan belə təsəvvürlərə görə günaha batmır. Çünki belə təsəvvürlər bizim ixtiyarımızda deyil. Amma insanın pis əməllərinə səbəb olan və ruhumuzun dərinliyində möhkəmlənmiş ruhi hallara görə cəza var.

◘Olsun ki, ayədə küfr, haqqın gizlədilməsi kimi qəlbə aid günahlar nəzərdə tutulmuşdur. İnsanı günaha aparan müqəddimə təsəvvürlər ayənin məqsədi olmaya da bilər.

◘İnsan öz ruhiyyəsinə, qəlb halına görə məsuldur. Bu məsələ Quranda dəfələrlə işarə olunmuşdur. O cümlədən:

- "Allah sizi qəlblərinizin kəsb etdiyinə görə cəzalandırar."[1]
-"Doğrudan da, gizlədənin qəlbi günahkardır."[2]
- "Həqiqətən, qulaq, göz və qəlb hər biri sorğuya çəkilər."[3]
- O kəslər ki, möminlər arasında pislik yaymaq istərlər, onları dünya və axirətdə şiddətli əzab gözləyir."[4]

◘Həzrət Əli (ə) buyurmuşdur: "Xalq öz düşüncə və niyyətlərinə görə cəzalandırılar."[5]

## *Bildirişlər*

1. Allah həm mütləq malikdir , həm də mütləq alimdir. , həm mütləq qadirdir
2. Kuzənin çölünə çıxan nəm onun içindəkindəndir. İnsanın əməlləri onun düşüncə tərzi və iç etiqadının göstəricisidir.
3. Tərbiyəçi xalqı ümid və qorxu arasında saxlamalıdır.

285. ﴿آمَنَ الرَّسُولُ بِمَا أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِ وَالْمُؤْمِنُونَ كُلٌّ آمَنَ بِاللّهِ وَمَلآئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ وَقَالُواْ سَمِعْنَا وَأَطَعْنَا غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ﴾

**"Peyğəmbər Allahı tərəfindən ona nazil edilənə iman gətirmişdir. Bütün möminlər Allaha, mələklərə, kitablara, Onun göndərdiklərinə imanlıdırlar (və deyirlər): biz Onun peyğəmbərlərindən heç birinə fərq qoymuruq, (hamısına imanlıyıq). Dedilər: Biz (haqqın nidasını) eşitdik və itaət etdik. Pərvərdigara! Sənin bağışlamağını (diləyirik) və qayıdışımız sənə doğrudur."**

## *Nöqtələr*

◘Bu ayədə üsulidin - tövhid, nübüvvət və məad - bəyan olunmuşdur. Sonrakı ayədə insanın ilahi vəzifələri yerinə yetirmək üçün hazırlığı, Allahdan rəhmət və bağışlanma istəyi bəyan

[1] "Bəqərə", 225.
[2] "Bəqərə", 283.
[3] "İsra", 36.
[4] "Nur", 19.
[5] "Nəhcül-bəlağə", x. 45.

olunur. Ona görə də hədisdə bildirilir ki, bu və sonrakı ayənin xüsusi dəyəri var və onların tilavəti xəzinə kimidir.

◘Peyğəmbərə ehtiram lazımdır. Allah rəsulunun hesabı başqalarından ayrıdır. Ona görə də bu ayədə əvvəlcə İslam peyğəmbərinin adı və ona iman, sonra isə möminlərin adı və əqidələri zikr olunur.

## *Bildirişlər*

1. Məktəb onun rəhbərinin simasında aydınlaşır.
2. Din təbliğatçıları öz dəvətlərinə inanmalıdırlar.
3. Səmavi kitabların nazil olmasında məqsəd insanların tərbiyəsidir.
4. Bütün peyğəmbərlər eyni məqsədə malik olduğundan onların hamısı üçün iman zəruridir. İlahi bağışlanma əldə etmək zəminəsi iman və əməldir.
5. İlahi bağışlanma əldə etmək zəminəsi iman və əməldir.
6. İman və əməllə yanaşı Allahın mərhəmətinə ümid də lazımdır. İlahi bağışlanma əldə etmək zəminəsi iman və əməldir.
7. Bəxşiş rübubiyyət şənindəndir və tərbiyə zəminəsidir. İlahi bağışlanma əldə etmək zəminəsi iman və əməldir.

286. ﴾لاَ يُكَلِّفُ اللّهُ نَفْسًا إِلاَّ وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ رَبَّنَا لاَ تُؤَاخِذْنَا إِن نَّسِينَا أَوْ أَخْطَأْنَا رَبَّنَا وَلاَ تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِن قَبْلِنَا رَبَّنَا وَلاَ تُحَمِّلْنَا مَا لاَ طَاقَةَ لَنَا بِهِ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَآ أَنتَ مَوْلاَنَا فَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ﴿

**“Allah hər kəsi yalnız gücü qədərində vəzifəli edir. Hər kəs gördüyü hər bir işi öz faydası üçün edir. Etdiyi pis işlər isə öz zərərinə kəsb edilmişdir. (Möminlər deyirlər:) Pərvərdigara! Əgər (vəzifələrimizi) yaddan çıxarıb xəta etdiksə, bizi cəzalandırma. Pərvərdigara! Bizim üçün ağır vəzifə qərar vermə. Necə ki, (günahlarına görə) bizdən qabaqkılar üçün (ağır vəzifə) qərar verdin. Pərvərdigara! Bizim üçün taqətimiz çatmayacaq cəzalar müəyyənləşdirmə. Bizi bağışla və Öz mərhəmətində qərar ver. Sən bizim mövlamızsan, bizi kafir qövmə qalib et.”**

## *Nöqtələr*

◘Bəzən unutqanlığın səbəbi insanın öz səhlənkarlığı olur. Belə olduqda insan cəzalandırılır. Necə ki, Allah-təala buyurur: Bizim ayələrimiz sənə gəldikdə, sən onları unutdun. Necə ki, bu

gün də unudulmuşlardan olmusan.”[1] Ona görə də bu ayədə xətakarlıqla yanaşı, unutqanlığın da bağışlanması istənilir. Tüğyan və fəsad səbəbindən əvvəlki ümmətlərə verilmiş cəzalar xatırlanmaqla bağışlanma rica olunur.

Bu ayədə insan Allahın bütün lütf mərhələlərini istəyir: Birinci mərhələ əfvdir və bu mərhələdə bütün günah və xətalarının əsərləri aradan götürülür. İkinci mərhələ bağışlanma və ruhun günah tozundan təmizlənməsi mərhələsidir. Üçüncü mərhələ Allahın mərhəmətindən bəhrələnmə və kafirlərə qaliblik mərhələsidir.

◘Bir neçə ayədə güc həddində vəzifələr təyini haqqında danışılır: Hazırkı ayə; “Həcc” 78; “Bəqərə”, 185. İslam peyğəmbəri buyurmuşdur: “Mən asan və yüngül dinlə məbus olmuşam.”[2]

## *Bildirişlər*

1. İlahi vəzifələr insanın gücündən yuxarı deyil.
2. Əməllərimizin bir vaxt özümüzə qayıdası əsərləri var.
3. İnsan azad və ixtiyar sahibidir.
4. İlahi göstərişlərin yerinə yetirilməsi və ya tərk olunması insanın özü üçün xeyirli və ya zərərlidir.
5. Başdan-ayağa ədalətli və müttəqi olanlar da öz xəta və nöqsanlarına görə narahatdırlar və dua edirlər.
6. Keçmişdəkilərin tarixinə və onların başına gələn acı hadisələrə nəzər salın ki, ibrət dərsi götürəsiniz və Allaha pənah aparasınız.
7. Əvvəlcə insanın öz zəifliyini etiraf etməsi dua qaydalarındandır. Sonra Allahın əzəmətinə şəhadət verilir, daha sonra insan öz istəyini bəyan edir.
8. İslamın küfrə qələbəsi möminlərin daimi istəyidir.

[1] “Taha”, 126.
[2] “Bihar”, c. 22, s. 263.

Mündəricat

RƏHMAN VƏ RƏHİM ALLAHİN ADİ İLƏ 4
HƏMD OLSUN ALƏMLƏRİN RƏBBİNƏ! ALLAHIN SALAMI OLSUN AĞAMIZ MƏHƏMMƏD (S) VƏ ONUN MƏSUM ƏHLİ-BEYTİNƏ! 4
ÖN SÖZ 4
HƏMKARLAR 4
İMTİYAZLAR 5
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ 6
MÜƏLLİFDƏN 8
“HƏMD” SURƏSİ 9
(AYƏLƏRİN SAYI 7) 9
BİRİNCİ CÜZ 9
“HƏMD” SURƏSİNİN SİMASI 9

---

[i] “Кафи”, ч. 2, с. 18.